AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M.FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 3

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2013

Jurnalın təsisçiləri: Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu və «Elm və təhsil» nəşriyyatı

REDAKSİYA HEYƏTİ: akademik Ağamusa Axundov, akademik Vasim Məmmədəliyev, akademik İsa Həbibbəyli, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Tofiq Hacıyev, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Nizami Cəfərov, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Teymur Kərimli, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Əbülfəz Quliyev, f.e.d., prof. Fəxrəddin Veysəlov, f.e.d., prof. Vilayət Əliyev, f.e.d., prof. Qəzənfər Kazımov, f.e.d., prof. Rüfət Rüstəmov, f.e.d., prof. Məsud Mahmudov, f.e.d., prof. Mübariz Yusifov, f.e.d., prof. Qəzənfər Paşayev, f.e.d., prof. Əbülfəz Rəcəbli, f.e.d., prof. Nizami Xudiyev, f.e.d., prof. Cəlil Nağıyev, f.e.d., prof. Nadir Məmmədli, fil.ü.e.d. Paşa Kərimov, f.e.d. Kamilə Vəliyeva, f.e.d. prof. Azadə Musayeva, f.e.d. Möhsün Nağısoylu, fil.ü.f.d. Nəzakət Məmmədli, fil.ü.f.d. Elxan Yusifov

Buraxılışa məsul: filologiya üzrə elmlər doktoru Paşa Kərimov
Rəyçi: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2013, №3.

ISSN 2224-9257

© "Elm və təhsil" nəşriyyatı, 2013

www.filologiyameseleleri.com

DİLÇİLİK

Dos. Ə.M RÜSTƏMOV
Sumqayıt Dövlət Universiteti

ZƏNGƏZUR ƏRAZİSİNİN FİTONİMİK ORONİM VƏ OYKONİMLƏRİ

Açar sözlər: fitonimlər, fitotoponimlər, flora, toponim.
Key words: phytonyms, phytotoponyms, phlora, toponyms.
Ключевые слова: фитонимы, фитотопонимы, флора, топоним.

Azərbaycan ərazisinin təbiətinin son dərəcə rəngarəng olması bu ərazinin toponimiyasını da çeşidli və rəngarəng olmasını şərtləndirir. Yer kürəsinin əksər bitki örtüyünə Azərbaycanda, eləcə də Zəngəzur bölgəsində təsadüf olunur. Zəngəzurun toponimlə sistemində bir sıra yaşayış məntəqələri var ki, onlar bilavasitə k cümlədən də tədqiq olunan ərazinin bitki və ağac örtüyünün çox və zəngin olması fitotoponimlərin də rəngarəng olmasını şərtləndirmişdir.

Zəngəzurun toponimiyasında fitonimlər – bitki örtüyünün əks etdirən adlar bölgənin ümumən fitonimlərini əks etdirir. Belə ki, hər mikrobölgənin də (dağ, aran, quzey, güney) özünəməxsus fitonimləri mövcuddur və təbii ki, toponimiyada əks olunmaqdadır.

Aborigen əhalisi əsasən türklərdən ibarət olan Zəngəzur ərazisinin florası onun toponimlərinə tam uyğun gəlir. Fitonimik toponimlərin də dil mənsubiyyəti tarixən türk sözlərindən ibarətdir.

Zəngəzur ərazisinin indi ermənilərdə qalan (işğal olunan) Kafan, Gorus, Sisyan və Meğri formalaşmışdır. 1988-ci ilə qədər kənd qalmaqda idi.

Armudlu kəndi və çayı **-** Kafan kəndi ərazisindədir. Fitooykonim və fitohidronim kimi qeyd olunub. Baldırğanlı dağının ətrafında yerləşmişdir.

Giləmeşə - Qafan rayonu ərazisindədir. Ölü kənddir. Ermənilər tərəfindən dağıdılmışdır.

Görünür, bu ərazidə giləmeyvə tipində olan meşəlik olmuşdur. Yeri gəlmişkən, qeyd edək ki, Gorus rayonu ərazisində *Qaragilələk* adlanan fitooronim də var. Bütün ağaclar yalnız qaragilə tipli (mənşəli) ağaclardan ibarətdir.

Əzgilli – Qafan rayonunda bir kənd adıdır. Oxçu çayının sahilində yerləşir. Ola bilsin ki, Əskil//Əzgil adlı türk mənşəli tayfanın adı ilə bağlı olsun.

Baldırğanlı Qafan rayonu ərazisindədir. Bu ərazidə yaşayış məskənlərinin qalıqları var, fitooykonimdir. Baldırğan dağlıq ərazidə, sulu yerdə bitən müalicəvi əhəmiyyətli bitkidir. Relyefə uyğun bitən bitkinin adı fitotoponimdə əks olunmuşdur.

Almalıq – bu tipli fitotoponim bölgənin ərazisində areal xarakterlidir. Oykonim olmuş, 1918-ci ilin erməni soyqırımının qurbanı olmuşdur. Sisyan rayonu ərazisində də *Almalıq* fitooykonimi qeyd olunmuşdur.

Gorus rayonu ərazisində böyük bir ərazisinin Şurnuxlu kəndinə aid olan bir ərazidir. Mərcimək əkildiyindən bu yer Mərcimək yurdu adlanmışdır.

Şamsız – kənd adıdır. Gorus rayonu ərazisindədir. Bizə belə gəlir ki, *"şam"* bitkisinin adı ilə bağlıdır. Bu ərazidə şam ağacı yoxdur.

Meğri rayonu üzrə.

Gül – Azərbaycan kəndi olmuş, sonradan ərazinin adı *Almalıq* adlanır (Şurnuxu kəndi yaxınlığında). Almalıq düzəltmə quruluşlu sözdür. Alma+lıq ünsürlərindən ibarətdir.

Gorus rayonu üzrə. fitohidronim kimi qeyd olunub. Baldırğanlı dağının ətrafında yerləşmişdir.

Giləmeşə - Qafan rayonu ərazisindədir. Ölü kənddir. Ermənilər tərəfindən dağıdılmışdır.

Görünür, bu ərazidə giləmeyvə tipində olan meşəlik olmuşdur. Yeri gəlmişkən, qeyd edək ki, Gorus rayonu ərazisində *Qaragilələk* adlanan fitooronim də var. Bütün ağaclar yalnız qaragilə tipli (mənşəli) ağaclardan ibarətdir.

Əzgilli – Qafan rayonunda bir kənd adıdır. Oxçu çayının sahilində yerləşir. Ola bilsin ki, Əskil//Əzgil adlı türk mənşəli tayfanın adı ilə bağlı olsun.

Baldırğanlı Qafan rayonu arasında fonetik və semantik əlaqə mövcuddur.

Çimən//Çəmən – Zəngəzur bölgəsinin toponimiyasında tərkibində çimən//çəmən nomenli coğrafi obyektlər. Bu ərazidə yaşayış məskənlərinin qalıqları var, fitooykonimdir. Baldırğan dağlıq ərazidə, sulu yerdə bitən müalicəvi həmiyyətli bitkidir. Relyefə uyğun bitən bitkinin adı fitotoponimdə əks olunmuşdur.

Alçalı – Zəngəzurda kənd olmuşdur. Fitooykonimdir, 1918-ci il vandalizminin qurbanı olmuşdur. *Ağbulaq* kəndinin yaxınlığındadır. Düzəltmə sözdür: alca + lı ünsürlərindən ibarətdir.

Əzgillik – fitooronimdir. Gorus

Almalıq – bu tipli – fitooronimdir. Gorus rayonu ərazisinin Şurnuxlu kəndinə aid olan bir ərazidir. Mərcimək əkildiyindən bu yer Mərcimək yurdu adlanmışdır.

Şamsız – kənd adıdır. Gorus fitotoponim bölgənin ərazisində areal xarakterlidir. Oykonim olmuş, 1918-ci ilin erməni soyqırımının qurbanı olmuşdur. Sisyan rayonu ərazisində də *Almalıq* fitooykonimi qeyd olunmuşdur.

Gorus rayonu ərazisində böyük bir ərazinin adı *Almalıq* adlanır (Şurnuxu kəndi yaxınlığında). Almalıq düzəltmə quruluşlu sözdür. Alma+lıq ünsürlərindən ibarətdir.

Gorus rayonu üzrə. rayonu ərazisindədir. Ağvanlı kəndinin yaxınlığındadır. Böyük bir ərazinin bitkisi əzgildən ibarətdir.

Mərcimək yurdu rayonu *Bənövşəbust* adlanan kənd olmuş, 1918-ci ildə ermənilər tərəfindən dağıdılmışdır. Bu fitooykonimin birinci komponenti *bənövşə* adı ilə bağlıdır. *"Bust"* ünsürünün mənası fars dilində kiçik təpəcik deməkdir. Yəqin ki,

məkan anlamını bildirən *–lıq*[4] şəkilçisinin ifadə ərazisindədir. Bizə belə gəlir ki, *"şam"* bitkisinin adı ilə bağlıdır. Bu ərazidə şam ağacı yoxdur.

Meğri rayonu üzrə.

Gül – Azərbaycan kəndi olmuş, sonradan ermənilər tərəfindən dağıdılmışdır. Rəsmi sənədlərdə etdiyi mənanı bildirən bir ünsürdür. Bənövşə tənəsi bənövşəlik mənasındadır.

Bizə məlum olan fitocoğrafi adlarda Azərbaycan florasının – bitkilər örtüyünün xəritəsini çəkmək mümkündür.

Zəngəzurun ərazisinin coğrafi adları sırasında fitotoponimlərdən biri də *Pərinc* adlanan coğrafi obyektdir. Pərinc adlanan 2 bölgə var ki, bu da həmin bitkiyə önəm verilməsi ərazisində adı rus rəsmi sənədlərində qeyd olunan fitotoponimlərdən biri də *Arpalıq* adlanır. Bu Gorus rayonu Şurnuxu kəndi yaxınlığında böyük bir ərazisi olan əkin yerinin (arpa əkilən yerin) adıdır. Bu mikrotoponimlərin dil mənsubiyyətinə gəlincə, hər iki bitkinin adı türk mənşəlidir.

Arpalıq quruluşca düzəltmə söz olub, iki hissədən *-arpa* və *-lıq* şəkilçisindən ibarətdir.

Zəngəzurun Azərbaycan ərazisindəki (Qubadlı, Zəngilan və Laçın rayonları üzrə) fitooronimiyasını və fitooykonimlərini nəzərdən keçirdikdə aşağıdakı mənzərənin şahidi olarıq.

Qarağac – Respublikamızın ərazisindəki meşələrdə qarağac bitkisinin müxtəlif növünə rast gəlirik. Qarağac fitooykonim kimi Qubadlı rayonu ərazisindədir (Qarağac kəndi). Eyni zamanda Laçın rayonu ərazisində (Qarağacı çuxur), Qubadlı və Zəngilan ərazisində (Qarağac dərəsi), Qarağacla bağlı fitooronim var (çuxur, Zelinskinin tədqiq etdiyi siyahıda da rast gəlirik.

Gorus rayonu

Dağdağan –

Rayonu ərazisində), Armudlu düzü (Qubadlı rayonu ərazisinin Göyərabas, Seytaş, Əyin kəndi ərazisində).

Armudlu kəndi (Qubadlı rayonu ərazisində) qeydə alınmışdır.

Zoğal – bu o cümlədən Zəngəzur) ərazisində dağdağan bitkisinin adı ilə əlaqədar olaraq aşağıdakı oronimlərə rast gəldik. Dağdağan dərəsi (Qubadlı və Zəngilan rayonları ərazisində) bu bitkilərin adı ilə bağlı fitooronimlər də geniş yayılmışdır. Zoğal dərə (Qubadlı, Laçın və Zəngilan rayonları) adı ilə bağlı zoğal bitkisinin adını əks etdirir. Azərbaycan (ərazidədir.

Palıd ağacının adını əks etdirən coğrafi obyekt bu ərazidə palıd bitkisinin adı ilə bağlıdır. *Palıd dərəsi* fitooronimi Qubadlı və Zəngilan rayonları ərazisində qeydə alınmışdır.

Alçalı – Zəngəzurda kənd olmuşdur. Fitooykonimdir, 1918-ci il vandalizminin qurbanı olmuşdur. *Ağbulaq* kəndinin yaxınlığındadır. Düzəltmə sözdür: alca + lı ünsürlərindən ibarətdir.

Əzgillik – fitooronimdir. Gorus rayonu ərazisindədir. Ağvanlı kəndinin yaxınlığındadır. Böyük bir ərazinin bitkisi əzgildən ibarətdir.

Mərcimək yurdu – fitooronimdir. Gorus rayonu ermənilər istər rəsmi sənədlərdə, iastərsə də tədqiqatında rast gəlinmişdir. Əskər şəkilçisinin ifadə etdiyi mənanı bildirən bir ünsürdür. Bənövşə tənəsi bənövşəlik mənasındadır.

Bizə məlum olan fitocoğrafi adlarda Azərbaycan florasının – bitkilər örtüyünün xəritəsini çəkmək mümkündür.

Konkret regionda mövcud olan ümumi fitonimlərdən Çiməni, Keşiş Çiməni, Cilli çiməni, Qəhrəman çiməni (oronim), Qaraçimən oykoniminə rast gəlirik (Qafan rayonu). Ümumiyyətlə, çimən//çəmən nomenli coğrafi adlar türk toponimiyasında geniş yayılmışdır.

Laçın rayonu ərazisində *Fındıqlı gədik* və *Fındıqlı şam* adlı oronimlər var. Ermənistanda Gorus rayonu ərazisində *Fındıqlı düzü, Fındıqlıq* adlı mikrofitooronim mənası fars dilində kiçik təpəcik deməkdir. Yəqin ki, məkan anlamını bildirən *–lıq*[4] düzəlmiş (ağac, bitki adlarından) oykonimi və yaxud oronimi *şəhər, kənd, dağ, təpə, yamac* və s. komponentlərinin düşməsi nəticəsində sadə, nomensiz oykonim kimi formalaşmışdır. Qafqazın, o cümlədən də tədqiq olunan ərazinin bitki və ağac örtüyünardır ki, bu ərazinin bü ərazisindədirtərəfindən dağıdılmışdır. Rəsmi sənədlərdə *Bənövşəbust* adlanan kənd olmuş, 1918-ci ildə ermənilər tərəfindən dağıdılmışdır. Bu fitooykonimin birinci komponenti *bənövşə* adı ilə bağlıdır. *"Bust"* ünsürünün ün çox və zəngin olması fitotoponimlərin də rəngarəng olmasını şərtləndirmişdir.

Zəngəzurun toponimiyasında fitonimlər – bitki örtüyünün əks etdirən adlar bölgənin ümumən fitonimlərini əks etdirir. Belə ki, hər mikrobölgənin də (dağ, aran, quzey, güney) özünəməxsus fitonimləri mövcuddur və təbii ki, toponimiyada əks olunmaqdadır.

Aborigen əhalisi əsasən türklərdən ibarət olan Zəngəzur ərazisinin florası onun toponimlərinə tam uyğun gəlir. Fitonimik toponimlərin də dil mənsubiyyəti tarixən türk sözlərindən ibarətdir.

Zəngəzur ərazisinin indi ermənilərdə qalan (işğal olunan) Kafan, Gorus, Sisyan və Meğri formalaşmışdır. 1988-ci ilə qədər kənd qalmaqda idi.

Armudlu kəndi və çayı **-** Kafan kəndi ərazisindədir. Fitooykonim və

Almalıq – ümumiyyətlə, bölgə ərazisində, istər Azərbaycana aid olan, istərsə də Ermənistan ərazisində qalan hissədə *alma* bitkisinin adı ilə bağlı toponimik obyektlərin sayı çox, tipi isə rəngarəngdir. *Almalıq* (Qafan və Sisyan rayonlarında kənd) oykonimdir.dərə).ilə bağlıdır. Bu fitotoponimin adına XIX əsr rus rəsmi sənədlərində S.P.

Əzgilli - əzgil bitkisinin adını əks etdirən kənd adları ilə yanaşı, mənfi və müsbət relyef formalarını əks etdirən oroqrafik adlara rast gəlirik. Qafan rayonu ərazisində *Əzgilli* oykonimi, Qubadlı və Laçın rayonları ərazisində *Əzgilli dağ*, Qubadlı rayonu ərazisində *Əzgilli* düzü (Göyərcik kəndi) var. Gorus rayonu ərazisində *Əzgillik* adlı tala var.

Ərikli – Ərik adı ilə bağlı oronimlərlə yanaşı bölgənin ərazisində fitooykonimlərə də rast gəlirik. *Ərikli* Laçın rayonu ərazisində mövcud kəndlərdən birinin

adıdır. XIX əsr S.P.Zelenskinin tərtib etdiyi siyahıda Ərikli adına rast gəlirik. Eyni zamanda Laçın rayonu ərazisində *Ərikli dərə* fitooronimə rast gəlirik.

Əncir Göyəm – bu bitkinin Qubadlının oronimiyasında azacıq fonetik fərqlə - Gəyən//Gəyəm formasında işlənməkdədir. Bu, *Gəyənin düzü* adlanan böyük bir ərazini əhatə edir.

Fındıq ləri qeydə alınmışdı. XX əsrin əvvəllərində Qubadlı ərazisində Çiçəkli adlı kəndi vardı. Qubadlı – Azərbaycan oronimiyasında əncir adı ilə bağlı coğrafi adlar var. *Əncir qayası* şəkilçisindən ibarətdir.

Almalıq – Zəngəzurda, Sisyan rayonu ərazisindədir. 1918-ci ilin erməni vandalizminin qurbanı olmuşdur.

Alçadərə Məzməzək – dağıdılmış kəndlərdən biridir. Erməni vandalizminin qurbanı olmuşdur. Sisyan rayonu ərazisindədir. Ölü kənddir.

***Qafan rayonu üzrə** Çiçəkli* – Türk dillərində geniş yayılan fitonim mənşəli etnonimlərdən biri çiçəkdir. Bəri başdan qeyd adı ilə bağlı bir qisim mikrooronim yaranmışdır.

Çinarlı (Cibikli) toponimi də fitooykonimlərdən birinin adıdır. Bu kəndin adı S.P.Zelenskinin siyahısında qeyd edir ki, XIX əsrdə İrəvan quberniyasında Dərə Çiçək və Baş Çiçək adlı oykonimvə *Əncirli dərə* çəkilir. Düzəltmə sözdür, iki tərkib hissədən çinar və *-lı* edək ki, Salur Qazanın anasının adı *Çiçəkdir.*

"Kitabi-Dədə Qorqud"da Banu Çiçək adlı personaj var.

İ.Cəfərsoylu oronimi Laçın rayonu ərazisindədir.

ərazisində Çiçəkli, Dərə Çiçək, Baş Çiçək adlı coğrafi obyek rayonlarının fitotoponimlərinin tərkibini ümumən nəzərdən keçirdikdə aşağıdakı mənzərənin şahidi olduq.

Sisyan rayonu üzrə (Sisakan üzrə)

Armudlu – Sisyan rayonunda ermənilər tərəfindən dağıdılmış Azərbaycan kəndi 1918-ci ildə dağıdılmışdır, lal toponimlərdəndir. Düzəltmə quruluşludur. Armud + lu.

Qoz – Qoz bitkisi (El arasında cəviz//ceviz) Azərbaycan ərazisində geniş yayılmışdır. Bu bitkinin adı ilə həm oronimik, həm də oykonimik coğrafi adlara rast gəlirik. Laçın rayonu ərazisində *Qozdərə* kəndi mövcuddur. Zəngilan rayonu ərazisində *Qozlu qaya, Qozlu dərə* - rəsmi mənbələrdə aşağıdakı fitooykonimlər qeydə alınmışdır.

Çiriş – Kurud kəndinin yaxınlığındadır. Çiriş bir bitki adıdır ki, bu ərazi kəndin bitki örtüyünə əsasən tləri fitooronim kimi görünsə də, əslində türk mənşəli etnonimlərdən birinin adıdır. Çiçək və Sisak tün ağacları yalnız fındıq bitkisindən ibarətdir. adlı mənfi müsbət relyefi ifadə edən obyektlər var. Qubadlı rayonu Setyas kəndi yaxınlığında *Cəvizli dərə*, Gorus rayonu ərazisində *Cevizlik* adlı mikrooronimlərə rast gəlirik. *Süsən bitkisinin adı ilə* - Zəngilan rayonu ərazisində *Süsən dağı* və *Süsən meşəsi* adlı oronim əks olunmuşdur.

Qeyd edək ki, göstərilən nümunələr bu ərazinin fitonimlərinin çox az bir qismini Zəngəzur bölgəsinin toponimiyasında bu və ya digər formada, az və çox dərə-

cədə əks olunmuşdur. *Arpalıq* əhatə edir. Bu istiqamətdə ayrıca toponimik tədqiqatın aparılmasına ehtiyac duyulur.

Bu ərazinin florası onun toponimiyasına qismən uyğun gəlir. Dağlıq ərazisinin özünəməxsus florası, aran və meşəlik zonasının öz bitkilər aləmi var. Bunlar– Arpa bitkisinin adı ilə əlaqədar yaranmışdır. Bu fitooronim hətta XIX əsr rus rəsmi sənədlərində S.P.Zelinskidə qeydə alınmışdır. Gorus rayonu ərazisindədir.

Tütün adı ilə bağlı fitooronimlər də Zəngəzur toponimiyasında qeydə alınmışdır. S.P.Zelinskidə *Tütün yeri* adlanan fitotoponim vardır ki, bu da Gorus rayonu Ardıclıdır. *Vaqazin* kənd sovetliyi ərazisinə daxildir.

Narıc//Narışlar adlı oykonim də fitotoponimlər sırasına daxildir. *Narıngi* bitkisinin adı ilə bağlı olan bu toponim Laçın rayonu ərazisindədir.

Ümumiyyətlə, Zəngəzur ərazisinin ərazisindədir. *Gorus* rayonunda Şurnuxu kəndində və onun ətrafında tütün əkilməsinin şahidiyik.

Laçın rayonu ərazisində *ardıc* adı ilə bağlı fitooykonimə rast gəlirik. Bu kəndin ad relyefi rəngarəng olduğu kimi, onun fitonimlər sistemi də rəngarəng və zəngindir.

Ədəbiyyat:

1. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. B. 1995.
2. Топонимия Азербайджана B. Элм, 1986.
3. Qurbanov A. Azərbaycan onomastikası. B. 1988.
4. Əhmədov T. Azərbaycan toponimiyasının əsasları. B. 1991
5. "Kitabi-Dədə Qorqud" dastanı. B. 1988.

dos.A.M.Rustamov

Zangazaur fitonomic Names

Summary

A lot of toponyms expressing the beauty of fito nature of Zangazur are shown in this article.Nature colorfulness of Zangazur Region caused this region's toponomy richness. Fitonyms in Zangazur toponomy show the total fitonomy of the region.Such as:Armudlu,Almalig,Findiglig,Gozlu dara,the mountain Susan etc.

Rəyçi: İ.Bayramova

X.ABDULLAYEVA

XIII-XIV ƏSRLƏR AZƏRBAYCAN ƏDƏBİ DİLİNDƏ TABELİ MÜRƏKKƏB CÜMLƏ KOMPONENTLƏRİNİN İNVERSİYASINDA AKTUALLAŞMANIN ROLU

Açar sözlər: Tabeli mürəkkəb cümlə, aktuallaşma, invesiya, poetik funksiya, Azərbaycan ədəbi dili.
Key words: compound sentences, communicative aspects, inversion, poetic function, Azerbaijani literary language.
Ключевые слова: сложноподчиненные предложения, актуализация, инверсия, поэтическая функция, Азербайджанский литературный язык.

Məlumdur ki, tabeli mürəkkəb cümlənin (TliMC) tərkib hissələri təklikdə həm məna və intonasiya bitkinliyindən, həm də kommunikativ müstəqillikdən məhrumdur və birlikdə forma və məna cəhətdən vahid bütöv təşkil edərək bir mürəkkəb fikri ifadə etməyə və informasiya şəklində ötürməyə xidmət edir. (1, s.8; 2, s.3; 3, s.3) Lakin bu funksiyanı yerinə yetirməkdə həmin komponentlər müxtəlif rola malikdir. İnformativ yükün baş və budaq cümlədə paylanması onların mürəkkəb cümlə daxilində tutduğu mövqedən birbaşa asılıdır. Cümlədəki informativliklə bağlı olan aktual üzvlənmə TliMC-nin komponentlərinin sırası ilə müəyyən olunur. Aktual üzvlənmə baxımından cümlədə yeni informasiyanı bildirən rema, məlumdur ki, Azərbaycan dili cümləsində sona doğru meyl edir. Deməli, TliMC-də postpozitiv mövqe tutan tərkib hissə - istər baş, istərsə də budaq cümlə - rema olur, yəni TliMC-nin daşıdığı ümumi informasiyanın əsası onda toplanır. Prepozitiv tərkib hissə isə remanın ayrılmasına xidmət edən temanı, yəni artıq məlum olanı bildirir.(4, s.320; 5, s.108-109; 6, s.92) Dildən istifadə edənin bu imkanlardan öz məqsədinə uyğun şəkildə yararlanması isə tamamilə subyektiv xarakter daşıyır. Belə ki, dildən istifadə edən kommunikativ məqsədindən asılı olaraq TliMC-nin bu və ya digər struktur tipindən istifadə edə və ya tərəflərinin obyektiv ardıcıllığını dəyişə bilər. Belə inversiya etmə meyli isə daha çox danışıq dilində və danışıq dilinin təsiri güclü olan digər üslublarda hiss olunur.

XIII-XIV əsrlərin bədii üslubunda işlənən inversiyalı TliMC-lərdə komponentlərinin mövqeyi özünəməxsus ünsiyyət forması olan şeir dilində kommunikativ məqsədin ifadəsinə imkan yaradır.

Anın keyfiyyəti bulunmadı hiç,
Məkani qandadur bilinmədi hiç. (“Dastani Əhməd Hərami”s.19)

Baş cümlə+budaq cümlə strukturlu mübtəda budaq cümləli bu TliMC-də inversiyanın əsas səbəbi iki misranın qafiyə quruluşudur. Lakin epik poemanın qafiyə seçimində şairin tez-tez – hər ikimisralıqdan sonra dəyişiklik etmək imkanının olmasına baxmayaraq, bu inversiyaya getməsi, söz yox ki, digər tərəfdən həm də kommunikativ məqsəddən asılıdır. Burada şair budaq cümlədəki məlumatdan (məkani qandadur) daha çox baş cümlədəki məlumata (bilinmədi hiç) diqqət çəkmək istəmişdir. Ona görə də ədəbi dil normasına uyğun postpozitiv mövqedə olmalı budaq cümləni prepozisiyaya inversiya etmişdir. Beləliklə də, budaq cümlədəki məlumat ümumi informasiyanın teması, baş cümlə isə reması olmuşdur.

Belə inversiyaya struktur tələblərin daha ciddi gözlənildiyi lirik şeir dilində də təsadüf edilir:

Gözün könül qanını içdi, bunca yıllardur,
Dəmidürür totağundan bu qana qana gərək. (Q.Bürhanəddin. Divan. s.415)

Nümunədə kommunikativ məqsədin baş və budaq cümlələrin inversiyasında mühüm rol oynaması barizdir. Belə ki, qəzəlin beytlərində birinci misraların sərbəst qaldığı məlumdur. Deməli, birinci misradakı normalda postpozitiv olmalı mübtəda budaq cümləli TliMC-də baş cümlənin postpozisiyaya inversiyası şeirin struktur tələbi ilə izah olunmur: birinci misranın necə qurulmasının şeirin qafiyə və rədif kimi vacib tələblərinə təsiri yoxdur. Burada şairin informativ yükü tərəflər arasında bölməklə kommunikativ məqsədə nail olmaq istəyi inversiyanın səbəbidir. Müəllif normal aktual mövqedə olan budaq cümlədəki informasiyadan (gözün könül qanını içdi) daha çox postpozisiyaya inversiya etdiyi baş cümlədəki informasiyaya (bunca yıllardur) diqqəti cəlb etmək istəmişdir və məqsədyönlü inversiya ilə buna nail olmuşdur: budaq cümlə TliMC-nin teması, inversiya etmiş baş cümlə isə reması olmuşdur.

Şairin başqa qəzəllərində daha maraqlı inversiya ilə rastlaşırıq:

Qarğu boyum vacibmidür qaşun içün kəman ola
Yazuğ olurmu qəmzədən canuma gər aman ola. (Q.Bürhanəddin. Divan. s.438)
Cananəyə bən canı çoxdur ki, rəvan etdüm,
Canum bənüm oldur ki, cananeyi-eşqəm bən. (Q.Bürhanəddin. Divan. s.30)

Burada da düzgün sıralanma *Vacibmidür, qarğu boyum qaşun içün kəman ola* və *Çoxdur ki, bən canı cananəyə rəvan etdüm* şəklində olmalıdır. Baş cümlələrin ədəbi dil normasını pozaraq interpozisiyada yerləşməsi, düşünürük ki, nəzmin tələblərindən başqa, həm də aktuallaşma ilə bağlıdır. Azərbaycan dili cümləsində əsas aktuallaşma – rema mövqeyi mütləq postpozisiya və ikinci dərəcəli, nisbətən zəif aktuallaşma mövqeyi isə mütləq postpozisiyanın bilavasitə qarşısındakı mövqedir.(9, s.101) Verilən nümunələrdə mübtəda budaq cümlələrinin ən sonda yerləşən hissəsi bütövlükdə TliMC-nin remasıdır, onun qarşısında – zəif aktuallaşma mövqeyində olan baş cümlələr (vacibmidür, çoxdur) də remanın tərkibinə daxildir. Budaq cümlənin prepozisyada yerləşən hissəsi isə TliMC-nin temasıdır. Buradan alınır ki, əslində dilimiz üçün xarakterik olmayan interpozitiv baş cümlə (eləcə də budaq cümlə) mövqeyi dildən istifadə edənin kommunikativ məqsədinə xidmət edərək bu mövqedə yerləşən tərkib hissələrin prepozisiya mövqeyinə qarşı qoyularaq daha aydın nəzərə çatdırmaq istəyi ilə bağlıdır. Bu cümlələr ədəbi dil normasına uyğun sıralanmış olsa (*Vacibmidür qarğu boyum qaşun içün kəman ola* və *Çoxdur ki, bən canı cananəyə rəvan etdüm*), prepozitiv baş cümlələr TliMC-nin teması və postpozitiv mübtəda budaq cümlələr isə reması olar. Bu hal isə şairin kommunikativ məqsədinə uyğun olmamaqla yanaşı, həm də şeirdəki ekspressivliyi azalda bilər.

Axirət darından istə hər nə məqsudun ki, var,
Dünyanın miqdarı yoxdur, keç bu bimiqdardan! (İ.Nəsimi. I cild. s.168)

Dörd cümlədən ibarət olan səbəb budaq cümləli bu TliMC-nin prepozitiv baş cümləsi tamamlıq budaq cümləli TliMC-dir: *Axirət darından istə hər nə məqsudun ki, var*. Düzgün sıralanması *Hər nə məqsudun ki, var, axirət darından istə* şəklində olmalıdır. Burada inversiya aktuallaşma ilə bağlıdır. Çünki beytin birinci misrasını təşkil edən bu tamamlıq budaq cümləli TliMC ədəbi dil normasına uyğun şəkildə

sıralanmış olsaydı, nəzmin tələbləri çox zərər çəkməzdi, lakin şeirin ekspressivliyi yoxa enərdi. Budaq cümlənin güclü aktuallaşma mövqeyində - postpozisiyada işlənməsi ilə şair ekspressivliyi gücləndirməyə nail olmuşdur. Nəsimidən başqa bir nümunədə tamamlıq budaq cümləli TliMC-nin baş cümləsi interpozisiyaya inversiya etmişdir:

Həyatı Xızr ilə İsa bilir, arif necə buldu,
Rümuzi-eşq ilə irdi dodağın eyni-abından. (İ.Nəsimi. I cild. s.183)

Birinci komponentdə düzgün sıralanma *Xızr ilə İsa bilir, arif həyatı necə buldu* şəklində olmalıdır. Ikinci komponent (Rümuzi-eşq ilə irdi dodağın eyni-abından) isə tabesiz aydınlaşdırma məna əlaqəsi ilə birinciyə izahat verir və sıralanma baxımından normaya uyğundur. Tərəfləri arasında bağlama vasitəsi kimi intonasiyanın işləndiyi belə TliMC-lərin daha "çevik, elastik struktura" malik olduğunu görürük. "Çevik strukturlu TliMC-lərdə isə baş və budaq cümlənin müxtəlif yerləşmə variantları mümkün olur ki, bunun nəticəsində də mürəkkəb cümlənin tərkibində budaq cümlə baş cümləyə görə prepozitiv, interpozitiv və ya postpozitiv mövqedə işlənir". (7, s.59) Belə çevik strukturlu cümlələrdən istifadə edilməsi müəllifin vəzn daxilində ifadə etmə imkanlarını genişləndirir.

Növbəti nümunədə zaman budaq cümləsinin baş cümlədən sonraya inversiya etdiyini görürük:

Nə taqəti qaldı dəxi könül elünün, çün
Hindü həbəşə qatdı yüzün türkü firəngi. (Q.Bürhanəddin. Divan. s.115)

Belə inversiya budaq cümlənin informativ cəhətdən fərqləndirilməsi ilə bağlıdır: bu halda budaq cümlə mürəkkəb cümlənin reması olur. Qeyd edək ki, budaq cümləsi baş cümlənin konkret bir üzvünə yox, bütövlükdə məzmununa aid olduğu belə hallarda baş cümlələrin nisbi müstəqilliyinin daha çox olması onların postpozisiyada yer tutmasına səbəb olmuşdur. Belə baş cümlələrin həm qrammatik, həm məna natamamlılığı yoxdur, prepozitiv budaq cümlələr isə onlardakı informasiyanın verilməsi üçün hazırlıq rolunu oynayır. Ona görə də bu tip mürəkkəb cümlələrdə budaq cümlələr inversiya etdikdə güclü aktuallaşmış olur, bu aktuallaşmanın özü də baş cümlədəki temanı izahedici, aydınlaşdırıcı, konkretləşdirici səviyyədə olmayıb, yalnız ona əlavə edilmiş aktual informasiya səviyyəsindədir.

Baş cümlə+budaq cümlə sıralanması olan məqsəd budaq cümləli TliMC-lərin bəzən inversiya ilə işlənməsi dövrün epik şeir dilində, ümumiyyətlə, nadir hallarda görünür. Məsələn, "Vərqa və Gülşah" poemasında belə bir inversiya var:

Ta ki Gülşahı diləyə şah içün,
Gəldilər söyləməgə ol mah içün. (Y. Məddah "Vərqa və Gülşah" s.148)

Epik poemaların dilində belə inversiyanın yayılmaması onların adi nəqletmə dili olaraq normaları daha ardıcıl izləməsi ilə bağlıdır. Məqsəd budaq cümləli TliMC-lərdə budaq cümlənin postpozitiv mövqeyi onlarda ifadə olunan hadisə və hərəkətin prepozitiv baş cümlədəki hadisə və hərəkətin məqsədi olaraq ondan sonra gəlməsinə uyğun olan məntiqi ardıcıllıqla izah olunur. Nümunədən də göründüyü kimi, prepozisiyaya inversiya etmiş postpozitiv məqsəd budaq cümləsini öz normal mövqeyində işlətmiş olsaq belə, şeirin strukturu pozulmur: hər iki misra tam qafiyə təşkil edir. Ona görə də belə inversiya yalnız müəllifin kommunikativ məqsədinə

xidmət etmiş olur. Normal sıralanmada cümlənin teması olan baş cümlə belə inversiyada rema olur.

Lirik şeir dilində isə inversiya nisbətən çox təsadüf olunur.

Ta bilələr ki, məğribin günəşi doğdu, ey qəmər,
Türfə niqabını götür, xalqa görün qəmər kimi. (İ.Nəsimi. I cild. s.100)
Ta ki, bir gəz dəxi düşə ol nəzər,
Daima əflakı dəvvar isdərəm. (Q.Bürhanəddin. Divan. s.27)
Yar bizüm ilə yenə gör ki, nə al eylədi,
Ta ki, yaşum qan ola, yanağın al eylədi. (Q.Bürhanəddin. Divan. s.36)

Həm Nəsimidə, həm də Qazidə *ta ki* bağlayıcısı ilə əlaqələnən postpozitiv məqsəd budaq cümləsi baş cümlədən əvvələ inversiya etmişdir. Belə inversiyanın səbəbi müəllifin kommunikativ məqsədinə xidmət edən aktuallaşdırmadır. Şair baş və budaq cümləni inversiya edərək postpozisiyada yerləşdirdiyi baş cümlənin məna yükünü artırmış, onu informativ mərkəzə çevirmişdir.

-sa,-sə şəkilçili prepozitiv şərt budaq cümlələrinin baş cümlədən sonraya inversiyasına, əsasən Azərbaycan danışıq dilində və bədii əsərlərdə rast gəlinir.(8, s.103) A.N.Baskakovun fikrincə, bədii üslub sintaksisində baş verən bir sıra hadisələr kimi, inversiya da danışıq dili və ədəbi dilin yaxınlaşmasının nəticəsidir. (10, s.77) Bu hal XIII-XIV əsrlər ədəbi dilində işlənmiş şərt budaq cümləli TliMC-lərdə də özünü göstərir.

Eşit gəl bir həraminin sözünü,
Əgər görür isən məni yüzünü. (“Dastani Əhməd Hərami” s.22)
Həq rasulin gətirəlüm biz dilə
Gər səlavət verür isən eşqilə. (Y. Məddah “Vərqa və Gülşah” s.135)

Epik poemalardan gətirilmiş bu nümunələrdə prepozitiv şərt budaq cümləsi mövqeyini baş cümlədən sonraya dəyişmişdir. Cümlələrdə sıralanma uyğun olaraq, *Əgər görür isən məni yüzünü, eşit gəl bir həraminin sözünü* və *Gər səlavət verür isən eşqilə, həq rəsulin gətirəlüm biz dilə* şəklində, yəni, ədəbi dil normasına uyğun verilsəydi belə, şeirin strukturuna xələl gəlməzdi. Deməli, bu halda inversiya müəlliflərin nəzərə çatdırma məqsədinə xidmət etmişdir və inversiya etmiş budaq cümlə TliMC-də yenini bildirir.

Şərt budaq cümləli TliMC-lərdə inversiya halları dövrün lirik şeirlərində daha çoxdur.

Başını top eyləgil, gir vəhdətin meydanına,
Ey könül, müştaq isən gər zülfünün çövkanına. (İ.Nəsimi. I cild. s.19)
Doyımaya bu yürəgüm oduna ahın,
Gər irürsə həva vücudına ahın. (Q.Bürhanəddin. Divan. s.65)

Nəsimi və Qazidən gətirilmiş bu nümunələrdəki inversiyada yenə aktuallaşma rol oynamışdır, çünki bu cümlələrin tərəfləri budaq cümlə+baş cümlə şəklində normal sıralanmış olsaydı, şeirin strukturuna xələl gəlməzdi.

Lirik şeirlərdə şərt budaq cümləsinin baş cümlədən sonraya inversiyası ilə yanaşı, baş cümlənin hissələri arasına inversiya etməsini, yəni interpozisiyada yerləşməsini də görmək mümkündür:

Xoşdur, əgərçi cümləsi bir yerdə cəm ola,
Avazi-cəngü nəğməvü tənbur ilən rübab. İ.Nəsimi. I cild. (s.25)
Cahanü dinü dil zülfünə, canım,

Əgər layiq düşər, şükranəsidir. (İ.Nəsimi. I cild. s.221)

Nəsiminin işlətdiyi bu cümlələrin normal sırası belə olar: *Əgərçi cümləsi bir yerdə cəm ola, avazi-cəngü nəğməvü tənbur ilən rübab xoşdur. Əgər layiq düşər, cahanü dinü dil zülfünə, canım, şükranəsidir.* Digər inversiyalardan fərqli olaraq, fikrimizcə, interpozisiyada inversiya birbaşa şairin aktuallaşdırma istəyi ilə bağlıdır. Normal sıralanmada mövqeyi prepozisiya olan və bununla da müərkkəb cümlənin teması olan şərt budaq cümləsi bu şəkildə interpozisiyaya inversiya edildikdə baş cümlənin mütləq postpozisiyada – rematik mövqedə qalan hissəsinin qarşısında, ikinci dərəcəli (potensial) aktuallaşma mövqeyində yerləşərək remanın tərkibinə daxil olmaq imkanı qazanır. Birinci cümlədə baş cümlənin mütləq postpozisiyada yerləşən mübtədası ilə, ikinci cümlədə isə baş cümlənin xəbəri ilə onların qarşısında yerləşən şərt budaq cümlələri ümumilikdə müərkkəb cümlələrin reması olmuşdur.

Deməli, şərt budaq cümləli bu TliMC-lərdəki inversiyalarda olduğu kimi, inversiyanın nəzmin sırf quruluş tələbləri ilə əlaqəli olduğu hallarda aktuallaşma amili paralel şəkildə iştirak edir. Çünki "...sintaktik vahidlər (o cümlədən sintaktik fiqurlar) daha çox kommunikasiya ilə, nitq fəaliyyəti ilə bağlıdır, bir sözlə nitq faktıdır. Bədii sözün gücündən, poetik sintaksisdən söhbət gedirsə, bu zaman nitq faktı olmaq daha qabarıq nəzərə çarpır". (11, s.9) Hər hansı sözün və ya ifadənin rədif, sözlər qrupunun həmqafiyə seçilməsi və onların uyğun baş və ya budaq cümlə tərkibində yerləşdirilməsi, həmin baş və budaq cümlənin TliMC tərkibində məhz bu mövqeni tutması təsadüfi xarakter daşımayıb, şeirin ümumi ahənginə xidmət etməklə yanaşı, həm də özünəməxsus ünsiyyət forması olan poeziyada ünsiyyət iştirakçıları – müəllif və oxucu arasındakı kommunikasiyanın məqsədyönlü olması ilə şərtlənir. Nümunələrə baxaq:

Bir bütü var idi altundan məgər,
Böylə ilədirdi qandə kim, gedər. (M. Zərir "Yusif və Züleyxa"s.42)
Dedi bunlar, ya Məlik xatir sənün,
Al rəvan ol qanda dilərsə canün. (Y. Məddah "Vərqa və Gülşah" s.151)

Bu yer budaq cümləli TliMC-lərdə inversiya budaq cümlə+baş cümlə strukturunun pozulmasına səbəb olmuşdur. Tərəflərin düzgün sıralanması birinci cümlədə *Qandə kim gedər, böylə ilədirdi*, ikincidə *Canün qanda dilərsə, al rəvan ol* şəklində olmalıdır. Epik poemalarda işlədilmiş hər iki cümlədə inversiyanın səbəbi ikimisralığın qafiyələnməsidir: birinci cümlədə inversiya etmiş yer budaq cümləsindəki *gedər* sözü əvvəlki misradakı *məgər* sözü ilə, ikinci cümlədə də eyni vəziyyətdə olan *canün* sözü əvvəlki misradakı *sənün* sözü ilə qafiyə təşkil edir. Epik poemalarda təsadüf etdiyimiz bu inversiyalarda nəzmin tələbləri ilə yanaşı, yenə də müəlliflərin kommunikativ məqsədləri az rol oynamır. Həm nəzm tələblərini, həm ekspressivliyi saxlayan bu inversiyalar həm də informasiya mərkəzinin budaq cümlələrə keçməsinə xidmət edir.

Baş cümlə+budaq cümlə strukturlu xəbər budaq cümləli TliMC-lərdə çox nadir hallarda belə inversiya baş verir:

Vərqa aydur: yüzügüm Gülşahə ver,
Kim qatündə hacətüm ancaq budur. (Y. Məddah "Vərqa və Gülşah",s.163)

Düzgün sıralanması *Vərqa aydur: qatündə hacətüm ancaq budur kim, yüzügüm Gülşahə ver* şəklində olan tamamlıq budaq cümləli TliMC-nin budaq cümləsi olan xəbər budaq cümləsində inversiya baş cümlənin budaq cümlədən sonra

işlənməsi ilə reallaşmışdır. Belə inversiyaların səbəbi isə, əsasən, müəllifin diqqəti baş cümlədəki məlumatın vacibliyinə yönəltməkdir. Məhz bu nümunədə inversiyalı struktura malik olan xəbər budaq cümləli TliMC-nin özü postpozitiv tamamlıq budaq cümləsi şəklində işlənir: onun mütləq postpozisiyada yerləşdirilmiş baş cümləsi ilə yanaşı, baş cümlənin qarşısında - ikinci dərəcəli aktuallaşma mövqeyində olan xəbər budaq cümləsi də bütövlükdə mürəkkəb quruluşlu tamamlıq budaq cümləli TliMC-nin informasiya yükündə heç də az əhəmiyyət daşımır. Tamamlıq budaq cümləsinin prepozitiv baş cümləsi mürəkkəb cümlənin teması, xəbər budaq cümləli TliMC şəklində formalaşmış postpozitiv budaq cümləsi isə remasını bildirir: bu remanın tərkibinə isə xəbər budaq cümləli TliMC bütövlükdə daxildir.

Fikrin özünəməxsus ifadəsi olan şeir dilində TliMC-nin struktur tiplərində tərkib hissələrin inversiya edilməsi bir çox hallarda əsasən cümlənin kommunikativ məqsədinə xidmət edir.

İstifadə olunmuş ədəbiyyat

1. X.İ.Məmmədova, Ə.H.Cavadov Tabeli mürəkkəb cümlələrin semantik-qrammatik xüsusiyyətləri Bakı. 2000.

2. А.И.Кононов О некоторых типах бессоюзного сложноподчиненного предложения в турецком языке Советская тюркология. 1971, N4.

3. С.А.Соколов Исследование по синтаксису сложного предложения в современном турецком литературном языке Автореферат диссертации на соискание ученой степени доктора филологических наук. 1974.

4. Q.Ş.Kazımov Müasir Azərbaycan dili Bakı, 2007.

5. F.A.Cəlilov Mürəkkəb cümlə sintaksisi (Bağlayıcısız tabeli mürəkkəb cümlələr) Bakı. 1983.

6. T.M.Hacıyev Tabeli mürəkkəb cümlənin transformasiyası (məsələnin qoyuluşu) Azərbaycan dilində tabeli mürəkkəb cümlə məsələləri. Elmi əsərlərin tematik məcmuəsi. ADU-nun nəşri, Bakı, 1983.

7. M.N.Əsədova İngilis və Azərbaycan dillərində tamamlıq budaq cümlələri Bakı, "Nurlan", 2007.

8. G.A.Abdullayeva Azərbaycan dilində -sa, -sə şəkilçisi, onun qrammatik və üslubi xüsusiyyətləri Bakı. 2000.

9.K.M.Abdullayev Azərbaycan dili sintaksisinin nəzəri problemləri Bakı. 1998.

10. А.Н.Баскаков Некоторые спорные вопросы синтаксиса бессоюзных сложноподчиненных предложений в турецком языке Советская тюркология. 1972, N3.

11. K.Vəliyev Azərbaycan dilinin poetik sintaksisi ("Kitabi Dədə Qorqud" üzrə). ADU.1981.

Kh. Abdullayeva

Role of communicative aspects in inversion of the components of compound sentences of Azerbaijani literary language of XIII-XIV centuries

Summary

In literary language inversion of the components of compound sentences depends on communicative aspects of component order and their poetic function. Inversion of the components of compound sentences are explained on materials of Azerbaijani literary language of XIII-XIV centuries from this view-point.

Х. Абдуллаева

Роль актуализации в инверсии компонентов сложноподчиненного предложения в Азербайджанском литературном языке XIII-XIV вв.

Резюме

В художественном стиле литературного языка в инверсии компонентов сложноподчиненных предложений помимо структурно-стилистических свойств, играет роль и актуализация, которая определяется порядком компонентов. В статье инверсия компонентов сложноподчиненных предложений объясняется с этой точки зрения по материалам Азербайджанского литературного языка XIII-XIV веков.

Rəyçi: Qəzənfər Kazımov
filologiya elmləri doktoru, professor

FİDAN QƏDİROVA
ADU
fisayeva@hotmail.com

MODALLIĞIN FELİN VASİTƏLİ ŞƏKİLLƏRİ İLƏ İFADƏSİ

Açar sözlər: qrammatik kateqoriyalar, köməkçi sözlər, şəxsli fellər, felin vasitəli şəkilləri
Keywords: grammatical categories, auxiliary words, finite verbs, The Oblique Mood
Ключевые слова: грамматические категории, вспомогательные слова, личные формы глаголы, сослагательные наклонение

Dilçilik ədəbiyyatında modallığın izahı müxtəlifdir. Ən ümumi şəkildə belə bir tərifi qəbul etmək olar ki, modallıq danışanın ifadə etdiyi nitqin *(söyləmin)* reallığa münasibəti deməkdir. Lakin bu tərifin özündə də bir ziddiyyət vardır. Reallıq dedikdə obyektiv olaraq mövcud olan dünya, aləm başa düşülür. Təbiidir ki, reallıqla obyektiv dünya, aləm heç vaxt üst-üstə düşmür. Başqa sözlə, danışanın reallıq, obyektiv dünya haqqında fikirləri subyektiv, şəxsi mülahizə ola bilər.

Linqvistik baxımdan mübahisə doğuran cəhətlərdən biri də modallığın semantik və ya qrammatik kateqoriyaya aidliyi məsələsidir. *"Dilçilik terminləri lüğəti"ndə* modallığı danışanın dediklərinə *(söyləm)* və söyləmin məzmunun reallıqla münasibəti zəminində izah edir və göstərir ki, modallıq müxtəlif vasitələrlə – qrammatik, leksik yollarla ifadə oluna bilər. Belə qrammatik ifadə vasitələrinə O.İ.Musayev felin şəkillərini, modal felləri intonasiya və s. misal gətirir. [1, s.210]

Ganşina M.A, Vasilevskaya N.M isə cümlənin modallığını ümumi semantik kateqoriya hesab edir. Modallıq söyləm vasitəsi ilə reallaşır və bütün söyləmə aid olur. Söyləm semantik baxımdan iki hissəyə bölünə bilməz. Məna cəhətinə görə cümlə tamdır. Semantika modallıqdan doğur və kommunikasiya prosesində reallaşır. [3, s.94]

E.M.Gordonun, G.P.Krilovanın fikrinə görə modallıq semantik, daha dəqiq desək, semantik-kommunikativ funksiya kimi daha çox məntiqə aid edilə bilər. Modallıq bütün cümlə boyu yayılır, lakin xüsusi ifadə vasitəsinə malik deyil. [3, s.50]

Əlbəttə, bu fikirlə razılaşmaq qeyri-mümkündür. Modallığın istər leksik-qrammatik, istərsə də prosodik və s. ifadə vasitələri məlumdur.

Semantik kateqoriya kimi modallıq ən yeni sintaksisin obyekti kimi də tədqiq oluna bilər [4, s..62]. Törədici qrammatikalarda modallıq dərin strukturun (sintaksisin) anlayışlarından hesab olunur. Tədqiqatçıların fikrinə görə səthi struktur modallığın mahiyyətini tam açа bilmir, çünki modallıq dərin strukturda, semantik qatda əks olunan semantik kateqoriyadır. Səthi strukturda modallığın ifadə üsulları və vasitələri müxtəlif ola bilər. Modallığın hər bir milli dildə ifadəsi də rəngarəng formalara malikdir. Müasir ingilis dilində obyektiv

modallıq tipində danışanın nöqteyi-nəzərindən deyilmiş cümlənin məzmunun həqiqətə uyğunluğu ifadə olunur. Subyektiv modallıq tipində danışanın söyləmin məzmununa münasibəti əks olunur. Törəmə tipli modallıq daha mürəkkəb struktura malikdir. Burada əlamətin daşıyıcısı subyektlə predikativlik əlaməti arasında əlaqənin həqiqiliyinə münasibət bildirir. Bəzi tədqiqatçılar analoji prosesi fərqli anlayışlarla ifadə edirlər. Burada modallıq xarici və daxili modallığa ayrılır. Xarici modallıq obyektiv və subyektiv modallığı ehtiva edir, daxili modallıq isə subyektin icra etdiyi işə münasibəti bildirir. [1, s.250]

Daxili modallıqda subyektin icra etdiyi hərəkətə mümkünlük, zərurilik, arzu və vaciblik planında münasibəti əks olunur.

Bu çərçivədə xarici modallıq altında söyləmin həqiqətə və danışanın söyləmin məzmununa münasibəti başa düşülür.

Anlayışların müxtəlifliyinə baxmayaraq deyilənləri yuvarlaqlaşdıraraq belə bir nəticəyə gəlmək olar ki, modallıq ən ümumi şəkildə iki hissəyə bölünür: obyektiv və subyektiv modallıq.

Obyektiv modallıq obyektiv reallığı *(həqiqəti)* əks etdirir. Subyektiv modallıqda danışanın münasibəti hiss olunur. Subyektiv modallıqda danışanın söylədiyi fikrə inamı /inamsızlığı, deyilən fikirlə razılaşması/ razılaşmaması öz əksini tapır.

Modallıq kateqoriyasının ifadə vasitələrindən ən əsası felin şəkilləridir. Felin xəbər şəkli hərəkətin real olduğunu göstərir. Danışanın və yaxud yazanın bu hərəkəti real hərəkət kimi təqdim etməsini qeyd etmək mühüm əhəmiyyət kəsb edir. Çünki əgər bir felin xəbər şəklinin ancaq real hərəkət ifadə etdiyini söyləsək, danışanın səhv edə biləcəyini imtina etmiş olarıq. Məsələ burasındadır ki, qrammatik yaxud bütövlükdə götürülsə dilçilikdə verilən məlumatın tam həqiqi olmasını nəinki xəbər şəkli hətta felin heç bir şəkli hökm verə bilməz. Qrammatikaya istinad etsək bu nöqteyi nəzərdən vacib olan xüsusiyyət, bu və ya digər müəllifin cümlədə hansı mənanı nəzərdə tutmasından asılıdır. Felin xəbər şəklinin mənası belə bir şübhəni də aşkar edir ki, bəs şərt budaq cümlələrində işlənən xəbər şəkli hərəkətləri ifadə edir. Məsələn:

I will speak to him, if I meet him.

Bu cümlədə hər iki hərəkət faktı deyil mümkünlüyü ifadə edir. Yəni bu cümlədə "bəlkə gördüm, bəlkə yox" mənasını ifadə edir. Ancaq qrammatik forma dəyişmir, fel xəbər şəklində durur. Felin şərt mənası bağlayıcı vasitəsilə göstərilir və o, cümlədə modallıq mənasını, yəni güman mənasının ifadə istifadəçisi kimi çıxış edir. Bu belə bir nəticəyə gətirib çıxarır ki, ümumiyyətlə gələcək zamanın xəbər şəklində, indiki və keçmiş zamandan fərqli olaraq modallıq mənası var. Keçmiş zamanda xəbər şəkli gələcək zamandan fərqli olaraq hərəkətin reallığını daha qəti bildirir. Bundan başqa gələcək zamanda modallıq mənasının olmasını sübut edən başqa hallara da rast gəlmək olar. Əvvəla gələcək zaman formasının indiki zamana aid olan hərəkəti bildirməsi o hərəkətin qeyri-müəyyən olduğuna, mümkün olmamasına dəlalət edir. Məsələn:

*The House will know that….*cümləsi əvvələr *–"It will appear afterwards that you know"* kimi mənanı ifadə edirdi. Məsələn:

You will not have spoken to her mother yet –cümləsi *–Probably you have not spoken to her mother yet* –mənasında işlənmişdir. Beləliklə, həm gələcək

zaman, həm də gələcək bitmiş zaman müəyyən mənada modallıq ifadə edən çalarlıqlara malikdirlər. Belə modallıq dildə işlənən bir çox həm qrammatik, həm də leksik birləşmələrdə özünü göstərir. İngilis dilinin zaman kateqoriyası sisteminin şəkil ilə daxili asılılığı felin xəbər şəklində daha aydın özünü göstərir. Bunun səbəbi odur ki, felin xəbər şəkli yeganə şəkildir ki, hərəkəti real olaraq, fakt olan hərəkət kimi təqdim edir. Qeyri–real olan mümkün, arzu olunan hərəkətlərdə isə tam zaman xarakteristikası olmur. Felin xəbər şəkli müasir ingilis dilində geniş işlənir. Onun üç əsas zamanı, üç köməkçi zamanı, iki tərz forması və iki növ forması var. Məsələn:

The forces of the peace compare growing in number and strength from day to day. The sun had not quite set, and its last smoky radiance stagnated into the burnished autumn Woods. (Dickens) I shall act and I shall act promptly. (Maugham) There is a girl in Goya picture at Madrid who's like me Father says. (Twain Mark)

Felin əmr şəkli ingilis dilində heç bir şəkilçi, yaxud sonluq qəbul etmədən düzəlir. Bu şəkil başqa, şəkillərdən bir çox cəhətlərə görə fərqlənir. Əmr şəklinin şəxs, kəmiyyət, zaman və tərz kateqoriyaları yoxdur. Əmr şəkli ancaq əmr cümlələrində işlənir. Bu tipli cümələlərin mübtədası olmur. Ancaq bəzən emosional nitqdə əvəzlik işlənə bilər. Məsələn:

"But Fessie"–he pleaded going towards her. You leave me alone" she cried out loudly. (Jack London)

Bu xüsusiyyətlərinə görə felin əmr şəklinin şəkil kateqoriyasına aid edib–etməmək məsələsi həmişə mübahisə yaratmışdır. Felin şəklinin əvvəldə verilmiş tərifini nəzərdə tutsaq felin əmr şəklinin olmasına şübhə ola bilməz.

Felin Sabcanktiv şəkli.

Subjunctive Mood adlanan felin şəkli bir çox çətin problemlərlə rastlaşır. Əsas çətinlik ondan ibarətdir ki, felin forma və mənası arasında qarşılıqlı əlaqə yoxdur. Formadan asılı olmayaraq iki və daha artıq mənaya malik olan bir felin işlənməsi bu şəkil üçün xarakterikdir. Məsələn:

I think we should come here again tomorrow. If we knew that he wants us we showed come to see him.

How interesting that we should come at the very moment when you were talking about US.

Verilən misallarda işlənən *"should"* feli birinci cümlədə modal feli *ought to* kimi işlənmişdir və Azərbaycan dilinə *"gərək"* sözü ilə tərcümə edilə bilər.

Ikinci cümlədə should feli şərt bildirir, hərəkətin icrası müəyyən şərtlə əlaqədardır.

Üçüncü cümlədə isə *should* feli artıq baş vermiş hərəkəti bildirir.

Eyni hadisəni biz *would* felini müxtəlif kontekslərdə işlənməsi zamanı da müşahidə edə bilərik. Aşağıdakı iki cümləni müqayisə edək. Məsələn:

I suggest that he go. I suggest that he should go.

Birinci variantın American English üçün tipik olduğu, ikinci variantın isə British English olduğunu qeyd etmək olar.

Beləliklə Ingilis dilinin müxtəlif sistemli fel şəkillərinə malik olmasına gəlib çıxırıq və Ingilis dilinin qrammatikasının şəkil bəhsi haqqında fikirlərin müxtəlifliyi dərhal nəzərə çarpır. Təbii ki, bu məsələlərin həllində bir yol, həm

məna, həm də forma arasında müəyyən, hamı tərəfindən qəbul edilə biləcək bir əlaqə olması daha məqsədəuyğun olardı.

He lived here five years ago.

I knew it all along– cümlələrində felin xəbər şəkli –*If he lived here he would come at once. If I knew his address I should write to him* –cümlələrində felin Subjunctive Mood şəkli işlənmişdir.

Formaca eyni olan lived, knew felləri ikinci misallarda həm də yeni məna kəsb etmişlər. Eyni vəziyyəti aşağıdakı misallarda da görmək olar. Məsələn:

I said I should go at once.

I should go if I knew the place.

Whom should I must but him.

Sintaktik kontekstdən asılı olaraq *should* feli müxtəlif mənalarda işlənmişdir.

Felin şəkillərinə müxtəlif dilçilərin münasibəti müxtəlif olmuşdur. M.Döyçbeyin 16 şəkil formasından A.Smirnitski 6 şəkil formasından və nəhayət felin 3 şəkil formasından ibarət olduğunu söyləyən alimlər də olmuşdur. Bu alimlərin hər birisi öz sistemlərinin doğrü olduğunu sübut edəcək dəlillər gətirir. [90.420]

Professor B.Ilyiş özünün iki sisitemli fel şəklini təklif edir. O, əvvəlcə fel şəklini mənaya görə müəyyənləşdirir və bu başlıqları altında aşağıdakı şəkillərdən danışır. [38.210]

Mübtədasız işlənən, heç bir sonluğu olmayan, heç bir köməkçi feli olmayan əmr şəkli.

Show me the map of England.

Watch the traffic lights.

Heç bir sonluğu olmayan, köməkçi feli olmayan şəraitdən doğan mümkünlük və yaxud məqsəd ifadə edən:

It is necessary he come

It is recommended all should take part in this work. May your dreams come true.

Qeyri-real şərt ifadə edən və yalnız budaq cümlələrində işlənən forma.

If he came home early he would find me at home tomorrow. If you had told me beforehand I should have brought the book for you. I should be sorry if you thought ill of me. Perhaps if you explained yourself a little more fully, I should comprehend better (Foster E.M.).

Bundan əvvəlki hissədə qeyd olunduğu kimi modallığın əsas istifadə vasitəsi felin qeyri-real şəkilləridir. Qeyri-real şərt formaları hərəkəti real halda deyil, ancaq danışanın fikrində tutduğu ya arzu, məqsəd, güman, şübhə, həqiqətə zidd olan, ya da problem şəklində olan hərəkətləri bildirmək üçün işlənir. Əmr şəklində olan hərəkət danşanın təkidi ilə dinləyən tərəfindən mütləq yerinə yetirilməlidir. Subjunctive Mood ilə verilən hərəkət isə danışanın arzusunu dinləyənə çatdırır, onun icrası isə ya həqiqətə zidd olur, ya da problem halında qarşıya qoyulur. Məsələn:

I wish it were spring all the year round.

Bu cümlədə mən dinləyənə ancaq icrası qeyri mümkün olan arzumu bildirirəm.

It is impossible that he should have said such a thing –cümləsində şübhə mənası verilib.

If it were not so cold, I should go out –cümləsində mümkünlük ifadə edilmişdir.

Qeyri–real hərəkətləri ifadə etmək üçün Azərbaycan dilində –sa, –sə şəkilçiləri, rus dilind isə felin keçmiş zaman forması ilə ədatı işlənir. Bu ədatın yeri qəti deyil, hətta bəzən bağlayıcıya birləşərək "чтобы" şəklində işlənir. Rus dilində bu şəklə şərt şəkli deyilir və onun yalnız iki mənası var: şərt və arzu. İngilis dilində isə Subjunctive Mood həm sintetik, həm də analitik formalara malikdir. Belə ki, qədim ingilis dilində Subjunctive Mood-un yalnız sintetik formaları olub, zaman keçdikcə şəkilçilər atılıb və xəbər şəkli ilə şərt şəkli arasında fərq olmayıb. Məsələn:

I suggest that they go there at once.

If only I knew about it.

I wished that were with us again.

Muasir ingilis dilində Subjunctive Mood formalarından çox az əlamət qalıb. Məsələn:

I wish it were summer again.

We demand that the atom be banned.

Bu tarixi dəyişikliklər nəticəsində qeyri-real hərəkətləri bildirmək üçün müasir ingilis dilində müxtəlif formalar işlənir:

Felin dəyişməyən forması güman və qeyri-müəyyənlik ifadə edir. Məsələn:

They proposed that he go there.

It is strange that he be late.

They insisted that the question be discussed at the meeting.

Bütün şəxslər üçün *were* forması indiki zamana aid olub qeyri-reallıq bildirir.

I wish he were here.

If she were at home, he would see her.

Bu tarixi dəyişikliklərə nəzər salsaq görərik ki, zaman əlamətləri olan *he be –he were; we have –we had* modallıq bildirən əlamətlərə çevrilmişdir.

Белий В.В *be, have* formasını Subjunctive I*; were, had* formasını isə Subjunctive II adlandırır. Bunlar müxəlif modallıq mənalarına malikdirlər. Subjunctive I daha çox yerdə, yüksək nəsr əsərlərində, rəsmi sənədlərdə, sazişlərdə, bəyannamələrdə və müasir ingilis dilinin danışıq dilində də təsadüf edilir. [61.8]

Ədəbiyyat

1. Musayev O.İ. İngilis dilinin qrammatikası. Bakı 1996, 576 səhifə
2. Hüseynzadə M.M. Müasir azərbaycan dili. Bakı 1963
3. E.M. Gordon, İ.P.Krılova Modality in Modern English, Moscow 1968
4. Ganşina M.A., Vasilevskaya N.M., English grammar Moscow 1964
5. Dickens Ch. The old curiosity shop, Foreign Language Publishing House. M 1982, 304 p.

6. Twain Mark “The adventures of Tom Sawyer” Washington 1988, 105 p
7. Jack London “Short stories”. M. Foreign Language Publishing House.1950, 210 p

Фидан Гадирова

Использование модальности при сослагательном наклонении

Резюме

Грамматические отношения могут быт двоякого рода: либо об объективно – синтаксические отношения между словами и словосочетании, в предложении, либо отношения всего высказывания или предложения к реальности, называемые субъективно- объективными, или модальными.

Fidan Gadirova

Using modality with the Oblique Mood

Summary

Modal verbs unlike other verbs do not denote actions or states, but only show the attitude of the speaker forward the action expressed by the infinitive in combination with which they form compound modal predicate. In this may show that the action is viewed by the speaker as possible obligatory, doubtful certain ets.

Rəyçi: Fəridə Allahverdiyeva
filologiya ürə fəlsəfə doktoru

SOLTANXANIM MUSAYEVA
AAHM
refiq.ceferov@ mail.ru

İNGİLİS DİLİNDƏ ÖN ŞƏKİLÇİLİ FELLƏRİN SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: məsdər, fel, sözönü, indiki zaman, keçmiş zaman, gələcək zaman, felin təsriflənməsi.

Key words: infinitive, Verb, preposition, present tese, past tense, future tense, conjugation verbs.

Ключевые слова: инфинитив, глагол, предлог, настоящее время, будущее время, спряжение глагола.

Bir sıra Avropa dilləri ilə müqayisədə ingilis dilinin fel düzəldən prefiksləri bir qədər çox leksik xarakterə malikdirlər və bildiyimiz kimi Avropa dillərində prefikslər müəyyən qrammatik funksiya daşıyırlar.

Prefikslər vasitəsilə düzələn törəmə fellər içərisində bir sıra sinonim prefikslərə də rast gəlinir.Məsələn,**de-,dis-,mis-,un-.** Bu prefikslər törətdikləri fellərə hərəkət və ya əks məna verirlər: *to misunderstand, to mistrust, to misuse, to undertake, to underline, to overcome, to overlook,to unrise, to untie, to unpack, to uphold, to repay* və s. Bu prefikslər arasında **over-, under-** kimi antonim prefikslər qrupu təşkil edənlərə də rast gəlmək olur. P.M.Karakuş fel düzəldən ön şəkilçilərdən danışarkən onun doqquz növünü göstərir.

Fel düzəldən ön şəkilçilərdən danışarkən biz ön şəkilçilərinin nitq hissəsini dəyişə bilən və bilməyən xüsusiyyətlərini nəzərdən qaçırmamalıyıq. Çünki fel düzəldən ön şəkilçilərinin bəziləri hər hansı bir nitq hissəsinə artırılaraq onu dəyişdirir, bəziləri isə dəyişdirmir.

Bu baxımdan aşağıdakı modellər yaranır:

1)Nitq hissələrini dəyişə bilən ön şəkilçiləri;

2)Nitq hissələrini dəyişə bilməyən ön şəkilçiləri.

1) Nitq hissələrini dəyişə bilən ön şəkilçiləri: Be+n=v

Bu modellərin aşağıdakı semantik xüsusiyyətləri var:

1)Əsasın ifadə etdiyi obyekti öyrənmək, əhatə etmək, təmin etmək. Məsələn, *cloud-becloud (buludla əhatə etmək)*

2)Əsasın ifadə etdiyini bir şeydən məhrum etmək. Məsələn, *head-behead (boynunu vurmaq)*

3) Əsasın ifadə etdiyi kimi olmaq.Məsələn,*slave-beslave (kölə etmək, nökər etmək)*

4) Hərəkətin gücləndirilməsi, intensivliyi, tamlığı, artıqlığı, mənası. Məsələn: *to bebait-to bait or worry persistently, to bebreech-to breech soundly*

5) Əsasın göstərdiyi kimi etmək vəya həmin əlaməti və ya keyfiyyəti vermək mənasında.

Bu halda "**be"**prefiksiəsasənisimvəsifətləbirləşir.Fellərindüzəldilməsininbu tipi, canlıvəməhsuldar tip hesabolunur.Məsələn:*to bedim-to make dim,to befoul-to make little ,to befool-to make a fool,to beblind-to make blind.*

Müasir dövrdə konversiyanın inkişafı ilə əlaqədar olaraq **"be"** prefiksinin rolu xeyli azalıb. **"Be"** prefiksilə olan sözlərin tarixi və etimologiyası bunu bir daha sübut edir ki, onların əksəriyyəti qədim və orta ingilis dövründə yaranıb. **De + n = v** – Bu model aşağıdakı semantik xüsusiyyətə malikdir. Əsasın ifadə etdiyi əşyadan məhrum etmək. Məsələn: pasture-to depasture(to deprise of pasture)

Son zamanlar bu mənanı ifadə edən bir sıra fellər yaranmışdır.Məsələn,de – sting;de – beak

1) It didnt seem real and it depressed him.(The Path of Thunder,p.61)

2) She would be sure to make a scene and he **detested** scenes of every kind. (The picture of Dorian Grey,p.94)

Dis + n=v- Semantik xüsusiyyəti:yox etmək,məhrum etmək,figure-to disfigure

Nadir hallarda bu ön şəkilçisi "hissələrə bölmək" mənasını ifadə edir. Məsələn,member-dismember

1) Martin Eden took a bath ,after which he found that the head of laundryman had disappeared.(Martin Eden,p.142)

To say that Lester was greatly disheartened by this blow is to put it mildly. (Gennie Gerhardt,p.271) **En + n = v-** semantik xüsusiyyətləri:

1) Əsasın ifadə etdiyi əşyaya yerləşdirmək.O.Espersen aşağıdakı sözləri misal gətirir:camp-encamp,cage-encage,box-embox,cloud-encloud

2) Əsasın ifadə etdiyinə çevirmək.Məsələn,*cash-encash*

1) "I will certainly **encourage** them".(The picture of Dorian Grey,p.99)

2) **He** was fully entitled by reason of his birht.(The picture of Dorian Grey,p.52)

Out + n =v-semantik xüsusiyyət:Əsasın ifadə etdiyindən kənar çıxmaq.Məsələn,*outrage,outdistance* və s.

She seemed **outraged** at the thought of him sleeping on the floor.(The path of Thunder,p.83)

Un + n= v –bu model aşağıdakı semantik xüsusiyyətlərə malikdir:

1) Əsasınifadə etdiyi əşyadan azad etmək,məhrum etmək.Məslən: cage-uncage (qəfəsdən azad etmək),chain-unchain (zənciri açmaq)

2) Əsasını fadə etdiyiəşyadan çıxartmaq, azad etmək. Məsələn:carth-unearth (yerdən çıxartmaq)

Un ön səkilçisi tekcə isimlərdən yox,fellərdən də fel düzəldir.Bu zaman bu model yaranır:**Un+v=v**

1. Miss miller helpednme to **undress** (Jane eyre,p.20)

2. she **unlocked** a cupboard and brought out a good-sized cake. (Jane Eyre, p.33)

Be=A=V-semantik xüsusiyyət.

Əsasını ifadə etdiyi kimi etmək. Məsələn:dim-bedim(tutqunlaşdırmaq), little-belittle (balacalaşdırmaq).

1.İn the meantime, Bill had **bethought** himself of the rifle.(White fang,p.115)

2.Then he sawthat no harm befell the dogs that were near tothem,and he came in closer (White Fang, p.204)

En+A=V-Semantik xüsusiyyet:

Əsasını ifadə etdiyi vəziyyətə gətirmək. Məsələn:feble-enfeeb(zəiflətmək)

En+V=V-Semantik xüsusiyyet:adətən felə gücləndirici məna verir. Məsələn: close-enclose: lighten-enlighten.

1.They should be encould be encouraged to suffer hunger without complaint (Jane Eyre,p.29)

2. I learnt for the first time to take pleasure in fine scenery?in the hills yhat enclosed our wouded valley. (Jane Eyre,p.34)

2) **Nitq hissələrinin dəyişə bilməyənön şəkilçiləri: Un+V=V**

Un prefiksi fellere quşularaq əks hərəkət ifadə edir. Məsələn:to cover (örtmək)-to uncover(üstünü açmaq), to behind (əyilmək)-to unbehind (qalxmaq), to shoe (ayaqqabı geymək)-to unshoe (ayaqqabını soyunmaq), to fasten (bərkitmək, bağlamaq)-to unfasten (açmaq)

1.İ dressed unfastened the door with a trembling hand/and opened it.(Jane Eyre,p.55)

2.He unstopped the mast and furled the sail and tied it.(The Pld Man and the Sea,p.95)

Öz mənalarına görə "**un**"prefiksi ilə əmələ gələn fellər 2 böyük semantik qurupa bölünür: 1)Hərəkət bildirən insan əlinin köməyilə həyata keçirilə bilən fellər və ya onları əvəz edən düzəltmə sözlər. Bu fellər aşağıdakı mənaları ifadə edir:

a)birləşdirmək, yapışdırmaq: to bind(bağlamaq), to buckle (kəmərləmək), to brace (bağlamaq), to button(düymələmək),to clasp(qucaqlamaq), to fold (qatlamaq) və s. But he **untied**the harpoon rope from the bitt and passed it through the fishs gills.(The Old Man and the Sea,p.79)

b)burmaq, bələmək, sarımaq: to coil (burulmaq),(spiralvari) to curl "burmaq" to furl "sarımaq: to coil "burulmaq" (spiralvari), to curl "burmaq", to furl "sarimaq, qatlamaq",to roll "yumurlamaq",to link "əlaqələndirmək, bağlamaq".

c) örtmək, bağlamaq: to cap "örtmək, to close (bağlamaq), to lock (kilidləmək), to cork (mantarlabağlamaq), to cover (örtmək), to dress (geyinmək), to mask (maskalamaq), to cage (qəfəsə salmaq), to cloak (plaş geyinmək) və s.

1.Miss Miller helped me **to undress.** (Jane Eyre, p.20)

2. She **unlocked** a cupboard and brought out a good-sizet cake (Jane Eyre, p.33) 2) Əqli və ruhi anlayışları ifadə edən fellər.Bu semantik qurupa daxil olan fellər azlıq təşkil edirlər. Məsələn:

1. İ dislike you the worst of anyone in the world, except John Reed: (Jane Eyre, p.15) Martin took a bath, after which he found that the head of laundryman had disappeared. (Martin Eden, p.142)

2) Bölgü mənası, əsas tərkib hissələrinə bölünmə mənası: to connect birləşdirmək – to disconnect ayırmaq, to join qoşulmaq, birləşmək – to disjoin bölünmək və s.

3) Nədənsə məhrum etmə mənası: to disrank "rütbədən məhrum etmək",to disclaim "öz hüquqlarından imtina etmək,tanımamaq" və s.

Bu məna brinci mənadan demək olar ki, heç nə ilə fərqlənmir.Belə ki,burada dis- prefiksi prefiksiz əsasla ifadə olunmuş mənaya əks olan məna yalnız hərəkət mənası ifadə edir. Məsələn,1. There was I,standing in the middle of the room, none publicly dishonoured. (Jane Eyre, p.31)

2. "Do you mean that we may dismiss you to the rainy night?" (Jane Eyre, p.118) Müasir ingilis dilində roman dillərindən keçmiş dis- prefiksi ilə başlayan çoxlu sayda fellərə rast gəlinir.

Dis-prefiksi sözün əsasını ifadə etdiyi mənaya əks olan məna ifadə edir. Onların bəziləri öz inkişafı dövründə yeni məna kəsb edərək mənalarını dəyişiblər. Məsələn,

1.İt was discovered in the strangest way.(Jane Eyre,p.143)

2.The dark cloud of blood had settled and dispersed in the miledeep sea.(The Old Man and the Sea,p.82)

Mis-prefiksinə bütün german dillərində rast gəlinir. Qədim ingilis dilində çatışmamazlıq, itgi,yoxluq,yanlış,səhv hərəkətləri ifadə etmək üçün fellərə qoşularaq işlədilirdi. Müasir ingilis dilində yayılmış səhv,pis mənasını ifadə edən feli prefiks mis- prefiksidir. Məsələn, to misname – "düzgün adlandırmamaq", to mistake – "səhv etmək",to miscall – "düzgün çağırmamaq", to miscount – "düzgün saymamaq", to misunderstand – "səhv başa düşmək" və s.

Mis- prefiksinin digər mənaları aşağıdakı kimidir: to mistrust "etibar etməmək", to mislike "xoşlamamaq", to misaffect "sevməmək".

Bu fellərdə mis-prefiksi prefiksiz əsasın inkarlıq mənasını ifadə edir.Müasir ingilis dilində belə fellər az işlənir və bir qayda olaraq dis-prefiksi ilə düzəldilmiş sözlərlə əvəz olunur. Un,de, dis prefikslərinə oxşar olaraq mis- prefiksi də təsirli fellərin kökünə qoşulur. Məsələn, to advise-to misadvise, to apply-to misapply, to hear-to mishear, to behave-to misbehave Beləliklə,müasir dövrdə mis-prefiksi fellərin məhsuldar prefiksi hesab olunur.

1) What was great and strong in him, she missed, or worse yet misunderstood. (M.Eden, p.184) 2. He didn't truly feel good because the pain from cord across his back had almost passed pain and gone into a dullness that he **mistrusted.** (The Old Man and the Sea, p.65)

Re-prefiksi latın mənşəlidir.İlk vaxtlar re-prefiksi yalnız roman sözlərinə qoşulurduç ancaq XVI əsrdən başlayaraq bu prefiks əsl ingilis sözlərindən yeni məna qollarını verən fellər yaratmağa başladı: to live- to relive (to live again, to recall, to life): to greet- to regret (to greet again or in return).

Re- prefiksindən 2 halda yeni fellər düzəltmək üçün istifadə olunur.

I. Fellə ifadə olunmuş hərəkət keyfiyyətsizç pis yerinə yetirilibsə bu halda re-prefiksindən bu hərəkətin dəyişdirilməsi və ya yaxşılaşdırılması üçün istifadə olunur. Məsələn, to re-read "yenidən oxumaq ŞŞ, to re-write "yenidən yazmaq", to rebuild "yenidən tikmək, qurmaq" və s.

1) "The curves of your lips **rewrite**history", he said. (The Picture of Dorian Grey, p.258) 2) The Old man **unhooked** the fish,**rebaited** the linde with another sardine and tossed it. (The Old Man and the Sea,p.64)

II. Əgər fellə ifadə olunmuş hərəkət hər hansı səbəbdənsə yerinə yetirilməmiş və ya əvvəlki vəziyyətində qalirsa onda re- prefiksi vasitəsilə əvvəlki vəziyyəti bərpa edilir. Məsələn, to recurve "geri, əks tərəfə əymək, qatlamaq", to regain "gerialmaq". Bir qayda olaraq re- prefiksi əvvəlki və yaxud da ilkin mənaya əks olan mənanı ifadə edir. Məsələn,

He went away, but **reappeared**almost at once. (Jane Eyre,p.40)

Re-prefiksivasitəsilə düzəlmiş yeni felləri əvvəllər düzəldilmiş və ya alınma fellərdən ayırmaq üçün yeni fellərdə re-prefiksi əsasdan defis işarəsilə ayrı yazılır. Məsələn, to re-collect "yenidən yığmaq", to recollect "yada salmaq".

Re-prefiksi aşağıdakı hallarda da defislə yazılır.

I.Əgər əsas fel **e** saiti və ya başqa saitlə başlayırsa: to re-echo, to re-organize, to re-iterate və s.

II.Neologizmlərdə və ya hazırki şərait üçün nəzərdə tutulmuş düzəltmə sözlərdə: to re-label, to re-group.

III. Əgər düzəltmə söz sadə şəkilçisiz sözlə qarşı-qarşıya qoyularsa onda defis işlədilir. Məsələn, to do- to re-do, to discuss- to rediscuss.

1. ”I did not like **re-entering** Thornfield”. (Jane Eyre,p.48)
2. Frank**re-examined them.** (The Finacier,p.32)

Ədəbiyyat

1.Амосова Н. Лексикология английского яэыка. М.,1955
2.Antrushina G.B. English Lexicology.M.1985
3.Axundov A. Ümumi dilçilik B.,1979.
4.Ginzburg A. A Course in Modern Engilish Lexicology .M.,1966
5.Cəfərov S. Azərbaycan dilində söz yaradıcılığı.B.,1960
6.Каращук П.М. Словообраэование английского яэыка.М.,1977

S.Musayeva

Verb forming prefixes in Modern Engilish Language

Summary

The subject of our article is “Verb forming prefixes in Modern Engilish Language” Affixes are considered to be one of the most productive ways of supplying the word formation because they are closely connected with lexicology and its branches/ Affixa d types of bases/ Affixation is connecteds with morphology.All morphemes are subdivided into two large classes:roots and affixes.This article is of theoretical significance from the point of revealing different affixes of the language.

С. Мусаева

Префцксалъные глаголы соьременномапглцйскомязыке

Резюме

Данная работа посвящена теме “Преыиксалъные глаголы в современном английском языке” Всловообразовании современного английского языка префиксация играет значительную роь. tion is defined as the formation of words by adding derivational affixes to differen

Rəyçi: R.C.Cəfərov
filologiya üzrə fəlsəfə doktoru

ARZU HÜSEYNOVA
AAHM
arzu hüseynova@mail.ru

İNGILIS DİLİNDƏ MƏKAN, İSTİQAMƏT BİLDİRƏN PREFİKSLƏR VƏ ONLARIN AZƏRBAYCAN DİLİNDƏ EKVİVALENTLƏRİ

Açar sözlər: İngilis dili, Azərbaycan dili, prefikslər, məkan, istiqamət.
Ключевые слова: Английский язык, Азербайджанский язык, префиксы, место расположения, направления.
Key words: English, Azerbayjani, prefikses.

İngilis dilində zaman önlüklərindən fərqli olaraq, məkan önlükləri Azərbaycan dilindəki məkan bildirən hallara daha çox uyğun gəlir (6, s.55).

Buna görə də ingilis dilində məkan bildirən önlüklərin qarşılığını Azərbaycan dilində məkan halları kimi vermək çox məqsədə uyğundur. Qoşma ilə ismin hal şəkilçisi haqqında danışarkən, demək olar ki, "qoşma ilə hal şəkilçisi arasında vəzifəcə çox yaxınlıq vardır. Şübhəsiz bu yaxınlığı onların eyniyyəti kimi başa düşmək olmaz, çünki hal şəkilçiləri sözdən ayrı bir müstəqil məzmuna malik olmadığı halda, qoşma əksər hallarda, müstəqil sözlərdən əmələ gəlir və şəkilçiyə xas olan xüsusiyyətlərdən məhrum olur " (7, s.7).

Artıq qeyd etdiyimiz kimi, tədqiq etdiyimiz ingilis və Azərbaycan dilləri müxtəlif sistemli - analitik və aqqlünativ dillər hesab olunur. Belə ki, bir dildə qrammatik mənanın ifadə edilməsində anatilizm özünü daha çox büruzə verdiyi halda, digər dildə aqqlütinasiyanın aparıcı rolu daha çox nəzərə çarpır. Məsələn, ingilis dilindəki önlüyü Azərbaycan dilində qoşma və ya hal şəkilçiləri ilə ifadə etmək olar.

İsmin, adətən, hallara görə dəyişmədiyi ingilis dilində cümlədə sözlər arasında əlaqə başqa vasitə ilə, önlüklərlə müəyyənləşdirilir. Lakin bu əlaqələr öz imkanlarına görə hal şəkilçiləri ilə tamamilə bərabər hüquqa malikdir (13, s.170),

Hallar və önlüklər öz aralarında qarşılıqlı təsirdə olmaqla, biri digərindən fərqlənir. Əgər önlüklər cümlədə öz vəzifələrinə görə, öz qrammatik mənasına görə halları xatırladırsa, öz formasına görə onlar hallardan fərqlənir (13, s.170). Azərbaycan dilində də ismin halları qoşmalara tabe olub, onların təsiri ilə dəyişə bilir. Belə ki, ismin bəzi halları qoşmaların tələbinə cavab verir, bəziləri isə qoşmalara tabe olmur.

Bu nöqteyi - nəzərdən İ.X.Cabbarzadə ismin hallarını iki qrupa ayrılır.

a) Qoşmaların idarəsinə tabe olub, onların tələbi ilə işlənən hallar

Bu hallara o, yiyəlik, yönlük və çıxışlıq hallarını daxil edir.

b) Qoşmalara tabe olmayıb, qoşmalarla işlənə bilməyən hallar

Bu hallara isə ismin adlıq, təsirlik və yerlik hallarını daxil edir (3, s.78).

Müəllifə görə, bu hallar heç bir zaman qoşmaların tələbinə cavab vermir.

Yönlük hal hərəkət və məkanla bilavasitə bağlıdır. Məsələn, " Oradakı danışıqlara qulaq asdıqda Bəsti ürəyində daha yaxşı işləməyi qərara alır, yeni yaradıcılıq yolları axtarırdı. Bu həvəslə də Azərbaycana qayıtmışdır " (138, s.163).

Bu misalda verilən Azərbaycana ismi yönlük halında olub, məkan, yer mənasını bildirdiyi üçün haraya sualına cavab verir. Bəzən yönlük halında olan isimlər iş

və hərəkətin son, qurtaracaq və ya dayanacaq nöqtəsini göstərir. Buradakı dayanacaq nöqtə, yerlik halındakı məkandan fərqlənir. Yerlik halda əşya öz yerində olduğu vəziyyətdə qalır, lakin yönlük halda olan sözlərdə isə əşyanın son dayanacaq məntəqəyə çatması göstərilir. Məsələn, "Gəldi, Ağca xanımı lap evlərinə qədər gətirdi " (138, s.278).

Bu nümunələrdən göründüyü kimi, qoşmalardan da istifadə olunur. Qoşma qoşulduğu sözlə birlikdə işin və hərəkətin son mərhələsini, qurtaracağını bildirir.

Çıxışlıq hal qrammatik məkan bildirən qrammatik hallar sırasına daxil olub, iş və hərəkətlə bağlı olur. Çıxışlıq halında iş və hərəkət bir məkandan, əşyadan başlayıb uzaqlaşırsa, yönlük halında iş və hərəkət bir məkandan gəlir, bəlkə də iş və hərəkətin sonu göstərilir. Çıxışlıq hal iş və hərəkətin müəyyən yerdən uzaqlaşmasını, başqa bir məkana doğru baş alıb getməsini bildirir. Yerlik halın məkanla, yerlə daha çox bağlı olması, onu başqa hallardan fərqləndirir. Bu halda olan sözlər iş və hərəkətin vaqe olduğu məkanı bildirməyə xidmət edir. Məsələn, " Kənddə məktəb açıldı, yaşlılar üçün savad kursları yarandı" (138, s.162).

Müasir ingilis dilində məkan önlüklərinə monosemantik və polisemantik önlüklər daxildir: Məkan önlükləri 1) hadisənin icra, yaxud əşyanın tutduğu yeri, 2) hərəkətin istiqamətini bildirir, Hadisənin icra, yaxud əşyanın tutduğu yeri bildirən önlüklər. Bu qrupa biz in, at, on, about, around, behind, below, by, after, before önlüklərini daxil edirik. Bu qrup iki yarım qrupdan ibarətdir.

1) Hadisənin icra olunduğu yeri bildirən önlüklər - in, at, on.

2) Əşyanın yerini bildirən önlüklər - about, around, behind, below, by, after, before. Hadisənin icra olunduğu yeri bildirən önlüklər. Bu önlüklər məkan bildirən isimlərlə əlaqəyəgirdikdə hərəkətin baş verdiyi dəqiq yeri bildirir.

İt had been quite casy to see at the meeting in January that he was in love with her (146, s.44) " Yanvar ayındakı iclasda onun Cemmaya məftun olduğu çox aydın görünürdü ".

We were sitting in my room, smoking and talking about how bad we werebad from a medical point of view I mean, of course(139, s.9) "Biz mənim otağımda oturub papiros çəkir və əhvalımızın pisliyi haqqında danışırıq,- əlbəttə mən bunu tibbi nöqteyi nəzərdən deyirdim",

Göründüyü kimi, hərəkətin baş verdiyi dəqiq yerini bildirən in, at, on önlükləri Azərbaycan dilinə ismin yerlik halı ilə tərcümə olunur.

On önlüyü bəzən Azərbaycan dilinə üstündə, at önlüyü isə yanında kimi tərcümə olunur.

1. Montanelli's portrait was on the table where he had placed it, and the crucifix stood in the alcove as before (146, s.70) "Montanellinin şəkli onun qoyduğu kimi stolun üstündə, xaç isə əvvəldə olduğu kimi taxçada idi"

2. For half an hour he stood at the open window, alone with the summer evening (146, s.81) "O, yay axşamı yarım saat açıq pəncərənin yanında tək dayandı". Bu önlüklər aşağıdakı yarımqruplara ayrılır:

a) ərazi və cəhət bildirən önlüklər:

1. You ought to go intothe country, Uncle James. I wish had a lot of money, I would not live another day in London (130, s.58) " Ceyms dayıç, siz gərək kəndə gedəsiniz, sizin üçün kənddə yaşamaq çox yaxşı olardı. Kaş mənim çoxlu pulum olaydı, mən bir gündə Londonda yaşamazdım".

2. "You have never lived in London?" (130, s. 139) "Siz heç Londonda yaşamısınızmı?" İn önlüyü əsasən böyük şəhər adları bildirən isimlərin qarşısında, at önlüyü isə kiçik coğrafi adları bildirən isimlərdən əvvəl işlənir. Lakin "The Gadfly" əsərinin 93-cü səhifəsində in önlüyü kiçik coğrafi adı bildirmək üçün də işlənmişdir. There are one or two good men in Lombardy, but they write only in the Milanese dialect (146, s.93) "Lombardiyada bir və ya iki münasib adam var, ancaq onlar təkcə Milan şivəsində yazırlar". Cerom K. Ceromun əsərində isə böyük şəhər adı at önlüyü ilə işlənir. Məsələn, We spent two very pleasant days at Oxford (139, s.169) "Biz Oksfordda iki xoş gün keçirdik".

Göründüyü kimi, coğrafi obyekt kimi fərz edilən şəhər adı at, real şəhər adı (binaları, küçələri, bağları, parkları və s ilə birlikdə) təsəvvür olunduqda isə in önlüyündən istifadə olunur. Ərazi və cəhət bildirən in, on və at önlükləri Azərbaycan dilinə ismin yerlik halı kimi tərcümə olunur.

b) İctimai müəssisələrlə əlaqədar sözlərin qarşısında işlənən önlüklər.

His marks in school were good? which made his mother glow and even reluctant praise from his father (140, s.13) "Məktəbdə onun qiymətləri yaxşı olurdu, anasının uçmağa qanadı olmaz, atası da arabir onu tərifləyirdi".

He was now explaining in Fabrizi's library his theory of the line which should be taken by liberal writers at the moment (146, s.86) "İndi o Fabritsinin kitabxanasında o dövrdə liberal yazıçıların mövqeyi haqqında nəzəriyyəsini izah edirdi" And the man at the shop said this was the best cognac in the world (141, s.42) "Dükanda şərabçı da dedi ki, bu dünyada ən yaxşı konyakdır".

Göründüyü kimi, ictimai müəssisələri bildirən sözlərin qarşısında da in və at önlükləri işlədilir və Azərbaycan dilinə yerlik halı ilə tərcümə olunur. Ticarət Nazirliyində, dərsdə, idarədə, universitetdə, kitabxanada, dükanda, məktəbdə sözlərin -da və -də şəkilçiləri yerlik halı bildirir və yer məzmunu ifadə edir.

At önlüyü zaman bildirən isimlərlə əlaqəyə girdikdə, in önlüyü ilə sinonim olduğu kimi məkan bildirən isimlərlə də əlaqəyə girdikdə, sinonimlik təşkil edir. Lakin buna baxmayaraq onları fərqləndirən cəhətlər də vardır.

İn önlüyü, bir növ, bina bildirən isimlərin qarşısında işlənib, ictimai bina daxilində baş verən hadisəni bildirdiyi halda, at önlüyü, bizcə, bina deyil, daha çox tədris və müəssisə ilə əlaqədar isimlərin qarşısında işlənir. Lakin ifadələrdə isə at önlüyü mövcud olan əşyanın yerini göstərmək üçün, in önlüyü isə əksinə. təhsil və müəssisə bildirmək üçün işlədilir.

c) Bina və binanın hissələri ilə əlaqədar sözlərlə işlənən önlüklər.

Everyone turned to the only woman in the room who had been sitting on the sofa, resting her chin on one hand and listening in silence to the discussion (146, s.91) "Hamı, əli çənəsində otaqda divanın üstündə oturan, mübahisəyə sakitcə qulaq asan yeganə qadına çevrildi".

On the first floor he met Gibbons down with an air (146, s.69) "İkinci mərtəbədə o, məzəmmətedici lovğa bir ifadə ilə pilləkəndən aşağı düşən Qibbonsa rast gəldi". On the staircase the Italian servants were waiting anxious and sorrowful (146, s.36) " Pilləkəndə italyan xidmətçiləri həyəcanlı və qüssəli halda gözləyirdilər". A coloured woman who was almost while and who dressed like the white-people met them at the door (121, s.16) "Qapıda onları ağ adamlar kimi geyinmiş qarabuğdayı bir adam qarşıladı".

Göründüyü kimi, bina və binanın hissələrini bildirən isimlərlə işlənən on, in və at önlükləri Azərbaycan dilində ismin yerlik hali ilə ifadə olunur.

ç) Coğrafi mühitlə əlaqədar sözlərlə işlənən önlüklər.

Suppose we take a said on the lake today, and go up into the mountains yomorrow morning (146, s.19) "Bəlkə, bu gün göldə qayıqla gəzək, sabah da səhər dağlara qalxarıq".

We took some bread and cheese with us and got some goat's milk up there on the pasture (146, s.23) "Biz özümüzlə bir az pendir-çörək götürdük, otlaqda da bir az keçi südü tapdıq".

Göründüyü kimi, coğrafi mühit bildirən in, on, at önlükləri Azərbaycan dilinə yerlik halı kimi tərcümə olunur.

On önlüyü isə Azərbaycan dilinə üstündə kimi tərcümə oluna bilər.

All the winter the gadner sat alone on the ice (130, s.92) "Bütün qışı qaz tək tənha buz üstündə oturdu".

d) Nəqliyyat və küçə hərəkəti ilə əlaqədar sözlərin qarşısında işlənən önlüklər.

In the first carriage old Joylan and Nicholas were talking of their wills (130, s.110) "Birinci karetada qoca Colian və Nikolas öz arzu və istəklərindən danışırdılar".

Bəzən in önlüyü Azərbaycan dilinə içinə sözü vasitəsilə də tərcümə oluna bilər. Sure enough? he was there? but he wasn't sitting in the carriage; he was outside, on the step of the carriage smoking his pipe (123, s.12) "Kifayət qədər əminliklə, o burada idi, lakin karetada oturmamışdı, bayırda idi, karetanın pilləsində durub öz trubkasını çəkirdi". f) Ailə və işlə əlaqədar sözlərlə işlənən önlüklər.

Then one night I was working late at my office and when I came out there were no people in the streets, so I though I'd do and see the window (140, s.37) "Bir gün mən idarədə gecə yarıya qədər işlədim, bayıra çıxanda küçələrdə heç kəs yox idi. Beləliklə, fikirləşdim ki, gedim vitrinaya baxım". e) Elm ilə əlaqədar sözlərlə işlənən önlüklər. In thermodynamics these magnitudes are usually the pressure p, the volume v and absolute temperature t. "Termodinamikada təzyiq P, həcm V və mütləq temperatur T ölçülərdir". ə) Ev əşyaları ilə əlaqədar sözlərlə işlənən önlüklər. Arthur slowly crossed the room and sat down on the bed (146, s.73) "Artur yavaş-yavaş otağın bu başından o birisinə keçdi və çarpayıda oturdu".

Göründüyü kimi, ev əşyaları ilə əlaqədar sözlərlə işlənən in və on önlükləri Azərbaycan dilinə ismin yerlik halı ilə tərcümə olunursa, at önlüyü "qarşısında" kimi ifadə olunur. On önlüyü də bəzən Azərbaycan dilinə üstündə kimi tərcümə olunur. Bütün misallarda göründüyü kimi, hadisənin icra olunduğu yeri bildirən at, in, on önlükləri Azərbaycan dilində əsasən ismin yerlik halı ilə ifadə olunur.

İn önlüyü əşyanın tutduğu yeri, mövcud olan məkanı göstərmək üçün işlədilir. Bu nöqteyi-nəzərdən in önlüyü at önlüyündən fərqlənir. On önlüyü məkan bildirən isimlərlə əlaqəyə girdikdə, əşyanın üstdə yerləşdiyini göstərir. Bu önlük yer, sahil, döşəmə və s. isimlərin üst səthində baş verən hadisəni bildirir.

Lakin "The Gadfly" əsərinin rus dilindən Azərbaycan dilinə tərcüməsinin 54-cü səhifəsində in önlüyü Azərbaycan dilində üstündə köməkçi adı ilə verilmişdir.

His mother work-basket stood in a little cupboard (146, s.71) "Bu, rus dilindən belə tərcümə edilmişdir: "Onun anasının tikiş səbəti balaca şkafın üstündə idi". Lakin orijinaldan edilən tərcümədə in önlüyü Azərbaycan dilində ismin yerlik halı ilə verilmişdir: "Anasının tikiş səbəti kiçik şkafda idi".

Hadisənin icra olunduğu yeri bildirən on, in, at önlükləri polisemantik qrupa daxil olan önlüklərdir. Nümunələrdən göründüyü kimi, bu önlüklər çox vaxt Azərbaycan dilinə ismin yerlik halı ilə tərcümə olunsa da, bəzən köməkçi adlarla da ifadə olunur. Hadisənin icra olunduğu yeri bildirən önlüklərdən in önlüyü Azərbaycan dilində ismin yerlik halı (-da, -də), köməkçi ad(içində) ilə, at önlüyü ismin yerlik halı (-da, -də), köməkçi ad (yanında, qarşısında) ilə, on önlüyü isə ismin yerlik halı (-da,-də), köməkçi ad (üstündə) ilə ifadə olunur.

Ədəbiyyat

1) К.П.Ивановга. Теоретическое грамматика современного английского языка. М - 1981. атр. 172 -176.

2) И.Б.Долунуна. Синтаксическое значимое категорий английского глагола . Ленинград - 1982 "Наука"

3) В.Н.Ярцева Становление и развитие современного английского языка.

4) İ.Kərimov, T.Hüseynzadə: İngilis dilinin praktik qrammatikası. Bakı - 1966. " Maarif " nəşri.

5) O.Musayev. İngilis dilinin qrammatikası . Bakı - 1979. səh.219

A.Hüseynova

The suffixes suffixes meanino plase

Summary

The article deals with the suffixes meanino plase of the action and its eguivalents in Azerbaijani, also their role and funcvons in the simple and complex sentences. The article deals with the morphological transformation from English into Azerbaijani, also the role and function of the article and other parts of speech in the process of translation.

А.Гусейнова

Предлоги обозначающие направление, место действие

Резюме

В статье рассматриваются предлоги обозначающие направление, место действие и его эквиваленты на Азербайджанском языке, а также их родь и функция в простых и сложных предложениях. В статье рассматриваются грамматическая трансформация с английского языка на азербайджанский язык, а также рол и функция артикля и других чейь речи в процессе перевода.

Rəyçi: N.Rzayeva
fil.üzrə fəlsəfə doktoru

NAİZƏ SALMANOVA
AAHM
nazile@mail.ru

KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİ SİSTEMİNDƏ MODAL TİPLİ SÖZLƏRİN ƏSAS FUNKSYALARI

Açar sözlər*: modal sözlər, qrammatika, nitq hissələri, felin şəkilləri, modal tipli fellər, felin şəkil kateqoriyası.*
Ключевые слова: модальные слова, грамматика, речевые части, виды глагола.
Key words: modal words, grammar, parts, of spesh.

Hər bir dilin lüğət tərkibi onun qrammatik qayda-qanunlarına nisbətən daha tez dəyişməyə, zənginləşməyə çox meyillidir. Təbiət və cəmiyyət hadisələrinin daima dəyişməsi, bir-birinə keçməsi, qarşıması faktı dil üçün də yad deyil. Bu və ya digər bir dilin cilalanması, səlisləşməsi, obrazlı olması üçün zaman keçdikcə yeni-yeni vasitələr yaranmağa başlayır. Belə ki, bunların nəticəsində başqa dillərdən ingilis, yaxud Azərbaycan dillərinə hazır şəkildə keçən köməkçi vasitələrə ayrı-ayrı cümlələrin deformasiyası nəticəsində meydana çıxan modal vasitələrə də rast gəlirik. Digər nitq hissələrindən fərqli olaraq, modal sözlərdə məna nisbətən daha aydın hiss olunur. Modal sözlər söz və cümlələr arasında heç bir sintaktik münasibət əks etdirmir, söz və ya cümlələrə əlavə məna çalarlığı, fikrə münasibət anlayışı yaratmağa xidmət edir. Məhz buna görə də həm ingilis və həm də Azərbaycan dilçiləri modal sözləri xüsusi bir kateqoriya kimi səciyyələndirir. Mənim fikrimcə modal sözlərin yaratdıqları modal məna çalarların məhz elə özlərində mühafizə olunan məna qalıqları ilə əlaqədardır. Qeyd etmək lazımdır ki, modal sözlər daha çox leksik məzmuna malikdir, yəni onlarda nominativ mənadan qalan əlamətlər, çalarlıqlar daha qüvvətlidir.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, köməkçi nitq hissələrinin həm leksik və həm də qrammatik məna əks etdirməsi məsələsində dilçilərin mövqeyi müxtəlifdir. Bir qrup dilçilər köməkçi sözlərdə ancaq leksik məna görür, qrammatik mənanı qəbul etmirlər, digər bir qrup isə köməkçi sözlərin ümumi mənası qrammatik, digər mənalarını isə leksik hesab edirlər.

Köməkçi nitq hissələrində məna məsələsinə akademik V.V.Vinoqradov tamamilə başqa şəkildə yanaşır. O, köməkçi nitq hissələrində həm leksik, həm də qrammatik məna görür.

V.L.Kaunşanskaya, R.L.Kovner və başqaları «İngilis dilinin qrammatikası» əsərlərində başqa dilçilərdən irəli gedə bilməmiş və nitq hissələrini əsas və köməkçi deyə iki yerə bölmüşlər. Bizi maraqlandıran modal sözləri də əsas nitq hissələri bölgüsünə daxil etmişlər. E.M.Qordon və İ.R.Krılova nitq hissələrinin bölgüsünə yeni prinsiplə yanaşmış əsas və köməkçi nitq hissələri ilə birgə «müstəqil üzvlər» adlı üçüncü bir təsnif irəli sürmüşlər ki, modal sözlər də həmin prinsipin tərkibində öz izahını tapmışdır.

Modal sözlər müasir türk dillərində, o cümlədən müasir Azərbaycan dilində də çox maraq doğuran nitq hissələrindəndir. Bir çox dilçilər modal sözlər ingilis dilçiliyində olduğu kimi əsas nitq hissələrinin tərkibində verməyə məsləhət bilmişlər.

Müasir Azərbaycan dilində işlədilən modal sözlərin əksəriyyəti müstəqil mənalı sözlərdən ibarətdir. Onlar öz real leksik mənalarını bir qədər dəyişərək modallıq məzmununu kəsb edir, sintaktik vəzifələrini itirir və köməkçi vasitəyə çevrilir. Modal sözlərdə leksik məna asanlıqla sezilir. Buna görə də cümlədə sözlər dəyişməz qaldıqda belə, modal söz dəyişdikdə cümlənin mənasında əsaslı surətdə dəyişiklik baş verir. Məsələn:

1. *Deyəsən, onu bizə tezliklə göndərəcəklər* (Ə.Abbasov, «Ünvansız məhəbbət») .

2. *Şübhəsiz ki, Rüxsarənin dərdini ondan başqa hissə edən olmazdı* (S..Rəhimov, «Saçlı»).

Modal sözlər köməkçi nitq hissələri içərisində xüsusi bir yer tutur. Onlar həm əsas, həm də köməkçi nitq hissələrindən semantik cəhətdən nominativ leksik mənaya malik olmaları ilə fərqlənir. Bu sözlərin müstəqil mənası yoxdur. Onlar müstəqil mənalı sözlərdən tədricən təcrid olunaraq öz mənalarını daraldır, yeni məna kəsb edir. Onlar eyni zamanda öz sintaktik vəzifələrini də dəyişir, müstəqil cümlə üzvi olmaq qabiliyyətini itirir, yeni vəzifə ifa etməyə başlayır. Modal sözlər morfoloji baxımdan da əsas nitq hissələrindən fərqlənir. Bu sözlər morfoloji cəhətdən tamamilə dəyişməz olub, heç bir sözdüzəldici şəkilçi qəbul etmir. Onlar sintaktik cəhətdən birləşmə əmələ gətirmə qabiliyyətinə də malik deyildir. Bu cəhətdən onlar bir növ zərflərə yaxınlaşır.

Yuxarıda qeyd etdiyimiz araşdırmalardan belə qənaətə gələ bilərik ki, modal sözlər, onların nitq hissələri sistemindəki yeri barədə dilçilər yekdil fikirdə deyil. Dilçilərin bəziləri modal sözləri ayrıca təbqiq etməyi məsləhət bilməmişlər.

Digər bir qrup dilçilər istər ingilis dilində, istər də Azərbaycan dilində olsun, modal sözləri bu və ya digər nitq hissələrinin tərkibində araşdırmışlar. Üçüncü qrup tədqiqatçılar isə onlara yeni aspektdə yanaşmış əsas və köməkçi nitq hissələri ilə birgə, əlavə üçüncü qrup nitq hissələrindən söhbət açmışlar. Onlardan bəziləri bu qrup «sərbəst», bəziləri «müstəqil», bəziləri isə əsas və köməkçi nitq hissələri arasında «keçid» vəziyyətdə olan nitq hissələri adlandırmışlar.

Modalllığın qrammatik ifadə vasitələri

Müasir ingilis və Azərbaycan dillərində modallığın öncə haqqında danışdığımız leksik-semantik ifadə yollarından başqa qrammatik ifadə üsulları da vardır ki, bunlar da öz əksini hər iki dildə felin şəkillərində tapır.

Felin şəkilləri modallığı sistemli halda əks etdirməyə xidmət edir. Başqa sözlə şəkil kateqoriyasının dildəki funksiyası danışanın nöqteyi-nəzərindən müəyyən hərəkətin, hadisənin gerçəkliyə münasibət bildirməkdir.

Şəkil kateoriyası modallığın qrammatik morfoloji yolla ifadə üsulu olmaqla, onun digər ifadə üsullarına qarşı durur, funksional-semantik mərkəz rolunu oynayır və onlardan dildəki mövqeyinə görə əsaslı surətdə fərqlənir.

E.M.Qordon, İ.K.Krılova «Modality in Mordern English» (Müasir ingilis dilində modallıq) kitabında qeyd edirlər ki, modal fellərin və modal sözlərin cümlə-

də işlənməsi cümləyə əlavə rəngarənlik gətirir. Lakin bu heç də o demək deyildir ki, modal fel və ya modal söz işlənməyən cümlədə modallıq yoxdur. Modallığı ifadə edən leksik-semantik vasitələrdən heç birisi bunu fel şəkilləri qədər əks etdirə bilməz. Ona görə ki, danışanın ifadə etdiyi fikrin real və ya qeyri-real fakt, arzu, istək olduğu bilavasitə fel şəkillərinin özləri ilə reallaşır.

Felin şəkil kateqoriyası vasitəsilə ifadə olunan modallığı cümlələnin modallığından fərqləndirmək lazımdır.

Məlumdur ki, hər hansı bir cümlə həmişə modal cəhətdən təchiz olunmuşdur, çünki o bu və ya digər faktı müəyyən edir, həm də danışanın bu faktı müəyyən edir, həm də danışanın bu fakta, hadisəyə və s. olan münasibətini ifadə edir. Lakin fel formasının modallığı ikinci modallıqdır, bu sanki cümlə modallığının üzərinə qoyulur, cümlənin modallığı ifadənin bütün cəhətlərin, fel formasının modallığı isə xüsusi olaraq feli xəbərə aiddir.

Modal fellər hərəkət ifadə etmir, onların məsdər və analitik formaları yoxdur.

I can do this work – Mən bu işi etməyi bacarıram.

I must do this work – Mən bu işi etməliyəm.

Modal fellərdən sonra «**to**» məsdər hissəciyi işlənmir (ought modal felindən başqa).

He must come to take a book – O gəlib bu kitabı götürməlidir.

III şəxs təkdə modal fellər Present Indefinite-də (indiki qeyri-müəyyən zaman) -s sonluğu qəbul etmir. Sual və inkar formaları «to do» köməkçi felsiz düzəldilir.

May I ask a question? – Sizdən sual soruşa bilərəmmi?

You must not be late – Siz gecikməməlisiniz.

Bütün modal fellərinin gələcək zaman forması yoxdur. «**Must**» modal felinin keçmiş zaman forması yoxdur. Zaman formalarını düzəltmək üçün «hansı ki» modal felləri özləri düzəldə bilmirlər, onların ekvivalentləri vasitəsilə düzəldilir.

Ədəbiyyat:

1. N.Məmmədov. Azərbaycan dilçiliyinin nəzəri əsasları. «Maarif» nəşr. Bakı. 1971 il.
2. В.Н.Ярцева. Становление и развитие современного языка. Москва, 1969 г. Изд. «Наука», стр. 131.
3. Т.В.Фралова. Грамматика английского языка. Москва. 1961. Изд. «Наука», стр. 219.
4. И.П.Иванова и В.В.Бурлакова. Модальные слова современного английского языка. Москва, 1961. Из. «Высшая школа».
5. F.A.Svartvik, G.T.Leech. Communicative grammar of English. Moscov, 1983.
6. F.A.Cəlilov: Modallıq, zaman və şəxs kateqoriyası //Azərbaycan dilinin morfologiyası. «Maarif» nəşriyyatı. Bakı,1988, səh. 250.

С.Наиза

Модальность в современном английском и азербайджанском языках

Резюме

В статье рассматриваются модальность в современном английском и азербайджанском языках их роль и значение в простых и сложных предложениях, а также исследуется их место назначение в часть речи в обоих языках.

S.Naize

Modal expressing modality in modern Azerbaijan an English languages

Summary

The explanation of the indicative modal expressing modality in modern Azerbaijan an English languages was thoroughly given in this article. The category of the indicative mood, the expression method of modality by grammatical and morphological ways were also explained.

Rəyçi: R.C.Cəfərov
fil.fəlsəfə doktoru

ELNURƏ QULİYEVA
H.Əliyev adına AAHM
elnura@mail.ru

DİL ƏLAQƏLƏQƏLƏRİNİN DİLİN LEKSİK SISTEMİNƏ TƏSİRİ

Açar sözlər: dil əlaqələri, dilin leksik sistemi, qohum dillər, alınma sözlər.
Ключевые слова: языковые связи, лексическая система языка, родственные языки, заимствованные слова.
Key words: lingual relation, lexical system of the language, relative languages, borrowed words.

Dil əlaqələri ictimai hadisədir. Onun meydana gəlməsi insan birliklərinin, tayfa və qəbilələrin yaranma dövrünə təsadüf edir. Tayfa və qəbilələr,millətlər və xalqlar tarixi boyu bir-birilə təmasda olmuşlar. Təbiidir ki, iqtisadi, mədəni, dini, siyasi əlaqələr ən mühüm ünsiyyət vasitəsi olan dilin köməei ilə gtrçəkləşmişdir. "Dilin ictimai mahiyyətindən danışarkən insan cəmiyyətinin inkişafında baş verən dəyişmələri də nəzərə almaq lazımdır, çünki dil cəmiyyətin inkişafının bütün sahələrini daha geniş və daha ətraflı əks etdirmək qabiliyyətinə malikdir".

Hər bir dilin formalaşması onun daşıyıcısı olduğu xalqın inkişaf tarixindən, məskunlaşma yerindən, əlaqədə olduğu başqa dillərin təsirindən asılıdır. Ictimai-siyasi prosəsdə qohum və qohum olmayan millətlər arasında müxtəlif səciyyəli əlaqələri ayırmaq mümkün olduğundan dil əlaqəiərinin üç növü fərqləndirilir: 1)qohum dillər arasında; 2)qohum olmayan dillər arasında; 3)qarışıq əlaqələr. Göstərilən əlaqə növlərindən birinci ikisində əlaqə iki dil arasında gedə bilirsə, üçüncü növ, yəni qarışıq əlaqə ən azı üç dilin qarşılıqlı təsirini nəzərdə tutur. Qarışıq əlaqə həm birinci, həm də ikinci növ əlaqəni özündə birləşdirir. Bununla yanaşı, üçüncü növ əlaqə özünün mürəkkəbliyi ilə seçilir. Əlaqədə olan müxtəlif dillərin sayı artdıqca, əlaqə nəticəsində dildə baş verən dəyişmələr, dilə olan təsirin formaları da artır.

Dil əlaqələrinin gerçəkləşmə yolundan asılı olaraq təmaslı və təmassız əlaqələr də bir-birindən fərqləndirilməlidir. Dillərin təması dedikdə, onların paralel işlənməsi nəzərdə tutulur. Bu zaman ünsüyyət prosesində ana dili ilə yanaşı başqa bir dildən də istifadə olunur. Təmaslı əlaqə ikidilliyin (bilinqvizmin) və çoxdilliyin yayıldığı ərazidə baş verir. Qeyd etmək lazımdır ki, təmaslı əlaqə üçün əlverişli mühitin olması əsas şərtdir. Bele mühüt isə müxtəlif dil daşıyıcılarının eyni ərazidə yaşaması doğrudur. Məsələn, Qafqazda, o cümlədən Azərbaycanda müxtəlif dil daşıyıcıları eyni bir ictimai birlikdə yaşayırlar. Azərbaycanda rus, ləzgi, avar, talış, tat və s. dillərin Azərbaycan dili ilə təmaslı əlaqəsi mövcuddur. Təmaslı əlaqə zamanı dil daşıyıcılarının bir qismi üçün iki və daha çox dildən istifadə vacibdirsə, diger qismi üçün bu, zəruri deyildir. Məsələn, Respublikamızda ləzgi, talış, tat və s. azsaylı millətlər üçün Azərbaycan dilindən istifadə vacibdir. Lakin bu məkan daxilində Azərbaycan dilinin daşıyıcıları üçün qeyd olunan dilləri bilmək heç də zəruri deyil. Təmasda olan dillər arasında belə münasibət dilin ictimai funksiyası ilə bağlıdır. Bu məsələni tədqiq edən F.P.Filinin çoxdilliliyin dilin ictimai funksiyasından irəli gəldiyini qeyd edərək, bu prosesi cəmiyyətin tarixi ilə bağlı olaraq araşdirmağı

düzgün sayır. F.P.Filinin tədqiqatında cəmiyyətin müxtəlif dövrlərində dil əlaqələrinin fərqli şəkildə özünü göstərməsi qeyd olunur.

Dil əlaqələri prosesində dil sisteminin muxtəlif səviyyələrinə təsir (substrakt və abstrat) olur və belə təsirin nəticəsi dildə özünü mütləq göstərir. Dil əlaqələrinin əsas göstəricisi dildn başqa dildən müxtəlif linqvistik vahidləri alıb öz arsenalına daxil etməsidir. Qohum və onlarla bir ərazidə yayılmış qohum olmayan dillərin qarşılıqlı təsiri əlaqədə olan dillərin hər birinin müxtəlif struktur səviyyələrində özünü göstərir.

Məlumdur ki,dilin təsirə ən təz və ən çox məruz qalan sahəsi onun leksik sistemi, yəni lüğət fondudur. Dillərin təsiri özünü, ilk növbədə, sözalma prosesində göstərir: "Sozlərin alınması dillər və mədəniyyətlər arasında qarşılıqlı əlaqələrin, ümumi dəyərlərin yaradılmasının ən bariz nümunələrindən biridir". Ona görə müxtəlif dillər arasında əlaqənin tədqiqinə alınva sözlərin,sözalma prosesinin araşdırılması ilə başlanmalı,sözlərin bir dildən başqa dilə keçməsinin bir sıra dildaxili və dilxarici səbəbləri də nəzərə alınmalıdır.

M.Bragina əcnəbi sözlərin dildaxili alınma səbəblərini aşağıdakı kimi müəyyənləşdirir: yəni əşya və anlayışı bildirmək üçün doğma dildə ekvivalent sözünün olmaması; mənanın dəqiqləşdirilməsi, konkrətləşdirilməsinə,üslubi sinonimlərə ehtiyacın olması; ekspressivliyə meyl; çoxmənalığın aradan qaldırılması və s..

Dildaxili amillərin özü sözalmanı labüd edir. Çünki hər bir yəni anlayışı ifadə etmək üçün dilin daxili imkan və vasitələri kifayət qədər olmur. Lüğət tərkibi dilin digər yaruslarına nisbətən mütəhərrik olduğuna görə yeni sözyaratma meyli və sözalma prosesi müntəzəm sürətdə baş verir. Lakin sözyaratma prosesi, bir qayda olaraq, yeni anlayışları adlandırmadan geri qaldığına görə başqa dilin leksik materialı üçün zəmin yaradır. Buna görə də müasir dünya ilə hər zaman ünsiyyətdə olan xalqın dilinə başqa dillərdən söz keçmiş olur.

Dilxarici amillərin də sözalma prosesinə güclü təsiri hiss olunmaqdadır. Xalqların, eləcə də dillərin qarşılıqlı əlaqaləri həm dili zənginləşdirən yollardan biri kimi maraq kəsb edir, həm də ümumiyyətiə, xalqların əlaqə və təsir dairəsinin genişliyini göstərir. Bele ki, alınmalar vasitəsilə bir xalqın başqa xalqdan nəyi öyrəndiyi aydın olur.

Bir cəhəti də qeyd edək ki, dünya dillərindəki hər hansı yeni informasiya müvafiq komonikasiya vasitələri ilə bir-birinə ötürülür. Informasiyanın ötürülmə prosesində, əsasən iki qütb iştirak edir: informasiya verən və onu qəbul edən. Yeni anlayışlar, təbii ki, informasiya verən tərəfə aid olduğu üçün bir sıra hallarda informfsiya alan dilin yeni anlayışları qəbul ətməsi prosesində bəzi xüsusiyyətlər meydana çıxır. Bunlardan ən başlıcısı odur ki, informasiya alan dildə yeni anlayışların ifadəsi üçün söz və heç də terminlər kifayət etmir. Bu çatışmazlığın aradan qaldırılması üçün informasiya verən dilin imkanlarına – yeni söz və terminlərə müraciət olunur. Bununla da informasiya verən dildən söz və terminlər ya hazır şəkildə alınır, ya da onlarda müəyyən dəyişikliklər edilməklə işlədilir. Elm və təxnikanın inkişafı, həmçinin Azərbaycanda ictimai-siyasi deyişiklik – müstəqilliyin qazanılması ilə bağlı olaraq Avropa dillərindən küllü miqdarda sözlər dilimizə keçməkdədir. Azərbaycan dili kifayət qədər uzun bir dövrə - postsovət dövründə informasiyaverici mənbə kimi yalnız rus dilindən istifadə etmişdir. Buna görə də dilimizə rus və rus dili vasitəsilə Avropa dillərindən, o cümlədən ingilis dilindən həm müvafiq söz-

lər daxil olmuş, həm də bu dillərin təsiri ilə Azərbaycan dilinin özündə yeni anlayış ifadə edən leksik vahidlər yaranmışdır.

Bir dildə başqa bir dilin sözlərinin qeydə alınıb göstərilməsi dilin tədqiqininilk dövrlərinə şamil edilməlidir. Şünki ibtidai-icma quruluşu və belkə bundan da əvvəl hökm sürən dil əlaqələri sözalmanı gerçəkləşdirmişdir.

L.Blumfildin əsas ənənələri zəminində mövcud olan fərqli hadisələri dil alınmaları adlandırır və onların iki növünü fərqləndirir: 1)dialekt alınmaları; 2) mədəniyyət sahəsindəki alınmalar. Qeyd etmək lazımdır ki, hadisə məhfumu burada geniş mənada işlənir və onun xüsusi halı leksik alınma ilə eyniləşdirilə bilər. Hər şeydən əvvəl, L.Blumfildin dildaxili alınmaları da ayırmasını göstərmək vacibdir. Onun fikrinə görə, alınmaların aşağıdakı növləri vardır: 1)mədəniyyət anlayışı olan alınmalar; 2)ərazi və siyasi yaxınlıq nəticəsində yaranan təmaslı əlaqə hesabına meydana gələn "daxili" alınmalar; 3)dialektlərdən ədəbi dilə keçən dialekt alınmaları. Dialekt və şivələrdən ədəbi dilə keçən sözlər də əslində, alınmalardır. Lakin bu alınmalar nə qohum, nə də qohum olmayan dillərdən gəlmə olmayıb, dilin özünə məxsusdur. ədəbi dilin dialekt və şivələrdən sözalması labüd və vacib prosəsdir. Sözyaratma zamanı da dialektlərə istinad etmək lazımdır. Ancaq müxtəlif dillərin əlaqəsinin nəticəsi olan sözalmadan danışarkən dialektlərdən alınmalar nəzərə alınmamalıdır. Uzun müddət Sovətlər İttifaqının tərkibində olan Azərbaycan İngiltərə ilə mədəni siyasi əlaqələrə malik deyildi. Lakin bu dövrdə rus dili vasitəsilə, yaxud ingilis dilindən tərcümələr nəticəsində Azərbaycan dilinə ingilis sözləri daxil olmuşdur. Bu sözlərin müəyyən qismini mədəniyyətə aid sözlər və elmi-təxniki anlayışlar təşkil etmişdir.

Dil əlaqələri probleminin fundamental səviyyəyə qaldırılması U.Vaynrayxın adı ilə bağlıdır. Dil əlaqələrinə sistəm kimi yanaşan tədqiqatçı əlaqələrin səbəblərini, mexanizmini və dillərə təsir formalarını aydınlaşdırmağa çalışmışlar. Təbii ki, belə bir tədqiqatda alınma məsələsi də öz yerini tutmalı idi. U.Vaynrayx alınmaları blinqvizm şəraətində dillərin interferensiyasının aşlanğıc forması hesab etmişdir.

K.N.Yeryomina yazır: "alıma prosesi bir dilə başqa bir dilin elementlərinin keçməsidir". Alınma elementlər yaxud alınmalar fonem, morfem, söz, söz strukturu, söz birləşməsi ola bilər.

Dilçilik ədəbiyyatında alınma sözlərin fərqləndirilməsi, seçilməsi və təyini üçün müəyyən meyarlar təklif olunur. Y.S.Sorokinə görə, alınan sözün alan dilin fonetik və morfoloji normalarına formal şəkildə uyğunlaşması, dilin müxtəlif funksional uslublarında işlənməsi, derivatlıöa, sözyaratma imkanlarına malik olması, alan dilin öz sözləri ilə birləşmələr yaratması və frozoloji vahidlərlə işlənə bilməsi, dubletlikdən uzaqlaşması, yəni yaxın sinonimlərdən fərqlənməsi alınma sözü təyinetmənin əsas meyarlarıdır. Lakin göründüyü kimi, məllifin irəli sürdüyü meyarlar çoxluq təşkil edir və onların hamısının eyni zamanda mümkünlüyü xeyli çətindir. Müxtəlif dillərə aid materiallar əsasında göstərilən meyarların hamısına eyni zamanda cavab verən sözlər hesablanıb müqayisə aparılarsa, onların azlığını aşkara çıxarmaq mümkündür. Halbuki, dillərdə alınma sözlər müəyyən çəkiyə malik olur.

Ədəbiyyat

1. K.Abdullayev. Azərbaycan dili sintaksinin nəzəri problemləri. B.,1999, s. 246.
2. Ə.Ə.Abdullayev. Mətni anlama modelləri. B., 1999 345 s.
3. A.M.Babayev. Dilçiliyə giriş. B., «Maarif», 1992, s. 12.
4. Q.M.Bəyzadə. Mətn dilçiliyi (məqalələr və tezislər). B., Qorqud, 1997, 799 s.
5. A.M.Qurbanov. Bədii mətnin linqvistik təhlili. B., 1986, s. 379.
6. M.Ə.Mahmudov. Mətnin formal təhlil sistemi. B., Elm, 2002, 242 s.

E. Гулиева

Лексические систему языковые связи,
Резюме

В статье рассматриваются влияние лексические систему языковые связи, а также общий анализ лингвистики в современном этапе, некоторые мнение и высказывание учёных – лингвистов азербайджанских и зарубежных стран.

E. Guliyeva

The influence of lexic system of lingual relation
Summary

The article speaks about the influence of lexic system of lingual relation, also general analyse of linguistics at contemporary phase, some positions and points of view of Azerbaijani and foreign scientists – linguists.

Rəyçi: b.m M.Əsədova

HİCRAN DAYANOVA
AAHMP
hicran.dayanova@ mil.ru

İNGİLİS DİLİNİN (ŞİFAHİ NİTQİN) ÖYRƏDİLMƏSİNDƏ DİL ÇALIŞMALARININ ROLU

Açar sözlər: İngilis dili, şifahi nitq, çalışmalar, metodika.
Ключевые слова: Английский язык, усный реч, методика, учебный процесс.
Key words: English, Oral sheesh, sheesh.

Şifahi nitqin öyrədilməsi termini xarici dildə danışmağın öyrədilməsi deməkdir. Lakin onu da qeyd etmək lazımdır ki, danışıq vərdişlərinin inkişaf etdirilməsi əslində şifahi nitqin tədrisinin yalnız bir aspektini əks etdirir, çünki şifahi nitq dedikdə yalnız danışıq deyil, həm də eşidib-anlama nəzərdə tutulur. Onu da nəzərə almaq lazımdır ki, adı çəkilən bu iki proses ünsiyyət zamanı bir vəhdət təşkil edir və dillərin tədrisi zamanı onlar bir-birindən ayrılmazdır. Danışığın öyrədilməsini, eşidib-anlamanın tədrisi baş vermədən təsəvvür etmək qeyri-mümkündür. Lakin şifahi nitqin öyrədilməsi eyni zamanda yazının tədrisi ilə də bilavasitə əlaqədardır. Lakin buna baxmayaraq bu müxtəlif nitq fəaliyyəti növlərinin xüsusi şəkildə tədrisi zəruridir.

Məlum olduğu kimi tədris zamanı xarici dildə şifahi nitqin öyrədilməsi əsas şərtlərdən biridir. Şifahi nitq dedikdə metodistlərin bəziləri hazırlanmış, bəziləri spontan, bəziləri produktiv, digərləri isə yaradıcı nitqi nəzərdə tuturlar.

Məhşur metodist alim R.B.Gurviç belə hesab edir ki, hazırlanmış nitqin tədrisi zamanı müəllimin qarşısında üç əsas vəzifə durur: Bunlardan birincisi kombinatorika, yəni sözlərin nitq prosesində əlaqələndirilməsi baxımından hazırlanmış nitqin öyrədilməsi, ikincisi vaxt baxımından hazırlanmamış, ekspromt nitqin öyrədilməsi və şagird və yaxud tələbənin özünün şəxsi təşəbbüsü ilə yaranan spontan nitqin öyrədilməsi nəzərdə tutulur.

Metodistlər hazırlanmamış nitqin yaradıcı xarakterini vurğulayırlar. Şifahi nitqin yaradıcı xarakteri nitq və dil materiallarının hır hansı bir yeni situasiyada işlətmək bacarığını nəzərdə tutur. Onu da qeyd etmək lazımdır ki, bu bacarığı məqsədəuyğun şəkildə istifadə etmək lazımdır. Şifahi nitqin həyata keçirilməsi üçün müəyyən şərtlərin olması zəruridir. Alimlər burada ən azı beş şərtin olduğunu qeyd edirlər.

Belə ki, ən önəmli şərtlərdən biri danışıq nitqini stimullaşdıran nitq situasiyasının olmasıdır. Müəyyən situasiyanın komponentləri haqqında biliklərin olması danışan şəxsin nitqinin məzmununu müəyyənləşdirir. Üçüncü amil nitqin obyekti olan şəxsə münasibətin olmasıdır. Bu münasibət danışan şəxsin həyat təcrübəsindən onun dünyagörüşündən, yəni insanın şüuru ilə bağlıdır. Məhz bu amillər hər hansı şəxsin nitq prosesinə qoşulması üçün səbəbləri müəyyənləşdirir.

Tanınmış metodis alim Y.İ.Passovun fikrincə, göstərilən amillərdən başqa hər hansı şəxsin müəyyən situasiyada danışmağı üçün vacib səbəb və yaxud səbəblərin olması zəruridir. Əks təqdirdə nitqin kommunativ baxımdan yönəldilməsindən söhbət gedə bilməz. Eyni zamanda hər hansı nir şagird öz fikirlərini, həyatda baş verən müxtəlif hadisələrə münasibətini nitq vasitəsi ilə çatdırmaq üçün ifadə vasitələrinin

olması da zəruridir. Bu da nitq bacarıqlarının və onların əsasını təşkil edən müvafiq nitq vərdişlərinin aşınılması ilə təmin edilməlidir.

Onu da nəzərə almaq lazımdır ki, dilin tədrisi zamanı dil çalışmalarının rolu əvəz olunmalıdır. Şagirdlərdə şifahi nitqi inkişaf etdirmək üçün hər bir çalışmanın müəyyən bir keyfiyyətə malik olması gərəkdir. Çalışmalar psixoloji, pedoqoji və s. baxımdan təhlil edilə bilər. Lakin hər bir çalışmadan yerində istifadə edilməsi metodiki baxımdan olduqca vacibdir. Belə ki, hər hənsı bir çalışma bu və ya digər vərdiş və bacarığın formalaşdırılmasına və yaxud təkmilləşdirilməsinə yönəldilməlidir. Beləliklə, müvafiq məqsədə nail olmaq üçün mütləq bir vasitə olmalıdır.

Məhşur metodist alim Y.İ.Passov çalışmaların adekvatlığından danışır. Bəs "çalışmaların adekvatlığı" nə deməkdir? Çalışmanın adekvatlığı hər şeydən əvvəl nitq fəaliyyətinin hər hansı növünə əsasən çalışmanın həmin nitq fəaliyyəti növündə icra edilməsi prosesində mənimsənilməsini göstərir.

Lakin onu da qeyd etmək lazımdır ki, çalışmaların həmin istiqamətdə yerinə yetirilməsi, öz-özlüyündə məqsədə nail olmaq heç də kifayət deyil. Metodist alimlərin fikrincə, adekvatlığın təyin edilməsi üçün dörd yol mövcuddur. Bunlaradn birincisi inkişaf etdirilən nitq bacarığının mexanizmləri və keyfiyyətləri, ikincisi həmin nitq bacarığının tərkib hissəsi olan vərdişlərin keyfiyyətlərinin təşkilidir. Bundan əlavə burada müvafiq vərdiş və bacarıqların formalaşdırılmasını səmərəli şəkildə təmin edən amilləri və nəhayət, çalışmaların təşkil edlməsi amillərini qeyd etmək lazımdır.

Beləliklə, eyni çalışmalar müxtəlif situasiyalarda, ingilis dilinin tədrisinin müxtəlif mərhələlərində və müxtəlif şəkildə təşkil edildikdə müvafiq dil və yaxud nitq vərdiş və bacarıqlarının bu və ya digər xüsusiyyətlərinin inkişaf etdirilməsi müxtəlif dərəcədə advekat ola bilər. Bu da öz növbəsində "advekatlıq" anlayışını çevik və mobil edərək, onun əsl metodik məna kəsb etməsinə gətirib çıxarır.

H.Palmer xarici dil materiallrının mənimsənilməsinin psixoloji qanunauyğunluqlarına əsaslanaraq reseptiv və reproduktiv çalışmaların mövcud olduğunu qeyd edir.

Eyni zamanda bəzi tədqiqatçılar nitq prosesinin məzun və forma elementlərinə bölünməsi məqsədini güdən analitik çalışmalar və mürəkkəb nitq birliyinin bərpasına xidmət edən sintaktik çalışmaların mövcudluğu barədə danışırlar. (M.S.-İlyiş).

Bəzi tədqiqatçıların təsnifatına əsasən, çalışmaların hamısı şərti-nitq və nitq çalışmalarına ayrılır. Həmin təsnifatda dil çalışmalarının olmamasını qeyd etmək lazımdır.

Görkəmli alim P.B.Qurviç isə nitqin formal və yaxud məzmun cəhətlərində cəmləşməsi dərəcəsindən asılı olaraq aşağıdakı çalışma növlərini qeyd edir:

1) formal 2) formal-məzmunlu 3) məzmunlu-formal (şərti kommunativ) 4) məzmunlu (real kommunativ).

Ən çox istifadə edilən çalışma sistemlərini nəzərdən keçirək, ilk növbədə dil və nitq çalışmalarını qeyd etmək zəruridir. Onu da qeyd etmək lazımdır ki, hər hansı vərdiş və bacarıqların inkişaf etdirilməsi və təkmilləşdirilməsinə yönəlmiş çalışmalar sisitemini işləyərkən, müvafiq nitq və vərdişlərin əsas xüsusiyyətlərini nəzərə almaq olduqca vacibdir.

Belə ki, çalışmalardan danışarkən, bəzi metodist amillərin bu növ çalışmaların "şifahi nitqin bünövrəsini" təşkil etməsini qeyd edirlər (N.B.Sokolova, Y.İ.Passov).

bu növ çalışmaların üstünlüyünü onlar ayrı-ayrı dil hadisələrinin məna, forma və istifadə edilməsi haqqında biliklərin əldə olunma və möhkəmləndirilməsi məqsədilə həmin sturukturların süni şəkildə təcid edilməsində görürlər. Dil çalışmaları öz növbəsində qrammatik, leksik və fonetik çalışmalara bölünürlər. Hər hansı dil çalışması müvafiq biliklərin tədqiq edilməsi prinsipi əsasında qurulur, yəni burada şagirdlərin mənimsədikləri qaydalara təkrar müraciət nəzərdə tutulur. Lakin bu zaman diqqət ayrı-ayrı dil sturukturları deyil, nitqin məzmunu üzərində cəmləşməlidir.

Prinsip etibarilə, dil çalışmalarının yerinə yetirilməsi prosesində müəyyən qədər səhvlərin edilməsi ehtimalı inkar edilmir. Bundan başqa dil çalışmaları şagirdlərin əksəriyyəti üçün olduqca maraqsızdır. Dil çalışmaları həm də hər hansı situativ kontekstdən kənar işlənilir. Beləliklə belə qənaətə gəlmək olar ki, dil çalışmaları nitq vərdişlərinin inkişaf etdirilməsi üçün tamamilə yararsızdır. Lakin onu da qeyd etmək lazımdır ki, dil çalışmaları hər hansı birformanın dərk edilməsi üçün məqsədyönlüdür. Bu növ çalışmalarıqeyri-kommunativ çalışmalar adlandıran məşhur metodist alim S.T.Şatilov onların çalışmalar sistemində cüzi miqdarada təmsil olnduğunu qeyd edərək, həmin çalışmaların əsasən leksika və qrammatikanın mənimsənilməsinə yönəldilməsindən danışır.

Beləliklə, nitq bacarıq və vərdişlərin inkişafına yönəldilmiş çalışmaların eşidib-anlama, dioloji və yaxud monoloji nitqin öyrədilməsi prosesində səmərəli şəkildə istifadə olunması və lazımi nəticəni əldə etmək üçün müvafiq nitq vərdiş və bacarıqlarının xüsusiyyətləri nəzərə alınmalıdır.

Ədəbiyyat

1) Беляев Б.В. Очерки по психологии обучения иностранным языком. М., 1959
2) Жинки Н.И.Психологические особенности спонтанной речи. Иностранные языки в школе. М., 1956 №4
3) Зимнаяя И.А. Психологические аслекты обучения говорению на иностранном языке. М., 1978
4) Пассов Е.И. Основы методики обучения иностранным языком. М., 1977

H. Dayanova

The role, types and features of language exercises in teaching the English

Summary

The article deals with the role, types and features of language exercises in teaching the English language (oral speech) at the secondary schools. It is stressed that the role of lexical, grammatical and phonetic exercises are irreplaceable for teaching oral speech at the secondary schools. Every used language exercises should be fruitful for the pupils.

Г.Даянова

О роли, видах и особенностях языковых упражнений по изучению
в средних школах английского языка

Резюме

В Стате повествуется о роли, видах и особенностях языковых упражнений по изучению в средних школах английского языка (устной речи). Отмечается, что в изучении устной речи в школах незамеима ролъ лексических, грамматических, и фонетических типов языковых упражнений. Своевременно и ефективно применяемме языковые упражеий могут статъ полезными для школъников.

Rəyçi: Yusif Süleymanov
filologiya üzrə fəlsəfə doktoru

SEVİNC QULİYEVA
ADİU
Sevincq.@mail.ru

MÜASİR İNGİLİS ƏDƏBİ DİLİNDƏ MODAL FELLƏR (MODAL VERBS)

Açar sözlər: ingilis dili, modal fellər, felin zamanları, məsdər, sual və inkar forma.
Ключевые слова: английский язык, модальные глаголы, времена глаголов, инфинитив, вопросительная и отрицательная форма.
Key words: English, modal verbs, tenses of verb, infinitive, interrogative and negative forms.

Bildiyimiz kimi modallıq cümlənin ən əsas əlamətlərindən biri kimi fikrin real gerçəkliyə münasibətini bildirən kateqoriyadır. Bütün dillərdə olduğu kimi müasir ingilis dilində də bir sıra fellər vardır ki, leksik məna baxımından hərəkət bildirmirlər, yalnız hərəkətə doğru münasibət bildirirlər. Yəni imkan, mümkünlük, ehtiyac zərurət bildirən hərəkətləri tamamlayırlar. Belə fellərə **modal fellər** deyilir. Bu qrupdan olan fellər aşağıdakı xüsusiyyətlərinə görə birləşirlər:

1. Onların məsdər və felinin sifət forması yoxdur;
2. Onlar şəxsə və hala görə dəyişmirlər;
3. Onlarla felin məsdərlik tərkibində to hissəciyi işlənmir (ekvivalentləri müstəsnalıq təşkil edir);
4. Modal fellərin sual və inkar forması to do köməkçi feli olmadan düzəlir.

Müasir ingilis dilində olan modal fellər bunlardır:

Can – bacarıq qabiliyyəti bildirir;

Must – vaciblik, məcubriyyət, qətilik, zərurət, güman və ehtimal bildirir;

May – icazə, mümkünlük, məsləhət, göstəriş bildirir;

Shall – məcubriyyət və ya əmr, hədə və xəbərdarlıq mənasını ifadə edir;

Will (would) – arzu, istək, adət, təkid, qətidik, xahiş və nəzakətli olmaq ifadə edir; Should – məcburiyyət, məsləhət, arzu və güman bildirir;

Ouqlit – borc, məcburiyyət və məsləhət bildirir;

Dare – həm modal, həm də əsas fel kimi işlənir;

Neede – həm modal, həm də əsas fel kimi işlənir. Modal kimi lazımlıq, gərəklik mənasını ifadə edir.Modal fellər hərəkət ifadə etmir, onların məsdər və analitik formaları yoxdur.

I can do this work – Mən bu işi etməyi bacarıram.

I most do this work – Mən bu işi etməliyəm.

Modal fellərlərdən sonra «to» məsdər hissəciyi işlənmir (ought modal felindən başqa).*He must come to take a book – O gəlib bu kitabı götürməlidir.*

III şəxs təkdə modal fellər Present indefinite-ge (indiki qeyri-müəyyən zaman) – s sonluğu qəbul etmir. Sual və inkar formaları «to do» köməkçi felsiz düzəldilir.

May I ask you a question? – Sizdən sual soruşa bilərəmmi?

You must not be late – Gecikməməlisiniz.

Bütün modal fellərinin gələcək zaman forması yoxdur.

«Must» modal felinin keçmiş zaman forması yoxdur.

Zaman formalarını düzəltmək üçün hansı ki, modal felləri özləri düzəldə bilmirlər, onların ekvivalentləri vasitəsilə düzəldilir.

Must, to hand to, to be obliged, to be.

Must modal feli vaciblik be lazımdır ifadə etdikdə.

Yus must do it – Siz bunu etməlisiniz.

To zom to be obliged lazımlıq və vaciblik mənasında.

I had to do this work – Mən bu işi mütləq etməliyəm.

I shall zom to do this work – Biz bu işi mütləq edəcəyik.

I was obliged to do this work – Mən bu işi etməli oldum (lazım idi).

To ba ekvivalent lazımlır ifadə edir.

He woas to come at 7 o′clock – O saat 7-də gəlməli idi.

To hom? To be fellərindən sonra fel «to» məsdər hissəciyi işlədilir.

He had to finish his work yesterday – O işi dünən qurtarmalı idi.

Can (could) (ekvivalent to be able) feli fiziki imkan, bacarıq və qabiliyyət ifadə edir.

He can speak English – O ingiliscə danışa bilir.

You can lift this box – Mən bu qutunu götürə bilərəm.

Will he be able to do this work? – O bu işi edə biləcəkmi?

May modal feli icazə, mümkünlük, məsləhət mənasında işlənir:

Yous might come a bit earlu – Sən bir az tez gələ bilərdin.

Shall szold məcubriyyət mənasını ifadə edir.

I shall do this work at once – Mən bu işi dərhal etməliyəm.

You should enter the İnstitute – Sən institut girməlisən.

Ought modal felindən sonra məsdər to ədatı işlənir. Gərək, lazım mənası ifadə edir.You ought to help you – Mən böyük məmuniyyətlə sənə kömək edərəm.

He would′t do it – O bunu etmək istəmir.

Would sual cümlələrində nəzarət mənasını ifadə edir.

Would you giw me your book? – Zəhmət olmasa kitabınızı mənə verin.

Modal felli cümlələrdə söz sırası

1	Can	Do	This work
1	Cannot	Do	This work
1	Can	Do	This work Con′t l
Who	Can	Do	This work?
Can	1	Do	This

					Work?
	Why at	Can	l	Do?	
What work		Can	l	Do?	

Modal felli cümlələrdə söz sırası
(Passive Volce)

This vork	Can	Be donne	By him	
This vork	Cannut Can′t	Be donne	By him	
This vork	Can	Be donne	By him	Can′t do
What	can	Be donne	By him	
Can this work		Be donne	By him	
What can this vork		Be donne	By him	

Need feli lazımlıq, ehtiyac bildirir.

You needn′t have come so early, l think.

Ned feli əsas fel kimi də işlənə bilir.

Ne need money – Onun pula ehtiyacı var.

Hər iki halda istə əsas fel, istərsə də modal fel kimi need – ehtiyacı olmaq, lazım olmaq kəsb edir. Bütün bunlarla yanaşı olaraq modal fellərin ekvivalentləri adlanan bir qrup fellər də vardır. *Modal fellərin ekvivalenti kimi işlənən* ***to be to; to have to; to be able to*** *haqqında*

Bildiyimiz kimi modal fellər və onların ekvivalentləri morfoloji cəhətdən fərqli olsalar da, leksik mənasına və funksiyasına görə oxşar cəhətlərə malikdirlər. İndi biz burada modal fellərin ekvivalentləri kimi işlənən ***to be to; to have to; to be able to*** ifadələrinin işlənmə xüsusiyyətlərini nümunələrlə izah etməyə çalışaq.

Most – modal feli ancaq indiki zamanda işlənir. Qalan zamanlarda onun əvəzinə təxminən onunla eyni mənaya malik olan to have to və to le to ekvivalentləri işlənir.

To have to – modal felləri indiki, keçmiş zaman formalarını da işlənə bilir.

Məsələn:

1. *We haveto ge to the univeresity everyday – Biz hər gün universitetə getməli oluruq.*
2. *Jle had to attend the sahod everyday – O hər gün məktəbə getməli oldu.*
3. *They vill have to lean the next week – Onlar gələn həftə çıxıb getməli olacaqlar.*
4. To have to modal feli Azərbaycan dilinə etməli oluram, etməli oldum, etməli olacağam kimi tərcümə edilir. To have əsasən şəraitlə bağlı olaraq hərəkətin qeyri-şərtsiz yerinə yetirilməsini bildirir. Məsələn:

İl have to do my homuverb – Mən indi sənin̈lə şahmat oynaya bilmərəm. Mənə dərslərimi hazırlamaq lazımdır.

To have to modal ifadəsi keçmiş zamanda icrası vacib olan hərəkəti bildirmək üçün had to formasında işlənir. Məsələn:

İl had very little time and il had to tafe a taxi – Mənim vaxtım çox az idi və mən taksi tutmalı oldum.

To have to ifadəsi işlənən cümlələri köməkçi felindən sual və inkar formalarını düzəltmək üçün to do felindən və not inkar ədatından istifadə edilir. Məsələn:

When do l have to do it? (When have l get to do it?) – Mən bunu nə vaxt etməliyəm?

You do not have to stay? – Sizə qalmaq lazım deyildir?

To have to modal ifadəsinin keçmiş zaman forması olan had to ilə işlənən cümlələrin də sual və inkar forması to do köməkçi felinin keçmiş zaman forması ilə düzəlir. Məsələn: *Did you have to write to him again? – Siz ona bir də yazmalı oldunuzmu? I am glad you didn´t have to do it again – Mən şadam ki, siz bunu bir də etməli olmadınız.*

To be to modal ifadəsi əsasən formaca gələcək zamana, mənaca gələcəyə aid edilir. *We are to go to the cinema tonight .*

We are to wait for them ar the entrance (we have arranged to meet there so we must wait for them at the appointed place).

To be to ifadəsi iki zaman formasında işlənir:

1. İndiki zaman – *We are to meet at six;*
2. Keçmiş zaman – *We were to meeğ at six.*

Bu modal ifadə bir çox mənalar bildirir. Məsələn:

- lazımlıq, vaciblik və əvvəlcədən düşünülmüş plana uyğun zərurət mənasında: *We were to discuss it the next week. Is he to arrive tomorrow? We are to meet at six.*

- əmr və göstəriş bildirəndə:

All junior officers are to report to the colonel [kg:nl] at once.

- hərəkətin mümkündüyünü bildirəndə:*What am I do? – Mən nə etməliyəm?*

What is to become of me? – Mənə nə olacaq?Where am I to go? – Mən hara getməliyəm?

- baş verəcək təsadüfi hadisələrlə bağlı zərurət olanda:

He did not know at the time he was never to see his native place again.

To have to və to be to modal ifadələri must modal felinin ekvivalentləri kimi çıxış edir və onunla eyni bir ümumi və ya oxşar xüsusiyyətlərə malikdirlər. Belə ki, must modal felinin ifadə etdiyi vaciblik və zərurət mənası danışılan şəxs tərəfindən təyin edilir.

I must go to work at 8 o'clock – Mən saat 8-də işə getməliyəm.

To have to ifadəsi isə şəraitdə asılı olaraq vaciblik və zərurət ifadə edir.

What a pity you have to go now (it is time for you to catch your train) – Təəssüf ki, siz indi getməlisiniz.

To be to ifadəsi isə vaciblik və zərurət mənasını əvvəlcədən düşünülmüş və ya təyin edilmiş razılığa və plana əsasən ifadə edir.

We are to wait for them at the entrance (we have arrenged to meet there, so we must wait for them at the appointed place).

We are to go to the cinema tonight. We were to meet at the station.

İndi isə **can** modal felini ekvivalenti olan **to be able to** ifadəsinin xüsusiyyətləri haqqında məlumat verək.Bildiyimiz kimi, **Can** modal feli əsasən ümumi bilik, imkan və bacarıqdan danışdığı halda to be able to ifadəsi isə hərəkətin hər hansı tipi təyin olunmuş, konkret verilmiş bir şəraitdə icra olunma bacarığını bildirir. Müqayisə edək. *İl can play footboll, but il unable (ilam not able) to play nouv il dout feel*

*wetll – Mən futbol oynamağı bacarıram, ancaq indi oynamaq imkanım yoxdur. Mən özümü pis hiss edirəm.*Bəzən Can modal feli indiki zamanda mənanı ifadə edə bilir: *Caut go nov il dout feel.*Ancaq keçmiş zamanda can modal feli ilə to be able to ifadəsi arasında olan fərqli xüsusiyyətlər daha çox seçilir: *He was in Londln to years ago, so he could see English films everday – İki il əvvəl o, Londonda idi və hər gün ingilis filmlərinə baxmaq imkanı var idi.I am very glad you were able to come – Sizin gəlməyinizə mən çox şadam.*Can modal feli həmçinin gələcəkdə baş verəcək imkan, bilik və bacarıq bildirən hərəkətlərin icrasını ifadə edə bilmir. Məhz to be able to ifadəsi belə hərəkətləri gələcək zamanda ifadə edə bilir.*I wout be able (shait be able) to go the cinema today – Mən bu gün kinoya gedə bilməyəcəm.*Beləliklə, biz modal fellərin və onların ekvivalentlərinin ifadə etdiyi mənalar arasında oxşar və fərqli cəhətləri göstərdik.

Ədəbiyyat

1.M.Məmmədov. Azərbaycan dilçiliyinin nəzəri əsasları. «Maarif» nəşr. Bakı, 1971.

2.Т.В.Фралова: Грамматика английского языка. Москва, 1961. Изд. «Наука», стр.

3.İ.Rəhimov, T.Hidayətzadə. İngilis dilinin praktik qrammatikası. Bakı, «Maarif» nəşriyyatı, 1966.

4.И.П.Иваноыв и В.В.Бурлакова: Модальные слова современного английского языка. Москва, 1961. Изд. «Высшая школа».

5.F.A.Cəlilov. Modallıq, zaman və şəxs kateqoriyası. Azərbaycan dilinin morfologiyası. Maarif nəşriyyatı, Bakı, 1988, səh. 250.

С.Кулиева

Модальные глаголы в современном английском языке

Резюме

В статье рассматриваются модальные глаголы в современном английском языке, ин месторасположение в простых и сложных предложениях, функции и роль модальных глаголов в значении английского предложения.
В статье также анализируется инфинитивная форма глфгола,его связи с модальным формам глагола английского языка.

S.Qulıyeva

The modal verbs in contemporary English

Summary

The article is devoted to the modal verbs in contemporary English, their places in simple and compound sentences, their functions and roles in modal verbs in English sentences. Besides this, some thounghts and discovers of “Korani-Kerim” are explained which expressed in the words of Eastern poets.

Rəyçi: B/m R.Musayeva

SƏİDƏ MEHDİYEVA
ADİU
msaida@gmail.com

İNGİLİS DİLİ MƏNŞƏLİ BEYNƏLMİLƏL TERMİNLƏR VƏ ONLARIN AZƏRBAYCAN DİLİNDƏ QARŞILIĞI

Açar sözlər: İngilis dili, termin, beynəlmiləl.
Ключевые слова: Английский язык, термин, интернационал.
Key words: Eyglish, termin, internasional.

Beynəlmiləl sözlər xalqın ictimai həyatı, məişəti, mədəniyyəti, iqtisadiyyatı və mənəviyyatı ilə əlaqədar olaraq müxtəlif dövrlərdə bir dildən digər dilə keçərək müxtəlif məna çalarları ifadə etmişdir. Beynəlmiləl sözlərin məna xüsusiyyətlərinin inkişafı müqayisə edilən dillərin hər birinə məxsus olan spesifik daxili inkişaf qanunlarından asılıdır. Bu və ya digər beynəlmiləl sözə aid spesifiklik odur ki, onların semantik fərqlənmələri müqayisə olunan dillər çərçivəsindən uzaqlaşaraq ilk mənbə ilə tutmuşdur. Sözün mənbəyinə görə eyni dildən alınmasına baxmayaraq, o hər bir dildə semantikasına görə ilk mənşəyindən fərqlənə bilər. İngilis dilində əgər sözün hansı dildən alınmasını o sözün mənşəyində görürüksə, həmin bütün mənalarını isə ilk mənşəyində axtarmaq olmaz. Söz bir dildən digərinə bütün mənaları ilə keçmir. Hər hansı bir dil digərindən ona lazım olan sözü götürür. İngilis dilində olan alınma söz öz etimologiyasından fərqli olaraq həmin dilin daxili inkişaf qanunları əsasında mənasını genişləndirə bilər. Bu da hər bir dil üçün lazımı şərait və imkandan asılıdır. İngilis dilində bir sözün müxtəlif dillərə keçməsi xalqların tarixi inkişafı nöqteyi-nəzərdən bir-biri ilə əlaqələrindən asılıdır. Mədəniyyət, elm, texnika cəhətdən inkişaf etmiş dövlətlər daha çox mədəni, ticarət, texniki, iqtisadi və siyasi əlaqədə olurlar. Hər bir dil öz inkişaf prosesində müxtəlif amillər əsasında lüğət tərkibini zənginləşdirir. İngilis dilinin lüğət tərkibinin zənginləşməsində o dilin inkişaf qanunları mühüm rol oynayır. Hər bir dil öz daxili yaradıcılığı hesabına zənginləşib inkişaf edir. Beynəlmiləl sözlər də dilin zənginləşməsində rol oynayır və onun leksikasının müəyyən bir sahəsini əhatə edir. Bütün dillərin öz ehtiyatının zənginləşməsində sözlərin müxtəlif məna çalarlıqları kəsb etmələrini, onların dar məna çərçivəsində çıxaraq öz mənalarını genişləndirmələrinin də mühüm əhəmiyyəti vardır.

İngilis dilində uzun və mürəkkəb tarixi proses nəticəsində söz öz mənasını genişləndirərək yeni mənalar kəsb edir. Əgər söz əvəllər bir predmetin adını bildirirdisə, sonradan onun mənası genişlənir, məna strukturası mürəkkəbləşir və bununda da nəticəsində həmin söz bir neçə məfhumu əks etdirməyə qadir olur. Məsələn: briqada, avanqard, kəmər və s. Bütün dünya dillərinə, o cümlədən ingilis və Azərbaycan dillərinə ən erkən daxil olan beynəlmiləl sözlərdən latın, yunan sözlərini göstərmək olar. Məhz bu səbədən də latın-yunan mənşəli sözlərin formalaşmasında daha böyük dəyişiklik baş vermişdir. Bu mənşəli sözlərin əksəriyyəti öz ilk mənalarında demək olar ki, dildə az işlədilir. Bu sözlər öz mənşəyindən ayrıldıqdan sonra onların böyük bir qismi əvvəlki mənanı heç də indiki dövrdə digər dillərdə saxlamamışdır. Bunlar dünyanın müxtəlif dillərində müxtəlif mənalar kəsb etmişdir. Bu nöqteyi

nəzərdən belə sözlərin bir neçəsinin məna xüsusiyyətləri ilə tanış olmaq məqsədəuyğundur.

Latın dili mənşəli auditoriya (auditorium-dinləmək üçün yer) sözü öz mənşəyindən uzaqlaşaraq müxtəlif dillərdə çoxmənalılıq kəsb etməklə ilk mənasını da müəyyən qədər saxlamışdır. "Auditoriya" sözə istər müasir Azərbaycan, istərsə də ingilis dillərində auditoriya –məruzə oxunan zal, otaq, dinləyici, məruzəyə, mühazirəyə qulaq asanlar mənasında işlədilir. Bu sözün Azərbaycan dilində "dinləyici", "tamaşaçı" mənalarına da rast gəlmək olar. Bu sözün müxtəlif mənalarına həm tərcümə, həm də bədii ədəbiyyatda rast gəlmək olar.

"Atmosfera" (yunanca atmes-hava, sfera-mühit), ingiliscə "atmosphere", fransızca "atmesphire", rusca "atmosfera" sözü də öz inkişafında müxtəlif məna ilə-yeri bürüyən hava təbəqəsi; təzyiq vahidi, mühit, şərait mənalarında işlədilir. Göstərilən mənalar demək olar ki, rus, ingilis, fransız dillərində də öz əksini tapır. Bu sözün məcazi mənada işlədilməsinə danışıq dilində olduğu kimi, yazılı ədəbiyyatda da rast gəlmək mümkündür.

Not (nota) lat. nota- nişan, qeyd; ing. note; fr. note, rus nota sözü müasir Azərbaycan dilinə musiqi notların göstərən qrafiki işarə mahnıda hər hansı bir səs; səsdə "ahəng"; nota (diplomatik) bir hökümətin başqa hökümətə diplomatik müraciət mənalarında geniş işlədilir.

Bu sözün Azərbaycan dilində bir neçə mənası varsa, ingilis dilində onun daha çox mənası var. Note sözünün ingilis dilindəki mənalarına misal göstərmək olar:

1) diqqət yetirmək və xatırlamaq;
2) ton;
3) kefiyyət (səsin);
4) qeyd;
5) qısa məktub;
6) ödənilməli hesab, çek və s.

Qeyd etmək lazımdır ki, *note* sözünün ingilis dilindəki birinci mənası olan *qeyd* sözü Azərbaycan dilində də əvəllər işlədilmişdir. Bu məna Azərbaycan dilinə rus dilinin təsiri ilə deyil, ingilis və fransız dilinin təsiri ilə birbaşa daxil olmuşdur. Hal-hazırda bu sözün *qeyd* mənasında işlənməsinə Azərbaycan dilində təsadüf olunmur. Həmin sözün müxtəlif mənalarda işlədilməsinə təsadüf etmək olar.

Qeyd etdiyimiz kimi, ingilis dilində ümumi danışıq leksikası xüsusi terminalogiya hesabına müəyyən dərəcədə zənginləşir. Hər bir dildə yeni kəşfin adını ifadə edən söz digər dillərdə ona ekvivalent olmadıqda ö söz olduğu kimi həmin dillərə keçir və məhdud çərçivəyə-bir məfhumu etməyə xidmət edir.

Ümumi danışıq dili leksikasıxüsusi terminalogiya hesabına müəyyən dərəcədə zənginləşir. İngilis dili mənşəli beynəlmiləl sözlərdən danışarkən buraya ancaq sırf ingilis dilinə məxsus olan sözlər deyil, başqa dillərdən ona keçib və bu dilin daxili inkişaf qanunları əsasında inkişaf edib, yeni mena kəsb edən və digər dillərə keçən sözlər də nəzərdə tutulur. Bir dildən digərinə keçib, o dilin tərkibində formalaşaraq yeni məna kəsb edən əvvəlki məna və quruluşunu itirən yeni məna ilə əvvəlki dildə və digər dillərə keçən sözün sonradan kəsb etdiyi məna hansı dilə aiddirsə, məhz həmin dil mənşəyindən hesab edilməlidir. Məsələn: fransız dilində işlədilən "budget" sözü ingilis dilə məxsus olan sözlər sırasına daxildir. Bu söz əvvəlcə fransız dilində brgete (kisəcik, balaca torba) mənasında oluş və ingilis dilinə keçmişdir. İn-

gilis dilində yeni məna və forma kəsb etdiyi və fransızca bu mənanı verən söz olmadığından fransız dili bu sözü ingilis dilindən almışdır. Belə sözlər fransız deyil, ingilis dili mənşəli sözlərə aiddir. "Touriet"-turmet, interview-intervyu və s. kimi fransız dilindəki sözlər də ingilis mənşəli sözlər hesab edilir.

Dilimizdə alınma sözlər iki qrupa bölünür:

1) Dəyişiklik edilmədən mənimsənilən sözlər. Beynəlmiləl sözlər.

2) Dəyişiklik edilərək mənimsənilən sözlər (terminlər). Hər bir dil başqa dilə məxsus terminlər ya bilavasitə, ya digər bir dil vasitəsilə alır. Terminlər bilavasitə mənbə dildən alınırsa, bunlar vasitəsiz alınma terminlər hesab olunur.

Məsələn: İdman sahəsinə aid ingilis sözləri vasitəsiz alınma terminlərdir.

Terminlər başqa dilin vasitəsilə alınarsa, bunlar vasitəli terminlərdir. Dilimizdəki beynəlmiləl terminlərin əksəriyyəti bu bölmədəndir.

1) Dilimizdə dəyişiklik edilmədən mənimsənilən terminlərə bilavasitə alınan beynəlmiləl terminlər də daxildir. Halbuki bu terminlərin əksəriyyəti ahəng qanuna tabe deyildir. Məsələn: partiya, respublika.

2) Müasir Azərbaycan ədəbi dili üçün sözün əvvəlində və axırında iki samitin yanaşı işlədilməsi xarakterik deyil. Lakin alınma terminlərdə belə bir prinsip mühafizə edilir. Məsələn: start, park, metr, tank, telegraf, elektron, asfalt.

3) Beynəlmiləl terminlər bəzilərində müxtəlif hecalardan olan iki sait birgə tələffüz edilir, sözün əvvəlində, ortasında, yaxud axırında iki müxtəlif və ya eyni sait qovuşur. Həmin terminlərə məxsus belə bir xüsusiyyət Azərbaycan dilində də eynilə qalır. Məsələn: pioner, okean, zoolaq.

4) Azərbaycan dilində vurğu bir qayda olaraq sözlərin son hecasına düşür. Bilavasitə alınan terminlərin əksəriyyətində vurğu rus dilində işlənərkən düşdüyü hecada qalır. Məsələn: antena, analiz, avtoqraf, temometr.

Ədəbiyyat

1. Ворно Ф.В., Кашива М.А. Лексикология английского языка. Ленинград, 1955, стр.14

2. Шахрай О.Б. К вопросы о смысловых взаимоотношениях интернациональных слов в разных языках // Иностр.язык в школе. 1955.

3. Маковский М.М. К проблеме так называемой интернацио- нальной лексики // Вопросы языкознание. М., 1960.

4. Qasımov M.Ş. Beynəlmiləl terminlər və onlardan istifadə məsələsi. "Azərbaycan müəllim" qəzeti. B.1966

5. Cəfərov R.C. Qərbi Avropa mənşəli terminlərin izahı lüğəti. B.: Nurlan, 2003.

С.Мехтизаде

Интернациональные слова английского происхождение

Резюме

В статье рассматриваются интернациональные слова английского происхождение, их этимологии и употребление в азербайджанском языке, а также их роль и значение в простых предложениях. В статье анализируется некоторые слова,как «атмосфера»,»нота»,»бюджет»,и др.интернацональные термины.

S.Mehtızade

The international words of English

Summary

The article deals with the international words of English origin, their etimology and use in Azerbaijani, also their roles and meanings in simple sentences. Some word suehe as atmosphere note budjet and other international terme are.

Rəyçi: dos R.C.Cəfərov

NURİYYƏ RZAYEVA
Filologiya üzrə fəlsəfə doktoru
AzTU

TARİXİ İNKIŞAF PROSESİNDƏ İNGİLİS DİLİNİN QƏDIM DİL ƏLAQƏLƏRİ VƏ ONUN ETİMOLOJİ DURUMU

Açar sözlər: inglis dili, dil əlaqələri, etimologiya
Ключевые слова: английский язык, языковые связи,этимология
Key words: English, language relations, etimology.

Tarixi inkişaf prosesində hər bir dil müxtəlif dəyişmələrə məruz qalır. Dəyişmələr dilin ayrı-ayrı səviyyələrində özünü göstərir. Lakin ilkin dəyişmələr özünü bilavasitə dilin lüğət tərkibində biruzə verir. Dil tarixinin öyrənilməsi dilin mövcud olduğu müxtəlif dövrlərdə onda baş verən dəyişmələrin ümumi mənzərəsini açmağa imkan verir.

Dilin lüğət tərkibindəki alınmalar həm alınma mənbəinə, həm də alınma dövrünə görə fərqləndirilir.Müasir ingilis dilində müxtəlif dillərdən alınmalar vardır.İngilis dilindəki alınmaları beş əsas qrupa birləşdirmək olar:

1) kelt dilindən alınmalar;

2) latın dilindən alınmalar (ümumiyyətlə latın alınmalarının üç qatı göstərilir.I qat bizim eradan əvvələ təsadüf edib bizim eranın VI əsrinə qədər bir dövrü əhatə edir, II qat V-VI əsrlərə,xristianlığın İngiltərədə yayıldığı dövrə aid edilir, III qat intibah dövrü ilə əlaqədar XV-XVI əsrlərdə ingilis dilinə keçmiş latın sözləridir);

3) skandinav dillərindən alınmalar;

4) qədim fransız (XII-XVəsrlər) və yeni fransız (XVI əsrdən sonra) dilindən alınmalar;

5) başqa dillərdən (yunan, italyan, holland, ispan, rus, alman, fars və s.) alınmalar.

Müasir ingilis dilində alınmalar sayca həm çoxluğu, həm də mənbə müxtəlif-liyi ilə seçilir. Bu dildə dünyanın təqribən 50 dildən alınma sözlər vardır. Bu sözlər müasir ingilis dilinin lüğət tərkibinin, demək olarki, 70 %-ni təşkil edir. Qeyd olunan alınma sözlər ingilis dilinə müxtəlif dövrlərdə müxtəlif tarixi mərhələlərdə keçmişdir. Hər bir dövr özünə görə tarixi, sosial, iqtisadi, mədəni əlaqələri əhatə edir. Dil elementlərinin qeyri-müntəzəm inkişafı haqqında ümumi qanuna görə dilin daha vacib elementləri təsirə tez məruz qalır. Dildə belə elementlər dilin lüğət tərkibinə daxil olan sözlərdir. Dilin qrammatikası isə kənar təsirə qarşı davamlıdır. Bu və ya digər dilin təsiri tarixi səbəblərlə - müharibələr, ərazinin işğalı, səyahət, ticarət və s. ilə əlaqədardır. Bütün bu hadisələr dillərarası əlaqələri sürətləndirir. Yeni alınma sözlərin intensivliyinin artması müxtəlif dövrlərdə fərqlidir. Konkret tarixi şəraitdən asılı olaraq alınma sözlərin sayı artır, ya da azalır. Bir dilin digərinə təsiri dil amili ilə bağlıdır. Qarşılıqlı əlaqədə olan dillərin yaxınlığı,yaxud uzaqlığı bu məsələdə əhəmiyyətli rol oynayır. Yaxın və qohum dillərin bir-birinə təsiri həmişə daha güclü və intensiv olur. Lakin dilin tarixi inkişaf prosesində dillərarası əlaqədə qohum dillər arasındakı əlaqə çox vaxt dominant səviyyədə olmur.

Nəticədə müxtəlif sistemli,yaxud qohum olmayan dillər arasındakı əlaqə ön plana keçir. İngilis dili də müxtəlif dillərdə qarşılıqlı əlaqədə olmuşdur. Bu əlaqələr ingilis dilinə təsir etmiş və bu dildə izini saxlamışdır.

İngilis dilini tarixinə görə üç dövrə bölürlər:

- qədim ingilis dövrü(VII- XI);
- orta ingilis dövrü (XII-XV əsrlər);
- yeni ingilis-XVI əsrlərdən başlanan dövr.

Qədim ingilis dilinin leksik tərkibi əsasən bircinsli olub german mənşəli sözləri əhatə etmişdir. Bu sözlərin hind-Avropa dillərində oxşarları özünü göstərmişdir.

İngilis dilinin lüğət tərkibindəki alınmalar leksikanın elə sahələrini əhatə edir ki, onlar İngiltərənin tarixinin müxtəlif səhifələrindən xəbər verir, müxtəlif zaman kəsiklərində ingilis dilinə təsiri aydınlaşdırmağa imkan yaradır.

Dilin lüğət tərkibindəki alınmaları alınma mənbəyinə, sözün alınmanın dildə mənimsənilməsi baxımından təsnif etmək olar.

Ona görə də ingilis dilinin müasir vəziyyəti bu dildəki alınmaları tarixi aspektdən nəzərdən keçirməyi tələb edir. İngilis dilində alınma dövrünə və mənbəyinə görə alınmaların aşağıdakı ardıcıllıqla araşdırmaq məqsədəuyğundur:

1) kelt alınmaları;
2) latın alınmaları;
3) skandinav alınmaları;
4) fransız dilindən alınmalar;
5) yunan dilindən alınmalar;
6) ərəb və fars dilindən alınmalar;
7) italyan,holland,ispan,rus,alman dillərindən alınmalar;
8) sovetizmlər;
9) müasir dövrdə baş vermiş hadisələrlə bağlı alınmalar;

Eramızın V əsrindən anqlo, saks və yutlar Britaniyaya köçmüşlər.Britaniyanın dağ rayonları – Şotlandiya, Uels və Kornuoll istisna olmaqla german tayfaları burada belə yerləşmişdir:anqlar Şotlandıyanın sərhəddindən Temza vadisinədək, sakslar Temza vadisindən və ondan cənubda, yutlar adanın cənub şərq hissəsində məskunlaşmışlar. Linqvistik məlumatlar qədim ingilis dilində Friz elementlərinin olduğunu da təsdiq edir. Göründüyü kimi,qədim ingilis dili müxtəlif tayfaların yayıldıqları ərazilərdəki dialektlər şəklində inkişaf keçmişdir.

Qeyd olunan tayfaların Britaniyaya köçməsi nəticəsində kelt əhalisi (brit və qall) qərbə və şimala sıxılmışdır. Hec şübhəsiz ki, sıxışdırma dərhal baş verməsə də dillər arasında əlaqələr yaranmışdır. Bu dil əlaqələri prosesində gəlmələrin dilləri dominant mövqeyi tutmamışdır. Kelt sözlərinin ingilis dilinə keçməsi də bununla əlaqədardır. Buna baxmayaraq ingilis dilindəki kelt alınmaları çoxluq təşkil etməmiş, daha çox toponimlərdə qorunub qalmışdır. Müasir dövrədək gəlib çıxmış kelt alınmalarının vapposk (fətir), down, dune (təpə), dun (qəhvəyi) sözlərini nümunə göstərmək olar.

Sonrakı dövrlərdə tərkibində keltizmlər olan sözlər Şotland dilindən (məs., slogan, Whisky, clan), irland dilindən (məs.,bard,fun,Tory) və fransız dili vasitəsilə alınmalar (məs., beak, budget, career, gravel, harness, tunnel) ingilis dilinə daha çox daxil olmuşdur.

Latından alınmış castrum (qala,fort) sözünün cəm forması olan castra sözündən qədim ingilis (ceaster) və müasir ingilis (caster) variantları qeydə alınır. Jhaster sözü bir sıra coğrafi adların tərkibində işlənir. Məs, Lanhcaster, Dorchester, Manchester, Winchester. Bu qrupdan olan bütün sözlər şifahi yolla alınmış və tam assimilasiyaya uğramışdır. Həmin sözlər ingilis dilinin qrammatik quruluşuna tam tabe olmuş, latın dilinə xas qrammatik formalarını isə itirmişdir. Latın alınmalarının birinci layına mənsub sözlər ingilis dilinin inkişaf tarixi boyu tələb olunan bütün fonetik dəyişikliklərə məruz qalmışdır.

Latın alınmalarının ikinci qatını əhatə edən sözlər ingilis dilinə 596-cı ildən xristianlığın qəbul edilməsindən sonra daxil olmuşdur. Birinci layda olduğu kimi bu laydakı sözlərdə əsasən təkhecalı olub şifahi yolla dilə keçmişdir. Onların əksəriyyəti konkret anlayışlar ifadə edir. Qədim ingilis dilinin leksik tərkibi daha bircinslidir və buradakı alınmalar əsasən isimlərdir. Bununla yanaşı, həmin dövrə məxsus alınmalar içərisində üç fel qeydə alınır: to offer, to spend, to shrive. İlkin dövrdə alınmış latın sözləri həm formalarına,həm də mənalarına görə sonralar əhəmiyyətli dərəcədə təkamülə uğramışdır.

Qədim ingilis dilində latın alınmalarının üç layından birincisi bizim eranın 800-cü ilinə qədər olan alınmalardır.Bunlar kelt dili vasitəsilə ilə keçmiş,elecə də romalıların Britaniyadakı hökmranlığı ilə bağlı olmuşdur. Nəzərə almaq lazımdır ki,bu sözlərin anql və saksların dilinə onlar bu yerlərə köçməmişdən də gələ bilərdi.

Məlumdur ki,eramızın birinci dörd yüzilliyində romalılar Britaniyada hakimiyyətdə olmuşlar. Təbii ki, romalılar həmin dövrdə german tayfalarına nəzərən daha böyük maddi mədəniyyətə malik idilər. Ona görə də ingilis saksonlara məlum olmayan əşya və anlayışlara aid adlar bu mədəniyyətdən keçmişdir. Məsələn, şərab-wine (müasir ing.), win (qədim ing.), winum (lat.); mil (uzunluq vahidi), mile (müasir ing), mil (qədim ing), milla (lat); liman-port-portus (lat)

Anql, saks və yutlar Britaniya adlarına köçməmişdən əvvəl romalılarla ticarət əlaqələrində olmuşlar.

Latın dilindəki alınma sözlərin müəyyən hissəsi bu və ya başqa fonetik cilddə, qrammatik quruluşda və mənada bir çox dillərdə rast gəldiyindən internasional sözlər cərgəsində yer tutur.İnternasional sözlərin əsas hissəsi latın mənşəlidir.Müasir elmlərin çoxunda latın mənşəli terminlər müəyyən çəkiyə malikdir.İngilis dilində latın mənşəli olan alınmalara **obliqation, constitution, alibi, microscope, modern, laboratory, proqramm, system, socialism, communism, climatk, raqius, tradition** və s.misal ola bilər.

VII əsrdə skandinavların Britaniya adalarına hücumları artmış və 1017-ci ildə İngiltərə Danimarka krallığına tabe edilir. Bu dövrdə həm Danimarka, həm də ingilis xalqları ictimai və iqtisadi cəhətdən eyni səviyyədə idilər. Onların dilləri də qohum dillər ailəsinə mənsub idi.

Skandinav dillərindən qədim ingilis dilinə keçən sözlər mənşəcə dilin özünə aid sözləri sıxışdıraraq sıradan çıxarmış,bəzi sözlər isə semantik dəyişmələrə uğramışdır. Danimarka və ingilis dillərinin yaxınlığı semantik alınmaların sayının daha çox artmasına, eləcə də onların semantik dəyişməyə məruz qalmasına səbəb olmuşdur.Saitlərdən əvvəl (sk) samit birləşməsi də bu dövrə aiddir. Qeyd olunan birləşmə skandinav alınmalarının müəyyənləşdirilməsində xüsusi rol oynayır.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, (sk) birləşməsi yalnız skandinav sözlərinə şamil edilməmişdir. Birləşmə başqa dillərdən alınmalarda da özünü göstərir.

1066-cı ildə İngiltərədə normanların hakimiyyəti qərarlaşır. Bu isə ingilis dilinə fransız dilinin təsir göstərməsinə yol açır. Sonralar ingilis dili ölkədə hegemon mövqeyə keçəndə fransız dilindən alınma siyasi terminlərin böyük əksəriyyəti dildə qalır. Beləliklə, fransız-ingilis dil əlaqələrinin bu dövründə ictimai-siyasi sahədə fransız alınmalarının daha çox olması müşahidə edilir. Məsələn, feodal münasibətlərlə bağlı sözlər: **feudal, baron, vassal, lieqe, chvalry.** Belə sözlərdən bir qismi sonralar daha ümumi məna kəsb etmişlər. Məsələn, **obey, serve, noble, qlory, command, danqer.** İngilis dilində işlənən titulların böyük əksəriyyəti **kinq, queen, earl, lord, lady** istisna olmaqla norman-fransız mənşəlidir. Dövlət idarəçiliyi ilə bağlı (**people, nation, government, curt**) pul münasibətlərini ifadə edən **money, property** sözləri də fransız mənşəlidir. Ailə münasibətləri bildirən **parnet, spouse, cousin, uncle, niece** sözləri də həmin qəbildəndir. Onu da qeyd etmək lazımdır ki, o dövrün fransız dili özü alınmalardan xali deyildi.Bu dildə alman alınmaları müəyyən çəkiyə malik olmuşdur.İngilis dilində yer almış **blank, blanket, blue, coat, danse, garden, gay, pocket, ticket** kimi sözlər alman mənşəli olub fransız dili vasitəsilə ingilis dilinə keçmişdir.

Ədəbiyyat

1. Обшее языкознания внутренняя структура языка. М., 1972, с.517
2. Успенский В.А.Структурная типология языков. М., 1955.
3. Турбецский Н.С. Основы фонологи. М., 1960

Н.Рзаева

Исторические языковые связи английского языка

Резюме

В статье рассматриваются исторические языковые связи английского языка и его этимологические состояния с прошедшего до ностояще время. А также анализируется заимствованных слов в словарном составе английского языка которые составит келтские латинские,скандинавские,и французские заимствованных слов.

N.Rzayeva

Relation of English and its etimological

Summary

The article speak about the historical linguistic relation of English and its etimological sitnation from past till present time. Also borrewed words on the content, of English vocabulary which consist of celtie, latin, Scandinavian and French borrowed words are analised.

Rəyçi: Yusif Süleymanov
filologiya üzrə fəlsəfə doktoru

KAMALƏ MEHDİXANLI
AzTU
kamalem@mail.ru

LİNQVİSTİKADA PREDİKATİVLİK MƏNTİQİ-QRAMMATİK HADİSƏ KİMİ

Açar sözlər: İngilis dili, cümlə, pridikat.
Ключевые слова: Английский язык, предложения, предикат.
Key word: English, prepozision, pretikat

Son dövrlərdə dilçiliklə məntiqi və qrammatik kateqoriyaların bir-birindən fərqləndirilməsinə xüsusi diqqət yetirilir.Bu sahədə cümlə ilə mülahizəni fərqləndirmə də müstəqil tədqiqat obyekti kimi diqqət mərkəzinə çəkilmişdir (1).Qeyd edilən problemi öyrənmək təşəbbüsünü ilk dəfə məntiqçilər ortaya atmışlar. Qrammatiklər isə əvvəlcə bu məsələyə passiv münasibət bəsləyirdilər.Cümlə ilə mülahizəni fərqləndirən qrammatiklər olduğu kimi,onu mülahizə ilə eyniləşdirənlər də vardır.

Cümlə və mülahizənin Ən aşkar forması özünü hər bir cümlənin mülahizəni, təsdiqi ifadəsində göstərir.Hər bir məlumat,xəbər,hər bir düşüncə aktı mütləq iki komponentin fəal,dinamik birləşməsini nəzərdə tutur.Bunlardan biri məlumatda nəyin xəbər verilməsini və ona uyğun olaraq hansı fikrin yaranmasını nəzərdə tutursa, ikincisi məlumatın birinci komponentində nəyin xəbər verilməsi,fikrin birinci üzvünün necə tərk olunması təşkil edir.Xəbər və fikir,düşüncə aktının əhəmiyyətli xassəsi öz ifadəsini cümlədə,onun fəal dinamik xarakterində tapır.Cümlədə iki komponent arasındakı əlaqə təsdiq edilir.Cümlənin iki komponentində düşüncənin subyekti və obyektini təyin etmək o qədər də çətin deyildir.

Cümlə ilə mülahizəni eyniləşdirmənin gizli forması hər bir cümləyə <<predikativliyin>> xas olmasıdır.Cümləni cümlə edən predikativlikdir. V.Q.Admoni yazır: <<Cümlənin qurulması və ya canlandırılması zamanı <<predikativ münasibət>> və ya sadəcə predikativlik adlandırılan vacib sintaktik konstruksiyanın əhəmiyyəti, eləcə də vacibliyi danılmazdır.Beləliklə,predikativliyin mülahizənin subyekti və obyekti kimi iki komponentə bölünməsindən doğması aşkara çıxır. Mülahizənin subyekti və predikatı hər bir cümlənin vacib komponentləridir>> (2,37).

Predikativ münasibətin qeyd edilən şəkildə başa düşülməsi bu münasibətin A.Şaxmatova görə predikativ münasibət bir tərəfdən, kommunikasiya üzvlərinin münasibətidirsə, digər tərəfdən mübtəda və xəbərin bir-birinə münasibətidir. Predikativ münasibət hər bir cümlənin əsasında duran və yalnız cüttərkibli cümlədə mümkün olandır.Bunlardan birincisi hər bir cümlənin kommunikasiya vahidi olmasını, digəri isə cüttərkibli cümlənin mübtəda və xəbərə malikliyini nəzərdə tutur. A.M.Peşkovski yazır: <<Sözün təkcə anlayışa deyil,bütöv bir fikrə uyğun gəldiyini göstərən cəhət sintaksisdə xəbərlik adlanır.(3,25). Müəllifin fikrincə fellik xəbərliyin əsasını təşkil edir.

A.A.Şaxmatovun fikrincə,predikativ münasibət izahedici səciyyə daşıyıb nəyi isə təsdiq və inkar (4,28). V.Q.Admoni də bu fikri qəbul edir (2,13).

Ümumi kateqoriyalardan olan və cümləni təşkil edən predikativliyin mənası və vəzifəsi cümlə məzmununu gerçəkliyə münasibətini bildirərək öz-özlüyündə nis-

bətən bitmiş bir fikri təcəssüm edən,qrammatik cəhətdən nitq ünsiyyətinin mütəşəkkil vahidi olan cümləni təyin edib müəyyənləşdirən qrammatik kateqoriyaların məcmusu predikativlik deməkdir.Cümlənin əsas məzmununun gerçəkliklə ümumi əlaqələndirilməsi modallıq,həmçinin zaman və şəxs kateqoriyalarında ifadə olunur.

Rus dilçilərindən M.L.Steblin –Kamenski predikativliyə tamamilə başqa nöqteyi-nəzərdən yanaşır.Müəllifə görə, <<Fredikativlik,yaxud predikativ münasibət məzmunca məntiqdə hökmün subyekti ilə predikli arasındakı münasibətdir (5).

Bizə görə isə predikativlik subyekt və predikat arasındakı münasibətdən daha genişdir. Belə ki,təktərkibli cümlənin bu iki kateqoriyadan biri əsasında formalaşmasına baxmayaraq onlarda predikativlik vardır.

Predikativlik və yaxud predikativ əlaqə haqqında müxtəlif fikirlər mövcuddur. Son vaxtlar Azərbaycan dilçiliyində də predikativlikdən cümlənin əsas əlaməti kimi bəzi əsərlərdə danışılır.Y.Seyidov cümlə nəzərriyyəsi ilə əlaqədar bəzi məsələlərdən,o cümlədən predikativlikdən də bəhs edərək göstərir ki,cümlənin əsas iki əlaməti vardır. Bunlardan biri predikativlikdir.Predikativlik termini altında <<bir şeyin təsdiq və ya inkar edilməsini,ona olan münasibəti,müəyyən iş haqqında məlumat vermək>> və sairə nəzərdə tutulur.Müəllif predikativliyin sözlərin müəyyən qaydada düzülüşündən və müəyyən qrammatik üsullarla əlaqələnməsində meydana gəldiyi göstərir (6, 97, 107). O,ayrı-ayrı cümlə növlərində predikativliyin ifadə üsulları haqqında məlumat verməmişdir.Aydındır ki,sadə cümlələr tərkiblərinə görə cüttərkibli və təktərkibli iştirak edir.Məs.

The door was knoked (qapı döyüldü).The train started (qatar yola düşdü).Bu cür cümlələrdə predikativlik iki kateqoriyanın,mübtəda və xəbərin münasibətindən doğur. Predikativlik linqvistikada məntiqi-qrammatik hadisə hesab olunur və cümlənin müəyyənləşdirilməsində əsas meyarlardan biri kimi çıxış edir.Hər bir cümləyə predikativlik, yəni gerçəkliyə aidlik xüsusiyyəti xasdır.Predikativlik fikir bildirmə və formalaşdırma vasitəsi rolunda çıxış edir.Predikativlik zaman və şəxs vasitəsilə reallaşan feli və ya ismi formanın mübtəda ilə şəxs əlamətlərində birləşməsindən yaranır. **Predikativlik kateqoriyası əsasında sadə cümlənin normativ sintaktik quruluşu üslubu-sintaktik variantlarının təsnifi prosesində ingilis dilinin bir sıra özünəməxsus sintaktik qanunauyğunluqlarının öyrənilməsinə imkan yaranır. Hər şeydən əvvəl,dilin daxili qanunauyğunluqlarına görə müəyyənləşən normativ -sintaktik konstruksiyaların invariantları üzə çıxarılır.Bu isə dildə normativ -qrammatik sistemdən kənara çıxan <<üslubu-sintaktik məqamların, sintaktik səviyyədə dil vahidlərinin inventariantlarını və variantları göstərilməsini gerçəkləşdirir.**

Cümlə ücün predikativ münasibəti(mübtəda ile xəbərin münasibətini) xarakter əlamət hesab etmək olar.Bu münasibətin ifadəsində şəxs və kəmiyyətə görə uzlaşma da xüsusi rol oynayır. Hər bir cümlə bitmiş məlumat intonasiyasına, predikativliyə və modallığa malik olmalıdır.Dil quruluşunun cümlədəki hər bir elementi özündə az-çox predikativliyi qoruyub saxlayır.Belə hesab edilir ki,dilin inkişafının qədim mərhələlərində istənilən söz predikativ ola bilərdi.Söz yalnız dilin inkişafının müəyyən mərhələsində tədricən predikativlikdən və emosianallıqdan xilas olmuşdur. Belə çıxır ki,dilin quruluşu qədim olduqca onda predikativliyin dərəcəsi və səpələnməsi də güclənir,çoxalır və əksinə.Bütün bunlardan çıxış edərək cümlənin predikativ quruluşunun inkişafında üç əsas mərhələ müəyyənləşdirmək mümkün olur:-

1) güclü, daha dəqiq desək eynigüclü predikativ nöqtələrlə səciyyələnən ilkin mərhələ; 2) birindən başqa digər predikativ nöqtələrin zəifləməsilə eliminasiya(yox olma, ərimə) prosesinin başladığı orta mərhələ; 3) vahid, güclü predikativ nöqtənin formalaşdığı son mərhələ. İlkin mərhələ mətni müasir cümlənin-sadə cümlənin rüşeymidir. Artıq bu rüşeymdə cümlə quruluşunun inkişafının orta və ən müasir mərhələri keçəcəyi yollar və bütün perspektivler bir növ proqramlaşdırılmış şəkildədir.

Orta mərhələdə cümlə elementlərinin nisbi müstəqilliyi onlara əvvəlcədən xas olan predikativliyin hesabına olmuşdur.Bu cür müstəqilliyin nisbiliyi isə konkret elementin (üzvün) cümlə daxilindəki predikativlik dərəcəsi və bu dərəcənin funksiyası zamanı dəyişkənliyi ilə müəyyənləşir.

Cümləni təşkil edən sözlər, əsasən dörd əlaqədə,yaxud münasibətdə olur: Obyekt, adverbial, atributiv və predikativ. Bu əlaqə və münasibətləri birləşdirən və ayıran ümumi cəhətlər vardır.Həmin cəhətləri söz birləşmələri və cümlə üzvləri arasında aşkara çıxarmaq olur.Məsələn,I was working on the article from five oclock yesterdey-Dünən saat 5-dən 7-yə qədər məqaləm üzərində işləyirdim.

Hər iki formada seçim onu göstərir ki,danışan hərəkətin ya da prosesin uzanmağını vaxt ilə göstərir.Burada obyek(article)I was working sözləri arasındakı əlaqəni bildirir.

Adverbial münasibət söz birləşməsinin tərəfləri,yaxud cümlə üzvləri arasında xəbərlə zərflik arasında olur və işin icra şəraitini,yaxud cümlə üzvləri arasında olan münasibət şəraitini göstərir. Məsələn, I came home late yesterdey-Mən dünən evə gec gəldim cümləsində xəbərlə zərflik arasında olan münasibət(came late)hərəkətin icra şəraitini göstərir.

Atributiv münasibət söz birləşmələrinin(məsələn a qood student,a bad worker) tərəfləri arasında olur.Bu münasibət əvvəldən hazır şəkildə cümlədən kənarda yaranır. Atributiv münasibət cümlədə bütöv bir kompleks şəklində çıxış edən birləşmələr formalaşdırır və bu birləşmələr cümləyə hazır şəkildə gətirilir.

Obyekt, adverbial və atributiv birləşmələr cümlədə müxtəlif vəzifədə çıxış edə bilər. Deməli,obyekt,adverbial və atributiv münasibətlərin cümlənin quruluşu ilə heç bir əlaqəsi yoxdur.

Predikativ münasibət. Bu əlaqə cüttərkibli cümlədə cümlənin baş üzvləri - xəbərlə mübtəda arasında olur; Məsələn, **I worked, she comes, she is a teacher, the paper is white** və s.

Təktərkibli cümlədə isə informasiya və mətnlə ifadə olunur.

Predikativ əlaqə əvvəlcədən hazır şəkildə cümləyə gətirilmir.O,nitq prosesində yaradılır. Bu əlaqənin yaradılması ilə cümlə təşkil edilir. Başqa əlaqələr isə cümləyə ikinci dərəcəli üzvlərin gətirilməsi ilə əlaqədar yaradılır.

Dildə müəyyən qrammatik kateqoriyalar obyekt, adverbial və predikativ münasibətlərin ifadə vasitəsi kimi çıxış edir. Mübtəda ilə xəbər arasındakı uzlaşma predikativ münasibətin ifadə vasitələrindən biri hesab edilir.Yanaşma və idarə əlaqəsi isə obyekt, adverbial və atributiv münasibətlərin ifadəsinə xidmət edir.

Qeyd etmək lazımdır ki, predikativliyə mübtəda ilə xəbər arasındakı münasibət kimi yanaşanlar ancaq cüttərkibli cümlələri nəzərə almışlar. Çünki cüttərkibli cümlədə mübtəda və xəbər ayrıca üzv şəklində öz əksini tapır. Halbuki dildə cüttərkibli də mövcuddur ki,bunlarda baş üzv bir sözdə ifadə edilir.

M.Hüseynzadə "İsimlərdə xəbərlik kateqoriyası başlığı altında nitq hissələrinin xəbər vəzifəsində çıxış etdiyini göstərir.Müəllif "xəbərlik" və "xəbər" terminlərini sinonim sözlər kimi işlətmişdir. Halbuki xəbərlik-predikativlik xəbər anlayışından çox genişdir.Belə ki,xəbər cümlə üzvüdür,xəbərlik isə cümlənin məzmununun gerçəkliyə münasibətidir.Düzdür müəyyən cümlələrdə xəbər bu münasibətin əmələ gəlməsində mühüm bir amil kimi çıxış edir,ancaq bir qrup cümlələrdə (məsələn, adlıq cümlədə, söz-cümlədə) onlarda xəbər olmadığı halda xəbərlik vardır. Belə cümlələrdə müəyyən sözlər mətn və intonasiya vasitəsi ilə xəbərlik predikativlik) münasibətini ifadə edə bilir.

Xəbərlik anlayışının ifadə olunmasını iki növə bölmək olar: 1)morfoloji (sintetik); 2) sintaktik (analitik)

Xəbərlə mübtəda arasında qrammatik əlaqənin yaranmasına feli cümlələrdə şəxs, zaman, şəkil, ismi cümlələrdə isə ancaq şəxs əlaməti xidmət edir.Nitq hissələri (xüsusilə adları) xəbər vəzifəsində çıxış edərkən əsasən şəxs şəkilçiləri ilə işlədilir. Ancaq şəxs şəkilçiləri xəbərə aid əlamət olmayıb,şəxs kateqoriyasının ifadə vasitəsidir. Şəxs kateqoriyasının bu əlaməti eyni zamanda predikativliyin ifadəsinə xidmət edir. Lakin onlar bu zaman sintaktik kateqoriyanın yəni xəbərin əlamətinə çevrilmir. Şəxs şəkilçisi mübtəda,ilə xəbər arasındakı predikativ münasibəti göstərərək şəxs kateqoriyaları kimi ümumbəşəri xarakter daşıyır.Lakin onun ifadə yolları hər bir dilin öz milli xüsusiyyəti ilə əlaqədardır.

İngilis dilində elə bir forma da vardır ki, (demək olar ki,özünün bütün mənalarında) hətta yeganə denotatın təsviri zamanı belə hərəkət və prosesin realizəsi momentini ifadə edə bilmir.Bu forma Present Perfekt zaman formasıdır.Bu forma zamanı dəqiq göstərən ifadə ilə birləşə bilmir. Belə ki, "The car has arrived - Maşın gəldi" cümləsinə "a minute ago" birləşməsini əlavə edə bilmərik.

Present Perfect zaman formasına müxtəlif hadisələrin nəzərə alaraq demək olar ki, bu forma onu göstərir ki,təsvir olunan hadisə indiki zamana qədər baş vermişdir.

İngilis dilində elə bir qrammatik forma yoxdur ki, o,predikativ denotatların mənaları üçün işlənsin. Lakin elə forma da vardır ki,onlar əsasən özlərinin denotatlarını xarakterizə edirlər.Bu forma İndifinite və Present Perfect zaman formalarıdır.

Predikativlik və onun cümlə ilə əlaqəsi bir sıra mübahisəli məsələlər doğurur.Məsələn, predikativliyin cümləni cümlə etməsi haqqında fikirdən belə nəticə çıxarmaq olar ki,predikativlik söz birləşməsini cümləyə çevirə bilər. Predikativlik mürəkkəb tamamlığın komponentlərindən biri üçün səciyyəvi olduğu halda belə mürəkkəb tamamlığı cümləyə çevirə bilmir.Hətta xəbərə xas olan predikativlik belə, həmişə cümləni cümlə edə bilmir.Bu xüsusiyyətin təsdiqini budaq cümlənin bir hissəsini təşkil edən xəbərin yerinə yetirdiyi funksiya ilə izah etmək olar. Beləliklə, predikativliklə cümlə arasında tam uyğunluq axtarmaq düzgün deyildir. Xəbərin - predikativliyin olması cümlənin əhəmiyyətli əlaməti deyildir. Cümlədə predikativlik olmaya bilər.Eyni zamanda da predikativlik olan yerdə cümlə olmaya bilər.

Predikativlik və predikativlik münasibətinin mahiyyətini birinin xəbər olan (predikativliyi), digərinin xəbəri olmayan iki eyni leksik tərkibli cümlənin qarşılaşdırarkən aydınlaşdırmaq olar.Steblik-Kamenski bu formalı cümlə kimi <<Meşə yaşıldır>> və <<Yaşıl meşə>> nümunələrini gətirmişdir.Bunlardan birincisində xəbər vardır.Bu ismi xəbərdir.İkincisində isə xəbər yoxdur.Bu quruluş adlıq cüm-

ləyə uyğun gəlir. Predikativlik və predikativ münasibətin dərindən araşdırılması prosesində aydın olur ki, cümlənin məntiqi məzmunun onun qrammatik quruluşundan asılılığı bu günədək kifayət qədər ətraflı tədqiq edilməmişdir. Bu da predikativlik kateqoriyası ilə bağlı bir sıra mübahisəli məsələlərin hələ də həllini tapmadığını təsdiq edir.Bizim fikrimizcə,predikativlik müxtəlif cümlə tipləri üçün ayrı-ayrılıqda tədqiq olunmalıdır. Eyni zamanda polipredikativlik məsələlərinin diqqət mərkəzinə çəkilməsi öz aktuallığı ilə seçilir.

Ədəbiyyat

1.Попова П.С.Предложенияа и суждения.Вопросы синтаксиса современного языка. 1950, с 5-35

2.Адмони В.Г.Введение синтаксис современного немецкого языка.1955

3.Пешковский А.М.Русский синтаксис в научном освешении.Изд.5-е 1935

4.Шахматов А.Асинтаксис русского языка.1941

5.Стеблин-Каменский М.И. О передикативности//Стеблин-Каменский М.И.Спорные в языкознании.Л.1947-С.33-47

6.Seyidov Y. Cümlə. Müasir Azərbaycan dili(sintaksis) II kitab,Azərtədris-nəşr, Bakı 1962

K.Мехтиханлы

О предикативности

Резюме

В статье рассматриваются общие вопросы категории предикативности.На основе сравнительного анализа определяются различия между суждением и предложением.Доказывается,что между предикативностья и предложением нет соотносительности.В то время как,между предикативностью и суждением есть прямая соотносительность.

K.Mehdikhanlı

About predication

Summary

Common questions of predication are studied in the article.On the basis of comparative analysis differentiation between consideration and sentence are defined. In the article is proved that there is no correlation between predication and sentence.At the same time,there is direct correlation between predication and consideration.

Rəyçi: N.Rzayeva
filologiya üzrə fəlsəfə doktoru

SEVİNC BAĞIROVA
ADİU
sevincbagıriva@mail.ru

XIX ƏSR AZƏRBAYCAN ŞAİR VƏ MÜTƏFƏKKİRLƏRİNİN ƏSƏRLƏRİNDƏ İSLAM MOTİVLƏRİ

Açar sözlər: inglis dili, şair, mütətəkkür, islam motivləri
Ключевые слова: английский язык,философ,исламские мотивы.
Key words:English,poet,thinker,islamie motives.

XIX əsr Qarabağ ədəbi mühitində lirik şeriləri ilə fərqlənən Mirzə Həsən Qarabağı Yüzbaşovun adına tədqiqatçı alimlərin əsərlərində az təsadüf edilir.

M.Tərbiyət «Hədiqətüş-şüəra» adlı təzkirəyə əsaslanaraq «Danişməndani-Azərbaycan» əsərində Kaşif Qarabağı adlı bir şairin adını çəkmiş, onu XIX əsrin «Söz ustalarından biri» kimi göstərmişdir. Bu şair Mirzə Həsən Qarabağıdır.

Mirzə Həsən müasirləri arasında gözəl məsnəvi yazan bir şair kimi tanınmışdır. «Rəsmi vilayəti Qarabağ və şəhri-Şişə» (Qarabağ vilayəti və Şuşa şəhərinin adətləri), «Oğluma nəsihət» əsərləri, Xurşudbanu Natəvan, Mir Mövsün Nəvvaba, Hacı Abbas Agəhə yazılmış məktubları və təmsilləri şairin rəvan dilinə, sənətkarlıq məharətinə sübutdur.

Şairin «Oğluma nəsihət» əsəri başdan-başa peyğəmbər kəlamları ilə səsləşən, XIX əsr Qarabağ ədəbi mühitinə bir nur kimi yayılan sənət nümunəsidir.

Bu əsər şairin islam dinindən, islam qanunlarından xəbərdar olmasını, peygəmbər kəlamlarını dərindən bilməsini sübuta yetirir. Bu da ondan irəli gəlir ki, şair mədrəsə təhsili görmüş, ərəb dilini mükəmməl öyrənmişdir.

İslam dinində əxlaqın çox böyük əhəmiyyətə malik olduğunu dərk edən şair bu əsəri yazarkən islam qanunlarına əsaslanmışdır.

İslamın əsas qayəsi insanları gözəl əxlaq sahibi kimi kamilləşdirməkdir. İslam Peyğəmbəri Həzrəti Məhəmməd Əleyhüssəlam belə buyurmuşdur: «Mən gözəl əxlaqı tamamlamaq üçün göndərildim. Bir müsəlmanın dəyəri onun əxlaqının gözəlliyi ilə ölçülür». Bu mövzuda Həzrəti Peyğəmbər ona ən yaxın olanların gözəl əxlaq sahibi olduğunu bildirmişdir. O, «Allah yanında ən sevimli qullar kimlərdir?» sualını da «əxlaqı ən gözəl olanlardır» cavabını verimşdir.

Peyğəmbərin hədislərindən ruhlanan şair öz mənəvi aləmini «Oğluma nəsihət» əsərində əks etdirmişdir.

Əsər beş hissədən ibarətdir:

I hissə «Kibr və lovğalıq haqqında»;

II hissə «Elm haqqında»;

III hissə «Yoldaşlıq haqqında»;

IV hissə «İçkinin zərəri» adlanır.

Əsərin I hissəsində şairin kibr və lovğalıq haqqında fikirləri, düşüncələri öz əksini tapır. Şair oğluna yersiz məğrurluqdan, lovğalıqdan uzaq olmağı tövsiyə edir:

Olsun bu nəihətə səzavar,
Dövlət sənə daima olar yar.
Kibr ilə vücudunu bəzətmə,

Heç bir kəs ilə qürur etmə.

Şairin fikrincə ağıllı insan heç vaxt lovğalanmamalı, xalq içində özünü gözdən salmamalıdır:

Kibr eyləmə xəlqə, olma məğrur,
Kibr ilə cahanda olma məşhur.
Hər kimsə ki, oldu kibrə rağib,
Divanəliyə olbudu talib.

«Kibrə hörmət bəsləyənlərin axırı divanəlikdir» deyən şairin fikri Peyğəmbərimizin «Ədəbi olmayanın ağlı da olmaz» kəlamından irəli gəlir.

Əsərin II hisəssində şair elm haqqında oğluna dəyərli məsləhətlər verir, elmin bir kəlməsini, kəlamını bər-bəzək adlandırır.

Oğlum. Səbəbi-kamaldır elm,
Arayışi-hər məqaldar elm.

Elmə böyük hörmət bəsləyən şair «elmə, dilə hörmət bəsləməklə haqqa getmiş olarsan» deyə oğluna belə söyləyir:

Elm ilə olarsan əfzəli-xəlq,
İxlas dil ilə mayili-həqq.
Elm ilə xudaşünas olarsa,
Aləmdə əzizi nas olarsan.
Elm ilə, gözüm, səfa taparsan.

Burada şair «xudaşünas olarsan» deməklə İslamın əsas qayəsinin «Elmi» nəzərdə tutmuşdur.

Elm Allah Taalanın sifəti və onun bəşəriyyəti ilk fərmanıdır. Qurani Kərim «Oxu!» Buyruğu ilə başlanmış, Allahın birliyinin tanıdılması ilə davam etmiş tənbəllikdən əl çəkib işləməyi müsəlmanların qarşısına bir məqsəd qoymuşdur. Peyğəmbərimiz də bu üç məsələyə böyük əhəmiyyət vermişdir:

1. elm;
2. iman;
3. əməl.

Mirzə Həsən Yüzbuşov da bu qanunlara böyük hörmət bəsləmiş «Oğluma nəsihət» əsərində elmə üstünlük vermiş, elmi var-dövlətdən üstün tutmuşdur.

Peyğəmbərimizin «Elm istifadə olunduqca artar, mal isə azalar» kəlamına əsaslanaraq şair oğluna belə deyir:

Dövlət gedər əldən, elm getməz,
Elm əhli özün zəlil etməz.
Hifz eylə, gözüm, nə var məndə,
Mən tək olsan sən də.

Şair özünün var-dövlətinin əldən getməsinə təəssüflənmir, əksinə elminin onu havadar olmasına, yar olmasına sevinərək belə yazır:

Yar oldu mənimlə öz savadım,
Xəlq icrə dəxi ucaldı adım.

Oğluma nəsihət əsərinin III hissəsi «Yoldaşlıq barəsində» şairin oğluna nəsihəti budur ki, əsli olmayan biri ilə dostluq etmə, yoxsa bəlaya düşər olarsan. Şair oğlunu qəmdən, nisgildən uzaq olmağa səsləyir.

O dost seçərkən oğluna ehtiyatlı olmağı, hər bir yetəni dost tutmamağı arzulayır:

Hər bir yetənə rəfiq olma,
O nakəs ilə şəfiq olma.
Edər səni bər rəfiq bədnam,
Bu da verər əziyyəti-tam.

Onun fikrincə əsl dost rəftarı gözəl, ədəbdə, kamillikdə bir insan olmalıdır. Şairin bu fikirləri Peyğəmbərin «Dostun ən fənası birinə bir üz, başqasına başqa üz göstərən adamdır» kəlamından irəli gəlir.

Əsərin IV hissəsində qumarın ziyanından bəhs olunur. Şair qumarın ziyanını birdirir, insan üçün çoxtəhlükəli olduğunu vurğulayır.

Şair oğluna insanın ləyaqətini, şərəf və namusunu alçaldan hislərdən uzaq olmağı tövsiyə edir:

Daim bu kəlamı eylə əzbər,
Hər şamü səba oxu mükərrər.
Hər kəs ki, olub qumar ilə yar,
Hər iki cahandadır ziyankar.

Şair oğlunu hər iki dünyada ziyankarlıqdan uzaq olmağa səsləyir. Bu fikirlər Peyğəmbərimizin «Bu dünyada insanlara əzab verənlər qiyamət günü ən şiddətli əzaba düçar olarlar» kəlamı ilə səsləşir. Əsərin V hissəsi «İçkinin zərəri» adlanır. Şair oğluna əlinə şərab almamağı, dinini itirməməyi məsləhət görür:

Alma əlinə şərabi-nabi,
İyzəd sənə etməsin itabi.
Hərgiz ləbinə yetirmə badə,
Ta vermiyəsən dinini badə.

Buradan aydın görürük ki, şair islam dininə olan məhəbbətini bildirmiş, oğlunu dinimizə zidd adətlərdən qorumağa çalışmışdır.

Aqil olan kəsb edərmi əsla,
Ondan ucalıb cahanda qovğa.
Çox evləri tarü mar edibdir.
Çox kəsrləri dil-fikir edibdir.

Deyərək şair oğlunu şərabdan uzaq olmağa səsləyir.

«Övladınızla xoş rəftar edin və onlara gözəl tərbiyə verin». Peyğəmbərimizin bu hədisini şair öz mənəvi aləminə bir işıq kimi yaymış, elmə dəyər verən, əxlaqi gözəlləşdirən, mənəviyyatı ucaldan gözəl bir xəzinə «Oğluma nəsihət» əsərini yaratmışdır. Şair şerin hər bir hissəsini hədislərə uyğun olaraq seçmiş. İslam dininin insana pak etiqad, yüksək əxlaq bəxş etdiyini bildirmək istəmişdir.

Şairin təmiz əxlaqlı insan olduğunu göstərən bu əsər gələcək nəsillərə bir tərbiyə vasitəsidir.

Ümumiyyətlə, Mirzə Həsən Yüzbuşov yaradıcılığı geniş və hərtərəfli tədqiq olunmadığından öz tədqiqatçıların yolunu gözləyir.

Ədəbiyyat

1. Mirzə Həsən Qarabağı. Seçilmiş əsərləri. Bakı-1978, 173 s.
2. Mirzə Həsən Qarabağı Yüzbaşov. Seçilmiş əsərləri. Bakı-1990. Şuşa nəşriyyatı, 184 s.
3. 101 hədis. «Gənclik», «Dan Yeri» RNK. Bakı-1990. 318 s.

4. Kəlimeyi Şəhadət. Bakı-1990. 65 s.
5. Seyfəddin Yazıçı. İslam xoşbəxtlik yoludur. Türk dcilindən tərcümə edən Mehman Muca oğlu. Ankara-1998. 25 s.

С.Багирова

Исламские мотивы в произведениях восточных поэтов

Резюме

В статье было выяснено что, произведение Мирза Гасан Юзбашова «Наставление Сыну» является профессиональным образцом отражающим изречения Пророка Мухаммеда (С). В статье ,кроме того,выясняется в «Корани-Керим» некоторые мысли и откровение которые выражаются в произведениях восточныч поетов.

S.Bagırova

The article that, the work named Admontion

Summary

It was parsed in the article that, the work named «Admontion to my son» by Mirza Hasan Yuzbashov is the specimen of art reflecting Prophet Mohammad′s (S) dictums. The work as approved as a specimen of art beautifying morality, valuing science, increasing sprirt. Besides this, some thounghts and discovers of "Korani-Kerim" are explained which expressed in the words of Eastern poets.

Rəyçi: b.m R.Babayeva

DÜRDANƏ VƏKİLOVA
dürdanə@mail.ru

MƏTN STRUKTURUNDA REGİSTR VARİANTLARIN YARANMASI

Açar sözlər: registr variantları, koheziya, mətn strukturu, informativ registrlər;
Ключевые слова: варианты регистров, когезия, структура текста, информативные регистры;
Key words: variants of registers, cohesion, text structure, informative registers.

Mətnin kommunikativ strukturunda reproduktiv, informativ, generativ, volyuntiv, reaktiv registrlərdən başqa, müntəzəm göstəricilərə malik sintaktik kompozisiya fraqmentləri də vardır. Bu fraqmentlər məlum registrlərin diferensial əlamətlərinin qarşılıqlı təsirini özündə birləşdirə bilir. Ənənəvi dilçilikdə onlardan söz və cümlə çərçivəsində bəhs olunmuş, həmin fraqmentlər mətn strukturundan doğan hadisə kimi qiymətləndirilmişdir. Kommunikativ registr anlayışını irəli sürmüş tədqiqatçılar belə fraqmentləri registr variantları adlandırmış, həmin vartantların üç tipini ayırmışlar:

1) əyani nümunəvi variant;
2) potensial ümumiləşdirmə variantı;
3) generativ-volyuntiv variant.

Hər üç registr variantı mətn daxilində müxtəlif registr bloklarında qeydə alınır. Bu registrlərin əsas xüsusiyyətlərindən biri onların məlum registrlərin sıralanması və bir-birinə keçidində mühüm rol oynaması ilə bağlıdır. Bu cəhət registr variantlarını ayrı-ayrılıqda təhlilə cəlb etməyi aktuallaşdırır. Onu da qeyd edək ki, üçüncü registr variantı öz mahiyyətinə görə ikinciyə yaxınlaşır. Onun fərqli xüsusiyyəti məhz hansı kommunikativ registrlər arasında aralıq mövqe tutması ilə əlaqədardır. **Əyani-nümunəvi registr variantı.** Bu termin aspektologiyadan alınmışdır. Nitqin əyani-nümunəvi registr variantı növü zaman planının subyektiv dəyişməsini göstərən əsas vasitədir. Kommunikativ prosesdə personajın və ya danışanın xəyalında zamanın dəyişməsi baş verir və hadisələr bu yeni zaman daxilində cərəyan etməyə başlayır. Beləliklə, əsərin süjet perspektivi dəyişir. Gerçəklikdə indiki zamanda olan subyektlər və ya bu subyektlərdən bir neçəsi, biri başqa zaman kəsiyinə keçir və oradakı hadisənin iştirakçısına çevrilir. Zaman planının çox zaman gələcək istiqamətində dəyişməsi baş verir. Hadisələrin başvermə xronotopunda personajlar xəyalən gələcək zamana köçürülür. İnformativ registrdə bu xəyali zamanda hadisələr dinamik şəkildə bir-birini əvəz edir. informativ registrdə cümlələrin həm indiki, həm gələcək zamanlı formaları işlənə bilir. Hadisələr xronotopu gələcək zamana köçürülə bildiyi kimi, keçmişə də qayıtma imkanına malikdir. bu halda da zaman köçürülməsi, zaman planının dəyişməsi xəyali şəkildə baş verir və zaman dəyişməsi haqqında məlumat danışan tərəfindən verilir. Gələcəyə köçürmə ilə müqayisədə keçmişə qayıtmada fərqli cəhətlər üzə çıxır. Keçmiq və onun hadisələri danışana, personaja məlumdur. Gələcək hadisələrin isə necə cərəyan edəcəyi məlum deyildir. Bu hadisələr olsa-olsa müəyyən səviyyədə proqnozlaşdırıla bilir. Əgər xəyali gələcək üçün hadisələrin həmin xəyali zamanın müəyyən anından başlayaraq davam et-

məsi məqbuldursa və bu hadisələr hələ baş verməmiş və yalnız danışanın təxəyyülündə yer alan hadisələrdirsə, keçmişə qayıtmada həm baş vermiş, həm də baş verməmiş hadisələr canlandırılır. Danışan, adresat sanki keçmiş hadisələrə müdaxilə etmiş olur. Onu da qeyd edək ki, bəzən bu müdaxzilə olmur. Yalnız keçmişdə olmuş hadisələrin canlandırılması prosesi gedir.

Arzı həm keçmişə, həm də gələcəyə istiqamətlənəndir. Gələcək arzu edilənin təsəvvürə və dilə gətirilməsidir. Keçmişə qayıtma isə baş vermişlərin xatırlanması, bir sıra hallarda baş vermişlərin dəyişdirilib başqa şəkildə təqdim edilməsidir. Keçmişə qayıdış ya xatirəni canlandırmaq, ya da keçmişdə baş vermişi başqa şəklə salmaq, bugünkü arzuya, istəyə uyğunlaşdırmağı nəzərdə tutur. Keçmişdə baş vermiş hadisənin xatırlanması informativ registr üçün səciyyəvidirsə, keçmişdə olanın dəyişdirilməsi və ya tam reallıqla indiki zaman çərçivəsinə salınıb canlandırılması kommunikativ registrin əyani nümunəvi variantıdır. Daha bir məsələni də aydınlaşdırmaq lazım gəlir. Danışan keçmişdə baş vermiş hadisəni xatırlayır, arzulayır. Zaman planı bu məqsədlə keçmişə köçürülür. Personajın həmin hadisəni xəyalən yenidən təkrar olunması arzusu sanki keçmiş zaman planından yenidən indiki zamandan keçilərək gələcəyə köçürməyə zəmin yaradır. Arzu olmuş hadisənin olduğu kimi və ya fərqli şəkildə yenidən baş verməsinə kökləndiyindən zaman planının keçmişdən gələcəyə köçürülməsi baş verir.

Əyani-nümunəvi registr variantının yaranması informativ mətnə xatirələr mənzərəsini, fantaziyanı, güman edilən şəraitin rəzmini sanki çəkərək canlandıran reproduktiv registrin daxil edilməsi ilə baş verir.

Əyani-nümunəvi registr variantı üçün ən səciyyəvi cəhəti feli və ismi xəbərli cümlələrin başqa zaman planına keçməsidir. Zaman planının dəyişməsini bildirən və ya göstərən siqnallar müxtəlif dillər üçün fərqli dil hadisələridir. İnformativ registr və əyani-nümunəvi registr variantından əvvəlki informativ mətn əvvəlcə zaman planını dəyişməyə xidmət göstərən mənzərəni və faktual informasiyanı canlandırır. «65300 eksponanta diqqətlə baxmaq üçün beş həftə lazımdır» informasiyası bundan sonrakı informativ registrdə «tourist» sözünün «Louvre Lite» ifadəsinin işlədilməsi hadisənin zaman planının dəyişməsinin siqnalına çevrilir. Abzasın son cümləsi zaman planının yeni informativ registrlə əvvəlki yerə qaytarılmasını həll edir. «Art Buchwald».İngilis dilində zaman planının dəyişməsində felin müxtəlif zaman formalarından istifadə edilir. İngilis dilində zaman formalarının rəngarəngliyi buna geniş imkanlar açır. Keçmiş və gələcək davamedici zamanların istifadə olunduğu əyani-nümunəvi registr variantlarının informativ mətnə daxil edilməsi qeyd edilən effekti yaratmağa kömək edir.

Əyani-nümunəvi registr variantında danışanın xronotopunda obyektiv müşahidə edilən olmur. Registr variantı danışanın şüurunda yaranan, ikinci olan obrazları canlandırır. Bu canlandırma qulaq asanın və ya oxucunun şüurunda da inikasınıtapır. Mətnin perseptiv xətti bu abzasları hadisələr xəttindən kənarda yaradır. Əgər danışan özünü canlandırılan mənzərəsinin subyekti kimi təsəvvür edirsə, onda o da başqa zaman planında mövcud olan subyektə çevrilir. Deməli, əyani-nümunəvi registr variantının daxil edilməsi subyekt sferasında eynilyi təsdiqləmir. Reproduktiv fraqmentlərin bu tipli imitasiyası əyani nümunəvi kompozisiya funksiyası kimi çıxış edir, fikrin informativ gedişinin təzahürünə çevrilir. Bədii mətnlərdə, xüsusən də

poeziya nümunələrində aktual müşahidə olunanla təsəvvürdə canlandırılan arasındakı sərhəddi ayırmaq çətindir.

Əyani-nümunəvi registr variantı indiki tarixi zaman anlayışı ilə assosiasiya yaradır. Onların hər ikisinin indiki zaman illüziyası yaradan taktiki üsul olmaları birləşdirir. Bununla belə, indiki tarixi zaman baş vermiş olanın aktuallaşdırılması üçün müşahidəçinin mövqeyinin və ya qavrayan subyektin dəyişdirilməsini nəzərdə tutur və bu zaman hadisələrin cərəyan etmə xətti, süjet ardıcıllığı dəyişmir.

Əyani-nümunəvi registr variantında isə hadisələr xəttindən başqa zaman planına subyektiv sıçrayış baş verir. Yeni zaman planı modal qeyri-real plan olur.

Potensial ümumiləşdirmə registr variantı. Bu registr variantının əsas əlaməti ümumi şəxsli cümlədir. Ənənəvi qrammatikada bu, təktərkibli cümlə tipidir. Ümmui şəxsli cümlələr mətn strukturuna uyğun gələn elementlərdən biri hesab olunur.

Məlumdur ki, ümumi şəxsli cümlələrdə ifadə edilən hökm ümumi şəxsə aid olur. Ümumi şəxsli cümlənin xəbəri ikinci şəxsin təki, üçüncü şəxsin cəmi, bəzən də birinci şəxsin tək və ya cəmi ilə ifadə olunur. Bu zaman həmin şəxslər öz mənalarından tamamilə uzaqlaşmır. İş bütün şəxslərə aid edilə bilir. Ümmui şəxsli cümlələr daha çox atalar sözləri, nəsihət, məsləhət səciyyəsi daşıyan hökmlər olur.

Ümmui şəzsli cümlələr adresatı və onun yerində ola biləcək istənilən başqa şəxsi danışanın təcrübəsinə dəvət edir. ümumi şəxsli cümlədə subyektin şəxs forması ilə onun kommunikativ rolu arasında birbaşa uyğunluq, münasibət yoxdur. Ümumi şəxsli cümlənin üç əsas forması fərqləndirilir:

1) atalar sözü tipli;
2) nəqli-uzual tipli;
3) qiymətləndirmə-səciyyələndirmə tipli.

Nəqli-uzual tipli ümumi şəxsli cümlələrdə danışanın fərdi təcrübəsi ikinci şəxs, adresat və ya adresatı əvəz edə biləcək istənilən şəxs üçün ümumi formada verilir.

Ümumiləşdirilmiş şəxs anlayışı, hadisənin müəyyən xətt üzrə inkişaf etdirilməsi hər kəsi, istənilən ardresatı hadisəyə cəlb edir. Ümumiləşdirilmiş nöqteyi-nəzərin və ya ümumiləşdmə potensialı olan fikrin mətn strukturuna daxil edilməsi registrlər arasında sərhəddi təyin etməyə imkan yaradır. Bu cəhət mürəkkəb cümlə daxilində bir registrdən digərinə keçid halında da müşahidə olunur.

Generativ-volyuntiv variant. Bu registr variantı qeyd olunduğu kimi ikinci registr variantına yaxındır. Bu variantda həcmə görə minimal olan registrlərin qarşılıqlı əlaqəsi yer alır. Generativ-volyuntiv registr variantı kontekstdən çox ayrılmayan kiçik fraqmentlərlə səciyyələnir. Bu zaman danışan nitqində atalar sözlərindən istifadə edir. Bununla o müəyyən fikrini təsdiq etmək məqsədi daşıyır. Atalar sözləri, zərb məsələlərdə kollektiv subyektin illərlə ümumiləşdirilmiş təcrübəsinin nəticəsində meydana gəlmiş kommunikativ akt gerçəkləşir. Bu akt onu deyənə məxsus deyildir. Lakin danışanın bu registr variantını öz nitqinə daxil etməsi adresata təsir üçün nəzərdə tutulmuş və ümumi registr blokunun daşıdığı informasiyadan seçilir, sanki kənardan həmin informasiyanın daxilinə nüfuz edir. Qeyd edək ki, bəzi frazeoloji ifadələr də bəzən belə funksiyanı yerinə yetirir. Generativ-volyuntik registrə aid nümunələrin müəyyən mətndən axtarılıb tapılması o qədər də asan deyildir. Çünki bu registr variantı işləklik baxımından məhsuldar deyildir.

Əlbəttə, generativ-volyuntiv registrə meylliliklə səciyyələnən varaint heç də həmişə atalar sözləri əsasında formalaşmır. Bəzi hallarda bu registr danışanın intensiyasında xüsusi vurğulanan bir kəlmə, bir söz, bir hökm şəklində üzə çıxır. Şekspirin «Hamlet» əsərində Hamletlə Ofelya arasındakı dialoqda Hamletin istifadə etdiyi «Get monastıra» fiadəsi generativ-volyuntiv registr variantı funksiyasını yerinə yetirir. Burada atalar sözlərinə xas olan ümumiləşdirmə deyilən kəlmədə yoxdur. Lakin personajın eyni kəlmə ilə müsahibini təhrik etdiyi işin öz mahiyyətində bu konkretlik, informasiyanın yığcamlığı özünə yer alır.

*If thou dost marry. I'll give thee this plague for thy dowry: be thou as chaste as ice, as pure as snow, thou shalt not escape calumny. Get thee to a nunnery, go: farewell. Or, if thou wilt needs marry, marry a fool; for wise men wise men know well enough what monsters you make of them. To a nunnery, go, and quickly too. Farewell.*Mətndəki informasiya dəyərli və dəyərsiz ola bilər. yəni müəllif bəzən kommunikativ akt üçün dəyərli olmayan informasiyanı mətnə daxil ndir. Belə halda izafi informasiya müəyyən müddətdən sonra dəyərliliyini itirir.

Mətndə fikrin eksplist və ya implisit şəkildə ifadə olunması, gərginlik və qeyri-gərginlik yaradır. İnformasiyanın gizli ifadəsi gərginliyi artırır. İzafi gərginlik isə mətnin qavranmasını çətinləşdirir. Mətn janrından asılı olmayaraq oxucu üçün nəzərdə tutulur. Mətnin orta səviyyəli oxucuya ünvanlanması daha geniş yayılmışdır. Mətnin xətti şəkiodə açılışı və məlumatların dərinlik strukturları oxşar deyildir. Müəyyən ölçüdə praqmatik yeni ifnormasiyaya kökləmə mətnin informativliyini artırır. Mətnin informativliyinin artırılmasının iki yolu vardır: intensiv və ekstensiv üsul. İntensiv üsul informativliyin artırılması mətn həcminin azaldılması ilə əldə edilir. Bu zaman informasiya sıxılır və mətndə struktur gərginlik əmələ gəlir.

Ekstensiv üsul mətnə daxil edilən informasiya həcminin artırılmasına əsaslanır. Onun tətbiqi baş verən hadisələrin təfərrüfatına varmaqla əldə olunur.

«*Out the right-hand window, south across the Seine and Quai Voltaire, Langdon could see the dramatically lit facade of the old train station – now the esteemed Musée d'Orsay. Glancing left, he could make out the top of the ultramodern Pompidou Center, which housed the Museum of Modern Art. Behind him to the west, Langdon knew the ancient obelisk of Ramses rose above the trees, marking the Musée de Jeu de Paume.*

But it was straight ahead, to the east, through the archway, that Langdon could now see the monolithic Renaissance palace that had become the most famous art museum in the world.

Musée de Louvre.»

«Dildə ümumi səviyyədə işlənən nə varsa, onlar qrammatik doğru formalardır» fikrini irəli sürən Q.Suit ingilis dilində cüttərkibli cümlələrdən fərqlənən tərtərkibli cümlələrin və cümlə funksiyasında çıxış edən sintaktik quruluşların olduğunu təsdiq etmişdir. Müəllif «Come!» tipli feli əmr cümlələrini, «Half a cup, please!» tipli felsiz xahiş cümlələrini, «Yes», «No», «Please!» tipli söz-cümlələrini, «John!», «Ann!» tipli vokativ cümlələri, «Alas!» tipli nida cümlələrini «Condensed sentences» adlandırdığı bir qrupda birləşdirmişdir.

Felsiz cümlələrin «Forward!», «Silence!», «Off with you!», «No talking!» tipli cümlələrin böyük əksəriyyətin Q.Suitin «Condensed sentences» qrupundan kənarda qalır. Kommunikativ registrlərin formalaşması, onların mətn strukturunda

sıralanması, registr bloklar yaratması və bu blokların birləşərək ümumi mətni əmələ gətirməsi, bir tərəfdən ənənəvi mətn vahidlərinin sıralanması kimi özünü göstərir. Lakin kommunikativ registrlər və onların variantları məsələyə başqa aspektdən yanaşmaq üçün xüsusi zəmin yaradır. Cümlə tirləri çox və mürəkkəbdir. Mətnin abzas kimi vahidlərinin sayı da həmin mətnin ümumi həcmindən asılı olaraq kifayət qədər çox ola bilər. Aparılmış tədqiqat göstərir ki, kommunikativ registr bloklarının ayrı-ayrı modellərinin öyrənilməsi daha effektiv nəticə vermək imkanına malikdir. bəzi registr bloklarında, registr variantları qeydə alınır ki, onların da ümumi sayı cəmi üçdür.

Ədəbiyyat:

1. Müasir Azərbaycan dili. Bakı, Elm, 1981.
2. İ.Tahirov: Azərbaycan və ingilis dillərində zaman kateqoriyası. Bakı, Nurlan, 2007.
3. Агаев П. Трактовка невербальных одноядерных предложений в английской литературе // Dilçilik məsələləri. №3(4). Bakı, AMEA Dilçilik İnstitutu nəşri, 2005, s. 209-219.
4. Золотова Г.А. Субъектные модификации русского предложения // Sagners slawistische SAmmlung. Bd 17., Munchen, 1991, p.4.
5. Золотова Г.А., Онипенко Н.К., Сидорова М.Ю. Коммуникативная грамматика русского языка. М., 2004.
6. Sweet H.A. New English Grammar. Logical and Historical. Part 1, Oxford, 1955.

Д.Векилова

О особенности вариантов регистра в структуре текста

Резюме

В данной статье рассматривается построение регистров и их варианты в структуре текста. Известно, что языковые единицы взаимосвязаны, между ними существует когезия. Здесь необходимо отметить формирование последовательности вариантов в тексте. Поэтому варианты информативных регистров рассматривается как один из важных вопросов.

D.Vəkilova

About pecularities of variants of registers in the structure of the text

Summary

This article deals with the variants of registers in the text structure. It is known that, the text units are related with each other and there is cohesion among them. From that point of view, it is important to mention the relation order in the text forming, therefore, the variants of informative registers are considered one of the main problems.

Rəyçi: N. Rzayeva
filologiya üzrə fəlsəfə doktoru

М.ИБРАГИМОВА
АУЯ
Mirakel84@mail.ru

LIEDER IM DEUTSCHUNTERRICHT

Ключевые слова: Песни, преподаватель, мотивировать, урок, упражнение.
Açar sözlər: mahnılar, müəllim, həvəsləndirmək, dərs, tapşırıq.
Key words: songs, teacher, motivate, lesson, exercise.

Lieder sind eine wichtige Textsorte und eine gute Unterstützung beim Fremdsprachenlernen. Sie dienen als Hörtexte und zudem handelt es sich meistens um das authentische Material, das beim Unterricht soviel gefordert wird. Die Schüler können also deutsch von den Muttersprachlern hören, was von großer Bedeutung ist.

Die Fachliteratur unterscheidet zwei verschiedene Hörstile, die auch im Fremdsprachenunterricht, und in der Arbeit mit den Liedern entwickelt und trainiert werden müssen. *Extensives Hören:*

Dies umfasst einerseits das globale Hören, bei dem der Hörer nur die zentralen Informationen erfassen will oder muss, und andererseits das selektive Hören, bei dem Text spezifische Informationen entnommen werden.

Intensives Hören:

Beim intensiven Hören ist es zum Verständnis der Gesamtaussage erforderlich, dem Text auch Details zu entnehmen.

Kriterien der Liederauswahl.

Wenn man mit den Liedern im Deutschunterricht zielstrebig arbeiten will, muss man auch gute Entscheidung treffen, welche Lieder am besten sind. Wonach sollte man sich richten? Von Dolores Rodriguez Cemillan (2000) bietet solche Kriterien der Liederauswahl an:

_ Lieder, die Spaß machen und motivieren
_ Lieder, deren Themen den Schüler anspricht
_ Lieder, die dem Schüleralter entsprechen
_ Lieder, die dem Sprachstand der Lernergruppe entsprechen
_ mit einem geeigneten Rhythmus
_ nicht zu lang
_ mit deutlicher Aussprache des Sängers
_ mit Refrain
_ mit landeskundlichen Aspekten
_ wenn möglich, ideal für konkrete/gezielte Übungen

Esa (2007) ergänzt oben genannte Kriterien durch eigene Gedanken:

_ Fast alle Texte (Musiktexte) eignen sich für den Fremdsprachenunterricht
_ Die Liedtexte müssen Schüler/Studenten freundlich gemacht werden, d.h. mit guten Übungen begleitet werden
_ Die Lehrerinnen sollen nicht immer darauf bestehen, dass die Schüler jedes Wort verstehen
_ Die Übungen sollen den Schülern das Verstehen der Texte erleichtern

_ Die Lehrer sollen Musik/Lieder im Unterrichtsstoff angemessen einbauen. Wir sind in erster Linie Deutschlehrer und keine Musiklehrer.

Autor denkt noch darüber nach, was man mit den Liedern sonst noch machen kann:

_ die Unterrichtsroutine/Monotonie durchbrechen
_ Singen ist gut für Ausspracheschulung/Intonation/Rhythmus
_ als Werbung/Promotion der Fremdsprache
_ Wortschatzfestigung und -erweiterung
_ Landeskunde vermitteln
_ Einführung von Dialekten/Umgangssprache
_ grammatische Strukturen üben/wiederholen
_ Leseanlass zum Thema(Lektüre).

Lieder und Musik helfen - auch schon im Anfangsunterricht - beim Erlernen einer fremden Sprache. Der Text wird auswendig gelernt und schon ist Mensch in der Lage, ein ganzes Lied in der Fremdsprache zu singen. Außerdem lockern Lieder den Unterricht auf, weil es den meisten Menschen Spaß macht zu singen. (Huth)

Musik im Unterricht ist immer eine willkommene Abwechslung. Dabei wird nicht nur das Hörverstehen trainiert, spielend kann man auch die Aussprache lernen oder neuen Wortschatz wiederholen. Es gibt Lieder, die zum Denken anregen, wo der thematische Bezug im Vordergrund steht. Andere Lieder eignen sich im Unterricht besonders gut, um grammatische Phänomene ganz plastisch darzustellen. Oft können Lieder auch Anlass zum kreativen Schreiben sein.

Die Lieder greifen positive Resonanz auf, die der Einsatz von Liedern im Unterricht findet. Sie stellen sich von der grammatischen Progression und der Lexik her den Anforderungen des Grundstufenunterrichts, ohne jedoch auf Inhalte zu verzichten, die der moderne Sprachenunterricht mit Jugendlichen fordert.

Nach Wagner (1982) bieten daher die meisten Lieder Ansatzpunkte, die Lerner mit literarischen und poetischen Formen der deutschen Sprache vertraut zu machen, sie zu eigener literarischer Textproduktion anzuregen, und sie geben Anlässe, die Schüler mit dem Vokabular der Gefühlswelt vertraut zu machen. Letzteres erscheint umso wichtiger, als viele Lehrbücher für Deutsch als Fremdsprache den Bereich menschlicher Gefühle und Regungen ausklammern.

Bei den Liedern spielt auch der Inhalt eine große Rolle.

Bei der Behandlung des Textes geht es wie bei anderen Textquellen um den Entstehungszusammenhang, den/die Autor/in, das Thema, die AdressatInnen, die Funktion, sowie die Wirkungsabsicht. Im Mittelpunkt steht die Diskussion über das Thema des Liedes. Man stellt verschiedene Fragen:

Wer singt (erzählt) das Lied?

In welcher Situation befindet sich die Person?

Was sagt das Lied dem Zuhörer, reagiert es auf ein Problem? Hat das Lied irgendeine Absichten? Hat das Lied ironische Züge?

Es gibt viele Lieder, die inhaltlich „schwierig“ sind. Als Beispiel kann man an dieser Stelle einige Liedtitel nennen, mit denen man im Deutschunterricht arbeiten kann. Es handelt sich z.B. um folgende Lieder: Alles wird teuer (C.Detlef), Virus (LaFee), Bayern (Die Toten Hosen), u. a.

Andere Lieder fordern stärker ein dialogisches Arbeiten. Die Texte sind so gehalten, dass sie Gelerntes zusammenfassen und durch Wiederholungen im Anwendungskontext das Lernen erleichtern. Redewendungen und grammatische Elemente können so „singenderweise“ gefestigt werden.

Wenn auch die Kommunikationsmöglichkeiten besonders in den ersten Stunden und Wochen beschränkt sind, so beinhalten doch selbst die ersten Lieder Aussagen, die für den praktischen Gebrauch gedacht sind und Redewendungen und Ausdrücke umfassen, die den Erwachsenen zur ersten Kommunikation befähigen: Kontaktaufnahme, Herkunft benennen und erfragen, Personen und Lebensverhältnisse beschreiben, jemanden einladen, eine Einladung ablehnen, etwas zu tun usw. Die Komplexität und Schwierigkeit der in den Texten enthaltenen grammatischen Strukturen folgt einem schrittweisen Aufbau: Der Umfang reicht von syntaktisch einfachen Aussage- und Fragesätzen mit einigen häufig vorkommenden Verben (Konjugation Präsens) über Lieder, in denen Sätze mit komplexen Prädikaten (Modalverben etc..) sowie Äußerungen mit Akkusativ-, Dativ-, Lokalergänzungen, Präteritum, Perfekt regelmäßiger und unregelmäßiger Verben vorherrschen, bis hin zu Satzgefügen mit Nebensätzen. In den Liedern können die Schüler selbst die grammatischen Regeln erkennen oder die ältere Grammatik wiederholen. Mit Liedern kann man fast unbemerkt die Grammatik in den Unterricht einbinden. Fast jedes Lied beinhaltet Elemente, die leicht zu wiederholen sind – ein Wort oder ganzer Satz. Viele neue Methoden des Fremdsprachenunterrichtes befreien sich von der Grammatik und bevorzugen die Kommunikation. Die Grammatik sollte nur ein Mittel von komunikativen Kompetenzen sein.

Die Schüler können neue Wörter und Wortverbindungen auf unterschiedliche Weise erwerben. Dies kann z. B. durch den bewussten täglichen Umgang mit Wörterbüchern und digitalen Lernprogrammen geschehen oder durch das Nutzen verschiedenster Medien, um selbstständig Informationen einzuholen. Aber zusätzlich können auch Lieder der Wortschatzvermittlung oder Erweiterung dienen. Die Arbeit mit Liedern bietet verschiedene Übungsmöglichkeiten. Die häufigsten sind, meiner Meinung nach die folgenden: Ergänzung des fehlenden Wortes (Lückentext, Einsetzübungen), Übersetzung des Wortes in eine andere Fremdsprache, Identifizierung des Wortes im Text (Erkennungsübungen), Zuordnung eines Wortes zu einer Definition (Zuordnungsübungen), Ersetzen des Wortes durch ein anderes (Substitutionsübungen) sowie Übertragung einer lexikalischen Form in andere (Transformationsübungen). Es ist immer empfehlenswert, die Übungen zum Wortschatzerwerbs zu variiren und abzuwechseln. Es erscheint nicht so gewöhnlich, und den Schülern bereiten neue Methoden mehr Freude als klassische, die sehr häufig benutzt werden.

Die Lieder bieten viele Arbeitsmöglichkeiten, sowohl was satzphonetische Elemente betrifft als auch hinsichtlich Wortakzent und Satzintonation. Hier kommt die Besonderheit der traditionellen deutschen Versrhytmik zum Tragen, die durch den Takt und die Melodie unterstrichen wird, sodass der Lernende oftmals automatisch richtig betont, da er durch den Liederrhytmus und die Liedmelodie dazu gezwungen wird. Schließlich empfinden die Lernenden das gemeinsame Sprechen von Liedtexten weit weniger langweilig als sture Phonetikübungen, bereitet doch das Chorsprechen auf das gemeinsame Singen vor.

Als Beispiel kann man das Lied Drei Chinesen mit dem Kontrabass erwähnen, das viel Spaß, besonders bei den kleineren Kindern, macht.

Unter dem englischen Einfluss tauchen in einigen deutschen Liedern auch Anglizismen auf. Mit ihnen können die Schüler arbeiten (in diesem Lied sind sie fettgedruckt). Die Schüler können ihre deutschen Äquivalente suchen, sie können die Begriffe auf Deutsch umschreiben oder durch andere Wörter ersetzen. Dabei ist die Verbindlichkeit unter den Fächern, nach den neuen Lehrplänen sichtbar.

Warum ist deutsche Populärmusik (Hiphop/Rap/Pop) im Unterricht so beliebt?

Populärmusik, insbesondere zeitgenössische, stellt einen wichtigen Sozialisationsfaktor für die Jugendlichen dar. Sie weckt Emotionen und ist den Medien allgegenwärtig, weshalb sie in der Schülergeneration einen hohen Stellenwert hat. Die Schüler besitzen bereits weitreichende Vorkenntnisse u.a.über deutschsprachige Popmusik, dadurch sind sie hoch motiviert, über ihre eigene Musik zu sprechen, Stellung zu beziehen und ihren Musikstil zu rechtfertigen.

Popsongs enthalten eine zumeist einfache, leicht zugängliche Sprache, berühren uns emotional und wirken dadurch motivierend – sie können aber andererseits auch so anspruchsvoll sein wie Literatur! Musik entspannt und stimuliert zugleich, auch und besonders im Unterricht. Songs bestehen meistens aus kurzen, abgeschlossenen Texten, die leicht zu verständlich sind. Die Aufgabenstellung im Fremdsprachenunterricht sollte allerdings dahingehend ausgerichtet sein, von passivem Konsumieren zu bewusstem und kritischem Hören zu gelangen. Dabei muss die Kluft zwischen der angenehmen Erfahrung des Musikhörens und dem kommunikativem Sprachgebrauch geschlossen werden, d. h. weg von einem ausschließlichen 'traditional listening' (Lückentext, Multiple-choice, Verständnisfragen ohne echte Funktion), hin zum 'authentic listening' (Höraufträge zur gezielten Informationsbeschaffung). Grundsätzlich bietet Musik - unabhängig von der Stilrichtung - die Chance, das Erlernen einer Fremdsprache mit positiven Assoziationen zu verbinden und nicht nur mit negativen Assoziationen wie Mühe und Frustrationen.

Verwendete literatur:

1) Forsbach, Beate (2006). Schüler machen Lieder. Stimmen im fächerübergreifenden Unterricht mit Musik.

2) Wagner, Detlev. Mit Liedern lernen. Lieder für den Unterricht mit Erwachsenen und Jugendlichen in der Grundstufe Deutsch als Fremdsprache. München: Verlag für Deutsch. 1996.

3) Balzer, Jörg (1999). Musik and Song. Einsatz von Popmusic im Englischunterricht.

4) In: Oebel, Guido (2002): „ Deutsche Populärmusik im DaF-Unterricht“.

Huth, Manfred. Lieder und Musik im DaF-Unterricht.

M.İbrahimova

Alman dili dərsində mahnılar

Xülasə

Məqalədə mahnıların xarici dilin tədrisindəki rolundan, onların seçim kriteriyalarından danışılır. Mahnılar artıq ilk dərslərdə kömək edir.Mahnılar müxtəlif növ tapşırıqlarla işləməyə, söz ehtiyatının həmçinin, fonetik və qrammatik vərdişlərin inkişafına şərait yaradır.Mahnıların öyrənilməsi təkcə dinləməyi deyil, həmdə tələffüzü inkişaf etdirir. Mahnılar həmdə yaradıcı yazının inkişafına kömək edir.

М.Ибрагимова

Песни на уроках немецкого языка

Резюме

В статье говорится о роли песен в изучении иностранного языка, о критериях выбора песен. Песни и музыка помогают уже на начальных этапах обучения. Работа с песнями даёт возможность работать с различными видами упражнений. Песни дают возможность развитию словарного запаса, а также фонетических и грамматических навыков. При изучении песен тренируются не только прослушивание, но и произношение. Песни способствуют также и творческому письму.

M.Ibrahimova

Songs in German lessons

(Summary)

This article deals with a role of songs in learning of foreign language and about criteria of songs choice Working with songs gives the chance to work with different types of exercises. Songs and music help at the early stages of learning. Songs give the chance to develop lexicon, and also phonetic and grammatical skills. In studying the songs are trained not only to listen, but the pronunciation. The songs also contribute to creative writing.

Rəyçi: Dosent Qönçə Əbdülrəhimova

ДЖАМИЛЯ ГАДИМОВА
Бакинский Славянский Университет
gadimova84@ rambler.ru

ОБ ЭКЗОТИЧЕСКОЙ ЛЕКСИКЕ ИЗ ПОЛЬСКОЙ ПЕРЕВОДНОЙ ЛИТЕРАТУРЫ

Açar sözlər: ekzotizm, polonizm, polyak, leksika.
Ключевые слова: экзотизм, полонизм, польский, лексика.
Key words: exotism, polonism, polish, vocabulary.

В лексической системе любого языка помимо исконных слов находят место заимствования и экзотизмы. «Заимствованные слова, вошедшие в лексическую систему русского языка, на первых порах употребляются как наименования новых чуждых русскому человеку предметов и явлений. Лишь в результате длительного сожительства с русскими словами иноязычные заимствования полностью осваиваются русским языком, становятся элементами его лексической системы» [8, 250].

Экзотизмы, переданные и русской графикой, зачастую представляются чуждыми для носителей языка. Экзотизм с течением времени и при известных условиях может стать освоенным и заимствованным словом, входящим в определенную лексико-семантическую группу.

Экзотизмы чаще попадают в язык через переводную литературу: переводчик, не находя в родном языке эквивалента того или иного иноязычного слова, включает в текст экзотизмы без перевода. Слова-экзотизмы, как правило, фиксируются в словарях иностранных слов. В отличие от толковых в словарях иностранных слов, а также в этимологических словарях фиксируются не только слова, вошедшие и закрепившиеся в русском из других языков, но и лексика экзотическая.

Однако имеются и такие слова-экзотизмы, которые встречаются только в переводной литературе.

Художественная литература широко отражает заимствованные слова и экзотизмы. Создавая национально-исторический колорит, писатель может использовать ряд слов-наименований, не имеющих русских лексических эквивалентов.

Полонизмы получили широкое отражение в переводах произведений польских писателей на русский язык. В языке переводов произведений Г. Сенкевича, В. Реймонта, С. Жеромского, Е. Анджеевского, В. Жукровского и др. Встречаются экзотизмы, не зафиксированные словарями. Они служат для обозначения специфических понятий, сохраняя в самом наименовании оттенок иноязычности.

К экзотизмам, встречаемым только в переводной литературе, относятся слова ***влука, газда, гарбатка, гороньцо, гураль, двояки, капылюха, карбовый, кеннкарта, коморница, коррехидор, леруа, маршандевены, приор, фольк-слисты.***

Эти слова зафиксированы в произведениях, переведенных из польского на русский язык: переводчик, не находя в русском литературном языке эквивалента того или иного полонизма, использовал в тексте произведений экзотическую лексику.

Влука – польская мера земельной площади 16, 8 гектара.

Простая баба, кухарка, когда забегу к ним – угостят и обращаются как с ровней, а ведь у них, поди, одной землицы с тысячу ***влук*** *будет – вот какие господа! (В. Реймонт. Брожение).*

Газда – хозяин, крестьянин; так называют в Польше коренных жителей предгорий Татр.

- У ***газдов*** *еще много свободных мест, ведь сезон еще не начался, - сказал ей сын этих знакомых, - так что мы живо найдем что-нибудь подходящее, я помогу вам (В. Жукровский. Ночи Ариадны).*

Гарбатка от польского слова ***garbaty*** «горбатый».

Только без истерики. – Он грубо оборвал ее. – Сначала надо разобраться, что ждет нас в этой ***Гарбатке****, название, прямо сказать, малообещающее (Е. Анджеевский. Поездка).*

Гороньцо – жарко.

Притом, пока горит огонь, так тут такое ***гороньцо,*** *как говорят твои литвики, что не знаешь куда деться, в то же время ноги и спина мерзнут (С. Жеромский. Бездомные).*

Гураль – коренной житель горного района польских Татр.

На дне ямы бил в землю киркой старый ***гураль*** *(В. Жукровский. Ночи Ариадны).*

Двояки – два горшка, соединенные ушком.

Пойдем это в бор за коровой или с ***двояками*** *по ягоды соберется, ничего не наберет, с пустыми руками вернется (Г. Сенкевич. Янко-музыкант).*

Капылюха – шляпа с широкими полями.

Летом ходил в рубашонке, опоясанной кромкой, и в соломенном обдерганном ***капылюхе****, из-под которого поглядывал точно птица, задирая головенку кверху (Г. Сенкевич. Янко-музыкант).*

Карбовый – надсмотрщик.

Увидел этак однажды ***карбовый****, как он стоял недвижно, с уставшими по ветру волосами, жадно слушая музыку ветра и вил, - увидел, сеял это с себя крепкий ремень да и вывел уж тут! (Г. Сенкевич. Янко-музыкант).*

Кеннкарта – удостоверение личности, выдававшаяся польскому населению немецкими оккупационными властями.

Документы для тебя у меня уже есть. У тебя очень красивое имя. Держи! – Он бросил на стол новенькую ***каннкарту.*** *– Чешковский Станислав (Е. Анджеевский. Пепел и алмаз).*

Коморница – нанимательница квартиры в чужом доме.

Мать, бедная ***коморница,*** *жившая изо дня в день точно ласточка под чужой крышей, может, и любила там малыша как-нибудь по-своему, да и била же часто и звала обыкновенно «подмененышем» (Г. Сенкевич. Янко-музыкант).*

Коррехидор – представитель светского правосудия.

- Досточтимый отец, - сказал фра Монтихо, - посланец ***коррехидора*** *желает засвидетельствовать тебе почтение (Е. Анджеевский. Мрак покрывает землю).*

Леруа – ликер.

Аптекарь он был такой же безвредный, как врач, так как в его аптеке можно было получить только два лекарства: сахарный сироп и ***леруа.*** *(Г. Сенкевич. Комедия ошибок).*

Маршандевены – продавцы вина.

-Я предпочла бы лучше мокнуть на дожде, чем глотать дух этих ***маршендевенов****.*

-Бабушка, откуда ты знаешь, что это ***маршандевены?*** *(С. Жеромский. Бездомные).*

Приор – настоятель католического монастыря.

А на середине лестницы в окружении служителей инквизиции и светского духовенства высокого гостя встречали оба инквизитора толедского архиепископства: каноник собора, доктор правоведения падре Альфонсо де Торрес и доминиканец фра Гаспар Монтихо. Рядом, засунув руки в рукава сутаны, стоял ***приор*** *монастыря Сан Доминго падре Бласко Д ла Куеста (Е. Анджеевский. Мрак покрывает землю).*

Фольклисты – документы, выдаваемые гитлеровцами полякам немецкого происхождения.

Милиция направляла женщин, имеющих ***фольклисты****, на уборку казарм (В. Жукровский. Крещенные огнем).*

Отметим, что все эти экзотизмы обозначают понятия, специфичные для польской среды. Однако с течением времени в связи с динамичностью языка возможно расширение употребления подобных экзотизмов, вследствие чего эти слова могут потерять окраску экзотичности, войти в лексический состав как заимствованные слова.

Литература:

1. Берков В. П. Вопросы двуязычной лексикографии. Л., 1973.
2. Бутина Р.М. и Ким Юань-Фу П.Л. Экзотическая лексика и ее роль в словарном составе языка // Русское и зарубежное языкознание. Вып.4, Алма-Ата, 1970, с.121 – 122.
3. Крысин Л.П. Иноязычные слова в современном русском языке. Москва: «Наука», 1968.
4. Леонтьев А. А. Иноязычные вкрапления в русскую речь // Вопросы культуры речи. Вып. 7, М., 1966, с. 60–68.
5. Михайловская Н.Г. Варианты «безэквивалентной» (экзотической) лексики // Литературная норма в лексике и фразеологии. М.: Наука, 1983, с. 120 – 139.
6. Павлов Б.Н. Экзотизмы в поэтической речи // Языковые значения. Л., 1976, с. 73 – 80.
7. Соболевский А.И. Переводная литература Московской Руси XIV – XVII вв. СПб., 1903.

8. Сороколетов Ф.П. История военной лексики в русском языке XI – XVII вв. Л., Наука, 1970.
9. Супрун А.Е. Экзотическая лексика // Филологические науки, 1958, №2, с. 51 – 54.

C. Qədimova

Polyak dilindən tərcümə olunmuş ədəbiyyatda əksini tapmiş ekzotik leksika haqqında

Xülasə

Məqalə tərcümələrdə əks olunmuş polyak ekzotizmlərinə həsr olunmuşdur. Ekzotizmlər bir dilə məxsus olan spesifik məfhumları digər dildə bildirmək üçün istifadə olunur.

Alınma sözlər və ekzotizmlər bədii ədəbiyyatda çox geniş şəkildə əks olunur: yazıçı milli-mədəni koloriti qoruyub saxlamaqdan ötru ekzotizmlər istifadə edir. Bir sira ekzotizmlər də mövcuddur ki, onlar yalnız tərcümə olunmuş ədəbiyyatın dilində əksini tapır.

J. Qadimova

The polish exotics words in translation literature's language

Summary

The article is devoted to exotisms of the polish origins in translation's language. The loan-words and exotisms are represented in belles-lettres broad. Several of exotisms are represented only in translation's language: they default in vocabulary.

Rəyçi: dosent H.P.Мугимова

İ.ŞƏMSİZADƏ
i.şəmsizadə@mail.ru

İ.HÜSEYNOVUN (MUĞANNA) «MƏHŞƏR» ROMANINDA ŞAİR OBRAZLARININ SƏCİYYƏSİ

Açar sözlər: tarixi roman, şair, obrazı, hürufizm
Ключевые слова: исторические романы, поэта, образ, хюруфизм
Key words: historical novels, a poet, an image Khurufism

Alternately, some agencies use a first round of automated machine based translation followed by a cleaning and refining by manual means. While translation software is also much cheaper than having a translator do the work manually, the disadvantages of machine translations are mainly related to the quality of translation. Ambiguous words having more than one meaning, improper sentence construction and wrong grammar can result in poor translation when translation software is used. Unlike human interpretation of the context and likely meaning, the software cannot use the information that is not built into the software logic. Thus tacit knowledge related to culture and usage of a language is not captured. In case there is a mistake in the original document, the translator can raise queries and get them resolved. This is not possible in the case of a software based approach. Machine translations can only be recommended to get the overall picture or meaning of a short note or few words.

The good news is that with advances in technology and increasing need to cross linguistic barriers, more research is being conducted in the field of translation services. As newer software based tools are being created, they can be used to add value to the efforts of human translators. Ultimately, translation software and translators, both go hand in hand. Neither of the pair is indispensable, nor redundant.

Approaches. Machine translation can use a method based on linguistic formats, which means that the words will be translated in linquistic way- the most suitable and at the same time most important words in the target language will replace the ones in the source language. Most of the time it is argued that the success of MT requires the shortcoming of natural language understanding to be overcome first.

Rule-based machine translation involves transfer-based machine translation which in turn is split into interlingual and dictionary-based translations. Interlingual translation is far more based upon source-target-language-independent representation paradigm, while in dictionary-based translations MT will use dictionary entries, which means the phrases or words will be translated as they are by a dictionary.

Statistical MT mainly relies on ready texts, such as statistical data where only numbers and some figures just need changing, some documentations, laws and so forth.

Example-based MT was proposed by Makoto Nagao in 1984. It is often characterised by its use of a bilingual corpus as its main knowledge base, at runtime.

To summarize the topics we have discussed so far, we can come to the facts that, MT is inevitable style in the world of translations, in a way that it enhances work, limits time frame the work is completed, despite the facts that there are a lot of shorcoming regarding random texts, texts new for MT. But MAHT, CL are impetus and of great assistance for human translators in their active duty.

References:

1. http://en.wikipedia.org <http://en.wikipedia.org/wiki/Machine_translation>, (accessed 07 February 2013)
2. http://en.wikipedia.org < http://en.wikipedia.org/wiki/Machine_translation#Approaches >, (accessed 06 February 2013)

P.Poladov

Yüksək texnoloji mühütdə maşın tərcümələri

Xülasə

Bu məqalə electron maşınlar, onların İngilis dilindən Azərbaycan, Rus dillərinə və ya geriyə tərcümə qaabiliyyətindən danışır. Bugünün dünyasında bizim hamımız yüksək texnologiya əhatəsindəyik, əgər hər hansı bir şəxs bundan uzaq durarsa onun peşəkarlığında və gördüyü işlərdə çatızmazlıqlar yaranacaq. Qeyd olunan tezisdə eyni zamanda lüğət, yenilənmiş qrammatika və sözlər məsələlərinə toxunulub.

Əgər İngilis dilinin dərinliyinə gedərək hər bir detalı mənimsəməkdən söhbət gedirsə o zaman bildirmək lazımdır ki, həyatımızın hər anını əhatə edən müasir texnologiyasız biz heç nə əldə etməyəcəyik. Hər keçən gün İngilis dilində istər keçmə, istərsə də belə demək olarsa yoxdan yaranan sözlər öz diktəsini edir. Tərcüməçi olmaq tam olmasa da yaxşı ingilis dili müəllimi olmaq deməkdir. Və yaxşı öyrənici olmağın yolu isə m\lumat bolluğu yaşanan internet bazalarından keçir. Bu tərcümə maşınlarına görə biz hər bir sözün tərcüməsini saniyələr içində aşkara çıxarırıq, düzdür bu məsələdə dezavantajlar da var, missal üçün tərcümənin tapılmasına nə qədər az vaxt gedirsə beyinin bu sözü və ya struktur formasını unutmaq ehtimalı bir o qədər çoxalır.

- ***MT*** (Maşın Tərcüməsi)
- ***MAHT*** (maşın-köməkli insan tərcüməsi)
- ***CL*** (Kompüterləşdirilmiş lüğət bazası)
- ***Dillərarası uyğunlaşdırmalar***
- Lüğət əsaslı tərcümələr

П.Поладов

Машинный перевод

Резюме

Эта статья главным образом сосредотачивается на проблемах в отношениях с машинами, их способность в переводе материалов с английского языка в азербайджанца, русский язык и в то же самое время наоборот. В сегодняшнем мире все мы находимся в водовороте высокотехнологичной окружающей среды, одна неспособность, чтобы использовать или уход от использования может закончиться некоторый дефицит их мастерством или испытать в будущем. В упомянутом тезисе также занялся проблемой о словаре, обновленной грамматике и словах.

Считая глубоким получением в объединение знания английского языка мы можем сказать, что ничто не может быть получено, если мы делаем так без передовой технологии, которая охватывает нас в каждом аспекте наших жизней. Поскольку каждый мимолетный день диктует его важность по новым словам, или импортируемым в язык или созданный из синего, если только это можно назвать. Быть переводчиком близко, если не полностью связано с тем, чтобы быть хорошим языковым спикером. И быть хорошим учеником берет много тесного контакта с Интернетом, Мекка информации, где лучшее и большинство слов объединяют в. Из-за машин мы можем найти перевод слова или в английский язык или в азербайджанца в течение секунд, будут некоторые неудобства здесь, хотя, типа меньшего количества периода мы используем, чтобы найти перевод более наклонным, мозг должен забыть слово или структуру.

- МП (Машинный перевод)
- МАНТ (перевод, выполняемый человеком с помощью компьютера)
- CL (Компьютерная лингвистика)
- Разноязычные переводы
- Переводы на основе словаря

Rəyçi: dosent Nərminə Əliyeva

А. АРЫХОВА
АГНА
e-mail: yunsurova@gmail.com

НЕКОТОРЫЕ ПРОБЛЕМЫ В ИЗУЧЕНИИ ИНОСТРАННОГО ЯЗЫКА В НАЧАЛЬНОЙ ШКОЛЕ

Açar sözlər metod, yiyələnmə, motivasiya, inkişaf, öyrənmə
Key words method, mastering, motivation, development, study
Ключевые слова метод, овладение, мотивация, развитие, ученые

Глубокие преобразования, происходящие в современном обществе, приводят к изменениям в сфере образования, предъявляются новые требования к обучению и воспитанию. На первое место в образовании выходит развитие активной личности, способной к самосовершенствованию, саморазвитию, к творческому преобразованию действительности.

Достижение данной цели невозможно, если у детей не сформирована познавательная мотивация к учебной деятельности. Именно такая мотивация побуждает учащихся к упорной, систематической учебной работе.

Современное образование должно ориентироваться на развитие личности учащихся, их познавательных и созидательных способностей; на формирование у школьников глубокого личностного мотива, стимула к получению образования. Важной является задача научить школьников учиться и хотеть учиться, а не просто обеспечить овладение школьниками уровнем ЗУНОВ. Поэтому, уже начиная с младшего школьного возраста необходимо формировать такую познавательную *мотивацию*, которая придавала бы учёбе значимый для учащегося смысл. Для того чтобы повысить уровень познавательного интереса, необходима не только работа школы, но и *сотрудничество школы и семьи*. Школа и семья вместе способствуют созданию благоприятных условий для развития ребёнка.

С момента прихода ребёнка в школу, семья продолжает, оказывать влияяние на его учебную деятельность. Значительную часть времени ребёнок проводит в семье и поэтому она может взять на себя помощь в управлении процессом формирования мотивационной сферы (потребностей, целей и, конечно, интересов), которая является ядром личности, необходимым условием её активности.

Суть творческого сотрудничества педагогов и семьи школьника заключается в том, что обе стороны заинтересованы в изучении ребёнка, раскрытии и развитии в нём лучших качеств его личности. Это помогает педагогам и родителям объединять свои усилия в создании условий для формирования у ребёнка тех качеств и свойств, которые ему необходимы для самоопределения и самореализации.

На уроках иностранного языка сейчас требуется быстрая смена видов речевой деятельности. Для того чтобы поддерживать интерес учащихся, приходится использовать упражнения на речемыслительную деятельность: разыгрывать ситуации по ролям, использовать метод Квант, деформированные

тексты, в пересказах текстов использовать возможность представить содержание от разных лиц. Важно вводить и такой компонент, как лингвострановедение: больше рассказывать на уроках о стране изучаемого языка, знакомить учащихся с культурой страны - ее музыкой, искусством, национальной кухней. Чем больше информации будут получать школьники, тем лучше. Важно только тщательно отбирать эту информацию, рекомендовать книги, фильмы, сайты.

Иностранный язык изучается с начальной школы, а где-то и в дошкольном возрасте, явление положительное. Изучение языка и культуры поможет снизить агрессивность современных детей, так как их потребность в информации будет удовлетворяться.

Что же даёт раннее обучение иностранному языку детям?

Введение иностранного языка в 1 классе начальной школы как учебного предмета создаёт основу для развития интереса к французскому языку, формирует базовые навыки аудирования, говорения, чтения и письма. Отечественный и зарубежный опыт раннего обучения иностранному языку свидетельствует о восприимчивости младших школьников к усвоению предмета. Дети этого возраста обладают большими имитационными способностями и познавательными интересами, они имеют потребность в эмоциональных контактах, как с взрослыми, так и со сверстниками.

Первые шаги, сделанные младшими школьниками в овладении английским языком обеспечить в дальнейшем условия для успешной реализации основной цели-формирования учащихся коммуникативной компетенции со всеми составляющими ее видами: лингвистической, речевой, социолингвистической, социокультурной и стратегической.

Постепенно, приобретая умения понимать элементарную устную и письменную речь, дети осознают многообразие мира, у них развивается интерес к отечественной культуре и культуре других народов.

Новые учебные пособия учитывают:

- создание условий для коммуникативно-психологической адаптации учащихся к изучению английского(нового)языка
- развитие коммуникативно-игровых способностей в инсценировках, в проигрывании различных доступных для этого возраста ситуаций
- создание основы для развития механизма иноязычной речи
- формирование страноведческой мотивации с помощью доступной для этого возраста аутентичной информации о Англии и ее культуре
- расширение кругозора детей (знакомство с английскими праздниками, традициями, английскими словами, вошедшими в русский язык, русскими словами, вошедшими в лексикон других стран, что является отражением исторического развития взаимоотношений между странами)

Авторы учитывали также интегративные связи английского языка как учебного предмета с другими предметами: родным языком, математикой, трудовым обучением, рисованием, музыкой.

На начальном этапе иностранный язык хотят учить все и берутся за это с большим энтузиазмом. Потом появляется усталость и скука. Интерес к предмету падает, результаты обучения ухудшаются. Скучно и тяжело бывает не

только ученику, но и самому учителю, а от этого снижается эффективность любого самого умного и полезного урока. Постоянно повышать интерес учащихся к уроку- задача каждого педагога. Развитие изобретательных и творческих способностей ученика многократно увеличивает эффективность самого урока, создает условия для раскрытия личности учащегося.

У каждого учителя есть свои маленькие изобретения и секреты, как повышать мотивацию учащихся в обучении иностранному языку, как развивать их творческую активность и нет сомнений, что необходимо использовать разнообразные приемы стимулирования учащихся.

Так же благодаря наблюдениям, можно сказать, что повышение мотивации идет через:

1. вовлечение учащихся в самостоятельную работу на уроке
2. проблемность заданий и ситуаций
3. контроль знаний, умений и навыков
4. использование познавательных игр
5. страноведческий материал и, конечно, доброжелательное отношение учащихся

Согласно психологическим исследованиям мотивации и интереса при обучении иностранному языку усилия учителя должны быть направлены на развитие внутренней мотивации учения школьников, которая исходит из самой деятельности и обладает наибольшей побудительной силой. Внутренняя мотивация определяет отношение школьников к предмету и обеспечивает продвижение в овладении иностранным языком. Если школьника побуждает заниматься сама деятельность, когда ему нравится говорить, читать, воспринимать иностранную речь на слух, узнавать новое, тогда можно сказать, что у него есть интерес к предмету «иностранный язык» и обеспечены условия для достижения определенных успехов. Из вышесказанного мы видим, что в настоящее время имеется достаточное количество исследований в психологии и методике преподавания иностранных языков, позволяющих использовать и в дальнейших поисках решения проблемы и осуществит ценностный подход в ее рассмотрении.

Но есть вопросы, которые волнуют учителей иностранного языка и сейчас. Это вопросы более тесного взаимодействия и сотрудничества учителей начальной школы и учителей иностранного языка. Ведь для успешного изучения иностранного языка необходимо на протяжении всех лет обучения поддерживать интерес к изучаемому предмету, а это возможно только при таком взаимодействии и взаимообщении, полном взаимопонимании. Необходимо скоординировать программы изучения родного и иностранного языков. В настоящее время программа освоения грамматических явлений в иностранном языке опережает программу изучения родного языка (понятие «подлежащее, сказуемое, время глагола, местоимение » и т.д.)

Язык является важнейшим средством человеческого общения, без которого невозможно существование и развитие человеческого общества. Расширение и качественное изменение характера международных связей нашего государства, интернализации всех сфер общественной жизни делают иностранные языки реально востребуемыми в практической и реальной деятельности

человека. Они становятся в настоящее время действенным фактором социально-экономического, научно-технического и общекультурного прогресса общества. Все это существенно повышает статус предмета иностранный язык как общеобразовательной учебной дисциплины и мотивацию учения.

Литература

1. Б. Л. Некоторые актуальные проблемы современного обучения иностранным языкам. 2001 - 4. - С. 5-7.
2. Лесохина Т. Б., Симакова Е. Ю. О преемственности между средней школой и вузом в контексте современной письменной коммуникации. 2003.
3. Протасова Е. Ю. Европейская языковая политика. 2004.
4. Рожкова Н. Иностранный язык - друг мой, но в школе его выучить нельзя. 2003. - 2. - С. 30-33.

Afag Arıxova

Some problems of teaching foreign langauge

Summary

Language is an important means of communication between people which without it existing and development of communication between people is impossible. Expanding and perfect change of international contacts of our state, internalization in all spheres of public life make foreign language to be real demand in practical and real activities of the human. The article deals with early periods of foreign language learning, the problems of foreign language's importance in the modern children's life, as well as the representation of motivation methods of studying on foreign language mastering spehere.

Afaq Arıxova

Xarici dilin öyrənilməsinin bəzi problemləri

Резюме

Dil insanlar arasında ünsiyyət vasitəsidir ki, onsuz insanlar arasında ünsiyyətin mövcudluğu və inkişafı qeyri-mümkündür. Dövlətimizin beynəlxalq əlaqələrinin genişlənməsi, ictimai həyatın bütün sahələrində olan əlaqələri insanın praktiki və həqiqi fəaliyyətində xarici dili tələb edir. Məqalə xarici dilin öyrənilməsinin ilkin mərhələsi, xarici dilin öyrənilməsinin müasir uşaqların həyatındakı rolundan, eləcə də xarici dilə yiyələnmə sahəsində mümkün olan metodlardan bəhs edir. Bu baxımdan məqalə xarici dilə yiyələnmək istəyən hər bir şəxs üçün böyük əhəmiyyət kəsb edə bilər.

Rəyçi: И.Х.Манафова

NİGAR ABDULLAYEVA
ZAHİRƏ KAZIMOVA
Azərbaycan Dövlət Neft Akademiyası
"Xarici dillər" kafedrası

İNFORMASİYA MÜBADİLƏSİ VƏ ONUN ÜNSİYYƏTDƏ YERİ

Açar sözlər: informasiya, mübadilə, kommunikativ, xüsusiyyət, ünsiyyət
Key words: information, exchange, communicative, feature, intercourse
Ключевые слова: обмен, коммуникативный, особенность, общение, информация

İnsanların bir-biri ilə informasiya mübadiləsi ünsiyyətin daha geniş yayılmış tərəfi, cəhəti olmaqla psixoloji ədəbiyyatda ünsiyyətin kommunikativ tərəfi adlanır. İnformasiya mübadiləsi prosesində insanlar bir-birlərinin fikirləri, ideyaları, hissləri, istək və arzuları və s. ilə tanış olurlar. Başqa sözlə insanlar bu prosesdə həyat və fəaliyyətləri üçün zəruri olan informasiya mübadiləsini həyata keçirirlər. Bu cür informasiya mübadiləsi olmadan insanların birgə yaşayışı

və fəaliyyəti çətinləşər, mümkün olmazdı.

Ünsiyyət zamanı həyata keçirilən informasiya mübadiləsində iki tərəf iştirak edir: məlumatı, informasiyanı verən və məlumatı qəbul edən. Birinci tərəf – informasiyanı verən *kommunikator,* ikinci tərəf – informasiyanı qəbul edən isə *resipient* adlandırılır. Beləliklə hər cür informasiya mübadiləsi K – İ – R (kommunikator- informasiya- resipient) sxemi üzrə həyata keçir.

Kommunikasiya vasitələri. İnsanlar arasında informasiya mübadiləsini təmin edə biləcək vasitələr çox və müxtəlifdir. Psixoloji ədəbiyyatda bu cür kommunikasiya vasitələrini iki qrupda birləşdirirlər. Birinci qrup kommunikasiya vasitələri sözlərin, dilin köməyi ilə bağlı olan vasitələrdir. Bu cür kommunikasiya vasitələrini *verbal* kommunikasiya vasitələri adlandırırlar. Burada hansı dil qrupuna aid olmasından asılı olmayaraq həmin dilin daşıyıcıları və həmin dili mənimsəmiş insanlar dildən ünsiyyət prosesində ünsiyyət vasitəsi kimi istifadə edirlər. Dil vasitəsilə insanlar arasındakı bu cür ünsiyyət prosesi *nitq* adlanır. İkinci qrup kommunikasiya vasitələri dildən, nitqdən kənar vasitələrdir. Bu cür vasitələr *qeyri verbal* kommunikasiya vasitələri adlandırılır. Onlara müxtəlif ifadəli hərəkətləri, mimikanı, pantomimikanı, işarələr sistemini və s. aid etmək olar.

Nitq verbal ünsiyyət kimi. İnsanların birgə yaşayış zərurətinin meydana gəlməsi onların ünsiyyət tələbatının da yaranmasına səbəb olmuşdur. Tarixən insanların dil vasitəsilə ünsiyyət forması meydana gəlmişdir. Nəticədə dildən istifadə edərək öz fikirlərini, istək və arzularını bir-birinə çatdırmaq imkanına malik olmuşlar. Bu proses nitq prosesi adlandırılmışdır. Buradan da verbal ünsiyyət prosesi olan nitqə belə tərif vermək mümkün olmuşdur: *insanlar arasında dil vasitəsilə həyata keçirilən ünsiyyət* prosesinə nitq deyilir. Tərifdən göründüyü kimi dil verbal ünsiyyət üçün vasitə, nitq isə həmin prosesin özüdür. İnsanlar dilə yiyələnməklə onun vasitəsilə ünsiyyət saxlaya bilirlər. Başqa sözlə onlar nitqə yiyələnmiş olurlar. Hər hansı bir xarici dildə danışa bilmək həmin dili başa düşmək, başqa sözlə verbal ünsiyyətə girə bilmək üçün o dili bilmək və ondan istifadə etməyi bacarmaq lazımdır. Psixolo-

giyada «dili» və «nitqi» fərqləndirən digər cəhətlərə də diqqət yetirilir. Adətən, *dili şərti danışıq işarələri sistemi kimi* qəbul edirlər. Onun köməyi ilə insanlar üçün müəyyən əhəmiyyət və məna kəsb edən səs birləşmələri ifadə olunur. Dil cəmiyyət tərəfindən yaradılır. Dil ümumxalqa məxsus olduğu üçün həmin dilin ölməsi xalqın ölməsi deməkdir. Xalqın aradan çıxması ilə dil ölü dilə çevrilir.

Dil olduqca mürəkkəb quruluşa malikdir. Hər cür dil, hər şeydən əvvəl, özünün müəyyən mənalı söz sistemindən ibarət olan *lüğət tərkibinə* malikdir. Bu, həmin dilin leksikasını təşkil edir. Bundan başqa, dildə müxtəlif formalı söz və söz birləşmələri sistemi də vardır ki, bu dilin qrammatikasını təşkil edir. Bunlarla yanaşı olaraq hər bir konkret dilin özü üçün xarakterik olan səs və ya fonetik tərkibi də mövcuddur.

Dil həcm etibarilə nitqdən çox genişdir. Çünki dil ümumxalqa məxsusdur, nitq isə ayrıca bir fərdə aiddir. Dildə işlədilən sözlərin yalnız müəyyən bir qismi fərdin ünsiyyət prosesində istifadə edilir.

Dildən fərqli olaraq nitqi ünsiyyət prosesinin özü hesab edirlər. Bu proses məlumat, göstəriş, sual, əmr və s. şəklində həyata keçir. Hər bir söz ümumiləşdirmə mahiyyətinə malikdir. Ona görə də nitq prosesində hər bir söz özünün müvafiq mənasında çatdırılmalıdır. Buna isə sözü müvafiq kontekstdə işlətməklə nail olmaq mümkündür. Nitqdə sözlərin mənasının köməyi ilə müvafiq məzmunu çatdırmaqla yanaşı danışdığımıza öz emosional münasibətimizi də bildiririk.

Yuxarıda deyilənlərdən nitqin insan həyatında əvəzolunmaz əhəmiyyətə malik olduğunu görürük. Nitq ünsiyyət prosesi kimi insanların fikir, təcrübə mübadiləsinə imkan yaradır. Nitqin əhəmiyyəti onun funksiyalarında özünü aydın göstərir. Nitqin funksiyalarını nəzərdən keçirməzdən əvvəl ünsiyyət vasitəsi olan dilin funksiyalarına diqqət yetirək. Adətən, dilin üç funksiyasını qeyd edirlər: 1) dil ictimai-tarixi təcrübənin mövcud olması, saxlanması və verilməsi vasitəsidir; 2) dil kommunikasiya, eləcə də insanın davranışını tənzim etmək vasitəsidir; 3) dil intellektual fəaliyyətin silahıdır.

Dilin bu funksiyaları nitqin də fəaliyyət istiqamətini təyin edir. Mövcud psixoloji ədəbiyyata əsasən nitqin funksiyalarına aşağıdakıları aid etmək olar. Nitqin *birinci funksiyası* əşyaları, hərəkəti, vəziyyəti adlandırmaqdır. Bu, nitqin *siqnifikativ* və ya *semantik* funksiyası adlanır. Bu funksiya insan nitqini heyvanların ünsiyyətindən fərqləndirir. Heyvanların çıxardığı səs əşyaları deyil, onların öz vəziyyətlərini bildirir. İnsanda isə müəyyən söz deyilərkən həmin sözlə bağlı hər hansı cismin, hadisənin təsəvvürləri canlanır. Nitqin sonrakı funksiyası onun *ümumiləşdirmə* funksiyasıdır. Nitq sözlərə əsaslandığına görə daima ümumiləşdirməyə imkan yaradır.

Nitqin mühüm funksiyalarından biri də *kommunikativ* funksiyadır. Bu funksiya da öz növbəsində məlumat vermə və fəaliyyətə təhrik etmə vəzifələrini yerinə yetirir. Ümumiyyətlə götürdükdə nitqin köməyi ilə başqaları ilə ünsiyyət saxlayır, fikir mübadiləsi edir, ictimai təcrübəni mənimsəyir, zənginləşdirir, yeni nəslə veririk. Nitq vasitəsi ilə hisslərimizi, arzu və istəklərimizi, bu və ya digər cismə, hadisəyə münasibətimizi bildiririk. Nəhayət nitq vasitəsilə başqalarına təsir edir, onların davranış və rəftarlarında müəyyən dəyişiklik yaradır, hər hansı bir işi yerinə yetirməyə təhrik edirik. Bütün bu funksiyalarla yanaşı olaraq nitqin özünəməxsus xüsusiyyətləri də mövcuddur. Bunlara nitqin *məzmunluluğu, anlaşıqlılığı,*

təsirliliyi və ifadəliliyini aid etmək olar. Nitqin məzmunluluğu onda ifadə olunan məlumatın əhatə dairəsindən asılıdır. Nitqdə ifadə olunan fikir və hisslərin həcmi nə qədər geniş olarsa, verilən məlumatlar gerçəkliyə nə dərəcədə uyğun gələrsə və nə dərəcə də əhəmiyyətli olarsa o bir o qədər məzmunlu hesab olunur. Nitqin məzmunlu olması üçün insanın geniş biliyi, həmin bilikdən və istilahlardan düzgün istifadə etmək bacarığı olmalıdır. Bunlar olmadan nitq özünün məlumat vermə vəzifəsini həyata keçirə bilməz. Nitqimizin bizi dinləyənlər tərəfindən qavranılması üçün onun *anlaşıqlı* olması xüsusi əhəmiyyət kəsb edir. Nitqin anlaşıqlılığı ikitərəfli xarakter daşıyır. Bir tərəfdən kommunikatorun nitqinin nə qədər səlis, aydın olması, yersiz ibarələrlə yüklənməməsi, dilin qrammatik qayda və qanunlarına uyğun olmasından asılıdır. Danışan adam öz fikrini konkret nümunələrlə əsaslandırmağı, dinləyicilərin səviyyəsini nəzərə almağı bacarmalıdır. Eyni bir mövzunu bir müəllimin olduqca aydın, anlaşıqlı, digərinin isə qarmaqarışıq şəkildə şərh etdiyinin şahidi oluruq. Nəticədə birinci müəllimi dinləyicilər həvəslə dinləyir, onun dərsindən yeni biliklərlə çıxışlar, ikinci müəllimin verdiyi məlumatları qavraya bilmir, onu dinləməyə həvəs göstərmirlər.Nitqin anlaşılması dinləyicilərin hazırlıq səviyyəsindən də asılı olur. Dinləyicinin mövzu ilə bağlı zəruri biliyə malik olmaması onu anlamasını da çətinləşdirir. Ona görə də müəllim müəyyən məlumatları çatdırarkən dinləyicilərin bu sahədəki hazırlıq səviyyəsini nəzərə almalıdır.

Nitqin bu xüsusiyyəti xüsusilə xarici dil dərslərində nəzərə alınmalıdır. Bunun üçün müəllim tələbələrin tədris etdiyi dilə hazırlıq səviyyələrini aşkara çıxarmalı və öz fikrini onların başa düşəcəyi səviyyədə şərh etməlidir. Ünsiyyət prosesində nitqin *təsirlilik* xüsusiyyətinin nəzərə alınması da az əhəmiyyətə malik deyildir. Nitqin təsirliliyi onun fəaliyyətə təhrik etmək funksiyasını yerinə yetirməyə imkan verir. Nitqin təsirliliyi inandırma, sübut, təlqin, məsləhət, tapşırıq, təlimat, xahiş, əmr, qadağan, komanda və s. şəklində həyata keçir. Bu cür təsir vasitələrindən yerində və müvafiq şəkildə istifadə olunması lazımi nəticəni verə bilir. Nitqin *ifadəliliyi* yüksək nitq mədəniyyətinə yiyələnməyin əsas göstəricilərindən biri hesab olunur. Danışan və ya yazan adam öz nitqində şərh etdiyi məzmuna münasibətini nitqin ifadəliliyinin köməyi ilə bildirir. Şifahi və yazılı nitqdə nitqin ifadəliliyi müxtəlif şəkildə həyata keçir. Şifahi nitqdə təsvir olunan cisim və hadisələrə münasibətin nitqin ifadəliliyi vasitəsilə çatdırılması nisbətən asan baş verir. Burada mimika və pantomimikanın iştirakı, səsin ahəngi və s. nitqin ifadəliliyini gücləndirir.

Nitqin yaranması və qavranılması sadə reflektor fəaliyyət qanunu üzrə cərəyan edir. Bu zaman nitq stimulları (qıcıqlandırıcıları) birinci siqnal sistemi qıcıqlandırıcılarını əvəz edə bilir. Əksər hallarda nitqin yaranması və qavranılmasında biz «siqnallar siqnalı» olan sözlərə əsaslanırıq, daha doğrusu, həmin sözlərin mənasına əsasən onları şüursuz (və ya şüurlu) olaraq seçir və eyniləşdiririk. Həmin mürəkkəb proses böyük yarımkürələr qabığında həyata keçir. Nitqin reflektor xarakterə malik olması bir də onunla aydınlaşır ki, anadan gəlmə kar adamlar verbal nitqə malik olmurlar. Yalnız xüsusi təlim yolu ilə onlar buna nail olurlar ki, burada da reflektor xarakter baş verir. Verbal ünsiyyət prosesi olan nitq olduqca mürəkkəb bir prosesdir. Onun özünəməxsus, bir-birini ardıcıl olaraq tamamlayan əməliyyatlardan ibarət mexanizmi vardır. Psixoloji ədəbiyyatda nitqin həmin mexanizmlərinin aşağıdakı mərhələlərdən ibarət olduğu qeyd edilir. *Birinci mərhələ nitqin*

proqramlaşdırılması mərhələsidir. Bu mərhələdə insanın demək istədiyi nitq ifadəsinin məna özəyinin qurulması (yaradılması) baş verir. Bunun üçün insan informasiyalar içərisindən ona lazım olanını seçir, lazım olmayan ikinci dərəcəliləri kənar edir. *İkinci mərhələ cümlənin sintaktik quruluşunun yaradılması mərhələsidir*. Bu mərhələdə ifadənin (frazanın) ümumi layihəsi, onun qrammatik forması proqramlaşdırılır, lazımi sözləri axtarmağı, səsləri seçməyi, onu daha dəqiq ifadə etməyi təmin edən mexanizmlər müəyyənləşdirilir. *Üçüncü mərhələdə nitqin real olaraq səslənməsi baş verir*. Beləliklə də kommunikator çatdırmalı olduğu məlumatı kodlaşdırma prosesini həyata keçirir. Dinləmə prosesində həmsöhbət (resipient) əldə etdiyi məlumatı açır, anlayır. Bu da öz növbəsində müvafiq mərhələlər keçir. Dinləyici eşitdiyi səsləri mərhələlər üzrə sözün mənası ilə əlaqələndirir ki, bu da kommunikatorun nə demək istədiyini anlamasını təmin edir.

Nitq ifadələrinin kodlaşdırılması və həmin kodun açılması (anlama) o zaman mümkün olur ki, verbal ünsiyyətin həyata keçirilməsini təmin edən beyin mərkəzləri və sistemləri sağlam olsun. İnsanda bu sistemin pozulması müxtəlif nitq pozğunluğuna-afaziyaya gətirib çıxarır. Bir halda insan sözləri ifadə, tələffüz edə bilmədiyi halda onları başa düşür, anlayır; başqa halda ayrı-ayrı səsləri tələffüz edə bildiyi halda onları müəyyən ardıcıllıqla birləşdirə bilmir; başqa bir halda eşitdiyi sözləri qavraya bilmədiyi halda həmin sözləri tələffüz edə bilir və s. Hələ XIX əsrin ortalarında iki alim tərəfindən beyinin müəyyən sahəsində zədə olduqda nitq pozğunluğunun da baş verdiyi aşkara çıxarılmışdır. *P.Broka* müəyyən etmişdir ki, beyinin sol yarımkürələrinin alın qırışlarının arxa hissəsinin üçdə biri zədələnərsə tələffüzün pozulması baş verir. *K.Vernike* isə müəyyən etmişdir ki, sol yarımkürələrin yuxarı qırışlarının arxa hissəsinin üçdə biri zədələnərsə nitqi anlamağın pozulması baş verir. Beyinin həmin sahələri nitqin hərəki (*Broka mərkəzi*) və nitqi anlama *(Vernike mərkəzi*) mərkəzi adlandırılmışdır. Lakin sonralar psixofizioloqların (A.R.Luriya, N.A.Bernsteyn, P.K.Anoxin və b.) tədqiqatları göstərmişdir ki, nitqin fizioloji əsasını beyinin təcrid olunmuş bir sahəsinin (nitq mərkəzləri) fəaliyyəti deyil, bütövlükdə beyin fəaliyyəti təşkil edir.

Ədəbiyyat

1) Aybəniz Məhərrrəmqızı. Dil quruculuğunun yeni mərhələsi. Bakı, Azərnəşr – 2004.
2) Dil vahidlərinin funksional struktur təhlili. BDU nəşriyyatı, Bakı – 1988.
3) Palmer H.E. The oral method of teaching languages. Cambridge.

Nigar Abdulllayeva,
Zahira Kazımova

Information exchange

Summary

People communicate with each other, the more widespread communication the communicative aspect of communication is the psychological literature. People in the process of information exchange each other's thoughts, ideas, feelings,

wishes and desires and so on they are familiar with. In other words, people living in these processes and activities that are necessary to carry out the exchange of information. Without this kind of information sharing and activities of people living together would be difficult, would not be possible. The article is about the exchange of information.

Нигар Абдуллаева,
Захира Казымова

Обмен информацией
Резюме

Люди общаются друг с другом, более широкое общение, коммуникативная сторона общения является психологической литературе. Люди в процессе обмена информацией друг с другом мыслями, идеями, чувствами, желаниями и желаниями, и так далее. Они знакомы с другими словами, люди, живущие в этих процессах и мероприятиях, которые необходимо осуществить обмен информацией. Без обмене информацией и деятельность людей, живущих вместе будет трудно, не было бы возможным. В статье речь идет о обмене информацией.

Rəyçi: b.m T.M.Mehdiyeva

SƏİDƏ QƏMƏRLİ,
ZAMİRƏ ƏFƏNDİYEVA
Azərbaycan Dövlət Neft Akademiyası
"Xarici dillər" kafedrası
e-mail: saidagamarli(yusifova)@mail.ru

NİTQİN NÖVLƏRİ VƏ FORMALARI

Açar sözlər: nitq, dil, ünsiyyət, dioloji, monoloji
Key words: speech, language, intercourse, dialogic, monologue
Ключевые слова: речь, язык, общение, диалогический, монолог

Nitqin funksiyaları, xüsusiyyətləri ilə yanaşı özünəməxsus formaları və növləri də vardır. Nitqin növlərini təsnif etmək üçün psixoloji ədəbiyyatda müxtəlif əlamətlərdən istifadə olunur.

Eksteriorizasiya və interiorizasiya əlamətinə görə nitqin iki əsas növü mövcuddur: xarici və daxili nitq. Xarici nitq başqaları ilə ünsiyyətə, informasiya mübadiləsinə yönəlmiş olub, eşidilən, görülən və tələffüz edilən nitqdir. Daxili nitqə gəldikdə, o hər şeydən əvvəl təfəkkür prosesinin təmin olunması ilə bağlıdır. O, psixoloji nöqteyi nəzərdən olduqca mürəkkəb hadisə olub nitqlə təfəkkürün qarşılıqlı əlaqəsini təmin edir.

Nitqin xarici növü ilə bağlı olaraq daha iki növü mövcuddur: şifahi nitq və yazılı nitq. Nitqin hansı formasından istifadə etməyimizdən asılı olmayaraq o həmişə həmin əsas növlərdən birinə aid olur.

Şifahi nitq tələffüz edilən, eşidilərək qavranılan, başa düşülən nitq növüdür. Bu nitqin köməyi ilə danışanlar arasında bilavasitə əlaqə yaranır. Şifahi nitq zamanı ünsiyyətdə olan adamlar bir-birini görür, eşidirlər. Danışan adamın mimikası və bədəninin ifadəli hərəkətləri, səsinin ahəngi nitqin məzmununun, buna bəslədiyi münasibətinin anlaşılmasına yardım göstərir.

Ünsiyyət şəraitindən, onun məqsəd və məzmunundan asılı olaraq şifahi nitq ya dialoji, ya da monoloji formada cərəyan edə bilər.

Dialoji nitq iki və daha artıq adamın sual-cavab şəklində həyata keçirdiyi nitqdir. Dialoji nitqin özünəməxsus xüsusiyyətləri vardır. Psixoloji ədəbiyyatda həmin xüsusiyyətlərə aşağıdakıları aid edirlər.

Hər şeydən əvvəl dialoji nitq bilavasitə reaksiya tələb edən nitqdir. Belə ki, dialoji nitq zamanı həmsöhbət deyilənlərə öz münasibətini bildirir: ya sual verir, ya təsdiq edir, ya inkar edir. Dialoji nitqin bu cəhəti danışanan öz fikrini ifadə etmək istiqamətinə təsir göstərir, onu müəyyən səmtə yönəldir. Dialoji nitqin digər xüsusiyyətləri dialoqun danışan adamların emosional-ekspressiv rabitəsi şəraitində baş verməsidir. Bu zaman dialoji nitqin iştirakçıları bir-birlərini bilavasitə qavrayır və emosional vəziyyətlərini qiymətləndirirlər. Nəhayət dialoji nitqin bir xüsusiyyəti də onun müəyyən şəraitlə və yaobyektlə bağlı olmasıdır. Bu mənada o situativ səciyyə daşıyır, söhbətin obyekti dəyişən kimi dialoqun istiqaməti və xarakteri də dəyişir.

Monoloji nitq dialojidən fərqli olaraq bir adamın öz fikir və mülahizələrini müntəzəm və ardıcıl surətdə şərh etməsi, başqalarının onu dinləməsidir. Monoloji nitq son dərəcədə fəal və sərbəst nitqdir. Adətən, monoloji nitqdən istifadə edən

adam hər hansı bir məzmunu seçməli və həmin məzmuna uyğun olaraq ifadə etdiyi fikri sərbəst akt qaydasında qurmağı bacarmalıdır. Monoloji nitq tamamilə mütəşəkkil nitq növü hesab olunur. Bu baxımdan müəllimin mühazirəsini monoloji nitqə misal göstərmək olar. Bədii ədəbiyyatda da çoxlu monoloqa rast gəlirik, məsələn, İsgəndərin monoloqu, Hamletin monoloqu və s. monoloqlara diqqət yetirdikdə onun fasiləsiz, əlaqəli, ardıcıl və məntiqli olduğunu görürük. Monoloji nitqin rəvan getməsi üçün ondan istifadə edən adamın çatdıracağı məzmunu dərindən və aydın dərk etməsi, zəngin söz ehtiyatına malik olması, nitqin təsirlilik, emosionallıq xüsusiyyətlərinə, danışdığı dilin qayda-qanun larına mükəmməl yiyələnməsi zəruridir. İstər dioloji, istərsə də monoloji nitq aktiv və passiv ola bilir. Hər iki termin şərti xarakter daşımaqla danışanın və ya dinləyənin fəaliyyətini səciyyələndirir. Aktiv nitq forması ünsiyyət zamanı danışan adamın, başqa sözlə kommunikatorun nitqi hesab olunur. Dinləyicinin nitqi bu zaman bir növ passiv formada cərəyan edir. Belə ki, biz başqasını dinləyən zaman bir növ danışanın sözlərini ürəyimizdə öz-özümüzə təkrar edirik. Bu zaman nitq zahirən təzahür etməsə də nitq fəaliyyəti burada özünü göstərir.Bir cəhəti xüsusilə qeyd etmək lazımdır ki, uşaqlarda nitqin aktiv və passiv formaları eyni vaxtda baş vermir. Belə ki, uşaqlar birinci növbədə passiv nitqə yiyələnirlər. Onlar böyüklərin danışığını başa düşür, onların dedikləri sözlərə reaksiya verirlər. Tədricən uşaqlarda aktiv nitq formalaşır və onlar da sözlərdən bilavasitə fəal şəkildə istifadə etməklə ünsiyyətə girirlər. Xarici dillərin öyrənilməsi zamanı bu hal daha aydın təzahür edir. Xarici dilin öyrənilməsinin ilkin mərhələsində passiv nitq üstünlük təşkil edir. Xarici dili öyrənən adam həmin mərhələdə xeyli sözü aydın başa düşdüyü halda onlardan öz fəal nitqində istifadə etməkdə çətinlik çəkir. Lakin həmin dilə, onun lüğət ehtiyatına dərindən yiyələndikdən sonra aktiv nitq formasından istifadədə də çətinlik çəkmir.

Şifahi nitq kimi yazılı nitq də xarici nitqin bir növü kimi verbal ünsiyyətə aiddir. Yazılı nitq vasitəsilə ünsiyyət yazılı mətnlərin köməyi ilə həyata keçirilir, görmə vasitəsilə qavranılır. Mütəxəssislər yazılı nitqi şifahi monoloji nitqə nisbətən daha müfəssəl nitq hesab edirlər. Adətən, yazılı nitqdə həmsöhbətlə əks əlaqə mövcud olmur. Ona görə də biz hər şeyi əvvəlcədən yazdığımız mətndə ona izah etməliyik. Yazılı nitqi şifahi nitqdən fərqləndirən cəhətlərdən biri ondan ibarətdir ki, yazılı nitqin köməyi ilə biz öz fikrimizi, istək və arzularımızı müəyyən məsafədən istədiyimiz adamlara çatdıra bilirik. Yazılı nitq informasiyaları müəyyən məsafədən ötürməyə imkan verməklə yanaşı mühafizə edib saxlamağa, gələcək nəslə çatdırmağa da imkan verir.Yazılı nitq şifahi nitqdən təkcə qrafikadan istifadə olunmasına görə deyil, eyni zamanda onun özünəməxsus qrammatik, orfoqrafik, stilistik xüsusiyyətlərinə görə də fərqlənir. Məhz buna görə də həmin xüsusiyyətlərə mükəmməl yiyələnmək yazılı nitqdən düzgün istifadə edə bilmək üçün zəruri şərtdir.

İnteriorizasiya əlamətinə görə nitqin xarici nitqdən fərqli olan bir növünü – daxili nitqi qeyd edirlər. Bu real kommunikasiyadan kənarda baş verən nitqdir. Daxili nitq insanın öz-özünə fikirləşməsi, öz-özü ilə danışması prosesidir. Daxili nitq tələffüz edilməyən, səssiz nitqdir. O çox qısa, bəzən də ayrı-ayrı ifadələrdən ibarət olur. Həmin ifadə bir növ fikrin nüvəsini təşkil edir. Ona görə də daxili nitq üçün fraqmentliyin, qırıqlığın xarakterik hal olduğunu qeyd edirlər. Daxili nitq eyni zamanda sürətli nitqdir. Əgər hər hansı bir hadisəni xarici nitqin köməyilə çatdırmaq üçün xeyli vaxt sərf etmək lazım gəlirsə, daxili nitqdə onu ani olaraq, sürətlə təsəv-

vürümüzdən keçiririk. Psixoloji ədəbiyyatda daxili nitqi xarici nitqin bir növ əqli əməliyyatların fikrən icrasına yönəldilmiş törəmə forması kimi qeyd edirlər. Daxili nitq müxtəlif məsələlərin əqlən həlli, başqa adamların nitqini diqqətlə dinləmə, mətni öz – özünə (tələffüz etmədən) oxumaq, fikrən planlaşdırma, yaddasaxlama və yadasalma zamanı özünü daha aydın şəkildə göstərir. Daxili nitqin vasitəsi ilə sensor məlumatların işlənməsi, onların müəyyən anlayışlar sistemində dərk olunması baş verir, özünün davranış və təəssüratlarının təhlili və qiymətləndirilməsi həyata keçirilir. Bütün bunlar daxili nitqi insanın əqli fəaliyyəti və şüurunun olduqca mühüm və universal mexanizminə çevirir. Daha dar, psixolinqvistik mənada daxili nitq ifadələrinin yaranmasının başlanğıcı, onun şifahi və yazılı nitqdə reallaşdırılmasının «daxili proqramlaşdırılmasından» ibarətdir.

Daxili nitqin üç əsas tipini qeyd etmək olar: 1) xarici nitqin strukturunu özündə saxlayan, lakin fonesiya, səslərin tələffüzü mövcud olmayan və çətin şəraitdə fikri məsələnin həlli üçün tipik olan daxilən, öz – özünə danışmaq(«özünə yönələn nitq»); 2) xüsusi daxili nitq – bu, tələffüz vasitəsi kimi özünü göstərir, spesifik vahidlərdən istifadə olunur və onun strukturu xarici nitqin strukturundan fərqli olur; 3) daxili proqramlaşdırma, başqa sözlə nitq ifadəsinin, bütün mətnin və onun məzmun hissələrinin spesifik məna vahidlərinin formalaşması və möhkəmlənməsi.

Daxili nitqin mənşəyi hələ kifayət qədər öyrənilməmişdir. L.S. Vıqotskinin fikrincə daxili nitq uşağın oyun və başqa məşğələlər zamanı öz – özünə hündürdən danışmasından ibarət olan eqosentrik nitqin təsiri ilə yaranır. Tədricən bu daxili nitq – «öz – özünə, özü üçün nitqə» çevrilir. P.P. Blonskinin fikrincə (1935) daxili nitq xarici nitqlə eyni vaxtda uşağın böyüklər tərəfindən ona müraciət olunan sözləri səssiz olaraq təkrar etməsi nəticəsində meydana gəlir. Bunu isə artıq birinci yaşın sonunda müşahidə etmək olur. Fikrin məzmunundan və onu doğuran şəraitdən asılı olaraq daxili nitqin inkişaf etmiş forması tamamilə fərqli ola bilər. Adətən, daxili nitqdə fikir olduqca ümumiləşmiş şəkildə ifadə olunur. Lakin əqli çətinlik meydana gələn anlarda daxili nitq olduqca müfəssəl, açılmış xarakter daşımağa başlayır, daxili monoloqa yaxınlaşır və pıçıltı ilə və hətta hündürdən ifadə olunan nitqə çevrilə bilir. Bu isə fikir obyektlərinin daha dəqiq təhlilinə və özünün fikri fəaliyyətinə nəzarət etməyə imkan yaradır.

Nitqin yuxarıda qeyd olunan növləri ilə yanaşı daktil, eqosentrik növləri də diqqəti cəlb edir.

Daktil nitq sözlərin daktil hərflərlə ifadə olunmasından ibarət olan nitqdir. Daha doğrusu, bu zaman barmaqların müxtəlif konfiqurasiyalarından və hərəkətlərindən istifadə olunur. Daktil nitqdən karlarla iş zamanı surdopedaqoji köməkçi nitq vasitəsi kimi, eləcə də karlar arasında şəxsiyyətlərarası kommunikasiya və eşidən adamlarla onlar arasında ünsiyyət vasitəsi kimi istifadə olunur. Eqosentrik nitqə gəldikdə bu insanın özünə yönəlmiş nitqdir. Onun köməyi ilə insan (ən çox uşaqlar) özünün praktik fəaliyyətini tənzim edir və ona nəzarət edir. Eqosentrik nitq xarici (kommunikativ) nitqdən nəşət edir və onun qismən interiorizasiya olunmuş məhsulu kimi özünü göstərir. Eqosentrik nitq bir növ xarici nitqdən daxili nitqə keçid mərhələsi kimi özünü göstərir.

İnsanlar heç də həmişə ünsiyyət prosesində verbal kommunikasiya vasitələrindən istifadə etməklə kifayətlənmirlər. Çox vaxt onlar verbal yolla çatdırdıqları məlumatları gücləndirmək və ya daha səmərəli təsir göstərmək üçün söz-

süz, nitqdən kənar vasitələrdən də istifadə edirlər. İnsanlar özlərinin hisslərini, fikir və arzularını çatdırmaq üçün söz tapa bilmir və ya onun barəsində danışmaq istəmirlər. Bu zaman informasiya mübadiləsi sözsüz, sözlərin köməyi olmadan həyata keçir. Belə ünsiyyət qeyri-verbal vasitələrin köməyi ilə baş verir. Bu cür qeyri – verbal kommunikasiya vasitələrinə müxtəlif simvolları, mimikanı, pantomimikanı, müxtəlif jestləri, hərəkətləri, səsin tembrini, intonasiyanı, gülməyi və s. aid etmək olar. Bu mənada qeyri – verbal ünsiyyət vasitəsi rolunu müxtəlif amillər oynaya bilər. Onlardan bəzilərini qısaca nəzərdən keçirək.Təsadüfi deyildir ki, beynəlxalq əlaqələrin inkişafı müxtəlif dillərə malik olan insanların ünsiyyətində, informasiya mübadiləsində çətinliklər yaradır. Bu cür çətinliyi aradan qaldırmaq üçün müxtəlif ölkələrdən olan insanların başa düşə biləcəyi simvollardan istifadə edilir. Bu məqsədlə o qədər də çətin olmayan görmə simvolları dünya miqyasında geniş yayılmışdır. Bu cür simvollara aeroportlarda, avtotraslarda daha çox rast gəlmək olur. Həmin simvolların köməyi ilə insanlar dayanacaqlar, yeməkxanalar, yanacaq və təmir yerləri və s. barədə məlumat əldə edirlər. Qeyri – verbal ünsiyyət vasitəsi kimi geniş yayılmış vasitələrə üzün və bədənin ifadəli hərəkətlərini xüsusilə qeyd etmək lazım gəlir. Üzün ifadəli hərəkətlərindən (mimikadan), jestlərdən istifadə etməklə insanlar bir – birinə razılıq və narazılıqlarını, sevinc və kədərlərini və s. məlumatları çatdıra bilirlər. Lakin heç də jest və mimikalar həmişə vahid şəkildə, eyni cür başa düşülmür və şərh olunmur. Müxtəlif mədəniyyət və sosial inkişaf pilləsinə malik olan insanlar bunları müxtəlif şəkildə dərk edirlər. Məsələn, başımızı yuxarıdan aşağıya hərəkət etdirdikdə razılıq, təsdiq, yanlara hərəkət etdirdikdə narazılıq, inkar kimi başa düşülür, şərh olunur. Əksər xalqlarda başın həmin hərəkətləri məhz bu cür də şərh olunur. Lakin bolqarlarda bu tamamilə əksinə başa düşülür. Bununla belə psixoloqlar aşkara çıxarmışlar ki, çox vaxt bədənin, üzün ifadəli hərəkətləri, qeyri – verbal yolla çatdırılan məlumatlar həmsöhbətə verbal yoldan daha güclü təsir göstərir. Məsələn, insan sevincdən doğan göz yaşları ilə dostlarını inandırmağa çalışsa ki, «Məndə hər şey yaxşıdır!» onlar onun sözünə deyil, daha çox göz yaşına inanacaqlar. İnsanların müxtəlif birliyində, o cümlədən dərs zamanı qeyri – verbal ünsiyyət vasitəsi kimi müxtəlif intonasiyadan, bir anlığa danışığı dayandırmaqdan, öskürməkdən və s. dən istifadə edilir. Məsələn, mühazirə zamanı tələbələrin müəyyən hərəkətlərinə narazılığını bildirmək üçün müəllimin səs tonunu yüksəltməsi, alçaltması, bir anlığa danışığını dayandırması, öskürməsi tələbələrin sakitləşməsinə, müəllimin nə demək istədiyini başa düşmələrinə səbəb olur. İnsanın geyimi, paltarı da onu əhatə edənlərə onun əhvalı, hissləri, nə demək istəməsi, ədası barədə məlumat verir. İnsanlar onları əhatə edən adamlara öz mənasibətlərini təkcə geyimləri, ədaları ilə deyil, həmin adamlarla ünsiyyət zamanı hansı distansiyanı, məsafəni tutmalarına əsasən də çatdıra bilirlər. Bu yolla bir növ qeyri – verbal şəkildə ətrafdakılara öz münasibət tərzlərini çatdırırlar.

Ədəbiyyat

4) Nərmin Rəcəbova. Qrammatik səviyyədə dilin struktur modelləri. Bakı -2009.
5) Aybəniz Məhərrrəmqızı. Dil quruculuğunun yeni mərhələsi. Bakı, Azərnəşr – 2004.
6) Dil vahidlərinin funksional struktur təhlili. BDU nəşriyyatı, Bakı – 1988.

Saida Gamarli,
Zamira Efendiyeva

Types of speech

Summary

The process of communication between people through the language of this kind is called a speech. Said in a speech to the process of communication between people through language. People like the idea of speech communication process, which allows the exchange of experiences. Its function clearly shows the importance of the speech itself. Speech functions, as well as the specific forms and types of features are available. The article is about the speech and its types.

Саида Гамарли,
Замира Эфендиева

Типы речи

Резюме

В процессе общения между людьми через язык такого рода называется речью. Сказал в своей речи в процессе общения между людьми с помощью языка. Такие люди, как идея речевой коммуникации процесс, который позволяет обмениваться опытом. Его функции четко показывает важность самой речи. Речь функций, а также конкретные формы и виды функций доступны. В статье речь идет о речь и ее виды.

Rəyçi: baş müəllim S.T.Bilalova

SEVİNC САДЫХОВА
доцент кафедры русского языка Азербайджанского
государственного педагогического университета

ДИАЛОГИЧЕСКАЯ РЕЧЬ И ЭКОНОМИЯ ЯЗЫКОВЫХ СРЕДСТВ

Açar sözlər: dialoji nitq, rus dilində nitqin inkişafı, elliptik quruluş, sintaktik konstruksiyaların kompressiyası, sual cümləsi, söyləmin lakonikliyi, kommunikativ istiqamət.
Ключевые слова: диалогическая речь, развитие речи на русском языке, эллиптические построения, компрессия синтаксических конструкций, вопросительное предложение, лаконичность высказывания, коммуникативная направленность.
Key words: dialogical speech, the development of speech in Russian, elliptic formation, compression of syntactical constructions, interrogative sentences, laconic saying, the direction on communication.

Синтаксическая природа русской разговорной речи издавна привлекала внимание исследователей [6]. Функции системных синтаксических единиц, модификация их состава, особенности их воспроизведения и семантической значимости представляют немалый интерес для наблюдений. В данной статье мы обратимся к одному из активных явлений разговорного синтаксиса – компрессии синтаксических конструкций в диалогической речи как одной из форм проявления разговорной речи. Предметом наших наблюдений мы избрали диалогические построения, представленные в произведениях художественной литературы.

Функции синтаксических структур диалогов во многом определяет коммуникативная направленность речевых актов, что объясняет воспроизведение в них как регулярных синтаксических единиц, так и модифицированных структур. Последние, приобретая регулярность в сходных синтаксических позициях, становятся принадлежностью не только диалога, но переходят из него в монолог [4, с. 84]. Примером такого рода конструкций могут служить структуры компрессированного состава: структуры с незамещенными синтаксическими позициями, разного рода эквиваленты предложений, сложные построения с неразвернутыми придаточными, эллиптические построения.

Наличие компрессированных структур в составе диалогов определяется явлением экономии языковых средств выражения. Именно под его воз действием возникает сокращение компонентного состава, создаются лаконичные высказывания, обеспечивающие речевые акты. П.Ф.Монахов пишет: «Явление «экономии» можно рассматривать как одну из движущих сил развития языка, действующих в направлении устранения того, что не служит более полной передаче информации, что является излишним, дублирующим и тем самым усложняющим языковую форму» [5, с. 50].

Компрессия компонентного состава структур отчетливо прослеживается в функционировании эллиптических построений в составе диалогических

единств. О построениях такого типа писал Л.А.Булаховский, относя их к скрытым синтагмам – экономным средствам передачи определенного содержания [2, с. 404].

В современном языкознании понятие эллипсиса определено довольно четко. Большинство лингвистов к эллиптическим предложениям относят структуры такого типа, спецификой которых является отсутствие глагольного сказуемого, не названного в тексте. В процессе непосредственного речевого общения подобные построения оказываются удобными: в них сохраняются те структурные элементы, которые способствуют быстрому взаимопониманию и обмену мыслями. Наблюдения над структурным составом эллиптических построений диалогической речи приводят к выводу о том, что «они не представляют собой однородной картины с точки зрения синтаксического построения и по степени относительной неполноты их формального состава» [1, с. 103]. Так, первой степенью эллиптизации следует признать отсутствие глагольной части сказуемого при наличии присвязочных членов, либо любого репрезентанта глагольного словосочетания. Такая степень компрессии структур может быть условно названа первой степенью сжатия компонентного состава.

Однако отсутствие глагольной части сказуемого – это лишь первая ступень «свертывания» конструкции. В диалоге степень эллиптизации структур возрастает. Так, в структурах рассматриваемого типа может отсутствовать не только глагольная часть сказуемого, но и компоненты глагольных сочетаний, если на них не падает смысловая нагрузка речевого акта. Структурные схемы таких конструкций могут быть представлены вопросительным словом и именительным падежом существительного, прилагательного, местоимения. Они и составляют группу структур второй степени сжатия.

1. Компрессированные структуры первой степени

Способ оформления структурной основы позволяет выделить два основных типа моделей, функционирующих в диалоге:

а) структурные модели первой степени эллиптизации, представленные именем существительным и репрезентантом глагольного сказуемого с отсутствием глагола различного лексического наполнения;

б) структурные модели, представленные местоимением и репрезентантом глагольного сказуемого. Например:

Предположения об исторически сложившихся изменениях в системе синтаксических средств связи сложного предложения с изъяснительно-объектными отношениями, исследованные на примере конструкций произведений двух различных эпох, подтвердились. В частности, мы пронаблюдали исчезновение таких архаических подчинительных союзов и союзных слов, как *яко, дабы, якобы, како, колико* и расширение круга употребления измененных форм, а также новых союзных слов: *что, чтобы, будто, как, сколько, зачем.*

Необходимо отметить, что материал данного исследования не дает окончательного и полного решения этого вопроса. Проблемы, затронутые в этой статье, требуют дальнейшего глубокого изучения, охватывающего больший по объему языковой материал.

Литература

1. Борковский В.И. Основные черты сходства и различия в истории синтаксического строя восточнославянских языков // Славянское языкознание. VIII Международный съезд славистов. М., 1973.
2. Стеценко А.Н. Исторический синтаксис русского языка. М.: Высшая школа, 1977.
3. Поспелов Н.С., Иванчикова Е.А. Изменения в строе сложноподчиненного предложения в русском литературном языке. М.: Наука, 1964.
4. Скобликова Е.С. ССовременный русский язык. Синтаксис сложного предложения. М.: Флинта: Наука, 2006.
5. Джафаров М.М. Очерки по истории русского словосложения. Баку: Мутарджим, 2009.
6. Пешковский А.М. Русский синтаксис в научном освещении. М.: Учпедгиз, 1956.
7. Кодухов В.И. Изъяснительные предложения с союзами чтобы и будто на материале II половины XVIII века) // Ученые записки ЛГПИ им. А.И.Герцена, т. 298, 1968.

G.Cəfərova

XVIII əsr rus ədəbi dilində xəbər budaq cümləli tabeli mürəkkəb cümlələr

Xülasə

Məqalədə XVIII əsr rus ədəbi dilində xəbər budaq cümləli tabeli mürəkkəb cümlələrdə əlaqə vasitələri tədqiq edilir. Pyotr və Ekaterina dövrlərinin dil materialları müqayisə edilir və bəzi sintaktik dəyişikliklər şərh edilir. Tabeli mürəkkəb cümlələrin inkişafı onların əlaqə vasitələrinin tərkibində dəyişikliklərlə bağlıdır. Tabeli mürəkkəb cümlələrdə bağlayıcının yox olması və ya yenidən işlənməsi xüsusi maraq doğurur.

Q. Cafarova

"Pushkin's attitude to the Russian vocabulary"

Summary

In Pushkin's works the meet words from different languages – France, English, German and Latinas. In the article the interrelation between the Russian and foreign words is analyzed. Within the discoing the idea exits with is focused, the expressiveness of the text is intensified. Based of these facts the Russian lexis is described within the gene red Europe context.

Rəyçi: Güney Məhərrəmova
filologiya üzrə fəlsəfə doktoru

ELEONORA BABAYEVA
ADİU
eleonora-babayeva@mail.ru

ÇOXMƏNALI SÖZLƏRİN İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ TƏDRİSİ

Açar sözlər: *semantika, differensial kontekst*
Key words: *semantic, differential context*
Ключевые слова: *семантика, дифференсиал контекст*

Çoxmənalı sözləri bir dildən başqa dilə tərcümə edərkən onların həmin dildə hansı mənada fikri daha düzgün ifadə etdiyinə diqqət yetirmək lazımdır. Orijinal ilə adekvtlığı təmin etmək üçün müəllim dərs prosesində çoxmənalı sözlərin bütün mənaları içərisindən kontekstə uyğun ən doğru variantı seçməyi bacarmalıdır.

Başqa hallarda, əksinə, azərbaycan sözləri ilə müqayisədə ingilis sözləri semantik qeyri differensial hala məruz qalırlar, məsələn:

Stove – soba, plitə (mətbəx)
Bud – tumurcuq (açılmamış yarpaq), qönçə (açılmamış çiçək)
Cold (isim) – soyuqdəymə, zökəm
Cherry – albalı, vişnə
Strawberry – çiyələk, yer moruğu
Story – hekayə, povest
Poem – Şer, poema
Blue – göy, mavi
Stale – boyat, köhnə (çörək)
Crisp – xışıldayan (qar haqqında), təzə (tərəvəz haqqında), qoxulu (hava haqqında), kövrək (peçenye haqqında)
To marry – evlənmək, ərə getmək
To wash – yumaq, yumaq (ağ və parçadan olan əşyalar haqqında)

Yaxşı olar ki, qeyd edək ki, verilən halda söhbət sözlərin çoxmənalılığından getmir; təsdiq etmək olmaz ki, azərbaycan sözləri əl və ayaq iki məna, yaxud ingilis sözü cherry iki - fərqli albalı və vişnə mənasına malikdir. Yuxarıda göstərilən hallarda bu sözlər ancaq bir məna daşıyır (bununla eyni zamanda onlar həmçinin başqa mənaya da malik ola bilərlər; belə ki, azərbaycan əl sözü həmçinin hakimiyyət, dəstxətt, imza, təsir və sairə kimi də mənalara malikdir), bu mənaların həcmi daha genişdir, nəinki onların digər dillərdə uyğunluqları. Bununla da baxdığımız hal prinsipial olaraq o biri hallardan fərqlənir, belə ki, bir sözün müxtəlif mənalarında onlardan birinin müxtəlif sözləri uyğun olur, məsələn, azərbaycan qurban sözünə «başqasının ucbatından ziyan çəkmiş yaxud həlak olmuş adam», ingilis victim sözünə, lakin «Allah naminə pay, bəxşiş qurban verilmiş əşya yaxud varlıq» kimi və «bir şeydən nəyə görə isə, könüllü imtina etmək» - ingilis sacrifice sözünə uyğundur.

Düzdür onu da qeyd etmək lazımdır ki, həmişə çoxmənalılığı və semantik qeyri differensiallığı ciddi məhdudlaşdırmaq olmaz. Belə ki, tamamilə aydın deyil ki, azərbaycan feli üzmək və ona uyğun ingilis sözləri swim, float və sail sözləri arasındakı münasibəti necə izah etmək olar. Belə saymaq olar ki, üzmək – birbaşa

üç mənaya malik sözdür: 1) bədənin müxtəlif hərəkətləri vasitəsi ilə suyun üzərində qalmaq; hərəkət etmək, insan və heyvanlar haqqında; 2) su istiqamətində hərəkət etmək, axmaq; 3) su səthi üzərində xüsusi vasitələrlə, maşın, qurğu və sairənin köməyi ilə yerləşmək, (gəmilər haqqında);.

Belə izah vasitəsi ilə swim, float və sail ingilis sözləri azərbaycan sözünə üç müxtəlif mənada uyğun gəlirlər. Bundan başqa belə izah da oluna bilər ki, azərbaycan feli üzmək hər üç halda eyni «suda hərəkət etmək» mənası daşıyır. Bizə elə gəlir ki, bu daha düzgün izahdır.

Bu halda azərbaycan üzmək sözünün yuxarıda göstərilən üç ingilis felinin müqayisəsinin semantik qeyri differensiallığından danışmaq olar. Bu sözlərdən hər biri öz semantik strukturunda, azərbaycan sözünün məzmununda mövcud olmayan əlamətə malikdir. Əslində belə mübahisəli halların mövcud olmasına baxmayaraq, çox mənalılıq anlayışı və məna qeyri differensiallığı çox dəqiq fərqlənir.

Müxtəlif dillərdə işarələrin semantik strukturları arasındakı münasibətin tədqiqatı zamanı yuxarıdakından daha mürəkkəb və məna qeyri differensiallığı hallarına rast gəlmək olar. Məsələn, pendir və kəsmik azərbaycan sözləri və cheese və cottage cheese ingilis sözləri arasındakı münasibətə baxaq. İlk baxışdan ingilis sözləri (nəzərə almasaq ki, cheese ingilis dilinin ara sözləri arasında başqa mənaya da malikdir) azərbaycan sözlərinin tam semantik ekvivalentidir. Əslində burada daha mürəkkəb münasibətlər var: İngilis dilində cottage cheese – cheese sözünün müxtəlif bir formasıdır. Lakin kəsmik pendirin mövcud forması deyil. Düzdür, azərbaycan dilində demək olar ki, Bu pendir deyil, kəsmikdir. Satışda nə pendir, nə də ki kəsmik yox idi. Ancaq ingilis dilində It is not cheese but cottage cheese, necther cheese nor cottage cheese və sairə demək olmaz. Beləliklə, cheese ingilis sözü, azərbaycan sözü kəsmik və pendir sözləri ilə müqayisədə tamamilə semantik qeyri differensialdır. Baxmayaraq ki, ingilis dilində xüsusi sözbirləşmələri var ki, azərbaycan pendir sözünə tam semantik uyğun gəlir.

Oxşar başqa nümunələr də gətirmək olar ki, xüsusi metallurq termini olan azərbaycan sözü dəmir və yaxud çuğun iki müxtəlif metal növü kimi izah olunur. Dəmir və çuğun istehsalı. İngilis sözü iron dəmir adı kimi, çuğun adı kimi qeyri differensial deyil, baxmayaraq ki, ingilis dilində cast iron sözbirləşməsi mövcuddur ki, bu da referensial mənasına görə azərbaycan sözü çuğuna uyğun gəlir. Lakin dəmir növü olduğundan onu ingiliscə production of iron ad cast iron kimi demək mümkün deyil. Analoji olaraq stul və kreslo azərbaycan sözləri və chair və armchair ingilis sözləri müqayisə edilir. Ingilis sözü armchair chair sözünün başqa bir müxtəlif adıdır. (Vebstera lüğətində verilən armchair sözü belə təyin olunur «a chair with surports at the sides for ones arms or elbows». Azərbaycan dilində belə demək olar ki, Bu stul deyil, kreslodur. Eyni zamanda ingilis cümləsi This is not chair vut am armchair absurd səslənir. Belə bir uyğunluqda azərbaycan sözləri bağ və bostan və ingilis sözləri garden və kitchen garden mövcuddurlar. Azərbaycan sözü meyvə bağına ingilis sözü orchard uyğun gəlir. Bu isə garden sözünün müxtəlifliyi deyildir, azərbaycan sözü yemiş və qarpız və ingilis sözü melon və vater melon və sairə.

Semantik qeyri differensiallaşmada bir hal da var ki, müxtəlif dildə olan iki söz referensial mənasına görə uyğun gəlirsə, lakin bu iki dildən birində müəyyən rəngərəngliyi təyin edən elə xüsusi söz var ki, o biri dildə bu söz yoxdur. Yuxarıda

göstərilən azərbaycanca stol sözünü «mebel hissəsi» mənasını ifadə edən və ingiliscə table sözü tam uyğun gəlir. Lakin stolun müxtəlifliyinin birinə – yazı stolu, çertyoc stolu, ingilis dilində xüsusi bir desk sözü var, eyni zamanda azərbaycan dilində verilən anlayışı ifadə etmək üçün yazı stolu söz birləşməsindən istifadə olunur. Azərbaycan feli oğurlamaq (adamı) kidnap ingilis sözünə uyğun gəlir, lakin əgər söhbət qadının oğurlanmasından gedirsə, abduct xüsusi feli istifadə olunur. Azərbaycanca cinayət sifətinə insan həyatına və əmlakına qarşı törədilən cinayətkarlığı ifadə edən və heç bir siyasi məna daşımayan ingilis dilində criminal sözü uyğun gəlir. İngilis dilində isə buna aid xüsusi sifət yoxdur, azərbaycanca cinayət sözü ingilis dilinə qeyri differensial criminal sözü vasitəsi ilə tərcümə olunur. (cinayət – crime, cinayətkarlıq – həmçinin crime)

Burda söhbət açdığımız bir dilin semantik qeyri differensial işarələri o biri dil ilə müqayisədə o demək deyil ki, belə nəticə çıxarmaq lazım deyildir ki, bu yaxud digər dilin bu yaxud o biri anlayışı verməyə imkanı yoxdur, yəni ki, bu dil az inkişaf etmişdir. O biri dildə isə verilən anlayışı ifadə etməyə imkan mövcuddur. Əvvəlki ifadələrdən belə alınır ki, istənilən dil istənilən anlayışı prinsipial olaraq müəyyən edə bilər, lakin söhbət belə müəyyənliyin müxtəlif üsullarından gedir. Azərbaycanca əl sözünün mənaca, ingilis arm və hand sözlərindən nisbətən az differensial olmasından belə nəticə çıxartmaq olmaz ki, azərbaycan sözlərinin vasitəsi ilə əlin bilək və qalan hissəsi arasındakı fərqi ifadə etmək mümkün deyil. Bu o fakta eynidir ki, ingilis sözü cherry, azərbaycanca albalı və vişnə sözü ilə müqayisədə semantik qeyri differensialdır. Buradan elə nəticə çıxartmaq lazım deyil ki, ingilislər bu iki meyvə arasındakı fərqi «görmürlər». Söhbət ondan gedir ki, bir dil müəyyən anlayışlar arasındakı fərqi ifadə etməməyə imkan verir, digər dil isə istifadəçinin qarşısına bu fərqi ifadə etmək məcburiyyəti qoyur. Belə ki, azərbaycan dili zərurət olduqda insan əlinin məhz hansı hissəsinin ifadə edilməsini xüsusən dəqiqləşdirməyə xüsusi yəni çiyin, bilək, çiyinin üstü kimi sözlərlə ifadə etməyə göstəriş verir. Lakin semantik qeyri differensial azərbaycanca əl sözü imkan verir ki, arm və hand sözləri arasındakı fərq ayrıca hal kimi dəqiqləşdirilməsin. Lakin ingilis dili söhbət edənin hər dəfə əlin hansı hissəsindən söhbət açdığını dəqiqləşdirməyə məcbur edir. Eyni ilə ingilis dilinin vasitələri ilə, zəruri hallarda, vişnə – sour cherry və gilas – sweet cherry, yaxud göy - dark blue və mavi - light blue rəngləri arasındakı fərqi dəqiqləşdirmək olar, (ümumiyyətlə, nümunələrdən görünür ki, bu yaxud digər anlayışların xüsusi leksik vahidlər olmadan differensiallaşdırılması zamanı dil xüsusi sözbirləşmələrinin köməyinə əsaslanır. Lakin əgər belə differensiallaşma zərurəti yoxdursa ingilis dili istifadəçinin öhdəsinə semantik hissələrə ayrılmamış cherry, blue və sairə sözlərini verir. Azərbaycan dilində isə bu zaman verilən anlayışı hər dəfə uyğun qeyri differensial ifadələrin olmamasını dəqiqləşdirmək lazımdır. Bununla əlaqədar olaraq R.Yakobson yuxarıda göstərilən işdə qeyd edir ki, «dillər əsaslı surətdə ifadə etməli olduqlarında fərqlidirlər, etməli ola bildiklərində isə yox.

Tərcümə üçün verilən hal çoxmənalılıq kimi o zaman çətinlik kəsb edir ki, söz verilən zaman MD-də semantik qeyri differensiallaşmada zəruridir ki, TD-də mümkün olan uyğunlaqlardan seçilsin. Belə ki, azərbaycanca əl sözünün ingilis dilinə tərcüməsi zamanı hər dəfə arm və hand arasında, azərbaycanca saat sözünün verilməsi zamanı isə watch və clock və sairə seçim etmək lazımdır. Əksər hallarda

düzgün seçim etmək üçün kontekstin - geniş və dar göstərişlərindən istifadə olunur. Kontekst rolu kimi «Kontekst və tərcümədə hallar bölməsinə» bax.

Məsələn, azərbaycanca - O əlində kitab tutmuşdu cümləsi - ingilis dilinə tərcümə zamanı hand sözündən istifadə etmək tələb olunur. Lakin - O əlində uşaq tutmuşdu - cümləsi arm sözünü tələb edir. Lakin nəzərə almaq lazımdır ki, elə bir kontekst mövcud ola bilər ki, belə dəqiqləşdirmə tələb olunmasın. Ona görə də azərbaycanca - O əlindən yaralanmışdı cümləsi belə tərcümə olunur - He was wounded in the arm və He was wounded in the hand. Əgər geniş kontekstdə uyğun göstəriş tapmaq mümkün deyildirsə, tərcümədə tələb olunan düzgün uyğunluq dil kontekstindən kənara çıxmaq və ən real şəraiti və halı bilmək şərti ilə mümkün olur. Belə ki, düzgün tərcümə üçün Puşkinin «Yevgeni Onegin» romanında söhbət qadın ayaqlarından cedirsə, bu dövrün əxlaqını, zövqünü və tərbiyə davranış normalarını bilmək tələb olunur. Söhbət feet-dən gedə bilərdi, lakin legs-dən yox. Bu o dövr üçün çox nəlayiq bir hərəkət olardı. Bilmək lazımdır ki, Puşkinin qaralamalarında qıraqda uyğun yerə əks istiqamətdə legs yox, məhz feet göstərilmişdir.

Ədəbiyyat

1. Adilov M. Azərbaycan dilində Sintaktik təkrarlar. Bakı 1974.
2. Adilov M.İ. İzahlı dilçilik terminləri. B. 1989.
3. Арнольд И.В. Стилистика современного английского языка. Л., 1981.
4. Астафьева И.А. Виды синтаксических повторов, их природа и стилистическое использование на материале современного английского языка. АКД, М., 1964.
5. Будагов Р.А. Очерки по языкознанию. М., 1961.
6. Комиссаров В.Н., Рецкер Я.И., Тархов В.И. Пособие по переводу с английского языка на русский. М., 1965.
7. Левицкая Т.Р., Фитерман А.М. Проблемы перевода. М., 1976.
8. Швейцер А.Д. Теория перевода. Статус проблемы аспекты. М., 1988.
9. Galperin I.R. Stylistics. M., 1977.

E. Babayeva

The problem of translation of polysemantic words and their study at the English classes.

Summary

The article deals with the problem of translation of polysemantic words and their study at the English classes. The problem of meaning in general linguistics deals mainly with such aspects of the term as the interrelation between meaning and concept, meaning and sign, meaning and referent.

We should acquire meanings imposed on the words by the context. This meanings are called contextual meanings. The ability of a word to be polysemantic, i.e. to comprise several lexical meanings, becomes a crucial issue for stylistic studies.

Э.Бабаева

Проблема многозначностьи

Резюме

В предлагаемой статье из множества проблем, касающихся пополнения словарного состава современного английского языка рассматрены будут только некоторые, а именно: проблемы изменения семантической структуры ряда слов, проблема многозначностьи.

Rəyçi: F.Abdullayeva
filologiya elmləri namizədi

AYTƏN HACIYEVA
ADİU

SİNONİMİK CƏRGƏLƏRİN ZƏNGİNLƏŞMƏ MƏNBƏLƏRİ

(İngilis və Azərbaycan dilləri materialları əsasında)

Açar sözlər: sinonim, kateqoriya, arxaik
Key words: synonym, category, archaic
Ключевые слова: синоним, категория, архаик

Ünsiyyətin ifadə vasitələri arasında öz spesifik xüsusiyyətləri ilə diqqəti cəlb edən sinonimlər bütöv bir sistem təşkil edir. Sinonimlər ifadə vasitələri kimi istər bədii, istərsə də canlı danışıq dilini zənginləşdirir, hər bir insanda gözəl danışıq qabiliyyəti, natiqlik bacarığı yaradır, fikrin daha dəqiq və daha aydın ifadəsinə kömək edir, eyni bir sözün bir neçə dəfə lüzumsuz təkrarlanmasının qarşısını alır. Nitqin gözəl və mükəmməl olmasını istəyənlər, öz fikir və hisslərini dəqiqliklə ifadə etməyə və ya əksinə, bilərəkdən onu gizlətməyə çalışanlar sinonim axtarırlar. Sinonimlər leksik kateqoriya olmaqla bərabər eyni zamanda üslubi kateqoriyadır. Bu cəhəti əsas götürərək deyə bilərik ki, sinonimlərin üslubi xüsusiyyətlərini araşdırmaq üslubiyyati elminin üzərinə düşür.

V.V.Vinoqradov göstərir ki, üslubiyyat müvafiq müvafiq dil hadisələrini vahid bir strukturunun daxilən əlaqəli olan elementləri kimi deyil, yaxın, paralel və ya sinonimik ifadə vasitələrini funksional differensiyası baxımından nəzərdən keçirir.

Sinonimlik dilçiliyin aktual problemlərindən biri kimi həmişə tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Dilçilikdə sinonimlik mübahisəli problem olsa da, bu problemin araşdırılmasına mane olmamış, əksinə, dilçilərin bu sahəyə marağını daha da artırmışdır. İngilis dilində də sinonimlik bir sıra tədqiqatların əsas obyekti olmuşdur.

İngilis dilində zənginliyi və məna çalarlığı ilə seçilən sinonimlər eyni mənanı ifadə edən, lakin bir-birindən məna və müxtəlif üslubi çalarına görə fərqlənən sözlərə deyilir. Bir-birindən məna çalarına görə fərqlənən sinonim sözlərə ideoqrafik və yaxud leksik sinonimlər deyilir. Məsələn, *to say - demək, to tell - söyləmək, happy - xoşbəxt, lucky - uğurlu, müvəffəqiyyətli, xoşbəxt gətirən.*

Bir-birindən üslubi çalarına görə fərqlənən sinonimlər üslubi sinonimlər adlanır. Məsələn, *to begin - başlamaq, to commence - başlamaq, to come - gəlmək, to arrive - gəlmək, nearly - təxminən, approximately - təxminən.*

Göstərdiyimiz misallarda birinci tərəflər yəni *to begin, to come, nearly* sözləri üslubi çalara münasibətdə neytraldırlar. İkinci tərəflər isə yəni, *to commence, to arrive, to approximately* üslubi çalara malikdir. Sinonimlər yerinə yetirdiyi funksiyalara görə ideoqrafik və stilistik ola bilir. İdeoqrafik və üslubi sinonimlər arasında kəskin fərq yoxdur. Üslubi xarakterli fərqlər bir çox hallarda ideoqrafik fərqlərə keçir, yəni məna çalarına görə fərqlənir. Məsələn, *to ask-soruşmaq, to beg-xahiş etmək, rica etmək, yalvarmaq* sözləri bir-birindən emosional mənalarına görə deyil, həm də məna çalarına görə fərqlənirlər. Məsələn,

Jennie begged him not talk of it, but he would. One day at four o'clock he had a sudden sinking spell, and at five he was dead (Theodore Dreiser, pg. 280).

Müəllif bu cümlədə *to beg* sözünü işlətməklə obrazın hiss və həyəcanını oxucuya daha təsirli formada çatdırır.

Digər bir misalda, *Prospero pretended to think that Ferdinand was a spy and that he had come to try to steal his siland from him. He spoke to him very roughly and rudely (William Shespeare, pg. 80).*

Bu cümlədə isə sinonimik cərgə yaradan *"roughly"* və *"rudely"* sözlərinin köməyi ilə yazıçı obrazın daxili hisslərini daha təsirli ifadə etməyə nail olmuşdur.

İngilis dilində olduğu kimi, Azərbaycan dilində də sinonimlərin və sinonimik ifadələrin üslubi çalarlığından geniş şəkildə istifadə edilir. Sinonimlər və sinonimik ifadələr bədii əsərləri, poeziyanı rəngarəng edir, onu xüsusi ifadəlilik verir. Sinonimlərin ən başlıca üslubi xüsusiyyətlərindən biri eyni söz və ifadənin təkrar edilməsinin qarşısını almaqdır. Məsələn,

Yarəb nə üçün aləmi, dünyanı yaratdın?
Bir dəfə dedin "ol!" - yeri, eyvanı yaratdın (Ə.Nəzmi).

Şair bu misrada *"aləm"* və *"dünya"* sözlərini işlətməklə bir tərəfdən sinonimik cərgə yaratmış, digər tərəfdən isə sözün təkrar olunmasına yol verməmiş, şerin axıcılığını daha da artırmışdır.

Yaxın mənaya malik sinonimlərin təkrar olunması fikrin təsirliyini artırır. Məsələn, Cəfər Cabbarlının "Solğun çiçəklər" əsərində Səriyyə Bəhrama xitab edərək deyir:

-Nə üçün sən əhdinə vəfa edib, məni buradan xilas etmirsən?
Bəs sən nə üçün əhdinə vəfa edib, məni buradan azad etmirsən?

Bu cümlələrdə təxminən məzmun eynidir. Lakin ifadə tərzindəki müxtəliflik eyni fikrin təkrar olunduğunu nəzərə çarpdırmır. Bu təkrarın nəzərə çarpmamasının səbəbi *"xilas etmək"* sözünün ikinci cümlədə *"azad etmək"* kimi işlənməsidir. Şübhəsiz, bu sinonimlər təkrar edilsəydi cümlədə nəzərə çatdırılan məna çaları, bədiilik itmiş olardı.

Bəzən yazıçıların, şairlərin əsərlərində işlədilmiş sinonimlərdən biri arxaik sözlə ifadə olunur. Sinonim olan bu arxaik sözün mənası mətnə görə müəyyənləşdirilir. Məsələn,

Anam, mənim müqəddəs peyğəmbərim, onun bütün dediklərinə biət gətirməyim - üzüyolalığımı tək ovlda borcu kimi qəbul etməsin (Cəmil Əlibəyov, İlk məhəbbət)

Sinonimlərin üslub xüsusiyyətlərindən biri də oxucuda ekspressivlik-emosional hiss yaratmaqdır. Belə sinonimlərdən daha çox poeziyada istifadə edilir.

Pozsaq bircə anlıq əhdi, ilqarı
Könüllər ayrılsın, qoy götürməsin (İsmayıl Ağayev).
Məramım, məqsədim birdir əzəldən
Hər yana, hər səmtə su tək axmaram (İsmayıl Ağayev).
Eşqə, məhəbbətə düz olanların
Üstündən tufanlı boran əsməsin (İsmayıl Ağayev).

Birinci misrada *"əhd"* və *"ilqar",* ikinci misrada *"məram"* və *məqsəd"* sinonimik cərgə yaratdığı halda, üçüncü misradakı *"eşq"* və *"məhəbbət"* sözləri kontekstdə sinonimləşdirilir.

Beləliklə, Azərbaycan və ingilis dillərindən gətirdiyimiz misallar sinonimlərin işlənməsində müxtəlif məqamların mənasını aşkarlayır. Bu məqamlara sinonimik

cərgə, arxaik sözlə ifadə olunma, ekspressiv-emosionallıq, kontekstual üslubi sinonimlik daxildir.

Hər bir dilin lüğət tərkibi saysız-hesabsız sözlərdən ibarətdir. Bu sözlər arasında sinonimlər də özünəməxsus yer tutur. Bildiyiniz kimi, sinonimlər bütün dillərdə mövcuddur. Əsasən inkişaf etmiş ədəbi dillər sinonimlərdə zəngindir. Ədəbi dilin inkişaf səviyyəsi na qədər yüksəkdirsə, onun sinonimliyi də bir o qədər zəngindir. Sinonim bir termin kimi ilk dəfə qədim yunanlar tərəfindən işlədilmişdir. Yunanca sinonim - eyni adlanma deməkdir. Yunanların fikrincə sinonimlər məntiqi əlaqəsinə görə birləşən söz qruplarıdır. Bununla bağlı yunan filosofları öz əsərlərində müxtəlif fikirlər söyləmişlər. Onlardan bir neçəsinə nəzər salaq.

Kvinton yazırdı: "…Müxtəlif əşyaların müxtəlif adı ola bilər. Bunların hazır olmalıdır ki, lazım olan vaxt danışan onların ən yaxşısını asanlıqla seçə bilsin".

Demokrit isə belə hesab edirdi ki, eyni bir adamın müxtəlif materiallardan düzələn bir neçə heykəli ola bildiyi kimi eyni bir əşyanın da bir neçə adı ola bilər.

Hər bir ədəbi dildə sinonimlər poetik deyim yükünə malikdir. Baxmayaraq ki, dünya filologiyasında sinonimlik uzun araşdırmaya malikdir, lakin burada fikir birliyi yoxdur. Hətta bəzi dilçilər sinonimlər dildə mövcudluğunu şübhə altına alırlar.

Bu məsələni aydınlaşdırmaq üçün yuxarıda qeyd etdiyimiz anlayışlar arasındakı fərqi göstərməliyik. İlk növbədə sinonim və dublet anlayışlarını bir-birindən fərqləndirən cəhətləri göstərək. Bildiyimiz kimi, mənaca bir-birinin tam eyni olan və üslubi cəhətdən fərqlənməyən terminlərə dublet deyilir. Dublet - fransız sözü olub, bir şeyin ikinciçi nüsxəsi deməkdir. Bundan başqa sinonimlə dublet arasındakı əsas fərqlərə aşağıdakılar daxildir. Onları belə qruplaşdırmaq olar.

a) Sinonimlərdən fərqli olaraq, dubletlər heç bir üslubi çalar yaratmır.

b) Dubletlər vahid mənaya malikdir.

c) Sinonimlər bütün nitq hissələri ilə əlaqədə olur. Dubetlər isə yalnız isimlərlə işlənir.

d) Sinonimlər cərgəsi əsasən dilimizin öz daxili imkanları hesabına, dubletlər isə beynəlxalq terminlər hesabına zənginləşir.

Azərbaycan və ingilis dillərində dubletlərə misal olaraq aşağıdakıları göstərə bilərik. Məsələn, *metateza - yerdəyişmə; eliziya - səsdüşümü;proteza - səsartımı; epitet - bədii təyin; komponent - tərkib hissə; shrike - sereech; share - sear; cattle - chattels.*

Qeyd etdiyimiz kimi, sinonim ilə variant terminini eyniləşdirənlərdə var. Indi də variant anlayışını izah edək. Variant - fonetik və qrammatik dəyişikliyə uğrayan söz formalarına deyilir. Onlar mənaca eyni olur. Məsələn, *ambar - anbar; qərb - qəbir; sabın - sabun; practice - practise; cosy - cozy; offence - offense*

Eyniköklü sinonimlərin *cowhouse*/*cowshed* və ya *dullard*/*dull* head müxtəlif terminoloji sinonimlər kimi işlədilməsinə etiraz edilməmişdir. Ona görə də əsas diqqət eyniköklü sinonimlərin eyni olmayan kök formativləri üzərində cəmləşdirilib (*hate/hatred, faithless/unfaithful)*. Verilmiş paralelizmlərə dair dilçilərin müxtəlif fikirləri var. Bəziləri onları eyni sözün variantları, digərləri ikə müxtəlif terminoloji sinonimlər kimi qiymətləndirir.

İngilis dilində mövcud olan *"habit"* və *"custom"* sözlərini nəzərdən keçirək. Bəzi kontekslərdə *"habit"* ismi əvəzinə ümumi mənaya xələl gəlmədən *"custom"* sözünü işlətmək olur. Məsələn, *"as his habit = as his custom"*.

Lakin *"habit"* və *"custom"* sözləri sinonim deyildi. Əksər hallarda bu sözlərin işlədilməsində dəqiq fərq özünü biruzə verir. *"Custom"* sözü Azərbaycan dilinə görə *adət"* deməkdir və bu bir qrup adama xas olandır.

Məsələn, *national customs"* milli adətlər, *"social customs"* ictimai adətlər deməkdir.

"Habit" sözü isə bir insana, fərdə xas olan *vərdiş"* deməkdir: *"I have the habit of breaking things"* - *"Mənim şeyləri sındırmaq vərdişlərim vardır"* yaxıd *"He has the habit of speaking loudly"* - *"Onun hündürdən danışmaq vərdişi vardır"*.

Yaxud *"ancient"* və *"antique"* sözləri haqqında da eyni şeyi demək mümkündür. *"Anciet"* qədimdə olmuş, hal-hazırda mövcud olmayan mənasında işlənir. Məsələn, *"ancient history"* - *"qədim tarix", "ancient literature"* - *"qədim ədəbiyyat"* və sair.

Halbuki, *"antique"* sözü çoxdan yaradılmış və dövrümüzə qədər gəlib çatmış mənasını ifadə edir. Məsələn, *"antique vase"* - *"antik vaza", "antique furniture"* - *"antik mebel"* və s.

Deməli, sinonim kimi nəzərə çarpan sözləri sinonim hesab etmək semantik yanlışlığa aparıb çıxarar. Bu da öz növbəsində verilən məlumatın tam təhrifinə səbəb ola bilər. Çünki, onların məzmunu, lüğvəi mənaları başqa-başqadır.

Ona görə də *"reture"* və *"resign"* sözlərini sinonim hesab etmək doğru olmaz. Doğrudur, bunları birləşdirən ümumi məna *"işləməyi dayandırmaq, tutduğu vəzifəni atmaq"* deməkdir. Lakin onları ayıran əlamətlər bu sözləri bir-birinin əvəzində işlətmək imkanı vermir. *"To resign"* şəxsin tutduğu vəzifədən çıxaraq başqa vəzifə tutmağı nəzərdə tutur. Halbuki, *"to retire"* nəinki öz öz vəzifəsindən çıxmağı, ümumiyyətlə *işləməmək, istefaya getmək* mənasını bildir.

Azərbaycan dilindəki *"gor", "qəbir"* və *"məzar"* isimləri də mənaca və qrammatik xüsusiyyətlərinə görə sinonimlərə çox yaxındır. Lakin bu sözlərin hamısı bir-birinin tam sinonimi deyildir.

"Gor" və *"qəbir"*, eləcə də *"məzar"* və *"qəbir"* sözləri sinonim olduğu halda, *"məzar"* və *"gor"* sinonim deyillər. Məsələn, *"atamın qəbri haqqı",* yaxud da *"atamın goru haqqı"* işlədildiyi halda *"atamın məzarı haqqı"* işlədilmir.

Neytral qiymətdə işlədilən söz həm müsbət, həm də mənfi qiymətdə işlədilən sözün sinonimi olduğu halda, mənfi və müsbət qiymətlərdə işlədilən sözlər bir-birinin sinonimi olmur. Çünki, *"qəbir"* neytral, *"məzar"* müsbət, *"gor"* isə mənfi qiymətdə işlədilir.

Misallardan göründüyü üzrə formaca müxtəlif, mənaca bir-birinə çox yaxın olan sözlərin sinonim olub-olmaması bir çox amillərdən asılıdır. Odur ki, dilçilik ədəbiyyatında sinonimlərə verilən təriflər çox müxtəlifdir. Bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Şəkil etibarilə ayrı, lakin eyni mənanın müxtəlif ranglərini ifadə etmə xüsusiyyətini qəbul edənlər.

2. Mənca eyni və ya oxşar, tələffüzdə müxtəlif olma xüsusiyyətlərini qəbul edənlər.

3. Əsas mənasına görə mütləq və ya nisbi eyniyyət təşkil edən, lakin formasına və əlavə mənasına görə fərqlənmə xüsusiyyətlərini qəbul edənlər.

4. Sinonimlərin bir-birini əvəz edə bilməsi tələbini irəli sürənlər.

5. Müsbət və mənfi qiymətlə işlədilən sözlərin sinonim hesab edilib-edilməməsi haqqında.

6. Sinonimlərin məna çalarlıqlarını müəyyənləşdirmək üçün həmin sözlərin antonim kimi işlədilməsi haqqında.

Ədəbiyyat

1. Axundov A. Dil və üslub məsələlri. Bakı, 1970.
2. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı, 1962.
3. Əfəndiyeva T. Azərbaycan dilinin leksik üslubiyyatı. Bakı, 1980.
4. Arnold I.V. The English Word. 1986.
5. Виноградов В.В. Язык художественных произведений. М., 1954.
6. Палевская. Проблемы синонимического ряда, его границы и возможности выделения доминанта. М., 1967.
7. Смирнитскии. Хрестоматия по истории английского языка. М., 1935.

Ayten Hajieva

Synonyms enrich spoken and written language

Summary

Among the expressive means of communication synonyms have specific pecularities and create whole system. Synonyms enrich spoken and written language speaker who uses synonyms they make his speech eloborated and vivid. You express your thoughts more clearly and avoid unnecessary repetitions.

А. Гаджиева

Семантической структуры синонимичных английских словах.

Резюме

Целью данной статьи является изучение семантической структуры синонимичных английских словах. В настоящее время большинство исследователей синоними считает необходимым учитывать многозначность

Rəyçi: F.Abdullayeva
filologiya elmləri namizədi

ESMİRA MƏMMƏDOVA
ADİU

FRAZEOLOJİ BİRLƏŞMƏLƏR, ONLARIN TƏDQİQATI VƏ MƏNŞƏYİ

Açar sözlər: leksikoqrafiya, diaxronik, sinxronik
Key words: lexicography, diachronic, synchronic
Ключевые слова: лексикография, диахроник, синхроник

Frazeologiya hər hansı bir dildəki sabit söz birləşmələrini öyrənən dilçilik terminidir. Adətən, insanlar gündəlik həyat təcrübəsində-adi danışıqda çox zaman sərbəst söz birləşmələrindən istifadə edirlər. Məs.: *yaxşı tələbə (a good student), gözəl qız (a beautiful girl), beş kitab (five books), söz demək (to say a word)* və s. Lakin hər hansı bir dilin lüğət tərkibində külli miqdarda söz birləşmələri vardır ki, onların tərəflərini bir-birindən ayırmaq çətin olur. Belə birləşmələr sərbəst yox, sabit birləşmələrdir ki, bunlar da dilçilikdə frazeoloji birləşmələr adlanır. Buna görə də, dildə işlədilən sərbəst söz birləşmələrini sabit birləşmələr (frazeologizmlər) ilə qarışdırmaq olmaz, çünki sərbəst söz birləşmələrinin vahid lüğəvi mənası olmadığı halda frazeologizmlərin lüğəvi mənası vardır. Sərbəst birləşmələrdən fərqli olaraq, sabit birləşmələr (frazeologizmlər) öz mənasına görə dildə xüsusi bir qrup təşkil edir və həmin qrupa daxil olan sözlər tək-tək sözlərdən fərqlənir - birləşmə daxilində vahid (bütöv) bir məna ifadə edir. Məs.: *to make up one's mind (to decide), to put an end (to finish), to beg pardon (to excuse)* və s. Misallardan göründüyü kimi, frazeoloji birləşmələrdə olan vahid məna və qrammatik vəzifə sözlərlə yaxınlıq təşkil edir. Məhz buna görə də dildə işlədilən frazeoloji tərkiblərlə leksik tərkiblər arasında ümumi cəhətlər çoxdur, çünki frazeoloji birləşmələr də sözlər kimi insanın fəaliyyəti ilə bağlı olan xüsusiyyətləri ifadə edirlər.

Frazeoloji birləşmələrin ifadə etdiyi mənalar bütöv haldadır. Frazeoloji birləşmələr sabit birləşmələrdir, yəni belə birləşmələrdə sözlərin sırası dəyişməzdir, buna görə də onlar qrammatik cəhətdən ayrı-ayrılıqda təhlil olunmur.

Frazeologiyanın məqsədi frazeoloji vahidlərin (frazemlərin) dildə mövqeyini müəyyənləşdirmək, onların müvafiq prinsiplərə əsasən təsnifini vermək, üslubi xüsusiyyətlərini aydınlaşdırmaq, əmələ gəlmə və inkişaf etmə yollarını aşkar etməkdən ibarətdir.

Frazeologiya dilçiliyin tam müstəqil şöbəsi kimi çox gəncdir. Lakin, bu heç də o demək deyildir ki, frazeologiya məsələləri ilə əvvəllər məşğul olunmamışdır. Bu məsələ alimlərin diqqətini çoxdan cəlb etmiş və frazeologiya "gizli" inkişaf yolu keçmişdir. Frazeoloji vahidlərin birinci müşahidəçiləri lüğət tərtib edənlər – leksonoqraflar olmuşlar. Lüğət tərtib edənlər bəzi sözlərin mənalarının itdiyini müşahidə etmişlər. Belə vəziyyət, adətən, bu və ya başqa söz bölünməz birləşmə tərkibində olduqda nəzərə çarpmışdır.

Ş.Balli frazeoloji vahidlərin əlamətini müəyyənləşdirməkdə birləşmənin həm zahiri, həm də daxili cəhətinə nəzər yetirməyi mühüm şərt hesab edirdi. O, sabit birləşmələri öz əsərində leksik-semantik və üslubi-məna cəhətdən şərh

etmişdir. Dilçilik tarixində sabit birləşməyə bu şəkildə yanaşmaq tamamilə yeni idi. Ş.Ballinin nəzəriyyəsi frazeologiyanın inkişafına böyük təsir göstərmişdir.

Frazeologiyanı belə fərqləndirmək və onunla da kifayətlənmək doğru deyil. Frazeologiya dedikdə onu lüğəvi vahidlərin məcmusu kimi nəzərdə tutmaq lazımdır.

Məlumdur ki, dil tarixi, ictimai hadisədir. Bu cəhət dilin başqa sahələri kimi, onun frazeologiyasına da aiddir, belə ki, hər bir konkret dilin frazeoloji vahidləri də zəruri ehtiyac nəticəsində tədricən formalaşaraq zənginləşmə prosesi keçirib bir sistem halına düşür. Bununla əlaqədar olaraq hər bir konkret dilin frazeologiyası da iki planda (diaxronik və sinxronik) tədqiq edilir. Diaxronik planda dilin frazeologiyasının tarixən formalaşması və müasir dövrə doğru semantik və struktur cəhətdən inkişafı öyrənilir. Sinxronik planda isə dilin frazeologiyasının müasir vəziyyətinin semantik və struktur təsviri verilir.

Dilçilikdə frazeologiyanın mədqiqat obyektindən bəhs edən müəllifləri iki qrupa bölürlər: 1) ümumiyyətlə hər hansı bir dildə hazır şəkildə olan söz birləşmələrinin hamısını frazeologiya hesab edənlər; 2) dildə hazır şəkildə olan söz birləşmələrinin hamısını deyil, onlardan nitq və ya dil vahidlərinə ekvivalent olub, komponentləri məna və quruluşca parçalanmayan qismini frazeologiya adlandıranlar. Dilçilikdə bunlardan birincisi "geniş mənada frazeologiya", ikincisi "dar mənada frazeologiya" adlandırılır.

Ferdinant dö Söseür dildəki sabit ifadələri sərbəst söz birləşmələrindən belə fərqləndirir: "Biz hər şeydən əvvəl, külli miqdarda ifadələrə rast gəlirik ki, bunları dilə aid etmək lazımdır. Bunlar dildə elə hazır nitq parçalarıdır ki, adətən, daxilindəki ayrı-ayrı mənalara malik olan sözləri dəyişmək mümkün olduğu halda, bu, məşğul sayılmır. Bunların ənənəyə görə daşıdığı məna, komponentlərinin bütövlükdəki mənasından və sintaktik quruluşundan asılıdır. Belə ifadələr düzəldilmir, bunlardan dildə hazır şəkildə istifadə edilir".

Qeyd etmək lazımdır ki, Ş.Balli "frazeoloji bitişmə" adı ilə nəzərdə tutduğu semantik qrupdan olan frazeoloji vahidlərin xarici cəhətinin xüsusiyyətindən bəhs edərkən bunlarda üç əlamətin olduğunu göstərir: 1) sözlərin ayrı yazılması, 2) onların müəyyən sabit sırada olması və komponentlər arasına başqa sözün daxil edilə bilməməsi və 3) komponentlərdən heç birinin başqa sözlə əvəz oluna bilməməsi.

Akademik V.V.Vinoqradov dildə frazeoloji vahidləri "frazeoloji birləşmələr", "frazeoloji bitişmələr" və "frazeoloji birləşmələr" adı ilə üç semantik qrupa bölür, bunların hər birinin özünəməxsus əlamətini göstərir. O, frazeoloji birləşmələrdən bəhs edərkən yazır ki, bunların ümumi mənası ilə komponentlərinin mənası arasında heç bir yaxınlıq, əlaqə, hətta potensial əlaqə belə yoxdur. Bunların tərkib hissələri dildəki bu və ya digər sözlə eyni səs tərkibinə malik olsa da, bu cür qarşılıqlı əlaqə omonimlikdən başqa bir şey deyildir. Frazeoloji bitişmə sözün potensial ekvivalentidir. Bu cəhətdən bunlar frazeoloji birləşməyə yaxınlaşır, lakin öz məna quruluşlarının mürəkkəbliyi, komponentlərinin məna əlaqəsinin potensial şəkildə mövcud olması ilə frazeoloji birləşmələrdən fərqlənir. Frazeoloji bitişmə xarici səs forması ilə sərbəst söz birləşməsinə uyğun gəlir. Frazeoloji birləşmədə sərbəst mənada olmayan sözlərin sinonimlərlə əvəz edilməsi mümkündür.

V.V.Vinoqradovun bu bölgüsündə "frazeoloji birləşmə" adlandırılan qrup ilk baxışdan Ş.Ballinin təsnifatındakı "frazeoloji qrup" və ya "adi birləşmələrə"də

oxşayır. Lakin əslində bunlar bir-birindən kəskin surətdə fərqlənir. Belə ki, V.V.Vinoqradovun bölgüsündə frazeoloji birləşmə səciyyəvi daşıyanların komponentlərindən biri ancaq məhdud sözlərlə frazeoloji cəhətdən "bağlı məna" daşıyır, Ş.Ballinin təsnifatında isə, özünün qeyd etdiyi kimi, "…birləşmə parçalandıqdan sonra sözlər öz mənalarını saxlayır".

V.V.Vinoqradovun bu bölgüsü bir müddət həm rus dilinin, həm də bir sıra başqa dillərin frazeologiyasından bəhs edən əsərlərdə tamamilə məqsədəuyğun sayılmış və olduğu kimi saxlanmışdır. Lakin son illərdə bir sıra dillərin frazeologiyası ilə daha dərindən məşğul olan tədqiqatçılar müəyyənləşdirmişlər ki, bu təsnifat özünü doğrultmur.

N.N.Amosova, V.V.Vinoqradovun bölgüsünün dərin təhlilini verərək yazır ki, buradakı təsnifat vahid bir prinsipə əsaslanmır, belə ki, iki əvvəlki semantik qrup (frazeoloji birikmə və frazeoloji bitişmə) komponentlərinin mənasından asılı olmayaraq, ümumi mənalarının dərk edilməsi dərəcəsinə görə müəyyənləşdirildiyi halda, "frazeoloji birləşmələr" adı ilə üçüncü qrupa aid edilənlər tərkibindəki sözün başqa leksik vahidlərlə məhdud şəkildə birləşməsi əlamətinə görə səciyyələndirilir. N.N.Amosova yazır ki, V.V.Vinoqradovun frazeologiya ilə əlaqadər olan məqalələrində frazeologiyanın bir sıra ümumi məsələləri, o cümlədən frazeoloji vahidin daxilən yarılıqda formalaşması problemi frazeoloji vahidlərin tərkib hissələrinin müxtəlif tiplərinin müəyyənləşdirilməsi kimi məsələlər nəzərə alınmamışdır. Sonra N.N.Amosova V.V.Vinoqradovun "…frazeoloji vahiddə onun ümumi məzmununun müəyyənləşməsi üçün kiçik bir işarə belə olarsa, frazeoloji birikmə haqqında danışmaq olmaz" cümləsini xatırladaraq yazır ki, burada frazeoloji vahidlərin mənalarının dərk edilməsi haqqındakı fikir dil faktları ilə obyektiv şəkildə əsaslandırılmır. Belə ki, V.V.Vinoqradovun özü onları frazeoloji birikmə hesab edir, halbuki bunların daxilində daşıdıqları ümumi mənaya zəif də olsa işarə vardır. Daha sonra N.N.Amosova qeyd edir ki, V.V.Vinoqradovun "frazeoloji bitişmə"nin mənası onun komponentlərinin mənası ilə bağlı deyildir fikri inandırıcı deyildir…" Əgər nitq prosesində biz əvvəlcədən məlum olan idiomatik birləşmənin mənasını başa düşə biliriksə, deməli, burada həlledici onun komponentlərinin mənası ilə əlaqədar olaraq dərk edilməsi deyil, kontekstdən situasiyadan irəli gələn cəhətdir.

A.I.Smirnitski frazeoloji vahidlərin struktur tiplərini, onların komponentləri arasındakı fərqli cəhətləri, frazeoloji vahidlərin müxtəlif funskiyalarda işlənən tiplərini müəyyənləşdirməyə xüsusi fikir verib. Bundan başqa, o, ingilis dili frazeoloji vahidlərin üslubi cəhətdən də nəzərdən keçirərək, iki qrupa ayırır: 1) üslubi cəhətdən neytral olub məcaziliyini itirənlər: məsələn *(to) get up, (to) fall in love;* 2) xususi idiomlar: məsələn, *(to) take chair.* Müəllif bunlardan başqa, idiomatikliyə meyl etməyən *rough sketch "çernovoy nabrosok",* eskiz tipində olan sabit birləşmələrdən də bəhs edərək belələrini frazeoloji vahid hesab etmir və dilin "ənənəvi birləşmələri" adlandırır.

Dilçilik fənnləri sistemində frazeologiya, bəzən özünə heç yer tapa bilmir, lakin əksər hallarda frazeologiyanı leksikologiyaya aid edirlər. Frazeologiyanın əsas kateqoriyalarının, məqsəd və vəzifələrinin qeyri-müəyyən olması ona müstəqil inkişaf etməyə mane olur. "Fraza" sözü azı sabit və aydın mənalı termin kimi qəbul edilə bilər. Dilçilikdə onun tətbiqi müxtəlifdir. Ona görə də frazeologiyanın

idiomatikası ilə əvəz olunması üçün bir çox səylər göstərilmişdir. Lakin "idiom", "idioma", "idiomatizm" terminləri də 400 il mövcud olmalarına baxmayaraq avropa dilləri daxilində elmi əsaslarla tərifləmişdir. Sözlərin mənalarının öyrənilməsi artıq onların frazalı kontekst daxilində işlənmələrinin analizini də bir məqsəd tutaraq, frazeologiyanın qeyri-aydın məzmunlu olmasına xidmət edir.

Qeyd olunduğu kimi, frazeoloji vahid sabit törəmədir. Bu tərif heç kəs tərəfindən iddia edilmir. Ancaq dilçilərin sabitliyə dair fikirləri üst-üstə düşmür. Frazeologiyanın bir linqvistik fənn kimi inkişaf etməsi frazeoloji sabitlik nəzəriyyəsini işləmədən mümkün deyil. Bu isə sabitlik məsələsinə kompleks şəklində yanaşmasını tələb edir.

Frazeoloji vahidin sabitliyin ona məxsus olan müxtəlif növ invariantlılığa əsaslanır, yəni normativ dəyişiklər baş verdikdə onun elementlərinin dəyişilməsinə - sabit qalmasına. Dildə invariantlılığın və mikrosabitliyin aşağıdakı növləri vardır: 1. Işlənmənin sabitliyi, yəni frazeologizmin individual törəmə deyil, bir dil vahidi olması faktı; 2. Struktur-semantik sabitlik, frazeoloji vahid iki dənədən az olmayan sözlərdən ibarətdir və tipoloji mənaya malik deyil, yəni struktur-semantik modelə görə analoji frazeoloji vahidlərin yaradılması üçün nümunə ola bilməz; 3. Semantik sabitlik; 4. Leksik sabitlilik, yəni komponentlərin əvəz oluna bilinməməsi və yaxud, komponentlərin yalnız frazeoloji variantlılıq və struktur sinonimiya çərçivəsində, semantik və leksik invariantlılıqları saxlamaqla normativ şəkildə əvəz olunması; 5. Sintaktik sabitlilik, yəni yalnız variantlılıq çərçivəsində frazeoloji vahidlərin komponentlərinin nizamının dəyişə bilməsi, qrammatik inversiya, məsələn, felin məchul növdə işlənməsi, stilistik (üslubi) inversiya, məsələn, *What a cross he has to bear!*

Beləliklə, frazeoloji vahid - leksemlərin bütöv və ya qismən dərk olunmuş mənaları ilə sabit birləşməsidir. Frazeoloji vahidləri leksem adlandırmaq olar. Leksemlərin bir qismi potensial sözlərdir, yəni frazeoloji vahidlərin tərkibində onlar həqiqi mənalarını itirirlər. Digər leksemlər isə frazeoloji vahidlər tərkibində tam dərk olunmamış sözlərdir və burada onlar cümlə üzvü kimi çıxış edə bilməzlər. Frazeoloji vahidin özü cümlə üzvüdür. Potensial söz sərbəst leksik mənaya malik deyil, ona görə ki, onun məna strukturu yoxdur və o, sadəcə olaraq, frazeologizmin məna strutkurunun bir elementidir. Biz frazeoloji vahidin və mürəkkəb sözün komponentlərini ayırırıq. Bu da ingilis dili üçün xüsusilə vacib olan bir şərtdir. Leksemlər sözdəyişdirici formalara malikdir və frazeologizmlərdə dəyişkən elementlərlə uzlaşırlar. Məsələn, *close (shut) one's eyes to something "nəyə göz yummaq"* və *to take one's time "tələsməmək"*. Bəzən, frazeoloji vahidlərin tərkibində fiktiv leksemlərə *(ghost-words)* rast gəlinir, məsələn, *Let us return to our muttons* "söhbətimizin məğzinə qayıdaq". Ingilis dilində muttons sözü mövcud deyil, o, fransız dilindən götürülüb və yalnız verilmiş frazeoloji vahiddə rast gəlir.

Bununla belə, bu nəticəyə gəlmək olar ki, frazeoloji vahid tam (bütöv) dərk edildikdə potensial sözlərin, qismən dərk edildikdə isə potensial və real sözlərin uzlaşmasıdır.

Ədəbiyyat

1. Bayramov H. Azərbaycan dili frazeologiyasının əsasları. 1978.
2. Qurbanov A.M. Ümumi dilçilik. Bakı 1977.
3. Arnold I.V. The English Word. 1973.
4. Амосова Н.Н. Основы английской фразеологии. Л., 1963.
5. Арнолд И.В. Стилистика современного английского языка. Л., 1973.
6. Балли Ш. Стилистика французского языка. 1909.
7. Кунин А.В. Английская фразеология. М., 1970.
8. Реформатскии А.А. Лексикология русского языка. М., 1964.
9. Смирнитски А.И. Лексикология английского языка. М., 1956.
10. Соссюр Ф.Де. Курс общей лингвистики, пер с фр. А.М.Сухотина. М., 1933.
11. Шанский Н.М. Лексикология современного русского языка. М., 1964.

E. Məmmədova

Classification of frazeological units and their structural - semantic peculiarities

Summary

This leaving paper is devoted to the classification of frazeological units and their structural - semantic peculiarities. The very article 8 pages and acquires summary and bibliography. As a result of our scientific investigation we have come to such a conclusion. Frazeology is really considered to be the treasure of any language. In frazeology the history of people, their culture, social life as well as their traditions find their reflection.

Surely when we adress frazeologizms our speech, becomes rich and interesting. Relying upon frazeologizms we achieve to get rid of monotonious speech. In our article we have especially stressed the classification of the frazeological units. Introduce frazeological synonyms, homonyms and antononyms. Later we underlined the difference between frazeological and leksikal meaning. Thus we have become once more wittnesses of the fact that the frazeology which is considered to be one of the branches of lexicology plays the important role in the development and enriching of speech.

Э. Мамедова

Исследование английской фразеологии

Резюме

Исследование английской фразеологии в диахроническом плане постепенно набирает силу. Однако имеющиеся работы посвящены в основном жиахроническому изучению слово сочетании. Изыскания подобного рода в области фразеологии.

А настоящей статье делается попытка сделать научное исследования в этом направлении.

Rəyçi: C.Quliyev
filologiya elmləri namizədi

SƏİDƏ MEHDİYEVA

ÜSLUBİ SİNONİMLƏRİN YARANMASINDA EVFEMİZMLƏRİN ROLU

Açar sözlər: fraqment, populyarlıq, parafraz
Key words: fragment, popularity, paraphrase
Ключевые слова: фрагмент, популярность, парафраз

İngilis dilində olan sinonimlikdən danışarkən biz təbii olaraq bədii ədəbiyyatda geniş istifadə olunan parafraz sinonimlərə də diqqət çəkməliyik. Məsələn, müxtəlif situasiyalarda eyni bir şəxs aşağıdakı sözlərlə adlandırıla bilər: "his benefactor" və yaxud "this bore" or the "narrator" və yaxud "the wreched witness". Bu adlar həmin şəxsə yalnız qısa fraqmentli diskurs zamanı verilə bilər.

Bu üsulun uzun tarixi vardır. Bu çox geniş şəkildə «Bibliya»da və Homerin «Iliada» əsərində istifadə olunmuşdur. Bu bir poetik vasitə kimi Latın şeirində çox populyar olmuşdur. Bu populyarlığın hesabına onun təsiri epik və təsviri poeziyada orta əsrlərdə və intibah dövründə öz əksini çox əhəmiyyətli dərəcədə göstərilmişdir. Hətta bu üsul VII-XVIII əsrlərdə belə Fransada və başqa ölkələrdə parafraz ədəbi üsul kimi tanınmışdır. Əgər parafraz kontekstədn kənarda başa düşülürsə bu sinonimik ifadə adlanır. Belə izahedici parafraz həmçinin ənənəvi, lüğəvi və yaxud dil parafrazı adlanır. Başqaları isə nitq parafrazı adlanır. Burada biz bir neçə məşhur (bəlii olan) lüğət parafrazını qeyd edək (parafraz sinonimlər):

the cap and gown (student body)
a gentleman of the long robe – a lawyer
the fair sex (women)
my better half – my wife

Bir çox perifrastik (parafraz) sinonimlər onların tələb olunması ilə əlaqədar yaranmışdır və öz dövründə geniş işlədilmişdir. Məsələn feodalizm dövründə «kral» sözü ilə bağlı bir dəstə perifrastik sinonimlər yaranmışdır: king – the leader of hosts; thi giver of rings, the protector of earls; the victor lord, A play of swords – ifadəsi – battle mənasında, a battle-seat-saddle mənasında; a shield-bearer – a warrior mənasında sinonimlik yaratmışdır.

Parafraz ifadələr əsasən üslubi səciyyə daşıdığından onlar üslubi sinonim kimi nəzərdə tutulur. Dikensin əsərindən gətirdiyimiz cümlə nümunəsində həmin hadisənin şahidi olmaq mümkündür.

"I understand you are poor, and wish to earn money by nursing the little far, my son, who has been so prematurely deprived of whan can never be replaced" (Dickens).

Burada işlədilmiş "what can never be replaced" tamamlıq budaq cümləsi "mother" sözünün parafrazı kimi işlədilmişdir. Işlədilmiş perifrastik sinonimin mənasını oxucu yalnız kontekst daxilində çox asanlıqla başa düşə bilir. Əgər biz sadəcə transformasiya etsək yəni təmin cümləni "whan can never be replaced" ayrılıqda və yaxud başqa situasiyada işlətsək onun "mother" sözü ilə heç əlaqəsinin olmadığını və bir çox müxtəlif üsullarla şərh olunmasının şahidi olarıq. Burada olan həmin parafraz çox dəqiq fərdi ideya konsepsiyasını (anlamını) ifadə edir.

Başqa bir üslubi parafraza nəzər yetirək, harda ki, cümlənin sonuncu ifadəsi izah edir.

"And Harold stands upon the place of skulls
The grave of France, the deadly Waterloo" (Byron)

Aşağıdakı nümunədə isə:

"The hoarse, dull drum would sleep
And Man be happy yet" (Byron)

Parafraz ancaq geniş kontekstdə başa düşülə bilər (yəni müharibəyə aid olmasına görə). "The hoarse, dull drum" "war" - müharibə sözünün pretonomik işlədilmiş parafrazıdır.

Üslubi sinonimlərdən bəhs edərkən Riçard Altik yazır ki, həqiqəti pərdələmək üçün olan yollardan biri «…sözçülük, uzunçuluq və evfemizmdir».

Bəzən həmin ifadələr heç də yerinə düşmür. Parafrazın həddən artıq çox işlədilməsinə hətta klassik yazıçıların əsərlərində belə rast gəlinir. Məhşur klassik Ingilis yazıçısı Dikensin əsərindən gətirdiyimiz cümlə nümunəsi buna parlaq nümunədir.

"The lamp-lighter made his nighty failure in attempting to brighten up the street with gas (= lit the street lamps)

"Blasphomer" - kafir adlandırılmaq qorxusundan mən cəsarət edib deyə bilərəm ki, Dikens xeyirxahlıq etmək məqsədilə fol parafraz ifadələr işlədib, onlarda oxucuda güclü təəssürat yaratmaq imkanını gördüyündən özünün hadisələrə və adamlara münasibətini ifadə etməyə çalışmışdır (və yaxud o mənanı vermişdir).

Başqa bir parafraza diqqət yetirsək, fikrimizcə pis olmazdı.

"But an addition to the little party now made its appearance (= another person came in).

Pis yazıçının fərdi üslubunu səciyyələndirərkən Belinski deyir: *"One is particularly struck by the art he displays in the use of periphrasis; one and the same thought, simple and empty, as, for example, "wooden tables are made of wood", drags along in a string of long sentences, periods, tropes and figures of speech: he turns it around and around, extends it pages long and sprinkles it with punctuation marks. Every thing is so flowery, every where there is such an abundance of epithets and imagery that the inexperienced reader marvels at these "purple patches" of jewelled prose, - and his fascination vanishes only when he puts a question to himslef as to the content of the flam boyant article: for to his surprise in lien of any content he finds mere woolly phrases and fluffy self-conceit. This kind of writing often appears in the west, particularly since the West began to rot; here in Russia where authorship has not yet become a habit, such phenomena are hardly possible".*

Aşağıdakı nümunədə müraciət sözü parafrazın açarıdır:

"Papa, love. I am a mother. I have a child who will soon call Walter by the name by which I call you" (Dickens)

Bəzi hallarda müəllif oxucunun erudisiyasına arxalanaraq parafrazam şərh etməyə (izaha) çalışır. Belə bir hal aşağıdakı nümunədə özünü göstərir.

"Of his four sons, only two could be found sufficiently without the "e" to go on making ploughs" (Galsworthy)

Dırnaq içərisində verilmiş (“e”) bəzi xüsusi isimlərdə əsilzadələrə birbaşa və yaxud əsilzadə güman edilən insanla aid olur. Müqayisə edin – Moreton və Morton, Smythe və Smith, Browne və Brown, Wilde (Oskar) və Wyld (Cecil). Bu kompleksdə altından xətt çəkilmiş ona işarədir ki, şəxsin oğlanlarından ikisi işləmək üçün kifayət qədər kübar deyildir.

Parafraza, nə zamansa orijinal olmağına baxmayaraq, indi boş, mənasız kimidir və mətbuatda tez-tez gəlmək olar. Bir çox məqalələr yazmış Donald Adamsın məqalələrində ingilis sözlərinin müxtəlif kontekstlərdə işlədilməsi barədə yazır: *“We are all familiar with these examples of distended English, and I shall pause for only one, quoted by Theodore M.Bernstein, who as assistant managing editor of newspaper acts as guardian over the English employed in its new columns. It appears in his recent book, “watch Your language”, and reads “Improved financial support and less onerous work loads” Translate (by Cliftow)*

“High pay and less work”.

Başqa bir yaxşı bəlli olan ənənəvi parafraza periferistik sinonim yaradır.

“After only a short time of marriage, he wasn’t prepared to offer advice to other youngsters intending to lie the knot… But, he said, he’s looking forward to having a family”.

Burada isladılmış (to tie the knot)-ın mənası (parafrazanın) – to marry-dir. Bu ifadə artıq bir növ çeynənmiş ifadədir – klişedir.

Yuxarıda qeyd etdiyimiz kimi parafrazı ilə yanaşı dildə evfemizmlər də mövcuddur. Əslində evfemizm parafrazanın müxtəlifliyidir.

Evfemizm bu və ya başqa münasibətlə deyilməsi müəyyən dərəcədə məqsədə uyğun olmayan sözlərin başqa sözlərlə əvəzlənməsidir. Evfemizmlərin əsas xüsusiyyəti mənfi məna və ya emosioanl çalarlığa malik sözləri başqa sözlərlə əvəz etməkdən ibarətdir.

Evfemizmlər ənənəvi olaraq ingilis dilində bəzi dini qadağalar nəticəsində bəzən isə bəzi söz və ifadələrin işlədilməsi məqbul sayılmadığına görə meydana gəlib. Məsələn, ölmüş adamların adının çəkilməsi guya bədbəxtlik gətirəcək və ona görə də onların adının çəkilməsi qeyri-normal hal kimi səciyyələndirilib. Buna görə də həm ingilis dilində, həm də Azərbaycan dilində *“to die” – «ölmək»* sözləri əvəzinə xeyli evfemistik ifadələr mövcuddur: *to dies – to pass away, to expire, to be no more, to depart, to join the majority; to be gone – to lose one’s life, to breathe one’s last, to go the way of all flesh, to be gathered to one’s father’s = ölmək – gözlərini əbədi yummaq, əbədiyyətə qovuşmaq, ömrünü bağışlamaq, Allah rəhmətinə getmək, o dünyaya köçmək, dünyasını dəyişmək və s.*

Eləcə də Azərbaycan dilində boğaz əvəzinə – ağırayaq, ikicanlı; ingilis dildində pregrant əvəzinə in the family way.

Onu da qeyd etmək lazımdır ki, dilçilik ədəbiyyatlarında yazıldığı kimi evfemizm nəticəsində əmələ gələn boğaz – ağırayaq, boğaz – ikicanlı, ölmək – keçinmək, ölmək – vəfat etmək, çılpaq – anadangəlmə, qusmaq – qaytarmaq, eşşək – ulaq, eşşəq – uzunqulaq, arvad – həyat yoldaşı sinonimlərindəki ikinci sözlərin mənaları sonradan törəmiş mənalardır.

Dildə belə bir xüsusiyyət də mövcuddur ki, bəzən alınma sözü işlətmək eyib sayılmadığı halda, həmin sözün sinonimi olan ana dili sözünü işlətmək eyib sayılır. Buna görə də alınma sözlər bəzən evfemistik sözlər kimi işlədilir.

Bəzən sözün denotativ mənaları eyni də ola bilər, bəzən isə tərsinə. Məsələn, Merry və drunk sözləri bəzən eyni denotativ məna ifadə etsə də əslində commatative ekspressiv halda o heç də eyni məna ifadə edə bilməz.

Müasir dövrdə ingilis dilində, eləcə də Azərbaycan dilində işlədilən evfemistik sözlər ictimai və etik standartlara əsaslanır desək yanılmarıq. Bunu belə izah etmək olar ki, veriləcək məlumat dinləyicinin hisslərini korlamaq, əhvalını pisləşdirməmək, eləcə də verilən məlumatın ağrı-acısını zəiflətmək üçün belə evfemistik sözlərdən istifadə edilir.

Xeyli miqdarda evfemistik sözlər Allahın adı ilə bağlıdır. Xüsusilə Allahın adının çəkilməsi günaha batmaq hesab olunduğundan onun adı çəkilmir, anxaq nidayi ifadələr işlədilir. Bu ingilis dilində fonetik cəhətdən oxşar olan sözlə əvəzlənir *goodness – for goodness sake! Goodness gracious! Goodness knows!* müqayisə et: *By Jove! Good Lord! By Gum!*

His father made a fearful row.

He said: "By Gum, you've done it now" - parçasında olduğu kimi.

Azərbaycan dilində də həmişə Allah əvəzinə – yeri-göyü yaradan, bizi xəlq edənin, bizi yaradan deməklə günah işlətməmək üçün istifadə edilən evfemistik söz və ifadələr vardır.

Hər bir halda bizə elə gəlir ki, burada Allaha inam, Allahın müqəddəsliyi və ona olan inam, əqidəyə görə bu ifadələr yaranmışdır.

Ədəbiyyat

1. Abbasov N. Eyni kökdü sinonimlər və üslubi səciyyələndirmə. Üslubiyyat məsələləri. BDU, 1990.
2. Adilov M.I., Z.N.Verdiyeva, F.M.Ağayeva. Izahlı dilçilik lüğəti. Bakı, 1989.
3. Azərbaycan dilinin izahlı lüğəti. I cild.
4. Cəfərov S. Müasir Azərbaycan dilinin leksikası. B., 1958.
5. Арбекова Т.И. Лексикология английского языка. М., 1977.
6. Англо-русский синонимический словарь. М., 1979.
7. Виноградов В.В. Итоги обсуждения вопросов стилистики. ВЯ, 1955, №1.
8. Галкина-Федорук. Современной русский язык. М., 1954.
9. Сеидалыев Н. Стилистические синонимы в современном Азербайджанском языке. Б., 1989.
10. Arnold I.V. The English word. M., 1986, 295 p.
11. Galperin I.R. Stylistics. M., 1977, 335 p.
12. Rayevskaya N. English lexicology. M., 1957.

Saida Mehdiyeva

The linguistic pecularity of euphemism

Summary

There is a variety of periphrasis which we shall call euphemistic. Euphemism, as is known, is a word or phrase used to replace an unpleasant word or expression by a conventionally more acceptable one. So euphemisms are synonyms which aim at producing a deliberately mild effect. The linguistic pecularity of euphemism lies in the fact that every euphemism must call up a definite synonym in the mind of the reader.

С.Мехтиева

Сопоставление семантики синонимичных слов

Резюме

Одной из задач современной лексикологий является изучение лексического состава языка с точки зрения выявления системных отношений и взаимных связей между словами как значимыми единицами языка. Возможный путь такого изучения – сопоставление семантики синонимичных слов, в результате которого можно сделать вывод о сходстве и различиях их семантических структур и соответственно об особенностях функционирования данных синонимов в языке.

Rəyçi: C. Quliyev
filologiya elmləri namizədi

KÖNÜL QOCAYEVA
ADİU

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ REFERENİIAL MƏNALARIN VERİLMƏSİ

Açar sözlər: referensial, kamera, foto, termin
Key words: referensial, camera, photo, term
Ключевые слова: референциаль, камера, термин, фото

Referensial mənaların verilməsi zamanı tərcüməçinin ilkin mətndə üzləşdiyi əsas problem MD və TD-nin vahidlərinə məxsus olan mənalar əhatəsinin qeyri uyğunluğudur. Elə müxtəlif iki dil mövcud deyil ki, onların məna vahidləri – morfemləri, sözləri, söz birləşmələri öz referensial mənaları həcmində tamamilə uyğun gəlsin. Lakin ifadə olunan mənalar yəni anlayışlar, əsasən uyğun gəlirlər, ancaq onların ifadə olunma üsulları – qruplaşmalar, paylanmalar və birləşmələr, onların bir yaxud bir neçə formal vahid daxilində birləşmələri, qayda üzrə müxtəlif dillərdə daha az və daha çox radikal vasitələrlə ayrılır. Bunu daha dolğun olaraq iki dilin – azərbaycan və ingilis dillərinin lüğət tərkibi materialları üzərində göstərmək olar. Baxmayaraq ki yalnız sözlər referensial məna daşıyıcıları deyil, yaxşı olar ki, müxtəlif dillərin semantik vahidlərinin qarşıqoyulması zamanı ancaq söz müqayisə vahidi kimi götürülsün. Buna görə də biz gələcəkdə ancaq azərbaycan və ingilis sözlərindən söhbət açacağıq. Lakin onu nəzərə almaq lazımdır ki, qeyd etdiyimiz müxtəlif dillərin semantik sistemləri arasında növ fərqləri sözlərlə məhdudlaşmır, həmçinin də başqa dil vahidləri üçün də xarakterikdir.

İki dilin leksik vahidləri arasındakı semantik uyğunluqların bütün növlərini üç əsas hissəyə bölmək olar: *1) tam uyğunluqlar; 2) qismən uyğunluqlar; 3) tam uyğunsuzluq*.

Hər bir hala ayrılıqda baxaq, qeyd edək ki, nəzəri və praktiki tərcümə üçün əsəsən axırıncı iki hal maraq və çətinlik təşkil edir (qismən uyğunluqlar və tam uyğunsuzluq).

Müxtəlif dillərin leksik vahidlərinin referensial məna həcminin tam uyğunluğu olduqca nadir haldır. Qayda üzrə bu birmənalı yəni, hər iki dildə ancaq bir leksik mənaya malik olan sözlərdir; onların sayı dilin leksikon həcmində olan başqa söz kütlələri ilə müqayisədə olduqca azdır. Bura aşağıdakı leksik qruplara daxil olan sözlər aiddir:

1) Hər iki dilin lüğət tərkibinə daxil olan xüsusi adlar və coğrafi yer adları. Məsələn: *Qomer - Homer, Moskva - Moscow, Polşa - Poland və sairə.*

2) Elmi və texniki terminlər. Məsələn, *loqarifm - loqarithm, altıüzlü – hexahedron, hidrogen - hidrogen, natrium - sodium, məməlilər - mammal, xaçgüllü – cruciferous, proton- proton, ekvator - eguator, voltmetr - voltmeter və sairə.*

3) Bəzi başqa göstərilən iki növə semantik yaxın olan sözlər qrupu, məsələn, ay adları və həftənin günlərinin adları. Məsələn*, yanvar – January, bazar ertəsi – Monday və sairə.* Bura həmçinin özünəməxsus, sayları bildirən sözlər qrupu da daxil olur: *min – tnousand, milyon – million və sairə.*

Lakin fikirləşmək lazım deyil ki, yuxarıdakı qruplara aid olan sözlərin hamısı tam uyğunluqlar sırasına daxildir. Bəzən elə hallar olur ki, verilən sözlərin semantik dərəcəsi daxilində eynimənalı uyğunluqlar müşahidə olunmur. Beləki, bir çox hallarda sözlər - terminlər çoxmənalılığı ilə xarakterizə olunur, buna görə də başqa dildə bir yox, bir neçə uyğunluğa malik olurlar, məsələn: ingilis termini power (həmçinin uyğun olaraq azərbaycan ekvivalenti) fizikada: güc, qüvvə, enerci, riyaziyyatda isə dərəcə kimi məna daşıyır. Texniki terminlər daha böyük çoxmənalılığa malikdirlər; kamera azərbaycan terminində uyğun olan ingilis sözləri: *chamber, compartment, cell, camera (foto), tube (şinlər), barrel (nasoslar), lining (şlanq) və sairə.;* plastin azərbaycan sözünə – *plate, slab, lamina, lamella, bar, sheet, blade* və sairə ingilis sözü. Verilən ölkənin az tanınmış və nadir heyvan növlərinin adları adətən eynimənalı olub, tam uyğunluğa malikdir, məsələn: *oxlu kirpi - porcupine, flaminqo-flaminqo və sairə*, eyni zamanda yaxşı tanınmış və yayılmış heyvanların adı ancaq zooloji termin olmayıb, ümumişlək leksikaya daxil olaraq çoxmənalılıq kəsb edir. Məsələn: ingilis sözü *tiger*, (uyğun olaraq azərbaycan ekvivalentində) pələngdən başqa: *qəddar adam, təhlükəli düşmən, sırtıq, xuliqan və sairə*.

Bundan başqa terminoloji uyğunluqların eynimənalılığına və sabitliyinə dillərdə mövcud olan sinonim – terminlər də mane olur; binominal və polybinominal kimi ingilis riyazi terminləri, uyğun olaraq azərbaycan dilində binom, polinom və ikihəddli, çoxhədli kimi (bu azərbaycan terminlərinin referensial mənalarında heç bir fərq nəzərə alınmadan) verilə bilər.

Çox nadir hallarda tam uyğunluğa, yəni iki dilin sözlərinin referensial mənaları həcmində uyğunluğa, həmçinin çoxmənalı sözlərdə də rast gəlinir. Belə ki, azərbaycan dilində *şir* sözü, ingilis dilində *Lion*, aşağıdakı mənalara malikdir: *1) «məməlilərin pişikkimilər ailəsinə daxil olan nəhəng yırtıcı»; 2) «məşhur, yüksək təbəqənin moda - geyiminin qanunvericisi»; 3) «Ulduzlar və Burc işarələri».* Lakin bu tamlıq, yəni semantik uyğunluq, cəm halı formasında pozulur. Yəni, ingilis sözü - lions cəm halda, həmçinin *«mənzərəli, görkəmli yerlərdən biri»* kimi *(məsələn, to see, / to show the lions),* mənaya da malikdir ki, bu isə azərbaycan dilində mövcud deyil.

Aydındır ki, tam uyğunluq tərcüməçi üçün heç bir əsaslı çətinlik yaratmır, onların verilməsi kontekstdən asılı deyil və tərcüməçidən ancaq uyğun ekvivalenti tam bilmək qabiliyyəti tələb olunur.

Iki dilin leksik vahidlərinin müqayisəsi zamanı ən yayılmış hallardan biri qismən uyğunluqdur ki, bir sözə MD-də bir söz yox, TD-də bir neçə semantik ekvivalent uyğun gəlir. Istənilən dilin əksər sözləri çoxmənalılığı ilə xarakterizə olunur, bundan başqa bir dilin sözlərinin mənası sistemi demək olar ki, o biri dilin mənası sisteminə uyğun gəlmir. Bununla belə bir çox hallar müşahidə olunur. Belə ki, bəzən MD-də olan sözün məna dairəsi, TD-də olan uyğun sözdən (yaxud əksinə) daha əhatəli olur ki, yəni MD-dəki (yaxud TD) sözdə də, TD-dəki sözdə də eyni ilə həmin mənalar mövcuddur, ancaq bundan başqa elə mənalar da var ki, başqa dildə başqa sözlərlə ifadə olunur. Belə ki, azərbaycan xarakter və ingilis dilindəki character sözlərinin mənaslı belədir: 1) «insanın psixoloji xüsusiyyətləri»; 2) «güclü iradə, məqsədə çatmaq üçün dəyanət» (O xaraktersiz adamdır. – He has no character); 3) «xüsusiyyət, keyfiyyət, özünəməxsus». Ingilis dilində character sözünün, bundan başqa mənaları da var ki, bu sözlər azərbaycan dilində ki xarakter sözün-

dən başqa sözlərlə də verilir, məsələn: 4) «mövqe»; 5) «yazılı təqdimat, xarakteristika»; 6) «fərqli cəhət, əlamət, keyfiyyət»; 7) «şəxsiyyət, fiqura, adətən qəribəlik, oricinallıq»; 8) «ədəbi qəhraman, obraz, pyesdə iştirak edən şəxs»; 9) «çap işarəsi, hərf, simvol» (məsələn, Chinese characters – çin heroqlifi (yazı). İki dilin sözləri arasındakı belə natamam ekvivalentlik münasibətini daxilolma kimi adlandırıb, sxematik olaraq belə təsvir etmək olar:

haradakı A - bir dildəki söz, B – digər dildəki söz, ştrixlənmiş sahə isə hər iki sözün mənaca üst-üstə düşən hissəsini göstərir.

A



Hər iki sözün MD-də və TD-də eyni, həm də müxtəlif mənalara malik olduğu hal daha çox yayılmışdır. Belə ki, azərbaycan sözü stol və ingilis sözü table ancaq «mebel hissəsi» mənasında uyğun gəlir, lakin başqa məna ayrılığı var, məsələn, azərbaycan stol sözünün «təam, yemək, qida» kimi, (məsələn, «stol və mənzil», «dietik stol») və «idarə, müəssisə», «dəftərxana şöbəsi», (məsələn, «tapıntı stolu», «pasport stolu» və ingilis dilində board, food, cookinq, diet, office, department sözləri ilə uyğun olaraq verilir. Digər tərəfdən, ingilis table sözünün elə mənası var ki, azərbaycan stol sözündə mövcud deyil və azərbaycan dilində, lövhə, cədvəl, dağ yaylası və sairə kimi sözlərlə verilə bilər.

Başqa bir nümunə: ev azərbaycan sözü ingilis house sözü ilə «bina», «sülalə» mənasında uyğun gəlir, (məsələn, sülalə - Romanovlar sülaləsi – the House of Romanovs), lakin aşağıdakı hallarda uyğun gəlmir: azərbaycan «ev» sözü «ailə», «ev» kimi işlənir, bu isə ingilis sözü «home», sözünə uyğun gəlir, həmçinin «idarə», «müəssisə» mənalarında, hansı müəssisədən söhbət getməsindən asılı olaraq o başqa cür tərcümə olunur: uşaq evi – childreens home yaxud orphanage, ticarət evi - (commercial) firm, islah evi – reformatory, qumarxana – gambling-house yaxud kazino, dəlixana – lunatic asylum və sairə.

Ingilis house sözü həmçinin, azərbaycan ev sözündə olmayan bir sıra məna daşıyır, məsələn, «parlament palatası», (tne House of Commons), «teatr», «tamaşaçı auditoriyası», «tamaşa, seans» və başqa. Bu kimi nümunələrin sayını artırmaq olar.

Qeyd etdiyimiz kimi iki dilin sözləri arasındakı bu münasibət tamamilə adi haldır. Biz bunu kəsişmə kimi də adlandırıb, aşağıdakı kimi təsvir edə bilərik.



Nəzər nöqtesi baxımından, yəni daha maraqlı baxımdan, hissə-hissə ekvivalentlik hadisəsi xarakterindən, şərti hal kimi sözün mənasını başqa dilə nisbətən müqayisədə qeyri, differensial adlandıra bilərik. Söhbət ondan gedir ki, hər hansı dilin geniş, «qeyri differensial» anlayışla ifadə olunan bir sözünə, yəni daha geniş denotat sinfini işarə edən, başqa dildə bir yaxud bir neçə söz uyğun gələ bilər. Onlardan hər biri, birinci dillə müqayisədə daha dar, differensial anlayışı ifadə edir, yəni nisbətən məhdud denotatlar sinfinə uyğundur. Beləliklə, azərbaycan dilində əl sözünə, ingilis dilində iki söz – arm və hand uyğun gəlir. Bu sözlərin hər biri daha dar mənalıdır: arm – çiyindən biləyə qədər olan yuxarı ətraf hissəsini, hand isə – biləyi ifadə edir, azərbaycan sözü əl isə insanın çiynindən barmaqlarının ucuna qədər olan yuxarı ətrafı ifadə edir. Uyğun olaraq azərbaycan dilində ayaq sözü, bütün aşağı ətrafı ifadə edir, bu isə iki ingilis sözünə uyğun gəlir: leg «ayaq», dabanı daxil etməməklə və foot «pəncə». Azərbaycan sözü barmaq insan bədəninin bir əzası mənasında, üç ingilis sözünə uyğun gəlir: finger «əldə olan barmaq», thumb «əldəki baş barmaq» və toe «insanın və heyvanın ayağındakı barmaq».

Analoji olaraq daha çox nümunə göstərmək olar; məsələn,

Saat	*Watch (qol və cib)*
	Clock (stolüstü, divar və güllə)
adyal	*blanket (yun və pambıq)*
	quilt (sırınmış)
üfüq	*dawn (sübh)*
	evening glow, sunset (axşam)
velosiped	*bicycle (ikitəkərli), tricycle (üçtəkərli)*
yeməkxana	*dininq-room (ümumi yeməkxana)*
	mess-room (əsgər yeməkxanası)
canteen (zavod yaxud müəssisə nəzdində yeməkxana)	
refectory	*(məktəb yaxud universitet nəzdində yeməkxana)*
sıyıq	*porridge (kövrək), gruel (duru)*
rahat	*comfortable (geyim, ayaqqabı, mebel və sairə haqqında)*
convenient (vaxt, yer, siah haqqında)	
çəkinmək	*abstain (yeməkdən, içməkdən, səs verməkdən)*
	refrain (hər hansı hərəkətdən, addımdan)

Ədəbiyyat

1. Ağayev Z.A. Azərbaycan-Amerika ədəbi əlaqələri. B., 1994.
2. “Encyclopedia of Translation Studies”. Mona Baker, 1998.
3. Komissarov B.N., Koralova A.L. “A Manual of translation from English into Russian”. “Высшая школа”, M., 1990.
4. Бархударов Л.С. “Язык и перевод”. М., 1975.
5. Гальперин. “Большой Англо-Русский Словарь”. М., 1972.
6. Левицкая Т.Р., Фитерман А.М. “Пособие по переводу с английского языка на русский”.
7. Комиссаров В.Н. “Теория перевода”. М., 1990.
8. Фёдоров А.В. “Основы обшей теории перевода”, Высшая школа, М., 1968.

K.Qocayeva

Transferring referensial meaning

Summary

The existence of lexical, syntactic, semantic, pragmatic and the world perspective imbalance between languages hinders and in some cases impairs the act of accurate transferring. We make conclusion that no two cultures see an identical object in the same way. All differences have to be taken account.

К.Годжаева

Семантические трансформации на референциальном подуровне

Резюме

В понятие семантической интерпретации мыслительного содержания включается следующие аспекты, избирательность по отношению к явлениям внеязыкового мира, отражаемым в сознании людей, сочетания денотативных и коннотативных элементов значений. Семантические трансформации на референциальном подуровне нередко восходят к расхождениям в структуре семантических полей.

Rəyçi: N. Nəbiyev
filologiya elmləri namizədi

RUQİYYƏ SƏFƏROVA
ADİU

FELİ SÖZBİRLƏŞMƏLƏRİN LEKSİK-SEMANTİK TƏHLİLİ

Açar sözlər: komponent, frazeoloji, semantika
Key words: component, phraseology, semantic
Ключевые слова: компонент, фразеология, семантика

Belə ki, dilçilikdə söz birləşmərinin iki bölgü üzrə təsnifi verilir: a) əsas aparıcı sözə görə; b) quruluşuna görə.

Əsas sözün hansı nitq hissəsinə aid olmasından asılı olaraq, söz birləşməsi ingilis dilində aşağıdakı növlərə bölünür:

1. İsmi birləşmə
2. Zərf birləşməsi
3. Feli birləşmə

Bu bölgüyə baxmayaraq, İngilis dilində bir çox dillərdə olduğu kimi ismi və feli birləşmələrinə daha çox rast gəlinir.

Mövzu «İngilis dilində «v+v», «v+n» modelli feli söz birləşmərinin leksik-semantik təhlili»nə həsr olunduğundan araşdırma məhz feli birləşmələrin tədqiqini tələb edir.

«verb+verb» tipli frazeoloji birləşmələrin leksik-semantik təhlilini aparmaq üçün bədi ədəbiyyatlardan seçilmiş feli frazeoloji birləşmələrə nəzər yetirək.

«It's surprising how many people you can get to know in two weeks».

«Bu təəccüblüdür ki, sən 2 həftə ərzində bu qədər adamla tanış ola bilmisən».

Bu cümlədə «to get to know» frazeoloji birləşməsi istifadə olunub. «Verb+verb» tipli feli birləşmədir. Birinci komponent olan «to get» felinin leksik mənası «almaq, əldə etmək, çatmaq, nail olmaq, götürmək, durmaq, dayanmaq»dır. «to know» felinin leksik mənası «bilmək, bacarmaq, tanış olmaq, tanımaq, fərqləndirmək»dir. «get to know» frazeoloji birləşmənin leksik-semantik mənası «tanış olmaq, öyrənmək»dir.

«It was a pity to let the opportunity go by without some cause for mirth; but the grosser appetite prevailed, and I religuished my jest with regret, and sallied from the wood». «Şənliyə səbəb olmadan imkanı əldən vermək çox təəssüflüdür, lakin böyük iştah üstün gəldi, mən təəssüflə jest atdım və meşədən basqın etdim».

Bu cümlədə «to let the opportunity go by» frazeoloji birləşməsi işlənib. Tərkibinə görə üç komponentli frazeoloji birləşmədir. Birinci komponent «to let» felidir, leksik mənası «icazə vermək, izn vermək, buraxmaq, kirayə vermək, icarəyə vermək»dir. «opportunity» komponentinin leksik mənası «imkan, əla təsadüf»dür. «to go» felinin leksik mənası «getmək, sürmək, minmək, çıxıb getmək, yox olmaq, gözdən itmək»dir. «to let the opportunity go by» frazeoloji birləşməsinin semantik leksik mənası «imkanı əldən verməmək, imkanı buraxmamaq» dır.

«I was weary of dipping the paddle. I was weary of living on the skirts of life; I wished to be in the thick of it once more; I wished to get to work; I wished to meet, people who understood my own speech, and could meet with me on equal terms, as a man, and no longer as a curiosity».

«Mən avar çəkməkdən əldən düşmüşdüm, mən həyatın dibində yaşamaqdan yorulmuşdum, mən bir daha onun lap içində olmaq istədim, mən işləmək istədim, mənim öz nitqimi anlaya bilən insanlarla görüşmək, mənimlə bərabər şərtlərdə maraq üçün deyil, bir insan kimi görüşmək istəyənlərlə tanış olmaq istədim».

Bu fraqmentdə «to get to work» frazeoloji birləşməsi işlənib. «to get» felinin leksik mənası «almaq, əldə etmək, çatmaq, nail olmaq, götürmək, durmaq, dayanmaq»dır. «to work» felinin leksik mənası «işləmək»dir. «to get to know» felinin leksik mənası «işləmək»dir.

«You'll wonder why I asked you to come and see me. I didn't answer. I waited for her to go on».

«Sənin mənə baş çəkməyini xahiş etməyim sənə maraqlı olacaq. Mən cavab vermədim. Onun davam etməyini gözlədim».

Bu fraqmentdə «to come and see» frazeoloji birləşməsi işlənib. «to come» felinin leksik mənası «gəlmək, gəlib çıxmaq, olmaq, əmələ gəlmək, təşəkkül tapmaq, üz vermək, baş vermək, bürümək, örtmək, ibarət olmaq, yaranmaq, üstünə çıxmaq, toqquşmaq»dır, «to see» felinin leksik mənası «görmək, baxmaq, göz yetirmək, göz qoymaq, qayğısına qalmaq, canı yanmaq, əslinə çatmaq, başa düşmək», «and» sözü köməkçi komponentdir. «to come and see» frazeoloji birləşmənin semantik-leksik mənası «baş çəkmək»dir.

«to come and see» frazeoloji birləşməsinə ekvivalent kimi «to go and see» birləşməsini göstərmək olar:

« I wrote and told him how much I admired his books and he asked me to go and see him»..

«Mən yazdım və kitablarından heyran olduğumu ona söylədim və ona baş çəkməyimi xahiş etdi». «to go» felinin leksik mənası «getmək, sürmək, minmək, çıxıb getmək, yox olmaq, itib getmək, gözdən itmək»dir. «to see» felinin leksik mənası «görmək, baxmaq, göz yetirmək, göz qoymaq, qayğısına qalmaq, canı yanmaq, başa düşmək»dir. «to go and see» frazeoloji birləşməsinin leksik-semantik mənası eynilə «to come and see» frazeoloji birləşmənin kəsb etdiyi «baş çəkmək» mənasını ifadə edir. «I never let anything slipshod get past me – I think I can tell a good story and I can create characters that ring true». Bu cümlədə «to let smth. get past smb» frazeoloji ifadəsi istifadə olunub. «to let» felinin leksik mənası «icazə vermək, buraxmaq, kirayə vermək, icarəyə vermək»dir, «to get» felinin leksik mənası «əldə etmək, almaq, çatmaq, nail olmaq, götürmək, durmaq, dayanmaq»dır. «past» komponenti «sonra, yanından, yandan, üstündən, üzərindən, artıq» mənalı sözönüdür. «to let smth get past smb» ifadəsinin leksik mənası «nəyisə ötürmək, buraxmaq». *«Now, I don't get lost easily. I have the bump of location. I usually now, where I am at. What's wrong now? «Mən yolumu asanlıqla azmamışam. Mənim məkanı təyin edən cihazım var. Adətən harada olduğumu bilirəm. İndi nə elə deyil?»*Bu parçada «to get lost» frazeoloji birləşməsi işlənib. Birləşmənin birinci komponenti olan «to get» felinin leksik mənası «əldə etmək, almaq, çatmaq, nail olmaq, götürmək, durmaq, dayanmaq»dır. İkinci komponent rolunda «lost» feli durur. «lost» feli «lose» qaydasız felinin III formasıdır (Participle 2) və leksik mənası «itirmək, buraxmaq»dır. «to get lost» frazeoloji birləşməsinin leksik-semantik mənası «yolunu azmaq, itirmək»dir.

«Arrived in Oakland, with his snug pay day in his pocket, he took up his old room at Bernard Higginboyhams and set to work.»

«Cibində kifayət qədər olan ödənclə Oaklanda qayıtdı və Higinbosamda öz köhnə otağını tutdu və işə başladı.»

Bu cümlədə «to set to work» frazeoloji birləşməsi işlənib. Birləşmənin birinci komponenti kimi «to set» feli çıxış edir, leksik mənası «qoymaq, başlamaq, müəyyən vəziyyətə gətirmək, təyin etmək, işə hazırlamaq, fikri cəmləmək, oturmaq, möhkəmləndirmək»dir. «to work» komponentinin leksik mənası «işləmək, fəaliyyət göstərmək»dir». «to set to work» frazeoloji birləşməsinin ifadə etdiyi leksik-semantik məna «işə başlamaq»dır.

«Cowperwood, sir, stood to earn twenty thousand a year as president and he owed much of it to his son.»

«Kopervud, sir, prezident kimi də iyirmi min qazanmaq imkanı vardı və onun çoxsunu oğluna borclu idi.»

Bu cümlədə «to stay to earn» frazeoloji birləşməsi işlənib. Birləşmənin birinci komponenti kimi «to stay» feli çıxış edir və onun leksik mənası «qalmaq, dayanmaq, yaşamaq, qonaq olmaq, əyləndirmək, qabağını almaq, yubatmaq, davam gətirmək, dözmək, möhkəm durmaq, söndürmək, yatırtmaq, öldürmək»dir. «to earn» komponentinin leksik mənası «qazanmaq, layiq olmaq»dır. «to stay to earn» frazeoloji birləşməsinin leksik-semantik mənası «pul qazanmağa şansı və ya imkanı olmaq»dır.İngilis dilinin frazeologiyasında ən çox rast gəlinən frazeoloji birləşmə tipi «verb+noun» birləşmələridir ki, bu tipə nümunə olaraq faktik materiallar əsasında seçilmiş aşağıda verilənləri misal göstərmək olar.

«When at last i tore open the envelope what i read gave me a strange feeling..... I looked at the address, it was the Albemarle, evidiently a hotel or an appartment house, then there was the name of a street , and Yonkers. A shiver past through me as though someone had walked over my grave.»

«Nəhayət zərfi cırıb açdım, oxuduğum mənə qəribə hiss verdi. Ünvana baxdım, bu Albemarl idi. Otel və ya appartman ev idi, sonra orada küçənin adı-Yankers var idi.Bədənimdən üşütmə keçdi, elə bil gorumu söydülər.

Bu fraqmentdə «to walk over one's grave» frazeoloji birləşməsi istifadə olunub. «to walk» komponentinin leksik mənası piyadə gəzmək, «grave» sözünün leksik mənası məzar, qəbir başdaşı qəbirüstü abidədir. «to walk over ones grave» leksik-semantik mənası «kimin isə gorunu, ölüsünü söyməkdir». «gorunu söymək «ifadəsi o zaman istifadə olunur ki, əgər bir kəs özünü təhqir edilmiş hiss edərsə və ya xoşagəlməz hadisə xatırlanarsa işlənə bilər.

«The oven is heating; it`s not good to stay here and be baked, and for my part, I want to come to my hands with them, and be done. «

«There is nothing else left «, I replied».

«Soba qaynayır, burada qalıb bişmək yaxşı deyil, məndən olsa mən onunla əllə güləşmək və uduzmaq istərdim» daha başqa heç nə qalmır,mən cavab verdim»

Bu parçada «to come to ones hands» frazeoloji birləşməsi işlənib. Birləşmənin birinci komponenti olan «to come» felinin leksik mənası «gəlmək, gəlib çıxmaq, edilmək, əmələ gəlmək təşəkkül tapmaq» və s. «hand» komponentinin leksik mənası «əl, işçi, icraçı, xətt, mil»dir. «to come to ones hands» frazeoloji birləşmənin lek-

sik semantik mənası «əllə güləşmək əlbəyaxa olmaq». «to come to ones hands»frazeoloji birləşməsi «to come to hands» formasında da işlənir.

«I blushed to the roots of my hair. I could hardly utter the shameful words.

«Mən təpədən dırnağa qədər qızarmışdım. Mən çətinliklə o biabırçı sözləri tələffüz elədim». Bu cümlədə «to blush to the roots of one's hair» frazeoloji birləşməsi istifadə olunub. «to blush» felinin leksik mənası «qızarmaq», «root» sözünün leksik mənası «kök, səbəb», «hair» sözünün isə «saç, tük, yun»dur. «Blush a the roots of aus hair» frazeoloji birləşməsinin leksik-semantik mənası «təpədən dırnağa qədər qızarmaq» utandığından və pərtçilikdən qızarmaq mənasını bildirir. Bu cümlədə «utandığından qızarmaq» mənasını ifadə edir.

«Driffield wouldn't hear of it, but Driffield gave me a funny amused little look, which made me think that he saw through my excuse so that I blushed scarlet». *«Drifield onu eşitmədi, lakin Drifild məzəli, əyləncəli baxış atdı, hansı ki, bəhanəmin niyyətini bildiyini düşünməyə vadar etdi, belə ki, mən pul kimi qızardım».*

«to blush scarlet» ifadəsi yuxarıda qeyd etdiyimiz «to blush to the roots of ones hair» birləşməsinə sinonim hesab etmək olar. «to blush scarlet» birləşməsinin leksik-semantik mənası «pul kimi qızarmaq»dır. Tərcümədən də bu mənanı ala bilərik. «to blush» felinin leksik mənası «qızarmaq», «scarlet» sözünün isə leksik mənası «al qırmızı rəng» mənasını verir.

«You do see a bit of whats going on and if you play your cards right you ought to marry well».

«Sən nə baş verdiyini bir az görürsən, əgər düz addım atsan gərək ki, yaxşı evlənəsən». Bu cümlədə «to play ones cards right» frazeoloji birləşməsi istifadə olunub. «to play» felinin leksik mənası «oynamaq, əylənmək, ifa eləmək, hərəkət, eləmək, davranmaq, sızılmək, axıb getmək, bərq vurmaq» və s. mənalarını verir. «card» sözünün mənası «bilet, kart, insan, tip»dir. «right» isə «düz, ədalətli, sağ, uyğun» mənanı ifadə edir. «to play ones cards right» birləşməsi cümlə daxilində «düzgün addım atmaq, işin səmtini düz tutmaq, ağıl işlətmək» kimi leksik-semantik məna kəsb edir. *«I meant to have a shot for the hystory prize in the summer and I was going to swot up my English hystory during the holidays».*

Mən yayda tarix üzrə mükafat üçün təşəbbüs göstərməyi nəzərdə tuturdum və tətil müddətində ingilis tarixini təkrarlamağa hazırlaşacam.

«to have a shot for smth» birləşməsi istifadə olunub. «to have» felinin leksik mənası «olmaq, malik olmaq»dır. «shot» komponentinin isə birləşmə xaric leksik mənası «atəş, atıcı, qumbara, təşəbbüs, güllə, kadr»dır. «to have a shot for smth» frazeoloji birləşməsinin isə semantik leksik mənası «bir şeyi etməyə cəhd göstərmək, təşəbbüs göstərmək»dir.

«I'm sixty-two years old, Chester, Bronco said, and I got a dirty mind. You think its because I'm armed shoes all the time. All I Think about, Bronco said, sadly is love, love, love. It's disgusting. For all I know, they're nice young clean-minded people, but I've different thoughts.» «Mənim 62 yaşın var Çester, Bronke dedi və mənim çirkin fikirlərim var. Sən elə düşünürsən ki, bu ona görədir ki, bütün vaxtı ayaqqabıların ətrafındayam. Mənim düşündüyüm Bronka kədərli dedi: sevgidir. Bu nifrətedicidir. Mənim bildiyimə görə onlar təmiz fikirli insanlardır, lakin mənim başqa fikrim var.» Bu cümlədə işlənən «to get a dirty mind» ifadəsi frazeoloji

birləşmədir. «to get» komponentinin ayrılıqda ifadə etdiyi leksik mənası «əldə etmək, almaq, çatmaq, nail olmaq, götürmək, durmaq, dayanmaq»dır. «dirty» komponentinin leksik mənası «çirkli, murdar», «mind» komponentinin isə «yaddaş baxım, ağıl, rəy, fikir»dir. «to get a dirty mind» və yaxud «to have a dirty mind» frazeoloji birləşməsi məcazi çalar alır və leksik-semantik mənası «çirkin fikirli olmaq»dır.

Ədəbiyyat

1. Musayev O. Ingilis dilinin qrammatikası. B., «Maarif», 1979.
2. Seyidov Y.M. Azərbaycan ədəbi dilində söz birləşmələri. 1966.
3. Ilyish S.A. The structure of Modern English. Leningrad, 1981.
4. Jespersen O.A. Modern English. Grammar. 1971.
5. Smith L.P. Words & Idioms. London, 1948.
6. Амосова Н.М. Основы английской фразеологии. Из-во Ленинградского Университета. М.Л., 1963.
7. Виноградов В.В. Из истории изучения русского синтаксиса. М., 1958.
8. Кунин А.В. Курс фразеологии совершенного английского языка. Из-во «Высшая школа», 1986.
9. Смит Л.П. Фразеология английского языка. М., 1959.
10. Смирницкий А.Л. Лексикология английского языка. Из-во Литература на иностранных языка. М., 1956.

R. Safarova

lexical and semantical analyses of verbal phrases

Summary

The article deals with the lexical and semantical analyses of verbal phrases. Here is given the classification of word combinations. Lexical meaning refers the mind to some concrete concept, phenomenon or thing of objective reality, whether real or imaginary.

Р.Сафарова

Лексико-грамматический анализ

Резюме

Многие грамматические проблемы не являются чисто грамматическими, а тесно связанны с лексическими. Поэтому правильнее считать их лексико-грамматическими.

Rəyçi: N.Nəbiyev
filologiya elmləri namizədi

SEVINC BAĞIROVA
ADİU

ÜSLUBİ SİNONİMİYADA ARXAİZM VƏ DİALEKTİZMLƏRİN YERİ

Açar sözlər: diapazon, klimat, sinonim, dialekt
Key words: diapozon, climate, synonym, dialect
Ключевые слова: диапазон, климат, синоним, диалект

Müxtəlifsistemli dillər olan ingilis və Azərbaycan dillərində sinonimlərin üslubi xüsusiyyətlərinə diqqətlə nəzər salsaq görərik ki, sinonimlərdən istifadə etmə hər iki dildə bir qədər bir-birindən fərqlənir. İngilis dili sözləri əsasən təkhecalıdır və bu dildə həm çox mənalı sözlər, həm də sinonimlər çoxdur. Və bu dildə sinonim cərgəyə daxil olan söz ən azı bir fərqləndirici əlamətə görə fərqlənir və buna görə də kontekst daxilində çox nadir hallarda həmin sinonim sözlər bir-birinin ardınca düzülür. Ancaq həmin sinonim cərgəyə daxil olan söz kontekst daxilində fikri daha dəqiq ifadə edir, təbii olaraq özünün semantik çalarlığı, fərqləndirici əlamətinə görə.

Məsələn ingilis dilində bir sinonim cərgəyə daxil olan sözlərin mənalarına diqqət yetirsək heç də пis olmazdı: *Ability, capacity, capability, power* bu sinonim cərgəyə daxil olan sözlərin hər birinin sözlərə qoşularaq hansı anlamları verə biləcəyini nəzərdən keçirək sonra isə onların kontekstdə işlədilməsini əyani şəkildə cümlə nümunələri ilə illustrativ şəkildə göstərək.

Ability – a man of ability, ability for music, ability to do something, a child's ability to learn, the ability to work, the ability to pay, the ability to weep.

Onlardan bəzilərini cümlə nümunəsində verək.

But dear, the truth is you have no ability for music…

In recent years various experiments have been carried out on the nervous systems of plants and their ability to respond to the emotions of human beings in the near vicinity.

Həmin sinonim cərgəyə daxil olan capacity sözünün hansı semantik çalarlığa malik olması və ifadəliliyni aşağıdakı kimi qeyd etmək mümkündür.

Capacity – he has a mind of great capacity, the capacity to do something, a child's mental capacity for learning, a capacity for friendship, a capacity for that sort of thing.

Cümlə nümunələrinə diqqət yetirsək пis olmaz.

They disliked him because his capacity was greather than theirs (Maugham).

The increasing interest in and knowledge of nutrition has made us know that a certain amount of iron, for example, is needed everyday. O.K. so we make sure we get enough eggfolk, liver etc. Also involved is a person's metabolism (rate of consumption of food) and another process of which we seldom hear – a persons "iron-building" capacity.

Burada bəzi məqamları qeyd etmək yerinə düşərdi. Ability to work-ün mənası o deməkdir ki, o şəxs işləyə bilər – çünki o güclü və yaxşı hazırlıqlıdır, ancaq the capacity for work onun lazım olanda nə qədər çətin olsa belə işləməyə hazır olmasını, the ability to weep – bir kəsin hönkürtü ilə ağlamağı bacarması (onun

badamcıq vəzləri normaldır), lakin the capacity for tears – xüsusi hissiyat olmasını ifadə edir.

Capability - insanın keyfiyyətini çox nadir hallarda power of action, the capability of the car to distinguish pitches, to test the capability of the car.

Power – he is a man of varied powers: he was a person of great powers.

I was very mush impressed by his power of concentration (Maugham).

The mocking laughter of so many years ago lost its power (Murdock).

Sinonimlərin üslubi xüsusiyyətlərindən danışarkən ilk əvvəl onu qeyd etmək lazımdır ki, leksi-semantik səviyyədə sinonim olmayan sözlər müəyyən mətn daxilində üslubi sinonim kimi çıxış edir.

Məsələn, bu fikirlərlə səsləşən üslubi sinonimlərə aid ingilis dilində olan bir sinonim cərgə brave, courageous, bold, audacious, daring, gallant, intredid, dauntless, valiant, valorous (sifətləri) və Azərbaycan dilində olan ər və qəhrəman sözlərinin -lar, -lər şəkilçiləri ilə işlədildikdə sinonimləşir və biz onlar arasında olan üslubi xüsusiyyətləri nəzərdən keçirsək ıis olmazdı.

Yuxarıda sadaladığımız sinonim cərgədə olan sifətlər bir kəsin qorxulu, çətin və yaxud naməlum bir hadisə ilə üzləşərkən qorxu hiss etməmək keyfiyyətini əks etdirən məna çalarlarına görə müqayisəli şəkildə bir qrupda birləşə bilirlər, lakin, onlar arasında elə incə məqamlar, semantik çalarlıqlar vardır ki, yalnız onu kontekst daxilində S.Cəfərovun dediyi kimi dəqiq ifadəsini tarımaq mümkündür desək, heç də yanılmarıq.

Biz əvvəlcə həmin sözlərin müxtəlif sözlərlə birləşməsini və funksiyasını nəzərdən keçirək, sonra isə cümlə səviyyəsində onlardan bəzilərini nəzəri-diqqətə yetirək.

brave – a brave boy; a brave man; a brave act; brave crew; a brave soldier; be brave, the dentist won't hurt you; as brave as a lion; It was brave of him to enter the burning building.

So were the brave lads who faught against the Impressionists in 1870.

They were all of them sick with horror and with pity imagining the lonely and brave struggle that must be going on.

courageous – It was courageous of him; to be courageous is more than to be brave, a courageous rescue; a courageous example.

wright found a courageous publisher, and by 1795 the first copies of the slender and explosive volume had some from the

bold – a bold man; a bold thinker, bold plan; bold experiments; bold deed; a bold speech a bold scheme

John ought to have been bold enough to instruct Jessica (Maugham).

The effrontery was so bold, the assurance so complete, than nobody say a thing.

audacious – to be audacious; an audacious man; an audacious explorer was the plan of hiding in the chest. Arnold's own idea? He may have thaught it was – probably he did think so. And so the scene is set. The stilerto quielty abstarcted some weeks earlier is ready. The evening comes, The lights are low, the gramophone is playing, two couples dance, the odd man out is busy at the record cabinet, close to the Spanish chest and its masking screen. To slip behind the screen, lift the lid and strike – audacious but quite easy. (A.Christie)

Daring – qorxmazlıq ifadə edir, A daring pilot – hər hansı bir qorxulu və riskli hərəkəti yerinə yetirməyə hazır olan (a daring promise, a daring Gallant – cəsarət ifaəd edir – təhlükə və ağırlıq, çətinliyə məhəl qoymadan həmişə şənliklə hər bir işi qarşılayın (a gallant man; a gallant fight for life).

They had been gallant young regimental officers – line cavalry probably – in 1914 and had commanded brigades at the end of that war.

Intrepid – təhlükə və qorxu zamanı özünə nəzarət edə bilmək, soyuqqanlıqla, (an intrepid soldier; and intrepid explorer: an intrepid woman; the intrepid guardians of peace; an intrepid attitude)

I glanced at the paper, but there was little news in it beyond the fact that Michael Seton's death was now definitely confirmed. The intrepid aimand had perished (A.Christie)

dauntless – çətinlik və qorxu bilməyən, qorxmaz a dauntless person cannot be frightened or made afraid; or discouraged; or subdued (a dauntless soldier; the dauntless infantry; a dauntless captain; a dauntless spirit).

He had been dauntless a minute before in the face of his enemies (A.Christie)

valiant – qoçaq, igid, bu həm insanlara həm də onların hərəkətin aid edilə bilər. (The valiant not only dare great dangers, but achieve great resulst; these valiant people; valiant deeds; to be valiant).

valorous - şanlı, rəşadətli, cəsur, qəhrəman (the valorous deeds of a valiant band of knights; the valorous days of 1945)

Əlbəttə bu sinonim cərgəyə daxil olan sözlərin hər birinin başqa sözlərdə birləşmə qabiliyyəti və üslubi çalarlığı vardır. Məhz sonuncu sözdən başlamaq daha yaxşı olardı. The valorous days of 1945.

Bu kontekstdə əvvəlki sözlərin heç biri ifadə olunacaq ideyanı, fikri tam dolğunluğu ilə verə bilməz. Məhz ona görə də biz əvvəldə qeyd etdiyimiz kimi sinonim cərgəyə daxil olan sözlərin heç biri yüzdə-yüz faiz çalarlığına görə üst-üstə düşə bilməz, yalnız kontekstdən asılı olaraq onların hər biri digərini ümumi anlamda hardasa əvəzləyə bilsə də gətirdiyimiz cümlə nümunələrindən göründüyü kimi, bütün çalarlıqda biri başqasının mənasını ifadə etmək qüdrətində deyildir.

İngilis dilində başqa bir sinonim cərgənin təhlilinə diqqət yetirək. Bəri başdan qeyd edək ki, bu sinonim cərgə də özünəməxsus məna çalarlığına malikdir.

Cold, cool, chilly, chill, frosty, freezing, icy, artic – bunların lüğəvi mənası – aşağı və yaxud nisbi aşağı temпeratura, soyuq, sərin-soyuq, təmiz şaxtalı, buzlu, çox soyuq, buz kimi soyuq.

Bu sinonim cərgədə əvvəlkindən fərqli olaraq sözlər aşağıdakı semantik əlamətlərinə görə bir-birindən fərqlənirlər:

1) ifadə olunan keyfiyyətin (əlamətin) səciyyəsinə (xarakterinə) görə;

2) intensifliyə görə;

3) subyektdə yaratdığı hissələrə görə.

Cold sözü daha geniş dianazona malikdir. Bir tərifdən hərarətin (temпeraturanın) sıfırdan aşağı olması və yaxud sıfra yaxın olması qəfildən qeyri-qənaətbəxş hisslər yaradır: it was bitter cold outside – bayırda möhkəm (bərk) soyuqdan, the rain was lashing and the wind was cold – yağış tökürdü və soyuq külək əsirdi; the weather had become bitter cold – hava olduqca soyuq oldu; the water in the river was so cold you couldn't bathe – çayda su o qədər soyuq idi ki, çimmək qeyri-mümkün idi, çimmək

olmazdı. Digər tərəfdən cold sıfırdan yuxarı olan temпeraturu ifadə edə bilər və insan bədəninin hərarətindən aşağı olar və bu zaman xoşa gəlməyən assosiasiyadan olar: it is pleasant to have a cold drink on a hot day – belə isti gündə hər hansı belə soyuq içki içmək çox önəmlidir; it was pleasant to feel cold dew on the bare feet – ayaqyalın şehin üstündə getmək çox ürəyəyatandır.

Cool sözü cold-a nisbətən daha aşağı temпeraturu ifadə edir: it was a cool autumn day with a nasty drizzle - Bu zəhlətökən bir soyuq пayız günü idi. It was cool in the room without a fire - Soba yanmayan otaqda soyuq (isti deyildi) idi. Digər tərəfdən cool xoşa gələn xüsusiyyət, ən azı neytral, ən azı xoşa gəlməyən yox, xüsusilə təzə-tərlik, gümraşhlıq ifadə edə bilir: a cool evening after a hot day - isti gündən sonra sərin axşam; to sit in the shade - kölgədə oturmaq necə sərin və rahatdır. "…they entered the cool pleasant library…" (Dreiser) …onlar sərin və rahat kitabxanaya varid oldular; "He heard a wind come in cool through the screen!" (E.Hemingway) «O küləyin ağacları necə döyəcləyərək səs salmasını eşitdi, və пəncərənin setkasından (torundan) otağa girən sərinliyi hiss etdi.

chilly - xoşagəlməyən, təsiredici soyuğu, yağış gətirən soyuğu ifadə edir: a chilly room - çox soyuq otaq

chill - olduqca soyuq, nəmişlik, buz kimi soyuq ifadə edir: chill rainy weather – yağmurlu-nəmişli hava; The chill air of the night seemed to lie on my limbs as heavy as a slab of marble (Hemingway). Gecənin nəmişliyi mənim bədənimə mərmər dəşəməsi kimi təzyiq edən kimi oldu.

Digər başqa sinonimlər isə birincilərdən temпeraturun sıfırdan aşağı kifayət dərəcədə olmasını ifadə etmələri xüsusiyyətinə görə fərqlənirlər.

Frosty - şaxtalı: a frsty might - şaxtalı gecə; "There was not the faintest whisper of air – nothing moved, not a leaf quivered, the visible breaths of the dogs rising slowly and lingering in the frosty air" (J.London). Heç bir hərəkət yox idi, bir yarпaq belə tərпənmirdi; İtlərin nəfəs almalarından пar qalxdığı və şaxtalı havada donduğu aydın görünürdü.

Frosty, sözü də cool sözü kimi bəzən xoşagələn anlam keyfiyyətində təqdim olunur, insana gümrahlıq verir və onu hərəkətə gətirən qüvvəyə çevrilir.

"Matthew Brodie… entered the cold exhilarating darkness of the frosty February night…" (A.Cronin) – Metyu Brondi soyuq gümrahlandırıcı qaranlıq fevral gecəsinə daxil oldu.

Frigid – daha aşağı hərarəti ifadə edir, buna dözmək çox çətindir: a frigid winter – sərt qış; a frigid wind – dondurucu külək; frigid bir çox hallarda iqlimin daimi xüsusiyyətini fadə edir; frigid climate – sərt iqlim; frigid zone - qütb zonası (şimal).

Freezing – çox aşağı temпeratorun olmasını ifadə edir, bu zaman soyuq o qədər güclü ola bilər ki, insan həyatına, bitkilərin həyatına son qoya bilər dondurar. "…shivered from his standing in the freezing air…" (A.Cronin). O şaxtalı havada o qədər dayanmışdı ki, soyuqdan titrəyirdi; a freezing wind killed the early ripening vegetable – dondurucu külək erkən tərəvəzi məhv etdi

an icy wind – buzdlu (soyuq) külək, icy water – buzlu su

an arctic wind – buzlu (çox soyuq) külək;

Bütün bunlarla yanaşı biz burada bəzi məqamlara da diqqət yetirməyi özümüzə borc bilirik. Biz burada təxminən bu sinonim cərgəyə daxil olan sözlərin lüğəvi mənalarını izah etməyə çalışdıq.

Ədəbiyyat

13. Abbasov N. Eyni kökdü sinonimlər və üslubi səciyyələndirmə. Üslubiyyat məsələləri. BDU, 1990.
14. Adilov M.I., Z.N.Verdiyeva, F.M.Ağayeva. Izahlı dilçilik lüğəti. Bakı, 1989.
15. Cəfərov S. Müasir Azərbaycan dilinin leksikası. B., 1958.
16. Англо-русский синонимический словарь. М., 1979.
17. Виноградов В.В. Итоги обсуждения вопросов стилистики. ВЯ, 1955.
18. Галкина-Федорук. Современной русский язык. М., 1954, 768 стр.
19. Antrushina Q.B. English Lexicology. M., 1985.
20. Arnold I.V. The English word. M., 1986.
21. Galperin I.R. Stylistics. M., 1977.

S.Bagirova

Archaic words in synonyms

Summary

Archaic words are primarily and predominantly used in the creation of a realistic background to historical works. One must be well aware of the subtleties in the usage of archaisms. There is sometimes a difficulty in distinguishing dialectal words from collaquial words.

С.Багирова

Архаические слова в синоними

Резюме

Одной из задач современной лексикологии является изучение лексического состава языка с точки зрения выявления системных отношении и взаимных связей между словами как значимыми единицами языка. Возможный путь такого изучения-сопоставление семантики синонимичных слов, в результате которого можно сделать вывод о сходстве и различиях их семантических структур и соответственно об особенностях функционирования данных синонимов в языке.

Rəyçi: X.Hacıyeva
filologiya elmləri namizədi

TƏRANƏ İSMAYILOVA
ADİU

REALİLƏR HAQQINDA ÜMUMI MƏLUMAT

Açar sözlər: morfoloji, fonetik, termin
Key words: morphology, phonetic, term
Ключевые слова: морфология, фонетик, термин

Hər bir dildə milli koloritlə bağlı olan bir dildən başqa dilə tərcümə zamanı çətinlik törədən külli miqdarda söz və ifadələr vardır. Bu sözlər başqa dilə adi vasitələr ilə çevrilir və tərcüməçidən xüsusi yanaşma üsulu tələb edirlər. Onların bəziləri tərcümə olunduqları mətnə dəyişdirilmədən keçir (transkripsiya olunurlar) başqaları ilə özünün morfoloji və fonetik strukturunu qismən saxlayırlar, üçüncüləri isə qeyri-bərabər ilk baxışda "düzəldilmiş" leksik vahidlərlə əvəz edirlər. Bu sözlər arasında məişət elementləri, tarix və mədəniyyətə aid sözlər olur. Bu kimi sözlər həmin xalqa, ölkəyə, yerə aid olur və başqa xalqlarda və ölkələrdə həmin sözlər işlənmirlər. Bu qəbildən olan sözlər tərcüməşünaslıqda reali adlanırlar.

Realilərin terminlərə oxşarlığı nəzərə çarpır. Bir sıra başqa sözlərdən fərqli olaraq realilər təkmənalı, sinonimlərsiz sözlər olub müəyyən anlayış, əşya və hadisəni bildirir. Terminlər isə çox hallarda "xalqlar arası" leksikaya daxil olur və onlar arasında müəyyən tarixi dövr üçün məhdud olan sözlərə rast gəlinir. Bunu realilərə də aid etmək olar. Buna baxmayaraq terminlərlə realilər arasında ciddi fərqlər də vardır.

Terminlər - elmi leksikanın əsasıdır; onların fəaliyyət dairəsi ixtisasa və elmi ədəbiyyata aid olmasıdır; başqa sahələrdə, əsasən bədii əsərlərdə onlar müəyyən üslubi məqsəd üçün işlənir. Realilər isə əsasən bədii ədəbiyyatda işlənir, burada yerli və tarixi kolorit elementi olur. Bu münasibətlə S.Bloxov və S.Florin yazır ki, realilər müəyyən xalqa məxsusdur. Onu başqa dillər qonaq kimi qəbul edir və bəzən həmin dilin bir gün, ya bir il qonağı olur, bəzən isə elə olur ki, dildə həmişəlik qalır. Termindən isə biz "milli aidliyi" tələb edə bilmərik, o bütün bəşəriyyətin nailiyyətidir və ondan hamı istifadə edə bilər.

Realilər və onların mahiyyəti S.Bloxov tərəfindən izah olunmuşdur. O, qeyd edir ki, realilər xalq dilinin sözləridir. Onlar coğrafi mühit, mədəniyyət, məişətlə bağlı, yaxud xalqın, millətin, ölkənin, qəbilənin ictimai-tarixi xüsusiyyətləri üçün xarakterikdirlər və bu sözlərin başqa dillərdə dəqiq müqabili yoxdur.

Realilər dilçilik elminin hansı şöbəsinin tədqiqat obyektidir? Bu məsələ dilçilər arasında həmişə mübahisələr doğurmuşdur. Doğrudur, realilər elə söz qrupları, elə leksik vahidlərdir ki, başqa dillərdə paralellərini tapmaq, yaxud tərcümə etmək mümkün deyildir. Realilər sırf milli xarakterli, məişətlə bağlı əşyaların, mücərrəd varlıqların adını ümumiləşdirir, əks etdirir. Deməli, realiləri leksikologiyada öyrənmək zərurəti meydana çıxır. Bu qəbildən olan sözlərin başqa dildə verilməsi tərcüməçilərin qarşısında bir problem kimi durur. Tərcüməşünaslıqda bu barədə fikir birliyi yoxdur.

S.Bloxov və S.Florin realilərin bir dildən başqa dilə tərcüməsinin altı üsulunu qeyd edirlər: *1. Transkripsiya; 2. Kalka; 3. Yeni söz yaratmaq; 4. Xarici dil sözünü*

ana dili sözünə uyğunlaşdırma, başqa sözlə, mənimsəmə üsulu da adlanır; 5. Təxmini tərcümə; 6. Təsviri tərcümə.

Realiləri verilməsi üsullarının müxtəlif olması ilə yanaşı aşağıdakılar əsasdır: realini düzgün və dəqiq tərcümə etmək üçün tərcüməçi bu reali ilə göstərilən əşya və anlayış haqqında tam təsəvvürə malik olmalıdır. Bu münasibətlə X.Rza qeyd edir ki, milli özünəməxsus bir tərəfdən milli xarakterlərin dərinliyində, xəlqiliyində, digər tərəfdən isə orijinalın dilində işlənmiş realilərin vasitəsi üzə çıxır.

Realiləri bir sistem şəklində tədqiq etmək məqsədilə S.Bloxov və S.Florin bu söz sinfini dörd leksik-semantik qrupa bölür: *1) Coğrafi və etnoqrafik realilər; 2) Folklor və mifologiyaya aid realilər; 3) Məişət realiləri; 4) İctimai və tarixi realilər.*

Realilərin verilməsində irəli sürülən tərcümə prinsiplərindən ən düzgün və əlverişli hesab ediləni onların transkripsiya olunması, realinin olduğu kimi verilməsi və onun izahı üsuludur. Bu söz qruplarının Azərbaycan dilində transkripsiya vasitəsilə verilməsi bədii əsərlərə daha dəqiqlik və millilik gətirir ki, bu da orijinala sadiqlik kimi qiymətləndirilə bilər.

Tərcümədə çətinlik törədən məsələlərdən biri də onomastik vahidlərin obyekt dildə verilməsidir. Onomastika xüsusi ədları öyrənən dilçilik şöbəsidir. Bədii əsərin tərcüməsində onomastik vahidlərin transformasiyası diqqəti cəlb edən problemlərdən biridir. Onomastik vahidlər obyektiv dildə əsasən transliterasiya üsulu ilə verilir. Ölkə, şəhər, ayrı-ayrı şirkət, qəzet və jurnal adları onomastik realilərdir.

İngilis və azərbaycan dilləri arasında qrafik və fonetik fərqlər ingilis xüsusi adlarının tərcüməsində bir sıra çətinliklər yaradır. Buna baxmayaraq onları Azərbaycan dilində vermək üçün aşağıdakı üsullardan istifadə olunur:

1. Transliterasiya – qrafik formanı saxlamaqla məs, Newton - Nevton; Walpole – Valpol; Wallase – Vallas; (və yaxud Nyuton, Uolpol, Uolles).

2. Transkripsiya – məxəz dildə onların səs formasını yaratmaqla. Məs. New Castle – Nyukasl; Hull – Hul; Greenwich – Qrinviç.

İngilis dövrü mətbuatının adları transkipsiya olunur və artikllar buraxılır. Məs. The Daily Mail – Deyli Meyl, The Dail Teleqraph – Deyli Teleqraf; Modern Lanquaqez - Modern Lənquiciz və s.

Şirkətlərin, gəmilərin, küçələrin, meydanların adları adətən transkripsiya olunur. Məs. Columbia Broadcastinq System – Kolumbiya brodkastinq sistem, Qeneral Motors Corporation - Ceneral Motors Korporeyşn vəs.

Siyasi partiya və dövlət müəsisələrinin adları adətən tərcümə olunur. Məs. Liberal partiyası, War Office – Hərbi Nazirlik, House Of Commons – Ümumilər Palatası, Security Council - Təhlükəsizlik Şurası və s.

Coğrafi adlar iki yolla transformasiya olunur:

1. Kalka. Məsələn Cape of Qood Hope – Xoş ümid burnu, Lake Superior – Əla gölü

2. Transkripsiya. Məsələn Midway – Midvey, Newfoundland – Nyufaundlənd.

Yaşayış yerləri və çayların adları əksər vaxt transkripsiya olunur. Məsələn, Salt Lake City – Solt Leyk Siti, West Palm Beach – Uest Palm Biç.

Əgər ad iki hissədən ibarətdirsə və təyinisimlə ifadə olunursa, birinci element tərcümə olunur, ikinci isə transkripsiya edilir. Məsələn North Dakota – Şimali

Dakota, South Afrika - Cənubi Afrika vəs. Amma çox hallarda hər iki element transkripsiya olunur. Məsələn New Mexiko – Nyu Meksiko; Norht Walsham - Nort Uolşam və sairə.

Okean, dəniz və körfəzlərin adları adətən tərcümə olunmur lakin müstəsna hallar var. Məsələn Pacific Ocean – Sakit Okean, Audson Bay - Hudson körfəzi.

Tərcümə ilə bağlı elmi ədəbiyyatda realilər az da olsa tədqiq olunmuşdur.

1. Dilçilikdə reali termini latın mənşəli hesab olub (maddi, cismi, real) – «şey», «əşya» mənalarını verir.

2. Azərbaycan dilçiliyində bu termin reali (realilər) və realiya (realiyalar) formalarında işlədilir.Dil və mədəniyyətləri tutuşdurarkən uyğun gələn və gəlməyən elementlərin olduğunu görərik.Realilər – yalnız müəyyən xalqa aid olan maddi mədəniyyət əşyaları, tarixi faktlar, dövlət institutları, milli və folklor qəhramanların adları, mifoloji varlıqların adlarıdır. Bu hadisələri bildirən sözləri ekvivalenti olmayan leksikaya aid edirlər.Ekvivalenti olmayan sözlərə başqa mədəniyyətdə olmayan və bir qayda olaraq bir sözlə başqa dilə tərcümə olunmayan, aid olduğu dildə ekvivalenti olmayan anlayışların ifadə olunmasına xidmət edən sözlər aiddir. Realiləri tərcümə edərkən tərcüməçi onları geniş təsvir və ya öz yeni neologizmlərini təklif etməli olur. Bu tipli neologizmlərə aşağıdakıları misal göstərmək olar: Məsələn yeraltı dəmir yolu – elevated railroad; viktrola – Viktrola (müəyyən markalı proiqivatel); bukmeker – book – maker (at yarışlarında və qaçışlarda adamlardan girov yığan adam).

Vlaxov realiləri aşağıdakı kimi səciyyələndirir: Realilər xalq dili sözləri olub, coğrafi mühitə, mədəniyyətə, maddi məişət yaxud xalqa, millətə, ölkəyə, qəbiləyə aid əşya, anlayış və hadisələrin adlarıdır. Beləliklə, realilər yerli və tarixi koloritin daşıyıcılardır.

E.Allahverdiyeva realilərin məxəz dildə verilməsinin dörd üsulunu müəyyənləşdirir:

1. Realilərin fonetik tərkibinin tam saxlanması şərtilə obyekt dildə verilməsi.

2. Realilərin mətndə eynilə saxlanması ilə yanaşı onlara aid izahın mətndən kənarda, məsələn, səhifənin axırında, kitabın sonunda verilməsi;

3. Realilər mətndə eyni ilə saxlanılır və eyni zamanda mətndə də izah edilir;

4. Reali obyekt dildə mövcud olan yaxın mənalı sözlə əvəz olunur. Bu halda orijinalda realinin varlığı oxucuya mə'lum olur, tərcümədə verilmiş söz dildəki müstəqil mə'nasında başa düşülür.

Tərcümə ədəbiyyatında işlənib tərcümə olunmayan realilərin digər bir qrupunu da mifoloji anlayışlar təşkil edir. Məsələn,

Who can tell what anguished fancy made these fruts? They belonged to a polynesian garden of the Hesperides.

Hansı əzabkeş təxəyyül uydurmuşdu bunları? Yoxsa Polineziyadakı Hesperid bağında yetişmişdi bu meyvələr?

He seemed to partake of those obscure forces of nature which the Greeks personified in shopes part human and part beast, the satyr and the faun. I thought of Morsyas, whom the god floyed because he had dared to rival him in song.

Onda təbiətin qədim mövhumi qüvvələrindən - yunanların yarıminsan - yarımvəhşi şəklində uydurduqları satir və favnlardan nəsə vardı. Apallonu tütək yarışına çağırmağa cürət etmiş və buna görə də dərisi soyulmuş satir Marsi yadıma düşdü. She ceased to be a woman, complex, kind and petulant, considerate and thoughtless; she was a Maenad.

O daha əvvəlki müəmmalı, xeyirxah və hirsli, nəcib və sadəlövh qadın deyildi. O bir Mekada idi…

Burada Hesperid - yunan mifologiyasında qızıl almaları qoruyan mələklər, satir, favn və satir Marsi-əfsanəvi varlıqlar, mənada isə yunan mifologiyasında ehtirasla oynayan rəqqasələrdir. Mifologiya ilə bağlı bu realilər yerli və tarixi koloritin daşıyıcısı olub xalqın milli təfərrükünü və mofologiyasını əks etdirir. Gördüyümüz kimi bu sözlərin Azərbaycan dilində qarşılığı yoxdur və onlar həmin dildə olduğu kimi verilir. Bununla da məzmunun bütövlüyü, tamlığı və sabitliyi təmin olunur. S.Bloxov və S.Florinin yuxarıda qeyd etdiyimiz realilərə aid bölgüsünün üçüncü qrupuna məişət realiləri daxildir. Məişətə realilər də öz növbəsində bir neçə növə, xörək, içki, geyim və oyun adlarına adlarına, pul və ölçü vahidlərin və s. Bölünür. Milli xörək və içki adlarını tərcümə etmək, başqa dildə onların uyğun qarşılığını tapmaq çox çətindir. Buna görə də tərcümə prosesində həmin sözlər orijinalda olduğu kimi verilir və onların strukturu heç bir dəyişikliyə uğramır. Misal olaraq aşağıdakı cümlələrə baxaq.

…I confess that his spaghetti were very much better than his pictures

Doğrudan da, onun bişirdiyi spagetti çəkdiyi şəkillərdən qat-qat yaxşı idi.

Milk is very nice, especially with a drop of brandy in it…

Süd içmək adama ləzzət verir, xüsusən brendi ilə…

Tiare gave three little pearls and three jars of guava-jelly made with her own plump hands.

Tiare mənə üç dənə xırda mirvari və öz toppuş əllərivlə bişirdiyi üç banka quava jelesi başığladı.

We had all the champagne we could drink and liqueurs to follow.

Heç bilsəniz biz onda nə qədər şampan şərabı, dalınca da likör vurduq!

Sırf milli xarakterli, məişətlə bağlı əşyaların, anlayışların adlarını bildirən realilərin bir nbvünü də milli oyun adları təşkil edir. Tərcümə ədəbiyyatı vasitəsilə dilimizə keçən bu sözlər quruluşca sabit olur, yəni orijinalda olduğu kimi verilir. Məsələn, *They talked of the political situation, and of golf…*

Onlar siyasətdən və qolf oyunundan… danışırdılar.

The K.C. told us of case he was engaged in, and the Colonel talked about polo. Sonra vəkil apardığı bir məhkəmə işindən danışdı, polkovnik isə polo oyunu haqqında biliyini nümayiş etdirdi.

Fred knows one of the members, and said something about Charles being a great bridge-player.

Fred bric oynayanlardan biri ilə tanışdı, bir gün ona deyib ki, Strikland də bric ustasıdır.

During the evening we played innumerable games of piquet…

Axşam xeyli piket oynadıq.

It is hazardous to play poker with them…

Onlarla poker oynamaq çətin məsələdir…

Burada verilmiş adları, qolf - Ingiltərə və ABŞ-da yayılmış top oyunu, polo - at üstündə oynanan top oyunu, bric və poker kimi qumar oyunları milli xarakter daşıyır və buna görə də başqa dildə tərcümə olunmur.

Ədəbiyyat

1. Axundov A. Dil və üslub məsələləri. Bakı: Gənjlik, 1970.
2. Jəfərov S. Müasir Azərbaycan dili. Bakı: Maarif, 1982.
3. Dəmirçizadə Ə. Azərbayjan dilinin üslubiyyatı. Bakı: Azərtədrisnəşr, 1962.
4. Arnold I.V. The English Word, Moscow, 1986.
5. Ullman St., The principles of Semantics. Glasgow, 1959.
6. Амосова Н.Н. Основы английской фразеологии. Л., 1963.
7. Ахманова О.С. Очерки по общей и русской лексикологии, М., 1957.
8. Балли Ш. Французская стилистика, ИЛ, М., 1961.
9. Виноградов В.В. Стилистика, теория поэтической речи, пэтика. Издво Академии Наук, СССР, М., 1963.
10. Галперин И.П. Очерки по стилистике английского языка, М., 1958.
11. Ефимов А.И. Язык сатиры Салтыкова-Щедрина, Из-во Московского ун-та, М., 1953.

T. İsmayliova

National colour of language (realia)

Summary

The word which carry national colour of language (realia) they are the real treasure of the language. The translator's misunderstanding and misrepresenting of any of these words may end in a translation void of fressness, reality and moral sense. The meanings of these words may remain ambiguoys unless the translator has a deep comprehensive knowledge of the religious, social and ethnological beliefs and traditions of the related communities.

Т. Исмаилова

Национальной окраски реалии

Резюме

Проблема сохранения национальной окраски это очень важно. Реалии тесно связанны с жизнью народа, житейскому быту, язык дает основу для воплощения образов. В реалиях есть специфические оттенки и национальный колорит.

Rəyçi: X.Hacıyeva
filologiya elmləri namizədi

ZAMİRƏ MƏMMƏDOVA
ADİU

METONİMİYA VƏ ONUN NÖVLƏRİ

Açar sözlər: metonimiya, nominativ, epitet
Key words: metonomy, nominative, epitet
Ключевые слова: метонимия, номинатив, епитет

Bədii dil obrazlı dildir. Bədii dildə söz fikir ifadə etməklə kifayətlənmir, obyektiv varlığın obrazlı təsvirinə də xidmət edir.

Söz bədii dildə obraz yaradan, hadisələrə subyektiv qiymət verən, dərin və incə hisslər ifadə edə bilən, oxucunun estetik zövqünü oxşayan, ona qüvvətli, emosional təsir göstərən bir vasitə kimi çıxış edir.

Sözün bu dərəcəyə qədər yüksəlməsinin səbəbi onun semantikasının dərinliklərində gizlənən müxtəlif xarakterli məcazi mənaların olmasıdır.

Məcaz bədii ifadəlilik məqsədi ilə əşya və məfhumları müstəqil yolla deyil, dolayı yolla əks etmək üçün işlənən söz və ya ifadədir. Hər hansı məcaz müxtəlif əşya və ya hadisələrin şüurda təsvir edilən (edilə bilən) qarşılıqlı əlaqələri nəticəsində yaranmış olur.

Məcaz sözün əsas mənasından törəyir və ona istinad edir. Sözdə çoxmənalılıq kimi keyfiyyətin varlığı məcazın əmələ gəlməsinə zəmin yaradır. Hər bir çoxmənalı sözün mənalarından biri həmişə həqiqi, başqaları isə ikinci dərəcəli və ya məcazi olur.

Sözün həqiqi mənası bilavasitə bu və ya digər əşyanı və hadisəni adlandırmaq üçün işlənir. Ona görə də dilçilikdə buna nominativ məna deyilir. Nominativ məna sözün başqa mənaları üçün də əsas ola bilər. Belə ki, zərurət nəticəsində həmin söz başqa əşya və hadisələri adlandırmaq üçün də işlədilir. Bu isə obyektiv varlığın saysız-hesabsız hadisələri arasında müəyyən münasibətlər yaradır ki, buna məcaz deyilir. Yəni sözlərin məcazi məna kəsb etməsində əşya, hadisə, hərəkət, keyfiyyət və sair arasında məkan, zaman, vasitə və xüsusi bənzəyiş kimi müxtəlif əlaqələrin varlığı vacib şərtlərdəndir. Əgər sözün ilk, həqiqi mənası mətnsiz aydındırsa, onun əsil təbiəti, çoxmənalılığı və məcazi mənaları özünü cümlə daxilində, mətndə büruzə verir. Bununla əlaqədar D.N.Kudryavskiy qeyd etmişdir ki, heç bir vaxt unutmamalıyıq ki, sözün yaşadığı və dəyişdiyi atmosfer nitq atmosferidir. Bunu nəzərə almasaq sözün təbiətini aydınlaşdıra bilmərik.

Mətndə, cümlə daxilində söz bir vəziyyətdə qalmır. Əksinə, müxtəlif mənalar kəsb edir, məcazlaşa bilir. Mətn hər dəfə sözün mənasını dəqiqləşdirir və konkretləşdirir. Çünki söz nə qədər çoxmənalı olsa belə, mətndə nitq prosesində, dialoqda tam müəyyən bir məna alır. Mətn hər dəfə sözün mənasına istiqamət verir, onu çoxmənalılıqdan azad edir. Həmin fikri çoxmənalı təbiətə olan hər hansı bir sözün linqvistik təhlili təsdiq edə bilər.

Məsələn: "Azərbaycanca-ingiliscə lüğət"də açmaq felinin aşağıdakı mənaları göstərilmişdir: *açmaq - open, məktəb açmaq - to open a school, qapını açmaq -open the door, çətirini açmaq - open one's umbrella, gözünü açmaq - open one's eyes, mötərizə açmaq - open brackets, yeni dövr/səhifə açmaq - open a new era/page,*

iclas açmaq - open a setting/meeting, declare a meeting/sitting open, mübahisə açmaq - open a debate, atəş açmaq - open fire, hesab açmaq: 1) müh.-open an account, 2) id.-open the score, bir kəsin gözünü açmaq. məc.-open smb's. eyes, bir kəsə ürəyini açmaq - open one's heart to smb. və s..

Burada "açmaq" felinin nominativ mənası qapını açmaq, çətirini açmaq, gözünü açmaqdır. Nominativ mənada "açmaq" müəyyən konkret bir işi bildirir. Həmin felin burada verilmiş başqa mənaları isə onun məcazi mənalarıdır.

Ingilis dilində *glimmer* isminin üç mənası verilmişdir:

1) merüanie, slabıy, tusnlıy svet, "a glimmer of down" naçalo rassveta; "a glimmer of pearles" perlamutrovıy otliv jemçuqa peren. slabıy probleks, "a glimmer of hope"probleks nadejdı,

2) amer. razq. "oqonğ":

3) pl.jarq. "qlaza", "qlədelki, miqalki".

Burada *glimmer* isminin birinci *"merüanie, slabıy, tusnlıy svet"* mənası onun nominativ mənasıdır, qalan mənalar isə məcazi mənalardır.

Sözün bu qədər rəngarəng məcazi mənalar kəsb etməsi onun mürəkkəb semantik quruluşa malik olmasını göstərir.

Beləliklə, məcazlaşma hadisəsi çoxmənalılıq prinsipi üzərində qurulur, onun nəticəsi kimi meydana çıxır. Həmin keyfiyyətə malik olmaq isə sözdən ifadəli və təsviri vasitə kimi istifadə etməyə imkan yaradır.

Sözün həqiqi mənası əşyanı adlandırmaq üçündürsə, məcazi məna onu təsvir etmək üçündür. Çünki söz məcazi məna kəsb etdikd, obrazlılıq kimi keyfiyyətə sahiblənir və fikrin təsirli, mənalı ifadəsinə xidmət edir. Məsələn:

İngilis dilində *iron* ismi Azərbaycan dilində dəmir kimi verilir: *iron gates* "dəmir darvaza", *iron rods* "dəmir çubuqlar" lakin ingilis dilində *iron will* isə "dəmir iradə" kimi tərcümə olunur. Burada *iron* isminin məcazi mənası göz qabağındadır. Çox maraqlıdır ki, bu isim Ingilis, Azərbaycan və Rus dillərində iradə sözü ilə frazeoloji birləşmə yaradıb məcazi məna kəsb edir. Görünür, Azərbaycan dilində dəmir iradə, ingilis dilində *iron will*, rus dilində *jeleznaə volə* çox qədimlərdən işlənir. Bu cür frazeoloji birləşmələrə müxtəlif sistemli dillərdə çox rast gəlinir.

Məcazın mahiyyətini ilk dəfə qədim yunan alimləri təyin etmişlər. Antik dövrün alimləri, məcazın təbiətini öyrənib qeyd etmişdir ki, məcaz sözün mənası ilə bağlı olan semantik hadisədir. "Trop (yəni məcaz) söz və ya sözbirləşməsinin elə bir məna dəyişməsidir ki, bunun nəticəsində məzmun zənginləşir". Zəngin məna və məna çalarlarına malik olan məcaz bədii dildə olduqca ifadəli və obrazlı təsvir vasitəsi kimi çıxış edir. Məcaz əşya və hadisələri adlandırmaq üçün yox, onu obrazlı şəkildə səciyyələndirmək üçündür. V.Q.Belinskinin sözü ilə desək "Məcazın əmələ gəlməsi ifadənin obrazlılığı zərurətilə bağlıdır".

Mənşə etibarı ilə məcaz çox qədimdir. Ehtimal ki, məcaz qədim insanların dünyagörüşü, təbiətə münasibəti ilə bağlı əmələ gəlmişdir. Hər bir xalqın dilində işlənən məcazlar həmin xalqın yaşadığı coğrafi şərait, təbiət, iqlim, mühit, təsərrüfat fəaliyyəti və s. ilə bağlıdır. Ona görə də, hər dilin özünəməxsus səciyyəvi məcazlar sistemi vardır.

Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, bu və ya digər əşya, hadisə hər halda eyni hiss oyatmır. Yəni bir xalqın təfəkkür və dilində bu və ya digər əşya müsbət təsəvvür və obrazlı ifadələr yaratdıtı halda, başqa bir xalqda həmin obyekt

mənfi təsəvvür oyadır. Məsələn, hind xalqı fili əzəmətli, alicənab heyvan kimi qiymətləndirdiyi üçün bədii yaradıcılığında da həmin heyvanın adı müsbət mənada poetikləşir. Belə ki, qeyri-adi gözəlliyə malik qadınların yerişi filin əzəmətli yerişinə bənzədilir, tərif edilir.

Filoloji ədəbiyyatda məcazların metafora, metonimiya, alleqoriya, epitet, təcəssüm, sinekdoxa kimi növləri fərqləndirilir. İ.R.Qalperin isə buraya kinayəni də əlavə edir.

Məcaz olduqca müxtəlifdir. Bu müxtəlif sözün əşyavi-məntiqi əlaqələrinin rəngarəngliyi ilə bağlıdır. Həmin əlaqələrin xarakterindən asılı olaraq məcazın müxtəlif növləri özünü göstərir. Bunlardan yığcamlıq və ifadəlilik baxımından ən qüvvətlisi metaforadır. Odur ki, məcazlar sistemində metaforaya birincilik verilir. Onun ardınca metonimiya, epitet və sinekdoxa gəlir ki, məcazın bu növləri də dilin mənalı nitq vahidləridir. Məhz metafora, metonimiya, sinekdoxa və epitet polisemiyanın əsas növləri olub, lüğət tərkibinin obrazlı leksikasını təşkil edir.

İngilis dilinin üslubiyyatı problemləri ilə məşğul olan bəzi dilçilər metonimiya qrupuna həm də sinekdoxanı daxil edir. Başqaları isə buraya sinekdoxadan başqa, antonomaziya (ingiliscə *antonomasia,* almanca *antonomasie*), şəxsləndirmə, canlandırma və ya nitqləndirməni (ingiliscə *personification*), kinayəni (ingiliscə *irony*), parafrazanı (ingiliscə *paraphrase, periphrasis*) də daxil edir. Biz də işimizdə bu bölgünü əsas tuturuq.

Məcazın növlərindən biri də metonimiyadır. Ingiliscə *metonymy*, fransızca *metonymie*, almanca *Metonymie*, ispanca *metonimia, Metontmia* yunan dilindəndir. Bir sözün başqası əvəzinə işlənməsi deməkdir. Rus dilində bu "*pereimenovanie*" sözü ilə ifadə olunur. Buna rus dilçilik ədəbiyyatında trop-da deyilir.

"Trop-zamena odnoqo slova druqim na osnovanii smejnosti dvux ponətii, napr.," "lesğ poet" vmesto "ptiüı v lesu poet", "çitatğ Qorğkoqo" vmesto "çitatğ soçineniə Qorğkoqo".

M.D.Kuznes və O.M.Skrebnov da metonimiyanı eyni ilə səciyyələndirirlər. Onlar qeyd edirlər ki, metonimiya qrupuna daxil olan torplar (metaforalar) bir əşyanın adını onunla real əlaqələri olan başqa bir əşya üzərinə keçirilməsidir. Bu zaman bir çox hallarda sözün mənası dəyişir (başqa cür başa düşülür). Məsələn: *china* "farfor" < kitay, farforun ilk dəfə istehsal olunduğu yer, *iron* "ütü" "dəmir" < "dəmir", material kimi və s.

Metonimiya haqqında buna oxşar fikirlər I.V.Arnold tərəfindən də söylənilmişdir. O qeyd edir: "Metonimiya bilavasitə əlaqədarlıq, yaxınlıq assosiasiyasına əsaslanan troplardır. Bu ondan ibarətdir ki, bir əşyanın adı əvəzinə daxili və xarici əlaqələri ilə daimi bağlı olan başqa bir əşyanın adı işlənir. Bu əlaqə hər hansı əşyanın hazırlanqdığı materialla onun əlaqəsi ola bilər, həmçinin insanlarla onların olduğu yer; proses və onun nəticəsi arasında əlaqə; iş və alət arasında əlaqə və s. ola bilər.

Dilçilər metonimiyanı belə səciyyələndirirlər: "Metonimiya - Aralarındakı daxili və xarici əlaqələr əsasında bir əşya adının başqa bir əşya ada əvəzində işlədilməsindən ibarət məcaz növü. Məsələn: a) qabın içindəki əvəzinə qabın adı işlənir. Bir boşqab yedi; b) əsər adı əvəzinə müəllif adı işlənir; *He reads Shakespare* Füzulini çox oxudu; c) adamların adı əvəzinə onların olduğu yer, məkan adı işlənir: Bütün salon qulaq asır; d) əşyanın nədən düzəldiyini bilmək üçün bu əşya adı təyin kimi işlənir: qızıl qaşıq, ağac qaşıq və s.

Metonimiya haqqında Azərbaycan dilçilərinin izahı daha genişdir. Metonimiya müxtəlif varlığın bir-birindən fərqlənən əşya və hadisələrin arasında əlaqələrin mövcudluğuna əsaslanan insan təfəkkürünün məhsuludur. Olduqca qədim dövrlərdə əmələ gəlmiş metonimiya zamanla ayaqlaşaraq ibtidai formadan mürəkkəb dərəcəyə qədər yüksəlmiş və formalaşmışdır.

İfadəlilik keyfiyyətinə və istifadə dairəsinə görü metonimiyanın iki növü diqqəti cəlb edir: 1) sabit və ya ümumişlək metonimiya; 2) obrazlı metonimiya.

Sabit metonimiyalar adi ifadələr və termin səciyyəli sözlərdən ibarətdir. Məsələn: ingilis Azərbaycan dillərində geniş şəkildə işlənən *auditorium* auditoriya, *class* sinif, *country* vətən, *hall* zal, *saloon* salon (hər iki mənada) yaxud *the pot is boiling* qazan qaynayır, *to drink one or two glasses* bir, ya iki stəkan içmək (*tea* - çay, *milk* - süd, *coffee* - kofe), Azərbaycan dilində ayağını soyunmaq, qolunu çirmələmək və s. ifadələr sabit metonimiyalardır. Həmin sözlərin çoxu ingilis dilində də metonimiya hesab olunur: vətən - *native land, homeland*; auditoriya - *auditorium lecture - hall, lecture - room*; sinif -*class,* salon - *saloon* və s.

Sabit metonimiyalardan fərqli obrazlı metonimiyalar dildə termin kimi yox, ifadəliliyini hələ tərk etməmiş məcazlar kimi çıxış edir. Məsələn: neft ölkəsi - *oil country*; odlar diyarı - *land of flames*; qaralar yurdu - *land of blacks* və s. tipli ifadələr ingilis dilini, həmçinin Azərbaycan dilini mənalı və obrazlı edir, onun ifadəlilik imkanlarını artırır.

Obrazlılıq keyfiyyəti metonimiyanı dilin ifadəli vasitələrindən biri etməklə onu bədii üslubun qüvvətli bədii vasitəsinə qədər qaldırır. Özü də danışıq dilindən fərqli burada ümumxalq metonimiyaları ilə yanaşı yeni, orijinal xarakterli daha ifadəli metonimiyaların əmələ gəlməsi özünü göstərir.

Metonimiyanın özünəməxsus səciyyəvi xüsusiyyətləri vardır ki, məhz onlar metonimiyanı dilin ifadəli, bədii dilin isə qüvvətli bədii ifadə vasitəsi kimi xarakterizə edir:

1. Metonimiya yığcam, qısa lakonikdir. Ən ətraflı təsviri metonimiya ilə ifadə etmək mümkündür.

2. Metonimiya birinci növbədə bədii ifadə vasitəsidir. Metonimiya nitqə xüsusi çeviklik verir, onu obrazlı oynaq və təmtəraqlı edə bilir. Bununla belə metonimiya təsviri vasitə kimi də çıxış edir, lakin bu onun ikinci dərəcəli vəzifəsidir.

3. Metaforadan fərqli olaraq, metonimiya hadisələri dolayı yolla xarakterizə edir, onun daimi və ya müvəqqəti cəhətlərini başqa əlamətlərindən ayırıb qabarıq bir formada açıb göstərir. Bunun nəticəsində isə yazıçı predmet və hadisəyə subyektiv münasibətini də ifadə edə bilir.

Lakin sinonimlərdən fərqli metonimiya sözün yalnız məcazi mənasından törəyir. Onun əmələ gəlməsi qarşılaşdırılmış əşya və hadisələr arasında əlaqələrin mövcudluğundan asılıdır. Xarakter etibarilə həmin əlaqələr müxtəlif və rəngarəngdir ki, bu da öz növbəsində metonimiyanın zəngin formalara malik olduğunu göstərir.

Ədəbiyyat

1. Nizami Xudiyev. Tərcümə ədəbiyyatı və ədəbi dilimiz. Bakı, 1991.
2. Türkan Əfəndiyev. Azərbaycan dilinin leksik üslubiyyatı. Bakı, 1980.
3. Galperin L.I. Stylistics. Moscow, 1997.

4. Арнольд И.В. Стилистика современного английского языка. Москва, 1981.

5. Арбекаова Т.И. Лексикология английского языка. Ленинград, 1975.

6. Разинкина Н.М. “Стилистика английской научной речи”. Москва, 1987.

7. Сематические и стилистические преобразования в лексике и фразеологии современного английского языка. Москва, 1987.

8. Левицкая Т.Р., А.М.Фитерман. Проблемы перевода. Ленинград, 1981.

Z.Mamedova

Tyhts of Metonomy

Summary

The article deals with the metonomy. It shows that metonomy is based on a different type of relation between the dictionary and contextual meanings, a relation based not on identification, but on some kind of association connecting the two concepts which these meanings represent. Interrelation between the dictionary and contextual meanings should stand out clearly and conspicuously.

Z. Мамедова

Вид метонимии

Резюме

Для всех словах характерен общий тип переноса значений, а именно метонимический (по сходству). У переносных значений выявляются уровни переноса, которые выражаются в большей или меньшей степени абстрагированности от исходного признака.

Rəyçi: B. Səmədov
filologiya elmləri namizədi

KÖNÜL QASIMOVA
ADİU

SÖZÜN MƏCAZİ MƏNASI

Açar sözlər: leksika, semantika, kollektiv
Key words: lexical, semantic, collektive
Ключевые слова: лексика, семантика, коллектив

Dildə sözlərin əksəriyyəti çoxmənalıdır. Söz əsas ilkin məna bildirməklə yanaşı, məcazi məna da ifadə edir. Sözün əsas həqiqi mənası bilavasitə bu və ya digər əşya, hadisəni adlandırmaq üçün işlənir və məhz buna görə də ona dilçilikdə çox vaxt nominativ məna deyilir. Məsələn, *iron, hand, head, leg, neck, fox, goose; dəmir, qol, baş, yuva, ayaq, boğaz, tülkü və s.*

Nominativ məna sözün başqa mənaları, xüsusən məcazi mənası üçün əsas verə bilər. Belə ki, həmin söz zərurət nəticəsində başqa əşya və ya hadisələri də adlandırmaq üçün işlədilər. Bu isə assosiasiyanın nəticəsində mümkün olur. Belə ki, əşyalar və hadisələr arasında müəyyən əlaqələr əsasında eyni söz bir neçə predmetin adı ola bilər. Yəni sözlərin məcazi məna kəsb etməsində əşya, hadisə, hərəkət, keyfiyyət və s. arasında məkan, zaman, vasitə və xüsusən bənzəyiş kimi müxtəlif əlaqələrin varlığı vacib şərtlərdəndir.

Sözün ümumişlək məcazi mənası və situativ məcazi mənası. Sözün müxtəlif xarakterli məcazi mənaları ola bilər. Bunlardan bir qismi, ümumişlək olduğu halda, müəyyn bir qismi də situativ, fərdi mahiyyətə malikdir. Dilimizdə sabitləşmiş, bütün kollektiv tərəfindən qəbul edilmiş və geniş şəkildə yayılmış məcazi məna sözün ümumişlək məcazi mənasıdır. Məcazi məna müəyyən konkret şəraitə uyğun yaranmışsa, ona situativ məcazi məna deyilir. Həmin məcazi məna sözün semantik quruluşuna daxil olmur və yalnız müəyyən şəxs tərəfindən bu və ya digər şəraitə uyğun işlənir. Şübhəsiz, sitautiv, yaxud fərdi məcazi məna daha çox obrazlı dildə - bədii üslubda əmələ gəlir və çox zaman müəyyən bir sənətkarın üslubunun fərqləndirici amili kimi qiymətləndirilir.

Məcazların hər iki növü dildə faydalı nitq vasitəsi kimi çıxış edir. Məcazlar dilin ifadəlilik imkanlarını qüvvətləndirən, lüğət tərkibini zənginləşdirən, terminoloji leksikanın artmasına kömək edən bir vasitədir. Situativ məcazlar güclü bədii təsvir vasitəsidir.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, bir şeyin adı o birinin üzərinə köçürüldükdə, həmin obyektə xas olan bütün cəhətlər yox, yalnız əlamətlərdən biri, bəzi hallarda da bir neçəsi nəzərə alınır və məhz onun əsasında digər obyekt üçün də istifadə edilə bilir. Məsələn, *tülkü* sözü heyvan adıdır. Həmin heyvana məxsus səciyyəvi xüsusiyyətlər biclik və hiyləgərlikdir. Bu əlamətlər müəyyən şəxsdə özünü büruzə verdikdə onun *tülkü* sözü ilə xarakterizə etmək olur.

Beləliklə də, A.A.Reformatskinin düzgün qeydinə görə "həmin proses nəticəsində əşya dəyişir, lakin anlayış tam mənada dəyişmir: metaforik dəyişmə zamanı əvvəlki əlamətlərindən biri qalır".

Filologiya elmində metafora əsasən bədii təsvir vasitəsi vasitəsi kimi qiymətləndirilir. Doğrudur, obrazlı orijinal metaforalar bədii yaradıcılqda qüvvətli ifadə və təsvir vasitəsidir.

Çoxmənalılığın səciyyəvi xüsusiyyətləri. Çoxmənalılıq məfhumu altında sözün mürəkkəb semantik sistemə, onun əsas məna ilə yanaşı, bir neçə ikinci dərəcəli mənalara da malik olması nəzərdə tutulur. Bununla əlaqədar qeyd etmək lazımdır ki, bir qrup alimlər ikinci dərəcəli mənaları məcazi mənalar adlandırdığı halda, başqaları bu mənaların hər birinin ayrılıqda məcazi məna kəsbetmə bacarığına malik olmasından çıxış edərək, onları ikinci dərəcəli mənalar kimi qiymətlənirirlər. Bu cür fikir müxtəlifliyi çoxmənalı sözün semantikasının mürəkkəbliyi ilə izah oluna bilər.

Məlumdur ki, sözün məcazi mənası onun ilkin mənası, yəni nominativ mənası əsasında yaranır və beləliklə, dildə başqa mənaların özəyi kimi çıxış edir. Məcazi mənanın mövcudluğu nominativ mənasız mümkün deyil. Məcazi məna həmişə əsas mənadan törəyir, ondan asılıdır. Məsələn, çoxmənalı *qol* sözünün əsas mənası mətnsiz belə aydındır. Oxşarlıq nəticəsində *qol* sözü başqa bir əşyanın adı kimi də çıxış edə bilər. Məsələn, *köynəyin qolu, ağacın qolu, çayın qolu* və s. Bu mənalar *qol* sözünün nominativ mənasından törəyir və həmin sözün semantik strukturunu təşkil edir.

Başqa misallar: *aparmaq* felinin bir əsas mənası və bir neçə ikinci dərəcəli mənaları var:

1) Bir şeyi əlinə götürərək, yaxud dalına yükləyərək bir yerdən başqa yerə köçürmək, gətirmək (çamadanı aparmaq).

2) Birinin hərəkətini yönəltmək, yol göstərmək: özü ilə bərabər yeriməsinə kömək etmək (uşaqları teatra aparmaq).

3) Özü ilə bərabər götürüb getmək (kötüyü su apardı).

4) Oğurlamaq, qaçırmaq (çaqqal toyuğu apardı).

5) Udmaq, qazanmaq, qalib gəlmək (oyunu aparmaq).

6) Yox etmək, silib təmizləmək, çıxarmaq (ləkəni aparmaq).

7) Məhv etmək, yox etmək, puç etmək, xarab etmək, dağıtmaq (dolu meynələri apardı).

8) Sərf edilməsinə, işlənməsinə səbəb olmaq, əlindən almaq (bu iş beş gün vaxtımı apardı).

9) Qoparmaq, yemək, kəsmək, sürtüb aparmaq, xarab etmək (daş ülgücün ağzını aparıb).

10) Həyata keçirmək, yeritmək (iş aparmaq).

11) İdarə etmək, başda durmaq, başçılıq etmək, rəhbərlik etmək (iclas aparmaq).

12) Bihuş etmək, məst etmək (yuxulatmaq, bayıltmaq, xəstəni dərman apardı)…

Ad sözü. 1) əsas mənası-doğulduğu zaman adama verilən şəxsi ad; 2) şöhrət//bir adam haqqında əmələ gəlmiş ümumi rəy (yaxşı ad, pis ad); 3) bir şeyin şifahi işarəsi (kitabın adı); 4) hər hansı bir iş sahəsində ixtisası və ya xidməti vəziyyəti müəyyən edən rəsmi rütbə, ünvan (fəxri ad); 5) zsas, bəhanə, səbəb mənasında.

Göründüyü kimi, bu sözlər çoxmənalıdır: bir əsas, bir neçə ikinci dərəcəli və məcazi mənalara malikdir. Həmin mənalar birləşərək çoxmənalı sözün mənalar

sistemini təşkil edir və ilkin məna həmişə onun semantik mərkəzi kimi çıxış edir. İkinci mərkəz ola bilməz, çünki sözün ikinci əsas mənası yoxdur.

Bunu da nəzərə almaq lazımdır ki, sözlərin əksəriyyəti bir neçə mənada işlənə bilir. Bu mənalardan biri əsas, ikincisi isə ikinci dərəcəli və çox vaxt məcazi olur. Məsələn, *ağsaqqal* sözünün əsas mənası - "saqqalı ağarmış qoca", o biri mənası "bir ailənin, elin, cəmiyyətin ən yaxşı və hörmətli adamı, başçısı" - məcazidir; *alovlu* sözünün əsasm mənası "şiddətli yanan, parlayan, alov çıxan"dır, ikinci mənası isə "hərarətli, atəşin, ehtiraslı, coşğun" - məcazidir. Bu kimi sözlər dilimizdə külli miqdardadır.

Əlbəttə, iki mənaya malik çoxmənalı sözün hər birini əsas məna kimi qiymətləndirmək düzgün olmaz. İki məna ifadə edən sözlərdə mənanın biri həmişə əsas, o biri mütləq ikinci dərəcəli olub birinci mənaya tabedir, ondan asılıdır. V.V.Vinoqradov yazır: "Sözdə əsas mənanın fərqlənməsi olduqca vacibdir. Çünki başqa mənalar onun ətrafına toplaşır. Bununla əlaqədar həmişə və hər zaman sözün tamlığını birinci növbədə sözün leksik-semantik özəyi təşkil edir". Çoxmənalı sözün leksik-semantik özəyi onun əsas mənasından ibarətdir. Əsas məna kimi yalnız sözün nominativ mənası çıxış edə bilər. Mənalar arasındakı bağlılıq sözü çoxmənalılığına sübutdur. Məsələn, *ağac* sözü 4 mənada işlənir: 1) budaqları bərk və gövdəsi olan çoxillik bitki (armud ağacı); 2) ağacdan hazırlanan tir, dirək, taxta, şalban və s. (ağac ehtiyatı); 3) ələ götürülən əsa//dəyənək//çomaq (köhn.); 4) təxminən 6-7 kilometrə bərabər uzunluq ölçüsü.

Bu mənalar bir-biri ilə sıx əlaqədardır. Bunları birləşdirən semantik özək, əlbəttə, ilkin mənadır. O biri mənalar isə ardıcıl şəkildə həmin məna ilə bağlıdır. Deməli, *ağac* çoxmənalı sözdür.

Beləliklə, sözün mənaları arasındakı əlaqənin mövcudluğu onun çoxmənalılığına əsasdır. Əks halda sözü çoxmənalı hesab etmək düzgün deyildir.

Sözdə çoxmənalılığın əmələgəlmə səbəbləri. Çoxmənalılıq tarixi hadisədir. Dilin mühüm vahidi olan söz həmişə inkişafdadır. Onun forması ilə yanaşı, mənası da dəyişir. Söz uzun və çoxpilləli inkişaf yolu keçir. Sözlərin tədqiqi tarixi ilə xüsusi məşğul olmuş Q.B.Antruşina bu barədə yazır: "Müasir bir sözün forma və semantikasını tədqiq edərkən bir cəhəti nəzərə almaq lazımdır ki, onun müasir halı yalnız ümumi inkişafının bir tərəfidir: onun bugünkü forma və mənası qabaqkı forma və mənalarının məntiqi nəticəsidir".

Dildə sözlərin fasiləsiz artması mümkün deyil, çünki əgər hər bir yeni məfhum yeni sözlər adlansa, lüğət tərkibi hədsiz dərəcədə genişlənib elə bir vəziyyət alar ki, ondan istifadə etmək mümkün olmaz. Akademik V.V.Vinoqradov həmin cəhəti nəzərə alaraq qeyd edir ki, "təcrübənin konkretliyi sonsuzdur, ən zəngin dilin ehtiyatı isə olduqca məhduddr".

Ona görə də real varlığın hər bir hadisə və əşyasını adlandırmaq üçün insan dildə olan mövcud sözlərdən istifadə edir. Lakin nəzərə almaq lazımdır ki, "hər bir məfhum bütün məfhumlarla müəyyən münasibətdə və müəyyən əlaqədardır".

Məhz bu xüsusiyyət (oxşarlıq və yaxınlıq) sözləri asanlıqla başqa əşyaların adı kimi işlətməyə imkan verir. Yəni bir predmetin, yaxud hadisənin adı başqa birisinin üzərinə keçirilib onu adlandırır. Bu proses nəticəsində sözün semantik quruluşu daha da mürəkkəbləşir. Sözdə həqiqi mənalarla yanaşı, bir sıra məcazi mənalar da əmələ gəlir. həqiqi və məcazi mənalar birlikdə sözün çoxmənalılığını təşkil edir.

Azərbaycan dilində sözlərin əksəriyyəti çoxmənalıdır. Çoxmənalı sözlər xəzinəsinə malik bir dil ifadəli, mənalı, təsirli və obrazlı olur. Çünki çoxmənalı sözlər vasitəsilə müxtəlif fikirlərin ifadəsi asanlaşır. Məsələn,

Qayda sözü aşağıdakı mənalarda işlənir:

1. Nizam, səliqə, bir şeyin düzgün vəziyyəti, nizamda olması. *Şeylərin qaydada saxlanması.*

2. Bir şeyin yerinə yetirilməsi üçün müəyyən üsullar göstərən qərar və s. *Seçki qaydaları.*

3. Üsul, yol, tərz. *Yeni qayda ilə işləməli.*

4. Adət, dəb. *Xumar-xumar baxmaq göz qaydasıdır.*

Çoxmənalı sözlərin əksəriyyəti çoxişlənən sadə sözlərdir. Məsələn, *baş, qol, budaq, ağac, gecə, gündüz, səhər, axşam, işıq, qar, boran, tufan, yaz, qış, yatmaq, durmaq, yızılmaq*.

Çoxmənalı sözün məna növləri. Dildə çoxmənalılığın rolu olduqca böyükdür. Belə ki, sözün semantikası genişləndikcə onun ifadəlilik imkanları da, qrammatik əlamətləri də artır və bunun nəticəsində başqa sözlərlə əlaqəsi də genişlənir. Məhz buna görə də sözdə çoxmənalılığın genişliyi onun leksik-semantik əlaqələrinin genişliyinə dəlalət edir.

Lakin məlumdur ki, sözün bütün mənaları eyni xüsusiyyətə malik deyil. məsələn, sözün həqiqi nominativ mənası geniş qrup sözlərlə işləndiyi halda məcazi məna ondan fərqli olaraq öz əlaqələrində bir qədər məhduddur. V.V.Vinoqradovun düzgün qeyd etdiyi kimi, "bu mənalar yalnız müəyyən qrup sözlərlə, yəni dar semantik münasibətlər çərçivəsində işlənərək, özünü büruzə verir".

Dilçilik ədəbiyyatında sözün mənaları müstəqil və qeyri-müstəqil mənalara ayrılır. Əgər sözün mənası geniş qrup sözlərlə əlaqəyə girib işlənə bilirsə, deməli, bu onun müstəqil mənasıdır. Əksinə, sözün mənasının əlaqə dairəsi məhduddursa, onda ona qeyri-müstəqil məna deyilir. Çoxmənalı sözün nominativ mənası geniş qrup sözlərlə əlaqəyə girdiyi üçün müstəqildir. Lakin söz məcazlaşma nəticəsində frazeoloji birləşməyə çevrildikdə öz əsas mənasından uzaqlaşır, müstəqilliyini itirir. Sözün frazeoloji birləşmədəki mənaları onun müstəqil mənasından tamamilə fərqlənir. Məsələn, müqayisə et: *qurumaq* (paltar, dəniz, göl, bağ, torpaq, qab və s.) və *ayaq üstə qurumaq, yerində qurumaq; düşmək* (kitab, qab, stəkan, qələm, papaq, dəsmal və s.) və *əldən düşmək; yanmaq* (kağız, dəftər, odun, paltar, dəsmal və s.) və *canı yanmaq, ürəyi yanmaq* və s.

Göründüyü kimi, söz nominativ mənasına görə müxtəlif sözlərlə münasibətlər yarada bildiyi halda, məcazi mənada və xüsusən frazeoloji birləşmələrdə bundan məhrum olur.

Ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti. Bakı, 1966.
2. Əfəndiyeva T. Azərbaycan dilinin leksik üslubiyyatı. Bakı, 1980.
3. Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı, 1954.
4. Антрушина Г.Б. Из истории слов и их значений. М., 1960.
5. Арнольд И.В. Лексикология современного английского языка. М., 1973.
6. Виноградов В.В. Русский язык. М., 1947.
7. Гальперин И.Р. Очерки по стилистике английского языка. М., 1958.

K.Qasımova

Fiqurative meaning of the words

Summary

The article deals with the semantic meaning of the words. The expressive means of a language are those phonetic, morphological, wordbuilding, lexical phraseological and syntactical forms which exist in language-as-a-system for the purpose of logical and or emotional intensification of the utterance.

К.Касимова

Тропы

Резюме

Одной из центральных задач современного языкознания является изучение проблем. Семантики слова, много значности, выдвигаемых семасиологией. В основе значений многозначного слова лежат разные понятия.

Rəyçi B.Səmədov
filologiya elmləri namizədi

NƏRMİNƏ QULİYEVA
ADİU

SƏRBƏST VƏ SABİT SÖZBİRLƏŞMƏLƏRİ HAQQINDA

Açar sözlər: komponent, struktur, situasiya
Key words: component, structure, situation
Ключевые слова: компонент, структур, ситуация

Söz birləşməsi – iki və daha artıq müstəqil sözlərin birləşməsindən əmələ gələn ayrılmaz bir məna ifadə edən söz qrupuna deyilir. Oruc Musayev «Ingilis dilinin qrammatikası» kitabında qeyd edir ki, müasir ingilis dilində ən azı iki əsas nitq hissəsinin lüğətlərindən ibarət olan və atributiv əlaqə zəminində formalaşan sintaktik vahidə söz birləşməsi deyilir. Söz birləşməsi qrammatik kateqoriyadır.

Söz birləşməsinin özünəməxsus bir sıra xüsusiyyətləri vardır:

-Söz birləşmələrinin hər bir komponenti ayrılıqda olduğu kimi birləşmə daxilində də öz leksik-semantik müstəqilliyini saxlayır, nominativ mənada dərk edilir.

-Söz birləşməsinin əmələ gəlməsində sözlərin leksik və qrammatik mənaları vəhdətdə çıxış edir və biri digərini tamamlayır.

-Söz birləşməsinin komponentləri hərəkətliyini itirmir, aralarındakı əlaqə və münasibət yaradan vasitələr dinamik səciyyəli olur. Söz birləşmələrinin komponentləri real varlığın əşya və hadisələri arasındakı əlaqəni ayrı-ayrılıqda əks etdirir.

-Söz birləşməsinin strukturu dəyişkən olur, nitq situasiyasından, fikirdən asılı olaraq dəyişə bilər. Hər dəfə nitq situasiyasında onların tərkibindəki sözlər onlara mənaca uyğun gələn başqa sözlərlə əvəz oluna bilər.

Söz birləşmələri struktur-semantik modellər əsasında yaranır. Ona görə də belə birləşmələrə nitq prosesində söz əlavə etmək olar, onlarda aparıcı sözü ayırmaq mümkündür. Onun əsasında bir sıra birləşmələr düzəltmək olar. Çünki daimi leksik tərkibə malik deyildir, buna görə də onun sinonimi olmur.

Bu və ya digər xüsisiyyətlər nəzərə alınaraq söz birləşmələri bir-birindən fərqləndirilir.

-Sintaktik məzmununa görə söz birləşmələri- sərbəst və sabit söz birləşmələri olaraq iki qrupa bölünür

Sözlərin əsas və ya düzəltmə nominativ mənalarda birləşməsi yolu ilə yaranan söz birləşməsi sərbəst söz birləşməsi adlanır, belə birləşmə nitq prosesində dilin qrammatikasının mövcud qaydaları əsasında tərtib edilir. Buna görə də dillərdəki sözlərin belə birləşməsi qrammatikanın tədqiqat obyektidir. Bu birləşmələri əmələ gətirən sözlər öz əsl mənalarından uzaqlaşmır və bu səbəbdən də öz leksik müstəqilliyini saxlayırlar, onlar birləşmənin leksik-qrammatik ünsürləri olurlar. Belə birləşmələri hissələrə ayırmaq, təhlil etmək mümkün olur və bu təhlil birləşmənin əsas mənasına təsir etmir.

Sərbəst birləşmələr keçici xarakter daşıyır. Müəyyən dövr və nitq üçün yaranır və bununla da öz fəaliyyətini bitirir. Onlar dildə hazır şəkildə, daşlanmış şəkildə olmur.

Sərbəst birləşmələr sabit birləşmələrdən tamamilə fərqlənir. Onlar keçici xarakter daşımır, dilin tarixi inkişafı prosesində yaranır və sabitləşir. Buna görə də

dildə bu birləşmələrdən hazır şəkildə istifadə olunur. Bu birləşmələri əmələ gətirən sözlər öz əvvəlki mənalarından az və ya çox dərəcədə uzaqlaşır, onların ayrı-ayrılıqda ifadə etdiyi mənalar birləşmənin ümumi mənası fonunda itir və beləliklə, bu sözlər birləşmənin leksik-semantik ünsürlərinə çevrilirlər.

Sərbəst birləşmələr qrammatik, sabit birləşmələr isə leksik birləşmələrdir. Yusif Seyidov öz monoqrafiyasında yazır: «Sərbəst və sabit birləşmələrin oxşarlığı onların mənşəyi ilə bağlıdır. Belə ki, sabit birləşmələr sərbəst birləşmənin məna inkişafı, məna dəyişikliyi nəticəsində yaranmışdır. Sərbəst birləşmənin sabit birləşməyə doğru inkişafı iki xətt üzrə gedir: *1) Sərbəst birləşmənin mənalarının dəyişməsi yolu ilə; 2) Sərbəst birləşmələrin komponentlərinin sabitləşməsi yolu ilə.*

Sərbəst birləşmələrin sabit birləşmələrə doğru inkişafında forma dəyişikliyi getmir, yalnız söz birləşməsi köhnə forma əsasında yeni mahiyyət kəsb edir. Sərbəst birləşmə hansı modelə əsaslanırsa, sabit birləşmə də həmin model əsasında yaranır.

Sərbəst birləşmə müəyyən anlayışları adlandırmaqla yanaşı, real varlıqdakı obyektiv əlaqələri də əks etdirir. Ona görə də bu birləşmənin komponentləri real varlıq hadisələri arasında əlaqələri əks etdirə bilən sözlərdən təşkil olunur. Məsələn: *the leg of table, not – the table of leg, to read the book, not to read the man*

Sabit birləşmədə isə hadisələr, əşyalar, əlamətlər arasında obyektiv əlaqələri əks etdirə bilmir, bir çox hallarda belə birləşmələr əmələ gətirən sözlərin ifadə etdiyi məfhumlar arasında heç bir obyektiv əlaqə hiss etmək olmur. Məsələn: *to catch a chill* və ya *to catch a cold, to keep he secret, to loose heart, to break the silence, to drive smb. mad*

-Quruluşuna görə söz birləşmələri sadə və mürəkkəb birləşmə olaraq iki yerə bölünür:

Sadə birləşmələr iki sözdən ibarət olur. Məsələn: *dead beat – möhkəm yorğun; un interesting film – maraqlı film; dead silence – ölü sükut the small hours – dərin gecə*

Iki və daha artıq sözdən ibarət olan söz birləşmələri *mürəkkəb birləşmələr* adlanır. Mürəkkəb birləşmələr sadə birləşmənin genişlənməsi nəticəsində əmələ gəlir. *to lead a life – həyat tərzi keçmək; to lead a dogs life – it kimi həyat tərzi keçirmək*

-Əsas sözün- ikinci komponentin xarakterinə görə, başqa sözlə tabeedici əsas sözə görə söz birləşməsi iki qrup ayrılır: 1) ismi birləşmələr; 2) fel birləşmələr.

Əsas sözü adlarla və ya substantivləşmiş hər hansı bir sözlə ifadə olunan birləşmələr *ismi birləşmələr* adlanır. Ismi birləşmələrin bir neçə növü vardır. Məsələn:

a) hər iki komponenti isimdən ibarət olan söz birləşmələri:

b) hər iki komponenti ümumi halda işlənmiş isimdən ibarət olan söz birləşmələri, məsələn: *stone wall, honey kid.*

c) birinci komponenti sifət, ikinci komponenti isimdən ibarət olan söz birləşmələri, məsələn: *big rooms, lovely girl.*

ç) birinci komponenti feli sifət, ikinci komponenti isimdən ibarət olan söz birləşmələr, məsələn: *dancing boy, creping child*.

d) birinci komponenti say, ikinci komponenti isim olan söz birləşmələri, məsələn: *five books, two gils*.

e) birinci komponenti əvəzlik, ikinci komponenti isimdən ibarət olan söz birləşmələri, məsələn: my birthday, this room.

Əsas hissəsi-tabeedici sözü fellərdən ibarət olan birləşmələrə *feli birləşmələr* deyilir. Feli birləşmələrdə izah olunan hissə fel, izah edən, aydınlaşdıran hissə müxtəlif nitq hissələrindən ibarət ola bilən asılı tərəfdir. Feli birləşmələrdə əsasən əşyalarla hərəkətlər arasındakı, hərəkətlərlə onların zamanı, məkanı və s. arasındakı münasibətlər ifadə olunur.

Feli söz birləşməsinin komponentlərindən biri və ya hər ikisi fel, digərləri isə başqa nitq hissələri ilə ifadə olunur.

Müasir ingilis dilində feli söz birləşməsi ikinci komponentin hansı nitq hissəsi ilə ifadə edilməsi baxımından 3 əsas qrupa bölmək olar:

1) hər iki komponenti feldən ibarət olan feli söz birləşmələri;
2) birinci komponenti fel, ikinci komponenti fel olmayan söz birləşmələri;
3) üç üzvdən ibarət olan feli söz birləşmələri.

Hər iki komponenti fel olan söz birləşmələrinin tərkibindəki felin semantikasından asılı olaraq, aşağıdakı növlərə ayırmaq olar:

1) tabe komponenti yalnız məsdərdən ibarət olan feli söz birləşməsi;
2) tabe komponenti yalnız gerund olan feli söz birləşməsi;
3) tabe komponenti həm gerund, həm də məsdər olan feli söz birləşməsi;
4) tabe komponenti feli sifət, feli bağlama, məsdər olan feli söz birləşməsi;
5) birinci komponenti fel, ikinci komponenti fel olmayan feli söz birləşməsi;

a) Müasir ingilis dilində iki komponentli feli söz birləşmələrinin ikinci komponenti məsdərlə ifadə edildikdə, birinci komponenti həm təsirli, həm də təsirsiz fel ola bilər. Ikinci komponenti məsdərdən ibarət olur. Arzu, istək, boyun qaçırma, istəməmə, imtina etmə, təsadüflük, gözlənilməzlik və s. mənaları ifadə edən fellərdən sonra məsdər işlənərək iki komponentli feli söz birləşməsi yaradır. Buraya aşağıdakı felləri aid etmək olar: *to want; to decline; to chance; to wish; to refuse; to turn out; to decide; to choose; to determine; to happen* və s.

I didn't want to tell him the truth.

b) Tabe komponenti yalnız gerund olan feli söz birləşməsi. Ikinci komponenti gerund olan iki komponentli feli söz birləşməsinin birinci komponenti həmişə təsirli fel olur. Hərəkətə emosional münasibət bildirən, təsəvvür etmək, xatırlatmaq, təklif, məsləhət, ləngitmə, boyunqaçırma, tələb yayılma, vaciblik, ehtiyac və s. mənaları bildirən təsirli fellər gerundla birləşərək iki komponentli feli söz birləşmələri yaradır. Buraya aşağıdakı felləri aid etmək olar: *to enjoy; to remember; to delay; to love; to imagine; to avoid; to hate; to suggest; to postpone; to resent; to recommed; to faney; to want; to need* və s. Məsələn:

...and that Helen Thomas had scrupulously insisted on paying for, though Julia had asked her not to.

c) Tabe komponenti gerund, həm də məsdər olan feli söz birləşmələri. Tabe söz gerund olduqda tabeedici fel ancaq təsirli fel olur. Ikinci komponent həmişə gerund olan birləşmələrlə adətən *«to fall, to take to, to burst out; to go on; to keep on»* kimi fellərdən sonra gerund işlənir.

Müasir ingilis dilində də elə iki komponentli feli söz birləşmələri vardır ki, onların təsirli fellə ifadə olunmasına baxmayaraq, tabe komponenti həm gerund, həm

də məsdər ola bilər. Bu zaman *«to like, to take, to mean, to propose»* və digər fellər işlənir. Məsələn:

«*I felt that if I went on sitting in that room I'd go mad. He likes writing and what I say is as long as it keeps him, happy why shoudn't he?».*

ç) İkinci komponenti feli sifət, feli bağlama və məsdər olan feli söz birləşmələri. Müasir ingilis dilində hər iki komponenti feldən ibarət olan bir qism söz birləşmələrinin ikinci komponenti həm indiki zaman feli sifəti, həm də keçmiş zaman feli sifətdən ibarət olur. Bu qəbildən olan iki komponentli feli söz birləşməsinin birinci komponenti məkan daxilində vəziyyət bildirən təsirsiz fel olur. Bu qism fellərə «*to sit, to stand, to lie, to hang»* və s. fellər aid edilir. Məsələn:

«The circumstance inexplicable, the value of the stone was plainly so enormous, that Francis sat staring into the open casket without movement.»

d) Müasir ingilis dilində ən çox yayılmış feli söz birləşmələrindən biri də birinci komponenti fel, ikinci komponenti fel olmayan söz birləşmələridir. Bu növ birləşmələrin tabeedici komponenti həm təsirli, həm də təsirsiz fel, tabe komponenti başqa nitq hissəsinə aid söz və ifadədən ibarət olur. Birinci komponent həm təsirli, həm də təsirsiz fel ola bilən, ikinci komponenti sözönlü isimdən ibarət ola bilən feli söz birləşmələrinə misal olaraq aşağıdakı nümunələri göstərmək olar:

«She walked along the Buckingham Palace Road, and through the park.».

«One day we went to tea at Mrs.Greencourts who had staying with her cousin.».

İkinci komponenti isim və ya əvəzliklə ifadə olunarsa (ikinci komponent tamamlıq xarakterli olduqda) birinci komponenti təsirli fel olur.

«Still he slept dead.».

Birinci komponenti təsirsiz feldən, ikinci komponenti sifət və feli sifət də işlənə bilər. Birinci komponenti « to go, to come, to run, to fly, to ride, to rise, to fall, to look, to fell, to smell, to taste, to prove, to sum, to appear» və s. bu kimi hərəkət, məkan daxilində vəziyyət, hiss orqanlarına təsir edən, fiziki xüsusiyyət mənaları bildirən təsirsiz fellərdən ibarət ikinci komponenti sifət və ya feli sifət olan feli söz birləşməsi mövcuddur.

Ədəbiyyat

11. Musayev O. Ingilis dilinin qrammatikası. B., «Maarif», 1979.
12. Seyidov Y.M. Azərbaycan ədəbi dilində söz birləşmələri. 1966.
13. Vəliyeva N.Ç. Frazeoloji birləşmələrinin müqayisəli linqvistik təhlili. Bakı, «Ünsiyyət nəşriyyatı». 2001.
14. Ilyish S.A. The structure of Modern English. Leningrad, 1981.
15. Jespersen O.A. Modern English. Grammar. 1971.
16. Smith L.P. Words & Idioms. London, 1948.
17. Амосова Н.М. Основы английской фразеологии. Из-во Ленинградского Университета. М.Л., 1963.
18. Виноградов В.В. Из истории изучения русского синтаксиса. М., 1958.
19. Смирницкий А.Л. Лексикология английского языка. Из-во Литература на иностранных языка. М., 1956.

N.Quliyeva

Word combinations and stable units

Summary

In language studies there are two very clearly-marked tendencies that student should never lose sight of, particularly when dealing with the problem of word combination. They are 1) the analytical tendency, which seeks to dissever one component from another and 2) the synthetic tendency which seeks to integrate the parts of the combination into a stable unit. The article touches upon the components of word combinations and stable units and classifies them.

Н. Кулиева

Лингвистических факторов сочетаемости лексических единиц

Резюме

Задача настоящей статьи – уточить некоторые, на наш взягляд, наиболее интересный направления изучения лингвистических факторов сочетаемости лексических единиц. Актуальность данной проблема очевидна, так как имеющиеся многочисленные исследования сочетаемости, особенно на уровне отдельных лексических микросистем.

Rəyçi: Füruzə Kərimova
filologiya elmləri namizədi

ÇİMNAZ ALXASOVA
ADİU

MƏCAZLAR DİLİN LÜĞƏT TƏRKİBİNİ ZƏNGİNLƏŞDİRƏN VASİTƏ KİMİ

Açar sözlər: metafora, metonimiya, alleqoriya
Key words: metaphor, metonymy, allegory
Ключевые слова: метафора, метонимия, аллегория

Sözün həqiqi mənası əşyanı adlandırmaq üçündürsə, məcazi məna onu təsvir etmək üçündür. Çünki söz məcazi məna kəsb etdikdə, obrazlılıq kimi keyfiyyətə sahiblənir və fikrin təsirli, mənalı ifadəsinə xidmət edir. Məsələn, bir nəfərin möhkəm, sarsılmaz adam olduğunu qeyd etdikdə, "dəmir iradəlidir" ifadəsi işlədilir. Belə olduqda, *dəmir* sözü həmin tərkibdə həqiqi mənada yox, məcazi mənada işlənir. Çünki *dəmirə* məxsus keyfiyyətlər müqayisə və bənzəyiş yolu ilə insanın səciyyəvi, ən xarakter xüsusiyyətini qabarıq şəkildə qiymətləndirir.

Məcazi məna sözün təbiətinə şiddətli təsir göstərib onun funksiyalarını dəyişdirə, bir leks-semantik qrupdan, kateqoriyadan başqasına keçirə bilər. Belə ki, nominativ mənalarına görə sinonim olmayana sözlər məcazlaşdıqda sinonimləşib yaxın mənalı sözlərə çevrilə bilər. Məsələn, *hacıleylək, qurbağa, tısbağa* kimi sözlər nominativ mənalarına görə quş və heyvan adlarıdır. lakin məcazi mənada həmin sözlər çirkinlik, eybəcərlik anlayışları bildirib sinonim əlaqələr yaradır. Yaxud *qarğa* və *bayquş* kimi sözlər nominativ mənada müxtəlif quşların adlarıdır. Məcazi mənada isə uğursuzluq, simvolu funksiyasındaçıxış edir. İngilis dilində ağılsız adama məcazi mənada *"goose"* deyilir.

Məcazi məna əslində əks məna bildirməyən leksik vahidləri antonim sözlərə çevirə bilər. Məsələn, *aslan* və *tülkü* ingilis dilində *lion, fox* kimi sözlər nominativ mənalarına görə müxtəlif heyvan adları bildirir. Lakin bu heyvanlara məxsus ən xarakter xüsusiyyətlər (aslanın cəsarətliliyi, şücaəti, tülkünün isə hiyləgərliyi, qorxaqlığı) həmin sözləri məcazi mənada işlətməyə və üslubi məqsədə müvafiq qarşılaşdırmağa imkan verir.

Məcazi mənalardan bir qismi ümumxalq dilinə məxsusdursa, o biriləri yalnız bədii dildə işlənir və bədii mətn vasitəsilə aydınlaşır. Deməli, sözün həm ümumişlək məcazi mənası, həm də sitautiv məcazi mənası olur. O məcazi məna ki, dilimizdə sabitləşmiş və bütün kollektiv tərəfindən qəbul edilərək işlənir, ona dilin ümumişlək məcazi mənası deyilir. Əgər məcazi məna bu və ya digər konkret münasibətlə bədii-üslubi şəraitə uyğun yaranmışsa, ona situativ məcazi məna deyilir. O, sözün həqiqi mənasında törənsə belə, yenə də onun semantik strukturasına daxil olmur, bədii əsərin üslubi vasitəsi olaraq qalır. Bununla belə, sözdən yaradıcı şəkildə istifadə edən sənətkar həmişə xalq dilinə əsaslanır, bu dilin normalarına müvafiq yeni və maraqlı tərkiblər düzəldir.

Bədii dildə məcazların hər iki növündən geniş istifadə edilir. Lakin ümumişlək məcazlardan fərqli, situativ məcazlar daha qüvvətli bədii təsvir vasitəsi kimi çıxış edir. Onu da qeyd etmək lazımdır ki, müəyyən şəraitdən asılı olaraq situativ məcazi məna ümumişlək məcazi mənaya çevrilir. Lakin bu heç də ümumişlək məcazi

məna və fərdi məcazi məna arasında olan ıırinsiıial fərqi yox etmir. Situativ fərdi məcazi məna sözün ilkin-obyektiv mənası əsasında əmələ gəlir və ondan asılı olur. Sözün ümumişlək məcazi mənaları baş və ikinci dərəcəli mənaları ilə birlikdə onun çoxmənalılılığının əsasını təşkil edir. Situativ məcazi məna isə bu və ya digər yazıçının bədii yaradıcılıq fantazisyasının məhsulu kimi qiymətləndirilir.

Situativ məcazların bədii dildə yaranması birinci növbədə bədii əsərin ümumi məzmunu və üslubi tələbləri ilə bağlıdır. Əsl bədii əsərdə onlar heç bir vaxt təmtəraqlılıq və gözəllik üçün yox, birinci növbədə bədii əsərin quruluşu, ideya və məzmununun obrazlı şəkildə izahı ilə əlaqədar yaranır.

Ümumişlək məcazlar da öz xarakterinə və mahiyyətinə görə müxtəlifdir. Bunlardan bir qismi tamamilə obrazlılığını itirmiş, nitqdə adi söz və ifadələr kimi işlənirvə artıq məcaz kimi qəbul edilmir (məs.: dağın ətəyi, ağacın qolu, ay doğur, qazan qaynayır və s.) bəziləri isə (şirmayi barmaqlar, acı təbəssüm, dəmir iradə, gül yanaq, mirvari dişlər və s.) hələ də obrazlıdır. Odur ki, bu cür məcazlar situativ məcazlarla birlikdə bədii üslubda təsvir vasitəsi kimi işlənir.

Məcazın mahiyyətini ilk dəfə qədim yunan alimləri təyin etmişlər. Antik dövrün alimləri məcazın təbiətini öyrənib qeyd etmişlər ki, məcaz sözün mənası ilə bağlı olan semantik bir hadisədir.

Mənşə etibarilə məcaz olduqca qədimdir. Ehtimal ki, məcaz qədim insanların dünyagörüşü, təbiətə münasibəti ilə bağlı əmələ gəlmişdir. Hər bir xalqın dilində işlənən məcazlar həmin xalqın yaşadığı coğrafi şərait, təbiət, iqlim, mühit, təsərrüfat fəaliyyəti və s. ilə bağlıdır. Ona görə də, hər dilin özünəməxsus səciyyəvi məcazlar sistemi vardır. Məsələn, rus ədəbiyyatında *tozağacı (bereza), cökə (lina), ağcaqovaq (osina)* kimi ağacların adı məcazlaşırsa, milli ədəbiyyatımızda məcazi mənada daha çox *çinar, sərv, sənubər, yasəmən, nalıd* kimi ağac adları işlənir.

İngilis və Azərbaycan bədii ədəbiyyatında gözəl qadın və onun cizgiləri adətən qızıl gülə bənzədilir. Məsələn,

Qızılgül, bağ-büstanım nə dersən? (Xətai)

Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, bu və ya digər əşya, hadisə hər xalqda eyni hiss oyatmır. Yəni bir xalqın təfəkkür və dilində bu və ya digər əşya müsbət təsəvvür və obrazlı ifadələr yaratdığı halda, başqa bir xalqda həmin obyekt mənfi eksıressiya oyadır. Məsələn, hind xalqı fili əzəmətli, alicənab heyvan kimi qiymətləndirdiyi üçün bədii yaradıcılığında da həmin heyvanın adı müsbət mənada ıoetikləşir. Belə ki, qeyri-adi gözəlliyə malik qadınların yerişi filin əzəmətli yerişinə bənzədilir, tərif edilir. Rus dilində isə "ıoxodka kak u slona" ifadəsi mənfi məna ifadə edir: yəni zırrıı, ağır, kobud.

Hindlilər inəyi mehriban, mərhəmətli, xoşxasiyyət heyvan hesab etdikləri üçün, əsərlərində də inək müqəddəs ana rəmzi kimi qəbul edilir və həmin sözdən gözəl qadının təsviri zamanı istifadə olunur. Rus dilində isə inək yöndəmsiz və eybəcər qadının səciyyəsi üçün işlənir. Azərbaycan ədəbiyyatında qəşəng qadın, onun simasının cizgiləri və nazlı-qəmzəli yerişi əksərən ceyran, maral, kəklik, tərlan, durna, sona sözləri vasitəsilə təsvir edilir. Bu da təbiidir. Çünki təbiətimizə məxsus həmin heyvanlar hələ qədim zamanlardan xalq arasında ən yaraşıqlısı kimi qiymətləndirilmiş və gözəlliyin rəmzi olaraq xalq ədəbiyyatımızda, sonralar isə bədii əsərlərdə işlənmişdir.

Filoloji ədəbiyyatda məcazın təsnifi məsələsi də müəyyən mübahisələrə səbəb olmuşdur. Antik dövrlərdən başlayan həmin mübahisələr bu günə qədər davam etməkdədir. Hal-hazırda alimlərin əksəriyyəti məcazın metafora, metonimiya, alleqoriya, epitet, təcəssüm, sinekdoxa kimi növlərini fərqləndirir. Bununla belə, bir sıra əsərlərdə məcazların sırasına müqayisə və kinayə, bəzilərində isə hətta mübaliğə, təşbih, rəmz, də daxil edilir.

Məcaz olduqca müxtəlifdir. Bu müxtəliflik sözün əşyavi-məntiqi əlaqələrinin rəngarəngliyi ilə bağlıdır. Həmin əlaqələrin xarakterindən asılı olaraq məcazın müxtəlif növləri özünü göstərir. Bunlardan yığcamlıq və ifadəlilik cəhətdən ən qüvvətlisi metaforadır. Odur ki, məcazlar sistemində metaforaya birincilik verilir. Onun ardınca metonimiya, epitet və sinekdoxa gəlir ki, məcazın bu növləri də dilin mənalı nitq vahidləridir. Məhz metafora, metonimiya, sinekdoxa və epitet polisemiyanın əsas növləri olub lüğət tərkibinin obrazlı leksikasını təşkil edir.

Azərbaycan filologiyasında xeyli müddət məcaz, əsasən, ədəbiyyatşünaslıq elminin tədqiqat obyekti hesab edilmiş və ədəbiyyat nəzəriyyəsi kitablarında işıqlandırılmışdır. Dilçilikdə isə məcaz haqqında ilk məlumat orta məktəb dərsliklərində verilir. Lakin son illər həmin məsələ alimləri daha yaxından maraqlandırmağa başlamışdır ki, nəticədə məcaz haqqında bir sıra əsərlər yazılmışdır.

Obrazlı leksikanı təşkil edən məcazlar bədii dilin ən əsas ifadə vasitəsi, onun tikinti materialıdır. Məcazların bədii əhəmiyyətinin düzgün müəyyənləşdirilməsi üçün onların ayrı-ayrı növlərinin xüsusi tədqiqata ehtiyacı vardır.

Dildə obraz yaradan vasitələrdən biri də metaforadır. Orta əsrlərdə obrazlılıq dedikdə məhz metafora nəzərdə tutulurdu. Aristotelə görə əsl, orijinal metafora bənzəri olmayan əşya və hadisələr arasında oxşarlıq tapmağı tələb edir. Buna isə yalnız dahi sənətkarlar və qüdrətli söz sahibləri qadirdir.

Dahi sənətkarların yaratdıqları orijinal metaforalar daim öz həyatiliyini, parlaqlığını qoruyub saxlayır və sonrakı dövrlərin bədii ədəbiyyatında bu cür metaforalara tez-tez müraciət olunur. bəzən isə bu metaforalar obrazlılığı, kaloritliyi artırmaq üçün dəyişdirilir. Dildə yeni yaranan, əvvəlcə məlum olmayan metaforalar "xalis", "orijinal" artıq nəinki bədii ədəbiyyatda, eləcə də danışıq dilində işlənən və hətta öz əksini lüğətlərdə tapan metaforalar isə "daşlaşmış" və ya "ölü" metaforalar adlanır.

Klassik ingilis poeziyasını nəzərdən keçirərkən biz həmin əsərlərin həm orijinal, həm də qədim yunan, roman və latın mənşəli metaforalarla zəngin olduğunu görürük. Bu əsərlərdə apardılan paralellər tamamilə yüksək bədiiliyə xidmət edir. Bütün bunlara cavab olaraq V.Şekspirin və C.Q.Bayronun əsərlərindən parçalara nəzər salaq:

Thou art thy mother's glass, and she in thee.
Calls back the lovely April of her prime;
So thou through windows of thine age shall see
Despite wrinkles this thy golden time (V.Şeksnir, sonet 3).

Göründüyü kimi bəndin bütün misraları bir-biri ilə əlaqəli olan zəncirvari metafora ilə zəngindir. Şair *"the lovely April of her prime"* deyərkən *"ömrün baharını",* yəni gənclik dövrünü nəzərdə tutur. Şekspirə görə insan yaşa dolarkın öz gəncliyini *"ömür aynasında" ("windows of thine age")* görə bilər. *"Ömrün aynası"* dedikdə isə şair övladları nəzərdə tutur. Hər bir kəsin övladı onun gəncliyini əks

etdirən güzgüdür. Bəndin III misrasında verilən *"through windows of thine age"* metaforik obrazı I misradakı *"thy mother's glass"* metaforası ilə paralellik təşkil edir.

Və yaxud:

When forty winters shall beseige thy brow
And dig deep trenches in thy beauty's field
They youth's proud livery, so gazed on now.
Will be latter'd weed, of small worth held (V.Şeksnir, sonet 2).

I misrada verilən *"forty winters"*, əvvəlcə nəzərdən keçirdiyimiz *"lovely April" metaforik obrazın əksinə olaraq "ömrün qürub çağını", "ömrün qışını",* yəni qocalıq dövrünü bildirir *"Forty" (40)* qərəmi əsasən intibah dövrü ədəbiyyatında dəqiq müəyyən olmayan sayı göstərmək üçün işlədilirdi.

Ümumiyyətlə Şeksnirə qədər olan dünya ədəbiyyatında bu metaforalara tez-tez rast gəlinir. Nizamidən, Füzulidən, Vaqifdən üzü bəri klassik Azərbaycan ədəbiyyatında da bu cür ifadələr öz obrazlı həllini tarımışdır. Göründüyü kimi, bu nümunələrdə təbiət, təbiətdə baş verən hadisələr, fəsillərin bir-birini əvəz etməsi və s. insan üzərinə köçürülür və sanki o özü kainatda baş verən proseslərı əks etdir.

Metaforanın (yunan sözü *metafore*, yəni məna kecirilməsi) vasitəsilə isə bir necə anlayışı adlandırmaq olur.

Qeyd olunmalıdır ki, bir predmetin adını başqasının üzərinə köçürüb işlətmək ücün həmin obyektə xas olan əlamətlərdən birisi (bəzi hallarda bir neçəsi) əsas ola bilər. Məsələn, *tülkü* heyvan adıdır. Bu heyvana məxsus hiyləgərlik, biclik, qorxaqlıq kimi səçiyyəvi xüsusiyyətlər onun adının metaforaya cevrilməsinə zəmin yaradır. Belə ki, müəyyən bir şəxsdə bu əlamətlərdən yalnız birinin olması rnu *tülkü* sözü ilə adlandırmaq ücün kifayətdir.

Filologiya elmində metafora bədii təsvir vasitəsi kimi qiymətləndirilir. Halbuki, metaforanı yalnız bədii dilə aid hesab etmək olmaz. Metafora ümumiyyətlə emosional-ekspressiv xarakterə malik çanlı danışıq dilinə aiddir. Bu barədə alman alimi Qerman Paul cox düzgün olaraq yazır: "Metafora elə bir şeydir ki, o zəruri şəkildə insanın təbiətindən irəli gəlir və nəinki poetik nitqdə, hətta və ən əvvəl obrazlı ifadələrə və parlaq epitetlərə daima müraçiət edən xalqın məişət-danışıq dilində əmələ gəlir".

Deməli, obrazlılıq ümumiyyətlə dilə, xüsusilə çanlı danışıq dilinə xas olan bir çəhətdir. Həmin fikri metaforanın təbiəti ilə xüsusi olaraq maraqlanan B.Meylax da təsdiq edir: "Metafora yalnz bədii dilin yox, ümumiyyətlə, insan təfəkkürünün malıdır".

Yalnız insan təfəkkürü varlıqda mövcud olan müxtəlif əşyalar arasındakı bənzər əlaqələri dərk edib onları eyni söz tərkibi ilə adlandırmağı bacarır. Bu isə metaforanın geniş işlənmə diapazonuna malik olduğunu bir daha təsdiq edir. Belə ki, birinci növbədə canlı danışıq dilinə məxsus olan metaforadan geniş şəkildə bədii dildə, yeri gəldikcə publisistikada da istifadə edilir. canlı danışıq dilindən fərqli bədii üslubda metaforanın daha mənalı və daha orijinal formaları meydana çıxır. Bədii yaradıcılıqda metafora ən qüvvətli bədii ifadə və bədii təsvir vasitəsi kimi çıxış edir.

Ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti. Bakı, 1966.
2.Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı, 1962.
3.Əfəndiyeva T. Azərbaycan dilinin leksik üslubiyyatı. Bakı, 1980.
4.Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı, 1954.
5.Məmmədov N. Dilçiliyin əsasları. B., 1961.
6.Антрушина Г.Б. Из истории слов и их значений. М., 1960.
7.Арнольд И.В. Лексикология современного английского языка. М., 1973.
8.Виноградов В.В. Русский язык. М., 1947.
9.Гальперин И.Р. Очерки по стилистике английского языка. М., 1958.
10. Кацнельсон С.Д. Содержание слова, значение и обозначение. М.-Л., 1965, стр. 38.

Chimnaz Alxasova

Figurative meanings entich the language word stock

Summary

The study of expressive language deals with the description of the linguistic code that are endowed with an emotional function. There are contextual meaning and transferred meaning as well as connotative and denotative meaning. Connotative meaning is figurative meaning of the word but it has subjective character (creation of the author) but denotative which is denoted in the dictionary.

Чимназ Алхасова

Тропы обогащают словарный запас языка

Резюме

Экспрессивные структуры представляют собой важную и неисследованную область лингвистики. Каждое слова имеет денотативное и коннотативное значение. Изучение экспрессивного языка сводится к описанию лингвистического кода, наделенного эмоциональной функцией.

Rəyçi: N.Nəcəfov
filologiya elmlər namizədi

GÜNEL ORUCOVA
AMİ – nin Salyan filialının "Humanitar
fənlər və tədrisi metodikası"

AZƏRBAYCAN DİLİNDƏ ALINMALARIN MİLLİ KÖKƏNLİ SÖZLƏRLƏ ƏVƏZLƏNMƏSİ MƏSƏLƏSİNƏ DAİR

Açar sözlər: milli kökən, dialektlər, türk dilləri ilə ortaq sözlər, arxaizmlər, kalkalar, söz yaradıcılığı
Ключевые слова: диалекты, архаизмы, словосоставление.
Key words: national origin,dialects,the same words which are used in turkish language, word kreation

Ümumi dilçilik elminin mübahisəsiz qəbul etdiyi məsələlərdən biri dilin lüğət tərkibində başlıca leksik təbəqənin bu və ya digər dilin öz sözlərindən ibarət olması fikridir. Bu qatın əsas əlamətləri onun uzun əsrlər boyu yaşaması, sabitliyi, xəlqiliyi və lüğət tərkibinin inkişafı üçün baza olmasıdır. Azərbaycan dilinin lüğət tərkibinin əsasını da onun öz sözləri təşkil edir. Qədim zamanlardan başlayaraq dilimizin bu leksik qatı bağımsız inkişaf yolu keçmiş, ədəbi dilimizin lüğət tərkibinin artıb zənginləşməsində əsas qaynaq olmuşdur. Bu əsasda yaranan sözlər sayca azlıq təşkil etsə də, məzmun və şəkil etibarilə alınma sözlərdən üstündür. Dilimizin lüğət tərkibinin zənginləşməsində belə sözlərin rolu önəmlidir. Ümumxalq danışıq dilindən alınmış sözlər həm klassiklərimizin əsərlərinin dilində, həm çağdaş ədəbi dilimizdə, həm də danışıq dilində işlənib nəsildən-nəslə keçərək gəlib bugünki dönəmə çıxmışdır. Ədəbi dilimizin ümumxalq dili əsasında gəlişməsində belə sözlər həlledici önəmə malik olmuşdur.

Doğrudan da, Həsənoğlu, Nəsimi, Xətayi, Füzuli, Vaqif, M.F.Axundzadə və başqalarının əsərlərlərinin dilinin bu gün asanlıqla başa düşülməsinin səbəbi də məhz belə sözlərdir. Fikrimizi sübut etmək üçün misallara baxırıq:

Necəsin, gəl, ey yüzi ağum bənim!
Sən əritdün odlara yağum bənüm! Həsənoğlu.

Düşdü yenə dəli könül gözlərinin xəyalinə
Kim nə bilur bu könlümün fikri nədir, xəyali nə? Nəsimi.

Eşq içrə əzab olduğun ondan bilirəm kim,
Hər kimsə ki, aşiqdir, işü ahü fəğandır! M. Füzuli.

Heç təsadüfi deyil ki, ədəbi dilimizdə bir çox söz və terminlər ümumxalq danışıq dilindən alınaraq işlədilmişdir. Tarixən Azərbaycan dilinin bir neçə dəfə dövlət dili elan edilməsi, ana dilində məktəblərin açılması, publisistik üslubun geniş yayılması dilimizdə yeni sözlərin yaranmasını və bunların birinci növbədə ümumxalq danışıq dilindən alınıb işlədilməsini qarşıya qoydu. Bu yeni sözlərin bəziləri dilimizdə işlədilən və xalqımız tərəfindən anlaşılmayan ərəb, fars, söz və terminlərini əvəz etmək üçün yaranmışdır.

Aydındır ki, ərəb-fars sözlərinin Azərbaycan dilində özünə geniş yer qazanması böyük tarixə malikdir. "XI-XII əsrlərdə ümumi türk ədəbi dili daha

sürətlə islam keyfiyyətlərini qəbul edir. Ərəb və bunun ardınca fars dillərindən ümumən türk dillərinə (ləhcələrinə) sözlər, qrammatik modellər keçir" [8, s.69].

Bu keçid uzun müddət özünü qoruyub saxlayıb. Düzdür, bu sözlərin bir qismi ana dilinin öz sözlərinə elə qaynayıb-qarışıb ki, onları ayırd etmək bəzən çətin olur. Bunun əsas səbəbi belə sözlərin ya zatən Azərbaycan dilinin fonetik və qrammatik qanunlarına uyğun olması, ya da uyuşmaya uğramasıdır. Lakin buna baxmayaraq, bu sözlər "hörmət qazandıqca" milli, ana dilinə aid leksik vahidləri yavaş-yavaş sıxışdırmış, hətta bir qisminin arxaikləşməsinə yol vermişdir.

İnkar edilmir ki, alınmalar dilin lüğət tərkibinin zənginləşməsində rol oynayır, təbii ki, milli kökənli sözlərin nüfuzuna toxunmamaq şərti ilə. Lakin ərəb və fars dilinin uzun müddət Şərq xalqlarında, həmçinin, Azərbaycanda elm və poeziya dili olması onların ümumxalq dilinə təsir göstərməsinə səbəb olmuşdur. "Ərəb və fars dillərinin təsiri dilimizin tarixində hər an müsbət hal hesab olunmur. Çunki ərəb və fars dillərinin təsiri bu və ya başqa dillərin, o cümlədən Azərbaycan dilinin qarşılıqlı gəlişməsinə xidmət etməyərək yerli dilləri sıxışdırıb sıradan çıxarmaq qorxusu altına salırdı. Belə bir durum isə dilin inkişafına olumsuz təsir göstərirdi. Ərəb və fars dillərinin bu təsiri uzun zaman Azərbaycan dilinin zənginləşməsinə, onun gəlişməsinə ciddi şəkildə mane olmuşdur" [5,s.198].

Yaxşı ki, bu təsir türk ədəbi dillərini ümumxalq dili qaynaqlarından məhrum edə bilməmişdir. Bunun da səbəbi müəyyən çağlarda folklor ədəbiyyatının üstünlük qazanması və Səfəvilər dövlətinin türk dilini dövlət dili elan etməsi olmuşdur. Eyni zamanda klassiklərimizin ana dilli yaradıcılığında xalq dilindən geniş yararlanması da rol oynamışdır.

Dilin söz sistemində alınmaların da rolu olduğunu bayaq qeyd etdik. Əlavə edirik ki, alınmalar zərurət yarandıqda dildə işlənməsinə hüquq qazanır. Bu gün alınmaların mövqeyindən danışarkən onların yavaş-yavaş dildən çıxarılması, ana dilli sözlərlə əvəzlənməsi məsələsində hətta bəzi ziyalılar arasında narazılığın və "qısqanclığın" yaranmasına bir neçə səbəb var. I. Belə alınmaların bir qismi dəyişiklik edilərək mənimsənilən (yəni fonetik, qrammatik qaydalara tabe olan) sözlərdir, məsələn: ğorbət-qürbət, adəm-adam, fikr-fikir və s. II. Bu sözlərin artıq daşlaşması, "öz yerini möhkəmlətməsidir". Belə ki, bu gün az qala hamı unudub ki, onların ana dilimizdə əvəzedicisi (ekvivalenti) var. Sual oluna bilər ki, bu mənbələr hansılardır? Əlbəttə, yerli dialektlər, güclü təsir nəticəsində unudulmağa məcbur olmuş arxaizmlər, digər türk dilləri ilə ortaqlı sözlər, kalka üsulu ilə yaradıla biləcək leksik vahidlər. Dilimizin başqa daxili imkanları hesabına söz yaratmaq prosesi ümumilikdə alınmaları (ərəb, fars, avropa əsilli sözlər) tədricən üstələməlidir.

Sözsüz ki, bu qısa sürə ərzində olağan iş deyil. Buna səy etmək, çalışmaq kifayətdir. Bir fakta diqqət yetirək. Dilimizdə dəniz, yol, ay, günəş, göz, ox, ətək, tək, səs, dil və b. olduğu halda, vaxtilə həmin sözlərin əvəzinə bəhr, rah, mah, afitab, çeşm, peykan, damən,tənha, səda, lisan sözləri daxil edilmişdir. Lakin bu sözlər hakim mövqe tuta bilməmiş, dilimizdə daha çox işlənən əvvəlki sözlərlə müqayisədə geniş istifadə dairəsinə çıxa bilməmişdir. Çünki xalq özünə aid sözləri daha çox sevmiş, belə alınmaların yayılmasına əngəl olmuşdur. Heyif ki, xalq dili həmişə belə aktiv olmamışdır. Bir çox hallarda alınmalar daha güclü şəkildə "əks-hücuma" keçmişdir. "Dilin inkişafının müxtəlif dövrlərində ümumxalq dilinin sözləri ilə məhəlli dialektlərə məxsus olan sözlər arasında əlaqə və münasibətlər də çeşidli olur.

Buna görə ümumxalq milli dilin formalaşmasında yerli dialektlərin rolu böyükdür. Yerli dialektlərin bəziləri inkişaf edərək milli ədəbi dilin əsası olur" [3,s.195].

Cəmiyyətin həyatına daxil olmuş hər hansı bir anlayışı ifadə etmək üçün birinci növbədə canlı danışıq dilinə, dialektlərə baş vurulur, uyğun sözlər ədəbi dilə gətirilir. Bu işdə şair, ədib, alim və mətbuat işçilərinin rolu əvəzsizdir. Onlar xalq dilinin zənginliyindən aramsız olaraq istifadə edirlər: dialektlərimizdə və xalq dilimizdə olan zəruri sözləri əsərlərində işlədir və ədəbi dilimizin lüğət tərkibini yeni leksik vahidlərlə artırırlar. "Müxtəlif qaynaqlar vasitəsilə ədəbi dilə gətirilən dialekt sözlərini ayrı-ayrı müəlliflər əsərlərində işlətməklə bərabər, yeri gəldikcə, dialektlərdən yeni sözlər də alırlar. Belə sözlərdən Ə.Vəliyevin əsərlərində rast gəldiyimiz hodaq (kotana qoşulan birinci cüt öküz); şumal (düz və hamar); vər (pambıq cərgələrinin arası); Səməd Vurğunun əsərlərindəki ilğım (miraj), ayrıc (yolun ayrıldığı yer), sayrışmaq (yanıb-sönmək), R.Rzanın əsərlərindəki nohur (süni göl), sırsıra (navalçadan damcılayan suyun donması nəticəsində yaranmış ucu biz buz biçim, şəkil), O.Sarıvəllinin əsərlərində tığ (pambıq tığı), yelən (kələğayının, yorğanüzünün, parçanın haşiyəsi) və s. sözləri göstərmək olar [4,s.242]

Alimlər öz elmi-araşdırma əsərlərində dialekt və şivə sözlərindən, əsasən, termin yaradıcılığında istifadə edirlər. Kənd təsərrüfatı, sənaye, tikinti və s. sahələrlə ilgili olan xeyli dialektizmlər ədəbi dilə daxil olmuş, onun gəlişməsinə xidmət etmişdir. Eləcə də dilin öz mübadilə üsulu çağdaş ədəbi dilimizdə işlətdiyimiz bir sıra sözləri dialektlərdən gətirmişdir. Məsələn: sağıcı, bürkü, yöndəm, qınamaq, güvənmək, qumral, yarğan, naxırçı, alaq, budamaq, qaysaq, ayaqçı, çırpı, cod, dalan, deyişmək, ismarıc və s. sözlər bu qəbildəndir. Artıq dilin ümumişlək sahəsinə keçən bu sözlər özlərini ədəbi söz kimi təsdiq etmişdir. Bu gün belə sözlər heç bir sorun olmadan hamı tərəfindən qəbul edilmişdir. Bu prosesi daha da gücləndirmək heç də pis olmaz. Özü də bu, məqsədli şəkildə həyata keçməlidir. Şübhəsiz ki, ədəbi dilin lüğət tərkibi yerli dialektlərin lüğət tərkibindən çox zəngindir. Ədəbi dil insanların bütün iş sahələrini əhatə etdiyi üçün, onun təsir dairəsi yerli dialektlərin təsir dairəsindən qat-qat genişdir.

Lakin bu, dialektlərin ümümxalq milli dil üçün baza olmaq önəmini olumsuz etmir. Ona görə də heç nədən çəkinmədən dialektlərə üz tutmaq olar. Lakin sayıq olmaq lazımdır ki, hər bir dialektizmi ədəbi dilə gətirmək olmaz. Burada əsas məqsəd alınmaların milli sözlərlə əvəzlənməsi məsələsidir. Ona görə də ümümxalq ədəbi dilində qarşılığı olan milli sözlərin əvəzinə belə gərəksiz dialektlərə ehtiyac yoxdur. Həmçinin sözün özü leksik vahid kimi kobud olmamalıdır (bedənçərə, bığıldatmaq, curumbullamax, çortdağan, danqartağ və bu kimi).

Dilimizin sözlüyünün daha çox payını alınmalar, özəlliklə ərəb və fars sözləri təşkil etdiyi üçün əsas hədəf onlar seçilməlidir. Biz bütövlükdə ərəbizm və farsizmlərin əleyhinə deyilik. Sadəcə onların itib-batmış, unudulmuş, ya da dialektlərdə "yatan" variantlarının dirçəlməsinin tərəfindəyik. Ərəb, fars sözlərinin işlənmə dairəsinə baxsaq, təbii ki, ərəb sözləri say çoxluğu ilə seçilir. Belə ki, fars sözləri, əsasən, məişət və poetik anlayışlar ifadə etdiyi halda, ərəb sözləri bunlarla bərabər, ictimai-sosial, publisistik terminləri və bütün dini söyləmləri əks etdirir. Bunlardan sonuncusunu əvəzləmək həm mümkün, həm də məqsədə uyğun deyil. Məişət, deyimləri və bəzi ictimai anlayışları əvəzləmək üçün aşağıdakı dialektizmləri misal göstərmək olar: avazımaq-rəngi qaçmaq; ayaqaltı-nərdivan;

azman-nəhəng; başcıl, başlıq-sərlövhə; birənti-məcmu, cəm, civər-nəcib; com-nəsil, tayfa; çeşni-şəkil, surət; çəm-imkan; çətən-xeyli, çimir-mürgü, çul-taqət, dayanıqlı, dayanqan-möhkəm, tab gətirən, kimlik-şəxsiyyət vəsiqəsi, deqan-tənzif, çeçin-təəccüblü, qəribə, könd-meyil və s.

Çağdaş Azərbaycan dilinin leksikasını qədim dövrlərlə müqayisə etdikdə dəyişiklik, fərqli özəlliklər nəzərə çarpır. Əlbəttə, bu, doğal haldır. Hər bir dilin leksikasında zaman keçdikcə dəyişiklik baş verir və bu dəyişiklik birdən-birə deyil, tədriclə olur. çağdaş dilimizin leksikasında baş vermiş dəyişikliyin bir qolunu sözlərin köhnəlməsi, onların istifadə dairəsinin daralamsı və nəhayət, fəaliyyətdən qalması, dildən çıxması təşkil edir. Əslində cəmiyyətin və dilin inkişafı nəticəsində milli sözlərin yerli-yersiz bu axına düşməsi olumlu hal sayılmır. Arxaikləşən elə leksemlər var ki, onlar çox da böyük ehtiyac olmadan ərəb-fars sözləri ilə əvəzlənib. Həmin unudulmuş doğma sözlərə yenidən can vermək söz fondumuzun xeyrinə olar." Arxaik sözlərin bəziləri dilin inkişafı ilə əlaqədar olaraq, qeyri- fəallıqdan fəal sözlər sırasına qayıda bilər. Məsələn, rus dilində ukaz, mayor, serjant, ofiser və s. sözlər bu qəbildəndir". [3,s.193]. Azərbaycan diliçiliyində köhnəlmiş sözlər kimi qiymətləndirilən bir qisim sözlərin yenidən vətəndaşlıq hüququ alması heç bir dil pozuntusu sayılmaz. Belə sözlərə aşağıdakıları misal göstərmək olar: suç (günah), tanıq (şahid), asi (düşmən), sunmaq (təqdim etmək), öksüz (yetim), qayın (möhkəm), qamən (daim, fasiləsiz), qolay (avand, yüngül), is (yiyə, sahib), imrə (həvəs), onat (rifah, səadət), uruğ (nəsil), ut (abır,həya), ürün (bərəkət) və s. [2,s.185].

Dilin zənginləşmə yollarından biri də digər türk dilləri ilə söz ortaqlığıdır. Söz alıb-vermə imkanları bu sahədə həmişə uğurla həyata keçib. Geneoloji bölgüyə görə qohum sayılan dillərin bu prosesdə iştirakı bir-biri ilə qarşılıqlı əlaqədə olan oxşar dil tarixinin onlar haqqında verdiyi ən düzgün hökm bu dillərin hər zaman birinin digərinə zəncirvari təsiri hesab edilir.

"Dilçilik ədəbiyyatında belə məlumat verilir ki, Azərbaycan dilinin əsasında oğuz və qıpçaqların dili dayanır...Lakin bu dildə yalnız oğuz-qıpçaq dil özəlliklərini görmək düzgün deyildir. Burada xəzər, suvar, emek, arqu, yağma, uyqur və s. xalq-tayfa dillərinin əlamətləri də cəmləşir. Həm də bu dillərin səsi Azərbaycan xalq dilinin dərinliyindən gəlir. Məsələn, bulqar dili üçün səciyyəvi olan samsa (burun) sözünün izi indi də xalq dilində işlənən sümsünmək, sümsük, sımsıq / sımsırıq (metateza olunmuş şəkli mısmırıq) sözlərində qalır. Çuvaş dilində (bu dilin əsasını Azərbaycanda yaşamış suvarların dili təşkil edir) iz, ləpir mənasında işlənən yer sözü həmin mənada yer eləmək (təsir etmək-yəni iz buraxmaq) idiomunda qalır. [2,s.37].

Daha bir faktı qeyd edək ki, ortaq ümumtürk mənəvi abidələrinin dilində bir çox türk əsilli söz və deyimlər var ki, onlar bizim dilimiz üçün arxaikləşsə də, digər türk dillərinin aktiv lüğət tərkibindədir. Elə bayaq misal çəkdiyimiz arxaik sözlərin müəyyən hissəsi buna nümunədir.

Bu gün də təmiz Azərbaycan sözləri içərisində əsas yeri türk dilləri üçün ümumi olan sözlər tutur. Azərbaycan dili bütün türk dilləri ilə eyni sayda söz əvəzlənməsi apara bilməz. Ümumi olan sözlərin qohum dillərdə işlənmə dərəcəsi eyni deyil. Elə sözlər var ki, bir qrup türk dilində işlənir. Bu, ən çox eyni budağa aid olan türk dillərində baş verir. Bu işdə publisistikanın şifahi qolu sayılan televiziya

əvəzsiz rol oynayır. Yəni Türkiyə türkcəsi vasitəsilə Azərbaycan dilinə həm öz, həm də digər türk dillərindən yavaş-yavaş sözlər keçir. Belə sözlərin tarixini araşdırdıqda məlum olur ki, bunlar çox qədim dövrlərə, Orxon-Yenisey abidələri dövrünə gedib çıxır. "Qədim türk yazısı abidələrinin lüğət tərkibi çağdaş türk dillərini tarixi aspektdə öyrənmək üçün, canlı türk dillərindəki həqiqi ümümtürk təbəqəsini ayırd etmək üçün külli miqdarda material verir" [7,s.201]

Bu abidələrin dilinə məxsus sözlərdən bir qismini ədəbi dilə gətirmək ziyanlı olmaz. Məsələn, adar (təhlükə), çoluğ (ailə), törə (qanun), kut (bəxt), apa (rütbə), batı (qərb), doğu (şərq), bengü (daimi, əbədi), bilgə (müdrik), bulğak (üsyan), kaçın (təcrid olunmaq), öfkə (kin-kidurət), ötük (rica, xahiş). Azərbaycan və digər türk dili ilgilərinə diqqətin artırılması həm etnolinqvistik araşdırmalara təkan verər, həm də bu bağlantılar bir az da dərinləşər.

Dilçiliyin ən yaxşı söz yaratma imkanlarından biri də kalka yoludur. Başqa dillərin söz və ifadələrinin eyni ilə deyil, milli dilə çevrilərək işlənməsi dilin, xüsusilə ictimai-siyasi leksikasında güclü təsir edəcək. Çünki bu sahəyə diqqət yetirdikdə sosial anlayışların böyük çoxluğunu əsasən ərəb sözlərinin təşkil etdiyini görmək olar. Belə sözlərə ekvivalent tapmaq üçün dialektlər, bir sıra arxaikləşmiş sözlər yaramır, burada daha çox dilin qrammatik sisteminə uyğun gələn düzgün çerivmə uğurlu sayıla bilər. Kalkada sözün forması, onun səslənməsi yox, ifadəetdiyi məna götürülür. Lakin forma da özünü göstərsə pis olmaz. "Kalkalar da başqa leksik vahidlər kimi, dilimizə məxsus müxtəlif sözdüzəltmə üsulları ilə yaradılır. Lakin kalkada yeni söz özünün əcnəbi modelinə əsaslanır və yad sözün tam, dəqiq qarşılığı verilir. Belə ki, hər iki dildə sözlər və şəkilçilər bir-birinə həm quruluşca, həm də məzmunca uyğun gəlir; məs: özünütənqid sözü Azərbaycan dilinə samokritika sözündən, onun rus dilindəki sözyaratma quruluşu formasında kalka edilmişdir [5,s.243]. Sərbəst tərcümə sayəsində meydana çıxan sözlərlə kalka edilmiş sözləri qarışdırmaq olmaz. Kalka sərbəst çevirmədən fərqli olaraq, yad sözün modelinə əsaslanan dəqiq, hərfi tərcümədir. Kalka sözlərini seçərkən bir cəhəti də nəzərə almaq lazımdır ki, kalkalaşma prosesində anlayış da bir dildən başqa dilə mexaniki olaraq gəlir və kalkaşəkilli sözün yaradılması, bir növ, operativ səciyyə daşıyır.

Yeni yaradılan kalkalara bunları misal göstərmək olar: inkişaf (gəlişmə), təsnifat (bölümləmə), həyat (yaşam), münbit (verimli), müşahidə (gözləm), təhqir etmək (aşağılamaq), mürtəce (geriçi), cərəyan (axın), müsavat (bərabərlik), müsəlləh (yaraqlı), hərb (savaş), sülh (barış), forma (biçim), təşəbbüs (girişim), xəsarət (zədə, yara) və b.

Azərbaycan dili qrammatik kateqoriyalarının zənginliyi ilə seçilən dillərdəndir. Bu dil hər hansı yeni məfhumu adlandırmaq baxımından özəl söz fondundan yararlanmaq imkanı yoxdursa, kalka üsulundan faydalana bilər.

Bütün bunlarla bərabər, dildə söz yaradıcılığının ən məhsuldar növlərindən biri dilin digər daxili imkanları hesabına yaranan sözlərdir. Dilin söz ehtiyatından istifadə etməklə yeni hadisə, anlayış və dəyişmələri adlandırmaq üçün başlıca yol dildə tarixən mövcud olan sözdüzəltmə biçimlərinə əsaslanıb, dilin tarixi inkişaf qanunlarına uyğun surətdə yeni sözlər yaratmaqdır. Təcrübə göstərir ki, belə bir üsulla yaradılan yeni sözlər dildə yaşamaq bacarığına malikdir. Belə sözlər ona görə yaşamış və yaşayacaqdır ki, onlar sözügedən biçimlərə uyğun yaradılmışdır. Dilin lüğət tərkibinin intensiv şəkildə gəlişmə və artımında doğal söz yaradılması vasitəsilə əmələ gətirilən vahidlərin özəl rolu vardır. "Dildə sözlər müxtəlif şəkildə

yaranır. Məsələn, bəzi yeni söz köhnə sözün mənasının inkişafı əsasında təşəkkül tapır ki, bunun da nəticəsində bir sözdən iki söz (omonim) yaranmış olur. Yaxud mövcud sözə bu və ya başqa leksik şəkilçinin artırılması və iki leksemin yanaşdırılması və b. formalarda söz yarandığı müşahidə edilir [6,s.232].

Dilin öz materialı hesabına yaranan sözlərin sözdüzəltmə qaydaları onun iç törəsilə bağlıdır. Dildəki hər bir sözün və anlayışın taleyi bir-birilə çox bağımlıdır. Söz düzgün seçilməzsə anlayış səhv başa düşüləcək, yaxud anlayış istifadədən çıxarılarsa, söz dili tərk etmək zorunda qalacaq.

Dilimiz hər cür söz və ifadə yaratmaq imkanına malikdir. Dilimizin dayanıqlı qaydalarına uyğun yaranmış hər bir söz ədəbi hüquq qazanır və dilin gəlişməsində böyük rol oynayır. Dili ancaq və ancaq özünün imkanlarından yararlanmaqla zənginləşdirmək mümkündür.

Ədəbiyyat:

1. Azərbaycan dialektoloji lüğəti I cilt Ankara, 1999.
2. T.Hacıyev Azərbaycan dili tarixi Maarif, Bakı, 1983.
3. N.Məmmədov, A.Axundov Dilçiliyə giriş Bakı, 1966.
4. Müasir Azərbaycan dili I hissə AMEA-nın nəşri, Bakı, 1978.
5. A.Qurbanov Müasir azərbaycan ədəbi dili, Maarif, 1985.
6. A.Qurbanov Ümumi dilçilik I hissə, Bakı,1989.
7. Ə.Rəcəbli Qədim türk yazısı abidələrinin dili I və II hissə, Bakı, Nurlan, 2006.
8. N.Xudiyev Azərbaycan ədəbi dili tarixi, Maarif, 1995.

G. Orucova

The article is about the using of the national original words
instead of the borrowing words
Summary

Our language has its possibility to create a word and word combination. Each word according to the rule of the language plays a great role in increasing of the language. It is possible to increase the language only according to its opportunites.

Г. Оруджева

Вопросы замены заимств слов исконно-национальными словами в
Азербайджанском языке
Резюме

Наш язык способен создавать множество слов и выражений. Всякое слово, созданное на основе прочных законов языка, приобретает статус литературности и играет большую роль в развитии языка. Обогощение языка возможно лиш на основе использования внутренных возможностей языка.

Rəyçi: Yadulla Dadaşlı
filologiya üzrə fəlsəfə doktoru

ŞƏHLA İBRAHİMOVA
Gəncə Dövlət Universiteti
E – mail: shehla_ibrahim@yahoo.com

"TÜRKOLOGİYA" JURNALINDA I TÜRKOLOJİ QURULTAY

Açar sözlər: Türkologiya, qurultay, dilçilik, terminologiya, əlifba
Ключевые слова: Тюркология, съезд, языкознание, терминология, алфавит
Key words: Turkology, congress, linguistic, terminology, alphabet

"Türkologiya" jurnalında toxunulan məsələlərdən biri də 1926 – cı ildə Bakıda kecirilmiş I Türkoloji qurultaydır. Türk dünyasında tarixi hadisə kimi anılan I Türkoloji qurultay türk etnosları arasında qlobal məsələləri müzakirəyə çıxaran və onların həlli uğrunda müəyyən işlər görən toplantı kimi XX əsrdə türk təfəkküründə böyük iz buraxmış bir sıçrayış idi. Bütöv türk dünyasının milli dəyərlərinin üzə çıxarılması, təbliği və araşdırılmasını qarşılarına məqsəd qoyan qurultay iştirakçıları tarixi keçmişimizin, elm və mədəniyyət sahələrindəki varisliyin qorunub saxlanılmasında, ədəbi dilimizin inkişafında və s. bu kimi məsələlərdə mühüm addımlar atmışlar.

Azərbaycan Demokratik Respublikası dövründə (1918 – 1920) ictimai – siyasi təşkilatlanmalar başa çatan kimi Azərbaycan parlamenti dövlət dili, terminologiya, əlifba və s. kimi məsələlərə münasibət göstərməyi qarşısına məqsəd qoyur. Hətta ölkədaxili teleqrafların türk dilində olması barədə əmr verilir və rus dilində yazılan rəsmi yazışmalar geri qaytarılır. Bütün bu kimi hallar cümhuriyyət dövründə xalqımızın tam müstəqilliyindən xəbər verirdi. Bu dövrdə ən böyük problemlərdən biri də tarixən dəyişdirilməsinə dəfərlərlə cəhd edilmiş ərəb qrafikası idi. Azərbaycan əlifbasının dəyişdirilməsi və ya islah edilməsi ideyası XIX əsrin ikinci yarısından başlasa da, yalnız cümhuriyyət dövründə Xudad bəy Məlikaslanovun sədirliyi ilə hökumət komissiyası yaradılır və bu proses əməli surətdə həyata keçirilməyə vəsiqə alır. Lakin rus imperiyasının ölkəmizə yenidən təzyiqi və torpaqlarımızın işğalı reallaşmaqda olan əlifba islahatı ideyasının həyata keçirilməsini dayandırır. Doğrudur, 1921 – ci ildə yeni hökumət təzədən əlifba məsələsinə qayıdır, lakin dil siyasətindəki "inqilab", əsasən, 1926 – cı ildə I Türkoloji qurultayda baş verdi. Qurultay bütün türkdilli xalqların ziyalılarını Bakıya toplaya bildi. Qurultayda müxtəlif məsələlər – türk xalqlarının tarixi, etnoqrafiyası, mədəniyyəti, ədəbiyyatı, dili, terminalogiyası və s. kimi problemlər müzakirə edilmiş, müəyyən qətnamələrin qəbul edilməsi ilə nəticələnmişdir. (1. s. 5) Onu da qeyd edək ki, qurultay barədə geniş və hərtərəfli tədqiqatlar ölkəmizdə yalnız son on – on beş ildə genişlənməyə başlamışdır ki, bu da heç şübhəsiz, müstəqilliyimiz ilə bağlıdır.

"Tükologiya" jurnalının I Türkoloji qurultaya həsr olunmuş özəl buraxılışında bir çox alimlər bu qurultay haqqında öz təəssüratlarını bölüşmüşdülər. Ağamusa Axundov "Türkologiya" jurnalında nəşr elədiyi "Birinci Türkoloji Qurultay və müasir türk dünyası" adlı məqaləsində *qurultay* sözünə aydınlıq gətirərək qeyd etmişdir ki, "Məclis, yığıncaq, toplantı mənalarını bildirən *qurultay* sözünün türk

xalqlarının ictimai həyatında qədim tarixi var və bugün də həmin söz çeşidli mənalarda müəyyən təşkilatın və ya əhali qruplarının yığıncağı (konfrans, konqres) anlamlarında işlənməkdədir." (2. s. 3)

İradə Hüseynova "Türkologiya" jurnalında çap etdirdiyi "Birinci Beynəlxalq Türkoloji Qurultayın Azərbaycan xalqının mədəni inkişafında rolu" məqaləsində I Türkoloji qurultayın Azərbyacan xalqının maarif və mədəniyyətinin inkişafında əlifbanın xüsusi rolu olduğunu qeyd etmişdir. O, həmçinin bu barədə yazmışdır ki, "Təsadüfi deyildir ki, Azərbaycan xalqının mədəni tərəqqisində, milli oyanışında maarif və mədəniyyətin müstəsna rolunu yüksək qiymətləndirən milli ziyalılarımız XIX əsrin ikinci yarısından başlayaraq vətənmizdə əlifba islahatı uğrunda mübarizəyə qalxdılar. Həmin maarifpərvər ziyalılar mədəni inkişafda Avropa modelini əsas tutaraq Azərbaycan dilinin fonetik quruluşuna yad olan ərəb əlifbasının latın əlifbası ilə əvəzlənməsi yolu ilə Qərb sivilizasiyasına inteqrasiyaya üstünlük verdilər." (2. s. 24)

Araşdırmalar göstərir ki, əvvəllər I Türkoloji Qurultayın Leninqradda (Sankt – Peterburqda) və Moskvada keçirilməsi barədə razılıqlar olsa da, sonralar həmin tarixi qurultayın Azərbaycanın paytaxtı Bakıda keçirilməsi qərara alınmışdır. Bu faktın zəruriliyini aşağıdakı tarixi amillər şərtləndirirdi: əvvəla, latın əlifbasına keçid, yaxud ərəb əlifbasının islahı ideyası ilk dəfə Azərbaycan maarifçiləri tərəfindən qaldırılmışdı. İkincisi, əlifba islahatı dövlət səviyyəsində də ilk dəfə olaraq Azərbaycan Xalq Cumhiriyyəti dövründə qaldırılmış, bir sıra əməli addımlar atılmışdı. Üçüncüsü, əlifba islahatı üzrə Yeni Türk Əlifba Komitəsi də Azərbaycan Sovet Sosialist Respublikasında təşkil edilmiş, digər türkdilli xalqlar arasında, xüsusən, Azərbaycan latın əlifbasına keçidlə bağlı ciddi hazırlıq işləri görmüşdü. Dördüncüsü, Azərbaycanda bu prosesi idarə edəcək elmi potensial, görkəmli türkoloqlar vardı. Nəhayət, Azərbaycanda sonralar Elmlər Akademiyasının formalaşmasında mənbə, əsas rolu oynamış Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti öz ətrafında güclü elmi qüvvələr cəmləmişdir. Bütün bu deyilən amillər Birinci Beynəlxalq Türkoloji qurultayın Bakıda keçirilməsinə əsas verdi.

I Türkoloji qurultayda xeyli sayda tarix, etnoqrafiya və mədəniyyətə dair görkəmli tarixçilərin məruzələri dinlənilsə də, qurultay öz məqsədinə uyğun olaraq əlifba, orfoqrafiya, terminologiya və metodika məsələlərinə həsr olunmuş məruzələrə üstünlük vermiş, əsasən, həmin məsələlər, xüsusən, latın qrafikalı əlifbaya keçid məsələsinə dair qətnamələrə qəbul etmişdir.

Bakıda keçiriləcək Türkoloji qurultaya tək Azərbaycan deyil, həm də SSSR də olan bütün türk dövlətləri hazırlaşırdı. 30 dekabr 1925 – ci ildə keçirilməsi planlaşdırılan, lakin iki aydan sonra açılışı olan Türkoloji qurultaya Krımdan, türk tarixinin, etnoqrafiyasının və türk dillərinin biliciləri olan yeddi Krım tatarı Abibulla Odabaş, Əsən Səbri Eyvazov, Mamut Nedim, Osman Ağçoraxlı, Yaqub Kemal, Şevki Bektori və Bəkir Çobanzadə iştirak etmişdir. Bəkir Çobanzadənin bu qurultayda əsas məqsədi əlifba ilə bağlı məsələni ön plana çəkmək idi. O, əlifbada Avropa modelini əsas tutaraq Azərbaycan dilinin fonetikasına yad olan ərəb əlifbasının latın əlifbası ilə əvəz olunması məsələsini öz məruzəsində qeyd etmişdir. Qurultay qurtardıqdan sonra B. Çobanzadə Kırımda yeni türk əlifbasının təbliğində şəxsən özü iştirak etmişdir. (2. s. 41)

Rahilə Məhərrəmova "Türkologiya" jurnalında yazdığı "I Türkoloji Qurultayda azərbaycanlıların iştikrakı" adlı öz yazısında I Türkoloji Qurultaya toxunaraq orada iştirak edən azərbaycanlılardan bəhs etmişdir. O qeyd etmişdir ki, "Qurultaydan qabaq çağrılmış plenumda başqa respublikaların təşkilat komitələrinin nümayəndələri ilə yanaşı, təşkilat komissiyasının sədri S. Ağamalıoğlu, həmçinin Azərbaycan nümayəndəsi C. M. Məmmədzadə, H. Çəbiyev, Ə. C. Pepinov, Ə. Yusifzadə, H. Zeynallı, Şahbazi iştirak etmişlər." R. Məhərrəmova öz yazısında həmçinin qurultay iştirakçılarından bəhs edərək vurğulamışdır ki, 1925 – ci ildə Yeni əlifba komitəsinin sədri Səmədağa Ağamalıoğlunun sədrliyi ilə Moskvada keçirilən orientalistlərin iclasında I Türkoloji qurultayın çağrılması qərara alındı. Ağamalıoğlunun rəhbərliyi ilə qurultayın gündəliyi hazırlandı. Rəyasət heyətinin 22 nəfər üzvündən üçü azərbaycanlı idi. S. Ağamalıoğlu sədr, Ruhulla Axundov və Bəkir Çobanzadə isə üzv idilər. Qurultayda 21 nəfər azərbaycanlı iştirak etmişdir. (2. s. 94) Martın 3 – də qurultay nümayəndələrinin şərəfinə verilmiş ziyafətdə də ilk sözü Azərbaycan Xalq Maarif komissarı Mustafa Quliyev söylədi və S. Ağamalıoğlunun ünvanına alqışlar səsləndi, Azərbaycan nümayəndələrinin şərəfinə xoş sözlər deyildi. Bu qurultayın Bakıda yüksək səviyyədə keçməsi başda S. Ağamalıoğlu olmaqla azərbaycanlıların fəal iştirakı ilə bağlı idi. (2. s. 96)

Jurnalın bu özəl buraxılışında Afina Əlizadə "Birinci Türkoloji Qurultay və Mahmud və Mahmud Kaşğarinin "Divani lüğət – it türk" əsəri" adlı öz məqaləsində I Türkoloji qurultayda elm aləmində yeni kəşf olan Mahmud Kaşğarinin "Divani lüğət – it türk" əsəri ətrafında verilən yeni – yeni məlumatlar haqqında bəhs etmişdir. O bu haqda danışarkən qeyd etmişdir ki, elm aləmində yeni kəşf edilən Mahmuf Kaşğarinin "Divani lüğət – it türk" əsəri 1910 – cu ildə Suriyanın Dəməşq şəhərində tapılmışdır. Türkiyənin qabaqcıl ziyalıları bu qədim zəngin lüğətin tapılmasını bilən kimi onun tərcümə edilib çap olunmasını qərara alırlar. Yalnız 1915 – 1916 – cı illərdə məşhur türk filoloqu Kilisli Rüfət Mahmud Kaşğarinin "Divani lüğət – it türk" əsərini türk dilində hazırlayıb Maarif xəttilə çap etdirmişdir. A. Əlizadə M. Kaşğarinin bu əsəri haqqında Azərbaycan dilçiliyində ilk məlumatı Bəkir Çobanzadənin məlumat verdiyini söyləmişdir. Həmçinin A. Əlizadə onu da vurğulamışdır ki, Bəkir Çobanzadənin "Divan" haqqında verdiyi bu ilkin məlumatından 2 il sonra 1926 – cı ildə Bakıda çağrılmış I Türkoloji qurultayda Xalid Səid Xocayevin təşəbbüsü ilə "Divan" ın türkoloji aləmdə əhəmiyyəti haqqında məsələnin qoyuluşu və onun müzakirəsi geniş vüsət aldı.

Bu qurultayda türk xalqlarının tarixi, etnoqrafiyası, türk ədəbi dillərinin vəziyyəti, tarixi qrammatika, türk dillərinin müqayisəli qrammatikası, türk dillərinin dialekt və şivələri, türk dilləri arasında qohumluq munasibətləri, türk xalqları arasında ölkəşünaslıq məsələsi, ana dilinin tədrisi, əlifba, imla istilah məsələləri üzrə məruzələr dinlənilməli, nəhayət, bu qurultayda bütün türk xalqlarının latın qrafikası əsasında yeni əlifbaya keçməsi kimi mühüm bir məsələ müzakirə edilib qərar çıxarılmalı idi. Türk xalqlarının tərəqqi və mədəniyyəti üçün böyük əhəmiyyəti olan bu qurultayda duran mühüm məsələlərdən biri də türkdilli xalqların dillərinin tarixi, xüsusilə ədəbi dillərin formalaşması və inkişafı, tarixi – müqayisəli qrammatikalar, türk dilləri arasında olan qohumluq münasibətlərinin köklərinin öyrənilməsi idi.

"Türkologiya" jurnalının qurultaya həsr olunmuş özəl buraxılışında Adil Babayev isə I Türkoloji qurultayda türkçülüklə bağlı problemlərə toxunmuşdur. O qeyd etmişdir ki, burada türkçülük ideyasını bir neçə aspektdən aramaq olar:

1. Türk xalqlarının özünü tanıması – türklüyü ilə fəxr eləməsi;

2. Türk xalqlarının dil, etnoqrafiya, ədəbiyyat, tarix, mədəniyyət cəhətdən ümumiliyinin yekdilliklə təsdiq edilməsi;

3. Türk xalqlarının qədim tarixə malik olmasının (türk və qeyri – türk alimləri tərəfindən) təsdiq olunması;

4. Ümumtürk dilinin mümkünlüyü;

5. Türk xalqlarının bir – birinin yazısını oxuya bilmək arzusunun güclü olmasının üzə çıxması və s.;

6. Qurultayda bütün türk xalqlarının ana dilində danışması və salondakı ən azı 500 nəfərin onları sevgi və sayqılarla, hərarətlə qarşılaması. Bəzən bir – birini yaxşı başa düşməsə belə, hər kəs öz türk qardaşını alqışlayırdı.

A. Babayev sonda bu aspektlərin sayını atırmağında mümkünlüyündən danışmışdır. Amma onların hər birinə bir məqalə məruzə daxilində geniş şərh verməyin çətin olduğunu demiş və bununla kifayətlənmişdir. (2. s. 104)

Qurultay, bütün türk xalqları kimi, Azərbaycan xalqının da ümummmədəni tarixində parlaq bir hadisəyə çevrilərək, onun gələcək inkişaf istiqamətlərini müəyyən etdi. Qurultayın çağrılmasında əsas məqsəd türk xalqlarının (eləcə də Azərbaycan xalqının) ümummədəni səviyyəsini yüksəltmək, onun əsas istiqamətlərini işıqlandırmaq, mövcud maneələrin aradan qaldırılmasına yardım etmək, ümumən, bünövrəsi XI yüzillikdə Mahmud Kaşğari tərəfindən qoyulan və XX əsrin əvvələrində yenidən vüsət alan dilçilik elminin türkologiya sahəsinin müstəqil bir elm sahəsi kimi özünütəsdiqinə ictimai fikri yönəltmək idi. Bu məqsədlə qurultayda SSRİ MİK sədri Q. Musabəyov və Azərbaycan SSRİ MİK və Zaqafqaziya MİK sədri S. Ağamalıoğlu çıxış edərək qurultayın türk xalqlarının mədəniyyəti tarixində mühüm bir ictimai – siyasi hadisə olmasını vurğulamış, türkologiyanın - bu yeni elm sahəsinin gələcək perspektiv planlarından söhbət açmışlar. Qurultayın elmi məclislərində müxtəlif sahələr üzrə 37 elmi məruzə dinlənilmiş, türk xalqlarının dili, tarixi, etnoqrafiyası, əlifba, terminologiya problemləri, türk dillərinin tədrisi və metodikası, yazı, imla və s. məsələlərlə yanaşı, türk dillərinin qohumluq əlaqələri, onların hazırki və gələcək vəziyyəti müzakirə obyektinə çevrilmiş, qurultayın qərar, qətnamə və tövsiyələrinin türk xalqlarının (eləcə də Azərbaycan xalqının) gələcək prespektivləri üçün əsas mənbə olması ön plana çəkilmişdir.

Sayalı Sadiqova I Türkoloji qurultaydan "Türkologiya" jutnalında yazdığı "Türkoloji Qurultay və terminologiya problemləri" məqaləsində bəhs edərkən, burada əsasən muzakirə olunan terminologiya məsələlərindən və onların həllindən danışmışdır. S. Sadiqova öz yazısında qurultayda terminologiyada olan problemlərlə bağlı səslənən beş məruzənin və məruzəçilərin adlarını qeyd etmişdir. Onlar B. V. Çobanzadənin "Elmi terminologiyanın sistemi haqqında", H. B. Zeynallının " Türk dillərinin elmi terminologiyasının sistemi haqqında", H. Ə. Odabaşının "Türk dillərində terminalogiya", A. R. Zifeldin "Türk dillərində elmi terminalogiya yaradılması prinsipləri haqqında" və Ə. B. Baytursunun "Qazax ədəbi dilində terminalogiya yaradılması məsələləri" adlı məruzələrini terminologiya ilə bağlı problemlərə həsr etmişdilər. (2. s. 116)

Terminologiyada başlıca problemlərdən biri termin yaradıcılığı mənbələrinin müəyyənləşdirilməsi idi. Belə ki, terminləri başqa dillərdən hazır şəkildə alıb işlətmək, yoxsa milli dil bazası əsasında yeni terminlər yaratmaq kimi problemlər ətrafında müzakirələr gedirdi. S. Sadiqova öz yazısında qeyd etmişdir ki, B. Çobanzadənin I Türkoloji qurultaydakı məruzəsi bu problemlərin həllinə təkan vermişdi. Qeyd edirdi ki, ədəbi dilin varlığını şərtləndirən amillərdən ən mühümü onun terminoloji imkanlarının zənginliyidir. (2. s. 118)

Türkoloji qurultayda terminlərə verilən tələblər müəyyənləşdirildi. Birinci növbədə qeyd edilir ki, terminlər dəqiq, qısa və aydın olmalıdır. Terminlərin qısalığı onların asan mənimsənilməsinə, yadda saxlanmasına və elmi dildə sözə qənaət edilməsinə şərait yaradır. Terminlərin yerli - yerində işlədilməsinə riayət olunmadıqda məna dolaşıqlığı yaranır, bu məsələ xüsusilə tədris prosesində tədris keyfiyyətinə, mövzunun və anlayışların dərk olunmasına çətinlik törədir.

üsluba yenilik gətirmək, təzə-təzə çalarlar yaratmaqdır. Bu anlamda, Əhməd Cavad fəal şairlərimizdəndir. "İstər tarixən qədimliyi, istərsə də müasir mərhələdəki inkişafı baxımından bədii üslub ədəbi dilin digər funksional üslublarından seçilir. Azərbaycan yazılı ədəbi dilinin təxminən minillik tarixi, müəyyən mənada, bədii üslubun inkişaf tarixi deməkdir (1, 253). Hətta XIX yüzilin ikinci yarısına qədərki tarix ədəbi dildə bədii üslubun tarixi hesab olunur. Bədii üslub digər üslublar kimi mühafizəkar deyil, hətta bəzən ədəbi dil faktı olmayan leksik vahidlərə də yer verir. Bu baxımdan, dialektləri örnək göstərmək olar. Onlar dilimizə şirinlik gətirən dil faktlarındandır və Əhməd Cavad da əsərlərində onlardan istifadə edib. "Dünyanın bütün söz ustaları məhz ləhcə və dialektlərdən münasib söz alıb işlətməklə ədəbi-bədii dilin zənginləşməsinə kömək etmişlər" (6,77).

Əhməd Cavad 1908-ci ildə yazdığı əsərlərinin birində "şeir yazmaq" yox, "şeir toxumaq" ifadəsi işlədib. Necə də yerinə düşən ifadədir. O, doğrudan da, şeirlərini ilmə-ilmə toxumuşdur:

Anam işləyər, mən oxuyardım,
O, xalı, mən şeir toxuyardım (2, 13).

Əhməd Cavad dilimizin geniş imkanlarından istifadə edərək elmi-bədii baxımdan bir sıra maraqlı ifadələr yaratmışdır. Bu baxımdan, aşağıdakıları göstərmək olar: "qanlı sevda", "göz qalası", "qəzəl hörmək", "könülün təzələnməyi", "imansız qış", "bəşəri gözlər", "avara tellər", "qırıq dalğalı gülüş", "dərbədər sevdalı gülüş", "telli ulduz kimi süzülmək", "saqiyi-əzəl", "kabusi-aləm", "palaz bığlı tacir", "əsirçi", "insanlıqdan qovulmaq", "bülluri axış", "dadsız-dadsız gülmək", "yalan qusmaq", "yalandan haqq çıxarmaq", "gözəllikdə kamal tapmaq" və s. Şairin dilində çoxlu aforizm səciyyəli misralar da vardır:

Sevgi candan ayrılmaz!
Din imandan ayrılmaz!
Ruh gümandan ayrılmaz!
Ah amandan ayrılmaz!
Quş ormandan ayrılmaz!
Dağ dumandan ayrılmaz!
Söz zamandan ayrılmaz!
Gün cahandan ayrılmaz! (2, 23-24).

Hər Leyli üzlüdə sədaqət olmaz!
...Hər Şirin sözlüdə məhəbbət olmaz!

Nə bilir çiçək nədir?
Kor gəlib kor keçənlər? (2, 83).

Gözəlik odur ki, duyanı olsun! (2, 36) və s.

Əhməd Cavadın əsərlərində xalqının milli-mənəvi dəyərlərinə, tarixi köklərinə qüvvətli bir bağlılıq özünü göstərir. "Mənim sözüm bir ilahi eşqidir" deyən şair ilahi bir eşqlə azad vətənini alqışladı, ona nəğmələr qoşdu. "Üçrəngli poeziya bədii

yaddaşa hamıdan əvvəl Əhməd Cavadın qələmi ilə həkk olunmuşdur" (5, 4). Təsadüfi deyil ki, o "poeziyamızın Rəsulzadəsi" adlandırılır. Bu poeziyadan gələn səslər yeni və təravətli idi, cumhuriyyət eşqli bir nəğməkarın kəlam notları idi. Bu nəğmələrin könüllərdə yeri əbədi olsa da, dillərdəki ömrü bir zaman kəsildi və Əhməd Cavad şeirlərinin birində Kür çayına müraciət edəndə sanki özündən danışırdı:

Əyil, Kürüm, əyil keç,
Dövran sənin deyil, keç (2, 9).

Və Əhməd Cavad dövrandan keçdi, inana-inana gəldi, çağlaya-çağlaya dedi, isti və dərin hisslərlə tərənnüm etdi, bir şair ömrü yaşadı, bir vətəndaş həyatını sona vurdu, küskün getdi. Lakin bir şeyə möhkəm inandı ki:

Mən bir aşıqəm ki, bu çaldığım saz
Dumanlı dağlara səs salacaqdır.
Anlatdığım dildə inləyən avaz
Elin xatirində çox qalacaqdır! (2, 224).
Bir zaman Əhməd Cavad deyirdi ki:
Bir şeir qoşmuşam dillərdə gəzir,
Uçub oba-oba ellərdə gəzir (2, 31).

Əhməd Cavad xoşbəxt şairlərdən dir ki, bu gün adı çəkiləndə ürəklər riqqətə gəlir, əsərləri ürəklə oxunur, şeirləri, doğrudan da, dillərdə və ellərdə gəzir.

Ədəbiyyat

1. Azərbaycan ədəbi dili tarixi. Bakı, Şərq-Qərb, 2007.
2. Əhməd Cavad. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005, 296 s.
3. Hüseynzadə Ç. Azərbaycan dilində morfoloji norma Bakı: Nurlan, 2004, 280 s.
4. İbrahimov M. Ana dili - hikmət xəzinəsi. Bakı, Azərnəşr, 1991, 136 s.
5. Qarayev Y. Cumhuriyyət dövrü və onun poeziyada yaddaşı – Əhməd Cavad. Əhməd Cavad. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005, s. 4-10.
6. Məmməd Cəfər. Dil və müasirlik / Həmişə bizimlə. Bakı, Yazıçı, 1980, s. 73-98.

Ganira Asgarova

Language-Style features of Ahmad Javad

Summary

The article deals with the language-style features of Ahmad Javad, the great and prominent poet of Azerbaijan. These features and scientific ideas are substantiated and the poet's artistic creative samples are analyzed by author on the facts.

Ганира Аскерова

Языковые и стилевые особенности Ахмеда Джавада

Резюме

В статье говориться о языковых и стилевых особенностях Ахмеда Джавада, признанного поэта АДР. При анализе этих особенностей используются образцы художественного творчества поэта, полученные научные результаты обосновываются на основе фактов анализа.

Rəyçi: dos.A.Zeynalova

FƏRİDƏ HÜSEYNOVA
Azərbaycan Dövlət Neft Akademiyası
Farida_hus@hotmail.com

XARİCİ DİL TƏLİMİNDƏ YENİ YANAŞMALAR VƏ SİLLABUSLARIN HAZIRLANMASINDA ÜSTÜNLÜK TƏŞKİL EDƏN ƏSAS MEYARLAR

Açar sözlər: bilik, cəmiyyət, həvəs, entuziazm, əmək, ünsiyyət, düşünmə, hörmət, məsuliy1yət, ailə, diqqət.

Ключевые слова*:* знание, общество, желание, энтузиазм, труд, общение, мышление, уважение, ответственность, семья, внимание

Key words: syllabus, communication, problems, complex, knowledge, society, desire, , idea, understanding, issue, express, helpful, thinking, respect, responsibility, attention**.**

Müasir dövrümüzdə ölkəmizdə, xarici dillərin öyrənilməsinə, xüsusilə də ingilis dilinə olan tələblər daha da yüksəlmiş, hərtərəfli inkişaf etmiş və daha effektiv mütəxəssislərə ehtiyac artmışdır. Çünki, mütəxəsislərin xarici dildə sərbəst danışma bacarığı iş yerlərində tələb olunan əsas amillərdəndir.

Buna görə də bu gun xarici dil təlimində ünsiyyət gurmag bacariği ən önəmli yerlərdən birini tutur və ona daha çox üstünlük verilir.

Bu baxımdan təlimdə yanaşmalar daim dəyisir, yeni proqramlar hazırlanir və yeni meyarlar üstünlük təşkil etməyə başlayır. Hal hazırda standart, ənənəvi üsullarla, yəni yalnız söz əzbərlə və oxu-tərcümə et üsulu ilə dərslərin qurulması qeyri mümkündür. Bu günün tələbəsi daha da tələbkar, yenilikçi və müasir olaraq yeni texnologayaların inkişafından xəbərdar olan, onlardan müvəffəqiyyətlə öz nailiyyətlərində istifadə edən gənclərdir. Əlbəttə ki, bu günün gəncləri necə inkişaf edirsə, onların müəllimləri onlardan daha da artıq inkişaf etmələdir və bu inkişaf əsasında təlimin real həyatla bağlılığını yaratmaq qabiliyyətinə malik olmalıdırlar. Buna görə də müasir dərslər təmamilə yeni üsullarla formalaşdirilir və daha maraqlı üsullarla həyata keçirilir.

Müasir təlim prosesində müəllimlər orada tamamilə səlahiyyətli olmayıb daha çox köməkçi, koordinator və vasitəçi kimi müşahidə olunurlar. Bununla yanaşı, bu günün müəllimi yeni metodologiyanı tətbiq etməyi bacaran, yeni üsullarla təlimi idarə edə bilən, dərsi bilikyönümlü təşkil edən, auditoriyanı müxtəlif üsullarla ələ ala bilən, liderlik bacarığı olan və qiymətləndirmə sistemini düzgün tətbiq etməyi bacaran olmalı, özü də daim yeni bilikləri mənimsəyərək gələcək işlərində uğurla tətbiq etməyi bilən olmalidir.

Bu gün xarici dil tədrisində müxtəlif təlim vəsaitlərinin istifadəsi ilə bütün təlim məsələlərinin məzmunun açılması ısə, yəni şagirdlərin vacib linqvistik (fonetik, orfoqrafik, leksik və s.) biliklərə yiyələnməsi ən önəmli məsələlərdəndir.

Müəllimin əsas fəaliyyəti sillabusların hazırlanmasından başlayır. Müəllim tədris prosesində məqsədə uyğun olaraq yerinə yetirililməli olan mövzu və tapşırıqları, dərsin məzmununu sillabuslarda açıqlamalıdır. Tələbə isə sillabusla tanış olduqdan sonra daha önəmli müəllimi öz arzusu ilə seçib təlim prosesinə başlamalıdır. Tələbəyə seçmək, öyrənmək və istifadə etmək üçün geniş yer verilir.

İngilis dili fənni üzrə sillabuslar hazırlanarkən təlimin mərhələli şəkildə aparılmasına xüsusi diqqət yetirilməlidir. Təlim prosesində müəllim qrammatika-

nın izahından sonra, tələffüz- intonasiyaya xüsusi diqqət yetirir, şifahi (dinləmə və danışma) və yazılı (oxu və yazı) dil bacarıqlarına eyni dərəcədə əhəmiyyət verir. Və əlbəttəki, təlim prosesində asandan çətinə prinsipi əsas meyar kimi üstünlük təşkil edir..

Dil tədrisi üçün sillabuslar hazırlanarkən müəllim təlim materiallarının seçiminə də büyük diqqət yetirməlidir. Hər bir dərsin müzakirə üçün mövzularının seçilməsi böyük əhəmiyyət kəsb edir, çünki, dərsin əsas hissəni onlar təşkil etməlidir. Bundan əlavə təlim materialları tələbələrin maraqlarına uygun olaraq yönəldilməli və əlavə mövzular tələbələrin yaş və bilik səviyyələrinə uyğun olaraq seçilməlidir. İxtisasa aid söhbətdə iştirak etmək əsas məqsəd kimi tələbələrdə kommunikativ sərištə yaratmalıdır. İndiki dövrdə xarici dil təlimində həm ixtisasa dair , həm də qeyri ixtisasa dair, yəni adi sərbəst danışıq dilinə yiyələnmək əsas məqsədlərdən biri olmalıdır. Bu boşluğu doldurmaq üçün isə təlimdə qabaqcıl metodlardan istifadə edilməsi ehtiyacı yaranır və bu ehtiyac daim artır. Buna görə də mövzu seçimi daim ən önəmli yerlərdən birini tutmalıdır və müəllim həmişə axtarışda olaraq tədris prosesini daim yeniləşdirməli və fənnə marağı artırmalıdır. Hər bir xarici dil müəllimi tədris prosesində xüsusi prinsiplərdən istifadə etməklə kommunikativ və interaktiv metodlarla xarici dillərin öyrənilməsinə, qarşı tərəfin isə interaktiv müzakirələrdə fəal iştirak etmə bacarıqlarının inkişaf etdirilməsinə çalışmalıdır.

Əgər auditoriyada əyləşən bir şəxs müəlliminin novatorçu oldugunu hiss edirsə, onda daha artıq həvəs yaranır, və o da daim axtarışda olaraq biliyinin zənginləşməsi üçün əlindən gələni edir ki, müxtəlif vasitələrlə yeniləşməyə doğru irəliləsin.

Müəllim əgər hazırladıgı sillabusda hər hansı bir çatışmamazlıq görürsə, dərhal növbəti ildə onu aradan qaldırır və təkmilləşdirir. Bu iş forması tələbələrin həm xarici dilə marağını artırır, həm də dünyagörüşünün inkişaf etdirilməsinə yönəldilir. Əlbəttə ki, sillabusda mövzular seçilərkən müxtəlifliyə də fikir verilməlidir. Təlim materiallarının düzgün seçimi əsas meyar kimi götürülə bilər. Mövzular rəngarəng seçilərsə, eyni-tipli olmazsa bu da tələbələrin düşüncə tərzlərinin müxtəlif istiqamətlərdə inkişaf etdirməyə yönəldir. Müəllim təlim prosendə , hər bir dərsdə audio-vizual vasitələrdən istifadə etməli və səslənən tələffüzün öz tələffüzündən cox fərqli olmamasını nəzərdə tutmalıdır. Müəllimin tələffüzü, danışıq sürəti tələbələr üçün nümunə olmalıdır. Bundan başqa müəllim tələbələrinin də tələfüzünün həmin tələffüzə yaxınlaşdırılmasına çalışmalı və onu inkişaf etdirmək üçün əlindən gələni etməlidir.

Dil təlimində müəllim daim inkişafyönümlü təlim metoduna üstünlük verərək dəstəkləyici mühit yaratmaq qabiliyyətinə malik olmalı və auditoriyanı canlandıra bilməlidir.

Məhz buna görə də xarici dil tədrisində dil üzrə mövzuların üzərində işləyərkən qrup şəklində iş və komanda layihələrinin təşkilinə də xüsusi diqqət yetirilməlidir və bu üsulla tələbələrdə şifahi nitq inkişaf etdirilməlidir. Tələbələri bu yönümdə də daim həvəsləndirilmək mühüm əhəmiyyət kəsb etməlidir. Qrup şəklində iş və komanda layihələri bizim dərslərimizdə yeni bir üsul olduğundan bu sahədə bir sıra çətinliklər yaranır, tələbələr arasında səs-küylü mübahisələr yaranır. Bəzi tələbələr isə belə bir şəraitdə öz fikirlərini bildirməkdən çəkinirlər. Bu, bəzən xarici dil üzrə nitq qabiliyyəti nisbətən zəif olan tələbələr arasında daha çox üstünlük təşkil edir, bəzi hallarda isə «fikrimə gülərlər» prinsipindən irəli gəlir. Lakin

bu işin təşkilində hər bir müəllim səbrli olmalı və dərs zamanı tələbələri komandalara bölərək müəyyən mövzular üzrə söhbət etməyə cəlb etmək, fikrini azad olaraq bildirmək vərdişləri aşılamalı və bununla yanaşı hər bir tələbədə başqasının fikrinə hörmətlə yanaşmag və dinləmək-anlamaq vərdişlərini də inkişaf etdirməlidir. Ümumiyyətlə isə bu iş formasının canlandırılması dərsin özünün canlı olmasına yardım edir. Yaxşı təşkil olunmuş qrup şəklində işlər və komanda layihələri dərs zamanı tələbələrdə dil öyrənməyə daha çox həvəs yaradır və onlarda qətiyət, entuziazm, qoçaqlıq, özünə inam kimi psixoloji faktorları isə tədricən inkişaf etdirir. Bundan əlavə qrup şəklində iş və komanda layihələri tələbələrdə tədris prosesində mövzu üzrə analitik düşüncə tərzlərini, cari fikirlərini digərlərinə məntiqi ardıjıllıqla çatdırmaq yollarını da tədricən inkişaf etdirir. Hər bir tələbə öz qrupunda və ya komandasında yaxşı fikir formalaşdırmağa çalışır, qrup və ya komanda yoldaşları tərəfindən olunan təqdir, rəy və həmçinin dəstək görür və özünə təsdiq tapır.

Mövzuların üzərində işləyərkən qrup şəklində iş və komanda layihələrinin təşkilindən başqa cütlər və fərdi işlərin təşkilinə də xüsusi diqqət yetirilməlidir. Bu üsul da tələbələrdə şifahi nitqin inkişaf etdirilməsində dəstəkləyici mühit yarada bilər. İstər qrup şəklində iş və komanda layihələrində, istər sə də cütlər və fərdi işlərin təşkilində tələbələrə eyni bir situasiyaya aid müxtəlif materiallar təqdim olunur və leksik vahidlərin nitqdə sərbəst və sğrətli işlədilməsinə nail olunur. Bu iş növləri şagirdlərin diqqətini artararaq, dinləmək, danışmaq və müşahidə qabiliyyətlərinin formalaşdırılmasına yardımçı olur.

Hər xarici dil müəllimi **ümumi prinsiplərə əsaslanaraq bütün** mənfi çalarları aradan götürmək şərti ilə psixoloji dil mühitinin yaradılmasına çalışmalıdır. Bu prinsiplərdən faydalanaraq hər bir müəllim təlim atmosferinin yaradılmasına xüsusi fikir verməli , şəxsi keyfiyyət və dəyər formalaşdırmalıdır. Əlbəttə ki, müəllim bü işdə hər bir fərdin şəxsi xüsusiyyətlərini nəzərə almalı və eyni zamanda bərabərhüquqlu təlim prinsiplərindən çıxış edərək qarşılıqlı təsir nəticəsində dil mühitinin yaradılmasına çalışmalıdır.

Xarici dil təlimini səmərəli qurmaq, ümumi məqsədə çatmaq üçün mühüm iş növlərinin həyata kezirilməsinə nail olmaq hər bir xarici dil müəlliminin üzərinə düşən ən mühüm vəzifələrdəndir.

Ədəbiyyat:

1. Essentials of Organizational Behavior. Stephen P. Robbins. 2002
2. Business Communication. John Thill . 2008
3. Business Research. Alvin C.Burns. 2011
4. English for Automation Manufacturing Processes
Students. Veliyeva Y.A. 2009

Huseynova F.A

The new ways of teaching foreign languages and the main criteria in preparation of syllabuses

Summary

In the article "The new ways of teaching foreign languages and the main criteria in preparation of syllabuses" is clarified the main issues of acquiring knowledge of foreign languages according the requirements of the syllabuses. It is without doubt, one of the most complex and contentious concepts in everyday life to possess such interpersonal skills to interact with others, to communicate efficiently and logically, and have ability to identify and discuss problems, and point out problems solve current problems. Besides to communicate openly and honestly, express the ideas clearly, and to have independent thinking way which enables to confront differences.

And it is helpful to have a rich understanding of the main issues of teaching languages in high schools.

Гусейнова Ф.А

Новые подходы в обучении иностранных языков и ключевые критерии в подготовки учебных программ

Резюм

В статье новые подходы в обучении иностранных языков и ключевые критерии в подготовки учебных планов исследуется возможности мотивации молодежи в приобретении важных навыков иностранных языков в новых условиях. Исследуется также роль преподавателья как лидера командных работ, который помогает понимать основные проблемы в изучении языков и формирований личности.

Rəyçi: f.f.d L.A.Məsimova

ZÖHRƏ NƏBİYEVA
Bakı Dövlət Universitetinin dosenti,
filologiya üzrə fəlsəfə doktoru

SAYLARIN ÜSLUBİ İMKANLARI VƏ MƏNACA NÖVLƏRİ

Açar sözlər: Say, miqdar sayları, qrammatika.
Ключевые слова: имя числительное, количественные числительные, грамматика.
Keywords: numeral, cardinal numbers, grammar.

1. Sayların mənşəyi

Onluqlar sistemində altmışa qədər heç bir qayda nəzərə çarpmır. On, iyirmi, otuz, qırx, əlli fonetik cəhətdən bir-birindən fərqlənən və heç bir sistemə tabe olmayan saylar lüğət vahidləridir. Altmış, yetmiş saylarının isə -mış, -miş şəkilçisinin köməyi ilə eyni qayda üzrə qurulduğu nəzərə çarpır. Lakin bu quruluş davam etmir. Səksən sayına çatanda pozulur. Çünki səksən və doxsan sayları başqa bir qaydada düzəlmiş ədədlərdir.

İyirmi-iki sayından əmələ gəlmişdir. Azərbaycan dilində iki sözün mənasına uyğun gələn əkiz sözü vardır.

Əlli - sayının mənşəyinin türkologiyada adətən əl sözü ilə əlaqələndirirlər.

Altmış, yetmiş sayları eyni qayda üzrə qurulmuşdur. Bunları düzəldən ünsürlər eynidir. Həmin sayların kökü onların hansı saylardan əmələ gəlməsini aydınlaşdırmağa imkan verir. Məlumdur ki, altmış sayı altı, yetmiş sayı isə yeddi sayından əmələ gəlmişdir.

Səksən, doxsan saylarının mənşəyi tamamilə aydındır. Burada mübahisə doğura biləcək heç bir məsələ yoxdur. Məlumdur ki, səksən sayının birinci hissəsi səkkiz, doxsan sayının isə birinci hissəsi isə doqquz sayından törənmişdir. İkinci hissəyə gəldikdə isə fikrimizcə, ən, an, on sayının dəyişikliyə uğrayan başqa bir variantıdır. Beləliklə, səksən-səkkiz on, doxsan isə doqquz on deməkdir.

80 sayı dilimizdə iki şəkildə işlənir: səksən, həştad. Bu sözlərin hər ikisi "Azərbaycan dilinin orfoqrafiya lüğəti"ndə öz əksini tapmışdır.

Müəllifin qənaətinə görə, türk dillərində, eyni zamanda, Azərbaycan dilində bütün dövrlərdə səksən sözü işlənmişdir. Mənşəcə fars sözü olan həştad sözü isə sonrakı dövrə aiddir.

Elmi, bədii və publisistik üslublarda son zamanlarda üstünlük səksən sözünə verilmişdir və ədəbi dil baxımından bu söz üstünlük təşkil edir.

2. Sıra sayları

Sayın bu növü mənşə etibarilə miqdar saylarından əmələ gəlmişdir, lakin, bugünkü anlayışda onlar həm məzmun, həm də şəkil etibarı ilə miqdar saylarından tamamilə fərqlənir.

Sıra saylarını miqdar saylarından fərqləndirən birinci əlamət onların xüsusi morfoloji əlamətlər qəbul etməsidir. Müasir ədəbi dilimizdə sıra sayları -ıncı, - inci, -uncu, -üncü şəkilçilərini qəbul edərək işlənir və bununla da, onlar miqdar saylarından fərqlənir. Doğrudan da, həmin şəkilçilər vasitəsi ilə əşyanın miqdarını bildirən bir söz sırasını bildirən başqa bir sözə çevrilir. Məs.: səkkiz tələbə-səkkizinci tələbə.

Sıra sayları tərkib daxilində həmişə ikinci tərəfdəki sözlərin təyini olur. Bu da sıra saylarını sifətlərlə daha çox yaxınlaşdırır.

Sıra sayları müstəqil işləndiyi zaman (birləşmə şəklində yox, təklikdə işləndiyi zaman) miqdar saylarına nisbətən isimlərə daha yaxın olur. Bu yaxınlıq müstəqil işlənəndən sıra sayının tamamilə müəyyən əşya təsəvvürü verməsindən irəli gəlir ki, bu şəkli cəhətcə də özünü göstərir. Həqiqətən müstəqil işlənən sıra sayının hallanma, cəmlənmə qabiliyyəti müstəqil işlənən miqdar sayından daha artıq və qanunidir. Məs.: üç sözünün hallanma (üçün, üçə, üçü, üçdə, üçdən) və cəmlənməsindəki (üçlər) müəyyən sünilik üçüncü, üçüncünün və s. kimi sözlərdə hiss edilmir.

Sıra sayları insan təsəvvürü verdiyi zaman kim? sualına da cavab olur: məs.: üçüncü yaxşı oxuyur.

Fikrimizcə, sıra sayları semantik məna tutumuna görə isimlərlə sifətlər arasında orta bir mövqe tutur, yəni bir tərəfdən sifətlərin, digər tərəfdən isimlərin xüsusiyyətləri ilə uyğunlaşır.

Riyazi yazılarda sıra saylarını rum rəqəmləri əvəz edir. Tarixən bu rəqəmlərin mənşəyi daha qədimdir, bunlar ilk yaranan rəqəmlər hesab olunur. Rum rəqəmlərinin ifadəsi üçün cəmi yeddi işarədən istifadə olunur:

I - 1, V-5, X-10, L-50, S-100, D-500, M-1000. Qalan rum rəqəmləri bu yeddi işarənin müxtəlif şəkildə kombinasiyası nəticəsində düzəlir.

3.Bölgü sayları

Əşyaların təkrar hissələrini bildirir. Sayın bu növü istər Azərbaycan dilinin tarixində, istər onun müasir dövründə və istərsə də başqa türk dillərində (türk, tatar, başqırd və s.) işlənir. Lakin belə sayların yaranma üsulları bu və ya başqa şəkildə müxtəlifdir. Azərbaycan dilində bölgü sayları sözlərin təkrarı ilə əmələ gəlir. Məsələn, bir-bir, iki-iki, üç-üç, dörd-dörd və s. Bəzən eyni cümlədə eyni say (miqdar, bəzən də qeyri-müəyyən) təkrar edilir, yəni paralel işlənir. Nəticədə qrammatik simmetriya yaranır. Belə cümlələrin semantikasında bölüşdürmə, bölgü mənası aydınca hiss olunur:

1. İnsan var ki, təvəllüdü, vəfatı bəlli, ömür sürüb, beş günü dərd, beşi təsəlli (R.Rza).
2. Onun min səsi, min də rəngi var, gözəllik incəldər duyğuları da (B.Vahabzadə).

4. Qeyri-müəyyən və ya təxmini say.

Sayın bu növü öz leksik və qrammatik əlamətlərinə görə sayların konkret miqdarını deyil, onların qeyri-müəyyən və ya təxminliyini bildirir. Müasir Azərbaycan dilində sayın bu növü müxtəlif üsullarla əmələ gəlir:

a) az, çox, xeyli sözlərinin isimlərdən əvvəl işlənməsi ilə düzələnlər: məs.: az (adam), iclasda az adam vardı. Mitinqdə çox adam toplaşmışdı. Klubda xeyli adam vardı.

b) miqdar saylarına əlavə olunan -lar, -lər, cəm şəkilçisindən sonra -ca, -cə və -la, -lə şəkilçilərinin artırılması ilə düzələnlər: məs.: yüzlərcə, minlərcə, onlarca kitabxanada yüzlərcə kitab vardır.

v) miqdar saylarının yan-yana gələrək təkrarlaşması ilə əmələ gələnlər: məs.: Nədənsə bu gün bulvarda əlli-altmış adam vardı.

Qeyri-müəyyən kəmiyyət bildirən sözlərin (az, çox, xeyli, bir qədər, o qədər, nə qədər, filan) aşağıdakı vəzifələri vardır:

a) Bütün qeyri-müəyyən kəmiyyət bildirən sözlər əşyanın qeyri-müəyyən miqdarını bildirir: məs.: çox kitab, az kitab, xeyli kitab və s.

Bunlar iş və hərəkət bildirən sözlərin qarşısında iş və hərəkətin qeyri-müəyyən kəmiyyətini bildirir. Məs.: çox danışdı, az danışdı, xeyli danışdı və s.

v) Bunlar sifətlərin qarşısında işlənərək onların təyinlik dərəcələrini artırıb və azalda bilər. Məs.: çox yaxşı, az yaxşı, xeyli yaxşı.

q) Bunlar çox sözünün əvvəlində işlənib, onun qeyri-müəyyən kəmiyyətini artırır. Məs.: çox-çox, az-az, az çox, xeyli çox, bir qədər çox.

ğ) Bunlar az sözünün əvvəlində işlənib, onun qeyri-müəyyən kəmiyyətini azaldır. Məs.: çox az, az-az, xeyli az, bir qədər və s.

d) Bir sözü çox, az, bu qədər, o qədər sözləri ilə hər sözü isə nə qədər sözü ilə işlənərək qeyri-müəyyənlik məzmunu daha da artırır. Məs.: bir çox bir az, bir xeyli az və s.

5. Kəsr sayları

Mənşə etibarilə miqdar saylarından əmələ gələn kəsr sayları əşyanın bütövünün hissələrini bildirir. Kəsr sayları Azərbaycan dilində iki yolla əmələ gəlir:

1) Çoxluq bildirən say (məxrəc) ismin yerlik və çıxışlıq halının şəkilçilərindən birini qəbul edir, adlıq bildirən (surət) say isə şəkilçisiz işlənərək kəsr sayları düzəldir: məs.: onda beş, beşdə üç, ikidə bir və s.

2) Çoxluq bildirən say ismin yiyəlik halını, azlıq bildirən say isə nisbət şəkilçilərini qəbul edərək düzəlir: beşin üçü, üçün ikisi və s.

Sayların substantivləşməsi

Azərbaycan dilində nitq hissələri içərisində isim mühüm yer tutur. İsim nitq hissəsinin daha da zənginləşməsində başqa nitq hissələri ilə yanaşı, saylar da mühüm rol oynayır. Azərbaycan dilində sayların müstəqil işlənməsi geniş yayılmışdır. Bu halda saylar demək olar ki, əsas mənalarını saxlamaqla özünün bəzi xüsusiyyətlərini itirir, yəni özündən sonra gələn sözün də (kəmiyyətcə təyin etdiyi sözün də) varlığını özündə əks etdirir. Yəni say isimlər kimi dəyişir: kəmiyyət, mənsubiyyət və hal şəkilçilərini qəbul edə bilir. Məs.: 1. Bir adam dördünün işini görür. (M.Hüseyn); O surəti yetmiş beşə, sonra yetmişə endirirdi. (T.Əfəndiyev); Vicdan milyarddan qiymətlidir. (S.Rəhimov).

Saylarm bəzi üslub xüsusiyyətləri. Azərbaycan dilində belə bir qayda vardır ki, saylardan (xüsusən miqdar saylarından) sonra gələn söz cəm şəkilçisi qəbul etmir. Məsələn, beş tələbə, on adam əvəzinə beş tələbələr, on adamlar işlənmir.

Qeyd etmək lazımdır ki, saylardan sonra gələn söz bəzi hallarda müxtəlif şərait, məqamlarla əlaqədar olaraq cəm şəkilçisi qəbul edə bilir.

Bədii əsərlərdə, xüsusilə klassiklərin əsərlərində bəzi hallarda (əsasən surətlərin dilində) miqdar sayından sonra gələn isim cəm şəkilçisi qəbul edir. Bu bütövün ayrı-ayrı hissələrini nəzərə çarpdırmaq məqsədini güdür. Məs.:

1) Rüstəm *bəyi* görüm iki gözlərindən olsun. (N.*Vəzirov*).

2) İçəri şəhərdə iki otaqları vardı. (Anar).

Aşağıdakı məqamlarda da miqdar sayından sonra gələn söz cəm şəkilçisi qəbul edə bilir:

1. Miqdar sayı həmcins olduqda. Məs.: İmtahanları dörd və beş qiymətlərlə başa çatdıraq.

2. Miqdar sayı yuvarlaq say mənasını daşıyır, bütövün hissələri qabarıq nəzərə çarpdırılır. bir növ obrazlı ifadə yaranır: məs.:

Bakı milyon işıqları ilə göz qırpırdı. (Ə.Məmmədxanlı).

"Bəzən mübaliğə çalarlığını artırmaq üçün min illər, milyon illər, neçə onillər kimi ifadələrin işlənməsinə də yol verilir" (2, 223)

Hələ yüz illər bundan əvvəl Paris cıdırlarında ad almış Qarabağ atlarında izzəti nəfs heyrətli dərəcədə güclüdür. (İ.Əfəndiyev).

Göstərdiyimiz misalda "yüz illər" birləşməsi də bu qəbildəndir.

3. Miqdar sayı qeyri-müəyyən kəmiyyət və zaman anlayışını bildirir. Məs.: a) Axşam saat doqquz radələrində məşğələmdən mənzilimə qayıdırdım. (S.Hüseyn)

b) Gecə saat on iki radələri idi. (A.Şaiq)

Bəzi hallarda sıra saylarından sonra gələn sözlər də cəm şəkilçisi qəbul edə bilir:

1. Zaman, əşya və hadisənin paralelliyi bildirildikdə. Məs.:

a) Birinci günlər Yaqut qızdırma içində sayıqlayırdı. (Ə.Məmmədxanlı)

b) İyirminci illərdə bütün mahala səs salan qaçaq Aslan igid olsa da, namərd adam idi. (İ.Əfəndiyev)

2. Birləşmənin birinci tərəfindən sıra sayları həmcins olduqda. Məs.:

a) Yeni bağ birinci, üçüncü və beşinci mikrorayonların istirahət yerinə çevriləcəkdir. ("Bakı" qəzeti)

Qeyri-müəyyən saylardan sonra gələn sözlər cəm şəkilçisi ilə daha çox işlənə bilir:

a) Müharibə illərində çox ölkələr, çox vilayətlər gəzmişdim, çox şəhərlərdə, kəndlərdə olmuşdum. (H.Mehdiyev)

Sayköklü sözlər

Dilin lüğət tərkibinin artması, genişlənməsi və zənginləşməsində sayların özünəməxsus və mühüm rolu vardır. Belə ki, dilimizin lüğət fonduna daxil olan və leksikanın xüsusi bir qrupunu təşkil edən saylardan külli miqdarda yeni sözlər yaranır. Bunlara ona görə sayköklü sözlər deyilir ki, onların əmələ gəlməsində saylar əhəmiyyətli dərəcədə rol oynayır. Sayköklü sözlərin bir qismi düzəltmə, bir qismi isə mürəkkəb sözlərdən ibarətdir.

Sayköklü düzəltmə sözlər: Birlik, ikilik, üçlük, yeddilik, otuzluq, yüzlük, çoxluq, azlıq, birincilik, bircə, birgə, birdən, birdəncə, birlikdə, üçlükdə, ikilikdə, birləşmək, birləşdirmə, çoxdankı, çoxalmaq, azalmaq, azca, azacıq, ikili, milyonçu, milyoner, onmençilər və s.

1.Kiçicik suala, yaxud xahişə bu üçlük cavab vermirdi. (T.Əfəndiyev)

1. Hökumət ikili mövqe tutmuşdu. ("SSRİ tarixi" kitabı)
2. Tavadan asılmış otuzluq lampa sağa-sola gedib ləngərləndi. (İ.Şıxlı)

Ədəbiyyat

1. Məmmədov N., Axundov A. Dilçiliyə giriş. Bakı: Maarif, 1966
3. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı: 1962

Зохра Набиева

Стилистические особенности числительных

Резюме

В статье исследуются стилистические особенности числительных в Азербайджанском языке. Автор в основном останавливается на одном из трех лексико-грамматическом разряде числительных – на количественных числительных и показывает что, количественным числительным присущи такие значения, как количественно-числовое значение.

Zohra Nabiyeva

Stylistic features of numerals

Summary

In article stylistic features of numerals in the Azerbaijani language are investigated. The author generally stops on one of three lexical and grammatical category of numerals – on cardinal numbers and shows that, such values, as quantitative and numerical value are inherent in cardinal numbers.

Rəyçi: Afaq Ramazanova
filologiya üzrə fəlsəfə doktoru, dosent

ГУЛЬМИРА УСЕНОВА
Нукусского государственного педагогического
института имени Ажинияза

РЕАЛИЗАЦИЯ КОНЦЕПТА «МАТЬ/АНА» В ПРОИЗВЕДЕНИЯХ КАРАКАЛПАКСКОГО ПОЭТА И.ЮСУПОВА

Açar sözlər: koqnitiv linqvistika, konsept, lingvokulturologiya, milli mədəniyyət və mentalitet

Key words: Cognitive linguistics, concept, linguoculturology, national culture and mentality.

Ключевые слова: когнитивная лингвистика, концепт, лингвокультурология, национальная культура и менталитет

Когнитивная лингвистика является одним из актуальных направлений, которое занимает прочное место в современном языкознании. Под влиянием когнитивной лингвистики на стыке лингвистики и культурологии сформировалось ещё одно направление – лингвокультурология, «наука, исследующая проявления культуры народа, которые отразились и закрепились в языке» [5,27]. В последнее время появилось много работ, посвящённых изучению языка в его соотношении с культурой [6]. Концепт является базовым понятием когнитивной лингвистики, лингвокультурологии и лингвоконцептологии. Термин «концепт» был впервые использован С.А.Аскольдовым-Алексеевым в 1928 году в его работе «Концепт и слово» [2,267]. Концепт определяется как многомерный конструкт, отражающий процесс познания мира, результаты человеческой деятельности, его опыт и знания о мире, хранящий информацию о нём. Концептам присущ идеальный, абстрактный, обощённый характер. Ряд лингвистов подчёркивает идеальный характер концепта: концепт – это «объект из мира «идеальное», имеющий имя и представления о человеке в мире «действительность» [4,58].

Согласно Н.Д.Арутюновой, концепты – понятия обыденной, практической философии, возникающие в результате взаимодействия таких факторов, как национальная традиция и фольклор, религия и идеология, жизненный опыт и образы искусства, ощущения и системы ценностей [1,3].

Объектом настоящей статьи является концепт «Мать», рассматриваемый в рамках многих научных направлений гуманитарных дисциплин, в том числе и лингвистики. В каждой лингвокультуре несомненно имеются только ей присущие значения, что имеет отражение как в устройстве социально-культурной жизни, так и в языке. Каждый народ отображает и воспринимает мир сквозь призму своей национальной культуры и менталитета, что обусловлено тем, что «каждая цивилизация, социальная система характеризуется своим способом восприятия мира» [5,49].

Концепт «Мать» - один из наиболее значимых лингвокультурных концептов для любого языка и он включён в список универсальных человеческих понятий. В последнее время появилось много работ, посвящённых изучению концепта «Мать» на материале различных языков, но всё ещё недостаточно

работ в сравнительной типологии, а также на материале каракалпакского языка.

Образ матери как важнейший элемент культуры многократно описан в художественной литературе. Концепт «Мать» в переводе на каракалпакский язык передаётся словом «Ана». Образ женщины-матери, хранительницы домашнего очага, воплощающей в себе такие качества как заботливость, доброту, любовь и красоту, занимает особое место в произведениях каракалпакского поэта И.Юсупова. В стихотворении «Ана» концепт «Мать» понимается как женщина, дающая жизнь человеку, женщина, имеющая детей и заботящаяся о них. Рассмотрим следующие примеры из произведения «Ана»:

Жаралғансаң мени жаратыў ушын,
Дүньяға тиришилик таратыў ушын
Мен деп үйқы көрмей таң атыў ушын
Дүньяға келгенсең өзиң, *анажан*.

Ақ сүтиңди қарыстырып қаныңа
Ҳәўлетип көтердиң алақаныңа
Ақшам ақ бесикти қойып жаныңа,
Түн үйқыңды төрт бөлгенсең *анажан*.

Сен мийўалы дарақ, мендур жемисиң,
Бойларымды көрсең питер кемисиң
Ҳәр бир алған ғанийбетли дем ушын,
Мәңги мийнетдарман саған, *анажан* (Ана, с.120)

Образ женщины-матери раскрывается также в стихотворениях «Бала емизип өтырған ҳаялға», «Аўыл, аўыл!», «Тәжирийбе тамшылары», «Ана жүреги»:

1. Дилбарым деп қушайын десем,
Айбынаман *аналығыңнан*
Периште боп ушайын десең
Жерде жетим қалардай адам (Бала емизип өтырған ҳаялға, с.128).
2. *Анам* туўып, ҳәйиў айтып,
Сөйлеп жүрип тил үйреткен
Умытарман өны кәйтип,
Ес билдирип, адам еткен ! (Аўыл, аўыл! с.218).

По словам известного лингвиста Лакоффа концепт «Мать» характеризуется соединением различных моделей материнства, включающих: рождение, генетическое отношение, воспитание, брак и генеалогию. Рассмотрим ещё отрывки, в которых концепт «Мать/Ана» - это источник тепла, защиты, заботы, доброты и любви:

1. Астан-гестен өйнап болса балалар,
Ҳәр затты өрнына қояр *аналар*
Сөл сыяқлы, кимлер дана, ким шала,-
Уақыт бәрин өрны өрнына қояр… (Тәжирийбе тамшылары, с.248).

2. *Ана* кирпик болса, перзент көз болар
Перзент- кептер, *ана*- зер гүмбез болар
«*Аналық* ҳақыны толық өтерим»-
Деген гәп кеңеўсиз қурғақ сөз болар. (Тәжирийбе тамшылары, с.258).

3. *Атам* саған азаматлық жан берип,
Анам саған мийрим сүтин тамызған (Ана тилиме, с.115).

Как видно из приведённых примеров в лингвокультуре каракалпаков, как и у других народов, материнство коннотируется положительно. Слово «Мать/Ана» часто используется в паре со словами «бала», «перзент», «ата». Использование метафоры в описании матери и ребёнка (ана- кирпик, перзент-көз; ана- зер гүмбез, перзент- кептер) помогает ярко раскрыть образ матери.

В каракалпакском языке концепт «Мать» передаётся не только словом «ана», но также и такими словами как «апа», «шеше». Например в следующих отрывках из произведений «Өмирзая жулдызы», «Пазыйлет»:

1. Еситкендей *апасы* жоқ сорлының,
Қызын ҳәмде емизиўли бир улын
Қалдырып көз жумған әрманлы анна,
Билсе еди *өгей шеше* қорлығын. (Өмирзая жулдызы, с.332).

2. Дос яранлар үйли-үйине тарасып,
Өзиң менен өзиң қалар гезиң бар
Баллар және *«апам»* десип жыласып,
Жүректи қыйқалап атқан сезим бар. (Пазыйлет, с.234).

Помимо описания матери как социально-биологического объекта, образ матери и понятие материнства передаются в произведениях поэта как мифологический и сокральный аспекты реализации. Как видно из следующего отрывка, для каракалпакской культурной традиции характерно отождест-вление родной матери и матери-земли: культ земли непосредственно связан с культом предков и плодородия:

Қайта қурыў қәбилети
Жер-анада мол болады
Аз ғана жыл сабыр етиң
Бул жер еле зор болады (Бул жер еле зор болады, с.302).

Базовая лексема «Мать/Ана» используется не только в своём основном значении, но она часто используется в произведениях И.Юсупова в своих периферийных значениях в сочетаниях на уровне слова и словосочетания, формируя новые смыслы: жер-ана (мать-земля), ана-Уатан (Родина-мать), ана-тәбият (природа-мать), тарийх-ана (мать-история), ана жүреги (материнское сердце), ана сезими (материнское чувство), ана тил (родной язык). Обратимся к примерам:

1. Уллы *Уатан* ҳәммесиниң *анасы*,
Бир бахытлы үйдиң перзенти олар (Миллионбай Азаматқа, с.277).

2. *Тарийх-ана* таза заманға жетип,
Жаңаша жасаўдың жолын гөзлеген (Жылқы жылына, с.338).

3. *Ана тилим*, сен басқадан айырмам
Сен турғанда мен де әдеўир шайырман

Сонша қатал сүргинлерде жоғалмай,
Бул күнлерге жеткениңе қайылман (Ана тилиме, с. 116).

Из приведённых примеров мы видим, что сочетание концепта «Мать/Ана» с другими словами образует словосочетания, значения которых совпадают в русском и каракалпакском языках.

Анализ концепта «Мать/Ана» в произведениях И.Юсупова показывает, что часть лексики составляют атрибутивно-оценочные номинации женщины-матери, которые содержат информацию ценностного характера, дающую оценку матери. Это такие атрибутивные словосочетания как : *кәҳарман ана, ана-байғус, әзийз ҳаял, арыў ҳаял, гөззал ҳаял* и другие. В оценке матери часто используется не только лексема «ана», но и слово «ҳаял»:

1. Уллары –жигиттиң шери дер едим,
   Қызларымыз өмир гүли дер едим,
   Қарақалпақстан деген бул елди
   Қаҳарман аналар ели дер едим (Миллионбай Азаматқа, с.277).
2. Ҳәр перзент өмирдиң өз орнын таўсын
   Әзийз аналарға раҳмет жаўсын (Миллионбай Азаматқа, с.279)
3. *Арыў ҳаял* қарсысында
   Дизе бүгип, басын ийген
   Рыцардай түскен сынға
   Өтинемен, өмир сеннен (Тилек, с. 210)

Концепт «Мать/Ана» имеет высокую семантическую валентность, т.е. способность сочетаться с другими словами.

Таким образом, в результате дефиниционного и компонентного анализа концепта «Мать/Ана» в поэтическитх произведениях И.Юсупова, можно сделать следующие выводы:

С одной стороны, концепт «Мать» является ключевым понятием в лингвокультуре разных народов и языков, с другой стороны, этот концепт является социально и культурно значимым концептом, так как в нём отражены оценочные представления каждого этноса. Это ещё раз подтверждает точку зрения Григорьевой о том, что «концепт- ментальное национально-специфическое образование», «концепт- это единица ментальной информации» [4,82]. Исследование показало, что несмотря на то, что концепт «Мать» универсален, он имеет значения, включающие в себя обычаи, традиции, верования, нравственные устои, правила и другие нормы, которые связаны с заботой о детях и их воспитанием, характерные для каждой культуры.

Изучение концепта «Мать/Ана» в произведениях известного каракалпакского поэта показывает высокую значимость этого концепта для каракалпакской лингвокультуры.

Литература

1. Арутюнова Н.Д. 1993.
2. Аскольдов-Алексеев С.А. Концепт и слово. Москва, 1997.
3. Аванесян Н.К. Языковая объективация концептуально-когнитивного фрейма «мать» в английском и русском языках. Автореф. На соиск. уч. степени канд. филол. наук. Пятигорск, 2012.

4. Григорьева И. А. Москва. 2005.
5. Маслова В.А. Когнитивная лингвистика. Минск. Тетра Система.2004.
6. Маслова В.А. Лингвокультурология. Москва. Филология. 2007.
7. Тронягина Е.О. Лингвокультурологические аспекты феномена «Мать».

Usenova Gulmira

Realization Of The Concept Of "Mother/Ana" In Works Of The Karakalpak Poet I.Yusupov

Резюме

The given article deals with the realization of the concept “mother/ана” in the works of karakalpak poet Ibraim Usupov. It is analyzed the extracts of some works by Ibraim Usupov.

Useynova Gülmira

Qaraqalpaq şairi İ.Yusupovun əsərlərində «Ana/Ана» konseptinin reallaşması

Xülasə

Məqalə qaraqalpaq şairi İbrahim Yusupovun əsərlərində «Ana/Ана» konseptinin reallaşmasının öyrənilməsinə həsr olunub. Onun bir neçəəsərinin analizi aparılır.

Rəyçi: Rza Xəlilov
filologiya üzrə fəlsəfə doktoru, dosent

ХАКИМОВА МУХАЙЁ КАРИМОВНА
кандидат филологических наук, доцент
Ташкентский Государственный
педагогический университет имени Низами

СЕМАНТИЧЕСКИЙ АНАЛИЗ АБСТРАКТНЫХ ИМЁН В УЗБЕКСКОМ ЯЗЫКЕ

Ключевые слова: абстракция, абстрактное имя, отвлеченность, семантическое особенность, дефиниция абстрактных имен.
Key words: Abstraction, abstraction, abstract name, semantic structure
Açar sözlər: mücərrədlik, mücərrəd adlar, semantik xüsusiyyət, mücərrəd adların definisiyası

Когда язык пытается отобразить в себе разнообразия вселенной соответственно реальной действительности, в такой ситуации появляется необходимость отобразить для языка субстанцию и признаки, присущие всему миру. Иначе нарушатся взаимоотношения человека и вселенной. В языке отображаются не только элементы материального характера, но также и элементы идеального мира. Одной из актуальных задач узбекского языкознания является изучение номинации действительности, которая не обладает материальным характером.

Среди лингвистических объектов абстрактное имя занимает особое место. Оно постоянно привлекает к себе внимание исследователей, однако по сей день оно не охвачено единым взглядом во всех своих свойствах и проявлениях. Одной из причин этому является многоликость и неоднородность термина "абстрактное имя". Существование в языке абстрактных слов, которые отражают понятия нематериального характера, есть не что иное, как продукт абстракции, сформированный на начальном этапе развития мышления человека, в частности, является продуктом аналитической абстракции. развитии языка отображается цивилизация человечества, уровень формирования интеллектуального мышления людей[1, с.45]. Люди, прежде всего, познали мир через органы чувств. Несмотря на то, что познание мира через чувственное восприятие является достижением человечества и одной из необходимых его потребностей, еще на ранней стадии социального общества при познании мира и себя были заметны его недостатки. Для тщательного изучения сущности, отношения вещей и явлений необходимо изучать определенный признак или связь предмета раздельно, мысленно вычленив их от вещи. Таким образом, появляется сложная форма познания, интеллектуальное познание, в частности, абстракция. Абстракция – это мысленное вычленение какого-нибудь признака из целостного предмета и образование нового понятия, как самостоятельного. В объективном мире нельзя отделить признак или связь от предмета, но часть можно отделить от целого. Практическим образом вычленение может происходить в пространстве, у абстракции же нет свойства локализованности. Например, как практически, так и мысленно можно отделить от дерева ветку, от ветки лист. То есть, в объективной действительности существуют и дерево, и ветка, и

лист, а также есть и названия для их выражения. В абстракции подобное отделение невозможно. Так, практическим образом невозможно отделить от человека ум или дружбу, от цветка – красоту, от снега – белый цвет. Такое вычленение, т.е. абстракция, является продуктом наблюдений человека. Хотя в объективном мире такие признаки и отношения, как *ум, дружба, красота, белизна* отдельно не существуют, в результате абстракции в сознании членов общества данные признаки и отношения вычленяются из предмета и формируются как отдельные понятия. Для этих абстрактных понятий носители языка используют другие названия. Таким образом, в языке начинаются формироваться абстрактные имена. Историческое развитие узбекского языка, показывает, что общетюркская лексика, в основном, состояла из слов с конкретным значением, абстрактные слова встречались в небольшом количестве. Существующие в современном узбекском языке абстрактные имена, в основном, заимствованы из арабского языка. Это свидетельствует о том, что лексика начальной стадии развития узбекского языка пополнялась за счет конкретных слов, лексика же более позднего периода обогащалась за счет заимствования абстрактных слов.

Следует отметить, что независимо от выражения конкретного или абстрактного понятия каждое слово содержит в себе абстракцию. В основе противопоставления абстрактных и конкретных слов лежат результаты обобщающей и изолирующей абстракции. Конкретные имена называют понятия, сформированные на основе признаков и свойств, появившихся в результате абстракции. В обобщающей абстракции в одном понятии несхожие признаки не берутся во внимание. А абстрактные имена, отделяясь от объекта, называют свойства, отношения или состояния как отдельные предметы. Это результат изолирующей абстракции. Для изолирующей абстракции характерно отвлечение некоторых свойств и отношений изучаемых предметов и рассмотрение их как индивидуальных, самостоятельных объектов. Таковы, напр., *гўзаллик «красота», қувонч «радость», бахт «счастье», онг «сознание», севги «любовь», бахиллик «ненависть»*. Во всех этих примерах конкретное свойство, присущее реальным предметам, рассматривается как самостоятельный абстрактный объект. Изолирующая абстракция – это процесс отвлечения определенного признака или отношения от предмета или от других признаков. В результате этого вида абстракции появляется «абстрактный предмет», и слова, называющие такие понятия, в языкознании называются абстрактными именами: типа *красота, твердость.* Это различие особое, которое заключается в том, что отвлеченные признаки отношения мысленно опредмечиваются, понимаются как отдельный предмет вне материального носителя [2, с. 20-21]. Когда в языкознании речь идет об абстрактных словах, то прежде всего анализируются их отличия от конкретных слов. Специфические особенности, присущие только абстрактным словам, изучаются отдельно. Одной из актуальных задач узбекского языкознания является разграничение абстрактных слов на основе важных специфических свойств и признаков. По сей день, среди ученых по данному вопросу нет единого мнения, свидетельством этому могут служить противоречивые высказывания и утверждения, которые встречаются в различных научных исследованиях и учебной литературе. В узбекском языкознании целесообразно раз-

деление абстрактных имен не как лексико-грамматическая группа имени существительного, а как смысловая группа. Т.к. абстрактные имена отличаются от конкретных имен не по грамматическим признакам, а по специфическим особенностям их семантики. В данной статье абстрактные имена будут исследованы не как составная часть имени существительного, а как отдельная самостоятельная лексико-грамматическая группа абстрактных слов, которая в лексике узбекского языка образовалась благодаря своим специфическим свойствам. В связи с этим в статье ставятся конкретные цели: определить статус абстрактного имени в отношении к его антиподу — имени конкретному; специфичность абстрактных слов по отношению к понятию, а также осмыслить особенности семантической структуры абстрактных имен. Изучение специфичности абстрактных имен необходимо проводить в оппозиции с конкретными именами, т.к. абстрактные и конкретные имена разделяются на основе дихотомии абстрактность/конкретность. В семантике абстрактных и конкретных имен имеются специфические и отличительные особенности, которые обладают определительным значением. Однако есть еще и другая сторона, противопоставление между этими двумя единицами доходят до семантики, даже до номинации, до различия номинативной реальной действительности. Номинативное различие действительности отражается в номинации, номинативное различие в семантике, семантическое различие в свою очередь находит свое отражение в грамматических особенностях. В сути понятий конкретных имен обобщается класс определенных вещей и событий, а в абстрактных понятиях обобщаются отдельные свойства вещей и явлений, отношения. Называемая конкретными именами действительность существует в определенном континууме, обладает материальностью. Она состоит из целостности составных частей и свойств, является классом реальных предметов, которые распознаются органами чувств. Например, понятие называемое «дом», олицетворяется как класс зданий, существующий в определенном месте, предназначенный для жилья, состоящий из своеобразных особенностей и составных частей, его можно видеть и трогать. В сути понятий абстрактных имен обобщаются не сами вещи и явления, а их определенные свойства, отношения отделяются от носителя, становятся отдельной субстанцией. Как отмечал Ю.В. Ивлев: "Конкретными называются понятия, в которых обобщены сами предметы, существующие в универсуме рассуждения. Абстрактными — те, в которых обобщены отдельные стороны, свойства, отношения предметов, существующих в универсуме".[3, с.35] Называемые абстрактными именами сущности в реальном мире не существуют отдельно (отдельно от носителя). Например, в понятии *мечта «орзу»* определенное умственно-психическое состояние человека обобщается отдельно от человека как самостоятельная субстанция. Но в объективном мире такой субстанции как *мечта* не существует, она не обладает материальностью, локальностью, не воспринимается органами чувств. Называемые абстрактными именами сущности умственно осознаются, мыслятся.

Абстрактные имена есть результат самого высокой формы умственной деятельности человека, является продуктом процесса обобщения, опредмечивания в мышлении сущностей, которые в реальном мире не существуют в виде предмета. Л.О. Чернейко отмечает: «Диалектика конкретного и абстрактного является базовым принципом существования абстрактного субстантива в контину-

уме сознания и речи».[6, с.8] Итак, конкретные имена называют по природе существующие, т.е. онтологические объекты, а абстрактные имена называют гносеологическую сущность, которая является продуктом ума человека и существует не в реальном мире, а в идеальном мире, в мысли, в сознании. Несомненно, то что под отображающимися абстрактными понятиями типа *онг «сознание», ҳаёл «воображение», уят « стыд», виждон «совесть», билим «знание»* существует субстанция.

Конкретные имена называют материальный мир, а абстрактные имена идеальный мир. При этом сама действительность неоднородна, и наряду с материальной, телесной субстанцией есть субстанция идеальная, не менее действительная, чем первая [6, с.49]. Материальный мир и его элементы обладают континуумом места, формой, границами формы, времени, мы их видим, чувствуем, ощущаем при помощи пяти органов чувств. Идеальный мир и его элементы не имеют формы, их нельзя увидеть, потрогать. Если в первом случае говорим о чувственном восприятии, то здесь речь идет о умственном восприятии. Одним словом, конкретные имена называют определенные вещи, имеющие свою форму, называют предмет целиком или его отдельные части как целостные (*дарахт* «*дерево», шох «ветка», барг «лист»*). С точки зрения лингвистики, в их семантической структуре имеется сема «предмет». Абстрактные имена называют не сам предмет, вещь или его часть, а свойство, качество, признак, состояние, отношение вычленив их из предмета (гўзаллик «*красота»* – признак цветка, бахт «*счастье»* – состояние человека). Конечно, в материальном мире качество или отношение напрямую не отделяются от предмета и не обладают формой. Весь процесс является результатом сознания, интеллектуального познания человека. В семантической структуре абстрактных имен сема «предмет» отсутствует.

Изучая семантические разграничения абстрактных и конкретных имен, вкратце остановится на специфических семантических особенностях, которые различают абстрактные имена от конкретных.

I. Специфика абстрактных имен с точки зрения референциальной онтологии, абстрактные имена называют гносеологические объекты. Сущности, называемые данными словами есть, не что иное, как продукт сознания человека, его мышления и языка. Конкретные имена образующие антиномию с абстрактными называют онтологические вещи типа *«кроме нас», «до нас», «издревле», «существует по природе».*

Məqalədə Xarəzmdə geniş yayılmış “Qoroqli” dastanının əlyazmalarının lingvopoetik xüsusiyyətləri öyrənilir. Dastanın dilindəki fonetik, sintaktik və bədii təsvir vasitələrinə xüsusi diqqət yetirilir.

Rəyçi : Afaq Ramazanova
filologiya üzrə fəlsəfə doktoru, dosent

TƏRANƏ XƏLİLOVA
filologiya elmləri üzrə fəlsəfə doktoru

AZƏRBAYCAN DİLİNİN XARİCİ DİL KİMİ TƏDRİSİNDƏ İSTİFADƏ EDİLƏN ÜSULLAR

Açar sözlər tədris dil, metodika, üsul,tələbə
Klöçevıe slova prepodavanie, əzık, metodika, sposob,student
Key word teaching, language, systematic, method,student

«Azərbaycan dili xarici dil kimi» fənninin tədrisi metodikasının təkmilləşdirilməsi indiki zamanda aktual məsələlərdən biridir. Məhz buna görə əcnəbilərə Azərbaycan dilinin öyrədilməsi üçün yeni üsullar tətbiq edilir.

Metodika inkişafının müasir mərhələsi yeni tədris strategiyalarının yaranması ilə səciyyələnir. Əvvəllər xarici dillərin tədrisi təcrübəsində «şüur-müqayisəli üsul»dan istifadə olunurdu, lakin həmin üsulun tam həcmdə tətbiq edilməsi imkan dairəsindən xaric idi. Son zamanlar səmərəli tədris üsulları da sürətlə inkişaf etməkdədir. Səmərəli üsullardan istifadə edərək nisbətən qısa vaxt ərzində tələbələrə onların maraq dairəsini əhatə edən təcrübi dilə yiyələnməkdə yardımçı olmaq, onların vərdiş və bacarıqlarını gücləndirmək olar.

«Azərbaycan dili xarici dil kimi» fənninin tədrisi metodikasının təkamülünə ünsiyyət üsulu böyük təsir göstərir. Təsdiq edilib ki, tədris modeli kimi danışıq vahidi, ünsiyyət modeli kimi isə danışıq aktları götürülməlidir.

«Azərbaycan dili xarici dil kimi» fənninin müasir tədris metodikasında idarə edilən tədris prosesi «müəllim-tələbə-təlim vasitələri» adlı üsbucağın tərkib hissələrinin qarşılıqlı təsirini təşkil edir. Müəllim və tələbənin qarşılıqlı münasibətləri ən çox müəllimin fəaliyyətindən, əmək mədəniyyətindən, işinə sevgisindən və vəzifə məsuliyyətindən asılıdır. Bu fənni tədris edən müəllim həm də yüksək peşəkarlığa malik olmalıdır.

Xarici dilin tədrisi dilin dərk edilməsindən, ona ixtiyari yiyələnməkdən başlayıb, sərbəst danışıq ilə bitmiş sayılır. Şüur üsulu xarici dillərin tədris metodikasının ən aparıcı prinsiplərindən biridir.

Təlimin şüurluluğu təkcə tələbələrin öyrənilən dilin nəzəri faktlarını dərrakə ilə mənimsəmələrinin vacibliyi ilə, fonetika, leksika, qrammatika, sözlərin tətbiqi qaydalarını öyrənmələri ilə bitmir, həm də səriştəni təkmilləşdirməklə şüurlu olaraq müxtəlif fikirləri əvvəlcə nümunələr əsasında, sonra isə nitq nümunələrinə istinad etmədən bildirməyə kömək edən çalışmalar üzərində çox və səmərəli işləmələri ilə reallaşır. Vərdiş və bacarıqların formalaşmasına yönəlmiş şüurlu yanaşma bütün tədris prosesini əhatə etməlidir. Dil faktlarının başa düşülməsi və onların şüurlu qavranılması dilə ən tez zamanda yiyələnməyə, tədrisin kommunikativ təmayülünə və tələbələrin fəallığına müsbət təsir göstərir. Məsələn, feli leksikanın şüurlu mənimsənilməsi qəliblərlə işlədikdə reallaşır. Yəni tələbə təlimi çalışmaların köməyi ilə «işləmək» felini qavrayırsa, o zaman «çalışmaq», «fəaliyyət göstərmək», «əmək sərf etmək», «zəhmət çəkmək» və s. bu kimi fellərin dərk edilməsinə daha az vaxt sərf olunacaq. Buna səbəb həmin fellərin «işləmək» feli ilə bir paradiqmatik model təşkil etməsidir. Müəllim bu cür fellərin təlimi zamanı tələbələrin artıq əldə edilmiş biliklərinə əsaslana bilər.

«Azərbaycan dili xarici dil kimi» fənninin müasir tədris metodikasının əsasını təşkil edən prinsip tədrisin kommunikativ təmayülüdür. Kommunikativlik iki mənada: həm tədrisin kommunikativ təmayülü, həm də tələbənin tədris prosesində kommunikativ fəallığı kimi şərh edilir.

Tədris yalnız bütün işin tələbənin nitq fəaliyyətinin inkişafında vacib olan danışıq prosesində vərdiş və qabiliyyətlərin formalaşmasına doğru yönəldikdə kommunikativ məna daşıyır. Kommunikativ yanaşma biliklərin passiv şəkildə yığımını yox, öyrənilən dil materialının aktiv şəkildə işlədilməsini və şəxsi fikri asanlıqla bildirmək bacarığını tələb edir.

Nitq fəaliyyəti ayrı-ayrı fikirlərin adi dialoqlarda və qısa monoloqlarda təzahürü anında əmələ gəlir. Praktik fəaliyyətdə aktiv danışığa yönələn metodik üsullardan istifadə etmək məsləhətdir. Müəllim onu da bilməlidir ki, məhz o, tələbələrin danışıq fəallığını dərslərdə müxtəlif mövzulara yönəldib, onların söz ehtiyatını artıra bilər. Tələbələrə daha çox yazmaq, danışmaq, dinləmək, oxumaq kimi imkanlar verilməlidir. Yalnız daimi danışıq fəaliyyəti tələbələrin tədris prosesinə qoşulmasına, danışıq vərdiş və qabiliyyətlərinin formalaşmasına gətirib çıxarır.

Əcnəbi tələbələrlə işləyən müəllimin məqsədi tələbənin müəyyən mövzu və vəziyyətlərdə fikrini bildirə bilməsini təmin etməkdir. Bu məqsədə öyrənilən dilin situativ-tematik materialını tədris etməklə nail olmaq olar. Müəllim tələbələrin öyrənilən dildə ünsiyyətini təmin etmək üçün müxtəlif üsulları tətbiq etməlidir, yəni tələbələrin dilə təcrübi cəhətdən yiyələnmələri üçün real dil mühitinə yaxın olan üsullardan istifadə etmək lazımdır. Müəllim həm də dərsdə dialoqa daim ehtiyac olmasına fikir verib, təşəbbüslü danışığa gətirən müxtəlif vəziyyətlər (həmçinin işgüzar oyunlar şəklində) yaratmalıdır.

Nitq təmayüllü tədris prosesi prinsipi, öyrənilən dil materiallarının seçiminə yönəlmiş situativ-tematik yanaşma əcnəbilərin təhsili zamanı müvafiq hazırlıq işləri tələb edir. Tələbələr artıq təlimin hazırlıq mərhələsində fonetikanı öyrənərək, müəyyən şəkildə cüttərkibli cümlələrlə tanış olurlar: «***Mən tələbəyəm. Bakıda təhsil alıram. Dostlarım azərbaycanlılardır***» və s. Onlar həmçinin göstərilən nümunələr əsasında cümlədə sözlərin quruluşu və intonasiya ilə tanış olurlar.

Dilə təcrübi yiyələnməyin və yad dildə fikir bildirmənin tədrisi dil vahidlərinin funksional təşkilini nəzərə almağı tələb edir. Funksional prinsip dilin bütün faktlarına hər hansı bir fikri bildirmək üçün bir vasitə kimi baxılmasını təmin edir. Məhz buna görə də kommunikativ danışıq şəraitində tələbələrin kommunikativ fəaliyyətini gerçəkləşdirən leksik-qrammatik material və sintaktik konstruksiyalar seçilməlidir. Məsələn, «Teatrda» mövzusu ilə bağlı tələbə «Mən teatrı çox sevirəm», «Göstərilən tamaşa çox maraqlıdır», «Bu tamaşaya artıq iki dəfə baxmışam» və s. tipli adi strukturlar qurmağı bacarmalıdır.

Danışıq vərdiş və qabiliyyətləri çox vaxt dil sisteminin zərərinə olaraq formalaşır. Tədris müddətində dil formalarının mənimsənilməsi və təkrarı ilə yaranan çətinliklərin qarşısı alınır. Bu çətinliklər bir tərəfdən sistem biliklərin sona qədər formalaşmaması ilə, digər tərəfdən isə ana dilinin və doğma mədəniyyətin təsiri ilə bağlıdır.

«Azərbaycan dili xarici dil kimi» fənninin tədrisi zamanı dil materialı cəmləşmiş şəkildə verilir, təlim olunmuş və qavranılmış material yeni, tələbəyə

naməlum olan materialla tamamlanır. Məsələn, ismin çıxışlıq halı tədrisin müxtəlif mərhələlərində öyrənilir. İlk dərslərdə o, «ondan soruşmaq, mağazadan almaq» və s. kimi formalarda verilir; növbəti dərslərdə həmin hal «mağazadan maraqlı kitab almaq», «Bilmədiyim şeyləri ondan soruşuram» və nəhayət, «Bayramda onu təbrik etmək üçün mağazadan yenicə çapdan çıxmış və nəfis şəkillərlə bəzədilmiş maraqlı kitab aldım» kimi cümlələrdə izah edilir.

Qrammatik kateqoriya mərkəz və cevrəyə malikdir. Leksika və qrammatika sintaktik əsaslarda öyrənilir. Tələbələrə leksik vahidlərlə bol olan nitq nümunələri təklif olunur. Tələbə verilən nitq nümunəsinə oxşar şəkildə komponentləri yamsılaması və ya müxtəlif şəkildə göstərməsi yolu ilə leksik vahidləri yığaraq eyni tipli cümlələr qurmağı bacarmalıdır.

Tələbələrin doğma dilinin istifadəsinə gəldikdə isə tədrisin kommunikativ üsulu məhz ana dilinin fəal işlədilməsini nəzərdə tutur. Müəllm tələbənin ana dilində mövcud olan materialın təlimi vaxtı bu faktı qeyd etməlidir. Tələbənin doğma dilində mövcud olan qrammatik hadisələrin tədrisi zamanı müəllim həmin materialı tələbənin ana dilinə ən yaxın olan ekvivalent vasitəsilə başa salmalı və yetərincə tapşırıq verməlidir. Müəllim müəyyən materialın tədrisi prosesində Azərbaycan dili və tələbənin doğma dili arasında olan ən cüzi oxşarlıq faktlarına belə böyük önəm verməlidir.

Dilin öyrənilməsinə və onun tədris metodikasına danışıq mühitinin mövcudluğu və ya əksinə, olmaması böyük təsir göstərir. Danışıq mühiti şəraitində tələbə hər yerdə Azərbaycan dilində söylənilən sözləri eşidir və danışığa qoşulur. Danışıq mühitinin olmaması tədris prosesini bir qədər çətinləşdirir və müəllim tələb olunan mühiti süni şəkildə yaratmalı olur.

Millətlərarası biliklərin olmaması həmsöhbətlə danışıq zamanı kommunikativ çətinliklərin yaranmasına gətirən amillərdən biridir. Anlaşma yalnız tələbənin öyrənilən dil haqqında biliklərinin olması və ölkənin mədəniyyəti ilə tanış olduğu halda mövcud ola bilər. Tələbə təkcə sözləri deyil, həm də həmsöhbətinin nə kimi məlumat verdiyini, nəyi ifadə etmək istədiyini başa düşməlidir. Məhz buna görə tədris prosesinin ilk mərhələlərindən əcnəbi tələbələrə fikrin dəqiqləşdirilməsi üsulları keçilməlidir (məsələn, «Bu nə deməkdir?», «Siz nəyi nəzərdə tutursunuz?», «Bununla nə demək istəyirsiniz?», «Bunu başqa formada demək olarmı?», «Mən fikrinizi anlamadım» və s.)

«Azərbaycan dili xarici dil kimi» fənninin tədrisində nitq fəaliyyəti aparıcı istiqamət sayılır. Nitq fəaliyyəti özündə yaradıcılıq mahiyyətli biliklər sistemini ehtiva edir. Danışıq və yazı nitq fəaliyyətinin məhsuldar növlərinə, dinləmə və oxu isə reseptiv növlərinə aiddir.

Ümumiyyətlə, hər hansı bir dilin xarici dil kimi tədrisi zamanı qarşıya müəyyən çətinliklər çıxır. Çalışmaq lazımdır ki, müxtəlif yardımçı üsullarla (dialoq, kütləvi mətbuatdan istifadə, televiziya verilişləri və ya filmlərə baxış, debatlar və s.) həmin çətinliklər aradan qaldırılsın.

Ədəbiyyat

1. Abbasov Ə.Azərbaycan dili təlimi məzmununa dair üç məsələ barədə «Azərbaycan dili və ədəbiyyatı tədrisi» jurnalı, 2000, №1 (183).

2. Abdullayev A. Nitq mədəniyyəti və natiqlik məharəti haqqında Azərnəşr, Bakı, 1968.
3. Bəbirova Ə. Xarici dil dərslərində müasir vasitələrdən istifadənin əhəmiyyəti. «Müəllimə kömək» (metodik toplu), Bakı, 2006.
4. Əliyeva A. Azərbaycan dili dərslərində interaktiv təlim metodlarından istifadənin xüsusiyyətləri. Bakı, 2005.

Tarana Xalilova

Используемые методы в преподавании азербайджанского языка как иностранный

Резюме

Методика преподавания азербайджанского языка как иностранный, в настоящее время является дисциплиной активно востребованной. Современный этап развития методики характеризуется тем, что появляются новые стратегии обучения, такие как коммуникативно-деятельный, личностно-ориентированный, социо-культурный и др. подходы. В этой статье дано краткое изложение основных сведений по методике обучения азербайджанского языка как иностранный.

Tarana Khalilova

Used methods in teaching the Azerbaijan language as a foreign language

Summary

Method of teaching of the Azerbaijan language as a foreign language nowadays the discipline actively required. The modern stage of development of the method is characterized by the fact that new learning strategies appear, as communication activities, personality-oriented, socio cultural and other approaches. The basic information on the method of learning the Azerbaijan language as a foreign language is stated in this article.

Rəyçi: G.İsmayılzadə
filologiya elmləri üzrə fəlsəfə doktoru

ƏDƏBİYYATŞÜNASLIQ

DİLBƏR ZENYALOVA
ADU, dosent
d.azeri@box.az

ETNOPOETİKA ƏDƏBİ-BƏDİİ NÜMUNƏLƏRİN UNİVERSAL TƏHLİL ÜSULU KİMİ

(problemin qoyuluşuna dair)

Açar sözlər: Etnos, etnopoetika, Azərbaycan ədəbiyyatı, mifopoetika
Ключевые слова: Этнос, этнопоэтика, Азербайджанская литература, мифопоэтика
Key words: Ethnos,ethnopoetics, Azerbaijan literature, mythopoetics

Müasir ədəbiyyatşünaslıqda ədəbi-bədii nümunələri və ümumən ədəbi prosesi mifopoetika, yaxud K.Yunqun kollektiv təhtəlşüurun təzahur forması hesab etdiyi arxetip əsasında təhlil etmək cəhdləri son dərəcə geniş yayılmışdır. Qeyd etmək lazımdır ki, əks-sədası son onilliklərdə Azərbaycan ədəbiyyatşünaslığına gəlib çatan bu tədqiqat prinsipləri xeyli əvvəllər müasir Qərb ədəbiyyatşünaslığının təşəkkülünün ilkin dövrlərinə təsadüf edir.Ədəbi-humanitar fikirdə mifologiyaya və onun ədəbiyyata münasibətinə maraq ilk dəfə alman "Yena" romantik məktəbinin nümayəndələrinin hər bir milli ədəbiyyatın öz köklərinin-mifologiyasının təməli üzərində bərqərar olunması konsepsiyasında biruzə vermişdir. Ədəbiyyatşünaslıqda mifoloji məktəbin əsasını qoymuş Y.Qrimm qardaşlarının "Alman mifologiyası"(1835) əsərində işlənib hazırlanan, ideologiyası baxımından romantik universalizm və romantik sinterzlə səsləşən müqayisıli-mifoloji metodun prinsipləri də milli mədəniyyətin qaynaqlarını və milli ruhun xüsusiyyətlərini üzə çıxarmaq məqsədi daşıyırdı.(Bu barədə bax: Zarubejnaya estetika i teoriya literaturı XIX-XX vv.M.,1987,s.54-72) Alman filosofu F.Şellinqin təbirincə desək, "ana ağuşuna" (mifologiyaya-D.Zeynalova) bu marağın ikinci,daha mühüm dalğası XX əsrin birinci yarısında ingilis-amerikan ədəbiyyatşünaslığının ən mühüm cərəyanlarından biri olan C.Frezerin və K.Yunqun konsepsiyasına söykənən mifoloji tənqidlə bağlıdır. (Bu barədə bax: Q.Quliyev.XX əsr amerikan ədəbiyyatşünasılığında aparıcı cərəyanlar.B.,2011,s.125-201). Lakin milli ədəbiyyatşünaslığımızda mifopoetika prinsiplərinə geniş şəkildə (bəzən də yeri gəldi-gəlmədi) müraciət olunması XX əsrin 2-ci yarısında Latın Amerikası xalqlarının görkəmli nümayəndələrinin (kubalı Karpentyerin, kolumbiyalı Markesin,argentinalı Kortasarın-D.Zeynalova) ədəbi-bədii fikirdə hələ də yaşamaqda olan hindli mifologiyasına müraciət, həmçinin, keçən əsrin 60-cı illərinin əvvəlində içıq üzü görmüş M.Bulqakovun "Master və Marqarita", Ç.Aytmatovun "Gün var əsrə bərabər", daha sonralar M.Süleymanlının "Köç", Y.Səmədoğlunun "Qətl günü" romanlarının çap olunması ilə əlaqədardır.-Ədəbiyyatşünaslıqda belə bir fikir hasil olunurdu ki, (yeri gəlmişkən bu mübahisə bu gun də yayılmaqda davam edir-D.Zeynalova) mifopoetika sənətkar dünya dərki-

ni üzə çıxarmaqla yanaşı, ümumiyyətlə ədəbi-bədii fikrin bütün problemlərini həll etməyə qadirdir. Lakin ədəbiyyatşünaslıqda mifopoetikaya bu hədsiz maraq onun ədəbi prosesin və ayrı-ayrı bədii nümunələrin aparıcı,başlıcası isə universal tədqiqat, şərh və dəyərləndirmə prinsipini,necə deyərlər,hər bir dərdin dərmanına çevirmək cəhdi öz əsassızlığını ortaya qoydu. Məlum oldu ki,mifopoetika müasir dünya ədəbi prosesinin mahiyyətini,bir sıra köklü problemlərini açıqlamaq iqtidarında deyil. Çünki dünya ədəbiyyatının və onun tərkib hissələrini təşkil edən milli ədəbiyyatların müasir mərhələdə inkişafının son dərəcə mühüm bir qanunauyğunluğunu nəzərə almır: sənətkar təcəssüm etdiyi ekzistensial problemlərin dərin metafiziki qatlarını üzə çıxarmağa cəhd etdikcə,yəni bütün bəşər nəslinə xas olan taleyüklü cəhətləri mifoloji motivlər, prinsiplər vasitəsilə işıqlandırmağa can atdıqca, onun obrazları bir o qədər konkretləşirlər, reallaşırlar. Bu baxımdan Y.Səmədoğlunun "Qətl günü" romanı Azərbaycan ədəbiyyatında ən metafiziki səciyyəli əsər olmaqla yanaşı, həm detalları,situasiyaları,insan nəslinin təcəssümü baxımından ən konkret əsərlərdən biridir. Eyni mübahisəni (mühakiməni-**D.Zeynlova**) Bulqakovun "Master və Marqarita", Ç.Aytmatovun "Gün var əsrə bərabər" əsərinə də şamil etmək olar. XX əsrin mifoloji roman yaradıcılığı sahəsindəki təcrübəsi birmənalı şəkildə sübuta yetirir ki, ədəbi-bədii fikirdə rasionallıq irrasionallığın,irrasionalliq da öz növbəsində rasionalliğın vurğulanmasının ən kəsə, ən səmərəli, ən effektiv təcəssüm vasitəsidir. Mifopoetika bədii yaradıcılıqda özünü zaman-zaman biruzə verən bu paradoksun səbəblərini açıqlaya, ədəbi-bədii nümunənin bütün ziddiyyətlərini, rəngarəngliyini, həyatiliyini izah və şərh edə bilməz, çünki bədii ədəbiyyatda mifologiyanın geniş şəkildə tətbiqi ilə bağlı ədəbiyyatşünaslıqda meydana gəlmiş bu anlayış ədəbi prosesin yalnlz irrasional, qeyri-tarixi, qeyri-konkret tərəflərini açıqlamaq iqtidarındadır.

XX əsrdə milli ədəbiyyatların mifologiyaya kütləvi və dayanıqlı müraciəti daha bir paradoksal qanunauyğunluğu ortaya qoymuşdur: milli ədəbiyyatlar bir-birlərinə yaxınlaşdıqca, bir-birlərinin yaratdıqları dəyərləri daha intensiv və sürəkli şəkildə əks etdikcə, onların özünəməxsusluqları da bir o qədər aydın və kəskin şəkildə özünü biruzə verir. Bədii əsərlərin və ümumən ədəbi prosesin həqiqəti inteqrativ və dezinteqrativ proseslərin bir-birini inkarında və təsdiqində,bir sözlə, dialektik çulğalaşmasında və vəhdətində özünü aydın göstərir. Bu baxımdan bizə elə gəlir ki, həm Azərbaycan ədəbiyyatının özünəməxsuslugunu,həm də onun dünya ədəbiyyatına inteqrasiyanın xüsusiyyətlərini adekvat şəkildə tədqiq etmək və şərh etmək üçün ədəbi prosesin təşəkkülünün və inkişafının təbiətinə daha uyğun olan kateqoriyaların və onların sistemlərinin yaranmasına ehtiyac duyulur. Hesab edirik ki, **etnopoetika** belə bir sistemin mərkəzi kateqoriyası qismində çıxış edə bilər. Məlumdur ki,söz sənəti insanın şüurlu məxluq kimi təşəkkül tapdığı dövrün lap əvvəllərində dünyanı dərkin spesifik forması qismində yaranmışdır. O da məlumdur ki, mifoloji kontekstli ibtidai mərasimlərdə və ayinlərdə söz sənəti faktiki olaraq digər incəsənət növlərinin təzahürləri içərisində əriyərək, köməkçi rol oynamışdır. İncəsənətin ilkin vəhdətinin pozulması və müxtəlif müstəqil sənət növlərinin parçalanması ibtidai icma cəmiyyətinin dağılması və yeni daha mürəkkəb struktura malik toplumların-etnosların yaranması ilə eyni vaxta təsadüf edir.

İdentik mədəni xarakteristikaları baxımından bir etnos digərindən müxtəlif parametrlərə malik olmaları ilə fərqlənir. Bu o deməkdir ki, etnoslar müxtəlif dillərdə danışırlar, müxtəlif mədəniyyətlərə, müxtəlif ənənəvi dəyərlər sisteminə malik-

dirlər, yəni identik xarakteristikaları baxımından bir-birlərindən fərqlənirlər. Etnosun daxilində isə onun nümayəndələri eyni mərkəzəqaçan dəyərlərdən istifadə edirlər; etnosun nümayəndələri bir qayda olaraq eyni ərazidə yaşayır,eyni dildə danışır, eyni mənəvi-əxlaqi, çox zaman dini prinsiplərə riayət edirlər, eyni etnik mədəniyyətlərin nümayəndələri hesab olunurlar. Bəzi hallarda etnosun nümayəndələri bu və ya digər səbəbə görə öz əsas korpusundan ərazi baxımından aralı düşüb başqa etnosun içində yaşamağa məcbur olurlar. Belə bir şəraitdə etnosun birliyinin təmin olunmasında mədəniyyət (ədəbiyyat) müstəsna rol oynayır. Yeri gəlmişkən, vaxtı ilə faciəvi hadisələr nəticəsində doğma torpaqdan aralı düşmüş, dünyaya səpələnmiş azərbaycanlıların mədəni birliyinin təmin olunmasında bu gün qürür mənbəyimiz olan mühacirət ədəbiyyatını aparıcı rol oynamışdır, çünki: a)onlar əsas etibarilə böyük yaradıcılıq potensialına malik ziyalılarlardan ibarət idilər; b) onlar bütün varlıqları ilə ana mənəviyyata və ədəbiyyata bağlı idilər; c)əsasən mədəniyyət,ruhi-mədəni dəyərlər və dil baxımından xalqımıza yaxın doğma Türkiyədə məskunlaşmışdılar.

Elmi ədəbiyyatda etnosu müxtəlif cəhətlərdən müəyyənləşdirmək cəhdləri olmuşdur. Belə ki,rus alimlərindən Y.Bromley etnosun "etnososial", N.Qumilyev isə biososial təsisat kimi səciyyələndirmişlər.Qeyd etmək lazımdır ki,hər iki tədqiqatçı qan qohumluğunu etnik birliyin əsası hesab edirlər. Lakin bununla yanaşı Y.Bromley sosial(tayfa) məqama üstünlük verir və belə bir mülahizədən çıxış edir ki," etnos" yunan dilində tayfa deməkdir. N.Qumilyev isə qeyd-şərtsiz bioloji amili ön plana çəkir. Həm Y.Bromley,həm də N.Qumilyev etnosları müəyyənləşdirirərkən, onları bir-birindən ayıran və fərqləndirən cəhətlərə üstünlük verirlər və öz tərifləriində onları yaxınlaşdıran, bir-biri ilə ünsiyyətə gətirməyə sövq edən cəhətlərə qətiyyən toxunmurlar. Bütün yuxarıda deyilənlər mədəni və bədii-estetik dəyərlər baxımından aşagıdakı parametrlərə malik toplumları etnos hesab etməyə imkan verir: 1) toplumun üzvləri tarixən eyni ərazidə məskunlaşmışlar,dünya haqqında,mənəvi-əxlaqi dəyərlər haqqında eyni dəyərlər sistemindən çıxış edirlər, identik dil, mədəniyyət, mənəvi-əxlaqi dəyərlər sisteminə malikdirlər; 2)toplumun üzvləri yuxarıda sadalanan parametrlər üzrə özlərini digər etnik toplumlardan fərqli hiss edrlər.Bu fərqlilik hissi etnoslar arasında təmasların zəifləməsinə,aradan çıxmasına, hətta özgələşməyə çevrilə biər. Lakin əgər etnoslar kifayət qədər universal, tolerant mənəvi-əxlaqi dəyərlərdən çıxış edirlərsə,digər etnos onun üçün mənəvi, inetllektual, estetik zənginləşmə müstəvisinə çevrilə bilər.

XX əsrdə bəşər nəslinin toplum qismində formalaşma üsuluna münasibət iki ümumdünya tarixi hadisəsi ilə bağlı olmuşdur: bunlardan birinin, ikinci dünya müharibəsindən sonra dünya müstəmləkə sisteminin dağılması,Asiya və Afrika xalqlarının müstəqillik əldə etməsi ilə bagıdır.Azadlığa çıxmış xalqlar etnos qismində özlərinin mənşələrini,özümlü mədəniyyətlərinin xüsusiyyətlərini müəyyən etmək imkanı əldə etdilər və dərk etdilər ki,hər bir xalq özünəməxsus cəhətləri ön plana çəkməklə, dünya mədəniyyətinə inteqrasiya oluna bilər. Etnik mədəniyyətin özəlliklərinin və onun potensial imkanlarının üzə çıxarılmasına ikinci kütləvi cəhd kecən əsrin 90-cı illərinin əvvəlinə, SSRİ adlanan nəhəng müstəmləkə sisteminin dağılması dövrünə təsadüf edir. Lakin bu dövrün,yəni SSRİ xalqlarının o cümlədən, Azərbaycan xalqının milli-etnik özünü dərkinin bir neçə özəl xüsusiyyətləri vardır ki,onları ikinci dünya müharibəsi ərəfəsində özünüdərk yoluna qədəm qoymuş xalqlardan köklü şəkildə fərqlənirlər.Hər şeydən əvvəl qeyd etmək lazımdır ki,SSRİ-də hakim

metropol tərəfindən müxtəlif xalqlara,o cümlədən onların mədəniyyətinə münasibət eyni cür deyildi. Sözdə xalqların bərabərliyi,onların mədəniyyətlərinə, dilinə, ədəbiyyatlarına qayğıkeş münasibət bəyan olunsa da,mahiyyət etibarilə müxtəlif xalqlara fərqli münasibət sərgilənirdi. Bu baxımdan SSRİ xalqlarını üç qrupa bölmək olar: **birincisi**, xalqlar ikinci dünya müharibəsindən sonra işğal olunmuş,Qərbi Avropa ilə hələ çoxlaylı əlaqələrini qoruyub saxladığından, onlara yarım-loyal münasibət sərgilənirdi. Baltikyanı xalqları buna misal göstərmək olar, bu onların yarımmüstəqillklərini,çərçivəni aşmadan müəyyən ifadə azadlıqlarını təmin edirdi. Təsadüfi deyildir ki,SSRİ-nin digər ərazilərində yasaq olunmuş strukturalizm. Estoniyanın Tartu Universitetində Y.Lotmanın başçılığı ilə inkişaf edir, XX əsr humanitar fikrinə öz töhfələrini bəxş edirdi.**İkincisi,**xristian-slavyan (ukraynalılara, beloruslara) baxış kifayət qədər yumşaq,böyük qardaşın kiçik qardaşa münasibəti sərgilənirdi və onların etnik dəyərlərinə -mədəniyyətlərinə,ədəbiyyatlarına münasibət müsbət idi. Nəhayət, **üçüncü**, türk-müsəlman xalqlarına münasibət isə müstəmləkəçilik xarakteri daşıyırdı, "panislamizm" və "pantürkizm" bəhanəsi ilə onları öz köklərindən,mənəvi-əxlaqi təməlindən aralamaga cəhd göstərilirdi. Azərbaycan mədəniyyəti və ədəbiyyatı bir sıra səbəblərə görə etnik təməlinə göstərilən təcavüzü ugurla dəf etməyə nail oldu.Hər şeydən əvvəl qeyd etmək lazımdır ki,Azərbaycan mədəniyyəti uzun müddət son dərəcə yüksək və dayanıqlı mənəvi-əxlaqi potensiala malik Yaxın Şərq regional mədəniyyəti kontekstində inkişaf etmiş,yalnız orta əsrlərdə etnik prinsiplər əsasında təşəkkül tapmaq zəruriyyəti ilə üz-üzə gəlmşdir.Bu baxımdan böyük Füzulinin:

Ol səbəbdən farsi ləfzilə çoxdur nəzm kim,
Nəzmi-nəsrin türk ləfzilə ikən düşvar olur,
Ləhzeyi-türki qafili-nəzmi-tərkib etməyib,
Əksərən əlfazi namər övfü nahəmvar olur,
Məndə tofviq olsa,bu düşvarı asan eylərəm,
Növbahar olgac tikəndən bərgi-gül izhar olur.-

misraları türk etnik prinsiplər əsasında yüksək ədəbi-bədii nümunələrin yaradılması vaxtının gəlib çatmasından xəbər verir.Azərbaycanın Rusiya tərəfindən işğal olunması və bunun sayəsində dünya mədəniyyətinə qoşulması paradoksal şəkildə mədəniyyətimizin etnik təməl üzərində qurulmasında yeni mərhələ oldu: M.F.Axundzadə bu sahədə son dərəcə perspektivli başlanğıcın əsasını qoydu. Sovet hakimiyyəti illərində milli özünüdərk prosesinin qarşısı xeyli alınsa da,etnik mədəniyyətin intensiv şəkildə inkişafı davam etmişdir.

Keçən əsrin 60-cı illərində SSRİ məkanında ideoloji yumşalma baş vermiş, mədəni hərəkat bir sıra digər cəhətləri ilə yanaşı,mərkəzdənqaçma meyllərinin güclənməsinə də səbəb olmuşdur: yaradıcı ziyalılar etnik köklərə və dəyərlərə qayıtmaq, təkcə formaca deyil,həmçinin məzmunca da milli mədəniyyət yaratmaga cəhd göstərirdilər.Bu proses təbii ki,Azərbaycan mədəniyyəti və ədəbiyyatından da yan keçmədi.Məhz bu dövrdə məlum oldu ki,etnik özünüdərk prosesi yeni mərhələyə qədəm qoymuşdur.Məlum oldu ki,ədəbiyyat üçün ümumiyyətlə toplumu təcəssüm etmək problemi yoxdur,etnosun ən köklü problemlərini yalnız konkret ekzistensial problemlərin kontekstində həll etmək olar: fərd daxilən azad olmasa,toplum azad ola bilməz.Bu vəziyyət etnik dəyərlərimizi ümumbəşəri prizmadan işıqlandırılmasını tələb edirdi.

Məlum məsələdir ki, insan mövcudluğunun sosial və fərdi mahiyyəti ədəbi-bədii fikirdə öz təcəssümünü tapır və dəyərləndirilir; ədəbiyyat fərdi emosional müstəvidə konkret obrazlar vasitəsilə sinxron və diaxron kəsimlərdə etnosun bu günki durumu və tarixi nöqteyi-nəzərindən inkişafının magistral xəttlərini,onun mənəvi perspektivini müəyyən edir. Hesab edirik ki, **etnopoetika** ayrı-ayrı bədii nümunələrdə və ümumən ədəbi prosesdə ümumi ilə xüsusinin, tarixlə bu günün təcəssümünün dialektikasını açıqlamağa xidmət edən ən optimal və səmərəli araşdırma üsludur. Etnikliyin "mürgülədiyi" və hətta dərin yuxuya getdiyi durumlarda belə, ədəbiyyat onun təməl prinsiplərini qoruyub saxlamağa və gələcək nəsillərə bədii-estetik dəyərlər şəklində ötürməyə xidmət edir.Belə ki,keçən əsrin 20-ci illərindən başlayaraq,sovet rejimi sistemli şəkildə pantürkizm,panislamizm ideologiyasının tənqidi fonunda mahiyyət etibarilə kosmopolit səciyyəli dəyərlərin qəbul edilməsi atmosferində imperiyada məskunlaşmış zəngin və özünəməxsus dəyərləri olan çoxsaylı türk etnoslarını,o cümlədən Azərbaycan xalqını da etnik qaynaqlarından qoparmaga,onların etnik dəyərlər məkanından-mifologiyasından,etnik ideologiyasından məhrum etməyə cəhd göstərirdi. S.Vurğunun məşhur "Rəhbərə salam" şeirində "türk qızlarından" ifadəsinin sonrakı nəşrlərdə "şən qızlarımızdan"şəklində işlənməsu buna misal ola bilər.Mədəni faktorlar həm etnik birliyin möhkəm təməl üzərində bərqərar olmasında, həm də digər etnoslarla ünsiyyətə girməsində-onların mənəvi dəyərlərinin əxz olunmasında əvəzsiz rol oynayırlar: etnoslar bir-birləri ilə öz mədəniyyətlərinin dilində danişaraq,müqayisə prosesində özümlü cəhətlərini müəyyən edirlər və ona tədricən qovuşurlar.

Etnik mədəniyyətin bir kontekstdən digərinə keçməsi ilə mənəvi paradiqma köklü şəkildə dəyişir və bu,əlbəttə ki,etnopoetikaya dərin təsir göstərir.Azərbaycan mədəniyyətinin tarixində paradiqmanın kəskin şəkildə dəyişməsi XIX əsrin ortalarına təsadüf edir: dram, çağdaş bədii və fəlsəfi nəsr janrlarının mədəniyyətimiz tərəfindən əxz olunması bütövlükdə mədəniyyətimizi,o cümlədən ədəbiyyatımızı tamamilə yeni meyarlarla dəyələndirməyi tələb edirdi.Yeni dövr ədəbiyyatını artıq orta əsrlər klassik ədəbiyyatımızı araşdırmağa uyğunlaşdırırlmış etnopoetikanın prinsipləri ilə təhlil etmək müsbət nəticələr verə bilməzdi; yeni janrlar Avropa mədəniyyətinin təhlil və dəyərləndirmə prinsiplərinin əxz olunmalarını tələb edirdi. Lakin onu da yaddan çıxarmaq olmaz ki,M.F.Axundzadə yeni janrları əxz etməklə kifayətlənməmiş, yaratdığı bədii nümunələri bütünlüklə və təbii şəkildə gerçəkliyimizə uyğunlaşdıra bilmişdir. Əlbəttə ki,bu əsərlərin adekvat şərhini vermək üçün Avropa ədəbiyyatşünaslığının prinsiplərini də ədəbiyyatımızın özünəməxsusluguna uyğunlaşdırmaq lazım gəlmişdir.

Qeyd etmək lazımdır ki, ədəbi-bədii fikrin etnik təmələ münasibətinin paradiqması keçən əsrin 20-ci illərində,Azərbaycanda sovet hakimiyyətinin qurulması ilə eyni vaxta təsadüf edir.Bu dövrdə etniklik ədəbi-bədii nümunələrin məzmunundan, demək olar ki, sıxışdırılıb çıxarılır və ancaq formaya müncər olunurdu ("formaca milli,məzmunca sosialist).Tənqiddə də,ədəbiyyatşünaslıqda da, poetikada da faktiki olaraq etnik məqam minimuma endirilirdi(əsasən ədəbi əsərin bədii-üslubi problemləri təhlilə müncər olunurdu-**D.Zeynalova**) və əsas diqqət sosialist-kosmopolit məqamların araşdırılmasına verilirdi.Lakin onu da qeyd etmək lazımdır ki, məzmundan sıxışdırılmış etniklik ədəbi-bədii fikirin forma sahəsində son dərəcə böyük uğurlar əldə edilməsinə meydan açdı: bu dövrdə yaşayan sənətkarların böyük

zəhməti sayəsində Azərbaycan ədəbi-bədii dili son dərəcə zəngin, ahəngdar, çevik, sadə, insanın hiss və düşüncələrinin ən incə çalarlarını ifadə etməyə qadir bir dilə çevrldi. Nəhayət,ədəbi-bədii fikrimizdə etnikliyin təcəssümü ilə bağlı paradiqma keçən əsrin 60-cı illərində sovet ideologiyasının təməlinin sarsılması ilə bağlı meydana gələn dəyişikliklərlə bağlıdır: bu dövrdə etniklik formadan məzmuna nüfuz etməyə başladı,qeyd etmək lazımdır ki,ədəbi-bədii fikirdə etnik məqam konkret fərdin – etnosun nümayəndəsinin ekzistensial problemlərinin təcəssümü ilə çulğalaşdı. Ədəbi-bədii vasitələrlə etnik köklərin araşdırılması konkret insanın gündəlik qaygılarının işıqlandırılması fonunda həyata keçirilməyə başladı.Ümumi ilə xüsusi, əbədi ilə keçici dialektik vəhdətdə birləşdi. İ.Şıxlının, İ.Hüseynovun, M.Süleymanlının, Y.Səmədoğlunun və digərlərinin əsərlərində bu dialektik çulğalaşma özünün rəngarəng ifadəsini tapdı.Bu yeni paradiqmaya uyğun olaraq yaradılan əsərlərin təhlili və şərhinə gəldikdə isə, ədəbiyyatşünaslarımız və tənqidçilərimiz onlara adekvat yanaşma üsulu axtarışında tədricən sosialist realizmi prinsiplərinə əsaslanan kosmopolit səciyyəli araşdırma prinsiplərindən uzaqlaşdılar və yeni,həm də fərqli bir təhlil və dəyərləndirmə metodunun yaradılması zərurəti ilə üz-üzə qaldılar.

Hal-hazırda qloballaşma ilə bağlı etnoslar, etnik dəyərlər böyük təhlükələrlə üz-üzə durmuşlar. Belə bir şəraitdə ədəbi-bədii fikrin etnik identikliyi mühafizə etməsi xüsusi əhəmiyyət kəsb edir: hətta ən universal bəşəri dəyərlərin bədii təcəssümündə belə ədəbiyyat milli köklərindən tamamilə ayrıla bilməz,ən azı dil,deyim tərzi etnik dəyərlərin labüd şəkildə əks olunmaları üçün şərait yaradırlar.Məhz buna görə də **etnopoetika** təkcə milli ədəbiyyatın özünəməxsusluğunu üzə çıxarıb vurğulamaqla kifayətlənmir,(düzdür,bu onun apriori vəzifəsidir-D.Zeynalova) həmçinin onun digər xalqların ədəbiyyatları ilə təmas imkanlarını araşdırır,dolayısı ilə millibədii dəyərlərin universal cəhətlərini üzə çıxartmağa xidmət edir. Xarici amillər paradoksal şəkildə bir tərəfdən, etnosun birliyini,o cümlədən,mədəni bütövlüyünü sarsıtmağa, onun bəzi dövrlərdə (məs, orta əsrlərdə-**D.Zeynalova**) regional mədəniyyətin özünəməxsus keyfiyyətlərdən məhrum tərkib hissəsinə çevrilməyə,digər tərəfdən, rənğarəng,bəzən ağır sınaqlardan çıxıb dünyada mədəni rəqabətə dözümlü,öz tutarlı sözünü deməyə qadir etnos kimi mövcud olmasına şərait yaradır.Belə ki, ərəb və fars dillərinin müəyyən zaman kəsiyində Azərbaycanda aparıcı dini, ədəbi-mədəni dil olmaq funksiyasını əlinə alması buna gözəl misal ola bilər. Lakin bizim etnik birliyimiz bu xarici təcavüz nəticəsində nəinki məhv olmadı,əksinə,sınaqdan şərəflə çıxdı..Azərbaycan- turk dilinin Nəsiminin, Füzulinin,Xətayinin şəxsində yenidən elmi-mədəni dil qismində dirçəlməsi bunun əyani göstəricisidir.

Etnosun təməl səciyyəsi daşıyan dəyərlərin universallıq kəsb etməsində,"özgə",kənar dəyərlərin cəlb olunub mədəni-etnik dövriyyəyə buraxılmasında, özününküləşməsində ədəbi-bədii sözün gücü son dərəcə böyükdür.Bu baxımdan,məs.,N.Gəncəvinin yaradıcılığında üzvi vəhdət təşkil edib,eyni zamanda həm universal,həm də etnik səciyyəli humanist dəyərlərin yaranması diqqəti cəlb edir; sənətkarın əsərlərində "klassik", universal islam zərdüştlüklə çulğalaşaraq, etnik dəyərlərlə isinişir,doğmalaşır,"türkləşir",bizim dünyadüyum və dünyagörüş mövqeyimizin təməlinə çevrilir.Lakin ədəbi-bədii fikir yalnız yad dəyərləri özününküləşdirməklə kifayətlənmir,eyni zamanda etnik-mədəni dəyərləri yadelli dağıdıcı müdaxilələrdən xilas etməyə,bu dəyərlərin vəhdətini və identikliyini qoruyub saxlamağa cəhd göstərir.Bu müqavimət əxlaqa və mənəviyyata zidd

tələblərə qarşı mübarizə prosesində güclənir,müxtəlif dünyagörüş mövqelərinə söykənən ədəbi-bədii cərəyanları bir araya gətirir.Bu baxımdan realist M.Ə.Sabirin:

"Ev madam,mənzil madam,talvar madam, balkon madam.
Sirk madam,qəstin madam,passaj madam,bulvar madam
Müxtəsər əqlim çaşıb,ey dadi-bidad,Ərdəbil,
Bir də namərdəm,əgər etsəm səni yad,Ərdəbil!" –

misraları ilə romantik H.Cavidin :

O gün ki,İstanbulda gənclik fransızlaşdı,
Getdikcə türk övladı uçruma yaklaşdı.
Yurdumuzu sardıqca düşkün firəng modası,
Hər kəsə örnək oldu sərsəm firənf ədası.
Sərxoşluq,ağılsızlıq sardı bütün gəncləri,
Zəhərləndi getdikcə məmləkətin hər yeri.
Avropadan- fəzilət,hümmət,ciddiyyət,vüqar
Dururkən-yalnız çürük bir zübbəlik oldular.-

misralarının eyni ideoloji movqedən çıxış edib,eyni estetik dəyərləri müdafiə etməsi etnik birliklə bağlı problemlərin çözülməsində ədəbi-bədii fikirn yekdil mövqe nümayiş etdirməsinə dəlalət edir. Ədəbiyyatın belə bir mövqedən çıxış etməsini onun taleyüklü məsələlərə münasibətdə mühafizəkar mövqedən yanaşmasının tazahürü kimi qiymətləndirmək düzgün olmaz; ədəbi-bədii fikir özünün zirvə nümunələrində etnik mədəniyyəti oz hüdudlarında qapatmaq,hermetik şəkildə dünya sivilizasiyasının kontekstindən kənarlaşdırmaq niyyətindən çıxış etmir. "Molla Nəsrəddin" və "Füyüzat"la bağlı ilk baxışdan ziddiyyət təşkil edən,lakin mahiyyət etibarilə Azərbaycan xalqının dünyaya inteqrasiyasının dialektikasını ifadə edən münasibətlərini buna misal göstərmək olar.

Məlum olduğu kimi etnosların və etnos birliklərinin təşəkkülündə mifologiya böyük rol oynayır.Belə ki,türk xalqları öz mənşələrini böz qurd ilə bağlayırlar.Bu isə türk xalqlarının yalnız dil baxımından deyil,həmçinin mifologiya nöqteyi-nəzərindən də son dərəcə yaxın olmalarına dəlalət edir.Lakin toplumun formalaşmasının ilkin mərhələsində mühüm rol oynayan mifologiya sonradan mədəni birliyin,dil birliyinin üzvi tərkib hissəsinə çevrilərək,onların içərisində bir növ əriyib gedir. Məhz buna gorə də etnosun təməl prinsiplərini üzə çıxarmaqda böyük rol oynayan mifopoetika etnik mədəniyyətin və ədəbiyyatın sonrakı mərhələlərini adekvat şəkildə işıqlandırmağa qadir deyil,belə ki, qonşu etnoslarla sıx təmasda olan mədəniyyətlərdə və ədəbiyyatlarda fərqli bir mənzərənin şahidi oluruq.Məs.,Azərbaycan xalqının mədəniyyəti həm yaxın Şərq reqional mədəniyyəti kontekstində,həm də XIX əsrin ortalarından başlayaraq,müxtəlif mədəniyyətlərlə daim müxtəlif yönlü ünsiyyətdə olmuşdur.Bu əlbəttə ki,etnik mədəniyyətin zənginləşməsində mühüm rol oynamışdır. Bununla belə,istənilən halda yəni dolğun mədəni əlaqələrin mövcud olub-olmamasından asılı olmayaraq, yedelli mədəniyyətlər hər bir topluma ən azı müqayisə müstəvisində öz etnik dəyərlərini üzə çıxarmağa,saf-çürük etməyə imkan verir. Öz təbiəti etibarilə digər incəsənət növlərinə nisbətən dünyaya,o cümlədən qonşu xalqların mədəniyyətinə daha açıq olan ədəbi-bədii fikir "özgə"etnoslarla əla-

qə qurmağa,onların dəyərləri hesabına zənginləşməyə,onları öz mədəni dəyərləri ilə zənginləşdirməyə daha artıq meyl göstərir.

Etnoslar arasında mədəni münasibətlər sisteminin yaranması və ümumi səciyyəsi təkcə coğrafi yaxınlıq və uzaqlıq paralelləri ilə ölçülmür.Belə ki,sovet hakimiyyəti illərində Azərbaycan mədəniyyəti və ədəbiyyatı dünyaduyum,ifadə tərzi, mənəvi-əxlaqi dəyərlərə münasibət baxımından son dərəcə uzaq olan Baltikyanı ölkələrin mədəniyyətləri və ədəbiyyatları ilə sıx əlaqələr yaranmışdı; vahid "sovet xalqı" və "sovet mədəniyyəti" kontekstində bu cür münasibətlərin qurulması icbari səciyyə daşıyırdı. Azərbaycan ədəbi-bədii fikrinin rus ədəbi-bədii fikri ilə son dərəcə yaxınlaşmasını,"qaynayıb-qarışmasını" da həmin səbəblərə görə təşəkkül tapmış,"yarıkönüllü", "yarıicbar" mədəni-ədəbi əlaqələrə aid etmək olar.Müstəqillik dövründə mədəni-etnik prioritetlər kəskin şəkildə dəyişdilər. Ədəbi-bədii fikir təşviqat vəzifəsindən insanın ekzistensial problemləri ilə daha dərindən və hərtərəfli şəkildə məşğul olmaq,ədəbi-bədii vasitələrlə etnik özünəməxsusluğu işıqlandırmaq və dəyərləndirmək imkanları əldə etdi.Bununla bağlı iki məqamı qeyd etmək yerinə düşər. **Birincisi**,artıq keçən əsrin 60-cı illərində oriyentirlər dəyişmişdilər: ədəbiyyat ümumidən daha çox xüsusiyə,toplumdan daha çox fərdə diqqət yetirməyə başlamışdı. **İkincisi**,bunula belə ədəbi-bədii fikir hələlik yeni imkanlardan optimal şəkildə istifadə edə bilmir;uzun onilliklər boyu dünya bədii-estetik fikrindən təcrid olunması özünü biruzə verir.Məlumdur ki,öz məqsədlərinə nail olmaq üçün ədəbi-bədii fikir də,ideologiya da mifə müraciət edirlər.Lakin bu müraciətlər tamamilə başqa-başqa məqsədlərə xidmət edirlər.İdeologiya əsasən təşviqat məqsədindən çıxış etdiyinə görə bir qayda olaraq, mahiyyəti etibarilə köklü etnik məqsdləri əks edən mifləri öz "həqiqətlərinə" uyğunlaşdırır,saxtalaşdırır: təşviqat məqsədilə uyğunlaşdırılmış miflər nə qədər əsl mif təəssüratı bağışlasalar da,uydurulmuş,yalançı miflərdir.

Ədəbi-bədii fikrin müraciət etdiyi miflər etnik kollektiv təhtəlşüurdan arxetiplər vasitəsilə süzülüb gələn miflərdir, etnosun təşəkkülü dövründə öz məğzini-mahiyyətini hifz etdiyi, lakin hələ birbaşa ifadə edə bilməməsi ilə bağlı uydurduğu və özü də bütün varlığı ilə inandığı təməl mifləridir.; bu miflərin bir üzü uydurma olsa da, digər üzü həqiqət olan,bir üzü təxəyyülün, digər üzü gerçəkliyin təcəssümüdür. Ədəbiyyat toplumun formalaşmasında həlledici rol oynamış, cəmiyyətin dünyaduyumunun təşəkkülündə iştirak etmiş amilləri üzə çıxarmaq və şərh etmək üçün mifologiyaya müraciət edir. Hansı məqsədə qulluq edirsə-etsin,ideologiya mifə müraciət etməklə kollektiv təhtəlşüuru parçalayır,arxetipləri saxtalaşdırır,etnosun bütövləşməsinə yox,onun dağılmasına, soykökündən ayrı düşməsinə səbəb olur. Ədəbiyyatımızda uzun onilliklər boyu təbliğ olunan "sovet xalqı" və partiya tipli təşviqat səciyyəvi tiplər buna misal ola bilərlər. Heç təsadüfi deyildir ki,sovet ideologiyası meydanı tərk edən kimi bu miflər də aradan çıxıb yox oldular.Çagdaş ədəbi-bədii fikrin əsas vəzifələrindən biri də bu miflərin qoyub getdikləri izləri, törətdikləri fəsadları ləğv etməkdir.Sovet ideologiyasının hökm sürdüyü, sənətkarların zor gücünə sosialist realizmi prinsiplərinə uyğun olaraq yazıb-yaratmağa məcbur edildikləri dövrdən, müstəqilliyin əldə olunması ilə bağlı ifadə azadlığını əldə etdikləri keçid mərhələsində dövrün problemlərini əhatə edən ədəbi-bədii nümunələr yarandı. Ədəbi-bədii fikir sözügedən əsərlərin dəyərləndiriliməsində,mifoloji köklərininin araşdırılmasında mifopoetikanın üsullarından istifadə etsə də,bu üsul

mahiyyəti üzə çıxarmağa kifayət etmir; mifopoetika toplumun zaman-zaman dəyişməsi ilə bağlı meydana gələn etnik-mədəni xüsusiyyətlərin və keyfiyyətlərin dialektikasını şərh etməyə yetərli deyil.Hesab edirik ki,sözügedən problemin həllində,yəni ədəbi-bədii nümunəni həm sinxronik,həm də diaxronik kəsimlərdə araşdırmaq üçün universal vasitə və üsulları olan **etnopoetikaya** müraciət etmək daha məqsədəuyğun olardı.

Beləliklə, ədəbi-bədii fikrin keçdiyi tarixi yol inandırıcı şəkildə sübut edir ki,bir dildə danışan,bir ərazidə yaşayan,eyni əxlaqi-mənəvi təsəvvürlərdən çıxış edən toplumun mədəniyyətində və ədəbiyyatında öz əksini tapan etnik enerjini məhv etmək qeyri-mümkündür.Sovet dönəmində etnik enerjinin milli,dini-mənəvi köklərindən zor gücünə təcrid olunması Azərbaycan ədəbi dilinin misli görünməmiş inkişafına, cilalanmasına, zənginləşməsinə, insan düşüncəsinin və hisslərinin ən incə çalarlarını ifadə etməyə qadir ədəbi-bədii dil yaratmağa sövq etmişdir.Etnik özünütəsdiq ədəbiyyatın müraciət etdiyi prioritet mövzuların seçimində də özünü biruzə verir. Bu baxımdan Azərbaycan ədəbi prosesində baş vermiş iki fenomeni qeyd etmək yerinə duşər: **birincisi**, S.Vurğunun məşhur "Azərbaycan" şeirindən sonra ədəbi-bədii fikrimizdə,xüsusilə poeziyada Vətən mövzusu faktiki olaraq aparıcı mövzuya çevrilmişdir.**İkincisi**,ədəbi-bədii fikrimizdə tariximizin müxtəlif dövrlərinin, xüsusilə böhran,keçid və dönüş mərhələlərinə maraq son dərəcə güclənmişdi. Ədəbiyyatımız həm tarixi mövzuda yazılmış,həm də müəyyən görmə bucağından müasir mövzuda qələmə alınmış əsərlərdə toplumun mənəvi-əxlaqi dəyərlər sisteminin tədricən formalaşmasını və inkişaf etməsini bədii vasitələrlə yaşatmağa nail olmuşdur.Hakim ideologiya və sosialist realizminin icbari prinsipləri ədəbi-bədii fikrin qarşısında müəyyən maneələr yaratsa da,bu prosesin qarşısını kəsməyə nail olmamışdır. Çağdaş ədəbiyyatımızın tarixinə "60-cı illər nəsli" kimi daxil olmuş sənətkarlar-İ.Şıxlı, İ.Hüseynov, S.Əhmədli,M.Süleymanlı, Y.Səmədoğlu Anar, Elçin, R.Rövşən ədəbiyyatımızda aparıcı ideya istiqamətinə çevrilən yeni meylin nümayəndələri idilər. 60-cı illər nəslinin nümayəndələri öz yaradıcılıqlarında ədəbiyyatımızda ilk baxışdan bir-birinə zidd,lakin mahiyyət etibarilə bir-birini tamamlayan tendensiyaların meydana gəlməsinə və inkişafına rəvac verdilər:Azərbaycan ədəbiyyatı bir tərəfdən, özümlü şəkildə milli özünüdərk prosesinin yeni, daha yüksək, daha mürəkkəb və təzadlı mərhələlərinə qədəm qoydu, həm də XX əsrin ikinci yarısında azərbaycanlıların üz-üzə gəldikləri ictimai problemlərlə yanaşı,hər bir konkret fərddə özünü biruzə verın ekzistensial problemləri ifadə etmək məqsədinə nail oldu.Digər tərəfdən, bir neçə onillilkər ərzində sosialist realizmi ruhunda yazılmış əsərlərin formalaşdırdıqları sterotiplər dəf olunmağa başladılar: konkret fərdə, onun ekzistensial problemlərinə diqqət ön plana çıxdı-fərd artıq toplumun ümumi (tipik) cəhətlərini təcəssüm edən hədəf kimi təsvir olunmurdu. Bütün yuxarıda deyilənlər milli ədəbiyyataların özünəməxsus cəhətlərini və onların digər milli ədəbiyyatlarla ünsiyyətinin özəlliklərinin araşdırılmasının və dəyərləndirilməsinin universal və səmərəli metodu kimi etnopoetikanın prinsiplərinin tətbiqinin zəruriliyini labüd edir:

1) **etnopoetika** bu gün ədəbiyyatşünaslıqda dəbdə olan mifopoetikanın müəyyən funksiyalarını tapıb dolğun və hərtərəfli şəkildə həyata keçirməyə imkan verir. Bu heç də ədəbiyyatşünaslıq sahəsində mifopoetikanın elmi dövriyyədən çıxarılması təklifi deyidir: mifopoetika etnosun və onun bədii ədəbiyyatının mifoloji

mənşəyinin köklərinin üzə çıxarılmasının və tədqiq olunmasının ən kəsə yoludur. Lakin mifologiya kimi mifopoetika da mahiyyəti etibarilə fövqəlzaman səciyyəyə malikdir, buna görə də etnosun təkamülü prosesində labüd şəkildə yaranan xarakteristikalara malik durumların özünəməxsus cəhətlərini adekvat şəkildə şərh və təhlil etmək iqtidarında deyil;

2) hər bir etnos bütün tarixi boyu yaxın və uzaq qonşuları olan etnoslarla ədəbi-mədəni münasibətlər qurur.Etnik mədəniyyətlərin ümumi və fərdi cəhətlərini nəzərə alan **etnopoetika** bu munasibətləri tədqiq etməyə imkan verən metoddur.

3) Etnos ayrı-ayrı fərdlərdən ibarətdir.Bu fərdlərlə etnos arasında daim ziddiyyət mövcuddur ki,bu da ədəbi-bədii fikirdə öz əksini tapır.**Etnopoetika** ədəbi nümunələrdə öz əksini tapmış bu kolliziyaları şərh etməyə imkan yaradır.

Ədəbiyyat

1.Quliyev Q.XX əsr Amerikan ədəbiyyatşünaslığında aparıcı cərəyanlar.B.,2011

2.Quliyev Q. XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları. B.,2012

3. H.Cavid. Əsərləri 5 cilddə, II c., B.: Lider, 2005.

4.M.Ə.Sabir Hophopnamə. 2 ciddə. I c.,B.,2004.

5.M.Füzuli**.** Əsərləri 6 cilddə, B. 2005.

Rus dilində

1. Гумилев Л.Н. Этнос как явление //Доклады отделений и комиссий /Геогр. о-во СССР. Л.. 1967. - Вып. 3: Этнография. - С. 90- 107

2. Гумилев Л.Н. Этнос и категория времени // Доклады отделений и комиссий /Геогр. о-во СССР. - Л., 1970. - Вып. 15: Этнография. - С. 143- 157.

3. Гумилев Л.Н. Искусство и этнос: Постановка проблемы //Декоративное искусство СССР. - 1972. - N 1 /170. - С. 36-41.

4. Гумилев Л.Н. Этнические процессы: два подхода к изучению // Социологические исследования, 1992, № 1, С. 50-57. - Соавтор: К. П. Иванов.

5. Бромлей Ю.В. Этнос и этнография. — М., 1973

6. Бромлей Ю.В. Очерки теории этноса. — М., 1983

7. Зарубежная естетика и теория литератур. XIX-XX вв.М,1987

Дильбяр Зейналова

Этнопоэтика как универсальный метод анализа литературно-художественного произведения.

Резюме

В XX веке обращение национальных литератур к мифологии выявила такую парадоксальную закономерность: приближение национальных литератур дает возможность отражать не только созданные ими ценности,но и четко проявляет специфические черты каждого из них. Истина литературно-художественного образца , в целом литературного процесса проявляется в отрицании и утверждении интеграционных и дезинтеграционных процессов,

одним словом,в их диалектике и единстве. В связи с этим, нам кажется, чтобы исследовать и проанализировать специфику Азербайджанской литературы, и пути ее интеграции к мировой литературе необходима категория и их системы, адекватные природе литературного процесса. Этнопоэтика может выступать в качестве центральной категорией данной системы,так как:

1) этнопоэтика помогает всесторонно выявлять некоторые функции мифопоэтики. Это предложение не приводит к мыслю отказа мифопоэтики в области литературоведения: при исследовании мифологического генезиса этноса и художественной литературы мифопоэтика считается самым ефективным путем. Но мифопоэтика как и мифология имеет сверхвременную характеристику и поэтому не способна адекватно интерпретировать и анализировать неизбежные процессы эволюции этноса, уникальные особенности его характеристики.

2) Каждый этнос установливает литературно-культурные отношения с ближними и дальними соседями. Этнопоэтика, как метод учитивая общие и индивидуальные особенности этнической культуры дает возможность исследовать эти отношения.

3) Этнос состоит из различных индивидиумов. Взаимоотношения, конфликты между этими индивидами в какой-то степени отражается в литературно-художественной мысли. Этнопоэтика интерпретирует эти коллизии.

Dilbar Zeynalova

Ethno- poetics as a universal method for analyses of patterns
in literary fiction.

Summary

In XX century the public approach of national literature to mythology put forth such a paradoxical method: as national literatures came close to each others , and reflected one another's values intensively and rapidly, as well as their originality manifests itself clearly. Literary fiction patterns and generally literary process truth show itself obviously in the negation and affirmation of integrative and disintegrative processes , in one word, in dialectical form and unity.

For this reason it seems to us that, in order to adequately investigate and interpret the peculiarities of Azerbaijani literature and the ways in which it has been integrated into the world literature, we need to create a system of categorization to describe the development of the literary process. Ethno -poetics can appear as the central category of such a system:

1) Ethno -poetics enables us to identify certain functions of mythological poetry which is currently popular in literary studies and describe it in detail . This doesn't require the rejection of mythological poetry in literary studies: Mythological poetry is the highway to reveal and study the mythological roots of ethnos and literature. But it is not able to adequately interpret and analyze the specific features of newly characterized things occurring in the process of ethnos.

2) Each ethnos has had literary-cultural relationships with neighboring ethnos close or distant throughout the history . Taking into consideration the general and

specific features of cultures Ethno -poetics is a method which enables us to survey these relationships.

3) Ethnos consists of separate things. There is a strong contradiction between ethnos and these things and it expresses itself in fiction . Ethno- poetics helps us to state these collisions which are expressed in literary patterns.

Rəyçi: prof. Qorxmaz Quliyev

ИСАХАН ИСАХАНЛЫ
Докторант Института Литературы им. Низами НАНА
Университет Хазар

ЕСЕНИН НА СТРАНИЦАХ ГАЗЕТЫ «ТРУД» (1924-1926 годы)

Açar sözlər Yesenin və Azərbaycan, Yesenin Bakıda, Yeseninin şeirləri Bakı mətbuatında
ключевые слова Есенин и Азербайджан, Есенин в Баку, Стихи Есенина в Бакинской прессе
key words Yesenin and Azerbaijan, Yesenin in Baku, Yesenin's poetry in, Baku press.

Хотя основные сведения о жизни и творчестве Есенина во время его пребывания в Баку и печатались, в основном, на страницах газеты «Бакинский рабочий», некоторые сведения по этому поводу мы находим и в газете «Труд». В этой статье бакинский период жизни и творчества поэта нами будет прослеживатся именно через публикации газеты «Труд».

Впервые в Баку Есенин приехал в августе 1920-го года. Он прибывает в Баку в середине августа. К сожалению, до сегоднящего дня не удалось установить точную дату прибытия Есенина в Баку. И на страницах бакинской прессы мы не встретили ни одного сведения, касающегося этой поездки Есенина в Баку, целей поездки, людей, с которыми поэт встретился во время своего пребывания в Баку. Этот визит поэта в Баку не был плодотворным и с творческой точки зрения и в тот период в бакинской прессе не было опубликовано ни одного стихотворения поэта.

Следующий его приезд в Баку состоялся в сентябре 1924-го года. 25 августа в газете «Труд» была дана краткая информация о визите Есенина в Баку в сентябре месяце:

«В середине сентября в Баку приезжает известный поэт-имажинист Есенин. Поэт намерен выступить на диспуте об искусстве и поэзии» (1).

Есенин приезжает в Баку не в середине сентября, как было указано в газете «Труд», а 7 сентября. Побывав в Баку около двух дней, он совершил поездку в Тифлис и 20-го сентября вновь возвратился в Баку. Во время этого визита (с 20 сентября – по 6 октября) было проведено несколько вечеров поэзии и встреч поэта. Один из таких вечеров поэзии состоялся за три дня до того, как поэт покинул Баку, 3-го октября, в день его рождения, в студенческом клубе им. М.А.Сабира Азербайджанского Государственного Университета.

Первым об этом вечере сообщила газета «Труд»:

«*В пятницу, 3 октября в студенческом клубе им. Сабира состоится вечер стихов Сергея Есенина, устраиваемый Исполбюро АГУ, в пользу кассы взаимопомощи. Этот вечер является первым публичным выступлением поэта Есенина в Баку*» (2).

В этом же номере газеты, в разделе «Хроника» есть еще одно сообщение об этом вечере:

«*Находящийся сейчас в Баку московский поэт Сергей Есенин выступает со своими стихами на вечере, устраеваемом 3 октября в местном студенческом клубе (клуб им. Сабира, зд. Госуниверситета) и посвященном его творчеству. Вечер явится первым публичным выступлением поэта. Весь сбор с него поступит в кассу взаимопомощи ВУЗов*» (3).

Об этой встрече, вызвавшей большой отклик, была опубликована статья под псевдонимом «Циклоп» в газете «Труд» от 5-го октября. В статье, написанной, в целом, предвзято, несмотря на иронию автора, можно ясно увидеть сценическую культуру Есенина:

«...Златокудрый» поэт швырнул аудитории ряд красивых осколков, заслужив от значительной части студенчества шумные рукоплескания. Ему представлялись и целовали руки рьяные поклонницы его пахабной лирики. И он сам, растроганный, целовал хрупкие пальцы» (4).

6-го октября Есенин отправляется из Баку в Тифлис, а оттуда в Батуми.

А 8 октября газета «Труд» поместила статью «Наши о Есенине», где автор – Михаил Камский сверх грубо и резко отзывается о творчестве поэта:

«*...Публика, преимущественно литературная молодежь всех толков и направлений, встретила Есенина тепло», - так пишет М.Данилов. Но действительно ли было так? А мы знаем, что у многих товарищей, особенно рабочих, когда Есенин читал свои стихи, насыщенные гнилью кабаков, проституции и удали босяцкой, - ходил подкожный мороз и тянуло к рвоте?... Есенина знают только те, которые не купались в родниках Маркса и Ленина и те, которые так еще безумно, как и сам Есенин, тоскуют о «тех берегах*». *Мы видали, как поклонники Есенина городили вокруг него стену и защищали его, чтобы мы, рабочие не имели возможности поделиться мнениями о Есенине, которое принесло бы не меньше пользы аудитории, чем его гниль кабацкая*» (5).

В конце ноября и в начале декабря на страницах «Труда» вновь появляется имя Есенина. В отделе «Новости литературы» автор Еф. Рабинович отмечает:

«*Все наиболее выдающиеся поэты и писатели современники, по происхождению рабочие и крестьяне, нашли себе полное отражение в книг. Горький, Скиталец, Бибик, Дрожжин, Нечаев, поэты новокрестьянские: Есенин, Клюев...»* (6)*... «И имажинистам в этом отношении необходимо последовать примеру своего бывшего соратника С.Есенина, повернуть колесо своей поэзии назад к Пушкину»* (7).

Следующий раз Есенин приезжает в Баку 30-го марта 1925 года, а «Труд» реагирует на это только 5-го мая – в День Печати. В этот день прошла церемония открытия «Клуба объединенных экспедиции печати». Есенин тоже принял участие в этом мероприятии:

«*После доклада выступали поэты: Есенин, Данилов и Муран... Больше всего заинтересовал разносчиков газет тов. Данилов своим стихотворением «Мальчик», понравились стихи т. Есенина*» (8).

24 мая газета «Труд» поместила статью П.Тарасова – «Тысячу номеров», где автор не забывает и Есенина:

«*Армия активных рабкоров «Труда» дает нашей печати:*

– Лучших репортеров.

– Талантливых журналистов и пролетарских писателей.

– Своих Есениных

Придут лучшие из лучших» (9).

4 сентября «Труд» поместила на своих страницах стихотворение Бориса Ковынева, «Сергею Есенину» (10).

22 ноября в газете «Труд» была помещена информация о том, что «*Сергей Есенин выпускает сборник новых стихотворений – «Рябиновый костер». Книга выходит в издании «Современная Россия*» (11). Но теперь известно, что эта книга не была издана.

Эта была последняя реакция «Труд»а относительно творчества поэта при его жизни. В целом, при жизни Есенина в газете «Труд» было опубликовано 11 материалов, где в разных контекстах представлена информация о нем. Три из этих материалов – это объявления о предстоящих встречах и выступлениях поэта, три посвящены непосредственно самим этим встречам и выступлениям, имеется одно объявление о выходе новой книги Есенина, одно – посвященное поэту стихотворение, а в трех других просто упоминается имя поэта.

Посвященные смерти Есенина первые материалы в бакинской прессе появились 30-го декабря. В тот день в газете «Труд» была напечатана статья М.Камского «Сергей Есенин»:

«*Нет больше Сергея Есенина...*

Не стало поэта – певца кленовой золотой листвы, кудрявой березки, тихих деревенских закатов и зорь...

Крепкая петля шнура затянула навсегда звонкие струны поэта...

Есенин повесился...

В лице Сергея Есенина мы потеряли крупнейщего поэта нашего времени. Крупного потому, что Есенин не кричал маскарадными строчками стиха, – он пел искренно, нутром и разгулом широкогрудных полей.

Что заставило поэта кончить самоубийством? Что было в предсмертных клочках записок, нацарапанных кровью из перерезанных вен? – Осталось неизвестным.

– Не стало Есенина!

Сгубила белокурого поэта разгульная кабацкая жизнь.

Только ли?

– «В родной стране я словно иностранец...»

– Вот в чем главная причина самоубийства поэта. Он в стране рабочих и крестьян чувствовал себя «иностранцем», он не мог войти в нашу новь, он не сумел (как не старался) настроить свою действительно чудесную лиру на наш рабочий лад – и в этом его трагедия.

Жаль, искренно жаль большого поэта» (12).

4-го января в помещении Бакинского Рабочего театра состоялся торжественный траурный вечер памяти Есенина. Траурный вечер был устроен по инициативе коллектива редакции «Бакинского рабочего». Траурный вечер от-

крыл академик Ольденбург. Затем с докладом о творчестве Есенина выступил Михаил Данилов:

«*Творчество Сергея Есенина, на 30-м году жизни ставшего одним из величайших поэтом России, в своей основе было песнетворчеством. Народный инструмент – тальянка, - был его символом. В отзвуках балалайки и народных частушках Есенин черпал мотивы своих стихов. В русской поэзии один Кольцов близок Есенину своими песнями, но Кольцову далеко было до Есенина по глубине и мощности размаха. Громадное большинство стихов Есенина безусловно будет переложено на музыку. Покойный поэт ушел от канона, - в своем творческом буйстве он переливался за берега стихотворной законности. Это был не Брюсов с его жертвенным служением поэтике, это был великий вольный поэт. Еще одна черта – почвенность его творчества: например, луна в стихах дана в бесконечном разнообразии образов, нашептанных ему лесами, полями, лугами Руси, в которую поэт был так влюблен. Язык Есенина – жемчужина, вложенная в сокровишницу русского языка. Колоссальную впечатляемость дают стихи Есенина, - об этом говорит его громадная популярность в нашей стране. Лейт-мотив есенинских стихов – великая боль за «Русь – соломенную*», *Русь теперь уходящую*» (13).

После доклада выступил профессор Селиханович:

«*У всех, кто любит русскую литературу, одна мысль – Есенину не дали того, что могли... И у него не взяли того, что могли... Стихи Есенина – синтез всех предыдущих течений. Все они сплавились в новом сплаве – и в этом громалное значение творчество покойного поэта... По своему мастерству Есенин – современный Пушкин. Громадное его достоинство, как поэта в том, что он остался искренним до самого конца... В самоубийстве Есенина есть что-то Вертеровское, молодое – он не выдержал противоречий, обуревавших его душу. Больше внимания нашим художникам и нашей литературной молодежи! Больше поддержки! Больше теплоты»* (13).

На вечере выступили также Пир и Пессимист.

1 марта в Доме Просвещения состоялся диспут о творчестве Есенина. Об этом заранее было дано объявление в газете «Труд»:

«*В понедельник, 1 марта, в 7 час. веч. в помещении Дома Просвещения состоится* **диспут о творчестве Есенина**. *Докладчик МИХ. ДАНИЛОВ. Содокладчик – оппонент ПИР* ». *К участию в диспуте приглашаются все работники печати и рабкоры, после диспута состоится читка стихов*» (14).

Основным докладчиком в диспуте выступал Михаил Данилов:

« – Есенин, сказал он, похож на птицу, которая обладает особым даром певучести. Его песня льется свободно, из самой души...Стихи синеглазого Есенина изумительно звучны, красочны и четкы. Ни один поэт современности не дошел до такой степени художественного совершенства и мастерства. Мы должны были беречь его, как зеницу ока. Но грубая критика и обстановка затравили поэта. Мы не смогли сделать так, чтобы этот величайший песнопевец остался жить среди нас и творить» (15).

В диспуте приняли участие и другие участники вечера. В конце вечера были прочитаны стихи Есенина и вещи посвященные ему.

24 сентября в газете «Труд» вышла статья С.Мазявый, под названием «Лики Есенина. От херувима до хулигана». Эта статья – резкая, но справедливая рецензия на одноименную книгу А.Крученых, вышедший в Москве в издательстве автора:

«*Под таким заглавием выпустил А.Крученых книжечку о поэте Есенине. Всякий, кто мало-мальски знал Сережу, кто читал его нежно-трогательные и грустно-трагические стихи, тот, наверное, задумывался над жизнью синеглазого юноши, стараясь осмыслить толково его трагедию. Но только такой поверхностный и абсолютно невежественный критик, как Крученых, способен бесцеремонно клеветать на Есенина, пыжась по лягушиному, изо всех сил, чтобы обязательно доказать «херувимность» поэта и его... внезапное превращение в хулигана. Глупо искать в Есенине черты какой-то «святости» или пошлого кабачного хулиганства. Он не был ни тем, ни другим! Его поэзия – это узел таких проблем, которые могла породить только наша переходная эпоха с ее глубочайшими, социальными потрясениями. Несомненно, революция своей грандиозностью и прямотой как бы ошеломила поэта... Во всяком случае, к Есенину нужен более серьезный подход, чем это крученовское пустоболтунство*» (16).

Литература

1. *Поэт Есенин в Баку.* Газета «Труд», 1924, 25 августа.
2. *Есенин у студентов.* Газета «Труд», 1924, 2 октября.
3. *Публичное выступление поэта Есенина.* Газета «Труд», 1924, 2 октября.
4. *Циклоп.* Бакинский день. Поэт Есенин среди студенчества. Газета «Труд», 1924, 5 октября.
5. *Михаил Камский.* «Наши о Есенине». Газета «Труд», 1924, 8 октября.
6. *Рабинович Еф.* Новости литературы. Газета «Труд», 1924, 30 ноября.
7. *Рабинович Еф.* Новости литературы. Газета «Труд», 1924, 2 декабря.
8. *Н.Т.* 5 мая у газетчиков. Газета «Труд», 1925, 8 мая.
9. *Тарасов П.* Тысячу номеров. Газета «Труд», 1925, 24 мая.
10. *Борис Ковынев*. Сергею Есенину (стихотворение). Газета «Труд», 1925, 4 сентября.
11. *Новое о литературе.* Газета «Труд», 1925, 22 ноября.
12. *Камский Михаил.* Сергей Есенин. Газета «Труд», 1925, 30 декабря.
13. *Памяти Сергея Есенина. Траурный вечер.* Газета «Труд», 1926, 6 января.
14. Газета «Труд», 1926, 28 февраля.
15. *Карандаш.* Вечер Есенина. Газета «Труд», 1926, 3 марта.
16. *Сергей Мазявый.* Лики Есенина. Газета «Труд», 1926, 24 сентября.

İsaxan İsaxanlı

Yesenin "Trud" qəzetinin səhifələrində
(1924-1926)
Xülasə

1924-1925-ci illərdə Yeseninin Bakı həyatı ilə bağlı məlumatlar, əsasən, «Bakinski raboçi» qəzetində verilsə də, «Труд» qəzetində də xeyli yazılara rast gəlirik. Bu yazıda Yeseninin Bakı həyatı məhz «Труд» qəzeti vasitəsilə izlənilir.

Isaxan Isaxanli

Yesenin on the pages of the newspaper "Trud"
(1924-1926)
Sammary

Though it provides the large amount of information about Yesenin's 1924-1925 years' sojourn to Baku which was illustrated in the newspaper of "Bakinski rabochi"; the readers could also come across with similar information on the newspaper "Trud". This article talks about Yesenin's life in Baku on the basis of publications from "Trud".

Rəyçi: Əfqan Abdullayev
filologiya elmləri doktoru

RAMİL ƏLİYEV
Filologiya üzrə elmlər doktoru, dosent
AMİ-nin Azərbaycan ədəbiyyatı və onun
tədrisi metodikası kafedrasının müdiri
ramill.aliyev @ gmail.com

LƏTİFƏ JANRININ TƏDRİSİ VƏ TƏHLİLİ HAQQINDA

Açar sözlər: Lətifə, gülüş, yumor, satira, janr
Keywords: Anecdote, laugh, humor, satire, genre
Ключевые слова: Анекдот, юмор, сатира, жанр

Şifahi xalq ədəbiyyatı dərslərində lətifələr epik növün janrı kimi tədris olunur. Tədris zamanı aydın olmuşdur ki, bu janra tələbələr daha çox maraq göstərirlər. Bu isə lətifələrin gülüşyaratma xüsusiyyətləri ilə bağlıdır. Tələbə auditoriyası gülüşə həssas olduğundan bu janra yaradıcı yanaşırlar. Lətifələri tədris edərkən janrın semantik xüsusiyyətləri, lətifə obrazlarının səciyyəvi cəhətləri və sair nəzərə alınmalıdır. Mühaziraçi müəllim lətifə obrazlarının milli xüsusiyyətlərini, lətifələrin söylənilməsində yumor və gülüşün aparıcı rol oynamasını, tələbələrin həssaslığını nəzərə almalıdır.

Lətifələr Azərbaycan xalq ədəbiyyatının ən qədim janrlarından biridir. Lətifə yaradıcılığı Azərbaycanda qədim köklərə malik olsa da, tam bir janr kimi formalaşma prosesi IX əsrdən başlamışdır. Azərbaycan lətifələrini təsnif edərkən tədqiqatçılar Bəhlul Danəndə lətifələri, Molla Nəsrəddin lətifələri və regional lətifələrə bölürlər.

Yaxın Şərqdə məşhur folklor surətlərindən – lətifə qəhrəmanlarından biri də Bəhlul Danəndədir. Bəhlul adı ilə məşhur olan Bəhlul Danəndə IX əsrdə Bağdadda yaşamışdır. Rəvayətə görə, o, tarixi şəxsiyyət Harun ər-Rəşidin qardaşı olub, siyasət və səltənət taxtından üz döndərmiş, özünü dəliliyə vurub, incə sözləri ilə xalq arasında şöhrət qazanmışdır.

Rəvayətlərdə həmçinin Bəhlulun Cəfər Sadiqin səhabəsi olduğu, onlara qarşı təqiblərin olması üzündən özünü dəli kimi göstərməsi də qeyd olunur. Əsasən, ərəb folklorunun obrazı olan Bəhlul Danəndə, müsəlman Şərqinin digər xalqlarının, o cümlədən Azərbaycan türklərinin də şifahi xalq yaradıcılığında «ağıllı axmaqlar»ın prototipidir. Bəhlul Danəndə bir çox lətifə, didaktik şeir və hekayənin hökmdar, ruhani və varlılara qarşı çıxan hazırcavab, tədbirli və müdrik qəhrəmanıdır. O, Azərbaycanda xalqı arasında Divanə Bəhlul kimi də tanınmışdır (5).

Azərbaycanda Bəhlul Danəndə lətifələrinin yayılması əsasən IX əsrdən sonraya aid edilir. Bəhlul Danəndə lətifələri Azərbaycanda lətifələrin janrlaşmasına xeyli təsir etmişdir. Belə ki, Bəhlul Danəndə lətifələri təsir etmə imkanlarına görə həmişə milli lətifəçilikdə ön sıralarda olmuşdur. Ona görə də Azərbaycanın müxtəlif bölgələrində Bəhlul Danəndənin adı ilə bağlı çoxlu lətifələr yaşamaqdadır.

Danəndə Bəhlul tarixi şəxsiyyətdir. O, orta əsrlər ərəb dünyasının lətifə ustasıdır. Onun Harun ər-Rəşidin qardaşı olduğu da söylənilir. Bəzən isə Bəhlul Danəndə ilə Harun ər-Rəşidin bir-birinə belə yaxınlığını Bəhlulun öz şəxsiyyətini

fanatiklərdən qorumaq üçün irəli sürənlər vardır. O, öz lətifələrində ərəb ictimai həyatının eybəcərliklərini tənqid atəşinə tutmuşdur. Bəhlul Danəndə lətifələri ictimai şüura təsir etmə imkanlarına görə Şərqdə çox geniş yayılmışdır. Bu lətifələrin məzmunundakı gülüş ictimai-satirik gülüşdür. Bu gülüşün məzmununda ifşa etmək xüsusiyyəti olduqca güclüdür.

Bəhlul Danəndə lətifələrində ərəb ictimai mühiti ilə onun arasında həmişə ziddiyyətlər olmuşdur. Bəhlul Danəndə xalqın məişətinə, həyatına yaxından bələd olduğu üçün bir növ xalqın hamisinə çevrilir, haqqı tapdalananların müdafiəçisi olur. Bu xüsusiyyət Bəhlul Danəndə lətifələrinin əsas aparıcı xəttidir. Bəhlul Danəndə ilə xalqın qanını soranlar arasında dərin uçurum vardır.

Bəhlul Danəndə müsəlman dünyasında məşhur olsa da, türk xalqları arasında Molla Nəsrəddin kimi geniş şöhrət tapmamışdır. Bəhlul Danəndənin ictimai quruluş əleyhinə olan lətifələrini nəzərə almasaq, Şərq ölkələrində Molla Nəsrəddinin həm ictimai, həm məişət, həm də xurafat əleyhinə olan lətifələri qədər onun lətifələrinin bu mövzularda olmadığını və ya yayılmadığını görürük. Çünki Bəhlul Danəndə sırf ərəb ictimai həyatının eybəcərliklərini ifşa edən lətifələr müəllifidir. Molla Nəsrəddin isə həm türk xalqlarının müştərək obrazı kimi, həm də Azərbaycan lətifələrinin milli obrazı kimi xalq yaddaşında yaşamaqdadır.

Bəhlul Danəndə və Molla Nəsrəddin tarixi şəxsiyyət olaraq müəyyən zaman kəsimində yaşamışlar. Bu şəxsiyyətlər lətifə qəhrəmanı kimi o qədər bədii çalarlar qazanmışlar ki, mətnlərdə onların təkcə obrazlarından danışmaq olar. Bəhlul Danəndə haqqında bir-birindən fərqli fikirlər vardır.

Bəhlul Danəndə lətifələri ictimai ziddiyyətləri əks etdirir. Bu lətifələrdə varlı təbəqələrlə yoxsul kütlələr arasında uçurum vardır. Xalqın həyatının kəskinləşdiyi bir zamanda xalq ilə varlılar arasında ziddiyyət yarananda bu problemi Bəhlul Danəndə həll edir. Bəhlul Danəndə lətifələrinin hamısında bu xətt çox güclüdür, ifşa hədəfləri lətifələrin mənfi obrazlarıdır. Lətifələrdə əsas xüsusiyyət antaqonizmin xalqın xeyrinə həll olunmasında özünü göstərir.

Molla Nəsrəddin lətifələrində də ictimai ziddiyyətlər vardır. Lakin Molla Nəsrəddin lətifələrindəki ictimai ziddiyyətlər kəskin xarakter daşımır. Bu ziddiyyətləri Molla Nəsrəddin yumorlu gülüşlə aradan qaldırır. Molla Nəsrəddin lətifələrinin islahedici, tərbiyəedici funksiyası vardır. Molla Nəsrəddin lətifələrinin ictimai tərəfləri daha çox diqqəti cəlb edir. Bütün xalqların lətifə yaradıcılığında bu cəhət həmişə önə çəkilir. Azərbaycan milli məişətinə daxil olmuş bütün lətifələrdə bu xüsusiyyətlər qabarıq şəkildə əks etdirilir. Bəhlul Danəndə lətifələrindən fərqli olaraq Molla Nəsrəddinlə hakim dairələr arasında kəskin konfliktlər, ziddiyyətlər yaşanılmır. Ziddiyyətlərin yaranması lətifələrdə əks olunan tarixi proseslə bağlıdır. Bəhlul Danəndə lətifələrində ziddiyyətlərin tarixi prosesə bağlılığı çox güclüdür. Molla Nəsrəddin lətifələrində isə tarixi ziddiyyətlər arxa planda qalmışdır. Bu da Molla Nəsrəddinin müştərək obraz olması ilə bağlıdır. Əgər Bəhlul təkcə ərəb mühitinin yetişdirdiyi şəxsiyyətdirsə, Molla Nəsrəddinin tarixi həyatında hər türk xalqının milli düşüncəsinə uyğun olaraq dəyişikliklər edilmişdir. Türk xalqlarının hər biri Molla Nəsrəddini görmək istədiyi tarixi şəxsiyyətinə bildiyi əlavələri etmişdir. Ona görə də Molla Nəsrəddinlə yaşadığı tarixi şərait arasında bağlılıq pozulmuşdur.

Əfsanə və rəvayətlərdən fərqli olaraq, lətifələr folklorun daha çox yayılan, həm də tədqiqə ehtiyacı olan kiçik janrlarındandır. Azərbaycanda lətifə janrı

çox geniş yayılmışdır. Lətifənin əsas fərqləndirici əlaməti satirik və yumoristik gülüşdür. Bu gülüşü yaradan əsas xüsusiyyətlər zarafat, məzəlilik, sadəlövhlük və mehribanlıqdır. Bu gülüşü yaradan əsas lətifə qəhrəmanları Danəndə Bəhlul, Molla Nəsrəddin və bir də regional xarakterli obrazlardır. Lətifələrin regionallıq xüsusiyyəti onların yayıldığı ərazilərlə bağlıdır. Lətifələr onları yaradanların adı ilə bağlı olaraq 3 və daha artıq qruplara ayrılır: Bəhlul Danəndə lətifələri, Molla Nəsrəddin lətifələri və regional lətifələr. Regional lətifələr də özlüyündə bir neçə qrupa bölünür: Şəki lətifələri, Qarabağ lətifələri, ayrım lətifələri, ləzgi lətifələri və müxtəlif məzmunlu lətifələr. Region lətifələri yayıldığı ərazidə məhəlli xüsusiyyətləri əks etdirir.

Molla Nəsrəddinin lətifələrindəki insanı heyrətə salan yığcamlıq və məntiq indiyədək tam araşdırılmayıb. Dünyada Molla Nəsrəddin kimi güldürən və eyni zamanda düşündürən, hər sözündə ən məşhur elm adamını belə, heyrətə salan elmi, fəlsəfi məntiqi olan ikinci bir şəxs tapmaq çətindir. Onun lətifələrində ən çətin bir vəziyyətdən çıxış yolu var. Molla Nəsrəddinin böyüklüyü də məhz bundadır.

Bəzi lətifələrdə («Evi düzəldərik», «Mindiyimi saymıram» kimi lətifələrdə) Molla Nəsrəddin avam, sadəlövh adam təsiri bağışlayır .

Azərbaycan lətifələri əsasən məzmununa görə çox sadə şəkildədir. Lətifələrimiz lakonik, təhkiyə üsulu etibarilə bir-birini təkrarlamayan formadadır. Buna görə də lətifələrimiz arasında variantlaşma məsələsinə çox da rast gəlinmir. Hər bir lətifə milli düşüncənin məhsulu kimi meydana gəlmişdir. Bu mənada Bəhlul Danəndə və Molla Nəsrəddin lətifələri də milli təfəkkür süzgəcindən keçirilərək azərbaycanlaşdırılmışdır. Molla Nəsrəddin lətifələri milli kök etibarilə qədim dövrlərdə hansı türk xalqının məhsulu olubsa, orta əsrlərdə Azərbaycan lətifələri içərisində də özünə möhkəm yer etmiş, xalqımızın milli təfəkkürünün məhsuluna çevrilmişdir.

Azərbaycanda yayılmış həm Bəhlul Danəndə lətifələrinin, həm də Molla Nəsrəddin lətifələrinin özünəməxsus janr xüsusiyyətləri vardır. Fikrin ifadə olunmasında lətifələr daha çevik bir janrdır. Molla Nəsrəddin lətifələri də bu cəhətdən seçilir. Lətifələrdə Molla Nəsrəddin öz lakonik cavabı ilə qarşısındakını məntiqinə inandıra bilir. Molla Nəsrəddin lətifələri nümunələr əsasında təhlil edilərək onların insanların əxlaqına, mənəviyyatına olan müsbət təsiri də diqqət mərkəzinə çatdırılaraq tədqiq olunur.

Həm Bəhlul Danəndə, həm də Molla Nəsrəddin inandırma üsulundan tez-tez istifadə edirlər. Lətifələrin janr xüsusiyyətlərində lakoniklik, fikrin məntiqi əsasları, az sözlə daha böyük məna ifadə etmək, ağıllı hərəkət etmək, gülüşün bütün vasitələrindən istifadə etmək, hökmdar – Bəhlul Danəndə və Molla Nəsrəddin qarşılaşmalarında ikincilərin üstünlüyü və s. bütün bunlar əhəmiyyətli dərəcədə yer tutur.

Lətifələrin maddi xüsusiyyəti kimi isə bu lətifələrin tarixi əsasından ayrılaraq xalq təfəkkürünün süzgəcindən keçməsini, hətta bəzi mətnlərin variantlaşaraq yayılmasını, sözün məna dəyərinin qüvvətləndirilməsini, ziddiyyətin açılmasında düşünülmüş vasitədən istifadə olunmasını və s. göstərmək olar. Bu vasitələr, eyni zamanda, lətifələrin janr xüsusiyyətlərinə çevrilə bilir. Lətifələr formadan və məzmundakı gülüşün növündən asılı olaraq dəyişir.

Bəhlul Danəndə və Molla Nəsrəddin lətifələri, eləcə də region lətifələri müqayisə edilərək bu nəticəyə gəlinir ki, lətifə yaradıcılığı xalqların düşdükləri çətin problemlərdən çıxmaq, ağır iqtisadi vəziyyəti gülüşün köməyi ilə yüngülləşdirmək arzusundan doğmuşdur. Lətifə yaradıcılığı milli yaradıcılığın məhsuludur. Azərbaycanda erkən orta əsrlərdən lətifə yaradıcılığı olmuşdur. Lətifə yaradıcılığının qədim gülüş ocaqları kimi Şəki, Qarabağ, Qazax, Dərbənd, Borçalı yaşayış məskənlərini göstərmək olar. Həmin gülüş ocaqlarının lətifələrini aid olduğu yerin adı ilə adlandırmaq olar. Bu xüsusiyyətləri nəzərə alaraq, Azərbaycan lətifələrini təsnif edərkən Bəhlul Danəndə, Molla Nəsrəddin lətifələrindən sonra region lətifələrini də qeyd edirlər. Region lətifələri Azərbaycanın yerli lətifələridir. Belə lətifələrin inkişaf xətti Molla Nəsrəddin və Bəhlul Danəndə lətifələrindən geri qalmır. Sözün mənasının şərti, gizli eyhamlarla verilməsi region lətifələrinin əsas xüsusiyyətidir. Region lətifələri içərisində yayılanlar ən çox Hacı dayının, Abdal Qasımın, Nağı və Tağının adları ilə bağlıdır.

Lətifə janrı dəyişən bir formadır. Klassik lətifələrdə bu o qədər də hiss olunmur. Məsələn, Bəhlul Danəndə lətifələri qapalı olduğuna görə dəyişikliyə uğramır. Molla Nəsrəddin lətifələri yerli mühitə uyğunlaşdığı üçün dəyişikliyə uğraya bilir. Yerli region lətifələri isə daim inkişafdadır, gülüş ustalarının yaradıcılığı sayəsində yerli lətifələr bu gün də yaranır.

Lətifə xalq yaradıcılığıdır. Lətifələrdə gülüş ustalarının dünyagörüşü, ictimai hadisələrə münasibəti açıq şəkildə hiss olunur. Lətifələr yarandığı kimi qalmır, o, ağızdan-ağıza düşərək cilalanır, sabit bir forma alır. Bu xüsusiyyət Bəhlul Danəndə və Molla Nəsrəddin lətifələrində artıq başa çatmış, region lətifələrində isə davam etməkdədir. Azərbaycanda lətifə janrının tədqiqatçılarından M.H.Təhmasib. P.Əfəndiyev, T.Fərzəliyev, A.Nəbiyev, R.Qafarlı və başqalarının araşdırmalarına əsasən deyə bilərik ki, bu janr Azərbaycanda IX əsrdən formalaşmağa başlamış, əsasən, Bəhlul Danəndə və Molla Nəsrəddin lətifələri burada yayılmağa başlamışdır.

Xalqın gülüş mədəniyyəti öz potensiyalını ən çox lətifələr vasitəsilə büruzə verir. Əslində gülüş mədəniyyəti xalq yaradıcılığının ən ilkin mərhələlərindən başlayaraq bir sıra nümunələrdə öz əksini tapmışdır. Xalq mədəniyyətində gülüşün yerini konseptual tədqiqatın obyektinə çevirmiş M. Baxtinin bu barədə qənaəti belədir: «Dünyanın və insan həyatının ikili dərki mədəni inkişafın ən ilkin mərhələlərindən mövcud idi. İbtidai insanların folklorunda ciddi tapınışlarla (kultlarla) yanaşı, gülüş tapınışları, … ciddi miflərlə bir sırada gülüş və kinayə doğuran miflər, qəhrəmanlarla bir sırada isə onların parodiyalı tayları - dublyorlar dururdu» (2). Buna baxmayaraq gülüş mədəniyyətinin bariz təzahürü və onun janr üslubu olan lətifələrin formalaşması daha çox orta əsrlərlə bağlıdır. Azərbaycan lətifələri də bir çox əski elementləri özündə ehtiva etməsinə baxmayaraq, daha çox orta əsrlərin ictimai-mədəni həyatının göstəricisi kimi diqqəti cəlb edir. Nəinki Azərbaycan, ümumən Şərq folkloru üçün aparıcı gülüş obrazı rolunu oynayan Molla Nəsrəddin (Xoca Nəsrəddin, Xacə Nəsrəddin) obrazını və ümumən lətifələrimizi əhatəli şəkildə araşdırmış T.Fərzəliyevə görə, «Molla Nəsrəddin istər azərbaycanlı, türk, fars və istərsə də çeçen olsun, fərqi yoxdur, o hər şeydən əvvəl folklor obrazıdır, xalq bədii dühasının məhsuludur. Bu obrazı başa düşən və dərk edən, onu sevən hər bir xalq üçün Molla Nəsrəddin doğma və əzizdir» (1, s.50).

Aparılan tədqiqatlarda lətifələrin ideya-məzmun xüsusiyyətləri də diqqət mərkəzinə çəkilmişdir. Lakin son dövrlərdə lətifələrə xalq gülüş mədəniyyəti kontekstində yanaşılması və onların poetika xüsusiyyətlərinə ayrıca diqqət yetirilməsi bu janrın son dərəcə maraqlı cəhətlərini aşkarlamağa imkan vermişdir. Bu baxımdan M. İmanovun qənaətləri janrın potensial imkanlarını üzə çıxarmaq baxımından diqqəti cəlb edir. O yazır: «Bayram şənliklərindəki oyunbazlar kimi Molla Nəsrəddin də xalq arasında, yaxud xalqla birlikdədir. Həm də bu xalq anlayışına Molla Nəsrəddinin arvad-uşağı, qonum-qonşusu, dost-tanışı ilə bir sırada yuxarı təbəqənin nümayəndələri də daxildir. Həm birincilərə, həm də ikincilərə gülərkən Molla Nəsrəddin məhz özününkülərə, özünə gülmüş olur. Odur ki, bu gülüşdə düşmənçilik çalarları tapmaq çətindir» (2, s.112).

Ümumiyyətlə, Azərbaycan türkləri yaşayan bölgələrdən toplanmış lətifələr arasında Molla Nəsrəddin və Bəhlul Danəndənin adı ilə bağlı yeni nümunələrə demək olar ki, rast gəlinmir. Əvəzində xalq arasında işlənən deyimlərin kökünü açan bir sıra nümunələr də lətifələr üslubunda təqdim edilmişdir. Məsələn, «Bayramınkı olmasın» deyiminin arxasında belə bir hadisə durur: keçmişlərdə Hamamlıda Bayram adlı bir kişi meşəyə oduna gedir və ayı ona hücum edir. Xeyli güc gələndən sonra Bayram ayını basır. Camaat gələndə onu ağlayan görür və bunun səbəbinin soruşur. Cavabında Bayram deyir ki, məni ağladan odur ki, bu qədər qohum-əqrəbası olan adamın üstünə ayı gələrmi? İndi adamlar qohum-əqrəbası ilə öyünəndə belə deyirlər: «Bayramınkı olmasın!».

Azərbaycan folklorunda lətifə janrı qədər məzmunca bir-birinə yaxın olan başqa janr bəlkə də tapmaq olmaz. Bu, bilavasitə Molla Nəsrəddinin adı ilə bağlı olan lətifələrə aiddir. A.Nəbiyev lətifə yaradıcılığındakı bənzərlikləri nəzərə almaqla türk xalqlarının lətifələrini üç qrupa bölür: Xalq lətifələri; Molla Nəsrəddinin (Xoca Nəsrəddinin) adı ilə bağlı olan lətifələr; Ayrı-ayrı şəxslərin, baxşıların, müdrik adamların adından deyilmiş lətifələr (buraya region lətifələrini də əlavə etmək olar – 3, s.302).

Molla Nəsrəddinin adı ilə bağlı yaranan lətifələrin personajının Xacə Nəsirəddin Tusi olduğu barədə müəyyən fikirlər söyləyirlər. Bu fikri A.Nəbiyev qəbul etməyərək tarixiliyi kölgədə qoyan dəlillərin olduğunu yazır. O qeyd edir ki, həmin lətifələr bir şəxsin yox, xalqın bədii yaradıcılıq süzgəcindən keçmiş, cilalanmış, beləliklə, onun yaradıcısı xalq olmuşdur (3, s.308). Bu sözlərdə bir həqiqət vardır, çünki xalq gülüşü kollektiv yaradıcılıq məhsulu kimi lətifələrin prototipini kənara qoyaraq, özünün idealını lətifələrdə tərənnüm etmişdir. Onun gülüşü yumorludur, incədir, islahedicidir. Lətifələrin bütün növlərində gülüş hədəfi avamlıq, sadəlövhlük, özbaşınalığa etiraz, ədalətsizliyə qarşı barışmazlıqdır.

Lətifələr Azərbaycan mədəniyyətinin tərkib hissəsidir. Gülməyi sevən xalq kimə güldüyünü, nəyə güldüyünü açıq şəkildə ifadə edir. Gülüşsüz xalq yoxdur, lətifələrdə gülüşün forması əsas rol oynayır. Lətifə yaradıcıları nəyə güldüklərini açıq şəkildə göstərirlər. Lətifəni qoşanlar özlərinin həyatdakı şuxluğunu öz obrazlarına da gətirirlər. Buna görə də lətifə ilə həyat hadisəsi arasında reallığa əsaslanan əlaqələr mövcud olur. Məsələn, Şəki lətifələrinin əsas söyləyicisi Hacı dayıdır. O, düzüb-qoşduğu lətifələrin qəhrəmanına çevrilmişdir. Şəki lətifələri Hacı dayının

əməyi nəticəsində dünyanın gülüş meydanına çıxa bilmişdir. Məhz bunun nəticəsində Şəki gülüşü və Qabrovo gülüşü birləşmiş, dünya mədəniyyətinin qabaqcıl ünsürünə çevrilmişdir. Bunun nəticəsində Şəki lətifələri Azərbaycanın gülüş mədəniyyətini təmsil edərək beynəlxalq səviyyədə tanınmışdır. Şəki lətifələrinin məzmunu obrazların yaşam tərzi ilə sıx bağlıdır. Bu xüsusiyyət bütün lətifələrə aid edilir.

Azərbaycanda region lətifələri, onların obrazları olan Hacı dayı, Abdal Qasım, Nağı və Tağı ilə bağlı çoxlu lətifələr vardır və onların janr xüsusiyyətləri hələ tam açıqlanmamışdır.

Beləliklə, şifahi xalq ədəbiyyatının janrlarından biri olan lətifələrdən, onların janr xüsusiyyətlərinin rəngarəngliyindən yekun olaraq aşağıdakılar qeyd olunmalıdır: tarixin keçmişindən süzülərək bu günümüzə qədər gəlib çatmış lətifələr digər janrlar kimi xalqın yaşam tərzini, ictimai-siyasi vəziyyəti və s. özündə əks etdirən çox maraqlı bir janrdır və lətifələr hal-hazırda da əvvəlki qədər, bəlkə də daha çox aktualdır. Bu janr insan təfəkküründün məhsuludur və burada əsas məqsəd həyatda baş verən çatışmazlıqları, əyər-əksiyi hədəfə çevirməklə satirik gülüşün dili ilə ifşa etməkdir.

Yekun olaraq qeyd olunmalıdır ki, lətifələrin daxili semantikası onların janr xüsusiyyətlərinin öyrənilməsində başlıca rol oynayır. Lətifələrin semantikası gülüşlə birbaşa bağlıdır. Lətifələrin öyrənilməsində də bu iki amil hökmən nəzərə alınmalıdır. Bu, Azərbaycanda yayılan bütün lətifələrə aiddir.

Lətifələr bitib-tükənməyən bir janr olduğundan onun bədii xüsusiyyətləri, quruluş sistemi, janr xüsusiyyətləri və sair haqqında fikir yürütmək asan olduğu qədər də çətindir. Lətifələr insan həyatının güzgüsü olduğundan öz məzmununda da aydınlığı əks etdirməlidir. Bu cəhətdən Azərbaycan lətifələri xalq məişətinin, əxlaqının, ictimai-siyasi hadisələrin göstəricisinə çevrilmişdir.

Ədəbiyyat

1. Fərzəliyev T. Azərbaycan xalq lətifələri. Bakı, 1971.
2. İmanov M. Müasir Azərbaycan nəsrində psixologizm. Bakı, 1991.
3. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. II hissə. Bakı, 2006.
4. Əliyev R. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, 2012.
5. Qafarlı R. Mif və nağıl (Epik ənənədə janrlararası əlaqə). Bakı, 1999.
6. Abbaslı S. Azərbaycan lətifələrinin regional xüsusiyyətləri. Bakı, 2011.
7. Molla Nəsrəddin lətifələri./Tərtib edəni və müqəddimə yazan M.H.Təhmasib. Bakı, Yazıçı, 1978.
8. Seyidov N. Bəhlul Danəndə. Bakı, 1967.
9. Sultanov M. Molla Nəsrəddinin prototipi kimdir?/ «Azərbaycan» jurnalı. 1961, № 10.
10. Şəki gülüşləri./ Şəki lətifələri. Bakı, Yazıçı, 1987.
11. Şəki lətifələri. Bakı, Yazıçı, 1987.
12. Vəliyev V. Azərbaycan folkloru. Bakı, Maarif, 1985.

Ramil Aliyev

About teaching and analysis of anecdote genre

Summary

Anecdotes are of the ancient genres of the folklore. The spreading of anecdotes in Azerbaijan dates back to IX century. This genre started its evolution with the influence of the Arabian anecdotes of Bahlul Danende. The anecdotes related to Molla Nasraddin are considered the national anecdotes. Molla Nasraddin is the anecdote hero of all Turkic nations and is widely spread among the Azerbaijani anecdotes.

Anecdotes are the dynamic genre. Sometimes the anecdotes related to Molla Nasraddin influence the regional anecdotes and thus create new anecdotes.

The researchers of anecdotes divide this genre into 3 types: anecdotes related to Bahlul Danende, anecdotes related to Molla Nasraddin, regional anecdotes.

The article provides information about the anecdote genre and anecdote heroes. The regional anecdotes have so far been poorly researched. The anecdotes are the component of the city culture.

Рамиль Алиев

О преподавании и анализе жанра анекдотов

Резюме

Анекдоты являются одним из древних жанров народного фольклора. Распространение анекдотов в Азербайджане берет свое начало с IX века. Этот жанр начал формироваться под воздействием арабских анекдотов связанных именем Бахлула Даненде. Анекдоты связанные с именем Моллы Насраддина считаются национальными анекдотами. Молла Насраддин является героем анекдотов всех тюркских народов и широко распространен в среде азербайджанских анекдотов.

Анекдоты являются динамическим жанром. Иногда анекдоты связанные с именем Моллы Насраддина оказывают воздействие на региональные анекдоты и таким образом формируются новых анекдоты.

Исследователи анекдотов выделяют 3 типа анекдотов: анекдоты связанные с Бахлулом Даненде, анекдоты связанные с Моллой Насреддином, региональные анекдоты.

В статье рассматривается жанр анекдотов и герои этого жанра. Региональные анекдоты до сих пор слабо исследованы. Анекдоты являются компонентов городской культуры.

Rəyçi: Ramazan Qafarlı
filologiya elmləri doktoru, professor

TURAL MİRZƏLİYEV
Qafqaz Universiteti, Bakı
tmirzeliyev@qu.edu.az

ƏHMƏD BƏY AĞAOĞLU ƏDƏBİYYATŞÜNAS KİMİ

Açar sözlər: Əhməd bəy Ağaoğlu, ədəbiyyatın təsiri, sosiallıq, Şərq və Qərb nümunələri, bədii mətnlərdəki həyatilik, fərdin və cəmiyyətin inkişafı
Key words: Ahmed bey Agaoglu, influence of literature, society, models of East and West, vitality in artistic text, development of individual and society
Ключевые слова: Ахмеда Бей Агаоглу, влияние литературы, социальност, восточных и западных примерах, жизненность

Əhməd bəy Ağaoğlu ədəbiyyat xadimi deyildi. O, tez-tez ədəbiyyatdan sitatlar gətirsə də, fikrini əsaslandırmaq baxımından ədəbi ənənəyə müraciət etsə də, hətta bəzən ictimai fikirlərinin, dünyagörüşünün, ümumi idealının təbliği üçün özü bədii əsərlər yazsa da, heç zaman ədəbiyyatşünasa və ədibə çevrilmədi. Ağaoğlundan danışarkən yalnız "tənqidçi", "ədib" kimi təyinlər işlətmək, fikrimizcə, Ağaoğlu fəaliyyətinə məhdud yanaşmaq, onu birtərəfli təqdim etməkdir.

Ağaoğlu hər şeydən əvvəl mədəniyyətşünas, sosioloq – ictimaiyyətçi alim idi. Onun bütün digər sahələrdəki fikirləri – ədəbiyyat, tarix, din və sair – məhz cəmiyyətin anatomiyasını açmağa və onu təkmilləşdirməyə yönəlmişdi. Əlbəttə, biz onun ədəbiyyat sahəsindəki fikirlərini və fəaliyyətini uca tuturuq və heç də onu demək istəmirik ki, o, bu cəhətdən axsayırdı. Əksinə, bəlkə də, o, bu sahədəki bilikləri etibarilə dövrün bir çox ədəbiyyatşünaslarını geridə qoyurdu. Sadəcə, bu fikirdəyik ki, onun bu istiqamətdəki fəaliyyəti Ağaoğlunun bütün həyatına hakim olan "Şərqin intibahı arzusu" kontekstində ələ alınmalıdır. Bu zaman həmin fikirlər daha anlaşıqlı, məqsəd daha aydın görünər.

Ədəbiyyat nədir? Nəyə xidmət edir və etməlidir? Bu kimi suallar hər zaman alimləri düşündürmüş və ümumi fikir oxşar olsa da, mübahisələrə də səbəb olmuşdur. Ə.Ağaoğlunun fikrincə, saf cəmiyyətin yaranmağı üçün insanlar mənəvi cəhətdən sağlam olmalıdırlar – ən azından başqalarına pislik etməyi düşünməli deyillər. Uzun illər boyu bu vəzifəni – insanları mənəvi cəhətdən tərbiyə etmək vəzifəsini din yerinə yetirmişdir. Hər kəsin yanına bir nəzarətçi qoymaq qeyri-mümkündür. Ancaq dinin əmrləri və yasaqları, Allah sevgisi və qorxusu insanları öz istəklərinə və hərəkətlərinə tənqidi yanaşmağa məcbur etmişdir. Ağaoğlunun fikrincə: "Bu gün fikriyyat və bədiiyyat dinin yerini almışdır. Din eyni müsbət təsirini yenə qoruyur. Bununla yanaşı ədib, şair və mühərrirlər müəyyən qədər ilahiyyatçı və din adamlarını əvəz etməyə başladılar". [3, 61] [4, 71]

Əhməd bəy Ağaoğlu bütün əsərlərində ədəbiyyatın həyata təsirini qabardır, ədəbi əsərlərə də məhz bu mövqedən yanaşaraq təsirin doğru və tərbiyəvi olmasını tələb edirdi: "Yazar və şair yalnız kəndi ruhunun deyil, içində olduğu çağdaş cəmiyyətin ruhi həyəcanlarını da əks etdirir. Başqa bir deyimlə, ədəbiyyat həyatdır. O, zaman və məkanla bərabər yürür. Hətta onları əks etdirməklə qalmaz, onları irəliyə doğru itələyər. Yeni fikirlərin, hislərin və təmayüllərin yayılmasına və

gəlişməsinə səbəb və vasitə olar. Bu surətlə ədəbiyyat ən böyük fəziləti olan tərbiyə təsirini həşəmətli bir surətdə edər" [4, 107].

Ədəbiyyatı pedaqoji proses, müəllifi pedaqoq kimi görmək Ə.Ağaoğlu üçün ədəbiyyatın əsil məna və məqsədinə çatmağı demək idi.

Ədəbiyyat tərbiyədir və ya bu sistemin ən önəmli ünsürüdür. Bu tərbiyədə insan çoxtərəfli varlıq kimi nəzərə alınmalıdır. Yalnız insanın daxili aləmini və ya onun işini, fəaliyyətini öz subyektinə çevirən ədəbi proses öz mahiyyətindən kənarlaşır. İnsan öz sosial və fərdi keyfiyyətləri ilə çoxtərəfli olduğundan hər hansı ədəbi proses də onu bütün cəhətləri ilə işıqlandırmalı, ən azından hansısa cəhəti ön plana çəksə belə, digər cəhətlərinə etinasız yanaşmamalıdır. Biz oxucu kimi obrazlarla tanış olarkən sxematik, quru, planlanmış surətlər əvəzinə həyatın içindən gələn və öz baxışları ilə oxucuya həyatın yeni şərhini təqdim edən tiplərlə qarşılaşmalıyıq. Qısacası, ədəbiyyat insanı dünyada deyil, dünyanı insanda təqdim etməlidir. İnsanın daxilindən süzülüb keçərək təqdim olunan həyat: sevgiyə, vətənə, dünyanın mənasına aid əbədi və ədəbi suallar oxucuya daha həqiqi təsir bağışlayır, oxucu həmin ədəbi prosesin elementinə çevrilir və bu zaman ədəbiyyat öz gücünü real həyatda da tapır, təsdiq edir.

Ədəbiyyat bir sənət növü kimi də Ə.Ağaoğlu yaradıcılığında öz qiymətini almışdır. Onun ədəbiyyatın nəzəri problemlərinə həsr olunmuş məqalələri, ədəbiyyat tarixinə həsr olunmuş əsərləri onlarladır. Lakin Ə.Ağaoğlunun ədəbiyyatı qavrayışında daha qabarıq cəhət, onun şəxsiyyətinə və həyatına uyğun olaraq, ədəbiyyatda ictimailik problemidir. Alim tələb edirdi ki, ədəbi əsərlər hansısa zövqü və dünyagörüşünü işıqlandırmaqdan ziyadə xalqın fikir maşını kimi işləsin, ictimai həyata qiymət versin və hətta təsir etsin. Tolstoyu misal gətirərək bildirirdi ki, əsl ədəbiyyat məhz bu cür olmalıdır, "yazar (xalqa aid – T.M.) yüksək düşüncə və duyğuları ilə xalqın rəğbət və sevgisini qazanmalıdır" [4, 87]. Məhz bu halda həmin ədib, onun yazmış olduğu əsərlər cəmiyyətdəki mənfi meyillərə qarşı alternativ halına gələr, ədibin irəli sürdüyü ideyalar sevgisini qazandığı xalq tərəfindən əməli həyata tətbiq olunar. Əks təqdirdə "Bu hallara qarşı ədəbiyyat da təpki göstərməzsə, o hallar get-gedə kökləşər və ruhun bəlli-başlı sifətlərindən olar" [4, 85].

"Müəllif düşüncə və qəlbə toxunmadan öncə əsəblərə toxunmalıdır", – [8] tezisini irəli sürən Ə.Ağaoğlunun nəzəri problemləri ikinci plana atdığını sübut edən digər məqam onun "Teatr və musiqi" məqaləsində yazdığı "Nəyin bahasına olursa olsun, adət etməmiş publikanı cəlb etmək lazımdır ki, publika onu bir dəfə də ziyarət etsin" [8].

Əlbəttə, bu fikirlər yuxarıda da söylədiyimiz kimi Ə.Ağaoğlunun hər şeydən əvvəl ictimaiyyətçi olduğundan doğurdu. Bu mövqedəndən yanaşanda onun fikirlərindəki nəzəri məhdudluğu başa düşmək olar. Əks halda, Ə.Ağaoğluna sırf ədəbiyyatşünas kimi yanaşdıqda bu fikirlər olduqca yarımçıq görünərdi.

Ə.Ağaoğlu ensklopedik biliyə malik alim kimi bəhs etdiyi məsələlərə çoxtərəfli yanaşmağa öyrənmişdi. O, hansısa mövzudan, məsələn dindən, hüquqdan və ya əxlaqdan danışarkən bu məsələlərə dar çərçivədən yox, tarixi və ədəbi fikirlər, faktlar bucağından baxmağı sevirdi. Bu mənada Ə.Ağaoğlunun istənilən əsəri, hətta kiçik həcmli məqalələri də müəllifin geniş dünyagörüşünün əyani sübutu, ensklopedik biliyinin təzahürü kimi ortaya çıxır. O, bəzən bugünkü (öz dövründəki) problemlərdən danışır, lakin tarixə geniş ekskurs edərək bəhs etdiyi problemin səbəbini,

psixoloji köklərini açıb göstərirdi. Bununla da, oxucunu – həmsöhbətini həm inandırır, həm də heyrətləndirirdi.

Ə.Ağaoğlunun sırf Azərbaycan ədəbiyyatına həsr olunmuş irihəcmli əsərləri yoxdur. Müəllif bəzi məqalələrində bu mövzuya toxunmuşdu. Lakin Ə.Ağaoğlunun yazı prinsipini, yanaşma metodunu nəzərə alanda məlum olur ki, Ə.Ağaoğlunun milli ədəbiyyat haqqındakı fikirləri onun digər Şərq və Avropa ədəbiyyatları haqqında düşüncələrində gizlənmişdi. Əslində bu metod səhv deyildi. Azərbaycan XIX əsrə kimi Avropa ilə nə coğrafi, nə də mədəni əlaqələr qurmamışdı. Düzdür, bəzi istisnalar olmuşdu, lakin bu hallar təsadüfi xarakter daşıyırdı və bir hərəkat, sistem halına gəlməmişdi. Bu mənada Ə.Ağaoğlu əslində Şərqdən danışarkən Azərbaycan ədəbiyyatının özünəqədərki aidiyyatından, Qərbdən danışarkən gələcəkdə görmək istədiyi aidiyyatından bəhs edirdi. Deməli, Ə.Ağaoğlunun Azərbaycan ədəbiyyatı, onun tarixi, keçmişi barəsindəki fikirlərini yalnız "tatar ədəbiyyatı" (Azərbaycan) sözlərinin işləndiyi əsərlərdə axtarmaq səhv olardı. Ə.Ağaoğlunun əsərlərindəki Şərq ədəbiyyatı elə həm də Azərbaycan ədəbiyyatı demək idi. Həqiqətən də, hələ Ə.Ağaoğlu və müasirləri milli və mədəni mənsubluq barəsində mübahisələr edirdilərsə, hələ "Azərbaycan" və "azərbaycanlı" anlayışı nəinki geniş ictimaiyyət üçün, həm də ziyalıların böyük əksəriyyəti, elə Ə.Ağaoğlunun özü üçün də işlək, hətta qeyri-məqbul idisə (Türkiyə dövrünə qədərki heç bir əsərində "Azərbaycan", "azərbaycanlı" ifadələri yoxdur, Türkiyə dövründə isə bu anlayışları yalnız coğrafi mənada işlətmişdir), bu zaman Ə.Ağaoğlunun Azərbaycan tarixini, mədəniyyətini və bunların güzgüsü olan ədəbiyyatını ayrıca yox, ümumşərq kontekstində ələ almağı təkcə elmi-nəzəri cəhətdən deyil, həm də tarixi zərurilik nöqteyi-nəzərindən təbii idi.

M.F.Axundzadəyə qədərki Azərbaycan ədəbiyyatı istər forma, istərsə də məzmun baxımından, şübhəsiz ki, sırf Şərq ədəbiyyatı idi. Məsələ yalnız onda deyildi ki, ədəbiyyatımızın şəkli xüsusiyyətləri əsasən ərəb və farslardan götürülmüşdür. Məsələ həm də bundadır ki, uzun əsrlər boyu – Qətran Təbrizidən XIX əsrin ortalarına qədər ədəbiyyatımızın qida mənbəyi əsasən islam kontekstində Şərq fikri, şərq cərəyanları olmuşdur. Azərbaycan ədəbiyyatı öz korifeylərini məhz bu qida əsasında – məsələn təsəvvüf fəlsəfəsi əsasında yetirmişdi (nümunə verdiyimiz Axundzadəyə qədərki dövrdə Vaqif, Nadim, Şakir, Zakir kimi müəyyən istisnalar olsa da, onların da yaradıcılığı forma və məzmun etibarilə Şərq söykənirdi). Axundzadəni yetirən səbəb Avropanın fikri gücündən doğan üstünlüyü deyildi, bu səbəb daha çox Şərq həyatının məzmun zəifliyi ilə bağlı idi ki, bu da öz növbəsində həyatın "güzgü"lərinə – incəsənətin müxtəlif növlərinə təsir edirdi. Beliniskinin dediyi kimi: "Ədəbiyyat cəmiyyətin həyatının ifadəsi olmalıdır. Ədəbiyyat cəmiyyətə həyat vermir, bəlkə, cəmiyyət ədəbiyyata həyat verir. Ədəbiyyata hücum edərkən onun haqqında ədalətsiz olmayın, diqqətlə baxın: bu ədəbiyyat cəmiyyətdən möhkəm yapışıb ondan qida alanda elə bil ki, körpə bir uşaq anasının quçağına qısılıb onun döşlərindən süd əmir. Əgər bir dəfə sümürməklə o döşdəki südün hamısını bu uşaq sorursa, məgər təqsir uşaqdadırmı? Daxili həyatın azlığı, həyatı məzmunun kifayət qədər olmaması, dünyagörüşünün yoxluğu – səbəb bunlardır". [5, 41]

Şərq ədəbiyyatına qida verən mənbələr tükənmişdi, artıq deyilməli sözlər deyilmişdi və Füzulidən bu yana təkrarçılıq, epiqonçuluq başlamışdı. Yeni mənbə –

fikir, fəlsəfə axını isə yox idi. Məhz bu zamanda Axundzadə və qərbçilik fikir axını kimi Azərbaycan ədəbiyyatına daxil oldu. (Əlbəttə, Axundzadə də öz-özünə formalaşmamışdı, ondan əvvəl də zəif də olsa, "Avropa" ədəbiyyatımızda mühit yaratmışdı). Lakin hətta Axundzadə yaradıcılığına baxarkən də məlum olur ki, Azərbaycan ədəbiyyatının bu böyük qərbçisi həm elmi, həm bədii əsərlərində Şərqdən, onun üslubundan, dilindən heç də həmişə vaz keçə bilməmişdi. Deməli, Şərqin südü tükənənə kimi – XIX əsrin ortalarınadək Şərq ədəbiyyatı həm də Azərbaycan ədəbiyyatı demək idi.

Bundan əlavə, ədəbiyyat tarixi şəxsiyyətlər mövqeyindən ələ alınarsa; məşhur və əhəmiyyətli əsərlərin, onları yazan müəlliflərin çoxluğu hələ bütöv, tam formalaşmış ədəbiyyatın yarandığına dəlalət etmir. "Ədəbiyyat bir növ fərdi və tam varlıqdır, onun bütün hissələri öz aralarında üzvi surətdə bölünmüşdür, ədəbiyyatın ən rəngarəng hadisələri bir- biri ilə qarşılıqlı surətdə əlaqədardır". [5, 37]

Yalnız genetik yox, həm də məhz bu baxımdan Xaqani, Nizami, Xətayi, Füzuli eyni ədəbiyyatın nümayəndəsidirlər. "Nizaminin "Leyli və Məcnun" ilə Füzulinin "Leyli və Məcnun" u arasında nə fərq vardır? [4, 108]" Ə.Ağaoğlu bu fikirlərini qüsur kimi söyləsə də, bu əsərlər arasındakı fərqləri ya qəsdən, ya da bilməyərək görməsə də, onun bu fikirləri səsləndirdiyi kontekstdə deyil, ümumi şəkildə bəhs etdiymiz "qida" planında haqlı idi ki, bu da mövqeyimizin təsdiqidir. Lakin burada mövzumuza birbaşa bağlı olan bir məsələ də var ki, bir cümlə əvvəl saydığımız dühalarda yanaşı Dəhləvi, Rumi, Yunis Əmrə, Sədi Şirazi, Nəvai, Hafiz və başqaları da eyni halqanın zəncirləridirlər. Onları bir-birindən zaman, dil, üslub və başqa forma xüsusiyyətləri ayırsa da, birləşdirən bir cəhət var: onların poeziyası ümumşərq bulağından su içib. Genetik fərqliliklərə çox varmayan hər hansı avropalı oxucu onların şeirlərini bir- birindən ayırmaqda çətinlik çəkərdi və deməli, biz XIX əsrə qədərki Azərbaycan ədəbiyyatını müxtəlif parçalardan ibarət birləşmiş Şərq ədəbiyyatının tərkib hissəsi kimi götürsək, metodoloji yanlışlığa yol verərik. Əksinə, biz bütöv, tam Şərq ədəbiyyatından danışmalıyıq və bu halda Ə.Ağaoğlunun fikirləri həm tətbiqi, həm də elmi-nəzəri cəhətdən aydın başa düşərik.

Əhməd bəy Ağaoğlunun Şərq ədəbiyyatına, tarixinə münasibəti birmənalı olaraq mənfidir. "Əski ədəbiyyatımızda həyat yoxdur. Gerçək sənətə və təbiətdəki gözəlliyə də tamamilə yabançı qalmışdır. Bunları da duymamış və anlaya bilməmişdir. Zatən onun təqlid etdiyi ərəb və əcəm ədəbiyyatı da təbiət və həyata tamamilə yabançıdırlar. Əski ədəbiyyatımızda həyatı və təbiəti təsvir edən bir tək gerçək lövhəyə rast gələ bilməzsiniz. Yəni ədəbiyyatımız bu işdə Avropa ədəbiyyatını təqlid etməyə qoyuldusa da, yenə həqiqəti təsvirdən çox uzaqdır. İstər şeirdə və istər nəsrdə təbii həyatın göstərdiyi lövhədən ziyadə o lövhənin oyandırdığı duyğuları təsvir edir. Halbuki həyat və təbiəti görə bilmək, onlardakı ahəngi və musiqini anlaya bilmək bir olayın ruhumuz üzərində yapdığı təsirləri təsvir etmək deyildir". [4, 110]

Ə.Ağaoğlu yaşadığı dövrdə təhsilin hələ də bütövlükdə qədim və orta əsrlər ədəbiyyatı üzərində qurulmağını tənqid edərkən haqlı idi. Lakin o, həmin ədəbiyyatın bütövlükdə yararsız olduğunu irəli sürməklə məsələyə əvvəldən subyektiv yanaşırdı və bu subyektivlik, təəssüf ki, həqiqətdən çox uzaq idi. Məsələn o, Nizami Gəncəvini nəzərdə tutaraq "Gərçi ən əski fars ədiblərindən birinin "Xosrov və Şirin", "Leyli və Məcnun", "İsgəndərnamə" kimi bəzi əsərləri varsa da, bunların adları belə həyatdan çox uzaq olduqlarını göstərir" [4,108], – yazarkən tarixi

obyektivlikdən çox-çox uzaqda dayanırdı. Əslində Ə.Ağaoğlu hər zaman ədibləri Şərq müstəbidlərinə, despotlarına yaltaqlıq etməkdə günahlandırırdı: "Bizdə hakim olan şəkillər qəsidə, həcv və qəzəllərdir", – hökmünü verirdi. Belə olan halda gözləmək olardı ki, Ə.Ağaoğlu həyatın epik inikasına, təsvirinə öz yaradıcılığında geniş yer verən, əsərlərində öz dövrü, həmçinin sonrakı dövrlər üçün də uzun müddət yenilik kimi qalacaq ideyalara – ədalətli hökmdar, əməkçi insan, qorxmaz və mübariz fərd fikirlərə sadiq qalan bir sənətkarı – Nizami Gəncəvini Şərq ədəbiyyatı üçün nümunə seçməlidir. Lakin Ə.Ağaoğlunun ifrat Avropa meyilliyi, keçmişimizdə olan hər şeyi inkar etməyi tələb edirdi. Bu halda o keçmişdə olan uğurlu nümunələri təbliğ edib müasir ədəbiyyatın bu bünövrədə yüksəlməyini tələb etmək əvəzinə, həmin nümunələri də tənqid edir, ən yaxşı halda üzərindən sükuta keçirdi. Əks halda Qərbə ehtiyac olmayacaqdı. Uğurlu nümunəni elə öz tariximizdən tapmaq üzümüzü keçmişə tutmaq demək olacaqdı.

Ə.Ağaoğlu bəzən Şərqdə də uğurlu nümunələrin olduğunu etiraf edirdi, lakin bu nümunələrin yada salınması ilk növbədə Qərb dəyərlərinin Şərqə heç də tamamilə yad olmadığını göstərmək məqsədi daşıyırdı. Bu fikirlər əvvəlki abzasla ziddiyətli görünməməlidir. Əvvəla, Ə.Ağaoğlunun məhz o nümunələri göstərdi ki, həmin nümunələr Qərbdə də var idi və alim o təcrübələrin yenidən canlandırılmağını istəyirdi. İkincisi, Ə.Ağaoğlunun seçdiyi misallar əxlaq, fərd, din, hüquq sistemi kimi cəmiyyət normalarına aid idi. Ədəbiyyat sahəsinə gəldikdə isə, Şərq ədəbiyyatının keçmişində və Qərb ədəbiyyatında Ə.Ağaoğlunun tətbiq etmək istədiyi və üst-üstə düşən cəhətlər yox idi. Bu halda bütövlükdə inkar mövqeyi tutmaq daha əlverişli üsul idi.

"Diyari – küfrü gərdim bəldələr, kaşanələr gördüm,

Dolaşdım mülki – islamı, bütün viranələr gördüm", – kimi məşhur beyti sitat gətirən Ə.Ağaoğlu bunun səbəbini belə açıqlayır: "İyirminci yüzildə ruhlarımız üzərində altı yüz il yaşamış Şeyx Sədilər, Molla Camilər hakimdirlər. Necə istərsiniz ki, irəliləyəlim?" [4, 77]

Ə.Ağaoğlu çıxış yolu kimi Roma-Yunan ədəbiyyatından bəhrələnməyi təklif edir: "İndi bu kimi (Şərq – T.M.) ədəbiyyat örnəkləri ilə oxudulan, tərbiyə edilənlərlə bir də Yunan və Roma ədəbi əsərlərini örnəkləri ilə oxudulan və tərbiyə edilənlərin ruhi halları diqqətə alınsın. O zaman Şərq ilə Qərb arasında ədəbi izlərin fərqləri anlaşılır və iki tarix arasında ayrılıq səbələri də qavranmış olur. Biz örnəklərimizi Şirazdan və İsfahandan alırıq. Avropa isə əski Yunanıstanla əski Romadan alır. Biz zərdüştlərin ənənələri ilə tərbiyə edilirik. Onlarsa əflatunların, aristotellərin, solonların ənənələri ilə. [4, 43]"

Burada Ə.Ağaoğlu kimi hərtərəfli biliyə malik alimin tarixi reallıqla hadisələri nəzərə almamağı, bəsit coğrafi uyğunluq kimi reallıqları gözdən qaçırmağı, böyük qüsur kimi görünür. Lakin ən böyük qüsur onun təqlidçiliyi çıxış yolu kimi göstərməyindədir. Bu məqama toxunan Kamal Talıbzadə onun "yamsılamağı yeganə yol kimi irəli sürməyini" Ə.Ağaoğlunun ədəbi inkişafa birtərəfli və bəsit yanaşmağında görür. [6]

Ə.Ağaoğlu forma etibarı ilə Şərq ədəbiyyatını tənqid edir. Onun fikrincə, xüsusilə qəsidə və qəzəllər zamandan mücərrəd, mühitlə və müasirliklə əlaqəsiz janrdır. Həcv də belədir. Bu janrlar yalnız mədhiyyə və söyüşdən ibarət hissi mahiyyət daşıyırlar. Bu ədəbiyyat müstəbidləri öyərək parıldadıb xalqın gözünü

qamaşdıraraq hakimiyyətlərini gücləndirməyə, həmin despotların rəqiblərini haqlı və haqsız olduqlarına fikir vermədən söyməyə xidmət etmişdir. Bunlar gerçəkliyi əks etdirmədiyi üçün nə siyasi, nə sosial, nə də mədəni istiqamətdə heç bir faydaları yoxdur. Əksinə insanı aldadan, boş və mənasız sözlərlə passivləşdirilən mənfi rola sahibdirlər.

Əhməd bəy Ağaoğlu Şərq ədəbiyyatı kontekstində türk ədəbiyyatını tənqid edərkən dil probleminə də toxunur. Bu məqamda Ə.Ağaoğlunun fikirləri, əsasən doğru idi. Həqiqətən, uzun əsrlər boyu indi Azərbaycan şairləri, ədibləri kimi tanınan müəlliflər şərqin digər dillərində yazıb-yaratmışlar. Sual doğa bilər ki, axı bütöv ümumşərq ədəbiyyatı fonunda bunun ciddi əhəmiyyəti vardırmı? Ədəbiyyatın çox vəzifəsi var. Bu vəzifələrdən biri təmsil etdiyi xalqın həyatını əks etdirməkdirsə, digəri həyatını əks etdirdiyi xalqa özünə "ədəbiyyat güzgüsü"ndə baxmağa imkan verməyidir. Bununla xalq özünə gülə də bilər, özündən nümunə götürə də bilər. Hər iki hal xalqın inkişafına xidmət edəcəkdir. Doğrudur, bəziləri hesab edir ki, ədəbiyyat kübar sənətdir. Lakin bu kübarlıq müxtəlif səviyyələrdə başa düşülə bilər: dəbdəbəli həyat tərzinin təsviri, həmin üslublu dilin istifadəçiləri. Hətta kübarlıq "sənət sənət üçündür" prinsipi kimi başa düşülsə də, bu cür əsərlərdə də kütləvi bir qat olmalıdır. Belədə həm də kübarlıq əsərdə xalqı irəli aparacaq ideya ilə ifadə olunmalıdır. Əksinə olduqda, məsələn həmin "kübarlıq" yalnız əsərin fizikasına, məsələn dilinə gəldikdə isə xalq özünü güzgüdə görə bilmir, həmin güzgüdə onlara başqaları, həmin dilin sahibləri baxırlar. Ə.Ağaoğlu məhz bu məqamda haqlı idi ki: "Zavallı türk bir sui-istifadə qurbanıdır. Türk xalqı fikir və dil baxımından açıq düşünür, təşbehlərin altına sığınmaz. Məsələn "Xaki-payi mualla asa-i cənabi-mülkanələrin cibinə sayi-ubudiyyət" nə deməkdir? Bu bəzəkli cümlələrin türkcəsi çox saçma, zavallı türk bu bəzəkli ifadələrlə ruhuna yabançılaşmış, başqalarının ruhunu yaşamış, özü üçün biçilməmiş olan əlbəsənin içinə girmişdir. Tarix tarix olalı əfəndi və müstəqil olaraq yaşayan bu millət əsarət və zillət altında əsrlərlə inləmiş olan xalqların mutantan, fəqət boş, parlaq fəqət çürük üslublarına qapılıb öz xüsusuiyyətlərini itirmişdir [7, səh 166]. (Maraqlıdır ki, Ə.Ağaoğlu öz vaxtı ilə bu üslubun daşıyıcısı olmuşdu)

Əlbəttə ki, Ə.Ağaoğlunun tənqidlərində haqlı məqamlar var idi. Dil məsələsindən əlavə, onun şərq ədəbiyyatının insanları qul olmağa təşviq etdiyi barədə fikirləri də bəzi nümunələrdə – xüsusilə Sədi Şirazidən gətirdiyi misallarda doğrudur. Ə.Ağaoğlunun Ezop, Lafonten və Kırılovu misal göstərərək şərq ədəbiyyatını "fabl dedikləri tərifərə bənzər" əsərlər yaratmamaqda günahlandırırdı. Lakin Nizami Gəncəvinin "Sirlər Xəzinəsi", Füzulinin "Söhbətül əsmar", "Bəngü badə", "Həft cam", "Səhhət və Mərəz" kimi alloqorik əsərlərinin misal gətirmək kifayətdir ki, böyük məktəb yaratmış şairlərin ardıcılları da nəzərə alındıqda Ə.Ağaoğlunun tənqidindəki "görməzliyi" görə bilək. Digər tərəfdən Qasım bəy Zakir, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir və başqa ədiblərin mənzum hekayə və təmsilləri də ya Ə.Ağaoğlunun yaşadığı dövrün məhsulu idi, ya da bu dövrdən az əvvəl yaranmış ədəbi əsərlər idi.

Ə.Ağaoğlu öz dünyagörüşünə və hərtərəfli biliyinə baxmayaraq, şərq ədəbiyyatına münasibətdə birtərəfli mövqe sərgiləmiş, bu ədəbiyyata qarşı elmi mənada yox, sözün həqiqi mənasında tənqidi baxışda olmuşdur. Bununla da Ə.Ağaoğlu Azərbaycan ədəbiyyatının ən əsas köklərindən, mənbələrindən birini öz subyektiv

mülahizələri ilə bağlamaq – qapamaq yolunu tutaraq yeni məzmunda və formada yaranmaqda olan milli ədəbiyyatı birtərəfli şəkildə Qərb-Avropa ədəbiyyatından öyrənməyə çağırmışdır.

İstifadə edilmiş ədəbiyyatın siyahısı:

1. Abdullayeva Təranə Məhəmməd qızı. "XX əsrin əvvəlləri Azərbaycan ədəbi-bədii fikrində qərbçilik meyilləri". Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya işi. Bakı, AMEA Nizami adına Ədəbiyyat İnstitutu, 2007
2. Ağaoğlu Əhməd bəy. Seçilmiş əsərləri (tərtib edənlər: Əziz Mirəhmədov, Vilayət Quliyev. Ön sözün izah və şərhlərin müəllifi Vilayət Quliyev). Bakı, Şərq-Qərb, 2007. 392 səhifə.
3. Ağaoğlu Əhməd. "Sərbəst insanlar ölkəsində". Bakı, "Tutu" nəşriyyatı, 2001, 80 səhifə
4. Ağaoğlu Əhməd. "Üç mədəniyyət". Ön söz və şərhlərin müəllifi Vaqif Sultanlı, Azərbaycan türkcəsinə çevirəni Ruhəngiz Soltanova. Bakı, Mütərcim, 2006. 160 səhifə.
5. Belinski V.Q. "Məqalələr". Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1961. 168 səhifə
6. Talıbzadə Kamal. "Əhməd bəy Ağaoğlu". "Azərbaycan" jurnalı, 1989, № 1
7. Fahri Sakal. "Milli Mücadele'de ve Cumhuriyetin İlk Dönemlerinde Propoganda ve Tanıtım Çalışmaları". Atatürk Araştırma Merkezi dergisi, Sayı 55, Cilt: XIX, Mart 2003
8. Агаев А. Театр и музыка. Газета «Каспий», 9 декабря 1898

Tural Mirzaliyev

As a literary scholar Ahmad Bey Agaoglu

Summary

As a varied thinker Ahmad bey Agaoglu periodically gave attention to a few tasks of his times, also to literature.A.Agaoglu was putting forward an idea about influence of literature to mutual attitude and development of individual and society, was demanding sociality from authors. Appling to the models of east and west he was putting a claim for vitality and reality in artistic text were symmetrical with today`s position of the same society .

Турал Мирзалиев

Ахмад бея Агаоглу как литературовед

Резюме

Ахмед Бей Агоглу, как человек разносторонний помимо вопросов своего времени, также периодически обращал внимание на художественную литературу. Ахмед Бей Агаоглу уделял особое внимание на влияние литературы, которое способоствовало на развитие и взаимоотношение общества, требуя социальности от авторов. Он утверждал, что реальность и жизненность, на примерах восточных и западных произведений были параллельной точностью этих обществ.

Rəyçi: Seyfəddin Rzasoy
filologiya üzrə elmlər doktoru

AİRƏSDƏ ALLAHVERDİYEVA
airesde@ mail. Ru

ŞƏMKİR AŞIQ MÜHİTİ

Açar sözlər: Azərbayjan folklorşünaslığı, aşıq yaradıjılığı, Şəmkir aşıq mühiti
Key words: Folklorist of Azerbaijan, creation of ashiq, Shemkir atmosphere of ashiq.
Ключевые слова: Azerbaydcanskaə folğkloristika, aşuqskoe tvorçestvo, aşuqskaə sreda Şemkerə.

Məsələnin qoyuluşu: Şəmkir aşıq mühitinin öyrənilmə problemləri.
İşin məqsədi: Şəmkir aşıq mühitinin ümumi mənzərəsi, inkişaf istiqaməti haqqında bütöv təsəvvür yaratmaq.

Gəncəbasar aşıq mühiti bütün istiqamətlərdə zənginlik və özünəməxsusluqlarla səciyyələnir. Daha doğrusu, kökə, ənənəyə bağlılığı, yaxşı mənada mühafizəkarlığı ilə böyük dəyər kəsb edir. Gəncəbasar aşıq mühiti özündə böyük bir ərazi kimi Tovuz, Qazax, Gədəbəy mühitlərini əhatə edir. Şəmkir aşıq mühiti də bura daxildir. Bu mühitlərdə fərqləndirici keyfiyyətlərdən çox birləşdirici tərəflər özünü daha çox göstərir. Bu isə ilk öncə ənənəyə ,kökə bağlılıqdan irəli gəlir. Çox təəssüflər ki, bu zənginliyin açılması, təhlili anlamında problem kifayət qədər açılmamışdı. Ancaq etiraf olunmalı bir tərəf aparılan tədqiqatlarda həmin mühitin ayrı-ayrı sənətkarları ilə bağlı lazımı qədər dəyərli fikirlər söylənmişdi. Onu da qeyd edək ki, burada birləşdirici məqamlar ləhcə, şivə xüsusiyyətlərindən adət-ənənələrə qədər bir eyniyyəti əhatə edir. Mədəni dəyərlərin sepisifikası anlamında da regionallıq baxımından bu mühitlərdə çox yaxınlıqlar var. Aşıq yaradıcılığı da bu sıradadır. Şəmkir aşıq mühitinin tədqiqi, öyrənilməsi sahəsində elə bir ciddi araşdırma aparılmayıb. V. Xulufludan, H. Əlizadədən (4; 5; 64), H.Zeynallıdan başlayan yol sonrakı mərhələdə Ə.Axundov, P.Əfəndiyev, V.Vəliyev, M.Həkimov (7), İ.Abbasov, Q.Namazov (9), M.Qasımlı (8), N. Məmmədova, M.Allahmanlı (1) və başqaları tərəfindən bu və ya digər dərəcədə öyrənilmə məqsədində olub. Müxtəlif toplularda mühitin sənətkarlarının yaradıcılığından nümunələr verilib. Ayrı-ayrı sənətkarların həyat və yaradıcılığı istiqamətində yazılanlar bu mühitin tədqiqi istiqamətində ilk addımlardır. Azərbaycanı öyrənmə cəmiyyəti xətti ilə V.Xuluflu buradan çoxlu xalq ədəbiyyatı nümunələri toplamışdır. Onun 1927-ci ildə nəşr etdirdiyi «El aşıqları» adlı kitabı Şəmkir, Tovuz ərazisində yaşayan aşıqlar haqqında topludur. Bizə belə gəlir V.Xuluflunun bu toplusu ənənə sahəsində yenidən toplama işlərinin aparılmasını zəruri edir. Çünki ustadların, xalq ədəbiyyatı bilicilərinin yaddaşında şübhəsiz bir-birindən maraqlı nümunələr, repertuar zənginliyi dayanır. Son dövrün toplama işlərində region folklorunun öyrənilməsinə artan maraq çox müsbətdi. Ayrı-ayrı regionlarla bağlı antologiyaların nəşri bunun bariz nümunəsidi. Məhz bu mühitin ustad sənətkarlarının yaradıcılığından nümunələrin, haqlarında oçerklərin dərsliklərdə yer alması təsadüfi hal deyildi. Folklorşünas alim Prof. P.Əfəndiyev «Azərbaycan şifahi xalq ədəbiyyatı» dər-

sliyində Şəmkir aşıq mühitinin ustad sənətkarlarından olan «Aşıq Hüseyn Şəmkirli» adlı portret oçerk verir. Ən yaxşı halda bu mühitin ustad sənətkarlarından olan Hüseyn Şəmkirlinin həyatı və yaradıcılığı ilə bağlı folklorşünas alim Nazilə Məmmədova namizədlik dissertasiyası yazıb. Orada mühitin tarixinə, ayrı-ayrı sənətkarların yaradıcılığına mühit kontekstində münasibət bildirib. Halbuki Şəmkir aşıq mühiti digər mühitlər kimi müxtəlif istiqamətlərdə araşdırmaları zəruri edir.

Aşıq sənətinə böyük töhfələr verən bu mühitin Aşıq Hüseyn Şəmkirli, Yəhya bəy Dilqəm, Aşıq Çoban, Aşıq Abbas Qurbanov (Qaracaəmirli Aşıq Abbas kimi də qeyd olunur), Çoban Məstanoğlu, Əlipaşa Fəğani, Həsən Pərvanə, Həsən Şəmkirli, Qaracaəmirli Aşıq Qasım, Qəmbər Məmmədov, Məşədi İsgəndər, Aşıq Teymur və s. kimi onlarla ustad sənətkarları olub. Sazın və sözün inkşafına xidmət ediblər. Elin-obanın ağır yığnaqlarını aparıblar. Bunların hər birinin keçib gəldiyi yolun öyrənilməsi isə folklorşünaslığın qarşısında duran problemdi. Hətta bu sənətkarların ədəbi irsinin toplanıb nəşri sahəsində müəyyən işlərin görülməsinə ehtiyac duyulmaqdadır.

Aşıq sənətinin inkişafında adı böyük şərəflə çəkilən ustadlar sırasında Aşıq Hüseyn Şəmkirli məhz bu mühitin yetirməsidir. Onun necə sənətkar olması haqqında təkcə tədqiqatçılar deyil, eyni zamanda ustad sənətkarlar da dəfələrlə söhbət açıblar. Aşıq Ələsgərin, Varxiyanlı Məhəmmədin dedikləri buna nümunədir. Folklorşünas Ə. Axundov bu ustad haqqında danışarkən xüsusi olaraq vurğulayır ki, o, Mola Pənah Vaqifin bacısı oğludur. Aşıqlıq sənətini Alabaşlı kəndində Məcnun təxəllüslü şair Kərbalayi Bağırdan öyrənmişdir. Sonralar oğlu Aşıq Çoban atasının sənətini davam etdirmişdir. Atası qədər məşhur olmasa da dövrünün tanınmış sənətkarlarından sayılmışdır. Ə.Axundov onun şeirlərini toplayaraq 1970-ci ildə «Aşıq Hüseyn Şəmkirli» adı ilə çap etdirmişdir. Bu ustadın qoşmaları, gəraylıları, təcnis, cığalı təcnis, müxəmməs, zəncirli müxəmməs, divani, qıfılbənd, deyişmələri sözün həqiqi mənasında yüksək sənətkarlıq nümunəsidir. Onun «Aşıq Hüseyn və Reyhan» dastanı Azərbaycan dastan sənətinin ən yaxşı nümunələrindən hesab olunur. Şeirləri bu gün də məclislərdə ustad sənətkarların, xanəndələrin dilində yaşanır. «Ağ gül, qırmızı gül, bir də sarı gül», «Bir qız məni», «Yaxşıdır» və s. buna nümunədir. Folklorşünas P.Əfəndiyev yazır: «Yaradıcılığından məlum olur ki, Şəmkirli Aşıq Hüseyn sazı sinəsində kəndlər, şəhərlər, ölkələr gəzmiş görkəmli sənətkarlarla qarşılaşmış, sənət meydanından həmişə qalib çıxmışdır. Onun Aşıq Ələsgərlə deyişməsi də məlumdur» (s.284). Bunu müxtəlif səpkili şeirləri də göstərir. Məsələn, «Ağ gül, qırmızı gül, bir də sarı gül» aşıq şeirinin klassik nümunələrindəndi.

Yarın bağçasında üç gül açılmış,
Ağ gül, qırmızı gül, bir də sarı gül.
Hər üçü də bir-birindən öyməli,
Ağ gül qırmızı gül, bir də sarı gül.

Bu nümunə artıq xalq arasında müğənnilər, xanəndələr tərəfindən də oxunmadadır. Yaddaşlarda əvəzsiz yaşarılıq qazanıbdır. Və yaxud da «bir qız məni» gəraylısına diqqət yetirək. Burada da eyni ruh, yüksək sənətkarlıq hadisəsi aydınlıqla görünür.

Gedirdim yoldan eylədi,
Bir qız məni, bir qız məni.
Ulusdan, eldən eylədi,
Bir qız məni, bir qız məni.

Qara qaşlar bağrım kəsər,
Gah əzizlər, gah da küsər,
Saçlarıynan dardan asar,
Bir qız məni, bir qız məni.

Bütün bunlar ustad aşıq haqqında təsəvvürləri aydınlaşdırmağa, onunla bağlı bilgiləri bir qədər də genişləçndirməyə əsas verir. Həm də belə düşüncəyə gəlməyi zəruri edir ki, bu mühit müxtəlif müstəvilərdə tədqiq aktuallığında qalmadadır.

Aşıq Hüseyn Şəmkirlinin oğlu Çoban da (XIX əsrin 40-cı və XX əsrin 30-cu illərinə qədər yaşayıb) Şəmkir aşıq mühitinin inkişafında böyük xidmətləri olub. Düzdür o, atası kimi yaradıcılıqla elə də məşğul olmamış. Ancaq aşıq sənətinin inkişafı sahəsində mühüm işlər görmüş, sənətin sirlərini gələcək nəsillərə çatdırmağın qayğısına qalmışdır. Sazın, onun ifaçılıq məqamlarının, dastanların bilicisi kimi uca tutulmuşdur.

Şəmkir aşıq mühitinin, bütövlükdə aşıq sənətinin məşhur sənətkarlarından sayılan, sazı-sözü ilə əfsanələşən Yəhya bəy Dilqəmin yaradıcılığı çox təəssüflər ki, hələ də lazımı qədər araşdırıcısını tapmayıb. XIX əsrin 20-ci illərində Dəllər-Cırdaxan kəndində dünyaya göz açan bu ustad təxminən otuz il yaşamışdır. El arasında Dilqəm bulağı adı ilə maraqlı rəvayət söylənir. Onun sevgilisi Telli xanım, Dilboz atı ilə bağlı danışılan rəvayətlər bu gün də ustadların dilində, xalq arasında dolaşmaqdadır.

O qızıl gülləri dərməyən Dilqəm,
Dərib pünhan yerə sərməyən Dilqəm,
Bu dünyada yarı görməyən Dilqəm,
Yarəb, o dünyada görüşərmola?

«Dilqəmi» adlı saz havası da Yəhya bəy Dilqəmlə bağlıdır. «Dilqəm» dastanı bu nakam sənətkarın həyat və yaradıcılığının müəyyən tərəflərini səciyyələndirir.

Aşıq Qasım 1840-cı ildə Şəmkirin Qaracaəmirli kəndində dünyaya göz açıb. 1916-cı ildə vəfat edi. Xalq arasında Qaracaəmirli Aşıq Qasım kimi tanınıb. Aşıq Hüseyn Şəmkirlinin oğlu Çobanın yanında şagirdlik edib. İfaçı aşıq, klassik ustadların yaradıcılığını mükəmməl bilən sənətkar kimi tanınıb. «Ustadlar», «Qonşunun», «Biləydim» şeirləri onun bir ustad kimi istedadından xəbər verir.

Aşıq Qəmbər 1872-ci ildə Şəmkir mahalının Hüseynalı kəndində doğulub. Morulu kəndində aşıq Əhmədin yanında şagird olmuşdur. Aşıqlıq sənətinin sirlərinə mükəmməl yiyələnən bu ustad sonralar özü də neçə-neçə sənətkarın yetişməsinə kömək etmişdir. Aşıq Alı Müseyib oğlu, Aşıq Oruc Mehdi oğlu, Aşıq Cəlil Mahmudov, Aşıq Oruc Bağırov və başqalarının bir sənətkar kimi yeTişməsində müstəsna xidməti olmuşdur. Aışq sənətinin bilicilərindən biri kimi tanınmışdır.

Aşıq Abbas 1887-ci ildə Şəmkir rayonunun Qaracaəmirli kəndində anadan olub. Atası Aşıq Məhəmməd də dövrünün tanınmış aşıqlarından hesab

edilmişdir. Erkən yaşlarından atasını itirən Abbas sənətin sirlərini Aşıq Əsəddən öyrənmişdir. O, eyni zamanda yaradıcılıqla da məşğul olmuşdur. Onun özü haqqında yazdığı müəmma həyatının bir sıra tərəflərini öyrənməyə imkan verir.

Aşıq Çoban (Çoban Məstan oğlu Tağıyev) də Şəmkir aşıq mühitində sazı, sözü ilə tanınan ustadlardandır. 1934-cü ildən aşıqlığa başlayıb. Aşıq sənətində dastanların, qədim havaların bilicisi kimi tanınmışdır.

Əlipaşa Fəğani mühitdə el şairi kimi tanınıb. XIX əsrin əvvəllərində Qaracaəmirli kəndində anadan olmuşdur. Qoşma, gəraylı, təcnisləri digər sənətkarlar kimi vaxtında yazıya alımamışdır. Ustadlar arasında şeirləri geniş yayılmışdır. Təcnisin ən mükəmməl nümunələrini yaradan sənətkarlardan hesab olunur.

Həsən Şəmkirli Şəmkir aşıq mühitinin yetişdirdiyi sənətkarlardandır. !906-cı ildə Qapanlı kəndində anadan olub. El arasında ifaçı aşıq, balabançı Kimi tanınıb.

Həsən Pərvanə Şəmkir mahalının Otaqçı Təhnəli kəndindəndir. 1915-ci ildə anadan olub. Ustad aşıq, el şairi kimi tanınıb. Şeirləri, dastanları «Ayna xanım», «Dağıstan dastanı» məclislərdə oxunur.

Cırdaxan kəndindən Məşədi İsgəndər (1874-1943), Morul kəndindən Aşıq Teymur (1895-1980) kimi ustadlar daim bu sənətin şərəfini qoruyub, onun inkişafı, zənginləşməsi qayğısına qalmışlar. Bütün bunlar və bu kimi faktlar Şəmkir mühitində aşıq sənətinin inkişaf istiqamətini, hansı zənginlikdə olması məsələsini aydınlaşdırır. Göründüyü kimi, bizim dediklərimiz həmin mühit haqqında kiçik bir hissədir. Onun zənginliyinin açılması araşdırılması isə böyük, həm də ciddi tədqiqatlar işidir. Bizə belə gəlir ki, bu ustadların yaradıcılığı diaxron və sinxron istiqamətdə hələ daha ciddi araşdırmaların gərəkliyini aktuallaşdırır. Eyni zamanda onu da əlavə edək ki, bu araşdırmalar son dövrdə mühit problemi ilə bağlı qənaətlərin aydınlaşmasına da yardımçı olacaqdı. Xalqın maddimənəvi sərvətinə son dövrlərdə artan maraq, onların öyrənilməsi sahəsində dövlət səviyyəsində işlərin görülməsi məhz bunu göstərmədədi. Bütün bunlar özlüyündə Şəmkir folklor mühitinə də artan marağı aydınlaşdırır.

İşin elmi nəticələri: Gədəbəy aşıq mühiti zəngin inkişaf yolu keçmişdir. Onun günümüzə qədərki nümayəndələrinin yaradıcılığı, ənən üzərində köklənməsi, bütünlükdə spesifikası araşdırmada bu qənaətləri söyləməyə əsas vermişdi

Tətbiq sahələri: Azərbaycan folklorşünaslığı, aşıq yaradıcılığı.

Elmi yeniliyi: Gədəbəy aşıq mmühitinin haqqında bütöv məlumatın verilməsi, araşdırılma zərurətinin ortaya qoyulması və s.

Ədəbiyyat:

1. Allahmanlı M. Ozan, aşiq və aşıq. Bakı, Ağrıdağ, 1997
2. Aşıq Hüseyn Şəmkirli. Bakı, Gənjlik, 1971
3. Aşıqlar. (tərtib edəni İ.Tapdıq). Bakı, Gənjlik, 1970
4.Əlizadə H. Azərbayjan aşıqları. Bakı, Azərnəşr, 1929
5. Əlizadə H. Azərbayjan aşıqları. Bakı, Azərnəşr, 1930
6. Əlizadə H. Aşıqlar. Azərnəşr, 1936
7. Həkimov M. Aşıq sənətinin poetikası. Bakı, Səda, 2004

8. Qasımlı M. Ozan-aşıq sənəti. Bakı, Uğur, 2003
9. Namazov Q. Aşıqlar. 1 kitab. Bakı, Səda, 2004

A. Аллахвердиева

Ашугская среда Шемкирская
Резюме

Ашугская среда Шемкирская отличается совей специфенностью. Их традиция, творчество мастеров ашугского творчества связ с корнем подтверждает это. Высокое мастерство ашугов, богатое наследие, связь с другими средами и многое дрегое делает нужным более широкое исследование.

A. Allaxverdiyeva

Shemkir atmosphere of ashiq
Summary

Shemkir atmosphere of ashiq is in the typical atmosphere. Masters' high art, loyalty and others more research is necessary. Huseyn Shemkirli, Dilgem is well-known ashiq. They have interesting qoshma, gerayli, tecnis, divani, muxemmes, deyishme. These are living around the people. Ashiqs singing with saz.

Rəyçi: dos Q.Umudov

СЕВИНДЖ ИМАНОВА
БСУ
sevinc10@rambler.ru

ОСМЫСЛЕНИЕ ПОНЯТИЙ ДОБРА И ЗЛА В МИРОВОЗЗРЕНИИ Ф.М.ДОСТОЕВСКОГО

Açar sözlər: rus, ədib, F.M.Dostoyevski, dünyagörüşü, xeyir və şər.
Keywords: The Russian, writer, Dostoevsky, great novelists, ideas, world outlook.
Ключевые слова: русский**,** писатель**,** Ф.М. Достоевский, мировоззрение, добро и зло.

Нравственно-философские вопросы занимают в творчестве Ф.М.Достоевского важное место. Разгром кружка Петрашевского, в котором состоял Достоевский, арест, смертный приговор, замененный каторгой, распространение аморальных, нигилистических взглядов в пореформенной России, провал революционного движения в Европе зародили в Достоевском сомнения в необходимости социальных переворотов и усилили неприятие против действительности. Философско-этический пафос переживаний укрепил в писателе пристальное отношение к человеку. Вплоть до последних дней жизни Ф.М.Достоевский продолжает считать человека величайшей «тайной», отгадка которой по возможности дает ключ для решения всех «проклятых» вопросов. Этим объясняется его величайшая любовь к бессмертному творению М.Сервантеса «Дон Кихот», по убеждению писателя, «во всем мире нет глубже и сильнее этого *сочинения.* Это пока последнее и величайшее слово человеческой мысли…» [2, Т. 22, С. 92].

Вопрос о природе человека, его сущности был поставлен философией и художественной литературой Просвещения в XVII и XVIII столетиях вследствие развития гуманистических идей, столь характерных для эпохи демократического пробуждения народа. И ни государство с его различными формами управления, ни господствующая религия с ее игнорированием плоти не могли признать человека только за то, что он просто человек. Лишь в идеологической борьбе утверждается равенство всех людей, как главная цель всех общественных усилий. Ф.Достоевский понимал это с самого начала своей литературной деятельности, но окончательной уверенности в том, что человек способен воспользоваться данной ему свободой, у него не было. В течение всей своей жизни Достоевский верил, что человеческая натура носит в себе положительные качества. В «Дневнике писателя», в 1877 году, он принимает «весьма верными и метко выраженными» размышления героя Л.Н.Толстого из романа «Анна Каренина» Константина Левина: «С совестью, с понятием о добре и зле каждый человек рождается, стало быть, рождается прямо и с целью жизни: жить для добра и не любить зла. Рождается с этим и мужик и барин, и француз, и русский, и турок – все чтут добро» [2, Т. 25, С. 204].

Ф.М.Достоевский верит, что «…все на свете понимают или могут понять, что надо *любить ближнего как самого себя*» [2, Т. 25, С. 204], несмотря на то, что на могиле своей первой жены им же написано: «Возлюбить человека, *как самого себя*, по заповеди Христовой, – невозможно. Закон личности на земле связывает. *Я* препятствует. Один Христос мог, но Христос был вековечным от века идеал, к которому стремится и по закону природы должен стремиться человек» [2, Т. 20, С. 172]. Объясняется это тем, что писатель жил в переходную эпоху, и поэтому ему было тяжело разрешить клубок противоречивых вопросов, к тому же сказывалось отсутствие устойчивой идеологии. Безусловно, заманчива и благородна была мечта об изначальности добра в человеке, но «дьявольски» искусительным была соблазнительная идея о «вседозволенности», так как и зло обладает притягательной и развращающей силой, «…зверства в народе много…Это зверство – тина веков, она вычистится. И не то беда, что есть еще зверство; беда в том, если зверство вознесено будет как добродетель…» [2, Т. 25, С. 124]. Зло в человеке, его порочность – результат невежества, социального развращения, неправильного воспитания – так думал Достоевский вплоть до последних своих минут.

Акцентируя внимание на некрасовском стихотворении о бедной мужицкой кляче, писатель задается целью провести параллель между животным и угнетенным человеком. Его волнует то, «…мужик, наложив непомерно воз, сечет свою завязшую в грязи клячу, его кормилицу, кнутом по глазам», – как мужик, везший на бойню… телят… садится на теленка» «Такие картинки» «зверят человека и действуют развратительно, особенно на детей» [2, Т. 22, С. 26].

Если человек под давлением других людей или независимых от него обстоятельств теряет свой «образ божий», то его необходимо по учению просветителей-гуманистов «образить и очеловечить». «Образить – словцо народное, – пишет Ф.М.Достоевский, – дать образ, восстановить в человеке образ человеческий. Долго пьянствующему говорят, укоряя: “Ты хоть бы образил себя” Слышал от каторжных» [2, Т. 22, С. 26].

Известный критик Ап.Григорьев считал, что любовь к бедным людям Ф.М.Достоевского носит «эгоистический» характер и приводит к «ложной сентиментальности» [1, С. 23-30].

Жизнь и факты не заставляют говорить за себя. Его тревожат мысли о том, что есть «…особи людей, в которых исчезают даже всякие следы человечности и гражданственности» [2, Т. 22, С. 19], и их уже никак не исправить. Истоки добра и зла уходят, по мнению Достоевского, не столько в социальное устройство, сколько в человеческую природу. И лишь на основе верного различения нравственных ценностей, стремления к «самостоятельному хотению», по убеждению писателя, человек способен верно определить свою жизненную позицию. По Достоевскому, искать Бога – значит разобраться в понятиях добра и зла. Негативное отношение к натуре человека писатель объясняет своей беспомощностью перед решением общечеловеческих проблем. Измученный противоречиями, обессиленный полярностью добра и зла, Достоевский приходит к выводу, что основным, всеопределяющим качеством ха-

рактера человека является слабость во всех обстоятельствах и во всех отношениях («комплекс «слабого сердца» или *самоумаления*» [3, С. 319]).

Новаторский подход к традиционной в русской литературе проблеме «маленького человека» определяется мастерством писателя, заключенным в том, что он раскрывает в характере «маленького человека» «индивидуальную тайну – залог его человеческой неисчерпаемости и внутренней свободы» [3, С. 321].

Несмотря на стремление человека к свободе, достигнув ее, натура людская не в силах бывает вынести эту свободу, и оказывается перед крайностями – или разрушительное своеволие, или раболепие перед всеми жизненными ценностями. Достоевский осознает двойственность во всем, и для различения добра и зла предлагает полагаться на совесть, обращенную к идеалу, воплощенному в образе Христа. По мнению Достоевского, только Бог-личность в силах искупить человеческие страдания. Только в нем человек в будущем найдет спасение, и это придает осмысленность его земному существованию. Но любовь к Богу не должна быть принудительной, приневоленной страхом. Принимая религиозное понимание зла, писатель указывает конкретные проявления зла в современной ему жизни. Это развращенность, жестокость, деспотизм. При этом Ф.Достоевский признает свободу выбора за созданием божьим. По справедливому утверждению известного историка русской литературы В.А.Недзвецкого, только в процессе «нравственной эволюции» [2, С. 329] «маленький человек» «в перспективе формируется – на основе высшей из человеческих связей – связи с Творцом – собственно личность» [2, С. 330].

Ф.М.Достоевский пишет: «Я утверждаю, что сознание своего совершенного бессилия помочь, или принести хоть какую-нибудь пользу, или облегчение страдающему человечеству, в то же время при полном вашем убеждении в этом страдании человечества – может даже обратить в сердце вашем любовь к человечеству в ненависть к нему».

Человек равен человеку, и равенство это создается не злом, а добром, заключенным в человеческой природе. «…спокойствие и даже смерть человеку дороже свободного выбора в познании добра и зла… Нет ничего обольстительнее для человека, как свобода его совести, но нет ничего и мучительнее…» [2, Т. 14, С. 232].

Обретя долгожданную свободу, человек начинает тяготиться им. Устами Ивана Карамазова, Ф.М.Достоевский дает разрешение антиномии «доброго» и «злого» человека: «Нет заботы беспрерывнее и мучительнее для человека, как, оставшись свободным, сыскать поскорее того, пред кем преклониться <…>. …но чтобы сыскать такое, чтоб все уверовали в него…*все вместе.* Вот эта потребность *общности* преклонения и есть главнейшее мучение каждого человека единолично и как целого человечества с начала веков. Из-за всеобщего преклонения они истребляли друг друга мечом <…>. И так будет до скончания мира, даже и тогда, когда исчезнут в мире боги: все равно падут пред идолами». Именно в этом писатель видит «основную тайну природы человеческой» [2, Т. 14, С. 231-232].

Только в любви и через любовь остается вечно живой человеческая душа. Это тоже новое слово Ф.М.Достоевского – любовь. Любовь – это форма и условие жизни души. Поэтому писатель возлагал большие надежды на преобразующую силу и облагораживающую миссию любви. Человек возродится не иначе, как через любовь к ближнему, через заботу о ближнем, через любящих друг друга людей. Такова была главная идея всего творчества Ф.М.Достоевского.

Литературы

1. Григорьев А.А. // Финский вестник. – 1846. – Т. 9. – Отд. Библиографии. – с.23-30.
2. Достоевский Ф.М. Полное собрание сочинений: В 30 т. Л.: Наука, 1972-1981. В дальнейшем все сноски даются по этому изданию с указанием тома и страницы.
3. Недзвецкий В.А. Право на личность и ее тайну («Бедные люди» и «Слабое сердце» Ф.М.Достоевского) / Статьи о русской литературе XIX-XX веков. Научная публицистика. Воспоминания. Нальчик, ООО «Тетраграф», 2011 (628 с.) – С. 313-332.

S.İ.İmanova

F.M.Dostoyevskinin dünyagörüşündə
xeyir və şər təsəvvürləri
Xülasə

Məqalədə görkəmli rus ədibi F.M.Dostoyevskinin dünyagörüşündə xeyir və şər təsəvvürləri haqqında bəhs edir.

Dostoyevski bütün həyatı boyu inanırdı ki, insan təbiəti özlüyündə müsbət cəhətlərə sahibdir. İnsandakı şər, mənəvi qüsur cəhalətin, sosial əxlaqsızlığın, yanlış tərbiyənin nəticəsidir. Yazıçı ömrünün son dəqiqələrinədək belə düşünürdü.

O, sevginin nəcabətinə və köklü dəyişikliklər etmək iqtidarında olduğuna böyük ümidlər bəsləyirdi.

İnsan yalnız doğmasına məhəbbətindən, yaxınına qayğısından, insanların bir-birinə göstərdiyi sevgisindən yenidən doğula bilər. Dostoyevski yaradıcılığını qapsayan əsas ideya məhz bu idi.

S.I. Imanova

Good and evil ideas in the outlook of F.
M. Dostoevsky
Summary

The article deals with the good and evil ideas in the outlook of F.M.-Dostoevsky.

Dostoevsky believed during all his life that human nature owns positive peculiarities. Human's harm, moral defect is the result of ignorance, social immorality, wrong upbringing.

Author was thinking like this till the end of his life.

He had strong hopes that love has got a nobility and basic changes.

Human could reborn in the result of love for his dears, care for relation, love that people show to each-other. Exactly this was the main idea that covered Dostoevsky's creativity.

Rəyçi: А.И.Гусейнова

NAİLƏ QULİYEVA
MƏTANƏT İBRAHİMOVA
ADNA
naila@mail.ru

MƏHƏBBƏT VƏ MƏNƏVİYYAT

Məhəbbət insanın özünü başqasında tapmasıdır.
Hegel

Açar sözlər: İdrak, məhəbbət, müdriklik , məntiqi, təfəkkür,
Key words: cognition, love, wisdom, logical, mentality.
Ключевые слова: знание , любовь мудрость, логический, интеллект

Fəlsəfədə insanın dünyaya münasibəti üç istiqamətdə nəzərdən keçirilir: onu dərk etmək, dəyərləndirmək və əməli surətdə dəyişdirmək. Əgər biz məhəbbətin bu münasibətlər sistemində yerini müəyyənləşdirmək istəsək, ilk növbədə onun bu üç istiqamətdən –idraki, aksioloji və praktik aspektlərdən hansına aid olduğunu aydınlaşdırmağa çalışmalıyıq. Əvvəlcə idrakla əlaqəyə baxaq. Bəlkə məhəbbət insanın nəyi isə dərk etmək cəhdindən irəli gəlir? Bəlkə insan daha çox dərk etdiyini sevir? Amma hamı bilir ki, bu belə deyil. Məhəbbət məntiqi idrakın nəticəsi ola bilməz, olsa-olsa məhəbbətin özünü, artıq bir hissi fakt kimi dərk etmək cəhdləri göstərilə bilər. İdrak geniş mənada götürüldükdə isə, yəni məntiqi idrakdan başqa dünyanı duymaq, sezmək, fəhm etmək də bura daxil edildikdə isə, məhəbbətlə idrakın mürəkkəb bir münasibəti ortaya çıxır. Təsadüfi deyil ki, bəzi şairlər və filosoflar həqiqi böyük məhəbbəti məhz idrakla əlaqələndirirlər. Məsələn, Platon yazır: "Doğru məhəbbətə (məhz idrakın) sadə və gözəl olanı, həm də düşüncəli və ahəngdar surətdə sevmək xasdır". Əl-Qəzalı yazır: "Məhəbbət ancaq idrakın nəticəsi ola bilər; belə ki, insan yalnız bildiyi şeyi sevir. Ona görə də, məsələn, daş sevə bilməz. Məhəbbət ancaq dərk edən canlının xassəsidir". Əlbəttə, mübahisə etmək və göstərmək olar ki, insanı insan edən təkcə idrak qabiliyyəti deyil. İdrak qabiliyyəti müxtəlif dərəcələrdə hər bir insana xasdır. Şəhvani hiss və övlada münasibət səviyyəsində instinktiv sevgi də hər bir insana, hətta heyvanlara da xas olan bir cəhətdir. Amma böyük məhəbbət ali hiss olaraq nəinki idrakdan hasil olmur, əksinə, onun fövqündə durur, insanın ağlını əlindən alır, onu ilhamlandırır və ya yaxşı mənada dəli-divanə edir. Eşq səviyyəsində idrak isə bütün insanlara aid olan hissi və məntiqi idrakdan yüksəkdə durur – idrakın ali məqamına aparır. Bu pillə daha çox dərəcədə idrakın sevgi və vəhy məqamlarına uyğundur. "İnsan yalnız bildiyi şeyi sevir"-fikrinə gəlincə, ancaq bununla razılaşmaq olar ki, insan heç bilmədiyi şeyi həqiqətən də sevməz. Belə ki, sevgi daha çox qeyri-müəyyənliklə, müəmma ilə, sirr və sehrlə əlaqədar olub, əslində bir möcüzə axtarışıdır. Təsadüfi deyildir ki, insan ağlı ilə yox, qəlbi ilə sevir, - deyirlər. Hər şey məhz qəlbi, könülü necə başa düşməkdən asılıdır. İdrak fəlsəfəsinin zirvəsində dayanan Əl-Qəzali eşq fəlsəfəsinin olsa-olsa hələ təməlini hazırlayırdı. Onun dövründə Füzulinin eşq konsepsiyası hələ yaranmamışdı.

Füzuli anlamında eşq insanı məcazi mənada "dəli-divanə", müstəqim mənada "əhli-kəmal" edir:

Ey Füzuli, qılmazam tərki-təriqi-eşq kim,
Bu fəzilət daxili-əhli-kəmal eylər məni.

Məhəbbətin idrakla, əqllə əlaqə məqamları, məhz, Füzuli eşqi ilə tanışlığındandır ki, Asif Əfəndiyev "müdrik məhəbbət" məqamının da izahını verir və ali məhəbbəti müdrikliyin strukturuna daxil edir: "Müdrikllik-....ülviyyəti, məhəbbəti, gözəlliyi, əsilliyi müqəddəslik səviyyəsinə qaldırmaqdır". Yaxud: "Məhəbbət müdriklik timsalıdır. Məhəbbət əhli olmaq – kamal əhli olmaq deməkdir". Ş.Sührəvərdi də kamilliyi eşq və şövqlə əlaqələndirir. Onun fikrinə görə nadan adamın aldığı həzz kamal əhlinin həzzi ilə müqayisəyə gəlməz: "Kamal sahibi olmayan qafil həzz ala bilməz. Hər bir həzzin qədəri kamillik dərəcəsindən asılıdır". Yuxarıda qeyd edildiyi kimi, insan heç dərk etmədiyi, tam qaranlıq bir aləmə aludə ola bilməz. Bu halda qorxu hissi digər hissləri üstələyir, şübhə inamdan, tərəddüd qətiyyətdən güclü olur. Lakin bu qaranlıqda parıltılar varsa, insanı cəlb edir. Ürəkdə işığa həsrət varsa, o bu parıltılar tərəfindən cəzb olunur. Sevgi hissi də harada isə bu maraq və və qorxunun, inam və şübhənin, tərəddüd və qətiyyətin vəhdətindən pərxarlanır. Yəni, sevgi, əslində təkamüldə olan canlı prosesdir. Maraq məftunluq səviyyəsinə qalxırsa və qorxu duyğusundan ancaq müəmma və əsrarənglik qalırsa, - məhəbbətin yolu açıqdır. Tam qaranlıq qəlb işıqdan qorxar. Yəni sevgi ancaq, işıqlı, heç olmazsa, qismən işıqlı adamların qismətidir. Yarıqaranlıq qəlb daha parlaq işıqlar tərəfindən cəzb olunur. Bu baxımdan, yarımçıq olanın, bütövləşməyə ehtiyacı olanın, sevmək ehtimalı daha çoxdur. Yüksək mənəviyyatı, incə ruhlu, parlaq qəlbli insanları heyrətləndirmək, məftun etmək üçün daha böyük gözəllik, daha həssas və daha mürəkkəb tərəf-müqabil lazımdır. Ən böyük aşiq isə, heç şübhəsiz, ancaq işıqlar işığına səcdə edə bilər. Bu isə artıq ilahi eşqdir. Bəli, aşiq olmaq adamın özündən, yəni iradəsindən asılı deyil, amma səviyyəsindən asılıdır. İfrata varılması, hansı isə hissin mütləqləşməsi mənəvi aləm ahəngdar inkişaf etmədikdə, intellektual-mənəvi səviyyəsinin hələ aşağı olduğu çağlarda mümkündür. Təsadüfi deyildir ki, adətən ilk məhəbbət ifrata varır. Və bu da təsadüfi deyildir ki, müdriklərimiz "ilk məhəbbətin gözü kor olar", -demişlər. İlk məhəbbət dərk olunmamış, insanın özü üçün aşkarlanmamış məhəbbətdir. Yəni burada şüur, qeyri-şüuri başlanğıc həlledici rol oynayır. Bundan başqa, bu yaş həddində insanın digər böyük duyğuları-valideyn qarşısında borc, millət və vətən sevgisi, insanlıq məsuliyyəti hələ formalaşmamış olduğundan, tez baş qaldıran bir hiss mənəvi aləmdəki bütün boşluğu doldurараq öz monopoliyasını yaradır. Bu hiss Səmərqəndi, Buxaranı bir gözəlin qara gözlərinə qurban verməkdən daha güclü bir hissdir. Çünki, öz həyatını vermək əzmindədir. Hətta dünyada böyük gözəl, möhtəşəm nə varsa – hamısı bir fərdi məhəbbətə qurban verilə bilərmiş. Bu ideya C.Cabbarlıya məxsus pafosla belə ifadə olunur:

Sənsiz güllər açılmasın, axar çaylar dayansın,
Oxu, bülbül, bəlkə yarım oyansın.....
Mən bir sönməz ulduzam ki, daim işıq saçaram.
Mən bir susmaz bülbüləm ki, güldən-gülə uçaram.
Mən bir saqlı aləməm ki, sevgilərdir açaram.

Sənin günəş görünməsin, qaralara boyansın,
Oxu, bülbül, bəlkə yarım oyansın.....

Hisslər necədə möhtəşəmdir? Heç şübhəsiz Şərq poetik təfəkkürünün ən gözəl nümunələrindəndir. Lakin eşqin ağıla qarşı qoyulması onun həm də zəkaya, sezgiyə, hikmətə qarşı qoyulması kimi başa düşülməməlidir. Çünki Şərq fəlsəfəsinə görə hissi idrak və məntiqi təfəkkür insanı həqiqətə, kamilliyə çatdıra bilməz. Əksinə, hissi təcrübə insanı doğru yoldan azdırır, həqiqəti görməyə mane olur. Həqiqəti bulmağın, haqqa çatmağın yolu haqq aşiqliyindən keçir. Azərbaycanın məhəbbət dastanlarında yuxusunda sevgilisini görən, butə verilən aşiq oyandıqdan, özünə gəldikdən sonra eşqlə bahəm fitri istedad da əxz etmiş olur, haqq şairinə çevrilirlər. Oxumamış-yazmamış bütün həqiqətlərdən hali olurlar. Biz burada dastanlardakı yanaşma ilə klassik Şərq filosoflarının; həm peripatetiklərin, həm də sufilərin mövqeyi arasında sıx bir əlaqə, oxşarlıq görürük. İbn Sina kimi, Mənsur Həllac da, Əl-Qəzali də, Ş.Sührəvərdi də həqiqət yolunun, kamillik məqamının hissi idrakdan yox, ilahi eşqdən keçdiyini qəbul edirlər.

İkinci növbədə aksioloji aspektə – dəyərləndirmə prosesinə baxaq. İnsan nəyi isə yaxşı, nəyi isə pis hesab edir. Nə isə onun xoşuna gəlir, nə isə gəlmir. Nə zamansa qəlbi sıxılır, özünü narahat hiss edir, bu mühiti, bu münasibəti tezliklə tərk etməyə, ondan uzaqlaşmağa çalışır; nə zamansa – ülvi hisslər, mənəvi yüksəliş keçirir, bu anın, bu təmasın uzanmasını, əbədiyyətə qədər davam etməsini arzulayır. Amma niyə, – səbəbini bilmir. Bu, – qəlbin hökmüdür. İstək daxildən gəlir, amma dərk olunmamış bir hissdir. Əlbəttə, dəyərləndirmə aşkar şüurla, dərk olunmuş şəkildə də həyata keçirilə bilər. Bu, müəyyən meyarlarla müqayisə, hansı isə standarta, etalona nisbətin təyin edilməsi ilə mümkündür. Məsələn, gözəllik müsabiqəsində münsiflər ancaq təəssüratdan çıxış etməyib, həm də dəqiq rəqəmlərlə ifadə olunmuş müəyyən etalonlara uyğunluq dərəcəsini, mütənasiblik şərtlərini də nəzərə alırlar. Qalan hallarda dəyərləndirmə aşkarlanmayan şüurla (qeyri-şüurilik) həyata keçir və insan məhz bilmədiyi şeyə daha çox maraq göstərir; öyrənmək, «içinə yetmək» istəyi baş qaldırır. Lakin insan üçün aşkar olmayan, yarıqaranlıq bir aləmlə təmas, həm də qorxu, tərəddüd və şübhə hissi ilə müşayiət olunur. Və nəhayət, praktik aspektə, əməli fəaliyyət münasibətlərinə baxaq. Şərq anlamında eşqin, romantik məhəbbətin praktika ilə, əməllə əlaqəsi yoxdur. Eşq, bir tərəfdən cismani dünyanın fövqündə durduğu, digər tərəfdən unikal olduğu üçün bu sahədə təcrübə toplamaq, bu sahənin peşəkarı olmaq mümkün deyil. Əqli nəzarətdən kənara çıxan böyük məhəbbət, «divaneyi-eşq» daha çox nabələd olanların, ilk dəfə sevənlərin qimətidir. Eşqi, məhəbbəti şəhvət səviyyəsində başa düşən bəzi Qərb yazıçılarının əsərlərində isə bu sahəyə də peşə və peşəkarlıq baxımından yanaşmalar az deyil. Klassik Şərqdə isə eşq kimi isə «ələ keçirmək», onu öz ötəri hisslərinin, istəklərinin təminatçısına çevirmək, yaxud hətta qarşılıqlı həzz almaq mənasında yox, özünü sevgiliyə qurban vermək, onun yolunda hər əzaba qatlaşmaq mənasında başa düşülür. Yəni söhbət nəyi isə əldə etməkdən yox, nədənsə imtina etməkdən gedir. Ancaq bir adamı sevmək mümkün olduğundan, sevginin obyekti dəyişmədiyindən eşqdə peşəkarlıq ya ümumiyyətlə qəbul olunmur, ya da tamamilə başqa mənada başa düşülür. Yəni sözün böyük mənasında sevməyi, eşq oduna yanmağı bacarmaq və onun davamlı olmasına, ömürlük olmasına nail olmaq; çünki eşq hər adamın işi deyil və xüsusi bir istedad tələb edir:

Məndə Məcnundan füzun aşiqlik istedadı var,
Aşiqi-sadiq mənəm, Məcnunun ancaq adı var.

Fərdi fəlsəfi düşüncələr, insanın dünyadakı gözəllik və harmoniya qarşısında heyrətindən doğan suallar, insanın özü ilə və dünya ilə təkbətək söhbətləri – kamilliyə aparan yolun məqamlarıdır. Bu məqamlar özünü maddi dünyadan ayıran, fərqli bir mahiyyətin təmsilçisi olduğunu dərk edən və özündə dünyaya qarşı dura biləcək bir mənəvi güc, ideya qaynağı tapan və bu qaynaqdan müntəzəm surətdə bəhrələnərək daim kamilləşən, dünya ilə, cahan ilə tən gələn və nəhayətdə, bu «cahana sığmayan» insan-filosofun və ya sözün həqiqi mənasında insanın, böyük hərflə İnsanın həyat məqamları, idrakın əzablı və möhtəşəm addımları, mənəvi yüksəliş yaşantılarıdır. Heyrətdən başlanan idrak yolunda əzab və sevincin, eşq və kədərin vəhdət məqamları!..

Ülviyyət, heyrət və müqəddəslik duyğusu Şərq fəlsəfəsi və poeziyası üçün çox səciyyəvidir. Lakin etiraf etməliyik ki, bu gün biz babalarımızın yaratdıqlarını özümüzə qaytarmağa nail olmamış və onları inkişaf etdirmək bir yana dursun, sadəcə müasir fəlsəfi fikir kontekstində yenidən mənimsəyə bilməmişik. Təəssüf ki, heyrətdən başlanan, məhəbbətdən keçən və fəlsəfi idraka, kamillik məqamına yüksələn mənəvi-əqli inkişaf yolunda son mərhələni unutmuş, neçə əsrlər boyu elə məhəbbətdə ilişib qalmışıq və bəzi rəmzləri hərfi mənada təfsir etdiyimizdən, ululərımızın böyük ideyalarını da təhrif etmiş, cılızlaşdırmışıq. Mütəfəkkir şairlərimizin idealı heç də fani dünyanın gözəllikləri yox, ilahi eşq və idrakdır. Nizami Allaha xitabən yazır:

İlhamlı nəfəsinlə qızıl güldü Nizami,
Güllərin nəğməkarı bir bülbüldü Nizami

Necə ki, sonralar ilahi eşq adi sevgi ilə, əql evi bir gözəlin çöhrəsi ilə qarışıq salınıb, eləcə də gül-bülbül mövzusu zaman keçdikcə mənasını dəyişib. Əbu Turxanın məlum rübaisində deyildiyi kimi:

İdrakı rəmz edib bir gül sandılar,
Aqil olanları bülbül sandılar,
Vaxt keçdi, rəmz itdi, sonra gələnlər
Təkcə bülbül ilə gülü andılar.

Şərqdə məhəbbət həmişə kamillik və harmoniya ilə, ilahi başlanğıcla əlaqələndirilmiş, yeri gələndə kosmoqonik məna kəsb etmişdir. Nizami məhəbbəti təbiətin hərəkətveri-ci qüvvələrindən biri hesab etmiş, hətta planetlər arasındakı cazibəni də məhəbbətin təzahürü kimi mənalandırmışdır:

Kainatda hər şey cəzbə bağlıdır,
Filosoflar bunu eşq adlandırır.

İbn Sina məhəbbətə maddi və mənəvi varlığın iyerarxiyasında əlaqələndirici məqam kimi baxmışdır. Aşağı mərtəbədəki varlıq daha yüksək mərtəbədəki varlığın nuru ilə işıqlandı-ğı üçün parıltısı və gözəlliyi artır.

Sən demə, ilkin materiya, forma və əlamətlər də məhəbbət qanunlarına tabe imiş. İbn Sinaya görə, ilkin materiya fitri məhəbbətə malikdir. «İlkin materiya öz çirkinliyini gizlətməyə çalışan eybəcər qadın kimidir; hər dəfə onun niqabı açılanda o, öz çatışmazlıqlarını əli ilə örtür». Burada ilkin materiyanın həmişə «paltarda», forma ilə birlikdə təzahür etdiyi, xalis şəkildə («özündə şey») isə insan üçün

dərkolunmaz olduğu nəzərə çarpdırılır. Məhəbbətin mənəvi kamilliyin təməli olması həm də şərtdir. Yəni, ancaq sevərək gözəlləşmək mümkündür. Övlad, valideyn sevgisi, millət, vətən sevgisi, təbiətə, kainata, bəşəriyyətə – insanlığa bağlılıq, özünü dərk etməyin, dünyanı dərk etməyin, Allahı dərk etməyin mənəvi yüksəliş yolları – ilahi eşq! İnsan ancaq dünyanın harmoniyasını, insan qəlbinin möhtəşəm zənginliyini, əqlin fitrətini, ilahi qüdrətin ecazkarlığını duymaqla gözəlləşir. Əql, bilik insanı daha nəcib edir. İncə strukturlar ona aşkarlandıqca, o özü də incələşir, zərifləşir. Bu mənəvi zəriflik hətta sifətdə də təzahür edir, sifət işıqlanır, insan daha nəcib və nurani olur.

Ədəbiyyat

1. S.Xəlilov "Təhsil, təlim, tərbiyə".
2. A.Bakıxanov. Təhzibi-əxlaq və nəsihətlər. Bakı, 2004, səh. 37.
3. Аль-Фараби. Естественно-научные трактаты. Алма-Ата. 1987, стр. 287.
4. Ş.Sührəvərdi. İşıq heykəlləri. – Şərq fəlsəfəsi. B., 1999, səh. 224.

N. Guliyeva
M. İbrahimova

Cognition and love
Summary

Love can be only the result of cognition, thus human loves the thing that he knows. Human isn't formed only by cognition. Cognition ability peculiar to every person in different degrees. In fact love is the living process of evolution. Real love belongs only to a man of sense. The article deals with the relation of love with cognition. Love is an example of wisdom. The article is of great importance for explanation of mental love in loose concept.

Н.Кулиева
М.Ибрагимова

Знание и любовь
Резюме

Любовь может быть только результатом познания, таким образом, человек любит то, что он знает. Человека формируется не только познание. Познание способность свойственных каждому человеку в разной степени. На самом деле любовь есть живой процесс эволюции. Настоящая любовь принадлежит только человеку смысл. В статье рассматриваются отношения любви с познанием. Любовь является примером мудрости. В статье имеет большое значение для объяснения психической любви в понятие растяжимое.

Rəyçi: dosent R.X.Şamiyeva

ANAR EYVAZOV
AMEA, Şərqşünaslıq İnstitutunun dissertantı
aeyvazov@qu.edu.az / eyvazli@yahoo.com

KLASSİK ƏRƏB ƏDƏBİYYATI SÖZ SƏNƏTİNİN İNKİŞAFINDA TİCARİ BAZARLARIN ROLU

Açar sözlər: Bazarlar, xütbə, söz sənəti, şeir
Ключевые слова: Рынки, хутбе, словесное искусство, стихотворение
Key words: Markets, khutba, rhetoric, poem

Ərəblərin islamiyyətdən əvvəlki həyatlarından qalan ən böyük sənət əsərləri onların bəlağətli, fəsih dilləri, şeir və xütbələridir. Bədəvi ərəblər mədəni həmlələrinin ən böyüyünü məhz belə zəngin bir dilə sahib olmaları ilə göstərmiş, bu dillə söylədikləri kəlamlarını nəqqaş incəliyi ilə taixin silinməz səhifələrinə qızıl hərflərlə həkk etmişlər.

Ərəblər, bütün əsrlər boyu dillərindəki saflığı qorumuşlar və bu saflıq haradasa o dövrün ədəbi incilərinə-şeir və xütbələrinə də borcludur.

Ümumiyyətlə cahiliyyət dövrü xitabətinin inkişafı haqqında danışarkən, ticari məqsədilə qurulan və daha sonra ədəbi yaradıcılığa da geniş yer verilən bazarları unutmaq olmaz. Bu bazarlarda ticari alış-verişlə yanaşı ədəbi meydanlar da qurulur, ərəblər öz ədəbi yaradıcılıqlarını məhz bu bazarlar vasitəsiylə xalqa bildirir, bəyan edirdilər. Başqa sözlə söz cənğavərləri burada "döyüşə" çıxır, xalq bu söz xiridarlarını həvəslə izləyirdi. Hər bir gəncin ən ümdə arzusu bu meydanda söz söyləmək, digər qəbilədən olan rəqibləri ilə "söz güləşdirmək" idi. Ədəbi cəhətdən cox böyük təsir qüvvəsinə malik olan, ərəblərin ədəbi həyatlarında təkan rolunu oynayan bu bazarları bəzi ədəbiyyatçılar "Fransa akademiyalarına" bənzətmiş, qədim Yunanıstanda keçirilən olimpiya yarışları ilə müqayisə etmişlər. (3, s.58-59)

Bu bazarlar vasitəsiylə ərəblər öz tarixlərini də yazmışlar. Onlar qəbilələrinin adət ənənələrini, qəhrəmanlıqlarını, müharibələr və oradakı igidliklərini, baş verən hadisələri dilə gətirərək bir növ öz tarixlərini gələcək nəsillərə ötürməyi bacarmışlar.

Bu bazarlara ərəb dünyasının hər tərəfindən axışır, müxtəlif qəbilələrdən buraya təşrif buyururdular. O dövrdə hər bir qəbilənin özünəməxsus adət-ənənəsi olduğu kimi, müxtəlif ləhcələri də vardı. Məhz bu bazarlar vasitəsiylə ərəblər öz ədəbi yaradıcılıqlarını özlərinə xas ləhcələrində ifa edər, hansı qəbilə ləhcəsinin daha çox bəlağətə, fəsahətə yaxın olduğu ətrafında qızğın müzakirələr aparılardı. Bütün bu müzakirələr ərəb dilinin daha da möhkəmlənməsinə təkan verir, ərəb dilinin üstünlük dərəcəsini daha da artırır, ərəblərin sözə və söz sənətinə olan ehtiramını günü-gündən daha da gücləndirirdi.(1, s.12: 12, c.1, s.65-66)

"Haram aylar" adlandırılan Zilqadə, Zilhiccə, Məhərrəm aylarında və ilin yaz fəslində əsasən karvan yollarının üzərində qurulan bu bazarlarda iştirak edən söz üstadları o dövrdə bütün Ərəbistan yarımadasında, müasir günümüzdə kütləvi informasiya vasitələrinin oynadığı rolu oynayır və sanki onlar o dövrün bir növ radiosu, televiziyası idilər. (2, s.6)

Söz, şeir, xütbə müsabiqələri təşkil olunan bu bazarlarda,iştirakçılar ən gözəl paltarlarını geyinər, xüsusi bəzədilmiş dəvə və atlarda gələr, onları əhatəyə alan xalq və münsiflər heyətinin qarşısında öz sözlərini söylər, söz yarışına çıxardılar və nəticə olaraq bu yarışmada qalib gələn o günün və ya o ilin ən güclü söz üstadı elan olunardı. Dövrün söz hakimi sayılan Nabiğat əz-Zübyaninin hüzurunda dəfələrlə belə yarışlar keçirilmiş, ən məşhur söz sənətkarları bir-birinin üzərinə "söz qılıncı" çəkmiş, qalib gəlmək üçün az qala dəridən-qabıqdan çıxmışlar. (10, s.175-180)

Sözün, kəlmə və kəlamın güc-qüvvət qazandığı bazarların ərəblərin həyatındakı əhəmiyyət kəsb edən yerini tarix və ədəbiyyat kitablarında rəvayət olunan bu hadisə ilə bir daha təsdiqləmək mümkündür:

O dövrün ən məşhur söz üstadlarından sayılan əl-Əşə Ukaz adlanan bazarda iştirak etmək üçün Məkkəyə gəlmiş və o zamanlar Məkkədə fəqir və səkkiz qız atası əl-Muhallaq əl-Kilabi adlı bir ərəbin xanımı onun Məkkəyə gəldiyini və Ukaz bazarına gedəcəyini eşitmişi. Qızlarının heç bir ərəb tərəfindən bəyənilməməsi və bu səbəbdən ərə getməməsi ilə bağlı daim kədərli yaşayan bu xanım dərhal ərinə: " Yə Əbə Kilab! Nə üçün bu şairi evimizə qonaq çağırmırsan? Onu evinə dəvət edən hər kəs ondan, onun sözündən xeyir görüb! Mən gördüm ki, o kimi tərifləyirsə o kimsə ərəblər içərisində şan və şöhrətə layiq olur, və o kimi həcv edirsə o kimsə də ərəblər içərisində rəzil-rüsvay olur! Yə Əbə Kilab! Bəlkə hər kəsdən əvvəl onu evimizə dəvət edəsən.Ümid edirəm bu sənin üçün çox yaxşı olar (o sənə xeyir gətirər) "

Sadəcə bir dəvəsi olan əl-Muhallaq ilə uzun sürən müzakirədən sonra xanımı onu razı sala bilir. Əl-Muhallaq əl-Əşəni evinə dəvət edər, olan-qalan bircə dəvəsini kəsib ona ikram edər və əl-Əşə ilə söhbət edən əl-Muhallaq səkkiz qızı olduğunu və heç kimin onun qızlarını istəmədiyini ona söyləyər.

Səhəri gün əl-Əşə Ukaz bazarına gedər və onun bazara gəldiyi görən ərəblər dərhal onun qızıldan qiymətli kəlamlarını eşitmək üçün onun ətrafına toplaşarlar. əl-Əşə əl-Muhallaqın comərdliyi,əliaçıqlığı ilə bağlı sözlərindən sonra deyər:

" Ey ərəb topluluğu! Sizin içinizdə oğlu olub onu şərəfli, comərd birinin qızları ilə evləndirmək istəyən yoxdurmu?"

Əbu əl-Fərəc əl-İsfahaninin ifadəsi ilə desək əl-Əşə sözünü bitirməmiş, əl-Muhallaqın qızlarına evlilik təklifləri yağar..! (11, c.1, s.173-177)

Bəli ərəblər üçün söz hər şeydən, hətta ən qiymətli varlıq sayılan dəvədən də qiymətli idi və bu söz ilk dəyərini bu kimi bazarlarda əl-Əşə kimi söz sənətkarlarının dilində qazanmışdı.

Təsadüfi deyildi ki, əl-Əşə islam dinini qəbul etmək üçün Mədinəyə gedərkən Əbu Sufyan onun qarşısını kəsə bilmir və qureyşlilərin yanına gedərək:

"يا معشر قريش! هذا أعشى قيس، وقد علمتم شعره، ولئن وصل إلى محمد ليضرّبنّ عليكم العرب بشعره "

*"Ey Qureyş əhli! Siz Əşə Qeysin şeirlərindən xəbərdarsınız! Əgər o Məhəmmədin yanına getsə, ərəbləri öz şeirləri ilə sizin üstünüzə qaldıracaq!"*deyir.

Bu sözün qarşısında təşvişə düşən qureyşlilər Əşəni yolundan döndərmək üçün ona 100 dəvə verirlər...! " (8, c.1, s.250)

Ticari bazarların ərəblərin ədəbi həyatındakı əhəmiyyətli rolunu təsdiqləyən başqa bir rəvayətdə isə belə deyilir:

Cahiliyyət dövrü ərəblərinin söz yarışlarının keçirildiyi Ukaz bazarında dövrün məşhur şairlərindən və o dönəmin söz hakimi sayılan Nabiğat əz-Zübyani, onun üçün xüsusi qurulmuş çadırda şairləri dinləyib, onların sözünə qiymət verir, söz sənətkarlıqlarını dəyərləndirirdi. Belə günlərin birində cahiliyyət şairlərindən əl-Əşə öz sözünü söylədikdən sonra, onun ardınca Həsən ibn Sabit:

لَنا الجَفَنَاتُ الغُرُّ يَلْمَعْنَ بِالضُّحَى و اسْيَافُنَا يَقْطُرْنَ مِنْ نَجْدَةٍ دَمَا

وَلَدْنَ بني العَنْقَاء وابْني مُحَرِّقٍ فأكْرِمْ بِنَا خَالاً و أكْرِمْ بِنَا أبْنَمَا

"Bizim duha (səhər) vaxtı parıldayan bəyaz qablarımız var və qılınclarımızdan müharibədə qan damlar,

Anqa oğullarını və Muharriqin iki oğlunu dünyaya gətirdik; nə qədər səxavətli dayılarımız, nə qədər səxavətli oğullarımız var".

şeirini söyləyir, lakin Nabiğat əz- Zübyani onun bu sözlərini bəyənmir və ona belə buyurur:

"Sən şairsən, amma şeirində الجَفَنَاتُ və اسْيَافُنَا kəlmələrini istifadə etdin və bununla da qabların və qılıncların sayını azaltdın, halbuki çoxluq ifadə edən سُيُوف və جِفَان şəkillərini istifadə etsəydin daha yaxşı olardı, miqdarı çox olardı. Sən "duha (səhər) vaxtı parıldayar يَلْمَعْنَ بِالضُّحَى " dedin,amma " qaranlıqda şimşək kimi parıldayar(يَبْرُقْنَ بالدُّجَى) " desəydin, o zaman sözünü daha çox mədh etmiş olardın, çünki qonaqlar daha çox gecə vaxtı gəlir. Sən " qılınclarımızdan müharibədə qan damlar يَقْطُرْنَ مِنْ نَجْدَةٍ دَمَا " deyərək öldürmənin azlığına işarət etdin (igidliyin zəifliyinə işarət etdin), amma " qan axar(يَجْرِينَ) desəydin qan tökülməsi daha çox olardı (igidliyinizi daha çox mədh edərdin), bundan başqa dünyaya gətirdiklərinlə öyündüyün halda, səni dünyaya gətirən əcdadınla öyünmədin..." (7, s.69-70: 5, s.3: 4, s.104)

Ukaz adlı bazarı öz sözü, məşhur xütbəsi ilə silkələyən, bütün xalqın hörmət bəslədiyi söz üstadlarından biri də Quss ibn Saida olmuşdur. Onun xütbəsinin təsir gücü o qədər çox olmuşdur ki, xütbə hətta islam dininin rəhbəri Məhəmməd Peyğəmbərin xatirələrində də dərin iz buraxmış və Allah Rəsulu Qussun bu xütbəsini "Ümid edirəm ki, Allahu Təala qiyamət günü Quss ibn Saidanı təkbaşına bir ümmət olaraq həşr edər, ayrı bir ümmət olaraq qiymətləndirər "- deyərək yüksək dəyərləndirmişdi. (9, s.67: 6, c.4, s.214)

Gördüyümüz kimi cahiliyyət dövründə ərəblər söz sənətinin estetik yönlərinə, ən incə ədəbi nöqtələrinə toxunmuş, dil zənginliyindən ən üstün səviyyədə istifadə etmiş, xülasə dinləyiciyə və oxucuya ədəbi zövq vermişlər.

Ərəblərin ədəbi həyatı həqiqətən də çox zəngin olmuşdur. Oxumaq və yazmaq bilməyən ərəblər cahiliyyət dövründə hələ də dillərdən düşməyən bir çox şeirlərin, qəsidələrin, xütbələrin müəllifi olmuşlar ki, bu da ərəblərin zəngin ədəbi həyatından xəbər verir. Ərəblərin siyasi, iqtisadi, ictimai, dini həyatlarının çalarları onların ədəbi həyatlarına birbaşa təsir göstərmiş və ərəblərin ədəbi həyatları birbaşa onların yaşadıqları həyat səviyyələri ilə sıx əlaqədə olmuşdur.Bunu istər ərəblərin şerlərinə və ya nəsr əsərlərinə baxdıqda açıq-aşkar görmək mümkündür.

Cahiliyyət dövründə şair və xətibin cəmiyyətdəki rolu, müasir günümüzdə televiziyanın, radionun, qəzetin, idmanın, siyasətin, yeni kitabların və s. rolu ilə müqayisə edilməkdədir. Bu baxımdan ərəblər, gözəl nitq mədəniyyətini, gözəl danışıq üslubunu silah kimi əldə edib, onunla insanların ağıllarını istədikləri istiqamətə yönəldər, zirvədə qərar tutmuş kimsəni zəlil edər, qorxaqları cəsur edər, bəzən müharibəni alovlandırar, bəzən də alovlanan müharibəni söndürərdilər. Başqa sözlə o dövrün bədii söz sənətkarları insanları cazibə qüvvəsinə salmağı bacaran, onları sanki əfsunlamaq gücünə malik çox güclü bir qüvvə idilər və onların xalq arasındakı hörmət və izzəti sonsuz idi. Bütün bunlara əsas dəstəkverici amil isə ticari bazarlar idi.

Ədəbiyyat

1. Qasımova Aidə, Cahiliyyət ərəblərinin şair və xətiblərə münasibəti, Şərq filologiyası məsələləri (məqalələr toplusu), Nurlan nəşriyyatı, Bakı, 2005

2. Vilayət Cəfər, " Əş-Şüəra " surəsinin nazil olduğu ərəfədə Ərəbistanda poetik durum, Hikmət jurnalı (elmi araşdırmalar toplusu), İİR-nın "Əlhuda" nəşriyyatı,Bakı,sayı 5-6, 2005

3. Г.Д. Удалых, Риторика, Часть 1, История Риторики, Учебное Пособие, Бакинский Славянский Университет, Баку – Мутарджим –2010

4. И.М.Фильштинский,"История Аравской Литературы V-начало X века",Москва,1985

5. أبو أحمد الحسن بن عبد الله بن سعيد بن إسماعيل العسكري, المصون في الأدب, مطبعة حكومة الكويت, 1984 م

6. أبو عمر، شهاب الدين أحمد بن محمد بن عبد ربه ابن حبيب ابن حدير بن سالم المعروف بابن عبد ربه الأندلسي, العقد الفريد, دار الكتب العلمية – بيروت, 1404 هـ

7. أبو عبيد الله بن محمد بن عمران بن موسى المرزباني , الموشح في مآخذ العلماء على الشعراء

8. أبو محمد عبد الله بن مسلم بن قتيبة الدينوري, الشعر والشعراء, دار الحديث، القاهرة

9. أبو هلال الحسن بن عبد الله بن سهل بن سعيد بن يحيى بن مهران العسكري, الأوائل, دار البشير, 1408 ه

10. عبد الله عبد الجبار - محمد عبد المنعم خفاجى, قصة الأدب في الحجاز, مكتبة الكليات الأزهرية

11. عبد القادر بن عمر البغدادي, خزانة الأدب ولب لباب لسان العرب, مكتبة الخانجي، القاهرة, 1997 م

12. مصطفى صادق بن عبد الرزاق بن سعيد بن أحمد بن عبد القادر الرافعي, تاريخ آداب العرب, دار الكتاب العربي.

А.Э Эйвазов

Роль торговых рынков в развитии словесного искусства
в классической арабской литературе
Резюме

Художественная жизнь классической арабской литературы доисламского периода, занимающей по сегодняшний день своеобразное место на арене мировой литературы, благодаря богатых и яркых литературных образцов достаточно интересна и привлекательна. Постоянные жильцы бескрайних степей со скудной флорой и фауной арабы-бадеины, благодаря божьего дара речи, оставили такой художественное наследие, что, последующие поколения, как бы ни воспользовались открытиями современной науки и техники, все равно не могут подняться на уровень своих предков с точки зрения искусства слова. Представляя эпоху отсутствия жестких законов письма и чтения, их художественная жизнь была настолько яркой и поистине благозвучной,что

представители других этносов могли только позавидовать им.Несмотря на многовековую давность появления этих произведений, как в отражении неимоверного богатства словарного фонда, так и в обозначении различных оттенков слов, они легко доступны и понятны современному читателью.

Именно в появлении и развитии богатой арабской литературной жизни большую роль сыграли торговые рынки той эпохи. Другими словами, появление и процветание словесного искусства во многом обязано торговым рынкам, построенным в степях Аравии.

A.E.Eyvazov

The role of commercial markets in the development of rhetoric in classic arab literature

Summary

The literary life of ignorance period before the emergence of Islam is very interesting. It must be mentioned that this period has very important place in the world literature and always keeps it place on the top place where it has reached. The Bedouins who lived in the deserts with endless boundaries and lack of flora and fauna left the literary heritage and although their descendants use these heritages and other scientific innovations immensely, they can not reach the levels of people that had lived before. In other words, they try in the shadow of literary heritage. In the period in which there were not exact rules for writing, books and rhetoric, the people of deserts had very bright literary lives and a lot of works full of important messages emerged and a lot of people naturally envy this situation. They also told unforgettable words. Notwithstanding many years have passed, these works reflect the richness of the vocabulary fund of the language and they are the embodiment of different meanings and modern day people easily understand them easily.

Commercial markets played very important role in the development of literary life of that time. In other words, the development of rhetoric owes a lot to the commercial markets that were operated in the deserts of Arabia.

Rəyçi: prof. Kamandar Şərifov

MAHİRƏ HACIYEVA
ADU
mhacieva@hotmail.com

İNGİLİS DİLİNİN TƏDRISİNDƏ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNDƏN İSTİFADƏ

Açar sözlər: dil bacarıq və vərdişləri, ünsiyyət, yazılı və visual media, tənqidi yanaşma

Key words: language skills, communication, printed and visual media, critical approach

Ключевые слова: языковые навыки, связи, печатные и визуальные средства массовой информации, критический подход

Dil insanların fikir, ideya və hərəkətlərini izah etmələri və müxtəlif məlumatları ötürmələri üçün elə insanların özlərə tərəfindən yaradımış vasitədir. Cəmiyyət dil vasitəsilə ünsiyyət saxlayır və bu ünsiyyətdən söhbət açarkən kütləvi informasiya vasitələri ilk ağla gələn mənbədir.

Müxtəlif məlumatları ötürən informasiya vasitələrı arasında xəbərlər xüsusi yer tutur və istər çap olunan istərsə də vizual xəbərlər dilin imkanlarından geniş şəkildə istifadə etməklə cəmiyyətdə fikir mübadiləsinə yol açan ən önəmli vasitədir.

Mediyanın cəmiyyətin özünü əks etdirdiyini nəzərə alaraq demək olar ki, bu vasitələrdən tələbələrin ünsiyyət bacarıq və vərdişlərinin inkişaf etdirərək onları məsuliyyətli və cəmiyyət üçün faydalı ziyalılar kimi inkişaf etdirməyi məqsəd kimi qarşıya qoyan dilin tədrisində istifadə olunması qaçılmazdır. Xüsusilə ali təhsil səviyyəsində kütləvi informasiya vasitələrindən adekvat və müvafiq istifadə tələbələrin söz ehtiyatının artırılması, dil bacarıq və vərdişlərinin inkişafı və publisistik üsulla yaxından tanış olma imkanını artırmaq üçün əvəzsiz vasitədir. Bu yolla əldə etdikləri vərdişlər sayəsində tələbələr yalnız dərs zamanı deyil dərsdən kənarda da ingilis dilində çap olunan və ya efirə verilən informasiyanı sərbəst şəkildə şərh edmək bacarığına yiyələnə bilir.

Sürətlə inkişaf etməkdə olan dünyada ingils dilini öyrənən tələbələr özləri də bilmədən daima həm yazılı həm də şifahi informasiya və sərhədsiz yenı söz və ifadə axınına məruz qalırlar. Xəbər və məqalələrdən istifadə asanlıqla əldə edilən, orijinal və müasir ingilis dilini öyrənməyə yardım edir.

Bu baxımdan kütləvi informasiya vasitələrindən dilin tədrisində istifadə tamamilə məqsədəuyğundur. Bu vasitələrdən istifadə etməklə tələbələr İngilis dilinin tələffüz, vurğu, söz bazası, cümlə quruluşu kimi aspektlərini öyrənir və tənqidi analiz qabiliyyətlərini inkişaf etdirirlər. Müxtəlif məqalələrdən istifadə etməklə həm ingilis dilinin rəsmi həm də qeyri rəsmi variantlarını oyrənmək olar, tələbələr qrup daxilində fəaliyyət, fikrin sərbəst şəkildə ifadə edilməsi və ümumiləşdirilməsi, məktub və hesabat yazma, sorğu keçirmək, rəy bildirmək kimi çoxsaylı vərdişlərə yiyələnirlər. Bu dərslər tələbələrdə ingilis dilində sərbəst şəkildə mülahizə yürütmək və oxudqları və ya tamaşa etdikləri informasiyaya tənqidi yanaşmaq sərbəstliyi verməklə yanaşı onların ingilis dilinin fonetik, semantik, sintaktik və üslubi xüsusiyyətlərini daha yaxşə mənimsəməsinə şərait yaradır.Bu baxımdan, dərslərdə əsasən

tənqidi yanaşma tələb edən və düşüncə oyadan praktik tapşırıqlardan istifadə olunur.

Misal üçün tələbələr müasir mediya vasitələrində ən çox istifadə olunan tərs pramida praktikasına yiyələnirlər. Bu o deməkdir ki xəbərin ən vacıb tərəfləri başlanğıcda verilir və bu da həm redaktor həm də oxucu üçün yerə və vaxta qənaət baxımından olduqca əlverişlidir. Eyni zamanda düzgün məqalə strukturu ilə tanış olan tələbə oxuduğu və ya tamaşa etdiyi informasiya formasına dana məntiqli münasibət göstərə bilir. Əldə etdikləri bu jurnalistika və publisistika bacarıqlardan tələbələr istər ana dilində istərsə də ingilis dilində gələcək elmi fəaliyyətlərində daim istiafadə edə biləcəklər. İngilis dilinin tədrisində kütləvi informasiya vasitələrində istifadənin üstünlüklərindən danışarkən Pemaqbi Joe qeyd edir, " Bu vasitənin əsas üstünlüyü ondadır ki, bir televiziya proqramı və ya qəzet buraxılışı müxtəlif yazı vərdişlərini inkişaf etdirə bilər; təsvir, analiz və sintez, müqayisə və tutuşdurma, eynı zamanda düzgün yazı qaydası üçün mədel rolunu oynaya bilər; paraqraflaşdırma, baş cümlə, giriş, nəticə və s. " (2. səh: 14)

Xəbərləri seçərkən onların dərs üçün istifadə olunacağını nəzərə almaq vacibdir. Bu mənbələrin tələbələrin bilik səviyyəsinə, dərsin məqsədinə və təqvim planına uyğun seşilməsi kursun səmərəliliyini təmin edir. Ilk növbədə, seçilən tapşırıqlar praktik və kommunikativ xarakterli olmalıdır. Buna görə də ingilis dilinin tədrisində kütləvi ünsiyyət vasitələrindən istifadə zamanı metodologiya müəyyənləşdirilməlidir ki, buna da xəbərlədən istifadə sıxlığını, materialların analiz olunması, eşitmə, dinləmə və danışıq vərdişlərinin inkişafı üçün müvafiq tapşırıqların müəyyənləşdirilməsi ilə nail olmaq olar.

Qeyd etmək yerinə düşər ki, tələbələrin maraqlarını təmin etmək üçün yeni çap olunmuş və ya yayımlanmış informasiyadan istifadə daha səmərəli nəticə verir.Bu tapşırıqları müəyyənləşdirərkən tekstin struktuu, ölçüsü, lingivistik baxımdan mürəkkəbliyi və məzmunu nəzərə alınmalıdır.

Tələbələrin maraqları, bilik səviyyələri və programa uyğunluğu nəzərə alınaraq müxtəlif mövzuları əhatə edən milli və xarici xəbərlərdən istifadə edilməlidir. Bu mənada tədris olunacaq materialların analiz edilməsi olduqca vacibdir. Materialların seçərkən onların ölçüsünün, çətinlik dərəcəsinin, mövzusunun, yazılı yoxsa şifahi tapşırıqlara ehtiyac duyulduğunu müəyyənləşdirmək də əsas şərtlərdəndir. Yənı bu cür vasitələrdən istifadə zamanı tələbələr yalnız ingilis dilinin linqvistik züsusiyyətlərini mənimsəmir həm də verilən teksdən məna çıxarmaq yollarını öyrənmiş olurlar.

Müxtəlif mənbələrdə əksini tapmış xəbərlərin təqdim olunma yollarını müqayisə etməklə tələbələr arasında müzakirələrə yol açmaq və bununla da onların fikirlərini ifadə etmək və dinləmək bacarıqlarını inkişaf etdirmək mümkündür.

Tələbələrə müzakirə üçün məqalə və ya tapşırıqlar təqdim olunarkən məqsədin aydın olması mühümdür, yəni tələbə əsasən diqqətin əsasən hansı məsələyə yönəltməli olduğunnu və tələb olunan tapşırığın məqsədini dərk edərək şüurlu surətdə dərsdə iştirak etməlidir. Bu mənada tapşırıqların seçimində diqqətli olmaq dərsin keyfiyyətinə təsir göstərən başlıca amillərdəndir.

Bu tapşırıqlar arasında yenidən qurma tipli tapşırıqlar gözəl nəticə verir. Buzaman tələbələrdə təxmin etmə, nəticə çıxarma kimi vərdişlər inkişaf edir. Bununun üçün ənənəvi beş W (Who/Whom, What, When, Where, Why/ How) suallarını ca-

vablandırmaq daha sonra isə daha mürəkkəb yenidən yazma tipli tapşərəqlardan istifadə etmək olar. Sonrakı mərhələlərdə diqqəti daha çox ritorik və stilistik xüsusiyyətlərə yönəltmək olar. Bununla da tələbələr mətnin formal xüsusiyyətlərini analiz etmək və anlamaq vərdişlərinə yiyələnirlər. İngilis dilinin tədrisində istifadə olunan tapşırıqların seçilməsindən danışarkən Minakşi Raman qeyd edir: "Yüksək rəqabət və qloballaşma şəraitində ingilis dili müəllimləri üçün tələbələrinə uyğun materiallardan istifadə edərək və praktik yanaşma yolu ilə keyfiyyətli və zövqverici təhsili təmin etmək və nəticəyə nail olmaq əsasdır." (1. səh: 12)

Əgər bu yanaşmanı əsas götürsək kütləvi informasiya vasitələrindən ingilis dilin tədrisində müvafik şəkildə istifadə etməklə həm tələbələrin dərsə marağını həm də tədrəsin keyfiyyətini təmin etməyin mümkün olduğunu müşahidə etmək olar.

Cəmiyyətdə ünsiyyətin əsasını dil təşkil edirsə bu ünsiyyətin yaradılmasında və yayılmasında əsas informasiya daşıyıcısı olan mənbə kütləvi informasiya vasitələridir. İngilis dilinin tədrisində bu vasitələrdən istifadə etməklə tələbələrin həm dərs şəraitində həm də gündəlik və gələcək fəaliyyətlərində önəmli yer tutan dil bilik və bacarıqlarına yiyələnməklərini təmin etmək mümkündür.

Bu zaman istifadə olunacaq materialların tələbələin maraq və tələblərinə, bilik və yaş səviyyələrinə, dərsin məqsədinə , tədris planına uyğunluğunun nəzərə alınması və materialın məzmununa diqqət yetirilməsi tədrisin keyfiyyətini təmin edən əsas amillərdir.

Ədəbiyyat:

1. Meenakshi Raman. "Using News Media in ELT Classroom at the University Level." English Language Teaching. Atlantic Pubishers and Distrubutors. New Delhi-2004
2. Pemagbi Joe. Using Newspapers and Radio in English Language Teaching. English Teaching forum. Volume 33, #3, Iyul 1995.
3. www.hkedcity.net.
4. Mehdi Vaez Dalili. News and Views. A course in Reading British and American News. Rahnama Press. 2012.
5. Teaching English through Mass Madia. Tafani Vilma. http://dppd.ubbcluj.ro .
6. www.jstor.org

M. Hajiyeva

Using mass media in ELT

Summary

If language is the medium of communication mass media serves as main source of construction and diffusion of the communication.

By using mass media item in the ELT classrooms we can develop students' language skills which are helpful not in the language classroom but also in their daily and future activities.

In order to ensure that students' benefit from the lesson, while choosing materials from Mass Media for ELT lesson studetns' interest and needs, level of

knowledge and age, objective of the lesson, accordance to syllabus and content of the material must be considered.

М.Гаджиева

Использование средств массовой информации в ELT

Резюме

Если язык является средством общения средствах массовой информации служит основным источником строительства и диффузии связи. С помощью пункта средства массовой информации в классных комнатах ELT мы можем разработать студентов языковых навыков, которые полезны не на языке аудитории, но и в их повседневной и будущей деятельности.

В целях обеспечения выгода от урока, при выборе материалов из средств массовой информации для ELT урок, интересов и потребностей студентов, уровня знаний и возраста, цель урока, соответствие учебных планов и содержания материала должны быть рассмотрены.

Rəyçi: Ph.D. Könül Abdurəhmanova

SAKİBƏ ƏLƏSGƏROVA
filologiya üzrə fəlsəfə doktoru,
Azərbaycan Dövlət Pedaqoji Universiteti
traqimli@gmail.com,
UOT: 821 (479,24)

M.İBRAHİMOVUN "CƏNUB HEKAYƏLƏRİ"NDƏ AZADIN ARZULADIĞI GÜN UĞRUNDA ƏDƏBİ-BƏDİİ VƏ İCTİMAİ-SİYASİ MÜBARİZƏ

Zülmün topu var, gülləsi var, qəlpəsi varsa,
Haqqın da bükülməz qolu, dönməz üzü vardır.
Tofiq Fikrət

Açar sözlər: *Cənubi Azərbaycan ədəbiyyatı, 21 Azər hərəkatı, fədai, mübarizə*
Ключевые слова: Южная Азербайджанская литература, вторжение двадцат один Азера, эволюция, борьба
Keywords: Southern Azerbaijan literature, intrusion are twentieth one Azer, evolution, fight

XX əsr Azərbaycanının ən görkəmli nümayəndələrindən biri də M.İbrahimovdur. Çoxlarından fərqli olaraq onu görkəmli edən uzun müddət yüksək vəzifələrdə olması deyil, bütöv yaradıcılığı və bütöv şəxsiyyətidir. Həyatın ən ağır keşməkeşlərindən keçərək köməksiz, təkbaşına onun ali zirvəsinə qədər qalxmaq üçün güclü iradəyə və mübarizə əzminə malik olmalısan. Bəlkə də həyat, yaşam haqqında ən geniş və dolğun təsəvvürə malik və sayı çox az olan şəxslərdəndir M.İbrahimov. Xalqın içindən çıxan, onun çox olan ağır, az olan yaxşı günlərinin şahidi olan, torpaq uğrunda mübarizədə döyüşün ortasında, milli-mənəvi mübarizədə gerçəkliyin qabağında, kiçiklə kiçik, böyüklə böyük kimi davranan, kim olduğunun fərqinə varmayan, olsa belə hiss etdirməyən, ehtiyacı olanın qolundan tutan M.İbrahimov Cənubi Azərbaycandan gəlməsə belə yenə də onun yaralarını sarıyardı, yenə də onun dərdlərini qələmə alaraq mənəvi dəstək verərdi. Bütöv Azərbaycan arzusu və bu arzunun həyata keçməsi uğrunda mübarizə aparan görkəmli ədib bütün yaradıcılığı boyu dönə-dönə Cənubi Azərbaycan məsələsinə qayıtmış, öz vətəndaşlıq borcunu namusla yerinə yetirmişdir. Mübarizələrlə dolu Azərbaycanımızın tarixi, ədəbiyyatı belə qeyrətli şəxslərin hesabına formalaşmışdır.

M.İbrahimov Cənub mövzusu ilə bağlı beş hekayə yazmışdır. Azadlıq uğrunda gedən mübarizələrin ayrı-ayrı məqamlarını özündə əks etdirən bu hekayələrdə çox gözəl müşahidəçilik qabiliyyəti ilə eşitdiklərini və gördüklərini duyğu və düşüncələri vasitəsilə ümumiləşdirmişdir. «Azad» hekayəsi Cənubi Azərbaycan xalqının mübarizə tarixindən bəhs edən ən orijinal əsərdir. Əsərdə realizm istedad və səmimiyyətlə birləşərək həyati bir məzmun qazanmış, poetik bir şəkildə əhvalat və hadisələrdə təsvir edilmişdir. Əsər yazılarkən yazıçının məqsədi mövzunu məzmuna yansıtmaq və əsas ideyanı oxucuya çatdırmaqdan ibarət olmuşdur. Yazıçı Azadla

Fərdanın həyatını, səciyyəvi xüsusiyyətlərini, dostluqlarını, giley-güzarlarından çıxan nəticəni, arzularını və s. bədiyyatın dili ilə canlandırmış, onların fikirlərini gördükləri işdə, əməllərində ifadə etməyə çalışmışdır.

M.İbrahimov hələ kiçik yaşlarında kənddə gördüklərini heç unutmadı. Müharibənin, azadlıq mübarizələrinin yaxşı tərəflərini saymasaq, ölüm mələyi kimi insanların üstünə çökməsi yazıçının qəbul edə bilmədiyi bir məsələdir. Bu cür ağır hadisələrin içərisindən salamat çıxmağın özünün belə qəhrəmanlıq kimi qiymətləndirilməsi düzgün qənaətdir. «Azad» hekayəsində kasıb ailələrin ağır məişət şəraitində yaşaması, aclıq, səfalət, ölüm, qorxu kimi kabusların hər kəsin qapısını döyə bilmə olasılığı, buna baxmayaraq insanların öz iradələrindən dönməyərək «yaşamaq üçün ölməy»i həyat amalına çevirmələri əhatəli şəkildə təsvir edilmiş və yazıçı öz məqsədinə çatmışdır. Əsərin obrazları öz işi və əməli ilə seçilən insanlardır. Məntiq, bacarıq, igidlik, rəşadət və hünər görünmək üçün mühit və şərait istər. Bu şərait yarananda M.İbrahimovun sədaqətli personajları həmfikirlərini öz arxasınca aparmağa qadirdir. Sadə insanların üzləşdikləri haqsızlıqlar, azadlıq uğrunda gedən mübarizənin ağırlığı, təbiətcə sakit insan olmasına baxmayaraq, Azadın daxilən keçirdiyi çox güclü sarsıntılar həmvətənlərimizin nə ilə üzləşdiklərinin göstəricisidir. Azad həyatı tək özü üçün yaşayan biri deyil. O, Vətəni, xalqı və dostu üçün əlindən gələni əsirgəmir və həyatının mənasını dostu Fərda kimi mübarizədə, yaşamaq üçün ölməkdə görür. Azad İnqilabi Hərəkatı boğmaq istəyən qara qüvvələrə qarşı mübarizə aparanların başçısı olur. Məqsədi qələbə çalıb azadlıq bayrağını qaldırmaqdır. Azərbaycan oğullarına məxsus müsbət keyfiyyətləri üzərində toplayan Azad qeyrətli Vətən oğludur. Əsərin əvvəlində özü ilə, düşmənlə daxilində sakitcə haqq-hesab çəkən, sonralar silahı götürərək yağılarla çarpışan, qəhrəman bir insan kimi gözlərimiz önündə canlanan Azad və Azad kimilər ölümləri ilə xalq qarşısında, Vətən qarşısında əbədi yaşam qazanır, cismən məhv olsalar da, ruhən insanların qəlbində yaşayır. Xarakterinə görə Sükuti çağırılan Azadın ölümqabağı dediyi sözlər Azərbaycanın azadlığı uğrunda mübarizə aparan oğullarımızın yazıçı tərəfindən ümumiləşdirilmiş simvolik arzularıdır: «Bizim hamımızın səadəti… ana torpağın istiqlaliyyətindədir… ölürəm, Fərda, amma mən yaşamaq üçün ölürəm… ölmək üçün yaşayanların dövrü qurtardı, bundan sonra zaman bizimdir, yaşamaq üçün ölməyə hazır olanlarındır!...» Ülvi arzularla yaşamaq, torpağa bağlılıq, həyatın mənasını Vətən üçün çalışmaqda görmək inqilabi hərəkata qoşularaq azadlıq uğrunda şəhid olan və olmayan qəhrəmanlarımızın həyat amalıdır. Onlar üçün torpaq səcdə olunacaq qədər müqəddəsdir. Yenə Azadın sözlərini xatırlayırıq: «Öpünüz, səcdəyə qapılıb hamınız bu torpağı öpünüz! Bizim əzəli və əbədi beşiyimiz budur…» Onun üçün başqa müqəddəs şeylər də var ki, bu, bütün insanlara aid deyil: məslək qardaşı, silah yoldaşları, bir də vətənin azadlığı üçün qaldırılmış silah… Ölənlərin pak ruhu qarşısında and içməyin müqəddəsliyi də başqa bir mücadiləyə çağırışdır.

M.İbrahimovun «Azad» hekayəsində təsvir etdiyi öz arzuları, Azərbaycanın səadəti və böyük amalı yolunda fədailərin həyata keçirdiyi və keçirə biləcəyi istəkləri idi. Hekayədə mərdlik, intiqama çağırış ideyaları təbliğ edilir, qəhrəmanların azadlıq mübarizəsi alqışlanır. Azərbaycanın hər iki tərəfindən olan igidlərin ucalan səsi gələcək nəsillərin birlikdə atılan ayaq səslərindən xəbər verir. Burada mücərrədlikdən çox inam var, qələbəyə və azadlığa inam. Hekayədə yazıçı

məqsədsiz, amalsız keçən həyatı yaşamaqdan saymır. Onun üçün, onun yaratdığı ədəbi qəhrəmanlar üçün ana yurdun istiqlaliyyətinə həsr olunmuş həyat yaşanmış əsl həyatdır. Həyatının mənasını Vətənimizin səadəti, xoşbəxtliyi üçün çalışmaqda görən yazıçı ardıcıl olaraq bir neçə əsərində bu mövzunu müxtəlif planda təhlilə cəlb edir, bədii lövhələrlə bəzəyərək rəşadət, igidlik, ağıl, hünər, istedad kimi güclü rəmzləri iştirakçıların əməllərində canlandırır, özünün və xalqının istək və arzularını həyata keçirmək iqtidarında olan ədəbi qəhrəmanlarını yaradır.

Onun «İztirabın sonu» hekayəsində də Təbrizin üstünü alan fəlakətin başqa bir nümunəsi bədiiləşdirilərək ürəklərə vahimə, qəlblərə sonsuz iztirab gətirən, insanların həyatını matəm və ümidsizliklə pərdələyən, inqilabı hərəkatın yatırılması üçün xalqa edilən zülmün, cəhənnəm əzabının təsviri əks olunub. Tək bircə gün əvvəl ümidlə, həyatla dolu Təbriz küçələri cənazə ilə doludur. Şəhərin üstündə, evlərin tavanında, insanların təfəkküründə ümidsizlik pərdəsi çəkilmiş, hər tərəf qan içindədir. Xalqın azadlığı uğrunda vuruşanların evində matəmdir. Bunları öz gözləri ilə görən M.İbrahimov namərd düşmənə nifrətlə müraciət edir ki, cavan fədailərə qıydınız, bəs ağ saçlı qocaların günahı nədir? Bu iztirabdan qurtarmaq üçün qaçıb uzaqlara getmək kimi hisslər keçirən yazıçı bunu qəhrəmanının həyatına yansıdır, ancaq bu labirintdən çıxmağın mümkünsüzlüyü qəhrəmanı şəhərin küçələrində, meyidlərin arasında fırlanmağa məcbur edir. Hər tərəf fədai və tanış olan sadə insanların nəşi ilə doludur. Əsərin qəhrəmanı qaçmır, yazıçının dediyi kimi ölümdən də qüdrətli hisslər keçirir, həm Vətənin, həm qanına qəltan olunmuş fədailərin, həm də digər həmvətənlərinin intiqamı onu gücləndirir. Bu obrazın elə adı da Qəhrəmandır. Meyidlərin arasında dostu Rəhimi ölümcül halda tapır, kömək etməyə macal tapmamış dostu can verir. Nəfəsini verməmiş fədailərin yerini düşmənə satanın Əmir Cahani olduğunu söyləyir. Tehranın işğalçı ordularının qabağına düşərək inqilabçıların yerini göstərən və saysız fədainin ölümünə səbəb olmuş bu satqının cəzasını verə bilmək və onların intiqamını almaq Qəhrəmanın məqsədinə çevrilir. Onun gördüklərindən ürəyi daşa dönüb, gözlərinin yaşı quruyub. Son dərəcə təkəbbürlü və məğrur olan Qəhrəman Əmir Cahaninin uyğunsuz bir evdə olmasına baxmayaraq, onu öldürmək üçün həmin evə gedir və həyatı öz zövqləri üçün yaşayan, uşaqlıq qonşusu xanım Süsəni də onun qansız biri olmasına inandırır, Əmir Cahanini və dostu Səfaini elə oradaca öldürüb basdırır. İntiqamı tezləşdirən sərxoş Səfainin «Azərbaycan bizimdir. Ayaqlarım altında titrəyən Azərbaycandır» cümləsi oldu. Xanım Süsən və Qəhrəman oradan getdilər, torpaq 2 qanlı düşmənin cənazəsini əritdi. Bu intiqam çox ağır iztiraba son qoymuşdu, intiqamın izləri də itdi. Bu məqamda bir el məsəli yada düşür: «Gücsüzün haqqı güclüdə qalmaz». Əmir Cahani özü-özünü Azərbaycanı satmaq üçün vəkil seçibmi? Bu haqqı ona kim verib? O qədər heysiyyatsızdır ki, hələ «Mənim günahım nədir?» sualını verir. Yazıçı başdan-ayağa günah içində olan bu şəxsi Vətənin irz-namusuna ləkə gətirən biri kimi qiymətləndirir.

Müharibənin, azadlıq mübarizələrinin özünəməxsus yazılmamış qanunları var. Bir-birini əvəz edən ağır döyüşlər, fasiləli atışmalar ara-sıra yerini tonqal başında toplanan azadixahların şirin söhbətlərinə, həsrətli xatirələrinə verir. Tonqal ətrafına halqa vurmaq bizim Azərbaycanın qədim adətlərindəndir. M.İbrahimov 1957-ci ildə yazdığı «Tonqal başında» adlı hekayəsində dekabrın şaxtalı bir gecəsində Marağa fədailərinin tonqal başında toplanıb zülmət qaranlıqda qızaran közlərə ba-

xa-baxa hekayət dinləmələrini qələmə almışdır. Döyüşün ağırlığı, zülmət qaranlıq, təhlükədən qidalanan sükunət belə hekayə, əhvalat dinləmək istəyini yenə bilməmişdi. Həyatın keşməkeşlərini görmüş Kərim dayı tərəfindən bu əhvalatların söylənilməsi yazıçı peşəkarlığından irəli gəlir. Əvvəla, cavanlar dünyagörmüş, bütün «siması sonsuz bir mərhəmət ifadə edən», «ağıl mücəssəməsi» birinin başına toplanır, ikincisi bu qocanın özü də cavanlığından fədai kimi xalqın azadlığı uğrunda vuruşub, hələ də vuruşur. İbrətamiz əhvalatlar ancaq bu cür insanlarda olur. Kərim dayının fədailərə söylədiyi əhvalatlarda bir neçə məsələ diqqətə çatdırılır. Odlar ölkəsinin fədailərinin tonqal, od ətrafına toplanması rəmzi bir təsvirdir. Birinci əhvalatda düşmənin oda sitayiş edən bir tayfanın etiqadını öldürməyi qərara alması, yəni onun odunu oğurlaması, söndürməsi məsələsi öz əksini tapır. Məlum olur ki, öz zəhmətilə dolanan, çox gözəl yaşayışı olan, ancaq gecədən, qaranlıqdan xoşu gəlməyən bir el varmış. Bunlar od və işıq xoşlayırmış. Dağ kimi birləşən, vətən uğrunda ölməyi müqəddəs hesab edən, qəhrəman kimi tanınan bu elə gücü çatmayan düşmən hiyləylə onun odunu oğurlayır. Qaranlıqda qalan elin üstünə dərd və bəla gəlir, düşmən onları özünə tabe edir. Elcan adlı qeyrətli igidin elin dar günündə dadına çatması, onlara odunu qaytarması, etiqadı qayıdan xalqın əsarət zəncirini qırması məsələsi əhvalatda geniş şəkildə təsvir olunur. Düşmən nə qədər məcbur edirsə, xalq odu gətirəni təhvil vermir. Yazıçı elin qucağını əbədiyyətin beşiyi adlandırır. O, əhvalatda «elin ürəyinə sığınanlar ölməzlər» ideyasını irəli sürür. Ocaqlarımızın sönməsinə imkan verməyən çox qəhrəman oğularımız olub. Tayqulaq alparslar tərəfindən məhv edilən, ancaq ruhları hələ də işıqsız evlərin pəncərələrində şölələnən azadlıq mücahidləri bizim üçün müqəddəsdir. Həyatı əfsanələrlə dolu bir elin əhvalatları dinləyənləri mütəəssir edir. Ancaq bu əhvalatlar bir deyil, beş deyil. Zaman-zaman xalqımızın başı çox bəlalar çəkib.

Yazıçı tonqal başında xəyala dalan fədailəri Kərim dayının söylədiyi əhvalatlarla xəyala daldırır, ruhlarını oxşadır, müharibənin qan-qadasını az da olsa, unutdurmağa çalışır. Hətta xalq arasında əcinnə, cin adı ilə tanınan, gözəgörünməyən min bir məxluqdan da söhbət açan Kərim dayı xalqın əfsanə, mif yaddaşına toxunur, şər vaxtı çölə atılan isti su ilə əcinnə balalarının öldüyünü fədailərə başa salırdı. Daha sonra «alın yazısı» məsələsinə toxunan Kərim dayı bir daha bizə «Heç kəs taleyin hökmündən çıxa bilməz» el məsəlini xatırlatdı. Yazıçı bu məsələni hekayəsində mövzu kimi verəndə «doğrudanmı taleyin hökmü ilə razılaşır» fikri bizi rahat buraxmır. Cavabı hekayədə açıq şəkildə verilib: «Fələyin çarxını saxlamaq mümkün deyil. Sən nə eləyirsən elə, o dolanır, dolandıqca da bəxtimizə yazılanlar qabağımıza çıxır». Sonra Kərim dayının bəxtinə çıxan imkanlı qızı, ancaq bu imkandan imtina edən Minirənin gözəlliyindən, qeyrətindən, fədai hünərindən söhbət açılır. Az müddətdə torpaq altına gedən yüzlərlə belə gözəlliklər yazıçını təəssüfləndirir. Yazıçı həyatla ölüm arasında müxtəlif zaman aralıqlarında mövcud olan bu gözəlliklərin vaxtından qabaq düşmən tərəfindən məhv edilməsinə etirazını bildirir. Ancaq əlindən bir şey gəlmir. Bu, insan faciə və sevinclərinin əbədi hərəkətidir.

M.İbrahimov həyatın hansı tərəfindən yazırsa yazsın, o, heç vaxt fədailəri unutmur. Məhbəslərə azadlıq, aclara çörək ümidi gətirən inqilabçıların mübarizəsini yaddan çıxartmır, 1945-ci il 21 azəri (12 dekabr) heç kəs onun yaddaşından silə bilməz. O günün xatirələri çox sayda sadə vətəndaşın, xüsusən cənublu şair və yazıçı-

ların yaddaşında vətənimizin üfüqlərində azadlıq günəşinin doğduğu gün kimi qalıb. Xoşbəxt 21 Azəri görənlər o günü qəlblərinə təsəlli və qüvvət verən bir səbəb kimi xatırlayır. Görkəmli yazıçımız M.İbrahimov həmin günü «On iki dekabr» adlı hekayəsində (1946) bədiiyyatın gücü ilə özü üçün əbədiləşdirdi. 1945-ci ilin çərşənbə gününü heç bir zaman unutmayan, onu bir xalqın, bir torpağın azadlıq müjdəsi adlandıran yazıçı hekayədə demokratik partiyanın başçısı Pişəvərinin rəhbərliyi ilə milli hökumətin yaradılması məsələsini geniş şəkildə təsvir etmişdir. Hekayənin qəhrəmanları bu partiyanın üzvləridir. Mərkəzi Komitənin tapşırıqlarını Təbrizə toplaşan fədailərə çatdırır, mürtəcelərin yox yerdən qan tökməməsi üçün hərtərəfli tədbirlər görməyə çalışır, fədailəri soyuqqanlı, dözümlü və intizamlı olmağa dəvət edirlər. Hekayədə ümid, sevgi, qorxu, əbədi əsarətə nifrət kimi hisslər yazıçı qələmi ilə arzu və xəyalların həqiqətə çevrilməsinə yönəlik şəkildə təsvir olunur. Hekayənin qəhrəmanları Mahmud, Məlusə, Məlusənin sevgilisi, digərləri pozulmaz təşkilatı olan bir xalqın qabaqcıl nümayəndələridir. Məlusə güclü xarakterə malik bir fədaidir. O sevir, ancaq özünəməxsus mühakimələri və düşüncələri var. Hissiyyata inanmır, niyə sevildiyini və niyə sevdiyini bilmədən heç kəsə ürək vermir. Səadəti ailə çərçivəsində axtarmır. Onu əbədi əmək və fəaliyyətdə görür, elə bir fəaliyyətdə ki, şərəf gətirsin.

Tarix Azərbaycan xalqını çox ağır imtahanlara çəkib. Əgər əcnəbi dövlətlərin əli o zaman İrana uzanmasaydı, Azərbaycan əbədi azadlığına qovuşacaqdı. İmperializmin heybətli əli Şərqə uzananda fəlakət gətirib. Hekayə ümidlə, arzuyla doludur. Millətimiz aciz deyil, düşmənlərimiz çox və güclüdür. Yazıçının munis arzuları çoxdur. Zaman gələcəkdir, onun Azadının, Kərim dayısının, Məlusəsinin və başqa güclü obrazlarının arzuları həyata keçəcək, onda M.İbrahimov ruhu da Təbriz üzərində bir-bir fədailərin qəbrini ziyarət edəcək və deyəcək: «Bizim vahid vətənimiz - Azərbaycanımız var».

M.İbrahimov partiyasından, sistemindən asılı olmayaraq xalqının yazıçısıdır. Onun «Salam sənə Rusiya» hekayəsində əməkçi kütlənin Sovet rejiminə dərin hüsnrəğbətindən danışılır. Bu, ondan irəli gəlir ki, həmin sistem fəhlə və kəndlinin mənafeyini müdafiə edirdi. Sayca çox olan bu təbəqə xalqın əksər hissəsini təşkil edirdi. M.İbrahimov üçün müəyyən bir qanunsuz hadisədə partiya, sistem günahkar deyil, onun bəzi, bəzən də çoxluq təşkil edən nümayəndələrinin nankorluğu, namərdliyi, savadsızlığı ucbatından xalqın nümayəndələri ziyan çəkir, sistem dəyişir.

M.İbrahimov «Cənub hekayələri» silsiləsində Cənubi Azərbaycan xalqının istək və arzularını, ümidini və gələcəyə inamını poetikləşdirmiş, azadlıq ideyasının ölməzliyini diqqətə çatdırmışdır.

Ədəbiyyat

1. Səhənd. Seçilmiş əsərləri. Bakı, 2006.
2. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. III cild. Bakı, 1988.
3. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. IV cild.Bakı, 1994.
4. Banarlı N.S. Resimli türk edebiyatı tarihi. İstanbul, 1998.
5. Tərbiyət M. Danişməndani – Azərbaycan. Bakı, 1987.
6. Məmmədzadə H. Təbriz xatirələri. Bakı, 1978.

Сакиба Алескерова

Олитическая борьба за мечты азада в «Южные сочинение» Мирзы Ибрагимова

Резюме

Великий мыслитель Мирза Ибрагимов в своём «Южным сочинении» отражал мечты, любви и нравы, веры будущему Южно Азербайджанского народа. Мирза Ибрагимов уточнил свое место в будушем нашей литературы и общество. Статья имеет применительное значение на научных семинарах филологических факультетов высших школ, посвящённых вопросам спецкурсов и спецсеминаров.

Sakiba Alasgarova

Literary and artistic and publicly political fight for the dreams azad the "Southern composition" Mirza Ibrahimov's

Summary

The great thinker of Mirza Ibrahimov in his "southern composition" reflected dreams, loves and dispositions, faith to the future of southern Azerbaijan people. Mirza Ibragimov specified its place in modern of our literature and society.

Article has applicable value at the scientific seminars of the philological departments of the higher schools, dedicated to questions of special courses and special seminars.

Rəyçi: Sabir Əmirov
filologiya elmləri doktoru

TƏRANƏ RƏHİMLİ
filologiya üzrə fəlsəfə doktoru, dosent
UOT: 821 (479. 24)
t_raqimli@mail.ru

«DƏLİ KÜR» ROMANI ÇAĞDAŞ LİNQVİSTİK TƏNQİD MÜSTƏVİSİNDƏ

Açar sözlər: *çağdaş ədəbiyyat, milli çağdaş nəsr, bədii dil, Azərbaycan ədəbi tənqidi.*

Ключевые слова: *Современная литература, национальная современная проза, художественный язык, Азербайджанская литературная критика.*

Key words: *Contemporary literature, national contemporary prose, artistic language, Azerbaijan literary criticism.*

İsmayıl Şıxlının «Dəli Kür» romanı 60-cı illər Azərbaycan nəsrinin ilk möhtəşəm bədii nailiyyətidir. Tarixi keçmişin bədii əksinə yeni, çağdaş mövqedən yanaşan İ.Şıxlı milli nəsrimizin epik təcrübəsindən yaradıcı şəkildə bəhrələnərək tamamilə təzə problematikası, ideya-bədii mündəricəsi, sənətkarlıq məziyyətləri ilə seçilən «Dəli Kür»ü ərsəyə gətirmişdir. Sosrealizmin mövzu standartlarını qıran, soy-kökə, milli-tarixi varlığa möhkəm tellərlə bağlılığı əks etdirən bu əsər tarixiliklə müasirliyin dialektik əlaqə və vəhdətinin ən mükəmməl bədii təzahürü kimi meydana çıxmışdır. Birinci hissəsi 1962-ci ildə çap olunau «Dəli Kür» 1967-ci ildə tamamlanmışdır. Əsər ilk hissəsinin «Azərbaycan» jurnalında işıq üzü gördüyü vaxtdan bu günədək tənqid və ədəbiyyatşünaslığın diqqət mərkəzində olmuş, ədəbiyyatımızın ən mühüm nailiyyətlərindən biri kimi qiymətləndirilmişdir.

Roman haqqında ilk məqalənin müəllifi Əhəd Hüseynovdan sonra M.Hüseyn, B.Nəbiyev, Y.Qarayev, Q.Xəlilov, S.Əsədullayev, Y.Seyidov, X.Əlimirzəyev, A.Hüseynov, G.Əlibəyova, M.İbrahimov, Y.Axundlu, M.Əliyev, H.Qasımov, T.Hüseynoğlu, N.Cəfərov, İ.Mustafayev, T.Salamoğlu və b. tənqidçi və ədəbiyyatşünaslar müxtəlif vaxtlarda yazılmış tədqiqatlarında «Dəli Kür»ə elmi-nəzəri münasibət bildirmişlər. Bu tədqiqatlarda əsərin bədii məziyyətlərinin fərqli rakurslardan dəyərləndirilməsinə baxmayaraq onların hamısında İ.Şıxlının «Dəli Kür»lə özünün sənətkar kamilliyini təsdiqlədiyi, əsərin milli nəsrimizin qüdrətli bir nümunəsi kimi diqqəti cəlb etdiyi xüsusi vurğulanırdı. «Dəli Kür»də yazıçının xarakter yaratmaq məharəti, psixoloji səhnələrin zənginliyi, bədii təsvirin, təhkiyənin səmimiliyi, üslub aydınlığı və yığcamlığı, bədii dil mükəmməlliyi İ.Şıxlı istedadının ən qüvvətli cəhətləri kimi göstərilirdi.

Tənqid müəyyən bir tarixi dövrdə «cəmiyyətin psixologiyasını, ictimai ziddiyyətləri, inkişaf meyllərini düzgün əks etdirdiyi» üçün (M.İbrahimov), «zəhmətkeşlərin mübarizəsini yox, onları mübarizəyə gətirib çıxarmış səbəbləri» açıb göstərdiyinə görə (Y.Seyidov), əsərdə «yeniliyin qarşısıalınmazlığına dərin inam» ifadə olunduğundan (Y.Axundlu), «əqidə və inamın möhkəmliyindən doğulan» xarakterlər romanı kimi diqqəti cəlb etdiyindən (İ.Mustafayev), «keçmişimizlə gələcəyimiz arasındakı sənət kör-

püsü» kimi əbədiyaşarlıq qazandığından (M.Əliyev) «Dəli Kür»ü yüksək sənət örnəyi hesab edirdi.

Lakin dövrün ədəbi yeniliyi dəyərləndirmə meyarları əsərin mürəkkəb poetikasını açmağa, ideya-məzmun mündəricəsinin, sənətkarlıq xüsusiyyətlərinin mükəmməl izahına imkan vermirdi. Yaşar Qarayevin yazdığı kimi, bu illərdə «Dəli Kür» kimi nəsr əsərini dərindən açan, «Dəli Kür»ü tənqiddə yenidən yaradan, onun həmhüquq «tənqid obrazı» olan məqaləmiz» hələ yazılmamışdı (1,s.115.). Ədəbiyyatşünaslıq və tənqidin əsərə daha obyektiv qiymət verdiyi, onu ən yüksək estetik meyarlarla dəyərləndirdiyi 90-cı illərdə «Dəli Kür» «50-ci illərin sonlarından 60-cı illərin ortalarına, təxminən 10 ilə qədər «guşənişinlik»dən sonra ədəbiyyatımızın S.Vurğundan sonrakı şah əsəri» (2,s.170) hesab olunurdu.

Ümumiyyətlə, 1960-1970-ci illər tənqidində haqqında ən çox məqalə, resenziya yazılan, bədii nəsr haqqında fundamental tədqiqatlarda yer alan əsər «Dəli Kür» olmuşdur. Əsəri təhlil edən tədqiqatçılar onun millilik aspekti, bədii qəhrəman konsepsiyası ilə yanaşı, üslub özünəməxsusluğuna, dil zənginliyinə də xüsusi diqqət yetirmişlər. Tənqid mühaşidələrində İ.Şıxlı üslubunun müasirliyi ilə seçildiyini, «epik sakitliyi, təmkini ilə» diqqəti cəlb etdiyini, «təsvirçilik, yersiz təfərrüat, patetika, ritorika və şüarçılığ»ın bu üslubun ümumi ruhuna yad olduğunu aşkara çıxarırdı. Qulu Xəlilov İ.Şıxlının romanda hər bir sözü yerində işlətdiyini, onların məna çalarlarını zənginləşdirdiyini göstərərək yazırdı: «Müəllifin üslubu, dili, mübaliğəli desək, Kür kimi maneəsiz, sakit, həzin axır və bu «axın» xalqın mütərəqqi, işıqlı cəhətlərini, adət-ənənəsini, azadlıq və humanist görüşlərini özü ilə bərabər müasir günlərimizə gətirib çıxarır… Yazıçı bütün gücü ilə çalışır ki, əsərinin səhifələrini, əriş-arğacını xalq sözləri, ifadələri ilə ilmələyib hörsün, insə zövqlü xalçaçı kimi kirgitləsin, həvələsin, lazımsız təfərrüatları – qırıntıları isə iti qayçı ilə kəssin və tam, bitkin, gözəl lövhə – xalı yaratsın.» (3, s.325-326)

Müxtəlif ədəbiyyatşünaslıq araşdırmalarında və tənqidi məqalələrdə «Dəli Kür»ün dil xüsusiyyətlərinə diqqət yetirilsə də bu problem ayrılıqda, sistemli şəkildə monoqrafik tədqiqat mövzusu olmamışdır. Professor Əzizxan Tanrıverdinin «Dəli Kür» romanının poetik dili» monoqrafiyası əsərin linqvistik tənqidinin ilk fundamental tədqiq örnəyi kimi meydana çıxmışdır.

Ə.Tanrıverdi tədqiqatının ilk bölməsində «Dəli Kür»ü daha geniş ədəbi sferada – rus və Avropa ədəbiyyatı müstəvisində dəyərləndirir. Tədqiqatçı burada İ.Şıxlının «Dəli Kür»ü dünya romanının ədəbi təcrübəsindən, ən yaxşı ənənələrindən bəhrələnərək yazdığını isbat edən ədəbiyyatşünaslıq qənaətlərinə əsaslanır. Y.Surovtsevin İ.Şıxlını Şoloxov ənənələrinin varisi hesab etməsi arqumenti ilə razılaşsa da, eyni zamanda məsələyə fərqli elmi baxış bucağından yanaşaraq əsərin, hər şeydən əvvəl, epos təfəkkürünə söykəndiyini vurğulayır. Müəllif romanda cümlə modellərinin yaratdığı ahəngdarlığı, epik intonasiyanı birbaşa «Dədə Qorqud kitabı» ilə bağlı izah edir. Ə.Tanrıverdiyə görə «Dəli Kür»ün epik intonasiyası Şoloxovun «Sakit Don»u ilə nə qədər yaxından səsləşsə də, əsər «Dədə Qorqud kitabı» ilə həm epik intonasiya, həm də oxşar hadisələrin təsviri xəttində birləşir.

«Dəli Kür»ə «xalq ruhunun daşıyıcısı» kimi dəyər verən Ə.Tanrıverdi bu ruhun əsərin poetik strukturuna hopduğunu müşahidə edir, folklor janrlarının romanda təzahür özünəməxsusluqlarını diqqətlə araşdırır. Romanda bilavasitə istifadə olunan

atalar sözləri, bayatılar, eydirmələr, nəğmələr, xalq mahnıları və əfsanələr, «Koroğlu» dastanı ilə yanaşı, yalnız bədii mətn kontekstində müəyyənləşən «Dədə Qorqud kitabı»na istinad da tədqiqatçının diqqətindən yayınmır. Atalar sözləri və bayatıların, nəğmələrin, eydirmələrin surətlərin dilinə, ruhi-mənəvi vəziyyətlərinə uyğunluğu, semantik cəhətdən əsərdəki hadisələrlə bağlılığı «Dəli Kür»ün bədii dilinin ahəngdarlığını, poetikliyini təmin edən başlıca məziyyətlər kimi vurğulanır.

«Dədə Qorqud kitabı»nın milli və bəşəri azadlıq ideyalarının «Dəli Kür» üçün də səciyyəviliyi, Bayandır xan, Qazan xan obrazlarının Cahandar ağa ilə qarşılaşdırılması, bu xarakterləri bir nöqtədə birləşdirən keyfiyyətlərin aşkara çıxarılması, hər iki əsər üçün xarakterik olan səhnələrə diqqət yetirilməsi eposda və romanda At, Su Kultlarının müqayisəsi «Kitab»la «Dəli Kür» arasındakı oxşarlıqlar haqqında aydın elmi-nəzəri təsəvvür yaradır.

Ə.Tanrıverdi romanın «Koroğlu» dastanı ilə müştərək cəhətlərini də ayrıca bir bölmədə təhlil mərkəzinə çəkmişdir. Müəllif «Koroğlu»nu «Dəli Kür»lə bağlayan qırılmaz telləri araşdırıb üzə çıxarır, hər iki əsər arasındakı struktur-semantik əlaqə bənzərliyinə, təhkiyə oxşarlığına, Koroğlunu və Cahandar ağanı bir nöqtədə birləşdirən xarakter keyfiyyətlərinə, eləcə də hər iki əsərdə təkrarlanan şəxs adlarına diqqət yetirir. Ə.Tanrıverdi dastanın və romanın poetik strukturunda aşıq şeirinin xüsusi yer tutduğunu aşkarlayaraq belə qənaətə gəlir ki, «Qurbanidən, «Koroğlu» dastanından verilmiş aşıq şeirləri, eyni zamanda bayatı, mahnı, eydirmə kimi şifahi ədəbiyyat nümunələri də «Dəli Kür»ün poetik strukturunda xüsusi çəkiyə malikdir. Hətta bu nümunələrin hər birinin assosiativliyi ilə yaradılmış zəncirvari bağlılıq «Dəli Kür»ü dastan kimi səciyyələndirməyə imkan verir.» (4, s.53)

«Azərbaycan yazılı ədəbiyyatı və «Dəli Kür» bölməsində isə tədqiqatçı romanda İ.Həsənoğlunun məlum iki qəzəlinin izlərini, M.P.Vaqifin «Pəri» qoşmasının təsirini görür, M.F.Axundov, N.Nərimanov, C.Məmmədquluzadə, N.Vəzirov, Y.V.Çəmənzəminli, S.Vurğun yaradıcılıqları ilə səsləşən məqamları aydınlaşdırır. Bu təhlillərdə Azərbaycan yazılı ədəbiyyatı nümunələri ilə «Dəli Kür»ü birləşdirən milli-mənəvi, psixoloji, genetik-qnesoloji təfəkkür amili də nəzərdən qaçırılmır.

Monoqrafiyada «Dəli Kür»də tarixi sənədlərə istinad məqamları da tədqiq-təhlil predmetinə çevrilir, dövlət sənədləri və rəsmi məktublar romanın poetik strukturunda tarixi həqiqətləri, cəmiyyət problemlərini reallıqla əks etdirən ən mühüm vasitələr kimi dəyərləndirilir.

«Müəllif və obrazların dili» fəsli «hər bir obrazı öz dilində danışdırmağı bacaran», «sözdən möhtəşəm bir dil abidəsi yaradan» İ.Şıxlının xüsusi ustalıqla ana dilimizin incəliklərinə varmasından, dil vahidlərinə yüksək sənətkarlıqla yanaşmasından bəhs edir. Burada təhkiyəçi dilinin sərrastlığı, mükəmməlliyi əsərin bədii-estetik məzmununun kamilliyini təmin edən kokret dil faktorları ilə izah edilir.

70-ci illər tənqidi əsərin dili haqqında yazırdı: «Yazıçı surəti bədii sözün qüdrəti ilə elə canlandırır ki, xarakteri gün kimi aydın olur.» (3, s.324). Ə.Tanrıverdinin əsərdəki obrazların dili haqqında fikirləri bu qənaəti daha da möhkəmləndirir. Tədqiqatçı romanda Cahandar ağa, Şamxal, Əşrəf, Molla Sadıq, Allahyar, Əhməd, Qoca kişi, Çərkəz, Tapdıq, Çernyayevski və başqa kişi obrazlarının, Zərnigar xanım, Şahnigar, Salatın, Mələk, Güləsər, Pakizə və digər qadın surətlərinin dilində poetikliyi qüvvətləndirən vasitələrə diqqəti çəkir. Ə.Tanrıverdinin elmi təhlilləri «Dəli Kür»də hər bir obrazın dil faktoru ilə müəyyənləşən xarakter və

psixologiyasını, şəxsi keyfiyyətlərini dolğun surətdə təqdim edir. Obrazların dilindəki nitq detallarının onları fərdiləşdirməyə, fərqləndirməyə xidmət etdiyini göstərən tədqiqatçı bu cür detalların milli ədəbiyyatı zənginləşdirməklə yanaşı, İ.Şıxlının yazıçı kimi əbədiyaşarlıq statusunu qüvvətləndirdiyini də vurğulayır.

Ə.Tanrıverdinin tədqiqatında «Dəli Kür»ün şeiriyyətindən ilk dəfə bəhs edən fəsil də ciddi elmi maraq doğurur. Müəllif romanda şeir dilinin ecazkarlığını, ahəngdarlığını təmin edən cəhətləri araşdırır, İ.Şıxlı nəsrinin şeiriyyətini şifahi xalq ədəbiyyatından bəhrələnmə, yazıçının doğulub boya-başa çatdığı mühit və şeir yaradıcılığı amilləri ilə əlaqələndirir ki, bu da tamamilə məntiqi səslənir.

Ə.Tanrıverdi iyirmi kitabın, iki yüzədək məqalənin müəllifidir. Bu tədqiqatların hər birinin zəminində isə ana dilinə təəssübkeş alim-vətəndaş münasibəti, dil amilini ədəbiyyatın, mədəniyyətin, ümumilikdə xalqın, millətin mövcudluğunun, varlığının «təməl daşı» kimi təqdim etmək məntiqi dayanır. «Dəli Kür»ün poetik dili» monoqrafiyası da bu məntiqdən yaranan, ustadına şagird ehtiramını bəyan edən dilçi-alimin İsmayıl Şıxlı əzəmətinə yaraşan tədqiqat əsəri kimi dərin rəğbət hissi doğurur.

Ədəbiyyat:

1. Qarayev Y. Tənqid: problemlər, portretlər. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı. 1976,
2. Cəfərov N. Klassiklərdən müasirlərə. Bakı, Çaşıoğlu, 2004,
3. Xəlilov Q. Azərbaysan romanının inkişaf tarixindən. Bakı, Elm, 1973
4. Tanrıverdi Ə. «Dəli Kür»ün poetik dili. Bakı, Elm və təhsil, 2012
5. Yusifli V. Nəsr: konfliktlər, xarakterlər, Bakı: Yazıçı, 1986.
6. .Hüseynov A. Nəsr və zaman. Bakı, Yazıçı, 1980.
7. .Hüseynov Ə. Tənqid və ədəbi proses. Bakı, Nurlan, 2009.)
8. (Hüseyn M. Ədəbiyyat və həyat. Bakı, Yazıçı, 1989.
9. Hüseynoğlu T. Söz – tarixin yuvası. Bakı, «NEŞ», 2000.
10. Əliyev M. Sənətkar ömrü və sənət ömrü. «Azərbaycan jurn., 1979, № 4.
11. Salamoğlu T. Tarixi və çağdaş ədəbi prosesə dair araşdırmalar. Bakı, «E.L.» Nəşriyyat və Poliqrafiya şirkəti MMC, 2009.

Тарана Рагимли

Роман «Буйная Кура» в современной лингвистической критике

Резюме

В статье повествуется об основных вопросах развития «новой азербайджанской прозы» в национальной литературной критики, определено лингвистическое-критическое отношение к «Буйная Кура» относительно текучего национально-литературного процесса 1960-1970-х годов. В центре исследования находятся проблематика романа И.Шихлы, своеобразная манера и богатый художетвенный язык писателья, отличительный художественный подход к вопросам социоально общественной жизни Азербайджана в X1X

веке. Роман И.Шихлы оценена в контексте основных направлений развития критики и важных творческих склонностей того периода.

Tarana Rahimli

The novel “Violent Kur” in the contemporary linguistic criticism

Summary

In the article is narrated about basic questions of the development “new Azerbaijan prose” in national literary criticism, is determined linguistic- critical relation “violent hen” relative to the fluid national literary process 1960-1970- s of years. In the center of a study are located the problems of the novel of I.Shikhly, unique manner and rich artistic language of poetry, distinctive artistic approach to questions sosiality of the public life of Azerbaijan in no-load condition century. The novel of I.Shikhly, it is evaluated in the context of basic trends in development of criticism and important creative tendencies of that period.

Article has applicable value at the scientific seminars of the philological departments of the higher schools, dedicated to questions of special courses and special seminars.

Rəyçi: Təyyar Cavadov
filologiya elmləri doktoru, professor

VƏFA BAĞIROVA
Azərbaycan Dillər Universiteti
vafasuleyman@yahoo.com

XARİCİ OXU ÖYRƏDİLMƏSİNİN PSIXOLOJİ ƏSASLARI

Açar sözlər: xarici oxu, oxunun psixoloji əsaları, fəaliyyət növü
Ключевые слова: чтение на иностранном языке, психологические основы чтения, виды деятельности.
Key words: foreign reading, bases of psychological reading, kind of activities

Oxu praktiki əhəmiyyət daşıyır. Tələbə gələcək həyatında xarici dildə şifahi nitqdən ola bilər ki, az istifadə etsin. Xarici dildə oxumaq isə daim mümkündür. Buna görə da xarici dili öyrənədən tələb edir ki, öyrənci xarici dildə olan qəzet məqalələrinin çox da çətin olmayan xarici dildə olan kitab, texniki da vurqulamaq lazımdır ki, dil fakültəsində oxunu tədris edərkən burada kifayat qədər yüksək səviyyədə təşkil edilmişdir. Bu da gələcəyin müəllimlərini nitq bacarıqlarına, cümlədən də oxu bacarıqlarına verilən tələblərin ciddi olduğundan irəli gəlir(1).

Şifahi nitq müqayisədə oxu kommunikasiya üçün daha geniş imkanlar təşkil edir. Bu əsasən özünü professional fəaliyyət zamanı göstərir. Halhazırda dünyada 100 mindən çox elmi jurnallar çap olunur və onların çox az bir hissəsi tərcümə olunur. Mütəxsəsis nəşr edilmiş materiallar vasitəsilə öz peşə sahəsinin beynəlxalq standartlar ilə tanış ola və müəyyən vəziyyətə bəhrələnə bilər.

Oxunun praktiki əhəmiyyəti gələcək mütəxəssisin peşəkar maraqları sahəsində də özünü göstərir. Onlar kitab və lüğətlər vasitəsilə aktual informasiyaları əldə edirlər. Bundan başqa oxu vasitəsilə öyrəncilər xarici dil biliklərini mükəmməlləşdirir, tez-tez rast gələn sintaktik birləşmələri mənimsəyir, tələbələr üçün əsas maraqlı olan dil ştamplarını, simvollarını və məcazi mənalar öyrənirlər. Bunlar da öz növbəsində gələcəkdə onlara hər hansı informasiyanın mənimsənilməsində yardımçı olur.

Oxunun praktiki əhəmiyyəti həmçinin özünü onda göstərir ki, xüsusi ədəbiyyat üzərində iş sifahi nitq bacarıqlarının yaradılmasına və möhkəmlənməsinə imkan yaradır. (2) Onu da demək lazımdır ki, oxu vərdişlərinin tələbələrə aşılanması bütövltükdə dilin tədrisi prosesindən təcrid edilməsi şəkildə həyata keçirilməməlidir. Tələbələrdə komunikativ vərdişləri inkisaf etdirmək məqsədilə oxu vərdişlərinin aşılanması dilin kommunakativ məqsədlərlə tədris edilməsinin ayrılması və olduqca vacib olan tərkib hissəsi olaraq həmin proses inteqrasiya edilməlidir. Oxunun məhz bu istiqəmətdə yönəldilməsi daha səmərəli nəticələrin əldə edilməsinə imkan verir.

Bəzi ölkələrdə tələbələr xarici dili öyrənsələr də heç vaxt dil daşıyıcılar ilə münasibətdə olmurlar. Lakin bu onlara öyrəndikləri dildə ədəbiyyat və jurnallar və yaxud elmi və texniki jurnallar oxumağa şərait yaradır. Çoxlarına bu dil gələcək

təhsillərində və yaxud işlərində yardımcı olur; başqaları isə boş vaxtlarında dünya haqqında daha çox məlumatlı olmaq üçün xarici dildə oxumaqdan zövq alırlar.(4)

İnsanın həyatında və iş sferasında oxu böyük rol oynayır. Oxu insanları biliklərlə zənginləşdirir, ətraf-aləmi daha dərindən öyrənməyə yardımc olur, onun hisslərini və istəklərini tərbiyə edir, estetik mənbə kimi xidmət edir və insanın şəxsiyyətini formallaşdırır. Hər bir iş adamı üçün oxunun əhəmiyyəti danılmazdır, çünki məlumata əsasən nəşr olunmuş materiallardan alınır. Xarici dildə oxu hər hansı bir məlumatı əldə etmə zamanını qisaldır. Təsadufi deyildir ki, xarici dili öyrənməyin əsas məqsədlərindən biri – gələcəkdə xarici dildən praktiki istifadə imkanını təmin etmək üçün oxu prosesində kitabdan lazım olan məlumatın əldə edilməsi bacarığını yaratmaqdır. Hər hansı bir iş sahəsindəçalışan peşəкar öz iş sferasına aid olan ədəbiyyatı nəzərdən keçirməyi, onu maraqlandıran suallan cavab tapmağı bacarmalı, hər hansı bir texniki əşyanı işlənmə təlimatını oxumağı, publisistik və ya məhşur elmi ədəbiyyatı oxumağı bacarmalıdır.

Çətin mətnlərin bütövlüklə və dəqiq başa düşülməsi üçün oxu bacanğının öyrənilməsi praktiki vacibliyi ilə izah olunur: oxucu elmi və siyasi ədəbiyyatı oxuyub başa düşməlidir. Çünki bu onun gələcək iş həyatında gələcək dil məşğələlərində və şəxsi məqsədləri üçün əhəmiyyətlidir.

Oxunun bu forması ikidilli lüğətlər vasitsilə hər hansı məlumat mənimsəmək üçün yaranan çətinlikləri sərbəst aradan qaldırmağa көмәк edir.

Çətin mətnlərin dəqiq başa düşülməsi aydın olmayan hissələrin təhlilini xarici dildə müvafiq vərdişlərin formalaşdırılmasına qarşılıqlı təsirinə gəldikdə, bu təsiri nəzərə almamaq olmaz. Bu əsasən özünü oxucularını mətnlərə məna anlamı cəhətdən yaxınlaşmaları sözlərin və cümlələrin formal qrammatik əlamətlərinə formallaşdırmaq oxu vərdişlərinin lazımi diqqətdən yetirilməməsi və bunun nəticəsində burada dillərarası interferensiya xarakterli səhvlərin törədilməsi ilə nəticələnir.

Gündəlik həyatımızda oxuduqlarımızın bizim üçün maraqlı və əhəmiyyətli olması baxımından onları iki kateqoriyaya ayıra bilirik. Çox vaxt bizi nəyisə maraqlandırdığı üçün oxuyuruq və yaxud elə düşünürük ki, o bizim üçün maraqlı olacaq. Insanlar kitab alan zaman onları daha çox maraqlandıracağı kitablar seçməyə insanlar hər hansı bir mətni onlara əhəmiyyətli olduğu üçün oxuyurlar. Məsələn: yeni bir texniki əşya aldıqda onun təlimatlarını həmin aşyanı çalışdırmaq üçün oxuyurlar.

Son dövrlərdə xarici dilləri öyrənmə zamanı siyahı nitqə daha çox diqqət yetirildiyinə baxmayaraq, digər əsas nitq bacarıqları olan eşidib-anlama, oxu və yazının tədrisinə də xüsusi diqqətin yetirilməsi olduqca vacibdir.

Şifahi nitqin beynalxalq əlaqələrin inkişafı, kütləvi məlumatların-radio, kino, televizor-yayılmasında böyük rolu olduğu üçün tələbələrdə öyrənilən xarici dildə xüsusilə də ingilis dilində ilk növbədə danışıq vərdişlərinin aşılanması tamamilə təbiidir. Lakin müasir dövrdə əsas məqsədi öyrəcilərdə bacarıqlarının inkişaf etdirilməsi deyil, onlarda öyrənilən dildə komunikativ kompenetensiyanın inkişaf etdirilməsindən ibarətdir. Kommunikasiya isə yalnız şifahi nitq deyil, həm də yaxın və oxu vərdişlərinin inkişaf etdirilməsini nəzərdə tutur. Intellektual, bilik səviyyələrinə uyğun olmalı və onlar üçün maraqlı olmalıdır.

Xarici dildə, xüsusilə də ingilis dilində oxunun tədrisi xüsusi əhəmiyyyət kəsb edir. Müasir dövrdə qlobal ünsiyyət vasitəsi kimi qəbul edilmis, ingilis dilində oxu vərdişlərinə yiyələnmiş hər bir şəxs bu dildə çox edilən müxtəlif xarakterli ma-

teriallarla tanış olmağa qadir olur. Lakin təqdim edilən materialların tələbələrin maraq dairələrinə uyğun olmasının xüsusi əhəmiyyət kəsb etdiyini bir daha vurğulamaq zəruri hesab edirik(2).

Son dövrlər xarici dilin tədrisi metodikasında oxunun tədrisi son dərəcə əhəmiyyətli yer tutur. Bunun üçün bir çox səbəblər vardır. Belə ki, xarici dili öyrənən tələbələr oxu vərdişlərinin aşılanması yeni məlumatlar əldə etmək, gələcək peşələri üçün, tədris məqsədilə xarici dil tədrisinin əsas məqsədlərindəndir. Bir çox tələbələr xarici dildə oxumaq vərdişlərinin əldə etməyə və yaxud digər müxtəlif məqsədlərlə xüsusi maraq göstərirlər.

İkinci səbəb mətnlərin bir çox pedaqoji məqsədlərə xidmət etmələridir. Oxu üçün yazılmış mətnlər həm tələbələrə yazı bacarığını inkişaf etdirir, yeni diskusiyalar üçün mövzular təqdim edir, dilin qrammatikasını, yeni sözlər, söz birləşmələri öyrənmək üçün müvafiq şərait yaradır.

Oxu xarici dil dərslərində ən vacib fəaliyyət növlərindən biridir. Oxunun öyrədilməsinin əsas məqsədi tədris edilən xarici dildə olan mətnlərdən informasiya mənbəyi kimi istifadə etmək deyil, oxu vasitəsilə öyrənilən dilin mədəniyyətini, ədəbiyyatını öyrənmək, müxtəlif sahələrdə bölüklər əldə etmək və tələbələrin dünya görünüşününü artırmaqdır. Həmçinin tələbə xarici dildə oxu zamanı zövq almağa bacarmalıdır. Mütəxəssislər belə hesab edirlər ki, bu cür bacarığın tələbələrdə olması onlarda vərdişlərin kifayət qədər yüksək səviyyədə inkişaf etməsindən xəbər verir. Onu da qeyd etmək lazımdır ki, ali məktəb tələbələrində hər cür bacarığın formalaşdırılması ixtisas dilinin tədrisinin əsas məqsədlərindən biridir(3). Xarici dilin tədris edildiyi hər bir kontektdə, xususilə də ali ixtisas məktəb şəraitində tələbələrdə oxu vərdişlərini aşılarkən tədris materiallarının seçilməsinə xüsusi diqqət yetirilməlidir. Belə ki, təqdim edilən mətnlər tələbələrin olduqca möhkəmləndirmək.

Oxunun tədrisi müasir dair üçün vacibdir, çünki oxu insanın həm biliyini zənginləşdirir, ona dünyanı başa düşməkdə yardımçı olur. Xarici dildə oxu insana yeni məlumatları əldə etmək və şəxsiyyəti formallaşdırmağa kömək edir.

Nitq bacarıqları arasında (danışma, eşitmə, yazma) oxu geniş yayılmasına və əhəmiyyənə görə əsas yer tutur və bu onun ünsiyyət vasitəsi kimi əsas rol oynadığını göstərir. Son zamanlar metodik ədəbiyyatda oxunun tədrisinə böyük fikir verilir, ancaq əsas ünsiyyət vasitəsi kimi rolu və xarici dilləri öyrənmənin məqsədi kimi oxu yüksək qiymətləndirilmir. Oxu çox vaxt siyahı nitqdən yaranmış nitq fəaliyyəti kimi qiymətləndirilir.

Oxu xarici dildə ünsiyyətin əsas məqsədlərindən və ən vacib yollarından biridir. Yazılı mətnin mənimsənilməsi və başa düşülməsi üçün mürəkkəb prosesdir. Məhşur psixoloq A.N.Leontyevin sözlərinə görə oxu insanların sosial-kommunikativ (the sphere of social communicative activity) fəaliyyət sferasına daxil olan nitq fəaliyyəti növüdür.

Oxu xarici dili öyrənən şəxslərin yiyələnməli olduqları əsas vərdişlərdən biridir. Oxunun çox böyük təhsilləndirici əhəmiyyəti vardir, çünki oxu ünsiyyət vasitəsi olduğu üçün insanlar onlara lazım olan məlumatı kitablardan, jurnallardan, qazetlərdən və s. çap materiallarından əldə edirlər.

Xarici dildə oxu vasitəsilə oxucuları onları əhatə edən dünya haqqında biliklərini zənginləşdirirlər. Tələbələr öyrəndikləri dilin danışdığı ölkə, onun

coğrafiyası, iqlimi, siyasi sistemi, mədəniyyəti, təhsil sistemi, burada yaşayan əhalinin əksəriyyətini təşkil edən insanlar, onların adət-ənənələri, həmçinin onların verbal və qeyri-verbal davranışları ilə yaxından tanış olmaq imkanını əldə edirlər. Oxu intellektini yüksəldir, onların yaddaşını arzularını, təsəvvürlərini inkişaf etdirir. Tələbələri kitablarla işləməyə alışdırdı, bu da oxu üçün qiymətsiz olan təcrübə hesab oluna bilər.

Oxunan mətnlər, onların mənəvi əhval-ruhiyyəsi tələbələrə təsir edir. Oxu bacarığının yalnız pratiki deyil, sosial əhəmiyyəti vardir.

Oxu yalnız məqsəd deyil, o həmçinin xarici dilin öyrənilməsində bir vasitədir. Ilk növbədə, oxu vasitəsilə bu və ya digər informasiya əldə edilir, dildə mövcud olan kommunikativ baxımdan əhəmiyyətli və vacib olan və tələbələr üçün xüsusi əhəmiyyət kəsb edən leksik vahidlər, söz birləşmələri ifadələr, qrammatik strukturlar və s. materiallapın mənimsənilməsinə nail olunur (5).

İngilis dilinin tədrisində böyük əhəmiyyətə malik olan problemlərdən oxu tədrisi məsələsinin olduğu danılmazdır. Oxu nitq fəaliyyətinin bir növüdür. Bu problem öz aktuallığını xarici dilin tədrisində həmişə saxlamaqdadır. Adı çəkilən məsələyə xüsusi elmi tədqiqat işləri həsr olunmuşdur. Ingilis dilindən oxu təlimi məsələsi uzun illərdir ki, mübahisəli qalmaqdadır. Bu sahədə metodistlər 2 qrupa bölünmüşdür. Onlardan bir qrupu ingilis dilinin təlimi zamanı oxucu bir yerə, digər qrup isə oxucu sifahi nitqdən sonra aparmağa məsləhət görür. Aparılmış müşahidə və yoxlamalara əsasən II qrup metodistıərin fikri ilə razılaşmaq olar. Şifahi nitqi inkişaf etdirmək, onlara nitqi başa düşmək və öz fikrini başqasına anlatmaq bacarıq və vərdişlərini aşılamaq üçün I cəhəti olmalıdır. Xarici dillərin müasir tələblər baxımdan öyrədilməsi oxu qarşısında ciddi tələblər qoyur. Bu tələblərə lazımi səviyyədən ötrü tələblər elə oxu bacarıq və vərdişləri yaratmaq lazımdır ki, onlar oxuduqları mətnləri lüğətsiz başa düşsünlər.

Ədəbiyyat:

1. Neuner,G.A. Sosio-cultural framework for communicative teaching of foreign languages at the school level. Strasbourg Council of Europe Press. 1988

2. Леонтьев А.А. Предисловие- В сб: Очерки по методике обучения чтению на иностранных языках. Под. ред. проф. И. М. Бермана. Киев, 1977.

3. Smith, Frank. Reading. Cambridge: Cambridge University press. 1978

4. Flesher, B. 1988. “Oral reading cue strateguie of letter and poor readers” Reading Research and İnstruction. 27/3

5. Hill, J. and Dobby M. 1979. A teacher Training Course for Teachers of EFL. London: Cassell

Вафа Багирова

Психологические основы обучения чтению на иностранном языке

Резюме

Чтение играет большую роль в жизни и трудовой деятельности человека. Чтение обогащает человека знаниями, помогает глубже познать окружающий мир, воспитывает его желания и чувства, служит эстетическим источником и формирует личность человека. Важность чтения для любого делового человека неоспорима. Чтение на иностранном языке сокращает время, потраченное на получение какой-либо информации.

Vafa Baghirova

Psychological bases of teaching reading to EFL student

Summary

Reading plays a great role in the life and work of a man. Reading enriches people with knowledge and helps in learning the environment deeply, formulates his feeling and wishes, serves like a source of easthetic and builds up his personality. The role of reading for any working man is inevitable. Reading in a foreign language shortens the time for getting any information.

Rəyçi: prof. G.Hüseynzadə

ÜLVIYYƏ SƏMƏDOVA
ADPU
yuliya.alimova.89@mail.ru

S.VURĞUNUN «VAGIF» DRAMINDA ÖZÜNÜİFŞA MƏQAMLARI

Açar sözlər: dram, özünüifadə, məqamlar, məqalə, qəhrəman
Key words: drama, self-expression, moments, hero
Ключевые слова: драма, самовыражения, моменты, герой

Səməd Vurğunun adı, şəxsiyyəti, milli, poetik «mən»i ilə ən çox bağlı əsər «Vagif»dir.

Tarixən Vagifin həm də dövlət xadimi kimi Azərbaycan ədəbi–ictimai fikrinin inkişafında görkəmli xidmətləri olmuşdur. Şair Vagif poeziyada realist xəlqiliyin, milli–etnoqrafik koloritin və xalis dünyəvi nikbinlik fəlsəfəsinin bərqərar olmasında müstəsna rol oynamışdır. Qarabağ xanlığının vəziri, ayıq və müdrik dövlət xadimi, alim, Zaqafqaziya xalqlarının dostluğunun carçısı və Avropaya rəğbətin ilk tərəfdarlarından biri kimi də Vagifin tarixi siması işıqlı və cazibədardır.

Bu gün əlimizdəki materiallardan o da məlum olur ki, «Vaqif»in yarandığı şərait və dövr əsərə ciddi təsir göstərib. Görkəmli ədəbiyyatşünas-alim, mərhum Yaşar Qarayev «Vaqif»dən danışanda belə yazıb: «Müstəbid və ziyalı problemi həm Vaqif-İbrahim xan, həm də Vaqif - Qacar xətlərində qoşa davam etdirilir. Bu xətlərin hər ikisində tarixi təfərrüatla yanaşı müasir, fərdi-avtobioqrafik məqamlara da aşkar işarələr var. Nəzərə alsaq ki, "Vaqif" 1937-ci ildə yazılıb və 1938-ci ilin 5 oktyabrında tamaşaya qoyulub, onda burada təsvir olunan XVIII əsr hadisələrində 1937-ci ilin "podtekstini" tapmaq çətin olmaz». (1, 7)

Vagifi bir tarixi şəxsiyyət olaraq, bütün parlaq cəhətləri ilə tanıyan S. Vurğun onu əsərinə qəhrəman seçmiş, onun həyat və mübarizələri əsasında dərin məzmunlu sənət əsəri, bir vətənsevərlik dastanı yaratmışdır. O, tarixi hadisələrə passiv münasibət, pərəstiş yolu ilə deyil, Vagifi xalq şairi səviyyəsinə yüksəltmək, dövrün ictimai-siyasi proseslərini tarixdən gələn mövzuların əsasında əritmək yolu ilə yüksək məziyyətlərə malik bir əsər yaratmışdır.

Səməd Vurğun burada bütün tarixi bir dövrün əsas ictimai konfliktini tapıb göstərmişdir. Hadisələr əvvəlcə məhdud bir dairədə, bir neçə nəfərin taleyi üzərində getsə də, sonra bu dairə genişlənib, çoxlu hadisələri, adamları əhatə edir, tarixi məna və əhəmiyyət kəsb edir. Süjet yalnız Vagif ilə Qacarın mübarizəsi şəklində deyil, XVIII əsrdə irtica ilə tərəqqinin, zülm və zorakılıq ilə ədalət və azadlıq sevən vətənpərvərlərin mübarizəsi kimi inkişaf etdirilir.

Süjetin mərkəzində qüvvətli şəxsiyyətlərin durmasına baxmayaraq, hadisələr miqyaslı xalq dramı və sosial dram məcrasında cərəyan edir.

Vagifin bir qəhrəman, bir vətənpərvər dövlət xadimi olaraq əsas gücü öz xalqının müqəddəs arzu və ideallarını təmsil etməyi bacarığındadır. Qacara yazdığı məktubda öz nifrət və qəzəbini ifadə edərək xalq idrakı və kəlamı ilə düşmənə qarşı deyir:

Aldıq məktubunu Məhəmməd Qacar,
Tərlan oylağında sar ola bilməz!

Göydən başımıza odlar da yağsa,
Bu ellər baş əyib xar ola bilməz...
Basma ayağını bizim torpağa,
İlandan, əqrəbdən yar ola bilməz! (3, 25)

Vagifin Qacara yazdığı məktub məğrur və qəhrəman bir xalqın həyəcanlı etirazı, öz qüvvət və qüdrətini nümayiş etdirməsidir.

Vagif öz xalqının adından yüksək bir iftixarla danışır. Heç nə, heç bir qorxu onu susdura bilmir. Vagif öz müqəddəs mübarizəsində yalnız öz xalqına deyil, qonşu xalqların da köməyinə arxalanır. Çünki İran şahı Qacar, bütün Qafqaz xaqlarının qəddar düşmənidir.

Səməd Vurğunun görkəmli tədqiqatçılarından olan Ramin Əhmədov da haqlı olaraq qeyd edir ki, Vagif surətində qiymətləndirilən bir cəhət də xarakterlərin müxtəlif istiqamətli kəskin mübarizələrdə sonadək bütöv, monolit qalmasıdır. Qəhrəmanın ətrafında baş verən hadisə və ixtilaflar onun xarakterinə təsir edir. Vagif şəxsi-intim xarakterdə çox ağır vəziyyətlər keçirir, siyasi-ictimai mahiyyətdə bir sıra sarsıntılara məruz qalır. Lakin nəticə etibarı ilə bütün sarsıntı və zərbələrdən xaraktercə kamil çıxır». (2, 241)

S.Vurğun Vagifin qaniçən, istilaçı İran şahına qarşı mübarizəsinin yalnız dövlət və siyasət çərçivəsində verməmişdir. Bu mübarizənin geniş xalq təbəqələrinin dərinliklərinə gedən, istibdad ilə demokratiyanın mübarizəsini əks etdirən əsas köklərini də qələmə almışdır. Eldar və Kürd Musa kəndli hərəkatı və üsyanlarının qəhrəmanlarıdır. Bunlar Vagifin həm əziz dostu, həm də ən sadiq köməkçiləridir. Vagif ağıllı tədbirlərilə istilaya qarşı mübarizənin düşünən başıdırsa, Eldar və dəstəsi bu mübarizənin kəskin silahıdır.

Vagif ilə yanaşı olaraq Səməd Vurğun qoca şair Vidadinin də orijinal surətini yaratmışdır. Vagif qəhrəmanlığı ilə, Vidadi ağsaqqallığı ilə seçilməkdədir. Bu surətlərin hər ikisi müsbətdir. Ancaq bunların biri o birinə bənzəmir. Əsərdə onların hər biri özünə xas bir xarakterlə mübarizəyə qoşulur və özünə münasib mövqe tutur. Hər ikisi bədii boyalarla verilmiş canlı, inandırıcı surətdir. Dost, həməsr və həmməslək olan bu iki şairin bədii ümumiləşdirilməsini yaradarkən Səməd Vurğun onların hər biri üçün fərdi xüsusiyyətlər tapmışdır ki, hər iki surət oxucunun zehnində unudulmaz bir şəkildə həkk olunsun.

Vagif, Vidadi, Eldar, Kürd Musa, Gülnar, Şaliko, Tamara və s. müsbət qəhrəman və surətlər bir cəbhənin adamlarıdırlar. Bunları müqəddəs məslək birləşdirmişdir. Onların hamısı yadelli istilaçılara, qəddar İran şahlığına qarşı mübarizə üçün birləşmişlər. Şair bu müxtəlif peşəli, müxtəlif səviyyəli, müxtəlif millətdən olan adamların məqsəd və məslək birliyini çox təbii, inandırıcı boyalarla göstərmişdir. Bu adamlar hamısı bir mənbədən–xalqdan qüvvə alırlar. Xalq isə Səməd Vurğunun əsərlərində həmişə, hər yerdə öz qüdrətini hiss etdirir. Biz bu qüdrəti vətənpərvər Vagifin cəsarətli tədbirlərində, vəhşı Qacarı vahiməyə salan çıxışlarında görürük. Biz bu qüdrəti qəhrəman Eldarın və Musanın partizan mübarizələrində görürük. Bu qüdrəti eyni dərəcədə epizodik surətlərin işində, kəndlilərin zülmə qarşı şikayətində, Tamaranın iztirablarında, çobanların, qapıçıların Qacara nifrətində görürük.

Pyesin gərgin və kəskin dramatik konflikti təbii surətdə inkişaf edir, yeni-yeni hadisələri, insanları öz cərəyanına daxil edir. Vagifdən az güclü olmayan,

işğalçılara qarşı xalq qiyamı və intiqamının başçısı olan qəhrəman Eldar Vagifin köməyinə gəlir. Eldar bir tərəfdən Vagifin siyasi tədbir və məsləhətlərindən, ikinci tərəfdən isə həyəcana gəlmiş xalq kütlələrindən ilham alır. Babalardan yadığar qalmış məşhur Koroğlu silahını–Misri qılıncı ona bağışlayan qocaya cavab olaraq, Eldar diz çöküb belə deyir:

Qıratın yanında qıvrılıb yata,
Xanların, bəylərin gözünə batan,
Zalıma göz dağı, bizə şan qılınc,
Azadlıq uğrunda vuruşan qılınc! (3, 42)

Eldar şanlı mübarizələr yadigarı olan Misri qılıncı öpüb and içir, öz vətəni yolunda döyüşə gedir. Vagifin qələmi və tədbirlərindəki qüdrəti biz Eldarın silahında, döyüş məharətində görürük. Bi iki qəhrəman bir-birini tamamlayır. Onların hərəsi bir cəhətdən xalq cəbhəsinin məğlubedilməzliyin ifadə edir. Şeirlə qılınc, siyasi tədbirlə döyüş məharəti bir məqsəd üçün birləşib vahid bir cəbhə əmələ gətirir.

Səməd Vurğun düşmən surətlərini də eyni diqqət və qüvvətlə işləyir. Əsərdə Ağa Məhəmməd şah Qacarın cəllad, qatil və talançı sifəti mürəkkəb bir xarakter kimi, kamil bədii xasiyyətnamə ilə canlandırılır. Ağa Məhəmməd şah öz qoşunundan narazı olduğu kimi, öz taleyindən də narazıdır:

Vətən! Çoxmu sevir məni o vətən?
Mənə həcv yazır hər yoldan ötən...
Çox da tərifləmə mənə vətəni,
Bu qılınc olmasa yeyərlər məni! (3, 47)

Əhatə etdiyi məsələlər, dərin məzmunu və qayəsi etibarilə «Vagif» pyesi Azərbaycan ədəbiyyatında yüksək mövqe tutmaqdadır. Bu əsərin ən qüvvətli tərəfi orasındadır ki, xalqın arzu və istəkləri, duyğu və düşüncələri vətənpərvər bir sənətkarın simasında verilmiş, azadlıq ideyaları yüksək bədii lövhələrlə təcəssüm etdirilmişdir.

Səməd Vurğun qəhrəmanları böyük ideallar uğrunda vuruşan mətin iradəli xalq qəhrəmanlarıdır. Bunların şəxsiyyəti ilə xalq və vətən məfhumu elə mahiranə surətdə birləşmişdir ki, bunlar danışanda biz bir adamın yoix, bütün bir xalqın, istilaçılara qarşı vuruşan başı uca bir ölkənin danışdığını güman edirik:

Bəs baş əymədiniz?
– Əymədim, bəli!
Əyilməz vicdanın böyük heykəli... (3, 37)

«Vagif» – həm də şair və onun taleyi barədə dramdır. Pyesdə "şairin taleyi" – elin taleyinə qaynayıb qarışır. Vurğunun Vagifi xalqa, elə arxalanır, onun qəhrəman, zəhmətkeş və sənətkar oğullarına qarşı təşkil edilən və planlı şəkildə idarə olunan hakim zorakılıqla barışmır, təkcə öz mövcudluğu ilə hər cür fiziki və mənəvi müstəbidliyə müqavimət göstərir. Müstəbid və ziyalı problemi həm Vagif – İbrahim

xan, həm də Vagif – Qacar xətlərində qoşa davam etdirilir. Bu xətlərin hər ikisində tarixi təfərrüatla yanaşı müasir, fərdi-avtobioqrafik məqamlara da aşkar işarələr var.

Ədəbiyyat

1.Bayramov Adilxan. Şair, hökmdarın hüzurundasan!.. Bakı: Mütərcim, 2009, 147s.
2.Əhmədov Ramin. Sənət və həyat. Bakı: "Araz" nəşriyyatı, 2005, 500s.
3.Vurğun Səməd. Seçilmiş əsərləri. Beş cilddə, IV cild, Bakı: "Şərq-Qərb", 2005, 400s.

Ульвия Самедова

Моменты самовыражения в драме «Вагиф» С.Вургуна

Резюме

Статья о моментах самовыражения в драме «Вагиф» С.Вургуна. Здесь также дано спектр анализов образа Вагифа, Каджара, Эльдара и Видади.

Кроме того здесь раскрываются моменты исповеди Вургуна со связи образом Вагифа. Вагиф, здесь не только поэт, он и в том числе политик, герой и патриот. Он реализует идеи Вургуна и возвышает его как народный герой.

Ulviya Samedova

Moments of self-expression in the drama "Vagif" S.Vurgun

Summary

Article on the moments of self-expression in the drama "Vagif" S.Vurgun. It also gives the spectrum of the image analysis Vagif, Qajar, Eldar and Vidadi.

Besides Tagoe disclosed here moments of confession Vurgun way communication with Vagif. Vagif, is not only a poet, he is also a politician, and hero potriot. He realiziet ideas Vurgun and raises him as a national hero.

Rəyçi: dosent Ramin Əhmədov

AYGÜL QURBANOVA
Qafqaz Universiteti
Aygul18@live.ru

ELÇİNIN "NAĞILLAR" SİLSİLƏSİ

Açar sözlər: Uşaq ədəbiyyatı, nağıllar, insan taleyi,mənəvi-əxlaqi məsələlər.
Ключевые слова: детская литература, сказки, судьба человека, нравственно-этические проблемы.
Keywords: Children's literature, tales, the fate of a man, moral-ethical issues.

Çağdaş Azərbaycan ədəbiyyatının ən böyük nümayəndələrindən olan xalq yazıçısı Elçin 1959-cu ildən ötən böyük zaman kəsiyi ərzində uzun və çox zəhmətli bir yaradıcılıq yolu keçmişdir. 20-ci əsrin 60-ci illərində Azərbaycan ədəbiyyatında başlamış hərəkatın fəal üzvlərindən olan Elçin bugün də ədəbi fəaliyyətini davam etdirir, hal-hazırkı dövr bədii sözünün inkişafında yaxından iştirak edir. O, maraqlı hekayələri və romanları, kinosenarilər və komediyaları, ədəbi tənqidi və elmi-nəzəri əsərlərilə geniş oxucu kütləsinin daim diqqət mərkəzində olmağı bacaran yazıçıdır. Kiçik hekayə və povestlərlə ədəbiyyata gələn yazıçının əsərlərinin əsas ideya istiqaməti daim əxlaqi-mənəvi mahiyyət kəsb edən mövzular olmuşdur və oxucunu daim düşünməyə vadar etmişdir. Tanınmış ədəbiyyatşünas proffessor Yaşar Qarayev Elçin yaradıcılığını tədqiq edərkən o, "rəmzdən, bədii-fəlsəfi şərtilikdən, kəskin məcazdan istifadə edir, psixoloji əhvali-ruhiyyəni detalla əyaniləşdirən mizanlar və cizgilər axtarır, onları görümlü, duyumlu, baxımlı obrazlara çevirən epitetlər tapır" ifadəsini işlətmişdi. Janr rəngarəngliyindən asılı olmayaraq Elçin alt qatlarda daim nəsə gizlədir. Fərdi üslubu ilə milyonların arasından seçilən Elçin qələmi insan qəlbinə toxunur, çünki o insan psixologiyasına dərindən bələd nasirdir. Bu mənada yazıçı həm də sənətin məqsəd və vəzifələrini dərindən duyur.

Elçinin yaradıcılığı müxtəlif yönlərdən təhlil edilmişdir, bədii əsərləri daim diqqət mərkəzində olan yazıçının yaradıcılığında uşaq dünyasının xeyli məqamlarını işıqlandırılmışdır. Lakin onun uşaq hekayələri, ümumiyyətlə onun uşaq aləminə müracicəti hələ də araşdırılması vacib olan məsələlərdəndir. Həyatı təzə-təzə dərk etməyə başlayan, dəyişmə prosesi keçirən azyaşlıların psixoloji aləmi Elçin nəsrində diqqət çəkən məsələllərdəndir. Bir sıra hekayələri üçün xarakterik olan bu xüsusiyyət onun sonralar yazılmış əsərlərirdə də özünü biruzə verir. Bu mənada son bir neçə ildə qələmə aldığı, 525-ci qəzetdə nəşr olunan "Nağıllar" silsiləsi-ni uşaq ədəbiyyatı nümunəsi kimi tədqiq etmək olar. Təbii ki bu silsiləni uşaqmütaliəsi mətnləri kimi təqdim eməkdə onu tədris edənin rolu vacib sayılmalıdır. Bu silsilədə xalqın təfəkkürü ilə Elçinin yazıçılıq istedadı birləşmiş və müdrik, ibrətamiz, fəlsəfi səhnələr yaranmışdır. Mənəvi-əxlaqi məzmunla yüklənmiş bu nağıllar son dövrlərdə yaranmış, gəncliyimizə cəmiyyət kerçəkliklərini obrazlı səviyyədə çatdırmaq baxımından təqdirəlayiqdir.

Ümumiyyətlə "Realist həyatımızın mənzərəsini əks etdirmək, yeniyetmələrin duyğu və düşüncəsini, kənddə yaşayan cavanların poetik aləmini vermək elçinin hekayə və povestlərinin əsas xüsusiyyətlərindəndir"[1.s.213]. Uşaqlıqla gəncliyin sərhəddində onların ürəyində baş qaldıran duyğular aləmi, həyatı dərketmə periodu,

hisslərin dəyişikliyə uğradığıdərin psixoloji nüanslarını Elçin hekayə və povestlərində özünəməxsus ustalıqla qələmə almışdır. "Bu mənada Elçin psixoloji hekayələr ustasıdır"[1.s.217]. "Bu dünyada qatarlar gedər" , "Baladadaşın ilk məhəbbəti" , "On il sonra", "Gümüşü, narıncı, məxməri" bu qəbildən olan hekayələrdir. Elçinin bu hekayələrini yaxınlaşdıran əsas cəhət buradakı hadisələrin daxildən açılıb mənalandırılması, surətləri isə həyatdan götürüb təbii vermə bacarığıdır.

"Nağıllar silsiləsi" isə Elçin nəsri üçün tamamilə yenidir. Burada da Elçin həyatdakı noqsanları özünəməxsus şəkildə duyur. Ağıl öyrətmək isə burada arxa plandadir. Dövrün ciddi, ictimai məsələlərini sönük, bayağı, quru yox, özünəməxsus şəkildə qələmə alan yazıçı böyüyən nəsli mənəvi keyfiyyətlərə malik yetkin insan kimi görmək istəyir.

Adi adamların taleyi, cəmiyyətdə baş verən dəyişmə proseslərini əks etdirmək Elçin qələmi üçün bütün yaradıcılığı boyu önəmli olmuşdur. Bu silsilə də birbaşa insan taleyi ilə əlaqəlidir, sanki Elçinin insan taleləri haqqında yazmış olduğu əsərlərinin fəlsəfi zirvəsidir. Tecrubəli qələm sahibinin bu silsiləsi oxuyan her kese nese verir. Bu nağıllarda sənətkarın sanki cəmiyyətin səhvləriylə barışmazlığı, dünyanın gedişatından keçirdiyi təəssüf hissi, yaşadığı mühiti saf və təmiz görmək arzusu, gözəllik qanunlarıyla hərəkət etmək istəyi duyulur. Hamı bu nağıllardan özü üçün nəsə götürə bilər. Bu nağıllar düşündürücüluk baxımından oxucu qarşısında geniş imkanlar açir. Buradaki məkanlar, kiçicik təsvir olunan mühit yalniz zahiri konkret adıyla səciyyələnmir, digər hekayələrinə aid olan xüsusiyyət burada da mövcuddur. Nağıllardaki kiçik mühit cəmiyyətin özü, onun bədii modelidir. Silsiləyə uşaq ədəbiyyatı nümunəsi kontekstindən yanaşmamızın əsas səbəbi nağılların didaktik mövzuya yaxınlığı , mənəvi-əxlaqi dəyərlərin üstünlük təşkil etməsi, hekayələrdəki əsas ideyaların gələcəyimiz üçün sağlam düşüncəli, mənəvi-dəyərlərə sahib, istər cəmiyyətə, istər özünə duyarlı vətəndaş yetişdirməkdə böyük rolu olacağını haqlı olaraq düşündüyümüzdəndir. Yəni uşaq da, böyük də buradan özünə pay götürə bilər, əslində uşaq ədəbiyyatı ilə böyük əbəbiyyatı arasında fərq qoymaq özü yanlış tendensiyadir, bu "Nağıllar" silsiləsi də bunu bir daha sübut edir. Bu da Elçin qələminin yeni uğurudur. Ümumilikdə Elçin yaradıcılığına nəzər saldığımızda yuxarıda da qeyd etdiyimiz kimi uşaq aləmi sənətkarın yaradıcılığında diqqət mərkəzində olan məsələlərdən olmuşdur. "Nağıllar" silsiləsidə daxili alt məna qatları ilə zəngindir. Nağıl həqiqi söz deməyi bacarmalı, gerçəyə gərəkli söz deməlidir. Ənənə və novatorluq burada vəhdətdədir. Nağıllar silsiləsi ilə elçinin əxlaqi mənəvi axtarışlarının davamını vəgenişliyini gorürük, yigcamliq, lakoniklik,dilinin sadə və aydın olması bu nağılların əsas xüsusiyyətidir. Lakin mənəvi -əxlaqi axarışların davamı burada fərdlər üzərindən yox, ümumiləşdirilmiş şəkildə verilir. Əvvəlki yaradıcılığında mənəviyyat problemləri, şəxsin, fərdin psixologiyası əsas idisə, burada psixoloji lövhələr yox, ümümiləşdirmələr qabarıqdır. Bəzi mühüm həyat məsələləri burada yeni anlam və üslubda qələmə alınır. Bu nağıllarda qaldırılan problemlər hal-hazırki cəmiyyətimiz üçün çox aktual məsələlərdir.Üst qatlarında insan və təbiət münasibətləri əsas ideya kimi gorunsə də, alt qatlarda daha dərin mənalar gizlənir. Nağılların gerçəyə dedikləri daha düşündürücüdür. Dəyişən zamanın azmış, cızığından çıxan, insanlıq donunu dəyişib tamamilə başqa istiqamətə addimlayan insanları Elçini narahat edir, oxucu bu obrazlarla taniş olduqca öz dünyasına , iç aləminə qayidir, özünə baxir, qirağa yox. Belə ki, bu nağıllar cəmiyyətin ağrı-

acisini yalnızca təbiətin fonunda yox, həm də təbiətə münasibətdə vermək baxımından tamamilə yenidir. "Sehrli aləmlə bu dünyanın tələtümləri"[2] arasinda gedib gələn oxucu sanki qəflət yuxusundan ayılır, aynada özünü görür.

Sosioloji-fəlsəfi və mənəvi-əxlaqi yozumu ilə qabarıq "Qoca palıdın nağılı" [3] bu silsilədə yer alan əsərlərin içərisində insan urəyini daha çox riqqətə gətirir sanki. Çünki burda yalnız palıd ağacının yox, bütöv bir insan ömrünün tarixçəsi var. "O palıd ağacı o qədər hündür idi ki, meşədəki bütün ağaclara, bütün ətrafa yuxarıdan aşağı baxırdı və o palıd ağacı bu dünyada o qədər yaşamışdi ki, özünün də yadından çıxmışdı ki, nə qədər yaşı var: üç yüz il?... dörd yüz il?... beş yüz il?... Bu palıd ağacı da insanlar kimi öz xəyallar aləmində yüz illər öncəsi hələ sütül çubuq olduğu vaxtlarda meşəyə yuxarıdan aşaği baxırdı, yüzillər keçir ve palıdın xəyalları gerçək olur, o uzanır, qol-budaq atır,meşəyə yuxarıdan aşağı baxır, lakin istəyi bitmir, o da başqa canlılar kimi gəzmək istəyir, quşlar kimi uçmaq istəyir, yuzillər boyu eyni yerdə durmaq məhkumluğu onu boğmağa başlayır. Məhkumluğundan bəzən qoca palıd artıq yaradanindan başqa şey istəyir- "mən daha yaşamaq istəmirəm, qurtar məni bu əzabdan!" Qoca palıd bilirdi ki, yaradanın işinə qarışmaq olmaz, amma yenə də üsyan edirdi: "Nə üçün? Nə üçün?". Bir gün isə qoca palıd meşədə insan səsi eşidir, məlum olur ki, onlar qoca palıd üçün gəliblər, qəribəsi də burası olur ki, həyatdan bezən, sonunun gəlməsini arzulayan qoca palıd nəhayətdə insanları səksəkə içində gözləməyə başlayır və qəribə hadisə baş verir: "yüz illər bundan əvvəlki o sütül çubuq bütün dəqiqliyi ilə onun gozlərinin qabağına gəldi…. Qoca palıd dəmirin iri ve iti dişlərini oz gövdəsində hiss edəndə, qışqırmaq, "Dayanın!" , "Kəsməyin!" demək istədi, ancaq bunu özünə sığışdırmadı. Onsuz da insanlar ağacların dilini bilmirdi, ağaclar da insanların dilini bilmirdi," . Bu hekayədə nə qədər düşündürücü məqamlar var. Əsəri oxuduğumuz zaman həm bir ağac kimi palıda acıyırıq, hem bir anlığa palıdın yerində özümüzü görürük, palıdın bütün ağrı-acısını hiss edirik, niyə, çünki yazıçı palıdı sadəcə təbiətin bir parçası kimi yox, canlı bir obraz kimi verməyə muvəffəq olur, qoca bir palıd ömrü sanki bütöv bir insan ömrünü xatırladır, cavanlığında böyümək arzusuyla yaşayan, hər kəsə yuxarıdan aşağı baxmağa ümid edən, bütün bunların hamısının həyata keçdiyi məqamda daha əlçatmaz noqtələri fəth etmək, uçmaq arzusuna duşmək-bütün bunlar insan ömrünün ayrı-ayrı mərhələləridir. Son məqamda isə həyatdan bezən, ölmək eşqi ilə yaşayan, tanrısına sonunun gəlməsi üçün dua edən, lakin axır nəfəsi canından çıxanda həyatın şirinliyini anlayan, xatırlamağa çalışdığı, lakin xatırlaya bilmədiyi hər şey ölüm məqamında göz önündə canlanan insan ömrüdür bu palıdın da yaşadıqları. Bu nağılı oxuduqca insan həm özü ilə hesablaşır, həm də təbiətə qarşı həssaslığı artır. Burada oxucunu düşündürən məqam insanın insana qarşı, özünə qarşı duyarsızlığı oldu. Yaşadığı zamanda özünə nüfuz qazanıb hörmət sahibi olan, ölüb gedəndən sonra yerində sadəcə kötüyü qalan, zamanla o kötüyün də çürüməsiylə adı belə həyatdan silinen insan ömrünü Elçin Qoca Palıdın fonunda çox gozəl təsvir edir. Bu qurama obraz deyil, demək olar ki, həyatda mütəmadi rast gəldiyimiz insan taleyidir, Qoca Palıd da bu insanlardan bəzisinin tale ortağıdır.

"Qoca Şeyxin nağılı"[4] da bu silsilə içərisində özünəməxsusluğu ilə seçilən əsərlərdən biridir. Əsərdə mənasız həyat sürən, lakin bunu çox gec dərk edən insanın taleyi ön plana çəkilir. Bütün ömrünü ibadət ilə keçirən Qoca Şeyxin faciəsi həyatı dərk etdiyi an başlayır. O həmin məşum günorta çağı idi ki, Şeyxin həmyaşıd

kəndlisi onu ziyarətə gəlmişdi, öz dərd-sərindən danışmışdı, sonra da ayağa qalxıb gedəndə "Nə isə həyatdı də! Hərənin bir dərdi, hərənin bir qayğısı…" demişdi, sonra da xəfivcə gülümsəyib əlavə etmişdi ki, "hərənin də bir sevinci!..." İlk gənclik çağlarından bütün ömrünü Yaradana ibadətə həsr edən , Şeyx evlənməmişdi, çünki Yaradana sevgisini ailəsi ilə, uşaqları ilə bölüşmək istəmirdi. O bütün sevgisini yaradana həsr etmişdi. Onu ziyarətə gələn , ömür-gün yoldaşını itirən kəndli isə onunla dərdləşdiyi zaman "Arvadın qədrini sonra bilirsən" demişdi. Şeyx isə heç kimin qədrini bilmirdi, çünki həyatında Yaradandan başqa elə bir varlıq yox idi ki, qədri bilinsin. Sanki həmkəndlisi qoca onu silkələyib getmişdi, gerçəkləri üzünə vurub getmişdi, halbuki Şeyx düşünürdü ki, o yaşayırdı, amma sən demə o yaşamamişdi, heç bir amalı olmadan, sevincin, kədərin, qəmin , qüssənin, yaxşılığın, pisliyin nə olduğunu bilmədən yaşamışdı Qoca Şeyx, bütün ömrü boyu Şeyxin heç bir dərdi və heç bir qayğısı olmamışdı… O məşum günorta çağı Şeyx dərk etdi ki, sevincin də nə olduğu ona məlum deyil. "Birdənbire Şeyx o uzaq ve naməlum noqtədə bomboz rəngə bürünmüş bir boşluq gördü. Və Şeyx başa düşdü ki, o bomboz boşluq da adi boşluq deyil, onun ,yəni, Şeyxin uzun həyatının mənzərəsi və mənasıdır. Şeyx kəşf etdi ki, uzun ömrü boyu yaşadığı həyatın o bozluqdan başqa heç bir rəngi, heç kiçicik bir çaları da yoxdur."

Bütün ömrünü boşa keçirdiyini sonda başa düşən Şeyx havalanır, qışqıra-qışqıra kəndin küçələri ilə qaçır və nəticədə "bu ağlasığmaz mənzərəyə baxa-baxa yerlərində donub qalmiş kənd camaatının-kişilərin, qadınların, hətta uşaqların da saçları dəhşət içində gözgörəti ağarır, ağacların yarpaqları, gül-çiçəyin ləçəkləri sürətlə saralıb-solurdu." Yazıçının burada demək istədiyi əsas ideya Şeyxin timsalında ümumiləşdirilmiş şəkildə verilir.Cəmiyyətimizdə nə çoxdur elə kor-koranə yaşayan insanlar ki, nə sevincin, nə də kədərin nə olduğunu bilmirlər, həyatlarını adi bir boşluq üzerində qururlar, əslində Elçin çatdırmaq istədiyini Qoca Şeyxin həyat şəraiti üzərində quraraq göstərsə də , bunu yalnız Şeyx kimi yaşayan insanlara şamil etmir, Qoca Şeyxin həyatı sadəcə vasitədir, məqsəd yox.

Beləki, Elçinin Nağıllar silsiləsi ideyasına görə konkret yaş həddi ilə məhdudlaşmır. Elçinin uşaq əsərləri ifadəsini şərti olaraq işlətsək daha düzgün olar.

Yazıçının "Nağıllar" silsiləsinin ideya ruhu folklorla səsləşir. Uşaq ədəbiyyatının başlıca məqsədi olan tərbiyə məsələlərinin əks olunduğu Folklor bir növ xalq pedaqogikasının tarixi salnaməsi hesab oluna bilər. Müxtəlif folklor janrlarında xalqın fəlsəfi düşüncəsi, həyata baxışı, tərbiyə məsələlərində mövqeyi parlaq şəkildə əks olunur. Bu baxımdan xalq nağılları ibrətamiz səciyyə daşıyır. Ağız ədəbiyyatımızdan götürdüyü bu janrdan yazıçı Elçin də öz məqsədi üçün məharətlə istifadə edir, onu tamamilə yeni tərzdə işləyib hazırlayır, Elçində xalq nağıllarının dərin təhkiyəsi özünəməxsus şəkildə meydana çıxır. Həmişə alışdığımız "biri vardı, biri yoxdu" təbirindən uzaq olan bu nağıllar tamamilə fərqli kontekstdən səslənir, xalq nağıllarımızdakı kimi burada sonluq nikbin bitmir, son nəticədə Elçinin digər əsərləri kimi qiymət yenə də oxucunun ixtiyarına buraxılır, burda nağıllarımızdakı kimi xeyir quvvələrlə şərin açıq mubarizəsi yox, mənəviyyatını , özünü unudan bəşər övladının özünün özü ilə mübarizəsi başlayır, qalib ise əsərin əsas mahiyyətini anlayan, onun ideyasını qavrayan insandir. Bu mənada Elçinin bu "Nağıllar" silsiləsi ədəbiyyatımızda sanki yeni janr yaradır. Uşaq ədəbiyyatı ilə böyük ədəbiyyatının sərhədlərini vurub dağıdır. Düşünürəm ki, müasir dövrümüzün

ayıq , "çoxbilmiş" övladlarına bu nağıllar silsiləsi çoxdan lazim idi, eyni zamanda "başının altına balış qoyub" rahat yatan böyüklərimiz də bu cür əsərlərlə tanış olmaqla istər həyatı, istərsə də təbiəti özləri təhlil edə bilərlər. Nağılların ən uğurlu cəhəti odur ki, artıq burada problemin həlli açıq şəkildə qoyulmur, yaş həddindən asılı olmayaraq istənilən oxucunun urəyinə toxunur və onu düşünməyə vadar edir. V.Q.Belinski yazırdı: "Yox, əxlaqi nəsihətlər öz-özlüyündə nəinki iyrənc və faydasızdır, hətta, bunlar uşaqlar üçün yazılmış gözəl və həyatla dolu əsərlərə də soxulduqda onları korlayıb xarab edirlər. Siz uşaqlara bir nağıl və ya hekayə söylədikdə özünüz onun arxasında gizlənib gözə görünməyiniz, qoy hekayədəki hadisələr bilavasitə təsir ilə özləri öz barəsində söz söyləsinlər. Sizin əxlaqi fikriniz var, - çox gözəl. Bunu uşaqlara açıqdan-açığa söyləməyin, qoy özləri hiss etsinlər, hekayənin sonunda onu bir nəticə kimi çıxarmayın, qoy bu nəticəni uşaqlar özləri çıxarsınlar. Əgər hekayə onların xoşuna gəlibsə, ya onlar bunu böyük maraq və ləzzətlə oxuyurlarsa deməli siz də öz işinizi görmüşsünüz".

Belə ki, bu nağıllarda Elçinin seçib qələmə aldığı mövzular həm dövrün, həm də oxucunun tələbləri baxımından həm uğurlu, həm yenidir. Sənətkarın həyat hadisələrinə obrazli baxışının fəallığı onun mövzu seçimində aydın nəzərə çarpır. Yuxarıda da qeyd etdiyimiz kimi bu nağıllardakı eyni səciyyəvi xüsusiyyətləri yazıçının həm kiçik, həm də böyük oxuculara təlqin etmək və çatdırmaq istədiyi ideyalar silsiləsinə də aid etmək olar. Bu ideyalar müxtəlif, eyni zamanda dövrün tələbinə uyğun olaraq da çox aktualdırlar. Yazıçı bu ideyalari münasib mövzu və başa düşülən məzmunla birləşdirərək müasir bədii nümunələr yaratmağa müvəffəq olmuşdur.

Ədəbiyyat

1. Zahid Xəlil Seçilmiş əsərləri 6-cı cild, Bakı, 2008 [195 s.]
2. www.anl.az/down/meqale/525/2011/may/cm31.htm
3. www.anl.az/down/meqale/525/2011/fevral/158132.htm
4. " 525-ci qəzet". - 2011.-16 aprel. - N 66.
5. old.525.az/view.php?lang=az&menu=7&id=8402&type=1
6. www.anl.az/down/meqale/525/525_aprel2009/75134.htm
7. Yaşar Qarayev "Poeziya və Nəsr" Bakı, Yazıçı-1979

A.Gurbanova

Elchin's Series of "Tales"

Summary

The people's writer of Azerbaijan Elchin is one of the most remarkable representatives of our modern literature. His literary works have always been in the centre of critics of literary criticism. World of children is one of important topics in Elchin's creative works, too. From this point of view, Series of "tales" is part of his last success in literature. Writing about serious social problems in his specific way, the writer aims the goal to bring up the younger generation with high moral and spiritual values. The most successful aspect of the tales is that, solution of the problem is not placed in them openly; they impress every reader regardless of

his/her age and make him/her think. Topics chosen and written by Elchin in this tales are new and actual according to demands of recent time.

А.Курбанова

Цикл “Сказок” Эльчина.

Резюме

Народный писатель Азербайджана Эльчин является одним из самых великих представителей нашей современной литературы. Его художественные произведения постоянно находились в центре литературной критики. Тема детства и детского мира также является одной из важных в творчестве Эльчина. В этом отношении, «Цикл сказок» является новым успешным достижением писателя. Основной целью писателя, в оригинальной манере излагающего серьёзные общественные проблемы современности, здесь явилось отразить подрастающее поколение, в образе зрелого, обладающего духовными качествами человека. Позитивным свойством этих сказок является то, что решение проблем предлагается в них неявно и неназойливо, и независимо от возрастной категории доходит до сердца любого читателя, заставляя его размышлять. Темы, выбранные и раскрытые в этих сказках Эльчином новы и актуальны, соответственно духу времени и запросам читателей.

Rəyçi: professor Əjdər Ağayev

KÖNÜL HEYDƏROVA
Bakı Dövlət Universitetinin doktorantı
konul_qalib@mail.ru

NƏRİMAN NƏRİMANOVUN "NADİR ŞAH" FACİƏSİNDƏ ZADƏGAN OBRAZLARI

Açar sözlər: N.Nərimanov, tarixi dram, tarixi zadəganlıq, despotizm
Ключевые слова: *Н.Нариманов, историческая драма, исторический аристократизм, деспотизм.*
Key words: *N.Narimanov, historical drama, historical nobleness, despotism.*

Bir sıra tarixi hadisələr bizə ədəbiyyat vasitəsilə - əfsanələrlə, rəvayətlərlə, yazılı qaynaqlarla gəlib çatmışdır. Bəzi yaradıcı insanlar öz yaradıcılığında tarixi hadisələri obrazlaşdıraraq bədii nümunələr yaratmışlar. Şumer dastanları, "Avesta", "Odisseya" və "İliada" (Homer) poemaları tarixi yazılı ədəbiyyatın ilk nümunələri hesab oluna bilər. Əsatirlərdən qaynaqlanan "Zəncirlənmiş Prometey", mövzusu müasir həyatdan götürülmüş "İranlılar" (Esxil) faciələri isə tarixi dramların sələfidir. Biz tarixi dramların daha gözəl nümunələrinə Şekspirin, Puşkinin yaradıcılığında rast gəlirik. İlk Azərbaycan tarixi dramı isə N.Nərimanovun adı ilə bağlıdır.

Hər hansı bir əsərin sənətkarlıq etibarı ilə yüksək səviyyədə meydana çıxması üçün həyatla ədəbiyyat arasında əlaqənin olması əsasdır. Əsərin zənginliyini burada ifadə olunan hisslər, hadisələr, əsəri təşkil edən ictimai və estetik amillərin müasirliyi, özündə ehtiva etdiyi bədii yükün orijinallığı xarakterizə edir.

"Dramaturq ədəbi şəxsiyyəti onun dövrü, yaşadığı zamanın içərisində canlandırır. Bu baxımdan Azərbaycan tarixi dramlarının özünəxas bədii ifadəsi, sənətkarlıq prinsipləri vardır.

Ədəbi şəxsiyyətlərdən bəhs edən əsərlərin mövzuları öz tarixi dövrləri ilə səciyyəvi xüsusiyyətlərə malik olmuşdur. Tarixi dramlarda dövr, zaman ayrıca bir tərəfdir. Obrazlar öz dövrü ilə bağlıdır. Bu dram əsərlərində başlıca amil insandır. Digər janrlardan fərqli olaraq burada, dialoqlar vasitəsi ilə yaranan dramatik və psixoloji vəziyyətlər, insanın daxili aləminin üzə çıxması (mənfi və ya müsbət), dialoqlararası ziddiyyətlər, və s. məsələlər daha qabarıq əks olunur." (1).

Öz bədii mahiyyəti, ədəbi koloriti, daşıdığı ideya yükü baxımından Azərbaycan ədəbiyyatında ilk tarixi faciə olan "Nadir şah" (1898,1913) dramı mühüm səciyyə daşıyır. Mütləqiyyətin xalqların inkişafına, mədəniyyətin tərəqqisinə, dünyəvi dövlətin qurulmasına bir əngəl, bir falanqa olmasını ilk dəfə bu dram ilə N.Nərimanov göstərməyə çalışmış və özünün dövlət, cəmiyyət haqqında ideyalarını, fikirlərini burada bəyan etmişdir. Axundzadədən fərqli olaraq ("Aldanmış kəvakib" 1857) o şahın, hökmdarın dəyişməsi ilə hürriyyət, xoşbəxtlik əldə etmək mümkün olmadığını göstərərək müstəbid şahla bərabər onun yaratdığı rejimi də devirməyi məsləhət görür. Nərimanov və digər tarixi dram yazan ədiblər müasir gerçəkliyi ifadə etmək üçün tarixi hadisələri bir vasitə kimi seçmişlər.

T.Salamoğlu qeyd edir ki, "Müxtəlif dövrlərin yaxın səciyyəli hadisələrini bir romanda cəmləşdirmək müəllifə həyat haqqındakı qlobal düşüncələrini, fəlsəfi qənaətlərini təkzibedilməz dəlillərlə əsaslandırmaq istəyindən irəli gəlir." (5, 64).

Bunu dramaturji əsərlər barədə də demək olar. N.Nərimanov "Nadir şah" dramını demək olar ki, bu prinsip əsasında yazmışdır. Qəhrəmanın dərin psixoloji aləminə nüfuz etmək, onun dünyagörüşünü aşkara çıxarmaq, oxucu və tamaşaçıda bitkin fikir formalaşdırmaq yazıçıdan böyük məharət tələb edir. Ədib "Nadir şah" dramında bunun öhtəsindən məharətlə gəlib.

Əsərin məzmunu XVIII əsrin birinci yarısında baş vermiş hadisələri əhatə etsə də əslində Nərimanov özünün də müasiri olduğu çar üsul – idarəsinin mürtəce mahiyyətini ifşa etməyə çalışmış və ondan qurtulmağın yolunu (Şah Təhmasın devrilməsi səhnəsi) göstərmişdir. O bütün bəlaların səbəbini təkcə hökmdarlarda yox, onların qurduğu hakimiyyətdə, cəmiyyətdə axtarırdı.

Bu faciə özlüyündə mürəkkəb kolliziyalardan təşkil olunub və ardıcıl süjet xəttinə malikdir. Burada işlənən obrazların əksəriyyəti zadəgan silkinə mənsubdurlar (şah, vəliəhd, vəzirlər, sərkərdələr, qəsdçi bəylər). Biz burada Şah Təhmas və Nadir şah obrazlarını təhlilə cəlb edəcəyik.

Əvvəla onu qeyd edək ki, Şah Təhmas Şah Sultan Hüseyn xanın oğlu və vəliəhdidir. O öləndən sonra hakimiyyət irsən oğlu Şah Təhmasa keçir. Onun dövlət işlərinin idarə olunmasında təcrübəsi azdır və vəzirlərin məsləhətləri ilə işləyir. Amma bir məsələni unudur. Atası Şah Hüseyn xan öz vəziri Ədhəm xan tərəfindən dəfələrlə aldadılır. Bunun nəticəsi olaraq ölkə parçalanmış və yağmalanmış vəziyyətdə Şah Təhmasın əlinə keçir. O vəziri Heydər xan tərəfindən aldadılaraq Nadiri məhv etmək istəyir. Bu isə sonda onun öz faciəsinə çevrilir. Hətta Nadirin mirzəsi Mirzə Mehti xanla olan söhbətlər də onu qəflət yuxusundan ayıltmır. Onu uçurumun kənarına gətirən Heydər xana qulaq asaraq səltənətdən və canından məhrum olur. Şah təhmas surəti zəif iradəli, hadisələrə dəqiq qiymət verə bilməyən, dostunu düşmənindən fərqləndirməyə çətinlik çəkən, analitik – sintetik qabiliyyəti məhdud olan obrazdır. O qərarları düşünməmiş verir və bu qərarların nəticəsi ağır olur. Tərəddüdlü qərarlar verir, tez – tez fikrini dəyişir. Üçüncü məclisdə hər gəlişdə Nadir barəsində müxtəlif fikirlərə düşür. Gah onu qəhrəman kimi qəbul edir, gah dövlətə xəyanətdə suçlayır, gah Nadiri zindana saldırmaq istəyir, gah da sərkərdə kimi Osmanlı qoşunu ilə döyüşə göndərmək fikrinə düşür. Belə tərəddüdlü hallar sonda Nadiri ona düşmən olmağa vadar edir. Nadir bütün işlərdə günahların xalq ilə dövlət, hökmdar arasında pərdə olan, xalqı da, hökmdarı da qaranlıqda saxlayan vəzirlərdə görür. Nadirin dilindən səslənən ittihamlar bu günlə həmahəng səslənir. "Bir padşah ki, dövləti və milləti tapşıra biinsaf, bimərifət şəxslərə *(baxır Heydər xana və səsini ucaldır),* bir padşah ki, canfişan olan qoşunun və sərkərdənin qədr-qiymətini bilməyə *(üzünü xanlara)* tac və səltənətə layiq deyil. Hərgah istəyirsiniz vətənimiz hər fəsaddan xali və asudə ola gərəkdir belə padşah səltənətdən xaric olsun..." (4, 135).

Zəif və tərəddüdlü hala malik olsa da Şah Təhmas obrazı özlüyündə Nərimanovun dünyagörüşü və təfəkküründün məhsulu kimi qiymətlidir. Belə ki, bu obrazın misalında ədib göstərməyə çalışmışdır ki, hər bir dövlət başında əyləşən hökmdar gərəkdir xalqla, millətlə maraqlana, onun qayğısına qala, xalqın ah və nalələrini şaha alqış kimi təqdim edən vəzirlərə inanmaya, yoxsa həmin xalq bu istibadı bir quldurun əliylə də olsa yıxacaq. Əsərdə N.Nərimanovun verdiyi qəribə təzad ondan ibarətdir ki, Şah Təhmas saraydakı intriqaların, vəliəhdlər arası savaşın qurbanı yox, öz despotizminin, xalqa inamsızlığının qurbanı olur.

Nadir şah obrazı müəllifin ən qüvvətli xarakterə malik, mürəkkəb və ziddiyyətli obrazlarından biridir. Belə ki, N.Nərimanov Nadir obrazı ilə öz arzu və istəklərini duyanlara çatdırmaq istəmişdir: bütöv vətən, azad və firavan xalq, təhsil almış insanların qurduğu cəmiyyət, dini ayrı – seçkiliyə son, təriqət parçalanmasını aradan qaldıraraq milli məfkurəyə xidmətə cəlb etmək, xalqı soyan axund və mollaların qarşısını almaq, millətin tərəqqisinə və ayılmasına xidmət, dövlətin idarə olunması məsələləri.

Doğrudur Nadir əsilzadə şah deyil. Onun atası və özü quldurluqla məşğul olub. Nadir hakimiyyətə çevriliş yolu ilə gəlir. Özü ilə saraya yeni qaydalar və mütərəqqi ideyalar gətirir. Bu ideyalarla idarə olunan dövlət qurmağa çalışır. İrəliləyişlər də əldə edir. Nadir öz ağlına, hökmdarlıq qüdrətinə güvəndiyi üçün onu əhatə edən saray mühitini və onu əhatə edən xain əyanları düzgün qiymətləndirə bilmir. Və mürtəce qüvvələr onu məhv edir. Bu məhvin də səbəbi bəzi qərarların tələsik və düzgün olmadan verilməsi oldu. Hansı ki, özü Şah Təhmasla dialoqda onu tələsik qərarlar verməkdə ittiham edirdi. Bütün bəlaları dini xurafatda görən Nadir dövlətin tərəqqisinə mane olan səbəbləri göstərəndə bunun birinci səbəbkarının mollalar olduğunu söyləyir. " ... Bir dövlət ki, mollalar ixtiyarında yaşadı, ol dövlətdə tərəqqi olmaz... Çünki bir neçə səbəblərə görə molla qismi həmişə çalışar ki, xalq qaranlıqda yaşasın..." (4, 142). Əşrəf bəy də (N.Vəzirov "Yağışdan çıxdıq, yağmura düşdük") Mollalar bizim axırımızı yetirdilər... (6, 139) deyərək haray çəkir.

Nadir vəzirlərin, ətrafda olan xanların yanlış fikirlərinə qulaq asmamağı hər zaman təbliğ etsə də özü də onların felinə düşür və oğlu Rzaqulu xanın gözlərinin çıxarılmasını əmr edir. Nadir surəti gəlişdən gəlişə, pərdədən pərdəyə tərəqqi edən, yüksələn bir obraz təsiri bağışlayır. Adi quldurluqdan məmləkətin şahı səviyyəsinə yüksəlməyə müvəffəq olur. Əvvəl xalqın qayğısına qalan, onu çətinlikdən qurtaran şah mürtəce despotizmin təsiri altına düşür və təkəbbürlü, mənəmlik hissi ilə yaşayan qəddar bir dövlət başçısına çevrilir. Düşdüyü mühit – şah sarayı onun xarakterini tamam dəyişir. Buna görə də irəli sürdüyü mütərəqqi ideyalar yarımçıq qalır. Əslində "Nadirin faciəsi onun şahlığı ilə başlayır." (3, 66).

Amma Nadir obrazında da daxili mühit tələtümlüdür. Belə ki, o da düşdüyü situasiyanı tam qiymətləndirə bilmir. Nadirin də həyatı Ağa Məhəmməd şah Qacarın həyatı ilə eyniyyət təşkil edir. (Ə.Haqverdiyev "Ağa Məhəmməd şah Qacar" 1907). Hər iki faciənin son səhnəsində narazı xanlar və keşikçilərin şahları qətlə yetirmələri təsvir olunub. Müəllif maraqlı bir məqama toxunmuşdur. Nadir öz oğlu Rzaqulu xanın gözlərinin çıxarılması əmrini verəndə Rzaqulu xan ona belə cavab verir. " **Rzaqulu xan.** Şah baba! Mənim gözlərimin qiyməti heç, amma İranı gözsüz qoyursan.... Aparın məni! Padşahın buyuruğuna əməl ediniz... " (4, 148). Bu tərəqqipərvər ziyalının Rzaqulu xanın sözləri ilə bəşəriyyətə çatdırmaq istədikləri fikirlərin kluminasiya nöqtəsidir. Əgər bir dövləti yalançı, ikiüzlü, xəyanətkar şəxslər idarə edirsə deməli, həmin dövlət, cəmiyyət öz ziyasından məhrum olmuş göz kimidir.

"Nadir şah" faciəsinin Azərbaycan ədəbiyyatına təsirini Məmməd Cəfər çox aydın xarakterizə etmişdir. " N.Nərimanov "Nadir şah" faciəsilə"Azərbaycan dramaturgiyasına Puşkin, Şekspir ənənələrini, "Boris Qodunov" üslubunu gətirmişdir". (4, 11). Nərimanov bu əsərlə despotizmə, ədalətsizliyə qarşı mübarizənin bir

növ metodologiasın işləyib hazırlamış və gələcək hadisələrin inqilabi dəyişikliklərlə həyata keçirilməsi üçün əsasnamə tərtib etmişdir.

Əmir Qasımlı yazır ki, "... N.Nərimanovun məzmunlu həyatı və çoxcəhətli xidmətləri, təkcə Azərbaycanla məhdudlaşmayaraq bir sıra türk xalqlarının da ədəbi-mədəni tərəqqisi yoluna işıq salmışdır. "Nadir şah" tarixi faciəsi bu xalqları Şərq despotizminə və onun taxt- tac hakimiyyətinə qarşı mübarizəyə səsləmişdir". (2, 2).

Əsərin son səhnəsində yaralı Nadirin öz kor balasını qucaqlayaraq ölməsi bizə tarixdən İvan Qroznının öz kor övladı ilə qucaqlaşmasını xatırladır.

Hər hansı bir bədii əsəri təhlil etdikdə tədqiqatçı sözün estetik yaddaşına "enmək" bacarığına malik olmalıdır. Müəllifin sətiraltı ifadələrini aşkarlamaq, onu oxucuların diqqətinə çatdırmaq, gələcəkdə araşdırmaçılara istiqamət vermək tədqiqatçıdan böyük ustalıq tələb edir. Bizim gəldiyimiz qənaət belədir ki, N.Nərimanovun yaradıcılığı ali bir məqsədə - cəmiyyətin saflaşmasına, cəhalətin və avamlığın aradan qaldırılmasına, milli əxlaqi dəyərlərin qorunmasına – xidmət edir.

Ədəbiyyat

1. Həsənəli Eyvazov. Tarixi dramlarda ədəbi şəxsiyyətlərin bədii obrazlarının yaradılmasında sənətkarlıq məsələləri. www.LİT.AZ
2. Əmir Qasımlı. Türk xalqlarının ədəbi-mədəni həyatında Nəriman Nərimanovun rolu." Fil.e.n. alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2006. 22 səh.
3.Y.Qarayev. Faciə və qəhrəman. Bakı, Elm, 1965. 192səh.
4.N.Nərimanov. Seçilmiş əsərləri. Bakı, Lider nəşriyyatı, 2004, 398 səh.
5.Təyyar Salamoğlu (Cavadov). Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri. Bakı. BQU nəşriyyatı, 2008, 554 səh.
6. N.Vəzirov. Əsərləri .Bakı,"Şərq-Qərb", 2005. 424 səh.

Кенуль Гейдарова

Светские образы в трагедии "Надир шах" Н.Нариманова

Резюме

В этой статье исследуется трагедия "Надир шах", которая занимает значительное место в творчестве Н.Нариманова. Образы Шах Тахмас и Надир шаха как примеры аристократизма были вовлечены в исследование. Художественный образ Надира, который был исторической личностью, был анализирован и получены важные результаты. Автор делает замечания про внутреннюю сущность и политическую мысль Надира.

Khonul Heydarova

Aristocratic character's in N.Narimanov's tragedy "Nadir shah"

Summary

The tragedy "Nadir shah" which occupier a important place in N.Narimanov's activity is searched in the article. Shah Tahmas and Nadir shah who were exemplar of noblemen were involved in research. The character of Nadir who was a historical personality was analyzed with important results. Intense values and political opinion of Nadir's character was commented by the author.

Rəyçi: Fil.e.d. prof. Qara Namazov

ŞƏRQİYYƏ ƏHMƏDOVA
Qafqaz Universiteti
Sherqiyye.axmedova@mail.ru

DƏYİŞƏN ZAMANDA DƏYİŞMƏYƏN ETNİK TƏFƏKKÜR- CAHANDAR AĞA OBRAZINDA...

Açar sözlər: etnik, xalq ruhu, xarakter,tarixilik, təfəkkür.
Ключевое слово: этнический, дух народа, характер, историчность, **мышление**
Key words: ethnic, the spirit of the people, character, historicity, thinking.

İsmayıl Şıxlı dedikdə şəxsiyyət və yaradıcılığı xalqımızın keçmişini, müasir həyatını, keşmişi ilə indisi arasında qırılmaz daxili mənəvi əlaqəsini təcəssüm etdirən istedadlı bir sənətkar, müdrik insan, həqiqi ziyalı vətəndaş göz önündə canlanır.İ.Şıxlı cəmi 76 il yaşadı.Adi insan üçün bu , az ömür tarixi deyil, lakin İ.Şıxlı kimi ürəyi dolu, arzu ümidləri böyük, duygu və düşüncələri işıqlı olan müdrik insan, yaradıcı şəxsiyyət üçün isə əsla bəs edə bilməzdi. Ölümündən sonra da istedadlı yazıçı nəcib əməlləri, yaradıcılıq və ictimai-siyasi uğurlari ilə yaddaşlara həkk olundu, ürəklərdə məskunlaşdı, xatirələrdə qaldı və deməli əbədiyyət – ölməzlik qazandı. Ondan yadigar qalan təkcə əziz xatirəsi olmadı. Zəngin yaradıcılığı ilə yanaşı Azərbaycan romanının şah əsəri olan "Dəli Kür" romanı qaldı.

"Dəli Kür" – hər sətrini məftunluqla oxuduğum, hər səhifəsini hərisliklə bitirdiyim, qalın cildli bir roman. Yazıçı on illik zəhmətindən sonra oxucularını sevindirdi, dəyərli bir əsər yazdı. Güclü xarakterik cəhətləri ilə bir-birindən seçilən obrazlar, hadisələrdəki inandırıcılıq və təbiilik, təsvirlərdəki liriklik və reallıq, dərin psixologizm yazıçının yüksək sənətkarlıq mövqeyində dayandığını göstərən cəhətlərdir. Romanda ən kiçik təfərrüfatlar belə yazıçı süzgəcindən keçirildikdən , yüz ölçüb, bir biçildikdən sonra qələmə alınmışdır.Bu roman yazıçını daha da ucaltdi, zirvələrə qaldırdı.Yazıçı Cahandar ağa obrazı ilə sanki sübut etdi ki, qəhrəmanlığın zamanı yoxdur, sadəcə təzahür məqamı var. Bəs romanı bu qədər oxunaqlı və dəyərli edən nə idi ki, hər dəfə oxuduqca oxucunu öz əsarətində saxlamğı bacarır?

Bu yerdə ilk olaraq yazıçının tarixə olan münasibətini və əsrlər boyu xalqın təfəkküründən, ruhundan süzülüb gələn etnik təfəkkürü nəzərə almaq lazımdır. Bu anda Belinskinin sözlərini xatirladim" Biz keçmişi sorğu-suala tutub danışdırırıq ki, bizim hal hazırımızı izah etsin, gələcəyimiz barədə bir söz desin". Yaxud da xalqın qədim hikmətində deyildiyi kimi "keçmişdə yanıb getmiş külü yox, odu-alovu axtararlar." Yazıçı məhz öz zəmanəsində cərəyan edən hadisələrin ictimai-tarixi köklərini axtarmaq, araşdırmaq üçün keçmişə müraciət edir.

Müasir tarixi mərhələdə milli mənəvi-əxlaqi sərvət və dəyərlərimizi xeyli dərəcədə itirmək təhlükəsi getdikcə açıq-aşkar hiss olunur. Şübhəsiz, torpağına, xalqına, keçmişinə bağlı olan yazıçılar, ziyalılar bu cəhəti həssaslıqla duyur və milli tarixlərinə, əbədi-mənəvi sərvətlərinə müraciət edib yeni dünyanın verdiklərini milli zəmin üzərində qurmağa səy göstərirlər. Görünür İ.Şıxlını da müasir həyatdan tarixi keçmişə üz tutmağa sövq edən, onillik gərgin zəhmətin, narahat axtarış və tapıntı-

ların bəhrəsi kimi "Dəli Kür"ü yazmağa çəkən başlıca səbəb və amilləri burada axtarmaq lazımdır.

Yazıçının tarixə nəyə görə müraciət etməsi barədə düşüncələrini İ.Şıxlı belə aydınlaşdırır: "Mənim fikrimcə, bunun iki səbəbi var: birinci yazıçı müasir həyatda mövzu tapa bilmir, ikinci bu günu daha yaxşı görmək , dərk etmək üçün tarixə əl atır, tarixdə bu günün kökünü axtarır, hansı özül üzərində dayandığını göstərməyə çalışır". Göründüyü kimi, əsl yazıçı hansı dövrə müraciət edirsə etsin yaşadığı cəmiyyətin, zəmanənin bədii-estetik və ictimai idealları mövqeyindən çıxış edir, tarix onun üçün məqsəd deyil, vasitə olur. İ.Şıxlının yaradıcılığının şah əsəri olan "Dəli Kür" ü ədəbiyyatımıza bəxş etməklə yazıçı xalqın özünü, tarixini gətirdi nəsrimizə. Roman XIX əsrdə tarixi qanunauyğunluqların Azərbaycan xalqının həyatına daxil olma prosesini, adamların yaşayışında , mənəviyyatında əmələ gətirdiyi dəyişiklikləri göstərən bir əsərdir.

"Dəli Kür" təkcə müəllifin yaradıcılığında deyil, bütövlükdə milli bədii nəsrimizdə görkəmli nailliyyət , mühüm hadisə sayılır. Bu roman sadəcə əsər deyil, ruhumuza, şüurumuza, əsrlərin süzgəcindən süzülüb gələn adət-ənənələrimizə , milli xarakterimizə qayıdışdır. Romanın əks etdirdiyi həyat materialı əsasında xalqımızın bir çox tarixi milli xüsusiyyətləri , mənəvi-əxlaqi keyfiyyətləri nəzərdən keçirilir, saf kökə qayıdış, sağlam ənənəyə, zəngin folklora bağlılıq, yazıçı ideyaları , milli xarakter və milli psixologiya ətrafında söhbət açmağa, mülahizələr yürütməyə imkan verir. Məhz bu məziyyətlərinə görə roman haqqında bəzən tutarlı söz demək, yektil qənaətə gəlmək çətindir. Bu roman İ,Şıxlının vətən torpağını necə böyük məhəbbətlə sevdiyini, ana təbiətə nə qədər dərindən bələd olduğunu , onu incəliklərinə qədər necə həssaslıqla duyduğunu və yaşadığını nümayiş etdirir. Fikrimcə, milli kolorit əlamətlərini nəzərə alaraq, demək olar ki, Azərbaycan bədii nəsrində "Dəli Kür"lə yarışan ikinci bir əsər tapmaq çətindir.

Romanda təsvir olunan hadisələr və qəhramanlar uzun müddət yaddaşlardan silinmir, hər dəfə yada düşdükcə eyni psixoloji sarsıntını, həyəcanı keçirirsən. Cahandar ağa-Zərnigar xanım, Cahandar ağa –Mələk , Cahandar ağa- Şamxal, Əşrəf-Salatın-Şahnigar , Cahandar ağa- Allahyar xətləri bütün əsər boyu oxucunu intizarda saxlayır, onların mürəkkəb psixoloji sarsıntılarını, mənəvi əzablarını bütün incəlikləri ilə sərgiləyir. Təbii ki, bütün bu çarpaşıqların, ziddiyyətlərin mərkəzində heç şübhəsiz ki, Cahandar ağa obrazı durur. Cahandar ağa məhz bu xətlər, motivlər, başqa əlaqə -münasibətlər zəminində bəddi bütövlük qazanır.

Cahandar ağa dövrünün, mühitinin əxlaqi görüşlərinə , dədə-baba qaydalarına son dərəcə bağlı olan, onların doğruluğuna bütün varlığı ilə inanan real bir obazdır. Ona elə gəlir ki, bu qayda, norma, anlamlar müqəddəs və toxunulmazdır, onları dəyişmək, başqaları ilə əvəz etmək olmaz. Yazıçı Cahandar ağanı bir xətli obraz kimi təkcə ailə-məişət planında deyil, əsrin müəyyən sosial-tarixi həqiqətləri işığında da əks etdirir. Cahandar ağa bir çox hadisələrin canlı şahidi, yaxın iştirakçısı olsa da, müxtəlif çətinliklərlə tez-tez üzləşsə də, ruhdan düşüb özünü itirmir, həmişə çevik mövqe tutmağa, düşdüyü ağır vəziyyətdən çıxış yolu axtarmağa can atır. Cahandar ağa Göytəpə kəndində ən varlı, nüfuzlu, sözü keçən , hec kəsə boyun əyməyən sərbəst təbiətli, hökümətin yeni quruluş ilə barışmaq istəməyən qorxmaz ruhlu bir şəxsiyyətdir, tayfa başçısı, el ağsaqqalıdır. Bu cəhət də maraqlıdır ki, bu qədər hökmlü ata, ağıllı, tədbirli, zirək, zəhmli tayfa başçısı

kimi görünsə də, həmçinin özünəməxsus həssaslığa, incəliyə və kövrəkliyə malikdir.

Cahandar ağa şəxsiyyətini təsiq etmək üçün heç nədən çəkinmir, sözündə və hərəkətində həmişə qətiyyətli və ötkəmdir, lakin daş ürəkli, hissiz-duyğusuz, cılız adam deyil. Obrazın xarakterində müşahidə edilən möhkəmlik-kövrəklik, sərtlik-zəiflik, amansızlıq-yumşaqlıq kimi bir çox keyfiyyətlər üzə çıxır və hamısı birlikdə onun insani təbiətini, xarakterinin bütövlüyünü təmin edir

Sujetin inkişafı boyunca Cahandar ağanın ikili təzadlar içərisində- ətraf mühitlə özü arasında və öz daxilindəki üzücü ziddiyyətlər içərisində görürük. Lakin o hec bir halda geri çəkilmir, bütün hallarda özü lazım bildiyi kimi hərəkət edir. Burada diqqəti çəkən məqamlardan biri də budur ki, o, bir çox inamlı, qətiyyətli hərəkətlərtində məhz milli adət-ənənəyə söykəndiyi üçün güclü olduğu halda, həmin adət-ənəni pozduqda belə, özünə qarşı ikrah hissi doğurmur: biz onu ikiüzlü, riyakar hesab etmirik. Təbii ki, burada müəllifin "yumşaldıcı" təhkiyyəsi də öz rolunu oynayır.

Romanda təsvir olunan hadisələrdən də bəlli olur ki, baş verən proseslər XIX əsrin ortalarşından axırlarına doğru olan zamanda cərəyan edir. Çar Rusiyası öz ağalığını gündən-günə möhkəmlətməyə çalışır, bəy və ağaların hüquqlarını məhdudlaşdırır, bu zamana qədər sürdükləri həyata dəyişikliklər etməyə cəhd göstərirlər. Roman boyu da bu dəyişikliklərin izlərini görə bilirik. Bütün həyatını dədə-babalarının adət-ənənəsinə, yaşam şəraitinə uyğunlaşdirmış, onların sahib olduqları mənəvə və əxlaqi dəyərlərin daşıyıcısı və ötürücüsü ola Cahandar ağa da təbii olaraq bu hadisələrə biganə qala bilmir, dəyişən zamani, yeni qayda-qanunları qəbul etmir, yeri gəldik də çar kazakları ilə münaqişəyə girməyi belə gözə alır.

Lakin zamanın təbbi axışının, yeni quruluşun gətirmiş olduğu dəyişikliklərin qarşısında tab getirmek mümkün deyil. Romanın baş qəhrəmanı olan Cahandar ağanın əsas mübarizəsi və faciəsi də məhz bu konteksde izah olunmalıdır.

Cahandar ağa artıq zəmanənin dəyişdiyini hiss edir, lakin, öz mövqeyindən asanlıqla əl çəkən, hədə-qorxudan ürkən adam deyil. [4, s.5]

Cahandar ağa milli həyatın labüdən dəyişməsini daxilən yaşayan , buna hec cürə müqavimət göstərə bilməyən və təbii ölümünü yaşayan milli insanın taleyini əks etdirir. Qəhrəman belə hesab edir ki, əsrlərdən bəri xalqın düşüncəsində möhkəm kök salmış, mənfi adət belə olsa dəyişməz və müqəddərsdir. Buna görə də Cahandar ağanın dünyagörüşü ilə zaman arasında dərin uçurum yaranır. Bu uçurum sonda qəhrəmanın labüd məğlubiyyətini də, sözsüz ki, qaçılmaz edir. Cahandar ağa dədə-baba qaydalarının doğruluğuna, müqəddəsliyinə və toxunulmazlığına bütün varlığı ilə inanır. Məhz bu qaydaların sarsılmazlığı naminə doğma bacısını qətlə yetirir, oğlu Şamxalla küsü saxlayır, pristavla razılaşmır və s. Bəlkə də ənənvi həyat tərzinə sonsuz inam və sədaqət onun təbiətini hər hansi ikiləşmədən xilas etmiş, onun xarakterinə heyrətamiz bir bütövlük vermiş, milli psixologiyasını çox qabarıq nəzərə çarpdırmışdır. Beləliklə, sətr, amansız köhnə dünya onun simasında təkcə özünün əzəmətli təmsilçisini deyil, həm də mötəbər, tam sədaqətli və qətiyyətli havadarını tapmışdır. Onun bütün narahatlığı və fəaliyyəti dünyagörüşünün, mühakimələrinin, xasiyyətinin bağlı olduğu sabiq dünyanın təstiqi və təntənəsi, əbədiliyi naminədi. [2, s.139]

Cahandar ağa Azərbaycan mülkədarının bəlkə də ilk nümayəndəsidir ki, dəyişən zəmanəyə, yeni adət-ənənlərə boyun əymədi. Ondan əvvəlki və sonrakı mül-

kədarlar çox tez bir zamanda dəyişdilər, başqalaşdılar, çar quluğuna girdilər, amma Cahandar ağa dəyişmədi. [1. s,231]

Pristavla qarşılaşdıqdan, müstəmləkəçi hökümətin gücünü duyduqdan sonra Cahandar ağa dədə-baba qaydası ilə dolanmağın, "at belinde gəzib ağayanalıq elemeyin" artıq mümkün olmayacağını yəqin edir, müstəqillik və sərbəstliyin itirilməsinə dözə bilmir: " Əvvəllər bu tərəflərə hökümət adamlarından ayda- ildə bir dəfə hərlənən olmazdı. Amma indi bir şey olam kimi atlı kazaklar tökülüb gəlir. Belə getsə onlar buraları su yoluna çevirəcək, kəndi ayaq altında qoyacaq və hər işə qarışacaqlar. Bir az da keçəndən sonra lap kişiliyimizi də əlimizdən alacaqlar. Pristav həftədə bir gəlib bizi yığacaq, biz də mal kimi gözümüzü döyə-döyə baxacağıq. Yox, bu kişilikdən deyil". [5, s.263] Göründüyü kimi Cahandar ağa sadəcə var-dövlət ,bir parça torpaq itirməkdən yox, dədə-babadan qalma yaşayış tərzinin, böyük-kiçik münasibətlərinin pozulmasından, indiyə qədər sahib olduqları kişilik əxlaqlarının əllərindən alınmasından, nəticədə hərc-mərclik yaranacağından qorxur.

Zaman keçdikcə qəhrəman yaranan uyuşmazlığı daha aydın duyur və hiss edir. Cahandar ağa artıq bu dünyadaya qarşı mübarizədə məğlub olmuşdur. Bir yandan rusların gəlib onun dədə-baba yurdunda at oynatması, bir yandan da gədə-güdəliyin, namərdliyin çoxalması və ruslarla əlbir olması Cahandar ağanı qəzəb dolu bir sarsıntı tufanının içinə alır. Bic əyyamı, namərd dünyası onu da min bir fitnə-fəsadla mərdlik, igidlik, kişilik taxtından salmağa çalışır."At sahibinin yüyəni boşaltdığını hiss edib Acığırla sahilə endi. Cilovu dartıb suya girdi. Cahandar ağa ona mane olmadı. Doyunca şorultu ilə su içməsinə imkan verdi. Özü də papiros eşib yandırdı.Yenə mahnıya qulaq asdı:

Belə zaman hara, qoc igid hara?
Mərdləri çəkirlər namərdlər dara.
Baş əyir laçınlar, tərlanlar sara,
Mənmi qocalmışam,ya zəmanəmi?

Onun iri həbəşi dodaqlarında təəssüfqarışıq bir məyusluq duyuldu. Kişi uşaq kimi dərindən köksünü ötürdü. Mahnının sözlərini astaca təkra etdi: "Mənmi qocalmışan, ya zəmanəmi?" [5. s, 379-380].

Qeyd etmək lazımdır ki,mahnının məhz axırıncı misrasını Cahandar ağa heç də boş yerə təkrarlamır. Çünki mövcud mühit, zəmanə ona meydan vermir. Mərdlik, igidlik zamanının , bahadırlıq, kişilik dövrünün öz yerini namərdlik, biclik, əyrilik əyyamına verməsi onun gözündə təkcə özünə yox, həm də dünyanı, zamanı qocaldıb. Buna görə də "mənmi qocalmışam, ya zəmanəmi"- fəlsəfi sualını təkrarlamaqla Cahandar ağa öz varlığında , ruhunda yaşatdığı hisslərə mövcud cəmiyyətdə nə üçün yer olmamasınının cavabını axtarır.

"Hər cür insani hissdən məhrun edilmiş bir müqəvva olmayan", canlı bir insan –Cahandar ağa obrazı bizim nəsrimizə sözün əsl mənasında milli xarakter kimi həkk olundu. Bu belə də olmali idi .Çünki romanın mövzusu xalqdan, onun yaşayışından, milli mənəvi dəyərlərindən, etnik təfəkküründən gəlirdi. Cahandar ağanın bir milli xarakter kimi əsas xüsusiyyəti təkcə ailədə, namus-qeyrət çərşivəsində deyil, ondan kənarda da meydana çıxır. O, hiss edir ki, dövran dəyişir, igidlik, mərdlik kimi xüsusiyyətlər tədricən aradan çıxır, lakin yenə də qürurundan dönmür .Zəmanə dəyişir, Cahandar ağa isə dəyişmir. Bəs bu paradoksun səbəbi nədir, onun kökləri haradan gəlir?

Bu obrazın məhz İ.Şıxlı tərəfindən yaradılması Nizami Cəfərovun sözləri ilə desək, onun əsl "tipoloqiya"sını müəyyənləşdirir. Həmin obrazı hər hansı yazıçının yox, məhz İ.Şıxlının tərəfindən yaradılması təbiidir. Çünki yazıçı bu obrazda-Cahandar ağada hər şeydən əvvəl, hətta onun prototipindən də əvvəl özünü görürüdü, öz şəxsiyyətini ifadə edirdi. Cahandar ağa bir xarakter olmaq etibarilə XİX əsr üçün nə qədər tipik idisə, XX əsr üçün də bir o qədər tipik idi. O, xalq ruhunun , etnik təfəkkürünün mücəssəməsi olaraq mürəkkəb tarixi şəraitdə təzahür edib milləti öz kökünə bağlamaq missiyasını yerinə yetirirdi. Əsərdə Cahadar ağa kimi əsl Azərbaycan kişisinin obrazını yaratmaqla , İ.Şıxlı obrazlı desək, Kürün sahillərində qərar tutan qədim bir elin hadisələrini, həyati yaşantılarını canlandırır. Bu əsərdə cərəyan edən hadisələrə İ.Şıxlı bir növ indi bir qədər bizlərdə zəifləyən, öləziyən qeyrət hisslərinin, vətənə bağlılıq ruhunun qüvvətlənməsinə yeni bir cığır açmış olur. Bu cığır bədiilikdən daha çox, özündə real həyatın yaşantılarını, iztirablarını əks etrimişdir.

Bu əsərdə yazıçı sanki qarşısına belə bir məqsəd qoyur: xalqımızın keçdiyi yolun bir lövhəsini, bir mərhələsini , babalarımızın təfəkkür və düşüncə tərzini və bunun yaratdığı əxlaqı prinsipləri, kişilik aləminin , yeni bir ictimai formasiyanın nəfəsi ilə üz-üzə gəldikdə düçar olduğu faciəli tənəzzülü verməklə onu öz tarixi ilə üzləşməyə səsləyir.

Dərindən düşünərkən Cahandar ağanın faciəvi şəxsiyyət olduğunu, əsər boyu kef damaq çəkməkdən çox, ruhi – mənəvi izdirablar içərisində yaşadığının şahidi oluruq. Bu tragigliyin səbəbi təkcə qəhrəmanın təkliyində deyil, yuxarıda da qeyd olunduğu kimi onun tarixi zamanla ayaqlaşa bilməməsindədir. Əsərin sonunda isə qəhrəmani ölumu ilə həm özünü təstiq etdi, həm də mənəvi əzmi, milli ruhun ölməzliyini. Cahandar ağa obrazı öz spesifik xarakteri ilə ədəbiyyatımıza gəldiyi andan etibarən yaddaşlarda dərin iz saldı, həm daxili ziddiyyləri , həm də xarici görünüşü ilə əzəmətli insan heykəlini gözlər önündə canlandırdı .

Mövzunun xalqdan gəlməsi, Cahandar ağa obrazında bütün etnik təfəkkürün öz təzahürünü tapması onu dəyişməyə qoymadı .Dədə-babalarımızdan gələn genetik kodlar Cahandar ağanı zamana, dövrə, mühitə qarşı qoydu, yeni adət -ənənələrə boyun əyməməyə çağırdı, onun polad kimi iradəsini sındırmadı. Bu obraz sanki xalqın yaddaşından yavaş-yavaş unudulmağa başlayan etnik təfəkkürü oyatmağa başladı, onun hardan gəlib, hara getdiyini göstərmətə çalışdı. Müasir dövrümüzdə milli hisslərin, xalq ruhunun , etnik təfəkkürün aşındığı bir zamanda Cahandar ağa obrazı sanki özünüdərk kredosuna çevrilir. Milli-ictimai təfəkkürün rezonansını yaratmağı qarşısına məqsəd qoyur. Və "Dəli Kür" ün qəhrəmanı Cahandar ağa öz böyük şəxsiyyətini təstiq etmək üçün təkcə İ.Şıxlıya yox, bütün Azərbaycan xalqına lazım olur.

Nəticə olaraq, Azərbaycan romanının ən dəyərli və ən kamil nümunələrindən biri olan "Dəli Kür" hadisələrin cərəyan etdiyi dövr haqqında , xalqımızın milli xarakteri , ictimai-mənəvi varlığı barədə ədəbiyyatımızda və həyatımızda yeni səhifə açmış oldu. Nizami Cəfərovun dediyi kimi Cahandar ağa kimi kişilər bu gun bizə dünənkindən daha çox lazımdır, çünki biz bu gun özümüzü dərk etməyə dünəndən daha çox ehtiyac hiss edirik. Sabah isə bu günkündən də böyük ehtiyac hiss edəcəyik

Ədəbiyyat:

1. Axundov Yavuz. Ədəbi portretlər, Bakı, “Adiloğlu”, 2004
2. Hüseynov Akif. Müxtəlifliyin birliyi, Bakı, “Yazıçı”, 1983
3.İmanov Muxtar. Müasir Azərbaycan nəsrində psixologizm, Bakı,”Elm”, 1991
4.Nəbiyev Bəkir. İ.Şıxlının “Seçilmiş əsərləri”nə müqəddimə. İki cilddə, I cild, Bakı, 1975.
Şıxlı İsmayıl.Dəli Kür, Bakı, “Yazıçı”, 1982

Ш.Ахмедова

Переменная постоянной времени этнических когнитивно-белое изображение Джахандар

Резюме

Имеющий своеобразную роль в развитии и качественном обновлении азербайджанской прозы ,богатый и многогранный творческий путь И.Шихлы отличался народным духом и национальным характером во всех этапах и моментах. Выступающая главным ,решающим фактором в завоеванных творческих успехах выдающегося литератора глубокая привязанность с народными предпосылками и национальными ценностями ,является реальностью, усматриваемой с первого взгляда. В этой статье ,являющийся великим монументом искусства писательского пера –романа «Дели Кюр» еще раз освещен великий характер главного героя Джахандара ага-его крепкая воля и неизменная личность подчеркнуты внов.

.

SH.Axmedova

Variable time constant of ethnic cognitive-white image of Jahandar

Summery

Rich and multisided literary activities of I. Shixli who has distinctive role in the development and renovation of Azerbaijani fiction always differs with its public spirit, national character in all stages and moments. Introducing of an outstanding writer’s deep-rooted adherence to the nation, national values as one of the decisive factors that gained successes in the fiction is a significant reality felt at first glance.

In this article the splendid figure of Cahandar aga the main character of out-standing work of art – “Deli Kur” was highlighted, his strong will and invariable personality was emphasized once more.

Rəyçi prof . Akif Hüseynov

QÖNÇƏ HACIYEVA
ADU
Goncha-hajiyeva@rambler.ru

TAPŞIRIQ ƏSASLI YANAŞMADAN İSTIFADƏ EDƏRƏK TƏLƏBƏLƏRİN ŞİFAHİ NITQ ÜNSİYYƏTİNİN İNKIŞAF ETDİRİLMƏSİ YOLLARI

Açar sözlər: tapşırıq, şifahi nitq ünsiyyəti, effektivlik, kommunikativ.
Key words: task, oral speech communication, efficiency, communicative.
Ключевые слова: упражнение, устное речевое общение, эффективность, коммуникативный.

Müasir dövrdə xarici dillərin öyrənilməsi və tədrisi məsələsi cəmiyyətin sosial sifarişinə çevrilmişdir. İndi təhsilin müasir həyatla əlaqəsinin daha da möhkəmləndirilməsi prinsipi, xarici dil təlimində praktik (kommunikativ) məqsədin ön plana çəkilməsini tələb edir.

Dilə praktik yiyələnmə öyrənilən xarici dildən ünsiyyət vasitəsi kimi istifadə etməyi nəzərdə tutur. Məlum olduğu kimi, ünsiyyət nitq fəaliyyətinin müxtəlif növləri (eşidib-anlama, danışma, oxu və yazı) vasitəsilə yaradılır. Unutmaq olmaz ki, xarici dil dərslərində təlimin tələbə qarşısında qoyduğu əsas vəzifə şifahi və yazılı nitq vərdişlərinə yiyələnmək, yəni həm şifahi (akustik) və həm də yazılı (qrafik) yolla qarşılıqlı bir-birini başa düşmək bacarıq və vərdişləri qazanmaqdır. Bu məqsədləri lazımınca həyata keçirmək üçün, dil tədrisi metodikasının istiqamətini şifahi nitqə yönəltmək lazımdır. Tələbələrin şifahi nitqinin inkişafı çətin bir psixoloji prosesdir. Belə ki, tələbələrə ingilis dilini tədris etmək, onlara çoxlu sayda sözlər öyrətməklə, onların söz ehtiyatını artırmaq, hələ onların şifahi nitqinin inkişaf etməsi demək deyildir. İlk növbədə tələbədə şifahi nitq bacarıq və vərdişləri yaradılmalıdır.

Şifahi nitq məsələsi ingilis dilinin tədrisində ən çətin və metodikası ən mübahisəli məsələlərdən biridir. Proqramda göstərilən və qarşıya qoyulan məqsədləri yerinə yetirmək üçün dil tədrisi metodikasının istiqamətini şifahi nitqə yönəltmək lazımdır. İlkin mərhələdə müəllimlərdən tələb olunur ki, tələbələrdə oturub işləmə qabiliyyətini, müəllimi və tələbə yoldaşlarını dinləmə, onların nitqinə diqqətli olma, bir iş üsulundan digərinə keçmə bacarıq və vərdişlərini yarada bilsinlər. Bu məqsədə nail olmaq üçün hər şeydən əvvəl tələbələrin lüğət ehtiyatını müntəzəm olaraq və ardıcıl şəkildə genişləndirmək, şifahi nitq bacarıq və vərdişlərini inkişaf etdirmək tələb olunur. Tələbələrin öyrənmiş olduqları sözləri, ifadələri oxu, yazı, şifahi söhbətlərdən istifadə edərək elə möhkəmləndirmək lazımdır ki, onlar istənilən vaxt onlardan (sözlər, ifadələr) nitq prosesində çətinlik çəkmədən istifadə edə bilsinlər. Şifahi nitqə yiyələnmək üçün yalnız sözləri bilmək kifayət deyil, tələbə öyrəndiyi sözlərdən məharətlə istifadə edib cümlə qurmağı və bu sözləri cümlələrdə əlaqələndirməyi də bacarmalıdır. Təcrübə göstərir ki, çox vaxt tələbələr geniş söz ehtiyatına malik olmalarına baxmayaraq öz fikirlərini xarici dildə sərbəst ifadə edə bilmirlər; ya həmin sözləri düzgün tələffüz etmir, ya da onlardan cümlə qurmağa çətinlik çəkirlər. Elə buna görədir ki, tələbələri şifahi nitq bacarıq və vərdişlərinə

möhkəm yiyələndirmək üçün elə tədrisin ilkin mərhələsindən onlara fonetika, lüğət və qrammatika sahəsində verilən biliklər praktik məqsədə yönəldilməli şifahi nitq bacarıq və vərdişlərinə çevrilməlidir. Müəllimlər yuxarıda göstərilənlərə həm məşğələ, həm də məşğələlərdən kənar işlərin icrası zamanı nail ola bilər.

Şifahi nitq ünsiyyəti eyni zamanda nə demək istədiyini və dediyini başa düşməyi tələb edən ritorik bacarıqdır. Şifahi nitq ünsiyyətinin bir sıra elementləri mövcuddur ki, şifahi nitq ünsiyyəti bacarığına yiyələn tələbə həmin elementlərdən xəbərdar olmaqla onlardan məqsədyönlü şəkildə istifadə edə bilər. Ünsiyyət zamanı istifadə edilən dildən başqa effektiv ünsiyyət saxlamaq üçün tələbənin öyrənəcəyi bir neçə başqa keyfiyyətlər də mövcuddur. Bu keyfiyyətlərə auditoriyanın başa düşülməsi, auditoriyaya uyğunlaşmaq, bədən hərəkətləri, aktiv və refleksiv dinləmə, dəqiqlik, müxtəsərlik və s. daxil edilir. Bakalavr səviyyəsində tələbələr dilin əsaslarına artıq yiyələnmiş olurlar. Bu səviyyədə müəllimdən tələb edilən əsas tələb tələbələrə yalnız danışıq bacarıqlarını deyil, eyni zamanda ünsiyyət saxlamaq bacarıqlarının öyrədilməsidir. Bu məqsədlə müəllim tələbələrin ehtiyaclarından xəbərdar olmalıdır. Buna isə tələbələrin auditoriya şəraitində bir sıra tapşırıqların yerinə yetirməsi nəticəsində nail olmaq olar. Elə buna görə də tapşırıq əsaslı yanaşma bu bacarıqların öyrədilməsi və öyrənilməsi prosesində müvafiq yanaşmalarından biri hesab oluna bilər. Beləliklə, tapşırıqlara əsaslanan yanaşmanın şifahi nitq ünsiyyətinin öyrədilməsinə necə tətbiq edildiyini birlikdə şərh edək.

Tapşırıq əsaslı proqram son iki onillik ərzində dilin funksional təsvirlərinə və kommunikativ dil öyrətmə metoduna yaranan maraq nəticəsində bir çox tədqiqatçıların və tədris proqramı tərtibatçılarının diqqətini cəlb etmişdir. Hər halda, tapşırıq əsaslı nəzəriyyə başlığı altında bir sıra yanaşmalar məs. "prosedural proqram", "proseslər proqramı", "tapşırıq əsaslı dilin öyrədilməsi" və s. mövcud olmuşdur. Daha fundamental səviyyədə "tapşırıq" termini mürəkkəb bir anlayış kimi qəbul edilmiş və müxtəlif, tənqidi, nəzəri və pedoqoji cəhətdən təhlil edilmişdir.

1980-cı ilin ortalarından tapşırıq əsaslı dilin öyrədilməsi və öyrənilməsi sahəsində böyük inkişaf müşahidə edilmişdir. Bu maraq "tapşırıq" terminin vacibliyinin necə böyük əhəmiyyət daşıdığının ikinci dilin öyrədilməsi üzrə tədqiqatçılar və dil müəllimlərin tərəfindən anlanılmasından yaranmışdır. "Tapşırıq" termini iki mənada - tədqiqat üçün tələbələrin özlərinin təklif etdiyi nümunələr və dil öyrədilməsi prosesinin məzmununu və metodologiyasını təşkil edən əsas vasitə kimi başa düşülür.

M. Bygate, P. Skehan və M. Svan tapşırıq sözünün mənasını konteksdən asılı olaraq izah etməyə çalışmışlar. Tapşırıq "iş planı" kimi tədqiqat işinin aparılması və ya dilin öyrədilməsi üçün materialların formasını götürür. "İş planı" dedikdə buraya daxildir: (1) daxil edilənlər: (tələbələrin istifadə edəcəkləri məlumatlar) və (2) tələbələrin nail olacağı nəticələrlə bağlı olan bir sıra təlimatlar (1.18).

H. Widdowson "çalışma" və "tapşırıq" terminlərinin bir-birindən fərqləndiyini qeyd edir. Mənalarına, məqsədlərinə və nəticələrinə görə onlar müxtəlif istiqamətdə inkişaf edirlər. Çalışma şifahi nitq ünsiyyəti bacarıqlarının öyrənilməsinin ilkin şərti kimi linqvistik bacarıqların inkişaf etdirilməsi ehtiyacına əsaslandığı halda, tapşırıq linqvistik bacarıqların şifahi nitq ünsiyyəti zamanı inkişaf etdirilməsi nəzəriyyəsinə əsaslanır (5.328).

Tapşırıq əsaslı dil öyrədilməsi prosesinin bir sıra məqsədləri vardır. J. Willis bu istiqamətdə səkkiz məqsəd müəyyən etmişdir:

1. dil öyrənənlərə bildikləri dil biliklərini sınaqdan keçirmək imkanını vermək;
2. dil öyrənənlərə qeyri-ixtiyarı ünsiyyət saxlamaq təcrübəsini təmin etmək;
3. dil öyrənənlərə eyni mənaların digərləri tərəfindən necə ifadə edildiyi imkanını vermək;
4. dil öyrənənlərə növbə ilə danışmaq imkanını vermək;
5. dil öyənənlərə dildən məqsədyönlü və kooperativ şəkildə istifadə etmək imkanı;
6. dil öyrənənlərin bir-iki cümlə ilə məhdudlaşan mühitə deyil, tam ünsiyyət mühitinə cəlb edilməsi;
7. dil öyrənənlərə kommunikativ strategiyaları təcrübədən keçirmək imkanı vermək;
8. kommunikativ məqsədlərə çatmaq üçün tələbələrin öz inamını təkmilləşdirmək imkanı təqdim etmək; (4, 46)

Bu məqsədlər iki ümumi hədəfdə birləşir: kommunikativ effektivlik və ikinci dilə yiyələnmə. J. Willisin müəyyən etdiyi məqsədlərdə maraq doğuran nüanslardan biri, bu məqsədlərdən yeddisinin kommunikitav effektivlik, yalnız birinin, yəni üçüncü məqsədin ikinci dilə yiyələnmə ilə bağlı olması ilə əlaqədardır. Bu onunla izah olunur ki, dil müəllimləri və öyrədənləri arasında yayılmış belə bil nəzəriyyə mövcuddur ki, tapşırıq əsaslı yanaşma ilk növbədə yeni linqvistik bacarıqlarla tanışlıqdan daha çox tələbələrin hədəf dildə danışıq bacarıqlarının təkmilləşdirilməsinə yönəlmişdir. Bu yanaşma Long, M.Skehan və M.Svan kimi tədqiqatçıların tapşırıqların dilə yiyələnmə bacarıqlarına necə təsir göstərməsi nəzəriyyəsi ilə ziddiyyət təşkil edir.

Nəzəri perspektivlər dildən effektiv istifadəyə səbəb olan tapşırıq əsaslı yanaşmanı ikinci dilə yiyələnməyə səbəb olan tapşırıq yanaşmasından fərqləndirilməyi təklif edir. Belə ki, tapşırığın icrasında əldə edilən kommunikativ effektivlik ikinci dilin yiyələnməsinə yardım göstərən interaktiv vəziyyəti yaratmır. Tələbələr tapşırıqları mənaları müəyyən etmədən və ya linqvistik formadan istifadə etmədən yerinə yetirə bilərlər. Belə etməklə tələbələr əsas diqqəti leksikləşdirilmiş sistemə yönəltmiş olurlar. Eynilə, dildən istifadə etməklə tələbələrdə özünə-inam hissi aşılamaqla kommunikativ bacarıqlarının təkmilləşdirilməsinə yönəlmiş tapşırıqlar və ya kommunikativ strategiyaları təcrübədən keçirmək üçün təmin edilən imkanlar tələbələrin linqvistik bacarıqlarını inkişaf etdirə bilmir. Bu səbəbdən müəllimlər kommunikativ effektivliyə və ya ikinci dilin öyrədilməsinə yönəlmiş tapşırıqların seçilməsinə diqqətlə yanaşmalıdırlar.

Danışıq bacarıqlarının öyrədilməsinin ilkin mərhələsində müəllimin əsas məqsədi istifadəsi zamanı daha çətin olan funksional dil sistemini təqdim etməkdən ibarətdir. Yeni dildə öz fikirlərini ifadə edən zaman fikirlərini müvafiq olaraq cümlənin necə qurulmasına deyil ifadə etmək istədikləri mənada cəmləşdirmək üçün tələbələri müxtəlif funksiyalarda dil təcrübəsi ilə təmin etmək müəllimlərin əsas vəzifələrinə daxildir. Bunun üçün auditoriya məşğələləri zamanı intensiv sürətdə tapşırıqlar yerinə yetirmək lazımdır. Bu tapşırıqlar maraqlı təşkil olunsa, müxtəlif oyunlar bu işə cəlb olunsa tələbələr bu tapşırıqları öz istəkləri ilə təkrar-təkrar edə-

cəklər. Obyektlər, cd-romlarla və ya kasetlərlə müşayiət olan təqdimatlar tələbələrin fikrini cəlb etməkdə köməklik edəcəkdir. Əsas olaraq tələbələr müəllimlər tərəfindən inandırılmalıdırlar ki, öyrəndikləri və təcrübədən keçirdikləri biliklər ünsiyyətin əsas hissəsini təşkil edir.

Dil alətindən şifahi nitq ünsiyyətində istifadə etmək üçün bu alətin icra etdiyi funksiyaları və mexanizmləri başa düşməliyik. M.K. Halliday ana dilinə yiyələnən tələbələr üçün dilin yerinə yetirdiyi əsas funksiyaları müəyyən etmişdir. Bu təhlildən ikinci dil bacarıqlarını tələbələrə öyrədən, onları müxtəlif məqsədlər üçün istifadə edə biləcək alət ilə təmin edən müəllimlər faydalı təlimat kimi istifadə edə bilərlər. Sadə funksiyalarının mexanizmlərinin başa düşülməsi və onlara yiyələnmə şifahi nitq ünsiyyətinin öyrədilməsinin ilkin mərhələsi üçün mühüm əhəmiyyət kəsb edir. Hallidayın irəli sürdüyü əsas funksiyaların qısa təsviri aşağıda verilmişdir:

1. *İnstrumental:* "I want" funksiyası. Tələbələr nitq ünsiyyəti zamanı ilk növbədə öz arzu və istəklərini ifadə etmək ehtiyacını duyurlar. İkinci dilin sadə cümlə quruluşlarından istifadə etməklə tələbələr bu istəklərini necə ifadə etmələrini öyrənməlidirlər. "I want," "I would like," Would you be so kind," "Please let me have," Could you possibly find me," və digər ifadələr bu istiqamətdə əsas ifadələr hesab olunur.

2. *Requlyator:* "Do as I tell you " funksiyası. Bu qaydaların, təlimatların, əmr və təkliflərin dilidir. Bu dilə sadə kommunikativ oyunlar vasitəsilə ilkin kurslarda yiyələnirlər. Bu funksiyada dildən digər tələbələrin tapşırığı yerinə yetirmək və ya qrup halda tapşırıqları yerinə yetirmək üçün istifadə edilir.

3. *İnteraktiv:* "Me and you" funksiyası. Xarici dili öyrənənlər üçün bu funksiyaya hər bir dildə qəbul edilmiş etiket qaydaları, salamlaşma, sağollaşma, minnətdarlıq bildirmə, arzuların bildirilməsi, üzr istəmək qaydaları, ümumiyyətlə ünsiyyət saxladığın şəxslə rahat ünsiyyət saxlamaq bacarığı daxildir. Bu ifadələrin əksəriyyəti sadə dialoqlar vasitəsilə öyrədilə bilər və auditoriya məşğələləri zamanı həmin ifadələrdən müntəzəm olaraq istifadə edilməlidir.

4. *Şəxsi:* "Here I come " funksiyası. Bu funksiya tələbələri özləri haqqında danışmağa, düşüncələrini ifadə etməyə, hiss və təcrübələrinin bölüşdürülməsinə imkan verən humanistik tekniklər vasitəsilə yeni bir istiqamət qazanmışdır. Gərginliyi və çaşqınlığı aradan qaldırılmasına yönəlmiş ümumi izahatlari ilkin məşğələlər zamanı təcrübədən keçirilə bilər.

5. *Evristik:* "Tell me why" funksiyası. Yeni dil öyrənənlər üçün sual formalarından istifadə problemli məsələlərdən biridir. Əksər məşğələlər zamanı sualları müəllimlər qoyur və tələbələr suala əsasən müəyyən informasiya verirlər. Tələbələr kiçik qruplarla işlədikdə, ingilis dilində maraqlı müzakirələr aparmaqla bu funksiyanı inkişaf etdirə bilərlər. İştirakçılardan çoxlu sualların verilməsini tələb edən çox saylı kommunikativ oyunlar məşğələlər zamanı asan icra edilir və bu cür oyunlara məşğələlər zamanı təkrar-təkrar müraciət etmək məqsədəuyğundur.

6. *Təxəyyüllü:* "Lets pretend" funksiyası. Hipotezə yaratmaq üçün istifadə edilən dildir. "If I were you," "Suppose you were that," "It might be possible,"- bu cür modellərdən, müxtəlif xəbər şəkilli ifadələrdən istifadə edilir. Bu cür ifadələrdən istifadə tələbələrdən kreativlik tələb edir.

7. *Məlumatlandırıcı:* "I have got something to tell you" funksiyası. Nəqli-təsdiq və nəqli-inkar cümlələrin işlədilməsini tələb edir. Əsas diqqət yalnız sadə

cümlələrin istifadəsinə deyil, eyni zamanda tabeli və tabesiz mürəkkəb cümlələrin düzgün qurulmasına və yerində işlədilməsinə verilməlidir. İndiki, keçmiş və gələcək zamanda olan cümlələrin düzgün yerində işlədilməsi ilkin kurslarda öyrədilməlidir. (28, 109)

Kommunikasiya aktı fikirlərin tez bir zamanda mübadiləsini tələb etmir. Danışan müəyyən mənanı ifadə etmək üçün müvafiq elementlərin kombinasiyasını axtardığından nitq aktı pauzanı tamamlayan tərəddüdlər, şablon ifadələr, sözlərin təkrarı ilə müşayiət olunur. Buna zidd olaraq, formal danışıq bacarıqlarına yiyələnən tələbələr məşğələlər zamanı yalnız dəqiq, tərəddüd etmədən tez bir zaman kəsiyində cavab verməyə can atırlar. Qeyd etməliyik ki, kommunikasiya prosesi avtomatik həyata keçirilən bir proses deyildir. Bu proses istənilən mənanın çatdırılması üçün müvafiq konstruksiyanın və sözlərin seçilməsi üçün bir sıra pauzaların edilməsini tələb edir. Tələbələr bu mərhələdən keçən zaman müəllimlər səbirli və təmkinli olmalıdırlar. Tələbələrdən tamamilə düzgün qrammatik formalarının və cümlə quruluşlarının düzəldilməsini, o cümlədən yerində seçilmiş leksik vahidlərin işlədilməsini tələb etmək olmaz.

Tələbələr şəxsi kommunikasiya prosesində istifadə etdikləri bütün seqmentləri bədii cəhətdən dolğun qurmağa məcbur deyillər. Bu fikirlərin ifadəsi prosesini çətinləşdirə bilər. Tələbələr nitqin istifadə edildiyi mühitdən asılı olaraq elementləri seçirlər. Ümumi istifadə edilən ifadələr *(last night, in class, despite everything);* mübtəda-fel birləşmələri *(I ll go, he can not);* ünsiyyətin şablon ifadələri *(would not you know it! you are welcome)* və cümləni başlamaq və sona çatdırmaq üçün istifadə etdiyimiz *(I just wanted to know, by the way; you know)* ifadələr məşğələlər zamanı edilmiş təcrübə vasitəsilə yada salınır.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Bygate M. Skehan P. and Swain M. editors: Researching pedagogic tasks: Second language learning, teaching and testing, Marlow, Essex, Longman,258p.
2. Jack Richards. Methodology in language teaching. An anthology of current practice. Edited by J. Richard, W. Renandya. Cambridge University press, 2002, 423 p
3. Jeremy Harmer. The practice of English language teaching. New York, Longman, 2007, 448 p.
4. Willis J. A framework for task based learning. London: Longman, 1996.
5. Wilga M.R. Teaching foreign language skills. Second Edition. The University of Chicago. 563 p
6. Widdowson, H.: Skills, abilities and contexts of reality. Annual review of applied linguistics, 1998, 323-332 p

Developing students' oral speech communication through task-based learning

Summary

Spoken language is used less confidently by learners, and this has become a challenge for most teachers. This article discusses the opportunities for the develop-

ment and improvement of oral speech communication through task-based learning. Task-based learning is the methodology that was adopted for this research. In TBL teachers ask the learners to carry out a series of tasks for which they will need to learn and recycle some specific items of language. Useful tasks were explored for encouraging oral input so that they could be implemented as part of the habitual work in class.

Разработка устного речевого общения у студентов через обучение на основе заданий

Резюме

Разговорный язык используется менее уверенно учащимися и это стало проблемой для большинства учителей. В этой статье обсуждаются возможности для развития и совершенствования устной речевой коммуникации через обучение на основе заданий. Обучение на основе заданий является методом, который был принят для данного исследования. В обучении на основе заданий учителя задают учащимся ряд задач, для которых они должны будут учиться и переработать некоторые конкретные элементы языка. Полезные задачи были исследованы для поощрения устных навыков, так что они могут быть реализованы в рамках привычной работы в классе.

Rəyçi: prof . Hüseynzadə Gülnar

XURAMAN HÜMMƏTOVA
AMEA Nizami adına Ədəbiyyat İnstitutu
hummatovax@mail.ru

ŞAH İSMAYIL XƏTAİ: SİYASİ-POETİK ÖZÜNÜDƏRKİN QIZILBAŞLIQ MODELİ

Açar sözlər Xətai, qizlibaşliq modeli, problem, təsəvvüfü ideya.
Ключевые слова: тасаввуфская идея, Хатаи: кызылбашская модель, проблемы
Key words: Khatai: Gizilbashliq model, problem, Sufism idea

XVI əsr Azərbaycan ədəbiyyatı tarixi onunla əlamətdardır ki, bu əsrdə təsəvvüfi ideya Azərbaycan milli düşüncəsinin fövqünə qalxaraq onun milli dövlətçiliyinin qurulmasında əsas rol oynayır. Şah İsmayıl Xətainin qurduğu dövlətdə qızılbaşlıq ideologiyasına əsaslanan səfəvilik təriqəti Azərbaycan cəmiyyətinin toparlanmasında, vahid milli ideya ətrafında birləşməsində unikal rol oynayır. Dövlət adamı olmaqla bərabər, gözəl poetik istedada malik olan Xətai ana dilini, ana dilində yaranan ədəbiyyatı milli dövlət quruculuğunun əsas ideoloji prioritetlərindən birinə çevirməklə təsəvvüfü birbaşa milli ideya ilə qovuşdurur.

Qeyd etməliyik ki, Şah İsmayıl Xətai haqqında Azərbaycan tarixi və ədəbiyyatının görkəmli siması kimi çoxsaylı tədqiqatlar aparılmışdır. Bundan dolayı xüsusilə son dövrlərin tədqiqatları nəzərə alınmaqla tədqiqatımızın məqsəd və vəzifələrindən irəli gələn əsas məsələyə – təsəvvüfün Azərabaycan ədəbiyyatının inikişafında Xətai yaradıcılığının nümunəsində oynadığı rolun özünəməxsus cəhətlərinə toxunacağıq.

Xətai son «Azərbaycan ədəbiyyatı tarixi»ndə təsəvvüfi dünyagörüşü baxımından Həllac Mənsur və Nəsimi kimi «ənəlhəq» ideyasına tərəfdar olan panteist kimi səciyyələndirilmişdir (1, 418). Belə bir bağlılıq İ.Həmidov tərəfindən Nəsimi və Xətai yaradıcılıqlarındakı Leyli və Məcnun obrazlarının coşğun irfani eşq daşıyıcıları olması səviyyəsində də təsdiq olunmuşdur (2, 91-93).

S.Xavəri yazır ki, qızılbaşlıq Xətainin öz fərdi düşüncə axtarışlarının nəticəsi kimi onun poezyasına hopmamışdır. İki əsrdən bəri səfəvi şeyxləri tərəfindən formalaşdırılmış bu ideologiyanı Xətai hazır şəkildə qəbul etmişldir. Hətta ilk uşaqlıq illərindən İsmayılın böyüyüb hansı missiyanı yerinə yeirməli olduğu müəyyənləşdirilmişdir. Səfəvi şeyxləri xanədanına vərəsəlik etməli olduğunu Xətai özü də çox gözəl hiss edirdi:

Səfər qıl, dur, oturma, ey Xətai,
Ki, şəhri-Ərdəbildə bir xanədan var (3, 208).

Xətai sıfr Azərbaycan-türk köklü sənətkardır. Hətta «XVI-XVII əsrlərin Səfəvi müvərrixləri siyasi məqsədlər üzündən hər nə qədər hakim sülaləyə dair seyidlik şəcərəsi uydursalar da, bütün bunlara baxmayaraq, Səfəvi sülaləsi… səltənətin sıravi təbəqələri, sadə xalq kütlələri tərəfindən yenə də türk xanədanı hesab edilməkdə idi» (4, 182). Lakin bizcə, Xətainin və ümumən səfəvilərin

seyidlik şəcərəsi məsələsinə başqa bir yöndən, təsəvvüfdə əsas olan «silsilə» məsələsi baxımından yanaşmaq lazımdır.

Hər bir təsəvvüf təriqətinin mənəvi-genealoji əsası olur. Bu silsilə adlanır. O.Akimuşkinin yazdığı kimi, silsilə «zəncir», «sıra» mənalarında bir söz olub, təriqətin mənəvi varislik zənciridir. Silsilə – sufi təşkilatında mistik isnad deməkdir. Bu isnadda bütün əvvəlki mürşid-şeyxlər son nöqtədə Məhəmməd peyğəmbərə gedib çıxan genealoji zəncirin (əhl əs-silsilənin) ara həlqələri olub, silsilənin əsasını qoyanın mənəvi vəliəhdləri, onun yaratdığı ezoterik sistemin varisləri sayılırlar (5, 208-209). Bu halda ata-babaları etnik türk-oğuz olan Xətainin təriqət silsiləsi baxımından Məhəmməd peyğəmbərə (s.) bağlanması və bu xətlə seyid sayılması onun sufi təriqəti silsiləsinin həlqəsi olması baxımından tamamilə təbii sayılmalıdır.

Ə.Qəzai Xətainin poeziyasını ruh və məna baxımından dörd qismdə təsnif edir. Bu təsnifatda şairin dini-təsəvvüufi, fəlsəfi-irfani görüşləri də öz əksini tapmışdır:

1. Təsəvvüf əqidələrini və irfan məfhumlarını ehtiva edən şeirlər;
2. Sufizm üçün xarakterik olan şeirlər;
3. Hürufilik;
4. Lirik şeirlər

Şah İsmayıl Xətai həm əruz, həm də heca vəznində şeirlər yaratmışdır. Onun ərəb poetik məxrəci olan əruzda və doğma milli poetik məxrəc olan hecada gözəl məzmun və formalara malik şeirlər yaratması bu sənətkarın yüksək poetik istedadından soraq verir. Xətai bir oğuz türkü kimi heca vəzninin bağrından qopmuşdur. Heca onun üçün təkcə uşaqlıqdan böyüdüyü etnik mühitin poetik özünüifadə qəlibi yox, həm də bütün nəslinin həyat əqidəsinin, uğrunda vuruşduğu milli ideologiyanın poetik forması idi. Digər tərəfdən əruz da onun üçün doğmu idi. Bu doğmalığı yaradan hər cür milli, qövmi fərqləri öz içərisinə alaraq onun fövqünə qalxan təsəvvüfi-irfani dünyagörüşü idi. Bu dünyagörüşü Xətiainin istər əruzda, istərsə də hecada yazdığı şeirlərdə bütün özünəməxsusluğu ilə ifadə olunuaraq, bütün hallarda milli-bəşəri humanizmə xidmət edirdi.

Xətai məzhəbinə görə şiə şairi idi. Lakin şiəlik bir çox tədqiqatçılar tərəfindən sırf məzhəb kimi başa düşülür. Əslində, şiəlik hərfi mənada Əhli-Beytə, yəni Məhəmməd peyğəmbərin (s.) Əhli-Beyt olaraq müəyyənləşdirdiyi mənəvi silsiləyə tərəfdar olmaq deməkdir. Bu da bir çox tədqiqatçıları orta əsr sufi təriqətlərinə və şairlərinə münasibətdə bəzən dolaşıqlığa salır. Bir sıra hallarda belə hesab edilir ki, bir sənətkarın sünni məzhəbində olması onun şiəlikdən kənarda olması deməkdir. Halbuki bir çox sünni məzhəbli təriqətlərdə Əhli-Beyt tərənnüm olunur. Bu baxımdan, reallıq belədir ki, bir sənətkarın sünni məzhəbində olması onun Əhli-Beytə münasibətinin göstəricisi deyildir. Bir çox sünni məzəbli təriqətlərdə Əhli-Beyt peyğəmbərdən başlanan silsilənin əsas həlqələri kimi qəbul və tərənnüm olunmuşdur. Bu cəhətdən S.Ə.Hicazinin «on iki imama etiqad edən sünnilərin İranda meydana gəlməsinin məhz səfəvilərin himməti ilə baş tutmasını» vurğulaması təsadüfi deyildir (6, 3).

Öz yaradıcılığında Əhli-Beyti Məhəmməd əleyhissəlamın təbliğ etdiyi dinin əsası sayan səfəvilər üçün islam bir bütöv idi və bu bütövün içində Əhli-Beytin xüsusi yeri var idi. Çünki Əhli-Beyt peyğəmbərin özünün mənəvi varis olaraq müəyyənləşdirdiyi ailə demək idi. Bu baxımdan, təriqətlərin genealoji şəcərə silsilələri Məhəmməd peyğərbərdən (s.) başladığı üçün onların təsəvvüfi dəyərlər

silsiləsində Əhli-Beytə yaxından, ya uzaqdan da olsa münasibəti bütün hallarda olmalı idi.

Xətainin poeziyası məna və məzmun baxımından çox zəngindir. Onun şeirlərində təsəvvüfi dünyagörüşün inikas olunduğu məqamlara nəzər saldıqda görürük ki, burada Əli kultu xüsusi məqam və məna kəsb edir:

Eylərəm bünyad bəndə əvvəl əz nami-Xuda,
Ol yaratmış sirri-mərdani, Əliyül-mərtəza.

Aciz olma, ey könül, münkir gərəkməz əhli-dil,
Haqq-Taalaya buyruq ilə mur əlində əjdaha.

İyi sultandır ki, yoxdur misli, yə həmta ona,
Kim, onun fərmanidən çıxmaz şəhu miru gəda.

Kim ki, həqqə münkir oldu, qoy cəzasidür onun.
Zərrəcə rəhm etməgil sən ta kim ol halın tuta.

İt rəqiblər tənə edərsə, Xətai, həqqə sal,
Olma qəmgin kim, sənə qılduğini Haqdan tapa (**7**, 43)

Bu şeirdə səfəvi-qızılbaşlıq ideologiyasının əsas konturları cızılmışdır. O.Əfəndiyev qızılbaşlar hərəkatının ideoloji məsələlərindən danışarkən göstərir ki, Xətainin «Divan»ında öz əksini tapmış qızılbaş nəzəriyyəsinə görə, Xəlifə Əli Allahdır və kim bunu qəbul etmirsə, o, kafirdir. Məhəmməd yalnız peyğəmbərdirsə, Əli «Allahın həqiqətinin təzahürüdür» («məzhəri-həq»dir). İsmayıl özünün Əli və Fatimədən başlanan «mənşəyi» ilə fəxr edir. O, Əlidə ilahi mahiyyətin başqa şəklə düşdüyünə inanır. Əvvəlcə o, (İsmayıl) allahla (Əli ilə) bir olmuş, indi isə yenidən zühur etmişdir. Peyğəmbərin və imamın keyfiyyətləri onun simasında təcəssüm etmişdir. İnsan allahın təcəssümü ola bilər. İsmayıl –insan qiyafəsində olan allahdır (insan surətinə girmiş tanrıdır). O, bu dünyaya «allahın nuru» (nuri-xoda), «peyğəmbərlərin möhürü» (ənbiya xətmi), «kamil rəhbər» (mürşüd-i kamil), «aparıcı imam» (imam-i rahnemə), «mütləq həqiqət» – allah (həqq-i mütləq) kimi gəlmişdir (8, 47). M.S.Sarıqaya bildirir ki, Şah İsmayıl şeirlərində Həzrət Əli ilə bağlı rast gəlinən bir başqa təsəvvür özünü Həzrət Əlinin nəslinə nəsəb etməsidir. O, çoxlu şeirlərində İmam Əli və Əhli-Beyt yolunda olduğunu, Hüseyni və Cəfəri məzhəbinə mənsub olduğunu açıqca ifadə etmiş və bu yola ram olmayanları, baş qoymayanları müxtəlif şəkillərdə günahlandırmışdır (9, 272).

A.Əttar göstərir ki, islamdakı şiəliklə səfəvilərin müdafiə etdikləri qızılbaş şiəliyi arasında bəzi əhəmiyyətləi fərqlər var. Şiəliyin ana mövzusu açıq və inkarolunmaz şəkildə imamətdir… Qızılbaşlıq şiəliyin bir sıra simvolik inanclarını alaraq mərkəzində əski türk inanclarının islamlaşmış versiyası olan təlimlərin durduğu və daha çox siyasi məmunlu Ələvi ianacıdır (10, 4-5). F.Bayat yazır ki, qızılbaşların Şah İsmayılın simasında «Sahib-i əz-Zaman»ı görmələri köçəbə oğuz boylarının əski ata-baba törəsini yenidən bərpa edəcək, əski inanclara sayğı ilə yanaşacaq,

iqtisadi durumu köçəbələrin lehinə həll edəcək, əski türk dövlət quruluşuna uyğun fütuhat ülgüsü təşkil edəcək xilaskar hökmdara inamdan doğmuşdu (11, 45).

Qeyd olunmalıdır ki, İranda hökm sürən Sərbədəran sülaləsi şiəliyin rəsmi məzhəb olmasına çalışmışsa da, buna müvəvvəq olmamışdır. Teymurun hakimiyyət dövrü şiəlik üçün çox pis bir dövr olmuşdur. Ancaq səfəvilər şiəliyi rəsmi bir məzhəb olaraq elan etmiş və bunu şiə olmayanlara zorla qəbul etdirmişlər (12, 79).

Bütün bunlar Xətai yaradıcılığında bu və ya digər poetik obrazlarda təcəssüm olunmuşdur. Şairə görə, haqq əhli olan kəs öz cismində beytullahı görməlidir:

Ey Həqq əhlisən, sənin cismində beytullahı gör,
Xəncəru əzm eylərsən, lövhində ərşullahı gör.

«Adəm»in şənində «kərrəmna» dedi, nitqi-ilah,
Əhli-mənasən həqiqət, sümmə vəchullahı gör.

Zakirəm, zikr eylərəm, könlümdə özgə kimsə yox,
Natiqi nütqi hidayət, gəl həbibullahı gör.

«Hazihi cənnatu ədn»in dəftərin şərh eyləyən,
İblis olma, gəl sücud eylə, bu babullahı gör.

Lövhi-məfhuzun «Xətai» əbcədün qıldı bəyan,
Div dəyülsən, Xatəmin xətmində Fəzullahı gör (**7**, 119).

Demək, özünü haqq əhlindən sayan insan öz cismində beytullahı, ərhullahı, vəchullahı, həbibullahı, babullahı və nəhayt, fəzullahı görməlidir ki, bütün bunların da hamısı Allahın insanda məzhərinin silsiləvi təcəllasıdır.

Xətainin məşhur «idüm» rədimli qəzəlində onun panteist görüşlərinin bütün irfani əsasları şərh olunmuşdur:

Yer yox ikən, göy yox ikən mən əzəldən var idüm,
Gövhərin yekdanəsindən iləru pərgar idüm.

Gövhəri ab eylədüm, dutdi cəhanı sərbəsər,
İnsu cinni, ərşu fərşi yarədən səttar idim.

Gan «Hüseyn» ilən pustimi soydi qazilər,
Gah «Mənsur»un donunda mən «ənəl-həq» dar idim.

On səkkiz min aləmə mən gərdiş ilə gəlmişəm,
Dəryanın altındakı sac qızdıran ənnar idüm.

Mən Xətaiyəm, həqi həq tanımışam bigüman,
Onun içün ol yaratdı, mən ona dərkar idüm (**7**, 164).

Şeir gerçəkliyə «Mən-Yaradıcı» münasibətlərindən baxışı ifadə etməklə əsaslandığı dünyagörüşünün fəlsəfəsini şərh edir. Mətndə öz əksini tapmış təsəvvüfi məzmuna görə, «mən» hələ yer və göy yox ikən, yəni maddi yaradılışdan qabaq var imiş. Maddi yaradılışdan qabaq var olan yalnız Allahdır. Bu halda «mən» ilahi yaradılışın başlanğıcı olan gövhərdən də qabaq mövcud olan ilahi substansiya kimi tərənnüm olunur. «Mən» həmin la-məkan və la-zaman gövhəri suya çevirir, su bütün dünyanı tutur. Beləliklə, «mən» maddi aləmi – insanları və cinləri, göy qatlarının yaradılışında iştirak edir.

«Mən» təkcə maddi aləmin əsasını yox, eyni zamada insani yaradılışın da əsasını təşkil edir.: adam cildinə girib «ənəlhəq» deyir, lakin insanlar onu başa düşməyib, dərisini soyurlar. On səkkiz min aləmə transfomasiya olunan «mən» yenə də onların yaradılışının fövqündə durur. «Mən» – Allahın, Allah – «mən»in sirrini bilir. Xətai haqqı – Allahı məhz Allah kimi tanıyan varlıq olaraq «mən»in daşıyıcısıdır.

Burada insanı substansiyalaşdıran «mən» Allahdan qopan, ondan başlanan teosubstansiya kimi heç də öz yaradıcısını inkar etmir. Kainatın yadarılışının son nöqtəsi olan insan yaradılışın bütün strukturunu özünə ehtiva etməklə onun təkcə mikromodeli – insani proyeksiyası kimi çıxış etməklə qalmır. İnsan eyni zamanda maddi yaradılışın bütün ünsürlərinin fövqündə durur. F.Salimin yazdığı kimi, «təsəvvüf fəlsəfəsinə görə, insanın yaranışı kainatdan daha öncədir. İnsan Ələst günü var idi. Necə ki Şah Xətai buyurur: Yer yox ikən, göy yox ikən, ta əzəldən var idim» (13, 16).

Qızılbaşlıq ideologiyasını həm qılıncı, həm də qələmi ilə təbliğ edən Xətai siyasi və ədəbi şəxsiyyət idi. Tədqiqatçılara görə onun öz zamanına qələmi ilə təsiri qılıncı ilə təsirindən daha böyükdür: «Şah İsmayıl siyasi şəxsdən daha çox ədəbi təsiri baxımından əlamətdardır. O, öz dövrünün böyük şairlrindən sayılırdı və yazıları baxımından qələminin təsiri qılıncının təsirindən daha artıqdır. O, böyük sufii və şiə şairidir. Şeirlərində xəyal ilə bağlı gözəl şəkillər, əruz müsiqisi, əhli-beyt məhəbbəti, təbii gözəlliklər, eşq, həqiqət, etiqadla bağlı məsələlər və insani səciyyələr parlaq şəkildə görünür» (14, 70).

Xətainin qoşma və gəraylılarının sənətkarın könül dünyasının, dünyagörüş aləminin araşdırılmasında xüsusi yeri vardır. O, ana dilinə həssas insan və əqidəvi münasibət bəsləyən şəxsiyyət olaraq Azərbaycan türkcəsini dövlət dili səviyyəsinə qaldırmışdır. Bu, dilə etnik maraqlardan irəli gələn təəssübkeş siyasi münasibətdən çox-çox iri və fərqli hadisədir. Bu cəhətdn «Xətai və ana dili» mövzüsü təkcə Xətainin yox, Xətaiyə qədər və ondan sonra öz yaradıcılıqlarında ana dilini rəsmi ədəbi dil etmək uğrunda mübarizə aparmış sənətkarların milli psixologiyasını da başa düşməyə imkan verir. Ana dili uğrunda aparılan bu mübarizə tarixin hökmü ilə Xətainin simasında bütün tərəfləri ilə açılaraq ortaya qoyuldu. Bu cəhətdən Xətainin ana dilinə münasibəti onun milli ictimai düşüncənin bütün formalarına münasibətinin tərkibində olan nəhəng dünyagörüşü hadisəsidir. Məhz dünyagörüşü hadisəsi olduğu üçün də təsəvvüfi görüşləri ilə sıx bağlıdır. Xətai üçün ilahi dəyərləri ana dilində tərənnüm etmək ilahi həqiqətə Allahın səni yaratdığı milli ölçü və atributlar (millət, xalq, dil və s.) səviyyəsində qovuşmaq demək idi. Ana dili Xətainin mill idüşüncəsində şüurun alt qatlarındakı qapıları, pərdələri qaldırırdı. Xətai ana dili vasitəsilə yaradılış hanqqındakı həqiqətin mifoloji-əsatiri köklərinə

qədər gedib çıxa bilirdi. Doğrudan da, hər hansı bir sənətkar mənsub olduğu milli şüurun arxetiplərinə yalnız öz ana dili vasitəsilə gedib çıxa bilər. Çünki insanın sonradan öyrəndiyi yad bir dilin ilkin arxetipləri onun yaddaşında olmur. Milli dil isə insanın varlığında bütün kökləri və rişələri ilə mövcuddur. Xətainin varlığında ana dili onu milli düşüncənin ən dərin qatları, gözlə görülməyən, ayaqla gedib çıxılmayan rişələri ilə qovuşdururdu. Bu cəhətdən sənətkar öz təsəvvüfi əqidə və görüşlərini ana dilinin poetik ifadə formulları ilə daha rahat və asan tərənnüm edirdi:

Xətai, dünyanın ötəsi fani,
Bizdən əvvəl bunda gələnlər xanı?
Sanma dayim şad yürüyə düşməni,
Bir gün olub növbət ona da gələ (**7**, 328).

Bu bəndin bütün məna yükü, poetik fəlsəfəsi Dədə Qorqud şeirindən gəlir. Qorqud Atanın:

«İmdi qanı dedügim bəg ərənlər?!
Dünya mənim deyənlər?
Əcəl aldı, yer gizlədi;
Fani dünya kimə qaldı?
Gəlimli-gedimli dünya,
Axirət-son ucı ölümlü dünya» (15, 78),

– haqqındakı fəlsəfəsi Xətai şeirində bütün fəlsəfi əsasları ilə öz əksini tapmışdır. Unutmaq olmaz ki, Qorqud, həm də irfan dünyasının haqqa çatmış ərənlərindəndir. Onun haqqında nahaqdan deyilmir ki, «Rəsul əleyhissəlam zəmanına yaqın Bayat boyından Qorqut ata diyərlər bir ər qopdı. Oğuzın ol kişi təmam bilicisiydi, – nə diyərsə, olurdı. Ğaibdən dürlü xəbər söylərdi. Həqq təala anın könlinə ilham edərdi...» (16, 31).

Demək, Xətai şeirindəki Qorqud ruhu bir təsadüf deyildir, onun yaradıcılığına qeybdən xəbərlər söyləyən, Həqq-Təala könlinə ilham – vəhy verən Qorqud babasının ruh dünyasından gəlir. Xətai özünü «mən»in daşıycısı sayır. «Mən» isə Xətaiyə qədər on səkkiz min aləmə çevrilərək onu təşkil etmiş, Adəm (ümumən adam – insan) cildində Həllac Mənsur kimi haqqı söyləyərək dərisi soyulmuşdur. Bu baxımdan Haqqın məzhəri olan «mən» Adəm cildində Qorquddan da keçərək onu poetik ruhunu Xətainin qəlb dünyasına daşımışdır.

Ana dilinə, ana dilinin yaddaşında yaşayan milli ruha belə şüurlu münasibət bütövlükdə Xətai poeziyasının Azərbaycan ədəbi dilinin inkişafında oynadığı möhtəşəm rolun əsasında duraraq onu şərtləndirir. A.Erol yazır ki, Xətai öz dil anlayışı ilə sadəcə öz fikirlərini təqdim etməklə kifayətlənməmiş, xalq üçün xalq ədəbiyyatı ilə birlikdə klassik ədəbiyyatdan da faydalanmağın yollarını göstərmiş, «Divan»ı, «Dəhnamə»si, «Nəsihətnamə»si, didaktik-fəlsəfi mahiyyətli mənzumələri ilə keçmişdən gələcəyə bir körpü olmuş, Qətran Təbrizi, Məhsəti xanım Gəncəvi, Xaqani Şirvani, Nizami, Fələki, Arif Ərdəbili, Seyid İmadəddin Nsimi, Göyçaylı Həbibi kimi şairlər tərəfindən yaradılan mədəni mirası xalqa aydınladaraq bu

dəyərlərin gələcəyə daşınmasını təmin etmişdir. Xüsusilə aşiqanə tərzdəki qəzəlləri və xalq şeirindən təsirlənərək yazdığı qoşmalarında istifadə etdiyi aydın dil ilə Füzulidən Sabirə, Qurbanidən Göyçəli Ələsjərə qədər bir çox şairə təsir etimş və bu anlamda daha təsirli şəkildə Mola Pənah Vaqif tərəfindən başlanan Vidadi ilə davm edən və Ağçaqıroğlu Piri, Məhəmməd Hüseyn xan, Şəkili Nəbi, Şəkili Raci, Ağ-cayazılı Razi, Rəfi, Qasım bəy Zakir, Məhəmməd bəy Cavanşir kimi bir çox ədəbin qeyrəti ilə mədəni irs şəklində cələcəyə daşınacaq dil savaşının öndəri olmuşdur (17, 98). A.Xəlil göstərir ki, Xətai türkdilli şeirin inkişafında, xalq şeiri əsasında möhtəşəm bir ədəbiyyatın təkamülündə, ana dilinin rəsmi dövlət dili olaraq geniş şəkildə istifadə olunmasında, aşıq sənətinin yaranmasında və bununla yanaşı türk milli ruhunun dirçəldilməsində müstəsna xidmətlər göstərmişdir. Bu mənada Xətai Azərbaycan mədəniyyət tarixində müstəsna dərəcədə böyük və qutsal şəxsiyyətdir (18, 150). Hətta N.Hüseynqızına görə, Şah İsmayıl Xətainin dil sadəliyi heca ilə əruz vəznləri arasında olan səddi yox etmişdir. Məlumdur ki, mərsiyə janrına, adətən, əruz vəznli şeirlərdə təsadüf edilir. Lakin Xətainin yaradıcılığında bu kəskin səddə fərq qoyulmur. Hecada yaratdığı qoşma və gəraylı formalı mərsiyələr məzmun dərinliyinə və dil oynaqlığına görə tez yaddaşa köçürülür və dərk edilir (19, 158).

Sənətkarın folklora, ağız ədəbiyyatına, milli ədəbiyyatın qaynaqlarını özündə daşıyan poetik obraz və deyimlərə həssas münasibəti də bundan qanaqlanır. S.Rzasoy yazır ki, Xətai poeziyasını folklor qaynaqları ilk öncə onun heca vəznində, xalq şeiri şəkillərində yazıdığı şeirlərdə görünməkdədir… Araşdırma göstərir ki, Xətainin heca vəznində, xalq şeiri formalarında olan əsərləri onun milli folklora olan özəl münasibətinin məhsuludur (20, 260).

Xətainin «arif ol» rədifli qoşması onun bir sənətkar kimi humanist-fəlsəfi düşüncələrini inikas edir:

Bir gözəlin vücudinin şəhrinə,
Bax, nəzər eylə də, həmən arif ol!
Dükanında dediyi mətainə,
Yox nəzər eylə də, həman arif ol!

Seyr et özgə ərənlərin görəsən,
Təbib sarar ürəgimin yarasın,
Cəbr eyləmə məhəbbətin cirasın,
Bax nəzər eylə də, həman arif ol!

Xətai der: Rəhm etməzəm yalana,
Özün təslim edər kəndi gələnə.
Ay – Əlidir, gün – Məhəmməd bilənə,
Bax, nəzər eylə də, həman arif ol! (**7,** 334-335).

Şeir Xətainin insan və insançılıq görüşlərini əks etdirir. Mütəfəkkir şairə görə, insanlığın dərki insanlıqdan keçir. Çünki Allah dünanın bütün mənasını insanda təcəssüm etdirmişdir. Bir insan dünyanın, kainatın, həyatın mənasını dərk etmək

istəyirsə, o, ətrafındakı insanları dərk etməyə çalışmalıdır. Bununla da şair insanları öz həmcinslərinə qarşı humanist münasibət bəsləməyə çağırır.

Xətaiyə görə, dünyaya dərindən nəzər saldıqda varlığın insanda təcəssüm olunan həqiqətlərini görmək mümkündür. İnsan əgər dünyaya, bütün canlılara və onların şahı olan insana mərhəmətli münasibət bəsləsə, bu halda insanlığın da ona yönəlmiş (əslində, yenidən özünə qayıdan) sevgisini görər. Demək, insanın özünü sevgisi başqalarını sevgidən keçməlidir: insan özünü sevmək üçün başqalarını sevməlidir. Başqalarına olan sevgi, əslində, nəticə etibarilə özünə yönəlmiş sevgidir. Bu, Xətainin humanizm dünyagörüşündə, onun dünyaya münasibətdə təbliğ etdiyi insançılıq görüşlərində ali bir nöqtədir. Belə ki, insan daim başqlarının həssas münasibətinə möhtacdır. Bu münasibəti qazanmağın yeganə yolu başqalarına qarşı həssaslıq və sevgidən keçir.

Dünya hərcayı insanlarla doludur. Onlardan insanlıq gözləmək əbəsdir. Söz bir bahalı qumaşdır, onu müştərisinə təklif etmək lazımdır. Burada Xətai humanizminin həmfikirlik tərəfləri şərh olunur. Yəni insan öz əqidəsinin ardınca qoşarkən əqidədaşlar bulmalıdır.

Xətai humanizmində Allah onun düşüncələrinin ən uca konseptidir. İnsanın insana olan sevgisi Həqiqətin məzhəridir. Lakin Həqiqətin dərki Mərifətdən – elm və bilikdən keçir. Mərifətə çatan Həqiqətə can atır. Həqiqətə çatmaq Allaha qovuşmaq deməkdir. Demək, Xətaiyə görə, Allaha çatmaq insanı dərk etmək, Allah sevmək insanı sevmək deməkdir. Burada şairin insan haqqındakı təsəvvüfi-irfani görüşləri ilə insana məhəbbət üzərində qurulmuş oğuz-türk etnik-qövmi görüşləri bir-birinə qovuşmuşdur.

Şair Həzrət Əli (ə.) ilə Məhəmməd peyğəmbər (s.) arasındakı münasibətləri də tərənnüm edərkən Ay-Günəş haqqındakı milli əfsanələrdə mövcud olan məhəbbət motivindən istifad etmişdir. Göründüyü kimi, Xətainin milli dəyərlərə bağlılığı onun təsəvvüfi-irfani dəyərlərə bağlılığı ilə qovuşmuşdur. Bunları birbirindən ayırmaq mümkün deyildir. Öz xalqını, etnik kimlyini bütün varlığı ilə sevən Xətai bütün bəşəriyyəti də eyni sevgi ilə sevmiş, bu sevgini ilahiləşdirərək bizlərə miras qoymuşdur. Azərbaycanlı qanında əbədi ruh kimi yaşayan Xətai segisinin qaynağında da məhz bu durur.

Ədəbiyyat:

1. Səfərli Ə., Yusifli X. Azərbaycan ədəbiyyatı tarixi. Ali məktəb üçün dərslik. Bakı: Ozan, 2008, 696 s.

2. Həmidov İ. Azərbaycan-ərəb ədəbi əlaqələrindən səhifələr. Bakı: Elm, 2002, 209 s.

3. Xavəri S. Xətai poeziyasında təsəvvüf ideyası / Ədəbiyyat məcmuəsi, Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri (XVII cild). Bakı: Ağrıdağ, 1999, s. 206-214

4. Nağısoylu M. «Gülşəni-raz» təsəvvüfün ana qaynaqlarından biridir / Şeyx Mahmud Şəbüstəri. Gülşəni-raz. Fars dilindən filoloji tərcümə, ön sözün və izahların müəllifi Möhsün Nağısoylu. Bakı: Nurlan, 2005, s. 3-10

5.Акимушкин О.Ф. «Силсила» (очерк) / Ислам. Энциклопедический словарь. Москава: Наука, 1991, с. 208-209

6. Hicazi S.Ə. Naşirdən / Şah İsmail Səfəvi (Xətai). Qəzəllər, qəsidələr, Nəsihətnamə, Dəhnamə, qoşmalar. Mətnin elmi-tənqidi tərtibatçısı Mirzə Rəsul İsmailzadə. Bakı: Əlhuda, 2004, s. 3-4

7. Şah İsmail Səfəvi (Xətai). Qəzəllər, qəsidələr, Nəsihətnamə, Dəhnamə, qoşmalar. Mətnin elmi-tənqidi tərtibatçısı Mirzə Rəsul İsmailzadə. Bakı: Əlhuda, 2004, 534 s.

8. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 301 s.

9. Rızasoy S. Şah İsmayıl Hatai Poeziyasının Folklor Kaynakları / Şah İsmail Hatai (Birinci Uluslararası Şah İsmail Hatai Sempozyum Bildirileri, 9-11 Ekim, 2003, Ankara). Ankara: Azim Matbaaçılık, 2004, s. 260-263

10. Attar A. Şah İsmailin Kültür Mirası / Şah İsmail Hatai (Birinci Uluslararası Şah İsmail Hatai Sempozyum Bildirileri, 9-11 Ekim, 2003, Ankara). Ankara: Azim Matbaaçılık, 2004, s. 1-12

11. Bayat F. Göçebe Oğuzçuluq İdeolojisi Bağlamında Şah İsmail Fenomenolojisi / Şah İsmail Hatai (Birinci Uluslararası Şah İsmail Hatai Sempozyum Bildirileri, 9-11 Ekim, 2003, Ankara). Ankara: Azim Matbaaçılık, 2004, s. 44-52

12. Caferi H.M. Şah Hatainin Tasavvuf ve Safavi Şiiliği İle İlgisi / Şah İsmail Hatai (Birinci Uluslararası Şah İsmail Hatai Sempozyum Bildirileri, 9-11 Ekim, 2003, Ankara). Ankara: Azim Matbaaçılık, 2004, s. 78-85

13. Rzasoy S. Oğuz mifinin paradiqmaları. Bakı: Səda, 2004,199 s.

14. Buzeri H., Rezai D. Şah İsmail ve Onun Şiirlerine Bir Bakış / Şah İsmail Hatai (Birinci Uluslararası Şah İsmail Hatai Sempozyum Bildirileri, 9-11 Ekim, 2003, Ankara). Ankara: Azim Matbaaçılık, 2004, s. 68-77

15. Kitabi-Dədə Qorqud / Müqəddimə, tərtib və transkripsiya F.Zeynalov və S.Əlizadənindir. Bakı: Yazıçı, 1988, 265 s.

16. Kitabi-Dədə Qorqud / Müqəddimə, tərtib və transkripsiya F.Zeynalov və S.Əlizadənindir. Bakı: Yazıçı, 1988, 31s.

17. Erol A. Azerbaycan Şiir Dilinin Gelişmesinde Hatainin Oynadığı Rol / Şah İsmail Hatai (Birinci Uluslararası Şah İsmail Hatai Sempozyum Bildirileri, 9-11 Ekim, 2003, Ankara). Ankara: Azim Matbaaçılık, 2004, s. 94-99

18. Halil A. Hatayi Şiirinin Arşetipleri / Şah İsmail Hatai (Birinci Uluslararası Şah İsmail Hatai Sempozyum Bildirileri, 9-11 Ekim, 2003, Ankara). Ankara: Azim Matbaaçılık, 2004, s. 147-150

19. Hüseyinkızı N. Şah İsmayil Hatainin Yaradıcılığında Halk Edebiyatı Türündeki Şiirlerin Sanat Özellikleri / Şah İsmail Hatai (Birinci Uluslararası Şah İsmail Hatai Sempozyum Bildirileri, 9-11 Ekim, 2003, Ankara). Ankara: Azim Matbaaçılık, 2004, s. 155-161

20. 265. Rızasoy S. Şah İsmayıl Hatai Poeziyasının Folklor Kaynakları / Şah İsmail Hatai (Birinci Uluslararası Şah İsmail Hatai Sempozyum Bildirileri, 9-11 Ekim, 2003, Ankara). Ankara: Azim Matbaaçılık, 2004, s. 260-263

Хураман Бахман кызы Гумматова

Шах Исмаил Хатаи: кызылбашская модель политическо-поэтического самосознания

Резюме

Особенностью истории азербайджанской литературы XVI века является то, что в этот век, тасаввуфская идея, выступив за пределы азербайджанской национальной мысли, сыграла ключевую роль в создании национальной государственности. Сефевидский орден в государстве, построенном Шахом Исмаила Хатаи, опирающийся на идеологию казалбашства, сыграл уникальную роль в объединении азербайджанской общественности вокруг единой национальной идеи. Хатаи наряду с тем, что являлся государственным деятелем, обладал прекрасным поэтическим талантом. Он, превратив родной язык и литературу на родном языке в один из основных идеологических приоритетов национальной государственности, непосредственно соединил тасаввуф с национальной идеей. Хатаи является выдающимся мастером слова несомненно азербайджано-тюркского происхождения. Даже если «сефевидские муваррихи XVI-XVII веков выдумали в политических целях сеидскую родословную для правящей династии, несмотря на все это, династия сефевидов… со стороны обычных слоев султаната, простых народных масс рассматривалась как тюркская династия». На наш взгляд, к вопросу о сеидстве родословной Хатаи и сефевидов в целом следует подходить с другого ракурса, с проблемы «силсиле», который является основным в тасаввуфе.

Khuraman Bahman gizi Hummatova

Shah Ismayil Khatai: Gizilbashliq model of the political-poetical self-cognize

The 16th century of Azerbaijan literature history is important that in this century the idea of Sufism rising to the Azerbaijan national thinking plays the main role in forming national statehood. In the state formed by Shah Ismayil Khatai the sect of Saffavis based on Gizilbash ideology plays the unical role in forming the organization, indivisible national idea. Being the state man, having the good poetical talent Khatai connects the Sufism with national idea in which the native language, the literature created in the native language turning it the main ideological priority of national state building.Khatai is absolutely Azerbaijan-Turk master. Even “Though Safavi muverikhs (position in Middle Ages) of the 16th-17th century concoct “seyid” genealogy to ruling dynasty according to the political aims, in spite of Safavi dynasty was considered as Turk dynasty by simple people masses, ordinary sections of the realm”. We think that one must approach to the problem of genealogy “seyid” of common Safavis and Khatai from other hand, the chain problem being the main in Sufism.

Rəyçi: Məhərrəm Qasımlı
filologiya elmləri doktoru

ДОЦЕНТ ДИЛЬШАД ГАИПОВ
Ургенческий госуниверситет,Узбекистан

МЕСТО АГАХИ В ЛИТЕРАТУРЕ ВОСТОКА

Açar sözlər: Agahi, ədəbiyyat, poeziya, qəzəl
Ключевые слова: Агахи, литература, поэзия, газель
Key words: Agahi, literature, poetic, gazal

Агахи является одним из крупнейших представителей узбекской классической литературы. Его творчество представляет собой важный этап в узбекской литературе периода после Навои. В настоящее время, когда расширяются возможности объективного изучения литературного наследия на основе идеологии независимости, исследование художественного мира Агахи является насущной необходимостью. Это объясняется и требованиями издания полного собрания сочинений Агахи, преодолением принятого еще в советские времена одностороннего толкования его творчества, необходимостью анализа, основанного на новых воззрениях и представлениях.

В осуществленных исследованиях по творческому наследию поэта были подвергнуты анализу идейная направленность лирики Агахи, тематический диапазон, некоторые особенности его переводческого дарования и исторические произведения. Разумеется, в этих работах художественное мастерство Агахи специально не изучалось. В этой связи по данному вопросу нет четких и целостных суждений. Данное обстоятельство и определяет актуальность исследования поэтики Агахи.

По изучению и исследованию творческого наследия Агахи проделана немалая работа. В 1945 году Алим Шарафиддинов ввел в “Хрестоматию истории узбекской литературы”(1) четыре газели поэта. В изданной в 1948 году “Антологии узбекской поэзии”(2) приводятся краткие сведения о поэте, даются образцы его газелей, туюгов. В последующих сборниках творчеству Агахи уделено большее внимание. Творческое наследие поэта стало изучаться в широком аспекте и было представлено массовому читателю.(3-31) Хотя в этих исследованиях ощущалось воздействие той эпохи, следует признать, что выполненная работа внесла достойную лепту в дело изучения творчества Агахи. В годы независимости работа по изучению творчества Агахи продолжилась, обогатившись новыми исследованиями, достойными всяческого внимания. Однако в этих работах проанализированы лишь отдельные аспекты поэзии Агахи, его переводческой деятельности и исторических произведений. Встречаются отдельные суждения о мастерстве Агахи, тонком понимании искусства слова, в особенности, об эффективном использовании стихотворных строф.

Литературовед И.Хаккулов в статье “О закономерностях художественного творчества Агахи”(32) ведет речь о художественном даровании поэта. Н.Жумаходжа останавливается на макоме наставничества-ученичества Агахи и Феруза (33). А.Абдугафуров касается отдельных граней художественного мира поэта (34). Литературовед Ботирхон Валиходжаев также говорит о

художественном мастерстве Агахи, факторах, определивших его талант (35). Кроме того, в статьях Х.Абдуллаева, А.Джураханова освещаются отдельные грани художественности поэта (36). В книге литературоведа А.Хаджиахмедова “Алмазные грани личности Агахи” отдельно рассмотрен вопрос о стихотворном искусстве в творчестве Агахи. Однако в этих работах не ставилось целью изучение художественного мастерства Агахи.

В исследовании художественного мастерства Агахи в качестве основных вопросов будет обращено внимание на анализ следующих аспектов:

- важнейшие факторы в творческой зрелости Агахи: национальная основа, традиция, воздействие предшественников и др.;
- вопрос о личности поэта и его творческом своеобразии;
- совершенство лирических жанров в творчестве Агахи и факторы, обусловившие это явление;
- гармония содержания и формы в лирике поэта, объективность и ясность изображения, жизненность пафоса, неповторимость, мастерство художественного языка и т.п.;
- навыки и мастерство поэта в использовании традиционных художественных искусств;
- интерпретация традиционных образов в лирике поэта (возлюбленный, соперник, кутила, виночерпий и др.);
- своеобразие лирики поэта в использовании таких художественных элементов, как размер, рифма и редиф;
- мастерство раскрытия художественных изобразительных средств и богатств народного языка посредством лингвопоэтического анализа использованных стихотворных строф;
- определения места в исторических произведениях стихотворных отрывков, художественных эпизодов, рифмованной прозы и стилистических особенностей для повышения силы воздействия эпического повествования.

Изучение данных вопросов на основе эволюции творчества Агахи создаст почву для более широкого представления о литературно-эстетических взглядах, художественного мастерства поэта, о потенциале в различных жанрах в качества продукта непрерывного творческого процесса и художественных поисков, а также приобретает определенную значимость в деле исследования актуальных проблем поэтического наследия Агахи.

Мухаммадризо Эрниёзбек оглы Агахи считается одним из творцов, занимающим весомое место в поэзии Востока. Диван “Таъвиз-ул ошикин”, в котором собрано его лирическое наследие, обладает зрелой художественностью, состоит из совершенных стихотворных жанров.

О составлении поэтом дивана в узбекском литературоведении существуют различные версии. В частности, в предисловии дивана “Таъвиз-ул ошикин”, изданного в 1960 году, литературовед Р.Мажиди приводит следующие сведения: “... диван “Таъвиз-ул ошикин” был составлен им до вступления на престол Мухаммада Рахимхана в 1852-1855 годах”(4). А историограф К.Муниров в своем произведении “Исторические сочинения Муниса, Агахи и Баяни” пишет следующее: “Первоначально его стихотворения были в

разрозненном виде, между 1855-1865 годами Агахи сам составил из них диван, назвав “Таъвиз-ул ошикин”(37). Видный исследователь творчества Агахи С.Долимов отмечает: «Диван составлен при жизни Агахи в 1286 год хиджры, в 1869-1870 годы нашей эры»(38). Ф.Ганиходжаев, проводивший ценные исследования по научно-критическому тексту дивана Агахи “Таъвиз-ул ошикин”, обобщая указанные выше суждения, приходит к следующему выводу: “По нашему мнению, последняя дата выглядит более правдоподобной. Ибо в диван вошло все лирическое наследие поэта. Возникает закономерный вопрос, если он составил диван в 1852-1855 или 1855-1865 годах, где последующие стихотворения? Где-то они должны находиться. Однако мы не располагаем такими фактическими сведениями. Поэтому будет верным сказать, что диван Агахи составил в последние годы своей жизни.

Во-вторых, один из архитектурных памятников Хивы – медресе Мухаммад Рахимхана - построен в 1288/1871 годах. Агахи написал хронограмму в честь завершения данного медресе и ввел в свой диван; во всех существующих экземплярах “Таъвиз-ул ошикин” имеется данное произведение Агахи. Основываясь на этом можно сказать, что диван был составлен после указанной даты. Здесь также следует иметь в виду и две приведенные выше даты. По нашему мнению, Агахи составил диван при своей жизни, то есть в 1871-1872 годах (39). Действительно, вышеприведенные сведения литературоведа внесли определенную ясность в сроки составления дивана. Видный литературовед А.Абдугафуров также отмечает, что диван составлен в 1871-1872 годах, а предисловие написано в 1873 году (40).

Диван “Таъвиз-ул ошикин” был подготовлен к изданию видным литературоведом Ш.Шарафиддинов (Хуршид) и издан в 1960 году. Это стало важным событием в деле изучения наследия Агахи. В настоящее время на основе экземпляра под номером 938, хранящегося в институте Востоковедения имени Абу Рейхана Бируни АН РУз и считающегося самым совершенным, данный диван подготовлен к изданию литературоведом Сайфиддином Сайфуллахом (41). Данное издание на стадии издания. В этих двух изданиях количество стихотворных жанров различно. В частности, в издании 1960 года содержится 333 газели, в диване, подготовленном к изданию С.Сайфуллахом – 433. Однако литературовед Ф.Ганиходжаев приводит сведения о том, что “газелей Агахи насчитывается 445, и они составляют 4036 бейтов”. (42)

Литературовед С.Сайфуллах, останавливаясь на судьбе этих 100 газелей, не вошедших в издание 1960 года, отметил в устной беседе с нами, что они не нашли своего места в издании, потому что касались религиозно-мистических тем, изображения сцен охоты, душевного состояния правителей.

Но и из приведенных очевидно, что жанр газели занимает в творчестве Агахи большое место. Это было отнюдь не случайно. Написание газелей является одной из традиций нашей классической литературы, их структура и размеры отличаются складностью, они легко читаются и запоминаются. И в этой связи классические поэты, отталкиваясь от любовной тематики, писали газели на социальные, философские проблемы. Относительно жанра газели привели объемные сведения в своих исследованиях такие ученые, как таджикский литературовед А.М.Мирзаев, узбекские литературоведы Х.Сулей-

манов (43), А.Хайтметов (44), О.Насыров и др. Относительно объема газели литературовед Т.Бабаев пишет: “В узбекской литературе создавались преимущественно газели из 7, 9 бейтов”, (45) а Х.Умуров отмечает: “Газель может состоять от 3 до 19 бейтов” (46). В диване Алишера Навои “Хазойин-ул маоний” из 2600 газелей - 1747 состоят из 7 бейтов, 695 - из 9, 2 - из 5, остальные - из 12-13 бейтов. А газели из дивана Агахи “Таъвиз-ул ошикин” состоят из 6, 7, 8, 9, 10, 11, 12, 13, 15, 17, 18, 23 бейтов.

Заслуживает внимания тот факт, что в творчестве поэта есть газель, состоящая из 23 бейтов:

Ҳазин кўнглумға саҳбойи висолинг айлагил иҳсон,

Ки ошти ҳаддидин ичмак анго хуноби ҳижрон. (4, 293-294)

Если газель с редифом “Э кўнгил” состоит из 15 бейтов, то следующая газель вбирает в себя 18 бейтов.

Ишқ завқини еткур жонға ҳар нафас, ё раб,

Нафс комини бир дам қилма дастрас, ё раб. (4,87)

Следует особо отметить тот факт, что Агахи создавал газели, пользуясь редифом, оканчивающимся на 31 букву арабского алфавита. Видно, что поэта сумел вознести форму и объем газели до высочайшего уровня.

Агахи творчески подошел к жанру газели из классической литературы, выступил как поэт-новатор, обогативший его с точки зрения содержания... Полнокровное использование Агахи возможностей газели для осуществления своих целей свидетельствует о том, что он не остался в плену у традиций, а творчески подошел к данному жанру (47).

Действительно, поэт весьма обогатил данный жанр с точки зрения содержания и формы. Отталкиваясь от традиций, расширил тематический диапазон газели. Написал газели на любовные, просветительские, социальные, философские темы, посвященные изображению природы, сцен охоты. Очень многое почерпнул из творчества таких гениальных поэтов Востока, как Низами, Хисров Дехлеви, Бедиль, Навои, Физули. Продолжая традиции своих близких предшественников Киромий, Нишотий, Равнака, Рокима, следуя примеру своего дяди и наставника Муниса, вознес поэзию на высочайшую ступень развития.

Известно, что в нашей классической литературе, согласно традиции составления дивана, после предисловия приводятся газели, прославляющие бога. В данных газелях, написанных в мистическом духе, находят свое отражение качества, присущие пророкам Аллаха. Данную традицию достойным образом продолжили великие поэты.

Навои:

Не сунъингдин ажаб юз минг жаҳон бўлмоқ яно пайдо,

Не мулкунгга ҳалал юз минг жаҳондек бўлса нопайдо (48).

Физули:

Зиҳи зотинг ниҳону ул ниҳондин мосуво пайдо,

Гаҳи дарду фироқинг хавфидин ранжу тааб пайдо (49).

Следуя своим наставникам, Агахи пишет следующее:

Зиҳи жонларға васлинг шавқидин айшу тараб пайдо,

Гаҳи дарду фироқинг хавфидин ранжу тааб пайдо (4).

Хотя эти бейты, отразившие в себе созидательную мощь Аллаха, похожи друг на друга, однако в них наглядно проявляется дарование каждого творца.

В газелях Агахи суфистского толка мы видим непосредственное подтверждение девиза пророка Мухаммеда “Бедность моя гордость”. В газелях поэта отражается мысль о том, что человек, довольствующийся малым, никогда не подвергнется воздействию корысти, алчности.

Кишиким фаҳр кўйида талабкори қаноатдур,
Замириға онинг макшуф асрори қаноатдур
Қудурати тамаъдим нуқта янглиғ тийралик кўрмас,
Бировким дилнишини хатти паргори қаноатдур (4).

Такого рода газели во множестве встречаются в диване поэта. Литературовед А.Абдугафуров пишет о том, что в газелях поэта, отражающих суфистские идеи, такие слова, как “Ишқ”, “Висол”, “Шайдо”, “Ҳажр”, “Фано”, “Бақо”, “Соқий”, “Май”, “Жом”, “Хилват”, “Узлат”, “Фақр”, приобретают особе звучание (19).

Бизки бу кун жаҳон аро кишвари фақр шоҳимиз,
Бошимиз узра оҳимиз шуъласидир кулоҳимиз. (4, 169)

Любовная тема является доминирующей в газелях поэта. Эта вечная тема под пером поэта приобретает особое звучание и содержание. Данная тема звучит во многих диванах поэта.

Огаҳий ҳолини гар ишқ ичра билмак истасанг,
Чашми ибрат бирла дардангез девонига боқ . (4, 234)

И в газелях, не вошедших в издание дивана Агахи 1960 года, толкование любви дается в народном духе:

Эй сарви хиромони гулистони латофат,
Ширин даҳанинг чашмаи ҳайвони латофат,
Зулфи сияҳинг боғи назокатаро сунбул,
Зебанда лабинг ғунчаи хандони латофат (4).

Действительно, в стихотворениях поэта нашли свое отражение и любовная тематика, и современные “заботы”.

В газелях Агахи проявляются его социальные взгляды. Мечты и помыслы о счастье рода человеческого, сетования на фортуну в своеобразной форме звучат под его пером. В этих полустишиях нашли свое отражение гнев и ярость поэта:

Хароб ўлсун илоҳи гунбази чархи дун,
Ки дойим даври каждур, таври шуму, ҳайъати вожун (4).

В творчестве поэта встречаются также газели, в которых приводится изображение природы, сцен охоты. Описывается преображение мира с приходом весны, стремление к прекрасному, от изображения природы поэт переходит к событиям общественной жизни. В каждой газели Агахи в центре стоит проблема Человека.

Изображение охоты также передано своеобразно:

То ирода қилди султони карам парвар шикор,
Тоғу саҳро ваҳшу тайри бўлди сартосар шикор...

Шодлиғ ифротидин учмоқ тилар йўқ бимдин,
Сайд этар чоғда буким урғуси болупар шикор. (4, 147)

Газели поэта с редифом “Баҳор”, “Наврўз”, “Боғ” являются замечательными образцами данного жанра.

В газелях Агахи каждому слову уделяется особое внимание. Используются народные изречения, аллегории, отдельные обороты. Своеобразие рифмы и редифа усиливает художественную ценность газелей. В качестве примера могут послужить редифы “Ўлтурмай ўлтурди”, “Олам гадо мен ҳам гадо”.

Такие полустишия из газелей, как

Мўрдек, ожиз эдим, қоплон каби бўлдим қави;
Юзинг очким садқанг бўлиб қуёш бошингдин айлансун;
Мулку миллатга амин ўлса агар огоҳлар;

свидетельствуют о широте мышления поэта, глубине философских мыслей.

Газели Агахи представляют собой художественно совершенную поэзию, отличающуюся своеобразием с точки зрения формы, объема и содержания. Поэт еще более расширил тематический диапазон данного жанра. Обогатил традиционные темы социальным, философским содержанием. В газелях использованы не встречавшиеся ранее образы, художественные находки. Агахи создал газель из 23 бейтов, редко встречающуюся в узбекской литературе. Написал газели с редифами, оканчивающимися на все буквы арабского алфавита. Газели поэта внесли достойную лепту в развитие и совершенствование данного жанра.

В узбекской классической литературе Агахи оставил существенный след и в качестве видного политического деятеля, историка. Агахи является автором пяти исторических сочинений: "Риёзуд - давла", "Зубдатут – таворих", "Жомеул воқеоти султоний", "Гулшани давлат", "Шоҳиди иқбол". Помимо этого, он завершил дело, начатое его дядей Мунисом, дописав до конца произведение “Фирдавс - ул иқбол”. Осуществил перевод целого ряда исторических сочинений.

Историческим произведениям Агахи дали высокую оценку В.Бартольд, Я.Гулямов. Агахи в своих исторических произведениях раскрыл все свое дарование в качестве историка, политолога, поэта, писателя.

Мухаммадризо Агахи сумел создать целую школу в области перевода, что способствовало ускоренному развитию данного искусства в литературной среде Хорезма.

Агахи на протяжении своей творческой деятельности перевел на узбекский язык 19 произведений. Это такие художественные, исторические и философско-этические произведения, как "Гулистон" Саъди, "Қобуснома" Кайковуса, "Равзат ус - сафо" Мирхонда, "Тарихи жаҳонкушойи Нодирий" Мухаммада Махди Астроболи, "Бадоеъ ул -вақоеъ" Зайниддина Восифи, "Мифтоҳ ут - толибин" Махмуда Гиждувони, "Табақоти Акбаршоҳий" Мухаммада Мукима Хироти, "Тазкирайи Муқимхоний" Мухаммада Юсуфа Мунши, "Равзат ус - сафойи Носирий" Ризоқулихона Хидоята, "Ахлоқи Муҳсиний" Хусейна Воиз Кошифи, "Зубдат ул ҳикоёт", "Шарҳи далойил ал

- ҳайрот" Мухаммада Вориса, "Юсуф и Зулейха" Джами, "Шах и нищий" Бадриддина Хилолий, "Ҳафт пайкар" Низами.

Изучая переводы поэта, можно ощутить их суть в качестве произведений, призывающих человечество к духовной бдительности, трезвости ума. На сегодняшний день, когда высочайшая духовность поднята на уровень государственной политики, переводы Агахи имеют огромную значимость. Приведенные в них мысли, наставления, изречения словно предназначены для нас, для настоящего времени: "Можно не иметь имущества, но нельзя обходиться без ума, чем владеть большим имуществом, лучше иметь большой ум. Умом можно достичь материального благосостояния, однако ум за деньги не купишь. Знай, что ум – это такое богатство, которое никому не отнять. Оно не горит в огне и в воде не тонет".

Подобно другим произведениям Агахи, в его переводах также всесторонне определяется сущность человеческой жизни. Указываются пути постижения прекрасного, предупреждаются возможные ошибки заблуждения. Это, воистину, наше великое духовное богатство.

Мухаммад Ризо Эрниёзбек оглы Агахи оставил существенный след в литературе Востока. Он внес огромный вклад в развитие поэзии, переводной литературы, историографии Востока. Литературное наследие Агахи представляет собой бесценное достояние человечества.

Литература:

1. Ўзбек адабиёти тарихи хрестоматияси. II-том, - Тошкент. Ўздавнашр, 1945.
2. Ўзбек поэзиясининг антологияси. – Тошкент, 1948.
3. Огаҳий. Танланган асарлар. – Т.: Давлат бадиий адабиёт нашриёти, 1960;
4. Огаҳий. Таъвиз ул-ошиқин. – Т.: Фан, 1960;
5. Ўзбек шеърияти антологияси. IV жилд. – Т.: Давлат бадиий адабиёт нашриёти, 1961.
6. Огаҳий. Асарлар. Олти жилдлик. Адабиёт ва санъат нашриёти. 1971-80;
7. Огаҳий шеърияти. – Т.: Қўлёзмалар институти. 1983.
8. Мунировр Қ. Мунис, Огаҳий ва Баёнийларнинг тарихий асарлари. Т.: Ўз ФА нашриёти, 1960;
9. Мажидий Р. Огахий лирикаси. Филол. фанлари номз... дисс... Т.: 1961;
10. Долимов С. Огахийнинг ҳаёти ва ижоди. Филол. фанлари номз. дисс... Т.: 1963;
11. Комилов Н. Шоир ва таржимон Огаҳийнинг бадиий маҳорати. Филол. фанлари номз... дисс. Т.: 1970;
12. Каримов Ғ. Муҳаммад Ризо Огаҳий // Халқ, тарих, адабиёт. Т.: Адабиёт ва санъат нашриёти, 1977; Б. 156-187;
13. Ғанихўжаев Ф. Огаҳий асарларининг тавсифи. Т.: Фан, 1986;
14. Огаҳий. Ўзбек адабиёти тарихи. VI китоб. Т.: Фан, 1978. Т. 413-441;

15. Айёмий. Огаҳий // Ўт чақнаган сатрлар. Т.: Адабиёт ва санъат нашриёти, 1983. Б. 69-86.
16. Атоқли шоир, тарихнавис, таржимон. (мақолалар тўплами) Тошкент: Халқ мероси, 1999. –Б.151;
17. Огаҳий абадияти (мақолалар ва эсселар) Тошкент: Ўзбекистон, -Б.152;
18. Муҳаммад Ризо Огаҳий, Ишқ аҳлининг тумори. Танланган асарлар. Тошкент: Халқ мероси, 1999. –Б.320;
19. Абдуғафуров А. Муҳаммад Ризо Огаҳий. Тошкент: Халқ мероси, 1999. –Б.64;
20. Огаҳлик сирлари. (мақолалар тўплами) Фарғона. 1999 –Б.67;
21. Жумахўжа Н. Феруз - маданият ва санъат ҳомийси. Тошкент: Фан, 1995. –Б.90;
22. Ҳаққулов И.Огаҳий ижодида ижтимоий-сиёсий маънолар // Ўзбек тили ва адабиёти. 1999. №5. Б.3-8;
23. Сафарбоев М. Огаҳийнинг ижтимоий-сиёсий ва фалсафий қарашлари. Фалсафа фанлари номз... дисс... Тошкент: 1993.
24. Пиримқулов А. Огаҳий маснавийлари. Филол.фанлари номз... дис... Тошкент: 1998.
25. Ғанихўжаев Ф. Огаҳийнинг “Таъвиз ул-ошиқин” девони ва унинг илмий танқидий матни. Филол.фанлари доктори дисс... Тошкент: 1999;
26. Матякубова М. Огаҳий ижодида кичик шеърий жанрлар. Филол.фанлари номз... дисс... Тошкент: 2000;
27. Холлиева Г. Огаҳий мусамматлари. Филол.фанлари номз... дисс... Тошкент: 2000;
28. Султонова Қ. Огаҳийнинг “Гулшани давлат” асари адабий манба сифатида. Филол.фанлари номз... дисс... Тошкент: 2000;
29. Матякубова Т. Огаҳий шеъриятида анъанавий образлар талқини. Филол.фанлари номз.. дис.. Тошкент: 2001;
30. Огаҳий олами. (мақолалар тўплами) Урганч. УрДУ. 2005. –Б.79.,
31. Исмоилов И. Огаҳийнинг форсий мероси. Филол.фанлари номз.. дис.. Самарқанд 2010.
32. Ҳаққулов И. Огаҳий бадиий ижод қонуниятлари ҳақида // Шеърият – руҳий муносабат. Тошкент: Адабиёт ва санъат нашриёти, 1990.
33. Жумахўжа Н. Устоз – шогирдлик мақоми // Атоқли шоир, тарихнавис, таржимон (мақолалар тўплами) Тошкент: Халқ мероси, 1999.
34. Абдуғафуров А.Муҳаммад Ризо Огаҳий. Тошкент: Халқ мероси, 1999.
35. Валихўжаев Б.Шоирнинг бадиий маҳорати // Атоқли шоир, тарихнавис, таржимон (мақолалар тўплами) Тошкент. Халқ мероси, 1999.
36. Абдуллаев Ҳ. Ғазал ганж эрур – маоний дур // Огаҳий олами. Урганч, УрДУ.2005; Жўрахонов А. Огаҳий бадииятининг ноёб қирралари // Ўзбек тили ва адабиёти. 1999. №6.
37. Муниров Қ.Мунис,Огаҳий, Баёнийнинг тарихий асарлари. Т. 1960 :Б.25.
38. Огаҳий.асарлар.II жилд. Т.:1971.Б.400.
"Orta Asiya şairlərinin, xüsusən Ə. Nəvainin sayəsində Nizami irsinin müəyyən qismi qazax ədəbiyyatında yayılmışdır". (Prof. P. Xəlilov) XIX əsr böyük Qazax şairi Abay Kunanbayevin yaradıcılığında Nizami ənənəsi özünü xüsusilə gösrərir. Əmək və əmək adamına məhəbbət Nizami yaradıcılığını səciyyələndirən əsas keyfiyyətlərdən biri olmuşdur. Bu mövzuya şair xüsusi diqqət yetirmiş. Zəhmətə insanın başının tacı, sərvəti, sənəti, şərəfi kimi yüksək dəyər vermişdir. Bu keyfiyyətlər Abayın da yaradıcılığında özünü göstərir. Abaya görə də insan daim əməklə məşğul olmalı, öz əməyinin bəhrəsi ilə dolanmalıdır.Hər kəs zəhmətinin müqabilində səadətə çatar. Güzəranı yaxşı keçər: "Ərinməyib zəhmətlə həyatını bəzərsən,Kimsəyə əl açmayıb tox olarsan hər an sən". Misraları Nizaminin "Sirlər xəzinəsi" poemasında "Kərpickəsən qocanın hekayəti"ndə alın təri ilə, otdan-ələfdən paltar toxuyaraq kərpic kəsməklə dolanan Qoca kişinin; Qalx ayağa torpağa qılınc vurma bu qədər, Bir qarınlıq çörəyi səndən kim əsirgəyər?! – deyə,Onu tənbeh edən gəncə verdiyi cavabı xatırladır:

Onun üçün öyrətdim ki, əlimi bu sənətə,
Bir gün sənə əl açıb düşməyim xəcalətə,
Mən bir kəsə deyiləm xəzinədən ötrü möhtac,
Əlimin zəhmətiylə toxdur gözüm, deyil ac.
("Sirlər Xəzinəsi" 2,səh. 61 Tərcümə edən S.Rüstəm)

Böyük sənətkar yalnız şeirlərində deyil, aforizimlərində də əməklə məşğul olmağı təlqin edir. Öz mənafeləri üçün çalışanlara üz tutub deyir. "Ancaq özü üçün işləyən adam qarnını doydurmaqla məşğul olan heyvana bərabərdir. Ləyaqətli adam bütün bəşəriyyət üçün işləyir".

Ucalmaq istəsən bir kamala çat,
Kamala ehtiram göstərir həyat - deyən, böyük Nizami kimi Abay da insanın ləyaqətini onun mənəvi- zehni inkişafatında, əməyə, zəhmətə bağlılığında görür.

Şair mənasız söz söyləməyin, yersiz danışmağın insana başucalığı deyil, ləyaqətinə, mənəviyyatına ləkə gətirdiyini söyləyir.

Öyrənməmiş danışma
Boş söhbətə alışma.

Misraları Nizami Gəncəvinin "danışmaq gümüşdürsə, susmaq qızıldır" kəlamını xatırladır. Abay beş xüsusiyyəti yalanı, lovğalığı, işsizliyi, riyakarlığı və acı dili insanın düşməni, ağılı, zəhməti, xoşqılığı, sadəliyi və yaxşılığı dostu olduğunu göstərir:

Adam olmaq istəsən,
Beş şeyi ayaqla keç,
Beşinisə ara seç,
Yalan, riya, işsizlik.
Lovğalıq və acı dil
Beş düşməndir sənə, bil
Ağıl, zəhmət, xoş qılıq
Təvazö və yaxşılıq
Beş yaxın dostdur sənə (1, səh 31)

Üç xüsusiyyəti Ağıl, iradə və səbr göstərmək insana şərəf, şöhrət gətirər, insan ləyaqətini və mənəviyyatını ucaldar. Abayın bu nəsihətləri Xaqani Şirvaninin "Töhfətül İraqeyin" əsərində Xacənin tövsiyəsini yada salır:

Mənəm, mənəm deyib öymə özünü!
Həmişə müxtəsər söylə sözünü
Cahildir özünü tərif edənlər,
Çox "bilirəm" demə, bilsən də əgər,
Boş söz insanların abrını tökər,
Yalan şerlər də bağrını sökər
Uzunçuluq igid adamların da,
Bir dəfə dadına çatmamış darda
Məntiqsiz, dəlilsiz yalan danışmaq,
Nadan adamların işidir ancaq
(6, səh 38)

Deyilənlər böyük sənətkar Qazax xalqının böyük oğlu Abay Kunanbayevin Azərbaycan ədəbiyyatına, xalq yaradıcılığına sıx bağlılığını ifadə edir.

Klassiklərin poetik deyimləri tərbiyəvi, mənəvi-əxlaqi əhəmiyyət kəsb edir. Bu deyimlər milli və bəşəri xarakter daşıyır.

Ədəbiyyat

1. Abay Kunanbayev Şeirlər və poemalar ADN 1970
2. Pənah Xəlilov Türk xalqlarının və Şərqi Slavyanların ədəbiyyatı. Maarif nəşriyyatı 1984
3. Nizami Gəncəvi. "Sirlər xəzinəsi" Bakı, Lider nəşriyyatı 2004
4. BDU-nun Türk xalqları ədəbiyyatı kafedrasının elmi iş planına daxil olan əlyazma
5. Firuzə Ağayeva Abay və Azərbaycan Bakı Elm 2011
6. Xaqani Şirvani Seçilmiş əsərləri Lider, Bakı 2004

Məqalədə Qazax şairi Abay Kunanbayevin yaradıcılığına Azərbaycan yazılı ədəbiyyatının təsiri nümunələr gətirməklə elmi təhlilə cəlb olunub.

П.Солтанкызы

Влияние азербайджанского фольклора и письменной литературы
на творчество Абая
Резюме

В статье на основе примеров рассмотрено влияние азербайджанской письменной литературы на творчество казахского поэта Абая Кунанбаева. Здесь проводятся параллели между «Искендернаме» Низами и «Искендер» он Абая. В обоих процведениях, в научном аспекте, комментируются проблемы провителя и народа.

P. Soltanqızı

The influence of Azerbaijan folklore and written literature
to Abay's activities
Summary

In this article the influence of Azerbaijan written literature to Abay Kunanbayev's activities the poet of Kazakh was involved with examples to the scientific analysis. In this point of view it is analysed the work "Iskender" by Abay Kunanbayev. It is explained the poetic similarity in comprative from between "Iskendername" by Nizami with "Iskender" by Abay. In both works it is analysed widely the problem of governor and people in scientific aspect.

Rəyçi: prof. Ramazan Qafarlı

HEYDƏR CƏFƏROV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
ZENFİRA QƏDİROVA baş müəllim
(heysevsara@mail.ru)
Azərbaycan Dövlət Pedaqoji Universiteti

SİRLİ MƏQALƏNİN AÇARI

Əsas sözlər: neologizmlər, ortaq terminlər, açar sözlər, əsas sözlər, dayaq sözlər, pedaqogika incə sənətdir, tərbiyə xüsusi ustalıq, qabiliyyət tələb edən sənətdir, tərbiyəetmə bacarığı, tərbiyələndirmə məharəti.

Ключевые слова: неологизмы, общие термины, ключевые слова, основные слова, опорные слова, педагогика, воспитание, утонченное мастерство, изысканная способность, искусство воспитания, искусство воспитывать.

Key words: neologisms, common terms, foundation words, key words, basis words, pedagogics, education, special mastery, to have aptitude for of profession, mastery of education, mastery of to educate.

Bəşəriyyətin müasir inkişaf mərhələsində ictimai şüura məlum olan elmlərdə (hazırda elmlər sisteminə 15 minə yaxın fənn daxildir) (2) differensiasiya ilə yanaşı, inteqrasiya hadisəsi də baş verir. Bu, təbiidir. Belə ki, bu elmlərin hamısı cəmi üç sahəni – təbiət, cəmiyyət və insanı öyrənir. Məhz buna görə də bir çox hallarda ayrı-ayrı müstəqil elmlərin tədqiqat obyekti üst-üstə düşür.

Məsələn, insan eyni zamanda bir sıra elmlərin (pedaqogika, psixologiya, tibb, fəlsəfə, fiziologiya və s.) obyekti kimi çıxış edir.

Makrosemin açarı, vacib tərkib hissəsi və nüvəsi, yəni mikrosem qismində çıxış edən insan haqqında tam, dolğun mütləq həqiqi hərtərəfli və müfəssəl məlumat əldə etmək məqsədilə elmlər onun müxtəlif tərəflərini öyrənir. Buna görə də müəyyən bir elm sahəsində xüsusi, yalnız onun üçün səciyyəvi olan anlayışlar, terminlər və kateqoriyalarla yanaşı, digər elm sahələrinə məxsus olan anlayışlar, terminlər və kateqoriyalardan da istifadə olunur. Bunlara bəzən ortaq terminlər də deyilir.

Azərbaycan dilinə müxtəlif əcnəbi dillərdən (yunan, rus, ingilis, fransız və s.) gələn terminlər ya tərcümə olunur, ya da səsləndiyi kimi işlədilir.

Lüğət ehtiyatının zənginləşməsi yollarından biri də məhz dilimizə neologizm (yeni) söz və terminlərin gəlməsidir.

Əlbəttə, bu, bütün dillər üçün səciyyəvi olan təbii, obyektiv və bütövlükdə müsbət ictimai hadisədir. Müstəqillik dövründə ölkəmizin dünya birliklərinə uğurla inteqrasiyası ilə əlaqədər olaraq bu proses bir az da intensivləşmişdir. Bu, müasir dövrdə elm və texnikanın sürətli inkişafı, yeni informasiya və kommunikasiya texnologiyalarının geniş yayılması, informasiya cəmiyyətinin yaranması, dünya ölkələri arasında siyasi, iqtisadi, təhsil, mədəniyyət, idman və digər sahələrdə əlaqələrin durmadan genişlənməsi ilə şərtlənir. İctimai həyatın digər sahələri ilə yanaşı, son 15-20 ildə belə neologizmlər (abituriyent, adyunktura, akkreditasiya, bakalavr, bakalavriat, distant təhsil, informal təhsil, inklüziv təhsil, kampus, kurikulum, gimnaziya, lisey, lisenziya, kollec, magistr,

magistratura, monitorinq, nostrifikasiya, pilot, subbakalavr, rezidentura, prioritet, təhsil françayzinqi, tyutor və s.) təlim, tərbiyə və təhsil sahəsində də işlədilir. Lakin müşahidələrimiz göstərir ki, Azərbaycan elmi-pedaqoji ədəbiyyatında istifadə olunan terminlərdə bəzi xətalara yol verilir. Bunları şərti olaraq iki qrupa bölmək olar:

1) dilimizə səhv tərcümə olunan pedaqoji terminlər və anlayışlar (açar sözlər; pedaqogika, tərbiyə incəsənətdir və s.);

2) təlim, tərbiyə, təhsil sahəsində işlədilən və hələlik ictimaiyyətin əksəriyyətinin başa düşmədiyi neologizm-terminlər; (adyunktura, akkreditasiya, informal təhsil, inklüziv təhsil, kampus, kurikulum, monitorinq, nostrifikasiya, pilot məktəbi, prioritet, rezidentura, subbakalavr, təhsil françayzinqi, tyutor və s.) (belə sözlərə növbəti məqalədə münasibət bildirəcəyik - H.C., З.Г.)

Birinci qrupa aid etdiklərimizdən biri son illər ingilis dilindən (key words) rus dilinə (ключевые слова), rus dilindən isə Azərbaycan dilinə yanlış tərcümə olunan və elmi məqalələrin atributu kimi istifadə edilən «açar sözlər» terminidir. Beləki, rus dilində «ключевой» (sifət) sözünün dörd mənası mövcuddur.

Ключевой I ключ **I** söz. sif.; **ключевая позиция** məc. hakim mövqe
Ключевой II ключ **II** söz. sif.; mus. **ключевой знак** açar işarəsi
Ключевой III ключ **III** söz. sif.; **ключевая вода** bulaq suyu
Ключевой IV ключ **IV** söz. sif.; *архитек.* **ключевой камень** kəlləlik daş (bax: 1).

Göründüyü kimi, bu variantların «açar sözlər»in mənası ilə heç bir əlaqəsi yoxdur.

Lakin bu sözün tərcümə lüğətində göstərilməyən, hələlik əksini tapmayan bir mənası da var. Belə ki, rus dilində isimdən («ключ») əmələ gələn «ключевой» (sifət) sözü Azərbaycan dilində «əsas», «başlıca», «ən vacib» mənalarını da verir. Bunu aşağıdakı nümunələr də təsdiq edir:

На современном этапе качество образования, несомненно, является ключевой проблемой сохранения и развития интеллектуального потенциала страны в XXI веке (Müasir dövrdə təhsilin keyfiyyəti, şübhəsiz, XXI əsrdə ölkənin intellektual potensialının mühafizəsi və inkişafının əsas (başlıca) problemidir). Ключевые проблемы теоретической психологии (nəzəri psixologiyanın əsas problemləri); ключевые проблемы развития современной экономики (müasir iqtisadiyyatın inkişafının əsas problemləri); ключевые проблемы мировой политики (dünya siyasətinin əsas problemləri); ключевые проблемы, решаемые муниципальной системой образования (bələdiyyə təhsil sisteminin həll etdiyi əsas problemlər).

В книге рассматриваются ключевые проблемы системы образования современного Азербайджана (Kitabda müasir Azərbaycanın təhsil sisteminin əsas (başlıca) problemləri nəzərdən keçirilir).

Bunun etibarlıq dərəcəsini sübut etmək üçün bir neçə mənbəyə müraciət edək. Məsələn, yeni rus dili lüğətində «ключевой» sözünün aşağıdakı məna çalarları verilir:

1. Соотносящийся по значению с существительным: ключ
2. Свойственный ключу, характерный для него.

3. Открывающий возможность овладения чем-либо, захвата чего-л. (местности, пункта, высоты и т.п.) во время военных действий.

4. перен. Основной, главный, самый важный (подчеркнуто нами – Н.С., З.Г.) (3).

Digər lüğətdə (bax: 4) isə oxuyuruq:

1. ключевой, -ая, -ое.

1. к Ключ. Ключевое отверстие замка.

2. *Воен.* Открывающий возможности овладения чем-л., захвата чего-л. *Ключевой пункт позиций. Занять ключевые позиции.*

3. Наиболее значительный в каком-либо отношении. *Ключевые проблемы экономики.* Ключевые посты *в правительстве. Ключевая глава романа* (выделено нами – Н.С., З.Г.).

Fikrimizcə, **«ключевой»** sözünün ən dolğun və əhatəli mənası rus dilinin sinonimlər lüğətində (cəmi 37 sinonim) (bax: 5) verilmişdir: первый (74.527), главный (52.390), ведущий (40.830), важнейший (35.220), центральный (7.970), основной (7.231), генеральный (4.114), определяющий (3.070), решающий (1.820), коренной (1.078), господствующий (917), преобладающий (656), кардинальный (317), первейший (260), гвоздевой (179), родниковый (167), узловой (159), магистральный (154), основополагающий (119), первенствующий (53), стержневой (24), превыше всего, имеющий наибольшее значение, наиболее существенный, наиболее значительный, наиболее важный, самый существенный, самый значительный, самый важный, жизненно важный, на первом месте, первостепенной важности, имеющий первостепенное значение, электроключевой, номер один (mötərizədə sinonimlərin dildə işlənmə tezliyi verilmişdir).

Göstərilən nümunələrin leksik təhlili onu deməyə əsas verir ki, indiyə qədər elmi məqalələrdə «açar sözlər» kimi işlədilən anlayış rus dilinin incəliklərini əks etdirməyən, yerində işlədilməyən, olduqca yanlış sətri tərcümədir. Bu deyilənləri nəzərə alaraq və çoxillik tərcüməçilik təcrübəmizə əsaslanaraq əminliklə deyə bilərik ki, bu terminin **«əsas sözlər»**, yaxud **«dayaq sözlər»** {rus dilinin qrammatikasında da «опорные слова» («dayaq sözlər») anlayışı var və fikrimizcə, elə bu dildə də «ключевые слова» əvəzinə «опорные слова» terminin işlədilməsi daha düzgün olardı} kimi işlədilməsi daha məqsədə müvafiqdir.

Yeri gəlmişkən, ingilis dilində də «key» sözü bir çox hallarda «aparıcı», «əsas» (məsələn, key industries – sənayenin aparıcı, əsas sahələri), yaxud «keynote» «üstünlük təşkil edən not», «əsas fikir», «keystone» - «əsas prinsip» mənalarında işlədilir.

Yuxarıda verilən kontekstdə rus dilində işlədilən «ключевой» (sifət) sözünün məcazi mənası məhz bundan ibarətdir.

Beləliklə, rus dilindəki «ключевые слова» söz birləşməsinin elmi məqalələrdə atribut kimi tələb olunan «açar sözlər»in, sözün əsl mənasında işlənən «ключ» (isim) «açar»la bilavasitə əlaqəsi yoxdur və tamamilə başqa bir məna kəsb edir.

Beləliklə, fikrimizcə, dilimizə gələn neologizm-terminlərin elmi-pedaqoji, psixoloji və s. dövriyyədə statusunun müəyyənləşdirilməsində həmin dildə sözlərin çoxmənalı (polisemik) olması, onların etimologiyası, tarixi inkişaf yolu, çalarları və konkret halda konteksdən asılı olaraq hansı leksik mənanı kəsb etməsi

nəzərə alınmalı, optimal variantın seçilməsinə xüsusi diqqət yetirilməli, sətri deyil, məzmun tərcüməsinə üstünlük verilməlidir.

Biz nisbi həqiqətlərin mütləq həqiqətlərə çevrilməsində elmi diskussiyaların müstəsna əhəmiyyətə malik olduğunu nəzərə alaraq dilçi alimləri, tərcümə ilə məşğul olan mütəxəssisləri, pedaqoqları, psixoloqları, müəllimləri sağlam mübahisəyə dəvət edir və məqalədə qaldırılan məsələlərə münasibət göstərənlərə, mülahizələrini söyləyənlərə, əsaslı iradlarını bildirən həmkarlarımıza əvvəlcədən təşəkkür edir və dərin minnətdarlığımızı bildiririk.

Elmi yeniliyi və nəticəsi: azərbaycan elmi-pedaqoji ədəbiyyatında işlənən bəzi terminlərə aydınlıq gətirilməsindən, onların leksik mənaları və tərcümələrinin dəqiqləşdirilməsindən ibarətdir.

Tətbiqi əhəmiyyəti: problemin araşdırılması elmi dövriyyəyə daxil olan neologizmlərin düzgün tərcümə olunmasına və pedaqoji ədəbiyatda düzgün işlənilməsinə kömək edəcəkdir.

Ədəbiyyat

1. Rusca-azərbaycanca lüğət. Beşinci nəşri, I cild A-K. Azərbaycan sovet ensiklopediyasının baş redaksiyası. Bakı, 1990. – s. 538.
2. e-readinq-lib.orq/…/Mihaiilov_-_Konse…
3. efremova.info/word/kljuchevoj.html
4. www.gramota.ru/slovari/dic/?word=%...
5. jeck.ru/tools/SynonymsDictinary/ключевой

Гейдар Аллахяр оглу Джафаров,
Зенфира Саит гызы Гадирова

Ключ тайной статьи

Резюме

В статье на основе фактического сравнительного (русского с русским) и сопоставительного (азербайджанского с русским и английским) языкового материала обосновывается, что некоторые употребляемые в азербайджанской научно-педагогической литературе заимствованные термины (key words, ключевые слова) переведены неправильно.

Авторы, учитывая многозначность (полисемию) заимствованных слов, предлагают оптимальные варианты, близкие их исконному значению.

Jafarov Heydar Allahyar,
Qadirova Zenfira Sait

Key of the mysterious article

Summary

In the article the basing of factual comparassin (russion lang. with russion) and conrtontation (azerbaijan lang. with russion and english) language material the

are grounded, on some using of the azerbaijans science pedagogics literature, borrowing terms (key words) they was wrong translait.

Author, looked for (polysemy) of loan words, to propose to optimal varaety, original close meaning.

Rəyçi: prof. İbrahim Bayramov

YUCƏL KARAUZ
azarbaycan.yk1985@hotmail.com>

YOLU BAKIDAN KEÇƏRKƏN TARİX YAZANLAR

Açar sözlər: türk, əsgər,müharibə. Bakı, qəzetlər.
Ключевые словы: турецких, солдат, войны, Баку, газетах.
Keywords: Turkish, soldiers, War, Baku, newspapers.

Hərb əsirlərinin xatirələrini yazması ümumi olaraq çox tez rast gəlinən vəziyyət deyil. Bu xatirələr İkinci Dünya müharibəsindən sonra çox sayda olmasına baxmayaraq, Birinci Dünya müharibəsi ilə əlaqədar çox xatirəyə rast gələ bilmirik (1). Eyni şəkildə Osmanlı İmperatorluğu zamanında da bunun tətbiqləri çox deyildir. Aparılan araşdırmalarda bu sahədəki işlərin XVI tarixlərindən etibarən başladığını görə bilirik, lakin tapılan ən yaxşı nümunə Avstriya – Osmanlı müharibəsinə qatılan və əsir düşən süvari zabiti, Temeşuarlı Osman Ağanın XVII əsrdə yazılmış xatirələridir (2).

Bu məqalənin mövzusu olan qəhrəmanlar yaşayarkən tarix yazmışlar və ayrıca məsulliyyətlərinin fərqində olaraq yaşadıqlarını da yazaraq bu gün bizlər üçün bir dəniz mayakı olmuşlar. Bu qəhrəmanlığın ortaq xüsusiyyətləri Birinci Dünya müharibəsində ruslar tərəfindən əsir edilən və ya əsarətə aparılan ya da əsarətdən dönərkən qaçış yolunda Bakıdan keçmiş olmalarıdır. Həmin zaman da təxminən 20.000-30.000 Türk əsirinin yolu Bakıdan keçməsinə baxmayaraq bu gün bizə o dövrdə yaşananları əks etdirən çox az sayda əsər qalmışdır.

Bu baxımdan zabit **Xəlil Atamanın** xatirələri çox maraqlıdır.

(Halil Ataman (1888-1992) Niğdeyə bağlı Bordada doğulmuşdur. 24 Avqust 1914-cü ildə ehtiyat zabit olaraq orduya qatıldı. 7 Avqust 1916 tarixində Ruslara əsir düşdü. 25 avqust 1922 ildə çətin bir səfərdən İstanbula qayıtdı. 11-16 sentyabr 1916 tarixləri arasında yolu Azərbaycandan keçmişdir).

O, yazırdı: " Tiflisdən sonra yol boyu kamilən su, suğla və bəzi yerlərdə quraq var, sanki bir çöl. Günorta tam saat 12 radələrində, böyük bir çay sahilindəki Ağıstafa qəsəbəsinə gəldik. Burada xalq həmişə Türk iri və igid quruluşlu, mərd və cəsur görünüşlü, düz, gözəl, təmiz geyimli; hələ başlarındakı papaq onlara daha üstün bir məhabət vermiş kimi görünür. Əfəndi və nəzakətli insanlar, bizi əsir görüncə açıq-aşkar bəyanı təəssüf edirdilər. Eyni zamanda gözləri sulanır və kövrəlirdilər. Bu ətrafda qovun qarpız və hər şey bol, məzul, bir çox xırman da var idi. Torpaq xeyli zəngin idi. Bu vaxt qatar bütün sürəti ilə yol gedirdi. Bu yerdə, bit hava xətti fəaliyyət halında idi. Hava xətti xeyli uzun görünürdü. Eyni gün şam vaxtı Gəncəyə gəldik. Gəncə başlı başına bir Türk şəhəri imiş. Burada hər kəs Türkçə danışır, stansiyada çox sıxlıq, insanlar gözəl geyimli, üstləri başları düz, bütün başlarda qara ya da qəhvəyi papaq var. Heç kəslə danışa bilmədim, çünki qatar çox az dayandı və dərhal hərəkət etdi. İndi Bakı yolundayıq. Bu yerlərin çöl və çöl havası var.

Susuz, quraq, meşəsiz və yaşıllıq adında heç bir şey yox kimi. Bu düzlüklərdən keçərkən də bir şeylər görmürük, bu ətrafda Bakıdan Batuma gedən neft dəmir boru xətti açıqda görülür və neft boru xətti dəmiryolu xəttini təqib edirdi. Bunların diametri 70 santimetr və bəlkə də daha çox, qatarın pəncərəsindən göründüyü qə-

dəriylə. Bugünki gündüz səfərimiz boyunca heç bir tərəfdə bir dağ zirvəsi görülmür. Böyük bir çöl və dümdüz bir dünya ... Neft daşıyan bəzi borular partlamış. Belə yerlərdə neftdən göllər meydana gəlmiş, hələ bir nöqtədə görülən açıq yaşıl rəng, böyük bir göl olmuş, bəlkə də on hektarlıq bir sahəni örtmüşdür. Bu çöl ortasında, bir stansiyadan qaynamış çay suyu aldıq, çayları içdik, amma stəkanın dibinə ən azı iki millimetr qalınlığında əhəngdən bir palçıq təbəqəsi çökmüşdü. Bu ətrafda insanlar heç su içməzmiş, ancaq çay içərmiş. Qatarın gedişi belə azalmışdı, sanki dəyişməyən mənzərə və düzlükdən bezmiş, yorulmuş kimi idi. "Bakıya 45 versit qaldı" – dedi.

...Bakıda çox Türk vardı. Bizə qarşı çox simpatik olub, bir təşkilat halında fəaliyyətlərini davam etdirirlər" (3, s. 124).

Fəxrəddin Ərdoğanın xatirələrində maraqlı məlumatlar vardır**.(Fəxrəddin Ərdoğan(** (1874-1992) Sivasa bağlı Divriyi qəzasının Yağbasan kəndində doğulmuşdur. 1914-cü ildə əsir düşdükdən sonra Sibirə əsarətə gedərkən və 1916-cı ildə əsarətdən dönərkən yolu Azərbaycandan keçmişdir).

O yazırdı: "Bakıya doğru yola çıxdıq.İki gecə sonra Bakı stansiyasına gəldik, bizi Xəzər dənizinin sahilində Tağıyev Hacı Zeynalabdin Əfəndinin tikdirmiş olduğu həbsxanaya qoydular. Burada ayrı bir yaşayış tərzi vardı. Çörək olaraq ağ francala, yemək olaraq bol ətli paxla və düyü plovu verilirdi ki, buna səbəb bu həbsxananın bütün xərclərini Hacının üzərinə götürməsi idi. Həbsxana müdiri hər gün səhər çayından sonra iki saat, günorta yeməyinndən sonra iki saat müddətində həbs, həbsxananın müntəzəm olan bağçasına iki-iki gəzintiyə çıxardır və hava aldırırdı. Bir səhər bağçaya çıxdığımızda karvanın 200 nəfərdən çox olduğunu gördüm. Qafqazdakı Türkçü və Alman təbəsini də yığıb bizimlə birləşdirmişdilər, bizlərdən əvvəl göndərilən Qarslı Cihangiroğlu Əziz Bəy, Sarıqamışlı zərgər Abdulhəmid Əfəndi, altulu zərgər Məmməd Battaloğlu, Ağbabalı Əllər kəndindən atası, Cəbəci kəndindən Məmməd Dayı, Həsən, Əli və Əli Əsgər Ağalar da orada gördüm.

Musa Nağıyevin İsmaililərin binasındakı mehmanxanalarina gəldik. Dəniz səfərinin sarsıntısı ilə narahat olduğum üçün, iki gün mehmanxanadan çölə çıxmadım. Bakıya gəldiyimizi xəbər verən Qarslı bərbər Mustafa Əfəndi ilə, Yeni Qazili Xalid, gəlib bizi tapdılar. Çünki yoldaşlarından Bərbər İsmayıl Əfəndi də mənimlə bərabər idi. Burada bir çox xəbər aldıq. Bizlərdən sonu Bərbər Mustafa Əfəndini də, ailəsi ilə birlikdə Bakıya sürmüş. Həyat yoldaşı, 2 yaşındakı uşağı Gülizar ilə tramvaydan enərkən düşmüş, özü yaralanmış, yazıq uşaqcığazın da ayağı qırılmış olduğundan ikisinin də Tağıyevinn xəstəxanasında müalicə edilib çıxarıldığını söylədilər. İndi bərbər Mustafa Əfəndi Uğurlu soyadını almış, Bizim Bərbər deyə bir salonu var. O ayağı qırılan Gülizar isə İstanbul Tibb Fakültəsindən Diş təbibi olaraq məzun olmuş, Qarsda böyük bir müayinəxana açmış, çalışırlar. Bakını Bərbər Mustafa Əfəndi ilə gəzdim, ilk iş olaraq Bakı Xeyriiyyə Cəmiyyətinə getdim, orada irəli gələnlərlə tanış olduq. Burada istiqlal eşqiylə cəmiyyətlər qurulmuş, dayanmadan çalışırdı. O oturduğumuz İsmayılıya binasında Musa Nağıyevun 50 yataqlı mehmanxanasi var idi ki, hər gələn Türk yolçusu burada aylarla qalır, yemək və yataqları təmin edildiyi kimi, paltarları yuyulur, bütün xərc Nağıyevun kassasından ödənilir, qonaqlardan bir tək qəpik belə alınmazdı. 3.000 sabit oturacağı olan böyük bir salon var idi, qadınlara aid yuxarıda lojalar mövcud

idi. Bakı Türkləri bütün yığıncaklarını burada toplayırdılar. Bu möhtəşəm binanı Musa Nağıyev Xeyrriyə Cəmiyyətinə bağışlamışdı. Nağıyevun İsmail adında, gənc yaşda vəfat edən bir oğlu varmış. Binasının səkkizinci kıtında oğlunun heykəlini bir otağa etdirib qoydurmuş və bura "İsmayılıya". deyilməsi buradan irəli gəlirdi. Bundan başqa 200 nəqli bir də yatimhanesi var idi. Bura cəbhədən toplanan kimsəsiz uşaqlar gətirilərək baxımları təmin edilmişdi. Bakıda qaldığım həftəsində Tağıyev Hacı Zeynal Abidin Əfəndinin ziyarətinə getdim. Bakıdaki hər zəngin Türkün, evinin qapısında Dağıstanlılar və Lezgilerden bir qapıçısı var. Getdiyim evin ünvanını dərhal Hacıya xəbər verdi. Qəbul edildim. Dostum İbrahim Əfəndi ilə Hacının əlini öpdü, yer göstərdi, oturduq. Kim olduğumuzu soruşdu. Özümüzü tanıtdıq. Türk əsirləri olduğumuzu öyrənincə, yerindən qalxdı, əlimizi sıxdı və gözlərimizdən öpdü. Hacı 50-60 yaşlarında Azərbaycan Türklərindən, dinc bir qoca idi. Çox xoş söhbəti var idi. Türk ordularının Qafqaz və Bakıya gələcəklərinə inandığı üçün, bizə qorxmadan çalışmamızı tövsiyə edir, bütün sərvətini Türklük və qurtuluş uğrunda sərf edəcəyini mən vəd edirəm (4, s. 15).

Hüsaməddin Tuğaçın xatirələrində çox maraqlı məqamlar vardır.(Hüsaməddin Tuğac (1889-) Ərzurumun Həsən qalq bölgəsində doğulmuşdur. 9 yanvar 1915-ci il tarixində Ruslara əsir düşdü. 1917-ci ildə qaçaraq, Su şəhərindəki 3-cü Ordu qərargahına çatmışdır. Oktyabr 1917-ci ildə dönüş yolunda yolu Azərbaycandan keçmişdir).

O yazırdı: "Xəzər dənizinin yağışlı və soyuq səfərindən sonra Bakı sahilləri mənə o yuxunu xatırlatdı. Özümü təhlükəsizliyə qovuşmuş hiss etdim.Körpüdə erməni olduğunu şivəsini anladığım, Süngülü bir zabit pasport soruşurdu. Bu məni düşündürdü. Demək ki gözlədiyim tam azadlıq Bakıda hələ yox idi. Əsgəri idarə hakim idi. Sıra mənə gəlincə soyuqqanlı bir laqeydliklə pasportumu verdim. Axtarılacaq əşya yox idi. Etiraf etməliyəm ki, saxta pasport məni ələ verə bilərdi. Qəlbim tez-tez döyünürdü. Adam seliqəsiz nizamıma baxaraq lağedici bir üzlə məni süzdü. Və çirkli pasportu mənə uzatdı. Alan kimi körpü başından ayrıldım. Və böyük bir psixoloji təsirdən o anda xilas oldum.

Müsəlmanlar paltarlarından az çox müəyyən idi. Birinə bir otel soruşdum, dərhal yaxında və prospekt üstündə bir otel göstərdi. Qapıdakı yazısına görə Təbriz oteliydi. İçəri girdim, Qantur dedikləri büroda orta yaşlı bir şəxs pasportumu aldı, baxmağı lazım bilmədən masanın yanındakı rəfə qoydu, mənə də geyimimə görə qapıya yaxın kiçik bir otaq verdi. Otaq alçaq və pəncərəsizdi. Bununla birlikdə döşək iy verirdi, bir də dəmir açıla yataq var idi, dərhal ona uzandım.

Otel sahibi Həsən BəyAğayev imiş. Bu şəxs bizim İstanbulda Türkçülük öndərlərimizin bakılı *Professor Ağaoğlu Əhməd bəyin* qardaşıymış. Yataqda bir saat qədərşə yuxuya getmişəm, oyananda Rəsulzadə Məmməd Əmin Bəyi görmək istədim. Planımın qabaqda gələn maddəsi bu idi. *Məmməd Əmin bəyi* "Açıq Söz" qəzetindən tanıyırdım. Görüşmək və vəziyyətimi izah etmək üçün mətbəəsinə getdim. Böyük bir otaqda maşınlar işləyirdi. Bir küncdə şüşəli bir bölmədən Məmməd Əmin bəy masanın başında, yanında da bir neçə adam vardı. Emin bəyin üzünü qarşıdan görürdüm, lakin tək olmadığı üçün yanına girə bilmədim. Və buna da kədərləndim. Bir az sonra Azarbəycan Milli şurasının mərkəzi olan İsmayıl binasında idim. Xüsusi Qələm Müdiri *Mirzə Davudu* gördüm, kim olduğumu izah etdim. Böyük bir maraq ilə qarşıladı və Milli Komitə sədri *Əli Mərdan Bəy*

Topçubaşıya söylədi. Topçubaşı ilə yalnız görüşdük. Məni hər istiqamətdən araşdırdı. Əsarətdən sonra buçalardan geçişimi, Gəncədə qohumlarım olduğunu fərarilik əsnasında Semipalatda, Daşkənddə tanıdığım kəsləri izah etdim. Bunlar və bunlara qatılan silahlı erməni əsgərləri Bakı xalqı üçün ciddi bir təhlükə halında idilər (5, s. 172).

Faiq Tonquç xatirələrində maraqlı məqamlara toxunurdu. (**Faiq Tonquç (**1889-1968) Çorumda doğulmuşdur. 20 iyun 1914-cü ildə orduya qatılıb. 11 iyul 1916-ci il tarixində Ruslara əsir düşüb. 27 iyun 1918-ci il tarixində İstanbula qayıdıb. 2-16 oktyabr 1916-cı il tarixləri arasında əsarətə gedərkən yolu Azərbaycandan keçmişdir).

O yazırdı: "Sonu görünməyən düzənliklərdən, qamış və kərpicdən edilmiş daxma yağınlarından ibarət Türk kəndlərini keçərək, Rusların Yelizavetpol dedikləri Gəncə şəhərinə gəldik. Stansiyadaki bufet, mağazaya getmək, hətta vaqondan enmək qadağan idi. Gənc bir "Praporşik" əlində tapança, vaqonları qarşısında aşağı yuxarı qaçaraq gəzir, böyük tapançasını ona - buna göstərərək, əsirləri görmək üçün toplanan xalqı güldürürdü. Dünyanın saylı sənaye əsərlərindən biri olan neft borularının əhəmiyyətini məktəbdə müəllimlərimizdən öyrənmişdim. Şans indiki bu böyük əsəri görürdüm. 20 santimetr qədər diametri olan bu borular bir Amerika şirkəti tərəfindən qurulmuş və Bakı neft quyularında xam nefti Batuma daşıyır, orada əməliyyat gördükdən sonra gəmilərlə dünyanın hər tərəfinə göndərilirdi.

Qafqazın Tiflisdən sonra ikinci böyük şəhəri olan Bakının minarələri, qübbəli məscidləri uzaqdan görünürdü.

Şəhər və ətraf əhalisinin beşdə dördünü Türklər təşkil edirmiş. Azərbaycan qəzetləri, məktəbləri, teatrlarıyla, hərəkətli və canlıymış. Stansiyaya düşməyə belə qoymadılar, bizi görməyə gələn xalqı belə uzaqda tutdular" (6, s. 179).

İrfan oğlu İsmail Əfəndi isə xatirələrində maraqlı məqamları açıqlayırdı. (**Faiq Tonquç (**1889-1968) Çorumda doğulmuşdur. 20 iyun 1914-cü ildə orduya qatılıb. 11 iyul 1916-ci il tarixində Ruslara əsir düşüb. 27 iyun 1918-ci il tarixində İstanbula qayıdıb. 2-16 oktyabr 1916-cı il tarixləri arasında əsarətə gedərkən yolu Azərbaycandan keçmişdir).

O yazırdı: "***Bakıda düşəcəkdim. Çünki Bakıda İran bölgəsi var idi. Bakı, o vaxt, bir çox bölgəyə ayrılmışdı. Azərbaycan bölgəsi, İran bölgəsi var. Bir də Türk bölgəsi var. Başqa xarici bölgələr də var. Mənim pasportum İran olduğuna görə, İran bölgəsində endim. İran bölgəsində bir otelə getdim, orada qaldım. Ətrafı dinləməyə başladım. Nə xəbərlər var deyə dinləyirdim. Bəzən sözə qarışırdım, suallar soruşurdum. Həmişə diqqət edirdim nəsə səhv söz işlətməməyə. Öyrəndiklərim bunlardır: Bakıda üç bölgə var. İran və azərbaycanlıların təşkilatı var. İngilis əsgəri var, Türk əsgəri də var. Ənvər Paşanın qardaşı və əmisi olan, Nuri və Xəlil Paşanı hərbi birliyi var. İndi mənim hədəfim Nuri və Xəlil Paşanı ordusuna qoşula bilməkdir. Amma necə olacaq bu iş? Nüfuz bölgəsindən digərinə keçə bilmək çox çətin. Tikanlı məftillər belə var, gözətçilər də var. Bakı küçələri sanki düm düzdü. Bir də qarışıq olan yerlər var. Qarışıq olan yerlərdə erməni var, Gürcü var, Rus var! Qısaca buralar qarışıq qarışıq, baş yox, quyruq müəyyən deyil. Bakı küçələrində gəzərkən, bir tanış tapdım. O da mənim kimi Türk bölgəsinə keçmək istəyir. Axtarsak çox Türk tapa bilərdim. Lakin sıxlıq bir***

qrup olmaq istəmirdim. Sıxlıq qrup diqqət çəkərdi. Dərhal bir maneə çıxa bilərdi qarşıma" (7, s. 142).

Mustafa Taşərin xatirələri də mövzunu öyrənmək baxımından dəyərlidir. *(Mustafa Fevzi Taşər* (1888-1992) Ürgüpdə doğulmuşdur. Osmanlı topraqlarını qurtarmaq üçün getdiyi Revandiz Cəbhəsində Ruslara əsir düşmüşdür. Vetlugaya əsarətə gedərkən yolu Azərbaycandan keçmişdir).

O yazırdı: Ticarət mərkəzi olan bu Türk şəhəri, gecənin qaranlıq səması içində nurlu elektrik ziyalarına qərq olmuş, məğrur və müstəqil bir Türk koloniyası hissini verirdi. Tam cəbhəyə təsadüf edən möhtəşəm binanın çıxardığı elektrik ziyası, qəlbimizin dərinliklərinə qədər nüfuz edərək bizi yenə intibaha dəvət edirdi. Taleyin oyununa görə məhv olduğumuz bu qəhr edici əsarət əlbəttə keçicidir, lakin fədai sülhdə göstəriləcək işlər əlbəttə öldürücüdür. İndi gördüyümüz vəziyyət, əgər istifadə etsək, bir məktəb sıralarında əldə edilən biliklərdən qat qat üstün və faydalı olacaq. Bir düşmən əlində alacağımız təcrübələrdən faydalansaq, bu qarşımızdakı divanə olduğu qədər öz sadəliyi ilə qucağımıza gələcək. Bu danışıqların şirin düşüncələri arasında fikirləşərkən səhər olmuşdu.

Səhər duş yerinə aparılaraq duş etdirildi, paltarlar dezinfeksiya edildi və vaqonlara qayıtdıq. Bir çox yerli İslamların nurlu üzlərini görür və onlarla qarşılaşırdıq. Lakin, xain ruslar kinli baxışları ilə söhbətimizə mane olurdu. Hər biri səkkiz, doqquz kilo ağırlığıda böyük ağ çörəklər tədarük edərək, yerlərimizə gəldiyimiz zaman axşam olmuşdu. Bu qəmli gecələrdə, kəsik və mənasız danışıqlardan sonra yenə yatmaq zamanı gəlmiş, sıralar üzərinə, əşya rəflərinə, divar künclərinə büzülərək səfil bir yuxuya qarışmışdıq.

Səhər, Xəzər dənizinin kənarında dayanaraq yemək tədarük etdikdən sonra, günəş batmışdı" aşmış qatar də son dayanacağına hərəkət etmişdi. O gün və gecəni bir fəaliyyət içində keçirdik. Günəş, ərazini nurlandırdığı sırada qatar Məmməd Qala stansiyasında bir az dayandıqdan sonra davam etdik və Petrovskiyə girdiyimiz zaman dumanlı bir mənzərəylə qarşılaşdıq" (8, s. 47).

Əhməd İzzət Əfəndinin də xatirələrində maraqlı məqamlar açıqlanırdı. *(Əhməd İzzət Əfəndi (Göze)* Əhməd İzzət Əfəndi (Göze) (1895-) Niksarda doğulmuşdur. Orduya könüllü olaraq qatılmışdır. 31 dekabr 1915-ci ildə əsir düşdükdən sonra Sibirə əsarətə gedərkən yolu Azerbaycandan keçmişdir).

O yazırdı: "Bakının Nargin Adası.Ruslar, Qafqaz cəbhəsində əsir aldıqları Türkləri ilk poçt olaraq burada topladılar.Ama bu vaxt, Xəzər Dənizindəki bu adada başqa millətlərdən əsirlər də var.Almanlar, Avstriyalılar və Bolqarlar .. Türklər arasında Ərəb,Suriyalı,İraqlı əsirləri var.. Çünki o zamanlar bura hələ Osmanlı dövlətinin bir parçası idi.Nargin adasında əsirləri,çox köhnə bir daş binaya yerləşdirdilər. Əsirlik psixologiyası burada hər kəsi bürüdü. Çünki tam mənasıyla bir həbs həyatı başlamışdı. Döyüşçü həbs həyatına keçməsi çətin idi. Mülazım Əhməd əfəndi, gördüyü hərb səhnələrini,oxuduqlarını,dünyanın vəziyyətini, məmləkətinin gələcəyini yenidən düşünür. Heç cürə qatı bir qərara gələ bilmirdi.Sıxılır, boğulurdu.

Çox müxtəlif insanlar var idi burda. Hamısı bir də, iç üzü bir başqa cürə Tiana çıxmışdı. Amma 'Vətən verliği özünü heç tərk etmədilərdir. Ruslar Türk əsirlərinə; rütbələrini tətbiq etdiyi maaşı eynilə verirdilər. Baxım ona görə idi. Təbii Osmanlı

dövləti də. Rus əsirlərinə eyni şəkildə rəftar edirdilər. Əslində o günkü. şərtləri içindəaydındı də şikayət edəcək heç biri yox idi" (9, s. 47).

Qeyd edim ki, tarix düzəltmək qədər yazmaq da əhəmiyyətlidir. Lakin əhəmiyyətli olan, tarixi gerçək bir şəkildə ortaya qoymaqdır. Bu tutulan qeydlər anı və xatirələr bizə keçmişi qiymətləndirmək və gələcəyə hazırlanmaq üçün əhəmiyyətlidir. Buna görə də, görülən hər şeyin qeyd altına alınması vacibdir.

Ədəbiyyat siyahısı:

1. Yücel Yanıkdağ. Ottoman Prisonersof of Warin Russia, 1914-22.
2. Harun Tolasa (ed.). Öz deyimi ilə Temeuarlı Osman Ağa (Konya 1986).
3. Halil Ataman. Hərb və əsarət Şərq cəbhəsindən Sibirə. 2010, s. 124.
4. Fəxrəddin Ərdoğan. Türk ellərində xatirələrim. 1988, s. 70, s. 15.
5. Hüsaməddin Tuğaç. Bir nəslin dramı. 1975, s. 172.
6. . Faiq Tonquç. Birinci Dünya savaşında bir yedək sunayın anıları. 1999, s. 179.
7. . Əhməd Riza İrfanoğlu. Allahu Əkbər Dağlarından Sibir. 2004, s. 142
8. . Eftal Şükrü Batmaz. Cəbhədən – cəbhəyə, əsarətdən - əsarətə. 2000, s.47
9. Ərgun Goze. Rusiyada üç əsarət ili. 1989, s. 67.

Люди мимоходом минувщие Баку пищущие историю о нем

Резюме

Статья посвящена воспоминаниям турецких солдат и офицеров побывавших в Баку в период Первой мировой войны. Отмечается что, в тот период в Баку были привезены большое число заключенных. Некоторые из этих заключенных в дальнейшем опубликовали свои воспоминания в Турецких газетах. Эти воспоминания содержали не мало интересных фактов о событиях, происходящих в тот период.

Yucel Karauz

Making history while their way passing through Baku

Summary

This article is devoted to the memory of Turkish soldiers who were in Baku while The Second World War. It is known that those years there were a lot of Turkish soldiers in Baku. They were kept in captivity or they left Baku in serious procedure. Their memoirs about Baku are discussed in this article in newspapers.

Rəyçi: Nəsiman Yaqublu
tarix elmləri namizədi

Mündəricat

DİLÇİLİK

Ə.M Rüstəmov
Zəngəzur ərazisinin fitonimik oronim və oykonimləri 3
X.Abdullayeva
XIII-XIV əsrlər Azərbaycan ədəbi dilində tabeli mürəkkəb cümlə komponentlərinin inversiyasinda aktuallaşmanın rolu...9
Fidan Qədirova
Modallığın felin vasitəli şəkilləri ilə ifadəsi 16
Soltanxanım Musayeva
İgilis dilində ön şəkilçili fellərin semantik xüsusiyyətləri.....24
Arzu Hüseynova
İngilis dilində məkan, istiqamət bildirən prefikslər və onların Azərbaycan dilində ekvivalentləri.....27
Naizə Salmanova
Köməkçi nitq hissələri sistemində modal tipli sözlərin əsas funksiyaları *32*
Elnurə Quliyeva
Dil əlaqələqələrinin dilin leksik sisteminə təsiri 36
Hicran Dayanova
İnglis dilinin (şifahi nitqin) öyrədilməsində dil çalışmalarının rolu 40
Sevinc Quliyeva
Müasir ingilis ədəbi dilində modal fellər (modal verbs) 44
Səidə Mehdiyeva
İngilis dili mənşəli beynəlmiləl terminlər və onlarin Azərbaycan dilində qarşılığı 49
Nuriyyə Rzayeva
Tarixi inkişaf prosesində ingilis dilinin qədim dil əlaqələri və onun etimoloji durumu.....53
Kamalə Mehdixanlı
Linqvistikada predikativlik məntiqi-qrammatik hadisə kimi...57
Sevinc Bağırova
XIX əsr Azərbaycan şair və mütəfəkkirlərinin əsərlərində islam motivləri 62

Dürdanə Vəkilova
Mətn strukturunda registr variantların yaranması 66
М.Ибрагимова
Lieder im deutschunterricht 71
Джамиля Гадимова
Об экзотической лексике из польской
переводной литературы 76
İ.Şəmsizadə
İ.Hüseynovun (Muğanna) «Məhşər» romanında şair
obrazlarının səciyyəsi 80
Наргиз Гафарова
Значение лексической работы на современном этапе
преподавания русского языка как иностранного 87
Ульвия Абдуллаева
О переводе художественно-изобразительных средств 91
Симруг Касумова
Некоторые особенности атрибутивных словосочетаний
в английском и Азербайджанском языках 96
Нигяр Алиева
Этноспецифические концепты как отражение
национального характера 102
Nuray Əliyeva
Azərbaycan dilinin Şahbuz şivələrində əkinçilik terminləri .. 108
Чичек Эфендиева
«Под трубами спеленуты…» 113
Aynur Mammadova
Homonyms in english and their specific features 118
Natiq Adilov
Tərkibində ev heyvan adları olan bəzi ingilis
idiomlarin Azərbaycan dilinə tərcüməsi və təhlili 130
Polad Poladov
Machine translations in hi-tech environments 134
А.Арыхова
Некоторые проблемы в изучении иностранного
языка в начальной школе 139
Nigar Abdullayeva
Zahirə Kazımova
İnformasiya mübadiləsi və onun ünsiyyətdə yeri 143

Səidə Qəmərli
Zamirə Əfəndiyeva
Nitqin növləri və formaları 148
Sevinc Садыхова
Диалогическая речь и экономия языковых средств 153
Elxan Yusifov
Alman və Azərbaycan dillərində inkarlığın sintaktik ifadə vasitələri 159
Гюльбениз Джафарова
Сложноподчиненные предложения с придаточным изъяснительным в русском литературном языке XVIII века 168
Eleonora Babayeva
Çoxmənali sözlərin ingilis dili dərslərində tədrisi 175
Aytən Haciyeva
Sinonimik cərgələrin zənginləşmə mənbələri *(ingilis və Azərbaycan dilləri materiallari əsasinda)* 180
Esmira Məmmədova
Frazeoloji birləşmələr, onların tədqiqatı və mənşəyi 185
Səidə Mehdiyeva
Üslubi sinonimlərin yaranmasında evfemizmlərin rolu 190
Könül Qocayeva
İngilis dilinin tədrisində referenial mənaların verilməsi 195
Ruqiyyə Səfərova
Feli söz birləşmələrin leksik-semantik təhlili 200
Sevinc Bağirova
Üslubi sinonimiyada arxaizm və dialektizmlərin yeri 205
Tərənə İsmayılova
Realilər haqqinda ümumi məlumat 210
Zamirə Məmmədova
Metonimiya və onun növləri 215
Könül Qasımova
Sözün məcazi mənası 220
Nərminə Quliyeva
Sərbəst və sabit söz birləşmələri haqqında 225
Çimnaz Alxasova
Məcazlar dilin lüğət tərkibini zənginləşdirən vasitə kimi 230

Günel Orucova
Azərbaycan dilində alinmaların milli kökənli sözlərlə əvəzlənməsi məsələsinə dair 235
Şəhla İbrahimova
“Türkologiya” jurnalında I Türkoloji qurultay 241
Нигяр Гезалова
Значимость этического компонента в образовании 248
Кифаят Гёзалова
Современное состояние и ближайшие задачи изучения истории турецких народностей 252
Tamilla Abdullayeva
İngilis və Azərbaycan dillərinin lüğət tərkibinin zənginləşməsində bitki adlarının rolu 257
Qənirə Əsgərova
Əhməd Cavadin dil-üslub xüsusiyyətləri 263
Fəridə Hüseynova
Xarici dil təlimində yeni yanaşmalar və sillabusların hazırlanmasında üstünlük təşkil edən əsas meyarlar 268
Zöhrə Nəbiyeva
Saylarin üslubi imkanlari və mənaca növləri 272
Гульмира Усенова
Реализация концепта «мать/ана» в произведениях каракалпакского поэта И.Юсупова 277
Хакимова Мухайё Каримовна
Семантический анализ абстрактных имён в узбекском языке 282
Абдурахманова Нилуфар Ибодовна
Формирование фонетико-фонологических взглядов в узбекском языкознании в 20-30-ые годы XX века 290
Сариев Санъат Матчонбоевич
Лингвопоэтические особенности рукописных экземпляров эпоса “Гороглы”..... 296
Təranə Xəlilova
Azərbaycan dilinin xarici dil kimi tədrisində istifadə edilən üsullar 306

ƏDƏBİYYATŞÜNASLIQ

Dilbər Zenyalova
Etnopoetika ədəbi-bədii nümunələrin universal
təhlil üsulu kimi 310
Исахан Исаханлы
Есенин на страницах газеты «Труд» (1924-1926 годы) 322
Ramil Əliyev
Lətifə janrının tədrisi və təhlili haqqında 328
Tural Mirzəliyev
Əhməd bəy Ağaoğlu ədəbiyyatşünas kimi 335
Airəsdə Allahverdiyeva
Şəmkir aşıq mühiti 343
Севиндж Иманова
Осмысление понятий добра и зла в
мировоззрении Ф.М.Достоевского 348
Nailə Quliyeva
Mətanət Ibrahimova
Məhəbbət və mənəviyyat 353
Anar Eyvazov
Klassik ərəb ədəbiyyatı söz sənətinin inkişafinda ticari
bazarların rolu 358
Mahirə Hacıyeva
İngilis dilinin tədrisində kütləvi informasiya
vasitələrindən istifadə 363
Sakibə Ələsgərova
M.Ibrahimovun “Cənub hekayələri”ndə Azadin arzuladığı
gün uğrunda ədəbi-bədii və ictimai-siyasi mübarizə 367
Təranə Rəhimli
«Dəli Kür» romanı çağdaş linqvistik tənqid müstəvisində 373
Vəfa Bağırova
Xarici oxu öyrədilməsinin psixoloji əsasları 378
Ülviyyə Səmədova
S.Vurğunun «Vagif» draminda özünüifşa məqamları 383
Aygül Qurbanova
Elçinin “Nağıllar” silsiləsi 387

Könül Heydərova
Nəriman Nərimanovun "Nadir Şah"
faciəsində zadəgan obrazları 393
Şərqiyyə Əhmədova
Dəyişən zamanda dəyişməyən etnik
təfəkkür-Cahandar Ağa obrazında 398
Qönçə Hacıyeva
Tapşırıq əsaslı yanaşmadan istifadə edərək tələbələrin
şifahi nitq ünsiyyətinin inkişaf etdirilməsi yolları 404
Xuraman Hümmətova
Şah İsmayıl Xətai: siyasi-poetik özünüdərkin
qızılbaşlıq modeli 410
Дильшад Гаипов
Место агахи в литературе востока 420
Холова Мафтуна
Фахриёр шеърларида лирик қаҳрамон тасвири 429
Надежда Локтева
Семья и «Семейная хроника» в творчестве
Ирвина Шоу 435
Babanazarova Sohiba
Student of the faculty Uzbek language and literature of the
tashkent state pedagogical university named after Nizami
lingual-poetics of the riddles 440
Тоҳиров Собиржон Қобилович
ф. ф. н., доцент, самду катта илмий ходими
Низомий Ганжавийнинг сўнгги достони ҳақида 444
Олимова Зарина Ахадовна
исследователь кафедры узбекского филологии
Бухарского Государственного Университета
Узбекистан
Критические взгляды Х.Якубова об Айбеке 451
А.Ф.Гахраманова
Бакинский Славянский Университет воспитание чувств
По Ле Карре 455
Pərixanım Soltanqızı
Abay yaradıcılığına Azərbaycan folkloru və yazılı
ədəbiyyatının təsiri 463

Heydər Cəfərov
Zenfira Qədirova
Sirli məqalənin açarı 468
Yucəl Karauz
Yolu Bakıdan keçərkən tarix yazanlar 473

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 3

«Elm və Təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Yığılmağa verilmiş **25.03.2013.**
Çapa imzalanmış **24.04.2013.**
Şərti çap vərəqi 30 Sifariş **№ 130.**
Kağız formatı **70x100 1/16.** Tiraj **500.**

Kitab «Elm və Təhsil» **nəşriyyat-poliqrafiya müəssisəsində səhifələnib çap olunmuşdur.**
E-mail: nurlan1959@gmail.com

Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.